

*Bundan sonra Azərbaycan xalqı müzəffər xalq kimi əbədi yaşayacaq, bundan sonra bizim dövlətimiz qalib dövlət kimi yaşayacaq. Bu, böyük xoşbəxtlikdir - hamımız üçün, Azərbaycanda yaşayanlar, Azərbaycan vətəndaşları üçün, xaricdə yaşayan azərbaycanlılar üçün. Bu tarixi missiyanı həyata keçirən bizim qəhrəman övladlarımız tarix qarşısında, xalq qarşısında, Vətən qarşısında misilsiz xidmətlər göstərmişlər. Müstəqillik dövründə yetişən gənclər, vətənpərvərlik ruhunda yetişən gənclər bu tarixi hadisəni, tarixi müjdəni Azərbaycan xalqına bəxş etmişlər.*

**İLHAM ƏLİYEV**

*Azərbaycan Respublikasının Prezidenti*

ISSN 2309-1347

Azərbaycan Respublikasının Prezidenti yanında
Dövlət İdarəçilik Akademiyası

# DÖVLƏT İDARƏÇİLİYİ:
## NƏZƏRİYYƏ VƏ TƏCRÜBƏ

**2022**
**2 (78)**

**DÖVLƏT İDARƏÇİLİK AKADEMİYASI**
**BAKI – 2022**

*Demokratik cəmiyyətdə dövlət idarəçiliyinin, yerli özünüidarəetmənin nəzəriyyəsi və təcrübəsi üzrə tədqiqatlar*

**REDAKSİYA ŞURASI:** ***Samir Nuriyev*** *(sədr)*

***Anar Ələkbərov, Fərəh Əliyeva, Kərəm Həsənov, Zeynal Nağdəliyev, Fuad Ələsgərov, Hikmət Hacıyev, Şahmar Mövsümov, Natiq Əmirov, Urxan Ələkbərov***

**REDAKSİYA HEYƏTİ:** ***Urxan Ələkbərov***
*(redaktor)*

***Əlikram Abdullayev***
*(redaktor müavini)*

***Elman Nəsirov***
*(məsul katib)*

***Əli Nuriyev, Namiq Əliyev, Ziyafət Həbibova, Elçin Əhmədov, İsaxan Vəliyev, Xatirə Hüseynova, Gülnarə Qurbanova, Rəcəb Rəhimli, Sevil Məmmədova, Firdovsiyyə Əhmədova, Yusif Ağayev***

*Elmi-nəzəri jurnal 2003-cü ildən nəşr olunur. İldə dörd dəfə çıxır.*

*Jurnal AAK-ın rəsmi qeydiyyatdan keçirilmiş və elmi nəşrlər siyahısına daxil edilmişdir.*

*Dövlət idarəçiliyi: nəzəriyyə və təcrübə.*
*Elmi-nəzəri jurnal. 2022, №2(78).*
*Bakı, Dövlət İdarəçilik Akademiyasının (DİA) nəşri, 2022, 272s.*

*© Dövlət İdarəçilik Akademiyası, 2022*

ISSN 2309-1347

The Academy of Public Administration
under the President of the Republic of Azerbaijan

# PUBLIC ADMINISTRATION:
## THEORY AND PRACTICE

2022
2 (78)

ACADEMY OF PUBLIC ADMINISTRATION

BAKU – 2022

*Research Dedicated to the Theory and Practice of Public Administration and Application of Decentralized Governance in Democratic Society*

**EDITORIAL COUNCIL:** ***Samir Nuriyev*** *(chairman)*

***Anar Alakbarov, Farah Aliyeva, Karam Gasanov, Zeynal Naghdaliyev, Fuad Alasgarov, Hikmat Hajiyev, Shahmar Movsumov, Natiq Amirov, Urkhan Alakbarov***

**EDITORIAL BOARD:** ***Urkhan Alakbarov***
*(editor-in-chief)*

***Alikram Abdullayev***
*(deputy editor)*

***Elman Nasirov***
*(executive secretary)*

***Ali Nuriyev, Namiq Aliyev, Ziyafet Habibova, Elchin Ahmadov, Isakhan Valiyev, Khatira Huseynova, Gulnara Gurbanova, Rajab Rahimli, Sevil Mammadova, Firdovsiyya Ahmadova, Yusif Agayev***

*Journal of Public Administration: theory and practice is published since 2003. Quarterly.*

*The journal is officially registered at the Supreme Attestation Commission (SAC) and is included in the register of national scientific publications.*

*Public Administration: theory and practice*
*Scientific and theoretical journal. 2022, №2(78)*
*Baku, Publication of Academy of Public Administration (APA), 2022, 272p.*

*© Academy of Public Administration, 2022*

# AZƏRBAYCAN RESPUBLİKASININ PREZİDENTİ İLHAM ƏLİYEVİN FƏALİYYƏTİNİN QISA XRONİKASI

*Aprel - may - iyun 2022-ci il*

## Aprel

**1 aprel**
- Əlamətdar yubiley – Azərbaycan Respublikası ilə Rusiya Federasiyası arasında diplomatik münasibətlərin qurulmasının 30 illiyi münasibətilə Rusiya Federasiyasının Prezidenti Vladimir Putini təbrik etmişdir.

**2 aprel**
- İtaliya Respublikasının xarici işlər və beynəlxalq əməkdaşlıq naziri Luici Di Maionun başçılıq etdiyi nümayəndə heyətini qəbul etmişdir.

**4 aprel**
- Avropa Şurasının Baş katibi xanım Mariya Peyçinoviç Buriçin rəhbərlik etdiyi nümayəndə heyətini qəbul etmişdir.
- İtkin düşmüş şəxslər üzrə Beynəlxalq Komissiyanın baş direktoru xanım Katrin Bombergeri qəbul etmişdir.
- Azərbaycan Respublikası ilə İsrail Dövləti arasında diplomatik münasibətlərin qurulmasının 30 illiyi ilə əlaqədar İsrail Dövlətinin Prezidenti İsxak Hersoqu təbrik etmişdir

**5 aprel**
- İsrail-Azərbaycan Hökumətlərarası Birgə Komissiyasının həmsədri, İsrailin turizm naziri Yoel Razvozovu qəbul etmişdir.
- Ölkəsində keçirilmiş parlament seçkilərində başçılıq etdiyi koalisiyanın yenidən qələbə qazanması münasibətilə Macarıstanın Baş naziri Viktor Orbanı təbrik etmişdir.
- Serbiya Respublikasının Prezidenti vəzifəsinə yenidən seçilməsi münasibətilə Prezident Aleksandar Vuçiçi təbrik etmişdir
- Amerika Birləşmiş Ştatlarının Dövlət Katibi Antoni Blinken ona telefonla zəng edərək, aprelin 6-da Brüsseldə Avropa İttifaqının dəstəyi ilə Ermənistan və Azərbaycan arasında liderlər səviyyəsində keçiriləcək görüşə ABŞ-ın önəm verdiyini bildirmiş, həmçinin qarşılıqlı maraq doğuran digər məsələlər barəsində fikir mübadiləsi aparmışdır.

**6 aprel**
- Avropa İttifaqı Şurasının Prezidenti Şarl Mişelin dəvəti ilə Belçika Krallığının paytaxtı Brüsselə işgüzar səfərə gəlmişdir.
- Brüsseldə Avropa İttifaqı Şurasının Prezidenti Şarl Mişel ilə təkbətək görüşü keçirilmişdir.
- Brüsseldə Avropa İttifaqı Şurasının Prezidenti Şarl Mişel və Ermənistan Respublikasının baş naziri Nikol Paşinyan ilə işçi nahar formasında görüşü olmuşdur.

**7 aprel**
- Türkiyə Respublikasının Prezidenti Rəcəb Tayyib Ərdoğana telefonla zəng edərək, aprelin 6-da Avropa İttifaqı Şurasının Prezidenti Şarl Mişelin təşəbbüsü və iştirakı ilə Avropa İttifaqı, Azərbaycan və Ermənistan arasında Brüsseldə keçirilmiş üçtərəfli görüş haqda onunla söhbət aparmış, eyni zamanda görüşün nəticələrini müsbət qiymətləndirdiyini bildirmişdir.

**8 aprel**
- Macarıstanda keçirilmiş Güləş üzrə Avropa çempionatında iştirak edən Azərbaycan millisinin üzvlərini qəbul etmişdir.

**9 aprel**
- Rusiya Federasiyasının Prezidenti Vladimir Putinə telefonla zəng edərək, Ermənistan və Azərbaycan arasında postmünaqişə dövründə münasibətlərin normallaşdırılması məsələlərinə və aprelin 6-da Brüsseldə keçirilmiş görüşə dair fikir mübadiləsi aparmışdır.

**11 aprel**
- Dini Qurumlarla İş üzrə Dövlət Komitəsinin tabeliyində fəaliyyət göstərən Azərbaycan İlahiyyat İnstitutunun yeni binasının açılışında iştirak etmişdir.

**12 aprel**
- Onun sədrliyi ilə keçirilən bu ilin birinci rübünün yekunlarına həsr olunan müşavirədə giriş və yekun nitqi söyləmişdir.

**14 aprel**
- Ölkəmizdə rəsmi səfərdə olan Albaniyanın Baş naziri Edi Rama ilə təkbətək görüşü olmuşdur.
- Pakistan İslam Respublikasının Baş naziri vəzifəsinə seçilməsi münasibətilə Baş nazir Şahbaz Şərifi təbrik etmişdir.

**15 aprel**
- Gürcüstanın Baş nazirinin müavini, iqtisadiyyat və davamlı inkişaf naziri Levan Davitaşvilini qəbul etmişdir.
- Birləşmiş Ərəb Əmirliklərinin sənaye və qabaqcıl texnologiyalar naziri, Abu-Dabi Milli Neft Şirkətinin idarəedici direktoru, BƏƏ-nin iqlim dəyişikliyi üzrə

xüsusi nümayəndəsi, “Masdar” şirkətinin sədri Sultan Əhməd Əl Caberi qəbul etmişdir.

**19 aprel**

- Avropa İttifaqının Cənubi Qafqaz üzrə xüsusi nümayəndəsi Toivo Klaarın başçılıq etdiyi nümayəndə heyətini qəbul etmişdir.
- Kuba Respublikasının Azərbaycan Respublikasında yeni təyin olunmuş fövqəladə və səlahiyyətli səfiri Karlos Enrike Valdes de la Konsepsyonun etimadnaməsini qəbul etmişdir.
- Misir Ərəb Respublikasının Azərbaycan Respublikasında yeni təyin olunmuş fövqəladə və səlahiyyətli səfiri Hişam Mohamed Nağı Abdel Həmidin etimadnaməsini qəbul etmişdir.
- Birləşmiş Ərəb Əmirliklərinin (BƏƏ) Azərbaycan Respublikasında yeni təyin olunmuş fövqəladə və səlahiyyətli səfiri Məhəmməd Əl Bluşinin etimadnaməsini qəbul etmişdir.
- Azərbaycan Respublikası ilə Fələstin Dövləti arasında diplomatik münasibətlərin qurulmasının 30 illiyi ilə əlaqədar Fələstin Dövlətinin Prezidenti Mahmud Abbası təbrik etmişdir

**20 aprel**

- Rəsmi qarşılanma mərasimindən sonra Qırğız Respublikasının Prezidenti Sadır Japarov ilə təkbətək görüşü olmuşdur.
- Qırğız Respublikasının Prezidenti Sadır Japarov ilə geniş tərkibdə görüşü keçirilmişdir.
- Bakıda geniş tərkibdə görüş başa çatdıqdan sonra Qırğız Respublikasının Prezidenti Sadır Japarovun iştirakı ilə Azərbaycan-Qırğızıstan sənədlərinin imzalanması mərasimində iştirak etmişdir.
- Sənədlərin imzalanması mərasimində Qırğız Respublikasının Prezidenti Sadır Japarov ilə birlikdə “Azərbaycan Respublikası və Qırğız Respublikası arasında Strateji Tərəfdaşlıq haqqında Bəyənnamə”ni və “Azərbaycan Respublikası və Qırğız Respublikasının Dövlətlərarası Şurasının yaradılması haqqında Memorandum”u imzalamışdır.
- Sonra Qırğız Respublikasının Prezidenti Sadır Japarov ilə birlikdə mətbuata bəyanatla çıxış etmişdir.
- Onun və xanımı Mehriban Əliyevanın adından Qırğız Respublikasının Prezidenti Sadır Japarov və xanımı Ayqul Japarovanın şərəfinə verilən rəsmi ziyafətdə iştirak etmişdir.

**22 aprel**

- Şuşa şəhərində keçirilən Dünya Azərbaycanlılarının V Qurultayı – Zəfər Qurultayında iştirak etmiş və geniş nitq söyləmişdir.
- Müqəddəs Pasxa bayramı münasibətilə Azərbaycanın pravoslav və bütün xristian icmasını təbrik etmişdir.

**25 aprel**

- İsrailin maliyyə naziri Aviqdor Libermanı qəbul etmişdir.
- Rusiya Federasiyasının Həştərxan vilayətinin qubernatoru İqor Babuşkinin rəhbərlik etdiyi nümayəndə heyətini qəbul etmişdir.
- Rusiya Federasiyasının Xarici İşlər Nazirliyinin Azərbaycan-Ermənistan münasibətlərinin normallaşması üzrə xüsusi nümayəndəsi İqor Xovayevi qəbul etmişdir.
- Fransa Respublikasının Prezidenti vəzifəsinə yenidən seçilməsi münasibətilə Prezident Emmanuel Makronu təbrik etmişdir

**26 aprel**

- Rusiya Federasiyasının Baş nazirinin müavini Aleksey Overçuku qəbul etmişdir.
- Ümumdünya Səhiyyə Təşkilatının (ÜST) Avropa üzrə regional direktoru Hans Henri Klugeni qəbul etmişdir.
- Latviya Respublikasının Baş nazirinin müavini, müdafiə naziri Artis Pabriksi qəbul etmişdir.

**27 aprel**

- Gürcüstanın xarici işlər naziri İliya Darçiaşvilini qəbul etmişdir.
- Amerika Birləşmiş Ştatlarının (ABŞ) Dövlət katibi köməkçisinin Qafqaz məsələləri, regional münaqişələr və Cənubi Avropa məsələləri üzrə müavini Erika Olsonun başçılıq etdiyi nümayəndə heyətini qəbul etmişdir.

**28 aprel**

- NATO Baş katibinin Qafqaz və Mərkəzi Asiya üzrə xüsusi nümayəndəsi Xavyer Kolominanı qəbul etmişdir.
- “Azərbaycan Xəzər Dəniz Gəmiçiliyi” Qapalı Səhmdar Cəmiyyətinin (ASCO) sifarişi ilə Bakı gəmiqayırma zavodunda inşa olunan “Ro-Pax” tipli “Zərifə Əliyeva” gəmi-bərəsinin istismara verilməsi mərasimində iştirak etmişdir.

**29 aprel**

- ADA Universitetində keçirilən “Cənubi Qafqaz: İnkişaf və əməkdaşlıq” mövzusunda beynəlxalq konfransda iştirak etmiş və giriş nitqi söyləmişdir.
- Sonra konfransın sual-cavab sessiyasına iştirak etmiş, iştirakçıların suallarını cavablandırmışdır
- Ölkəsinin milli bayramı – Konstitusiya Günü münasibətilə Polşa Respublikasının Prezidenti Andjey Duda təbrik etmişdir.
- Ölkəsinin milli bayramı – Müstəqillik Günü münasibətilə İsrail Dövlətinin Prezidenti İsxak Hersoqu təbrik etmişdir.

**30 aprel**

- Dünya Turizm Təşkilatının Baş katibi Zurab Pololikaşvilini qəbul etmişdir.
- Xüsusi Təyinatlı Qüvvələrin yaradılmasının 23-cü ildönümü münasibətilə Müdafiə Nazirliyinin Xüsusi Təyinatlı Qüvvələrinin “N” saylı hərbi hissəsində olmuş və hərbi hissənin şəxsi heyəti qarşısında çıxış etmişdir.

## May

**1 may**
- Sosial şəbəkə hesablarında Müqəddəs Ramazan bayramı ilə əlaqədar paylaşım etmişdir.

**2 may**
- Fransa Respublikasının Xarici İşlər Nazirliyinin Şərq Tərəfdaşlığı üzrə səfiri Bris Rokföyü qəbul etmişdir.
- Birinci xanım Mehriban Əliyeva ilə birlikdə Bakının Sabunçu rayonunda şəhid ailələri və müharibə əlilləri üçün nəzərdə tutulan yeni yaşayış kompleksinin açılışında iştirak etmişdir.
- Birinci xanım Mehriban Əliyeva ilə birlikdə kompleksdəki uşaq bağçasında yaradılan şəraitlə tanış olmuşdur.
- Sonra Birinci xanım Mehriban Əliyeva ilə birlikdə Vətən müharibəsində şəxsi igidliyinə və şücaətinə görə "Füzulinin azad olunmasına görə", "Vətən uğrunda" və "Cəsur döyüşçü" medalları ilə təltif edilmiş şəhid Mahir Məmmədovun ailəsinin qonağı olmuş, şəhidin ailə üzvləri ilə söhbət etmişdir.
- Birinci xanım Mehriban Əliyeva ilə birlikdə Heydər Əliyev Fondunun təşəbbüsü ilə Bakının Sabunçu rayonunun Kürdəxanı qəsəbəsində inşa olunan 304 nömrəli tam orta məktəbin açılışında iştirak etmişdir.
- Sonra Birinci xanım Mehriban Əliyeva ilə birlikdə məktəb binasında yaradılan şəraitlə tanış olmuşdur.
- Türkiyə Respublikasının Prezidenti Rəcəb Tayyib Ərdoğan ilə telefon danışığı olmuş, Müqəddəs Ramazan bayramı münasibətilə qarşılıqlı olaraq bir-birini təbrik etmiş, qardaş Azərbaycan və Türkiyə xalqlarına ən xoş arzularını çatdırmışdır.

**4 may**
- Vahid Hacıyevi Prezidentin Şərqi Zəngəzur iqtisadi rayonuna daxil olan Zəngilan rayonunda xüsusi nümayəndəsi təyin olunması ilə əlaqədar videoformatda qəbul etmişdir.
- Azərbaycan Respublikası ilə Macarıstan arasında əlamətdar tarix – diplomatik münasibətlərin qurulmasının 30-cu ildönümü münasibətilə Macarıstanın Baş naziri Viktor Orbanı təbrik etmişdir.

**6 may**
- BMT-nin Ərzaq və Kənd Təsərrüfatı Təşkilatının (FAO) baş direktoru Qu Donqyunu videoformatda qəbul etmişdir.

**9 may**
- Faşizm üzərində tarixi Qələbənin 77 illiyi münasibətilə iki dəfə Sovet İttifaqı Qəhrəmanı, tank qoşunları general-mayoru Həzi Aslanovun məzarını ziyarət edərək abidəsi önünə gül dəstəsi qoymuş, müharibədə həlak olan bütün Azərbaycan övladlarının xatirəsini ehtiramla anmışdır.
- Səudiyyə Ərəbistanı Krallığının Baş prokuroru Şeyx Səud bin Abdullah Əl Müacibin başçılıq etdiyi nümayəndə heyətini qəbul etmişdir.
- Ulu Öndər Heydər Əliyevin anadan olmasının 99-cu ildönümü ilə əlaqədar sosial media hesablarında üzərində Ümummilli Lider Heydər Əliyevin "Azərbaycan mənim ürəyimdir! Azərbaycan mənim nəfəsimdir! Azərbaycan mənim həyatımdır!" sözlərinin qeyd edildiyi fotonu paylaşmışdır.

**10 may**
- Xalqımızın xilaskar oğlu Heydər Əliyevin anadan olmasının 99-cu ildönümü günündə Birinci xanım Mehriban Əliyeva və ailə üzvləri ilə birlikdə Fəxri xiyabana gələrək Ümummilli Liderin məzarını ziyarət etmişdir.
- Ümummilli Lider Heydər Əliyevin məzarı önünə əklil qoymuş, Ulu Öndərin xatirəsini ehtiramla anmışdır.
- Birinci xanım Mehriban Əliyeva və ailə üzvləri də Ulu Öndər Heydər Əliyevin məzarı önünə gül dəstələri qoymuşdur.
- Sonra Birinci xanım Mehriban Əliyeva və ailə üzvləri ilə birlikdə Ulu Öndərin ömür-gün yoldaşı, görkəmli oftalmoloq-alim, akademik Zərifə xanım Əliyevanın xatirəsini yad edərək məzarı üzərinə gül dəstələri qoymuşdur.
- Daha sonra Birinci xanım Mehriban Əliyeva və ailə üzvləri ilə birlikdə görkəmli dövlət xadimi Əziz Əliyevin və tanınmış həkim-alim Tamerlan Əliyevin məzarları üzərinə gül dəstələri düzmüşdür.
- Birinci xanım Mehriban Əliyeva ilə birlikdə Füzuli rayonuna səfər etmişdir.
- Birinci xanım Mehriban Əliyeva ilə birlikdə əvvəlcə Füzuli şəhərində inşa olunacaq Peşə Liseyinin təməlinin qoyulması mərasimində iştirak etmişdir.
- Birinci xanım Mehriban Əliyeva ilə birlikdə Füzuliyə səfərləri çərçivəsində şəhərdə yeni yaradılacaq mərkəzi park kompleksinin ərazisində ağac əkmişdir.
- Birinci xanım Mehriban Əliyeva ilə birlikdə 180 çarpayılıq Füzuli Rayon Mərkəzi Xəstəxanasının təməlinin qoyulması mərasimində iştirak etmişdir.
- Birinci xanım Mehriban Əliyeva ilə birlikdə Şuşa şəhərində də səfərdə olmuşdur.
- Birinci xanım Mehriban Əliyeva ilə birlikdə Şuşa şəhərdəki inzibati binada aparılan son tamamlama və binanın ətrafında həyata keçirilən abadlıq işləri tanış olmuşdur.
- Sonra Birinci xanım Mehriban Əliyeva ilə birlikdə Şuşadakı Şirin su hamamında aparılan bərpa işləri ilə tanış olmuşdur.
- Birinci xanım Mehriban Əliyeva ilə birlikdə Şuşada məşhur tarzən, bəstəkar və Azərbaycan tarını təkmilləşdirən sənətkar Sadıqcanın vaxtilə yaşadığı evin bərpası işləri ilə tanış olmuşdur.
- Birinci xanım Mehriban Əliyeva ilə birlikdə Şuşada Mehmandarovların malikanə kompleksində aparılan bərpa işlərinin hazırkı mərhələsi ilə tanış olmuşdur.
- Birinci xanım Mehriban Əliyeva ilə birlikdə Şuşaya səfər çərçivəsində "Shusha Boutique Hotel"in yerləşəcəyi ərazidə olmuşdur.

- Birinci xanım Mehriban Əliyeva ilə birlikdə Şuşa Realnı Məktəbində həyata keçiriləcək təmir-bərpa işləri ilə də tanış olmuşdur.
- Şuşa şəhərində “Azərişıq” ASC-nin Şuşa Rəqəmsal İdarəetmə Mərkəzinin açılışında iştirak etmişdir.
- “Azərişıq” ASC-nin Şuşa Rəqəmsal İdarəetmə Mərkəzini işə salandan sonra şəhərdəki inzibati binanın qarşısında müraciət etmişdir.

**11 may**
- Amerika Birləşmiş Ştatlarının (ABŞ) Dövlət katibi Antoni Blinken ona zəng edərək, Ulu Öndər Heydər Əliyevin anadan olmasının 99-cu ildönümü münasibətilə təbriklərini çatdırmış, həmçinin bu yaxınlarda Birləşmiş Ştatların Dövlət Departamentinin və ABŞ-ın Cənubi Qafqazın üç ölkəsində fəaliyyət göstərən səfirlərinin Azərbaycana səfər etdiklərini və səfər zamanı səmərəli müzakirələrin aparıldığını qeyd etmişdir.

**12 may**
- Birinci xanım Mehriban Əliyeva ilə birlikdə Azərbaycanın mədəniyyət paytaxtı Şuşa şəhərində V “Xarıbülbül” Beynəlxalq Folklor Festivalının açılışında iştirak etmişdir.

**13 may**
- Görkəmli dövlət xadimi, Birləşmiş Ərəb Əmirliklərinin Prezidenti Şeyx Xəlifə bin Zayed Al Nəhyanın vəfatı ilə əlaqədar Birləşmiş Ərəb Əmirliklərinin Vitse-prezidenti, Baş naziri və Dubay Əmiri Əlahəzrət Şeyx Məhəmməd bin Rəşid Al Məktuma başsağlığı vetmişdir.
- Qardaşınız – böyük şəxsiyyət, Birləşmiş Ərəb Əmirliklərinin Prezidenti Şeyx Xəlifə bin Zayed Al Nəhyanın vəfatı ilə əlaqədar Əbu-Dabi Əmirliyinin Vəliəhdi, Birləşmiş Ərəb Əmirlikləri Silahlı Qüvvələrinin Ali Baş Komandanının müavini Əlahəzrət Şeyx Məhəmməd bin Zayed Al Nəhyana başsağlığı vermişdir.

**14 may**
- Türkiyə Respublikasının Prezidenti Rəcəb Tayyib Ərdoğanın dəvəti ilə qardaş ölkəyə işgüzar səfərə gəlmişdir.
- Türkiyə Respublikasının Prezidenti Rəcəb Tayyib Ərdoğan ilə birlikdə Rize-Artvin Hava Limanının açılış mərasimində iştirak etmişdir.
- Əvvəlcə Türkiyə Respublikasının Prezidenti Rəcəb Tayyib Ərdoğan ilə görüşü olmuşdur.
- Türkiyənin Milliyyətçi Hərəkat Partiyasının sədri Dövlət Bağçalı ona Ulu Öndər Heydər Əliyevlə görüşlərini əks etdirən fotoları və üzərində “Qarabağ Fatehi” yazısı olan tapança hədiyyə etmişdir.
- Sonra Türkiyə Respublikasının Prezidenti Rəcəb Tayyib Ərdoğan ilə birlikdə Rize-Artvin Hava Limanının təntənəli açılış mərasimində iştirak və çıxış etmişdir.

**16 may**
- Özbəkistan Respublikası Ali Məclisinin Qanunvericilik Palatasının sədri Nurdinjon İsmoilovun başçılıq etdiyi nümayəndə heyətini qəbul etmişdir.
- Birləşmiş Ərəb Əmirliklərinin (BƏƏ) ölkəmizdəki səfirliyində olmuş, görkəmli dövlət xadimi, Birləşmiş Ərəb Əmirliklərinin Prezidenti Şeyx Xəlifə bin Zayed Al Nəhyanın vəfatı ilə əlaqədar başsağlığı vermişdir.

**17 may**
- İsrailin kənd təsərrüfatı və kənd yerlərinin inkişafı naziri Oded Foreri qəbul etmişdir.
- Birləşmiş Ərəb Əmirliklərinin Prezidenti vəzifəsinə seçilməsi münasibətilə Prezident Şeyx Məhəmməd bin Zayed Al Nəhyanı təbrik etmişdir.

**18 may**
- Rəsmi qarşılanma mərasimindən sonra Litva Respublikasının Prezidenti Gitanas Nauseda ilə görüşü olmuşdur.
- Litva Respublikasının Prezidenti Gitanas Nauseda ilə geniş tərkibdə görüşü olmuşdur.
- Litva Respublikasının Prezidenti Gitanas Nauseda ilə birlikdə mətbuata bəyanatla çıxış etmişdir.
- Onun və xanımı Mehriban Əliyevanın adından Litva Respublikasının Prezidenti Gitanas Nauseda və xanımı Diana Nausedienenin şərəfinə verilən rəsmi ziyafətdə iştirak etmişdir.
- Litva Respublikasının Prezidenti Gitanas Nauseda ilə birlikdə Bakıda, Heydər Əliyev Mərkəzində keçirilən Azərbaycan-Litva biznes forumunun açılışında iştirak və çıxış etmişdir.
- Sonra Litva Respublikasının Prezidenti Gitanas Nauseda ilə Azərbaycan-Litva sənədlərinin imzalanması mərasimində iştirak etmişdir.
- Azərbaycan-Litva sənədlərinin imzalanması mərasimindən sonra Litva Respublikasının Prezidenti Gitanas Nauseda ilə birlikdə Heydər Əliyev Mərkəzində klassik avtomobillərin sərgisi ilə tanış olmuşdur.

**19 may**
- Türkiyənin kənd təsərrüfatı və meşəçilik naziri Vahid Kirişçinin başçılıq etdiyi nümayəndə heyətini qəbul etmişdir.

**20 may**
- ICESCO-nun Baş direktoru Salim bin Məhəmməd əl-Maliki qəbul etmişdir.
- Azərbaycan Respublikası ilə Müqəddəs Taxt-Tac arasında diplomatik münasibətlərin qurulmasının 30 illiyi ilə əlaqədar Roma Papası Fransisk Həzrətlərini təbrik etmişdir.
- Azərbaycan Respublikasının Müstəqillik Günü münasibətilə Amerika Birləşmiş Ştatlarının Prezidenti Cozef R.Bayden onu təbrik etmişdir

**22 may**
- Avropa İttifaqı Şurasının Prezidenti Şarl Mişelin dəvəti ilə Belçika Krallığının paytaxtı Brüsselə işgüzar səfərə gəlmişdir.
- Brüsseldə Avropa İttifaqı Şurasının Prezidenti Şarl Mişel ilə təkbətək görüşü olmuşdur.
- Brüsseldə Avropa İttifaqı Şurasının Prezidenti Şarl Mişel və Ermənistan Respublikasının baş naziri Nikol Paşinyan ilə üçtərəfli görüşü olmuşdur.

**23 may**

- Türkiyə Respublikasının Prezidenti Rəcəb Tayyib Ərdoğana zəng edərək, Brüsseldə Avropa İttifaqı Şurasının prezidenti və Ermənistanın baş naziri ilə keçirilən üçtərəfli görüş zamanı Ermənistan və Azərbaycan arasında sülh müqaviləsinin hazırlanması, bu xüsusda Azərbaycan tərəfindən beynəlxalq hüquqa əsaslanan beş prinsipin təqdim olunması, iki ölkə arasında münasibətlərin normallaşdırılması, nəqliyyat dəhlizlərinin açılması, sərhədlərin delimitasiyası ilə bağlı məsələlərin müzakirə olunduğunu bildirmiş, eyni zamanda üçtərəfli görüşün nəticəsini müsbət qiymətləndirdiyini diqqətə çatdırmışdır.

**24 may**

- Özbəkistan Respublikasının Baş nazirinin müavini, turizm və mədəni irs naziri Aziz Abduhakimovu qəbul etmişdir.
- Türk Dövlətləri Təşkilatının Baş katibi Bağdad Amreyevi qəbul etmişdir.

**25 may**

- Estoniya Respublikası parlamentinin sədri Yuri Ratasın başçılıq etdiyi nümayəndə heyətini qəbul etmişdir.

**26 may**

- Birinci xanım Mehriban Əliyeva ilə birlikdə Füzuli rayonuna səfər etmişdir.
- Birinci xanım Mehriban Əliyeva ilə birlikdə Horadiz-Cəbrayıl-Zəngilan-Ağbənd avtomobil yolunun (Zəngəzur dəhlizi) tikintisi ilə tanış olmuşdur.
- Birinci xanım Mehriban Əliyeva ilə birlikdə Cəbrayıl rayonunda da səfərdə olmuşdur.
- Birinci xanım Mehriban Əliyeva ilə birlikdə Horadiz-Ağbənd dəmir yolu xəttinin Cəbrayıl rayonu ərazisində Soltanlı stansiyasının təməlqoyma mərasimində iştirak etmişdir.
- Birinci xanım Mehriban Əliyeva ilə birlikdə “Azərenerji” ASC-nin 330/110 kilovoltluq “Cəbrayıl” enerji qovşağının təməlqoyma mərasimində iştirak etmişdir.
- Birinci xanım Mehriban Əliyeva ilə birlikdə Zəngilan rayonuna da səfər etmişdir.
- Birinci xanım Mehriban Əliyeva ilə birlikdə Zəngilan Beynəlxalq Hava Limanında aparılan tikinti işlərinin gedişi ilə tanış olmuşdur.
- Birinci xanım Mehriban Əliyeva ilə birlikdə “Paşa Holding” MMC-nin dəstəyi ilə Heydər Əliyev Fondu tərəfindən inşa olunan Zəngilan məscidində tikinti işlərinin gedişi ilə tanış olmuşdur.
- Birinci xanım Mehriban Əliyeva ilə birlikdə İşğal və Zəfər muzeyləri kompleksinin təməlqoyma mərasimində iştirak etmişdir.
- Sonra Birinci xanım Mehriban Əliyeva ilə birlikdə Zəngilan şəhərinin Baş planı ilə tanış olmuşdur.
- Daha sonra Birinci xanım Mehriban Əliyeva ilə birlikdə “sa_partners” şirkətinin nümayəndələri ilə söhbət etmişdir.
- Birinci xanım Mehriban Əliyeva ilə birlikdə Oxçuçayın mənzərəsini seyr etmişdir.
- İsrail Dövlətinin Prezidenti İsxak Hersoq ona zəng edərək, qarşıdan gələn 28 May – Müstəqillik Günü münasibətilə təbriklərini çatdırmışdır.

**27 may**

- Birinci xanım Mehriban Əliyeva ilə birlikdə Zəngilan rayonunun Ağalı kəndində “Ağıllı kənd” layihəsinin birinci mərhələsi üzrə açılış mərasimdə iştirak etmişdir.
- Birinci xanım Mehriban Əliyeva ilə birlikdə əvvəlcə Ağalı kənd meydanı ilə tanış olmuşdur.
- Birinci xanım Mehriban Əliyeva ilə birlikdə kənd meydanında yaradılan, otuz ilə yaxın müddətdə işğal altında qalmış əzəli torpaqlarımızda sülhün əbədi təmin olunmasını təcəssüm etdirən göyərçin abidə-fəvvarə kompleksi ilə tanış olmuş, fəvvarəni işə salmışdır.
- Sonra Birinci xanım Mehriban Əliyeva ilə birlikdə kənd meydanında yaradılmış Dövlət Xidmətləri Mərkəzi ilə tanış olmuşdur.
- Birinci xanım Mehriban Əliyeva ilə birlikdə Ağalı kənd meydanında “Kapital Bank”ın Zəngilan filialı, kənd təsərrüfatı təyinatlı laboratoriyalar, baytarlıq və bitki mühafizə idarələri və digər ictimai iaşə obyektləri ilə də tanış olmuşdur.
- Birinci xanım Mehriban Əliyeva ilə birlikdə “golf car”la kəndin ərazisini gəzmiş, 5 nömrəli üçotaqlı evə baxmışdır.
- Birinci xanım Mehriban Əliyeva ilə birlikdə Ağalı kəndində “Gillmed” tikiş fabriki, ailə sağlamlıq mərkəzi (tibb məntəqəsi), uşaq bağçası və kənd orta məktəbi ilə də tanış olmuşdur.
- Birinci xanım Mehriban Əliyeva ilə birlikdə “Salam Doktor” platforması üzərindən əhaliyə xidmət göstərən azərbaycanlı həkimlərlə videobağlantı vasitəsilə söhbət etmişdir.
- Sonra Birinci xanım Mehriban Əliyeva ilə birlikdə Ağalı kəndinin sakinləri ilə görüşmüş və görüşdə çıxış etmişdir.
- Görüşdən sonra Birinci xanım Mehriban Əliyeva ilə birlikdə “Aqroservis” ASC tərəfindən təqdim edilən “ağıllı kənd təsərrüfatı” texnikaları ilə tanış olmuşdur.
- Daha sonra Birinci xanım Mehriban Əliyeva ilə birlikdə “Arximed” tipli hidroelektrik stansiya, alternativ enerjinin istehsalı üçün süni göl və 62 nömrədən ibarət otel kompleksində aparılan işlərlə tanış olmuşdur.
- Birinci xanım Mehriban Əliyeva ilə birlikdə Zəngilan rayonunda intensiv meyvə bağı ilə tanış olmuşdur.
- Sosial media hesablarında 28 May – Müstəqillik Günü münasibətilə üzərində “Müstəqilliyimiz əbədidir, dönməzdir, sarsılmazdır! Yaşasın güclü, müstəqil Azərbaycan!” sözlərinin yer aldığı fotonu paylaşmışdır.

**28 may**

- Türkiyə Respublikasının milli müdafiə naziri Hulusi Akarın başçılıq etdiyi nümayəndə heyətini qəbul etmişdir.
- Türkiyə Respublikasının Prezidenti Rəcəb Tayyib Ərdoğan ilə birlikdə 7 saylı Bakı "ASAN xidmət" mərkəzinin və "Bilim Bakı" mərkəzinin açılışında iştirak etmişdir.
- Türkiyə Respublikasının Prezidenti Rəcəb Tayyib Ərdoğan ilə birlikdə Bakıda ilk dəfə keçirilən "TEKNOFEST Azərbaycan" Aerokosmik və texnologiya festivalında iştirak etmişdir.
- Türkiyə Prezidenti Rəcəb Tayyib Ərdoğan və Nobel mükafatı laureatı professor Əziz Səncər ilə birlikdə festivalın müxtəlif müsabiqələr üzrə mükafatlandırma mərasimində iştirak etmiş, mükafatları qaliblərə təqdim etmişdir.
- Türkiyə Prezidenti Rəcəb Tayyib Ərdoğan və görkəmli alim Əziz Səncər ilə xatirə fotosu çəkdirmişdir.
- Türkiyə Prezidenti Rəcəb Tayyib Ərdoğan, birinci xanımlar Mehriban Əliyeva və Əminə Ərdoğan ilə birlikdə sərgi zonasındakı pavilyonlarla tanış olmuşdur.
- Sonra Türkiyə Respublikasının Prezidenti Rəcəb Tayyib Ərdoğan ilə görüşü olmuşdur.
- Daha sonra birinci xanım Mehriban Əliyeva, Türkiyə Respublikasının Prezidenti Rəcəb Tayyib Ərdoğan və xanımı Əminə Ərdoğan ilə birlikdə nahar yeməyində iştirak etmişdir.

**30 may**

- Moldova Respublikasının Prezidenti Maya Sandu ona zəng edərək, 28 May - Müstəqillik Günü münasibətilə onu və Azərbaycan xalqını təbrik etmiş və ən səmimi arzularını çatdırmışdır.

**31 may**

- ABŞ dövlət katibinin enerji diplomatiyası üzrə müavininin müşaviri Laura Loxmanı qəbul etmişdir.
- Rusiya Federasiyasının Prezidenti Vladimir Putinə zəng edərək, Rusiya, Azərbaycan və Ermənistan liderlərinin 2020-ci il 9 noyabr, 2021-ci il 11 yanvar və 26 noyabr tarixli razılaşmalarının regionda dinc həyatın nizamlanması və sabitliyin möhkəmlənməsi, iqtisadi əlaqələrin və nəqliyyat kommunikasiyalarının bərpası ilə bağlı konkret məsələlərin həlli xüsusi qeyd olunmaqla icrasının gedişini müzakirə etmişdir.

## İyun

**1 iyun**

- Serbiya Baş nazirin müavini, mədən və energetika naziri Zorana Mixayloviçi qəbul etmişdir.
- Bakı Ekspo Mərkəzində, Bakı Enerji Həftəsi çərçivəsində 27-ci Beynəlxalq Xəzər Neft və Qaz Sərgisinin rəsmi açılış mərasimində iştirak və çıxış etmişdir.
- Bir neçə enerji tədbirini özündə birləşdirən, "Bakı Enerji Həftəsi"nin açılışı münasibətilə sərgi və forum iştirakçılarını təbrik etmişdir.

**2 iyun**

- Ölkəsinin milli bayramı – Təvəllüd Günü münasibətilə, eyni zamanda Platin Yubileyi – taxtda olmağının 70 illiyi ilə əlaqədar Böyük Britaniya və Şimali İrlandiyanın Kraliçası Ülyahəzrət II Elizabeti təbrik etmişdir.
- İtaliya Respublikasının milli bayramı münasibətilə İtaliya Respublikasının Prezidenti Sercio Mattarellanı təbrik etmişdir.

**6 iyun**

- Birinci xanım Mehriban Əliyeva ilə birlikdə Bakıda, bərpa və yenidənqurmadan sonra istifadəyə verilən "Şərq Bazarı" kompleksində yaradılan şəraitlə tanış olmuşdur.

**8 iyun**

- Paytaxtın Səbail rayonunda yeni salınmış "Çəmbərəkənd" parkında yaradılan şəraitlə tanış olmuşdur.
- Sonra yeni parkdan paytaxtın mənzərəsini seyr etmişdir.
- Rusiya Federasiyasının Dövlət bayramı – Rusiya Günü münasibətilə Prezident Vladimir Putinİ təbrik etmişdir.

**10 iyun**

- Bakıda "Azərişıq" ASC-nin 110/35/10 kilovoltluq yeni yarımstansiyasının və Rəqəmsal Şəbəkələrin Baş İdarəetmə Mərkəzinin açılışında iştirak etmişdir.
- Azərbaycan Respublikası ilə Türkmənistan arasında əlamətdar ildönümü – diplomatik münasibətlərin qurulmasının 30 illiyi ilə əlaqədar Türkmənistanın Prezidenti Sərdar Berdiməhəmmədovu təbrik etmişdir.

**14 iyun**

- Slovakiyada keçirilmiş minifutbol üzrə Avropa çempionatının qalibi olan milli komandamızın üzvlərini qəbul etmişdir.
- "Azərbaycan–Türkiyə strateji müttəfiqlik münasibətləri Qafqaz və region üçün sülh və sabitlik mənbəyidir" mövzusunda Şuşada keçirilən beynəlxalq konfransın iştirakçılarını təbrik etmişdir.

**15 iyun**

- ABŞ Dövlət katibinin Avropa və Avrasiya məsələləri üzrə köməkçisi Karen Donfridi qəbul etmişdir.
- Nizami Gəncəvi Beynəlxalq Mərkəzinin həmsədrləri Vayra Vike-Freyberqanı və İsmail Serageldini, keçmiş dövlət və hökumət başçılarını, Mərkəzin İdarə Heyətinin üzvlərini qəbul etmişdir.

**16 iyun**

- Onun himayəsi altında və Nizami Gəncəvi Beynəlxalq Mərkəzinin təşkilatçılığı ilə "Qlobal dünya nizamına

təhdidlər" mövzusunda IX Qlobal Bakı Forumunun açılış mərasimində iştirak etmiş və nitq söyləmişdir.
- Gürcüstan Prezidenti xanım Salome Zurabişvili ilə görüşmüşdür.
- Albaniya Respublikasının Prezidenti İlir Meta ilə görüşmüşdür.
- Bosniya və Herseqovinanın Rəyasət Heyətinin Sədri Şefik Caferoviç ilə görüşmüşdür.
- Türkiyə Respublikasının sabiq Baş naziri Binəli Yıldırımı qəbul etmişdir.
- Ümumdünya Səhiyyə Təşkilatının Baş direktoru Tedros Adhanom Qebreyesusu qəbul etmişdir.
- İtaliya Respublikasının Prezidenti Sercio Mattarella "Qlobal dünya nizamına təhdidlər" mövzusunda keçirilən IX Qlobal Bakı Forumu ilə bağlı ona məktub ünvanlamışdır.

**17 iyun**
- Səudiyyə Ərəbistanının Kral Faysalın İslam Araşdırmalar Mərkəzinin İdarə Heyətinin sədri Şahzadə Türki Al Faysal Al Saudu qəbul etmişdir.
- BMT Baş katibinin müavini və BMT-nin Cenevrədəki bölməsinin baş direktoru Tatyana Valovayanı qəbul etmişdir.
- Ərəb Dövlətləri Liqasının Baş katibi, Misirin sabiq xarici işlər naziri Əhməd Əbul Qeyti qəbul etmişdir.
- İsrailin sabiq Baş naziri Ehud Barakı qəbul etmişdir.
- Xorvatiyanın sabiq Prezidenti Kolinda Qrabar-Kitaroviçi qəbul etmişdir.
- Ölkəmizdə işgüzar səfərdə olan Venesuela Bolivar Respublikasının Prezidenti Nikolas Maduro ilə videokonfrans formatında görüşmüşdür.

**21 iyun**
- Özbəkistan Respublikasına dövlət səfərinə gəlmişdir.
- Daşkənddə, Özbəkistan Respublikasının Prezidenti Şavkat Mirziyoyev ilə birlikdə Heydər Əliyev Meydanının açılış mərasimində iştirak və çıxış etmişdir.
- Daşkənddə, Özbəkistan Respublikasının Prezidenti Şavkat Mirziyoyev ilə birlikdə Müstəqillik abidəsini ziyarət etmiş, abidənin önünə əklil qoymuşdur.
- Daşkənddə, "Kuksaroy" dövlət iqamətgahında rəsmi qarşılanma mərasimindən sonra Özbəkistan Respublikasının Prezidenti Şavkat Mirziyoyev ilə məhdud tərkibdə görüşü olmuşdur.
- Özbəkistan Respublikasının Prezidenti Şavkat Mirziyoyev ilə geniş tərkibdə görüşü olmuşdur.
- Geniş tərkibdə görüş başa çatdıqdan sonra Özbəkistan Respublikasının Prezidenti Şavkat Mirziyoyev ilə Azərbaycan-Özbəkistan sənədlərinin imzalanması mərasimində iştirak etmiş, "Azərbaycan Respublikası ilə Özbəkistan Respublikası arasında strateji tərəfdaşlığın dərinləşdirilməsi və hərtərəfli əməkdaşlığın genişləndirilməsi haqqında Bəyannamə"ni imzalamışdır.
- Sənədlərin imzalanması mərasimi başa çatdıqdan sonra Özbəkistan Respublikasının Prezidenti Şavkat Mirziyoyev ilə birlikdə mətbuata bəyanatla çıxış etmişdir.
- Daşkənddə, Özbəkistan Respublikasının Prezidenti Şavkat Mirziyoyev ilə birlikdə "TEXNOPARK" MMC-nin fəaliyyəti ilə tanış olmuşdur.
- Özbəkistan Respublikasının Prezidenti Şavkat Mirziyoyev ilə "Kuksaroy" dövlət iqamətgahında Fəxri qonaqlar xiyabanında ağac əkmişdir.
- "Kuksaroy" dövlət iqamətgahında Özbəkistan Respublikasının Prezidenti Şavkat Mirziyoyevin adından onun şərəfinə verilmiş rəsmi ziyafət və konsert proqramında iştirak etmişdir.

**22 iyun**
- Daşkənddən Özbəkistanın Ürgənc şəhərinə gəlmişdir.
- Özbəkistan Respublikasının Prezidenti Şavkat Mirziyoyev ilə Xivə şəhərində İçan-Qala Dövlət Tarixi Memarlıq Muzeyi ilə tanış olmuşdur.
- Özbəkistan Respublikasının Prezidenti Şavkat Mirziyoyev ilə Xivə şəhərində "Nurullaboy" saray kompleksi ilə tanış olublar.
- Xivə şəhərində Özbəkistan Respublikasının Prezidenti Şavkat Mirziyoyev tərəfindən onun şərəfinə təşkil edilmiş qəbulda iştirak etmişdir.
- Qəbul zamanı təqdim olunmuş konsert proqramında incəsənət ustalarının çıxışlarını dinləmiş, onlarla söhbət etmişdir.
- Sonda Özbəkistan Respublikasının Prezidenti Şavkat Mirziyoyev və incəsənət ustaları ilə xatirə şəkli çəkdirmişdir.
- Özbəkistan Respublikasına dövlət səfəri başa çatmış, Ürgənc şəhərinin Beynəlxalq Hava Limanında Özbəkistan Respublikasının Prezidenti Şavkat Mirziyoyev onu yola salmışdır.

**23 iyun**
- Azərbaycan Respublikası Hökuməti və Rumıniya Hökuməti arasında ticarət-iqtisadi əlaqələr və elmi-texniki əməkdaşlıq üzrə Müştərək Komissiyanın həmsədri, Rumıniyanın energetika naziri Virgil-Daniel Popeskunu, kənd təsərrüfatı və kənd yerlərinin inkişafı naziri Adrian-İonuts Kesnoyunu və Rumıniya Prezidentinin strateji layihələr üzrə xüsusi nümayəndəsi Ana Birçalı qəbul etmişdir.
- Rusiya Federasiyasının xarici işlər naziri Sergey Lavrovu qəbul etmişdir.

**24 iyun**
- BP qrupunun baş icraçı direktoru Bernard Lunini qəbul etmişdir.

**26 iyun**
- Göygöl, Kəlbəcər və Laçın rayonlarına səfər etmişdir.
- Əvvəlcə Göygöl rayonunda Toğanalı-Kəlbəcər avtomobil yolunun 13-cü kilometrliyində inşa edilən iki tunelin tikintisi ilə tanış olmuşdur.
- Kəlbəcər rayonunda yeni tikilmiş 4,4 MVt gücündə "Kəlbəcər-1" Kiçik Su Elektrik Stansiyasının (KSES) açılışında iştirak etmişdir.

- 26 İyun - Silahlı Qüvvələr Günündə Kəlbəcər rayonuna səfəri çərçivəsində komando hərbi hissəsinə döyüş bayrağının verilməsinə həsr olunmuş təntənəli mərasimdə iştirak və çıxış etmişdir.
- Sonra hərbi şəhərcikdə əsgər yeməkxanası, tibb məntəqəsi, əsgər yataqxanası ilə tanış olmuş, yeni inşa edilən qərargah binasında yaradılan şəraitlə maraqlanmışdır.
- Daha sonra hərbi şəhərciyin ərazisində uzunömürlülük rəmzi kimi çinar ağacı əkmiş, şəhidlərin xatirəsinə ucaldılan abidə-kompleksini və "Dəmir yumruq" abidəsini ziyarət etmişdir.
- Kəlbəcər-Laçın avtomobil yolunun tikintisi ilə bağlı görülən işlərlə tanış olmuşdur.
- Laçın rayonunda 110 kV-luq "Qorçu" elektrik yarımstansiyasında görülən işlərlə tanış olmuşdur.
- Laçın rayonunda "Həkəriçay" su anbarı layihəsi ilə tanış olmuşdur.
- Laçın Beynəlxalq Hava Limanında aparılan tikinti işləri ilə tanış olmuşdur.
- Kəlbəcər şəhərinin Baş planı ilə tanış olmuş, İşğal və Zəfər muzeyləri kompleksinin təməlini qoymuşdur.
- Kəlbəcər Zəfər və İşğal muzeylərini layihələndirən "ACN" şirkətinin nümayəndələri ilə görüşmüşdür.
- Kəlbəcər Rəqəmsal İdarəetmə Mərkəzinin təməlqoyma mərasimində iştirak etmişdir.
- Kəlbəcərdə "İstisu" mineral su zavodunun təməlqoyma mərasimində iştirak etmişdir.
- Kəlbəcər rayonunda "Çıraq-1" Kiçik Su Elektrik Stansiyasında tikinti işlərinin gedişi ilə tanış olmuşdur.
- Kəlbəcər rayonunda "İstisu" sanatoriyasının təməlqoyma mərasimində iştirak etmişdir.
- Sosial media hesablarında 26 İyun - Silahlı Qüvvələr Günü ilə bağlı paylaşım etmişdir.

**27 iyun**

- İslam Əməkdaşlıq Təşkilatının (İƏT) Baş katibi Hissein Brahim Tahanı qəbul etmişdir.
- Polşanın Katovitse şəhərində Ümumdünya Şəhər Forumunun "Daha yaxşı gələcək naminə şəhərlərimizi dəyişdirək" mövzusunda 11-ci sessiyasında videoformatda çıxış etmişdir.

**28 iyun**

- Gürcüstanın Baş naziri İrakli Qaribaşviliyə zəng edərək, onu ad günü münasibətilə təbrik etmiş, ona fəaliyyətində uğurlar, möhkəm cansağlığı arzulamışdır.

**29 iyun**

- Xəzəryanı Dövlətlərin Dövlət Başçılarının VI Zirvə Toplantısında iştirak etmək üçün Türkmənistana səfərə gəlmişdir.
- Aşqabadda Türkmənistan Parlamenti Xalq Məsləhətinin sədri Qurbanqulu Berdiməhəmmədov ilə görüşü olmuşdur.
- Aşqabadda Türkmənistan Prezidenti Sərdar Berdiməhəmmədov ilə görüşü olmuşdur.
- Aşqabadda İran İslam Respublikasının Prezidenti Seyid İbrahim Rəisi ilə görüşü olmuşdur.
- Aşqabadda keçirilən Xəzəryanı Dövlətlərin Dövlət Başçılarının VI Zirvə Toplantısında iştirak etmişdir.
- Əvvəl Zirvə Toplantısı çərçivəsində dövlət başçılarının məhdud tərkibdə keçirilən görüşündə iştirak etmişdir.
- Sonra Zirvə Toplantısı çərçivəsində dövlət başçılarının geniş tərkibdə keçirilən görüşündə iştirak və çıxış etmişdir.
- Aşqabadda Xəzəryanı dövlətlərin dövlət başçılarının şərəfinə təşkil olunmuş rəsmi qəbulda iştirak etmişdir.
- Aşqabadda Rusiya Federasiyasının Prezidenti Vladimir Putin ilə görüşü olmuşdur.
- Türkmənistana səfəri başa çatmışdır.

**30 iyun**

- Türkiyə Böyük Millət Məclisinin sədri Mustafa Şentopu qəbul etmişdir.
- Pakistan İslam Respublikası Senatının sədri Məhəmməd Sadiq Sancranini qəbul etmişdir.
- Özbəkistan Respublikası Ali Məclisi Senatının sədri Tənzilə Narbayevanı qəbul etmişdir.
- Heydər Əliyev Mərkəzində Qoşulmama Hərəkatı Parlament Şəbəkəsinin "Dünyada sülhün və dayanıqlı inkişafın təşviqində milli parlamentlərin rolunun gücləndirilməsi" mövzusuna həsr olunan Bakı konfransında iştirak və çıxış etmişdir.

# AZƏRBAYCAN RESPUBLİKASININ PREZİDENTİ İLHAM ƏLİYEVİN RƏSMİ QƏBULLARI

### *İtaliyanın xarici işlər və beynəlxalq əməkdaşlıq nazirinin başçılıq etdiyi nümayəndə heyətinin qəbulu*

Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev aprelin 2-də İtaliya Respublikasının xarici işlər və beynəlxalq əməkdaşlıq naziri Luici Di Maionun başçılıq etdiyi nümayəndə heyətini qəbul edib.

Qonaqları salamlayan Prezident İlham Əliyev dedi:

-Cənab nazir, sizi görməyə çox şadam. Azərbaycana xoş gəlmisiniz. Bu, bir-birimizi bir daha görmək üçün yaxşı fürsətdir. Romadakı görüşümüzlə bağlı mənim çox yaxşı xatirələrim var və həmçinin bu, gündəliyimizdə duran məsələləri müzakirə etmək üçün bir imkandır.

Gündəlikdə duran məsələlərin sayı həqiqətən də artır. Bu, əməkdaşlığımızın çox yaxşı əlamətidir. Əlbəttə ki, ölkələrimiz arasında çox güclü siyasi əlaqələr tərəfdaşlığımızın güclü təməlini təşkil edir. 2014-cü və 2020-ci illərdə biz strateji tərəfdaşlıq üzrə iki mühüm bəyannamə imzaladıq. Bu da yaxın dost olmaq üçün qarşılıqlı iradənin mövcud olduğunu göstərir və biz artıq yaxın dostuq. Əlbəttə ki, mənim iki il bundan əvvəl İtaliyaya səfərim və 2018-ci ildə Prezident Mattarellanın Azərbaycana səfəri ilə bağlı çox yaxşı xatirələrim var. Səfərlər, müzakirələr və sənədlər - bunlar ölkələrimiz arasında güclü əlaqələrin olduğunu göstərir. Bildiyiniz kimi bu yaxınlarda mənim Baş nazir Mario Draqi ilə telefon söhbətim olub və biz sizin Azərbaycana səfərinizi də müzakirə etdik.

Beləliklə, bütün işlər uğurla gedir və əlbəttə ki, bizim ticarət tərəfdaşlığımızın yaxşı göstəricilərini görməyə məmnunam. Məlumata baxdım və gördüm ki, Azərbaycan Cənubi Qafqazda İtaliyanın əsas ticarət tərəfdaşıdır və İtaliyanın Cənubi Qafqazla apardığı ticarətin 95 faizi Azərbaycanla aparılır. Rəqəmlər çox yaxşıdır, demək olar ki, ötən il 10 milyard ABŞ dolları olmuşdur. Əminəm ki, bu il İtaliyaya əlavə qaz təchizatına görə bu göstərici daha da artacaqdır. Əlbəttə ki, İtaliyanın bizim əsas ticarət tərəfdaşımız olması çox yaxşı əlamətdir. Enerji əməkdaşlığında yeni imkanlar var. Uzun illər ərzində Azərbaycan neft təchiz edən etibarlı mənbə olmuşdur və İtaliyaya neft təchizatının bir nömrəli mənbəyidir. İndi isə Cənub Qaz Dəhlizi layihəsinin tamamlanması ilə önəmli qaz təchizatçısına çevrildik və biz qaz təchizatında 3-cü yerdəyik. İrəliləmək üçün potensial olsa, əlbəttə ki, biz bunu edəcəyik. Həmçinin ötən il bizim 7 milyard kubmetr qazı təchiz etməyimizlə bağlı göstərici də məni çox məmnun etdi və bu il bundan da çox olacaqdır.

Bütün bunlar əməkdaşlığın çox müsbət əlamətləridir, strateji və uzunmüddətli xarakter daşıyır. Buraya humanitar sahədə əməkdaşlığı da əlavə etməliyik. Bu gün çox mühüm hadisə - İtaliya-Azərbaycan Universitetinin təməlqoyma mərasimi olacaqdır. Yer artıq seçilib, hər şey hazırdır. Əminəm ki, bu, Azərbaycanda ən yaxşı universitetlərdən biri olacaqdır və beş italyan universiteti bu layihənin tərəfdaşı qismində çıxış edir. Həmçinin italyan şirkətlərinin azad edilmiş ərazilərin bərpa-quruculuq işlərində fəal iştirakı bizi sevindirir. Hazırda 3 şəhərdə İşğal və Zəfər muzeyləri İtaliya şirkətləri tərəfindən inşa olunur. Şuşada qədim məscidin bərpası və yeni məscidin inşası da İtaliya şirkətləri tərəfindən həyata keçirilir. Elektrik enerjisi sektorunda işlər gedir.

Beləliklə, qeyd etdiyim kimi, gündəlik genişdir və genişlənir. Mən çox şadam ki, bu, bizim əməkdaşlığımızın yaxşı nəticəsidir. Bir daha xoş gəlmisiniz. Sizə Bakıda yaxşı vaxt keçirməyi arzu edirəm.

İtaliyanın xarici işlər və beynəlxalq əməkdaşlıq naziri Luici Di Maio dedi:

-Təşəkkür edirəm, hörmətli cənab Prezident. Vaxt ayırdığınıza görə minnətdaram. Bildiyiniz kimi, ilk dəfədir ölkənizdə səfərdəyəm. Sizi təbrik edirəm, ölkəniz möhtəşəmdir. Mən əsrarəngiz Bakı şəhərini yalnız Formula 1 Qran-Prisi sayəsində görmüşdüm. Şəhər möhtəşəmdir, biz buraya avtomobillə gələndə gördük. Xüsusilə hazırkı vaxtda regionunuzda rəhbərliyiniz münasibətilə Sizi təbrik edirəm. Bildiyiniz kimi, bu il diplomatik münasibətlərimizin 30-cu ildönümüdür. Biz may ayında bu mühüm tədbiri qeyd edəcəyik.

Qonaq dövlətimizin başçısının 2020-ci ilin fevralında İtaliyaya səfərini möhtəşəm səfər kimi dəyərləndirərək dedi:

- Əfsuslar olsun ki, bu, pandemiyadan əvvəl İtaliyada sonuncu rəsmi səfər idi. Biz bunu xatırlayırıq. Bu, pandemiyadan əvvəl sonuncu yaxşı hadisə idi. Sizə bildirmək istərdim ki, qeyd etdiyiniz kimi, ölkələrimiz arasında mühüm əlaqələr var və iqtisadi əlaqələr çox yaxşı inkişaf edir. Düşünürəm ki, iqtisadi əlaqələr həmişə siyasi əlaqələrlə bağlı olur. İqtisadi əlaqələr artdıqca siyasi və tarixi əlaqələr də artır. Bizim birgə universitetimizin təməlinin qoyulması münasibətilə bu mühüm tədbirdə iştirak etmək imkanı əlaqələrimizin gücləndirilməsi istiqamətində daha bir addım olacaq. Siz TAP-ı qeyd etdiniz. TAP məhz bu dövrdə – sülh dövründə iqtisadi əlaqələrin yaradılmasının əhəmiyyətini nümayiş etdirir.

Luici Di Maio İtaliya Prezidenti Sercio Mattarellanın ölkəsinə səfərlə bağlı dəvətini dövlətimizin başçısına çatdırdı.

Prezident İlham Əliyev dəvətə görə minnətdarlığını bildirdi.

## *Avropa Şurasının Baş katibinin rəhbərlik etdiyi nümayəndə heyətinin qəbulu*

Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev aprelin 4-də Avropa Şurasının Baş katibi xanım Mariya Peyçinoviç Buriçin rəhbərlik etdiyi nümayəndə heyətini qəbul edib.

Prezident İlham Əliyev Avropa Şurasının Baş katibi statusunda Mariya Peyçinoviç Buriçi Azərbaycanda görməkdən məmnun olduğunu bildirdi və 2019-cu ilin aprelində Xorvatiyanın Baş nazirinin müavini, xarici və Avropa işləri üzrə nazir qismində ölkəmizə səfərini və səfər çərçivəsində görüşlərini qeyd etdi.

Dövlətimizin başçısı özünün Azərbaycan nümayəndə heyətinin rəhbəri kimi vaxtilə AŞPA-dakı fəaliyyətini xatırlatdı. Prezident İlham Əliyev Azərbaycanın Avropa Şurası ilə əməkdaşlığının konstruktiv dialoq əsasında inkişaf etməsinin vacibliyi bildirərək, Avropa Şurasına üzvlük çərçivəsində ölkəmizin qanunvericilik bazasının müasirləşdirilməsi istiqamətində ardıcıl addımların atıldığını diqqətə çatdırdı.

Ölkəmizə səfər etməkdən məmnunluğunu bildirən Mariya Peyçinoviç Buriç Azərbaycanın Avropa Şurasında üzvlüyünün yüksək dəyərləndirildiyini dedi və üzvlük prosesi çərçivəsində ölkəmizin Avropa Şurasının çox sayda konvensiya və müvafiq sənədlərinə qoşulduğunu və bu əsnada işin aparıldığını bildirdi.

Söhbət zamanı Azərbaycanla Avropa Şurası arasında 2022-2025-ci illəri əhatə edən Fəaliyyət Proqramının qəbul olunacağı məmnunluqla qeyd edildi və bu Proqramda bir sıra sahələrdə əməkdaşlığın nəzərdə tutulduğu vurğulandı.

Prezident İlham Əliyev regionda yaranmış yeni vəziyyət, Azərbaycanın Ermənistanla münasibətləri normallaşdırılması üçün irəli sürdüyü təkliflər, həmçinin işğaldan azad olunmuş ərazilərdə mövcud vəziyyət barədə Avropa Şurasının Baş katibinə məlumat verdi.

Dövlətimizin başçısı birinci Ermənistan-Azərbaycan müharibəsindən etibarən 3890 nəfər azərbaycanlının itkin düşdüyünü qeyd etdi və onların taleyinin müəyyənləşdirilməsi üçün Ermənistan tərəfindən kütləvi məzarlıqların yerləri haqqında məlumatın verilməsinin vacibliyini vurğuladı. İşğaldan azad olunmuş ərazilərdə Azərbaycanın mina problemindən ciddi şəkildə əziyyət çəkdiyini, 2020-ci il 10 noyabr Bəyanatından bəri 200-dən çox insanın minaların partlaması nəticəsində həlak olduğunu və ya yaralandığını diqqətə çatdırdı. Prezident İlham Əliyev bildirdi ki, 44 günlük Vətən müharibəsi dövründə Azərbaycan beynəlxalq humanitar hüququn təməl prinsiplərinə ciddi şəkildə riayət edib. Ancaq buna baxmayaraq, müharibə dövründə Ermənistan tərəfindən çox sayda hərbi cinayətlərin törədildiyini bildirən dövlətimizin başçısı hərbi əməliyyatlar zamanı Ermənistanın şəhərlərimizi raketlərlə atəşə tutması, nəticədə aralarında uşaq və qadınlar da olmaqla 100-dən çox mülki şəxsin həlak olması faktını vurğuladı.

Prezident İlham Əliyev Avropa Şurasının da iki ölkə arasında etimad quruculuğu prosesinə və inteqrasiya olunmuş Cənubi Qafqaz regionunun qurulması işinə töhfə verə biləcək bir platforma rolunu oynaya biləcəyini qeyd etdi.

Avropa Şurasının Baş katibi Azərbaycanın bu sahədə nümayiş etdirdiyi yüksək siyasi iradənin təqdir olunduğunu bildirdi.

Mariya Peyçinoviç Buriç Avropa Şurasının Ermənistanla Azərbaycan arasında münasibətlərin normallaşması və iki ölkənin cəmiyyətləri arasında etimadın qurulması prosesində platforma rolunu oynamağa hazır olduğunu qeyd etdi.

Görüşdə qarşılıqlı maraq doğuran digər məsələlər ətrafında da fikir mübadiləsi aparıldı.

## *İtkin düşmüş şəxslər üzrə Beynəlxalq Komissiyanın baş direktorunun qəbulu*

Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev aprelin 4-də İtkin düşmüş şəxslər üzrə Beynəlxalq Komissiyanın baş direktoru xanım Katrin Bombergeri qəbul edib.

Dövlətimizin başçısı birinci Ermənistan-Azərbaycan müharibəsindən etibarən 3890 nəfər azərbaycanlının itkin düşmüş hesab olunduğunu, onların bir çoxunun işgəncələrə məruz qaldığını və öldürülərək Ermənistan tərəfindən kütləvi məzarlıqlarda basdırıldığını qeyd etdi. Prezident İlham Əliyev bildirdi ki, Azərbaycan humanitar xarakter daşıyan bu məsələ ilə bağlı dəfələrlə Ermənistan tərəfinə müraciət etsə də, Ermənistan tərəfindən konstruktiv əməkdaşlıq və xoş niyyət nümayiş olunmayıb.

Dövlətimizin başçısı bu yaxınlarda Xocavəndin Edilli kəndində belə bir kütləvi məzarlığın müəyyən olunduğunu, qazıntı işləri apararaq orada basdırılmış şəxslərin qalıqlarının aşkara çıxarıldığını və bu qalıqların DNT analiz təyinatlı laborator müayinələrə təqdim edildiyini diqqətə çatdırdı.

Prezident İlham Əliyev itkin düşmüş şəxslər məsələsinin daim dövlətimizin gündəliyində olduğunu, bunun Avropa İttifaqı və digər beynəlxalq təsisatlarla da müzakirə edildiyini vurğuladı.

Azərbaycanın bu sahədə texniki imkanlarını genişləndirdiyini qeyd edən dövlətimizin başçısı ölkəmizdə yeni modul laboratoriyaların qurulduğunu, xüsusi dron uçuş aparatlarının və digər ləvazimatların alındığını, cəlb olunmuş mütəxəssislərin peşə qabiliyyətlərinin artırıldığını diqqətə çatdırdı. İtkin düşmüş şəxslər üzrə Beynəlxalq Komissiyanın təcrübəsinin və imkanlarının ölkəmiz üçün çox vacib olduğunu qeyd etdi, bu komis-

siyanın dünyanın müxtəlif ölkələrində uğurlu fəaliyyət göstərdiyini diqqətə çatdırdı.

Katrin Bomberger itkin düşmüş şəxslərin taleyinin müəyyənləşdirilməsi məsələsində Azərbaycanla yaxından əməkdaşlıq etməyə hazır olduğunu bildirdi. Qeyd etdi ki, təşkilat dünyanın müxtəlif ölkələrində, o cümlədən Qərbi Balkanlarda genişmiqyaslı fəaliyyət göstərib və itkin düşmüş hesab olunan minlərlə insanın taleyini müəyyən edərək onların ailəsinə məlumat verilməsində öz rolunu oynayıb.

DNT analiz nümunələrinin toplanması və laborator analizlər vasitəsilə insanların şəxsiyyətinin müəyyən edilməsinin vacibliyini bildirən Katrin Bomberger Azərbaycanda itkin düşmüş şəxslər üzrə məlumat bazasının yaradılması, kütləvi məzarlıqlarda birgə qazıntıların aparılması, yerli mütəxəssislərinin peşəkarlıqlarının artırılması kimi işlərə öz töhfəsini verməyə hazır olduğunu dedi. O, əlavə etdi ki, itkin düşmüş şəxslərin taleyinin müəyyən edilməsi etimadın yaradılması və davamlı sülhün təmin edilməsi baxımından vacibdir.

İtkin düşmüş şəxslər üzrə Beynəlxalq Komissiyanın baş direktoru səfər çərçivəsində bir sıra görüşlər keçirəcəyini və Azərbaycan Respublikasının Əsir və itkin düşmüş, girov götürülmüş vətəndaşlarla əlaqədar Dövlət Komissiyası ilə əməkdaşlığa dair niyyət protokolunun imzalanacağını və praktiki işə başlayacaqlarını diqqətə çatdırdı.

***İsrail-Azərbaycan Hökumətlərarası Birgə Komissiyasının həmsədri, turizm naziri Yoel Razvozovun qəbulu***

Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev aprelin 5-də İsrail-Azərbaycan Hökumətlərarası Birgə Komissiyasının həmsədri, İsrailin turizm naziri Yoel Razvozovu qəbul edib.

Dövlətimizin başçısı ölkələrimiz arasında əlaqələrin uğurla inkişaf etdiyini bildirərək İsraildə Azərbaycan ticarət nümayəndəliyinin fəaliyyət göstərməsinin və Turizm Mərkəzinin açılmasının önəmini vurğuladı. Prezident İlham Əliyev həyata keçirilən qarşılıqlı səfərlərin də əlaqələrimizin inkişafına töhfə verdiyini bildirdi.

İqtisadi sferada əlaqələrə toxunan dövlətimizin başçısı energetika sahəsində əməkdaşlığın əhəmiyyətini qeyd etdi, Azərbaycanın İsrailin mühüm neft təchizatçılarından biri olduğunu dedi. Prezident İlham Əliyev Azərbaycanda bərpaolunan enerjiyə artıq fəal şəkildə sərmayə qoyulduğunu bildirərək, İsrail şirkətlərinin də ölkəmizdə bu sahəyə maraq göstərdiyini qeyd etdi və bu istiqamətdə əməkdaşlıq üçün yaxşı potensialın olduğunu bildirdi. Dövlətimizin başçısı İsrail şirkətlərinin yüksək texnologiyalar sahəsində təcrübəsini qeyd edərək, bu istiqamətdə də əməkdaşlıq üçün yaxşı imkanların olduğunu dedi.

Prezident İlham Əliyev işğaldan azad olunmuş ərazilərimizdə aparılan bərpa və yenidənqurma işlərində İsrail şirkətlərinin iştirakından məmnunluğunu ifadə etdi.

Dövlətimizin başçısı hərbi-texniki sahədə də ölkələrimiz arasında uzun illər uğurlu əməkdaşlığın həyata keçirildiyini diqqətə çatdırdı.

Prezident İlham Əliyev əlaqələrimizin inkişafında həm Azərbaycanda, həm də İsraildə fəaliyyət göstərən diasporlarımızın rolundan danışdı, xalqlarımızın nümayəndələrinin əsrlər boyu birgə dostluq şəraitində yaşadıqlarını vurğuladı, yəhudi icmasının üzvlərinin birinci və ikinci Ermənistan-Azərbaycan müharibələrində iştirak etmələrinin və şücaət göstərməsinin ölkəmizdə ehtiramla qeyd olunduğunu bildirdi.

İsrail-Azərbaycan Hökumətlərarası Birgə Komissiyasının həmsədri, İsrailin turizm naziri Yoel Razvozov ilk növbədə Ramazan ayının başlanması münasibətilə dövlətimizin başçısına təbriklərini çatdırdı. Qonaq Azərbaycanın gözəl bir ölkə olduğunu vurğulayaraq uzun illər xalqlarımız arasında dostluq və qarşılıqlı anlaşma əlaqələrinin mövcud olduğunu məmnunluqla bildirdi. O, yəhudi icmasının ölkəmizdə sülh və əmin-amanlıq şəraitində yaşamasının İsraildə yüksək qiymətləndirildiyini dedi və bu baxımdan Azərbaycanın nümunəvi ölkə olduğunu vurğuladı.

"İsrail həmişə Azərbaycanın ərazi bütövlüyünü dəstəkləyib. Biz ölkənizin ərazi bütövlüyünün bərpa olunmasını alqışlayırıq. Bu, çox önəmlidir", – deyən qonaq Ermənistanla Azərbaycan arasında danışıqların uğurlu olacağına və bunun da regionda sabitliyin möhkəmlənməsi işinə xidmət edəcəyinə ümidvarlığını bildirdi.

Yoel Razvozov İsrail şirkətlərinin ölkəmizin işğaldan azad edilmiş ərazilərində müxtəlif sahələrdə, o cümlədən kənd təsərrüfatı, ağıllı şəhər, energetika, su təchizatı və digər sahələrdə iştirak etməkdə də maraqlı olduqlarını dedi.

Azərbaycanın biznes üçün çox yaxşı imicə malik olduğunu vurğulayan İsrailin turizm naziri ölkəmizdə biznes fəaliyyəti üçün təhlükəsiz və təminatlı şəraitin mövcudluğunun İsrail şirkətləri üçün cəlbedici olduğunu qeyd etdi.

Yoel Razvozov bu il Azərbaycanla İsrail arasında diplomatik əlaqələrin qurulmasının 30 illiyinin də qeyd olunduğunu vurğuladı.

***Macarıstanda keçirilmiş Güləş üzrə Avropa çempionatında iştirak edən Azərbaycan millisinin üzvlərinin qəbulu***

Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev aprelin 8-də Macarıstanda keçirilmiş Güləş üzrə Avropa çempionatında iştirak edən Azərbaycan millisinin üzvlərini qəbul edib.

Dövlətimizin başçısı görüşdə çıxış etdi:

– Salaməleykum, əyləşin.

Bir neçə gün bundan əvvəl Budapeştdə keçirilmiş Avropa çempionatında güləşçilərimiz bir daha xalqımızı sevindirmişlər, böyük qələbə ilə Vətənə qayıtmışlar. 16 medal qazanmış idmançılar bir daha Azərbaycanın idman şöhrətini yüksəklərə qaldırmışlar. Bu medalların birini qadın idmançımız qazandı, qalanlarını isə sərbəst güləş və yunan-Roma güləşi üzrə komandalarımız. Beləliklə həm sərbəst güləş, həm yunan-Roma güləşi üzrə komandalarımız Avropada birinci oldular. Bu, böyük qələbədir, böyük nailiyyətdir. Avropada birinci olmaq, istənilən idman növündə birinci olmaq böyük uğur hesab edilə bilər. Əlbəttə ki, bir daha Azərbaycan güləşçilərimiz bizim güləşimizi təbliğ etmişlər, çünki güləş bizim ənənəvi idman növümüzdür. Güləşin çox böyük ənənələri vardır və bu ənənələr yaşayır.

Bir müddət bundan əvvəl elə bu otaqda gənc güləşçilərlə görüş zamanı onlara bildirmişdim, yarışa çıxanda unutmamalıdırlar ki, müzəffər ölkəni və qalib xalqı təmsil edirlər. Mən onları da gənclər arasında Avropa çempionatında birinci yerlə bağlı ürəkdən təbrik edərkən demişdim ki, onlar gələcəkdə də bizi sevindirməlidirlər, böyüklər arasındakı yarışlarda çıxış edərkən bu uğurları təkrar etməlidirlər. Həm gənclər, həm böyüklər arasında Avropada birinci yeri tutmaq bir daha demək istəyirəm ki, böyük nailiyyətimizdir və onu göstərir ki, güləşdəki ənənələrimiz yaşayır və güclü gənc nəsil yetişir. Böyüklər arasında biz öz gücümüzü hər dəfə təsdiqləyirik, həm ölkəmizin idman şöhrəti və bütövlükdə ölkəmizin nüfuzu artır.

Əminəm ki, böyüklər arasında keçirilmiş çempionatda bizim idmançılarımız da eyni fikirlə, eyni duyğu ilə yarışlara çıxırdılar və bu yüksək məsuliyyəti dərk edirdilər. Çünki doğrudan da, cəmi 44 gün ərzində böyük tarixi Qələbə qazanmış xalqı təmsil etmək həm böyük qürurdur, həm də böyük məsuliyyətdir. İdmanın inkişafı və idman nailiyyətləri təkcə ölkəmizi dünyada təbliğ etmir, gücümüzü göstərmir, eyni zamanda, cəmiyyətdə vətənpərvərlik hisslərini gücləndirir. Məhz vətənpərvərlik, Vətənə olan sədaqət, fədakarlıq bizi Qarabağın azad olunması uğrunda müharibədə irəliyə aparırdı.

Gənc nəsil də mütləq vətənpərvərlik ruhunda tərbiyə almalıdır, milli ruhda tərbiyə almalıdır, milli dəyərlər əsasında tərbiyə almalıdır və Azərbaycan dövləti buna nail olmaq üçün bütün imkanlardan istifadə edir. Vətənpərvərliyi daha da gücləndirən amillərdən biri, əlbəttə ki, tarixi-hərbi Zəfərimizdir və eyni zamanda, idman uğurlarımızdır. Əminəm ki, Azərbaycan vətəndaşları – həm idmansevərlər, həm də idmanla o qədər də maraqlanmayan vətəndaşlar həmişə idman arenalarında əldə edilmiş qələbələrin xəbəri gələndə sevinirlər. Hamımız sevinirik, çünki sevinirik ki, siz buna nail olmusunuz. Bu, sizin həyatınızda çox əlamətdar və unudulmaz hadisədir. Bu titul - Avropa çempionu, yaxud da ki, gümüş, bürünc mükafatçısı əbədi sizinlə olacaqdır. Həm də biz hamımız sevinirik. Çünki gənc nəsil yetişir, gənclər Vətəni ləyaqətlə təmsil edirlər, hərə öz yerində, idmançı, hərbçi, mütəxəssis. Hər bir Azərbaycan vətəndaşı öz əməyi ilə ölkəmizi gücləndirir. Məhz buna görə bu gün Azərbaycan dünyada sürətlə inkişaf edən ölkə kimi tanınır və dünyada nadir ölkələrdəndir ki, öz taleyini özü həll edir, müəyyən edir, öz siyasətini müstəqil şəkildə aparır və istər döyüş meydanlarında, istər siyasi arenalarda qələbə qazanır.

Güləş, qeyd etdiyim kimi, hər birimiz üçün çox əziz idman növüdür, yəqin ki, Azərbaycanda ən populyar, ən məşhur idman növüdür. Ona görə həm məşqçilər, həm idman federasiyasının nümayəndələri, Gənclər və İdman Nazirliyi bu amili nəzərə alaraq güləşə, əlbəttə ki, xüsusi diqqət verməlidirlər. Əminəm ki, gələcək yarışlarda biz, əlbəttə, birinci sıralarda olacağıq. Gələcək yarışlara gəldikdə isə iki ildən sonra Yay Olimpiya Oyunları keçiriləcək. Vaxt az qalıb və hesab edirəm ki, nəinki güləş, eyni zamanda, bütün idman növlərində lisenziya qazanacaq idmançılar bu əsas yarışa indidən hazırlaşmalıdırlar, düzgün təlim-məşq toplanışları, yarışlar müəyyən edilməlidir. Əminəm ki, belə də olacaq və Yay Olimpiya Oyunlarında da biz bir daha ölkəmizin gücünü, idman gücünü göstərəcəyik. Çünki Olimpiya Oyunları, Yay Olimpiya Oyunları bütün idman yarışları arasında, əlbəttə ki, xüsusi yer tutur, fərqlənir. Hesab edirəm ki, bütövlükdə növbəti Olimpiya Oyunlarında Azərbaycan çox uğurla çıxış edə bilər. İndidən bir şey deyə bilmərəm, çünki hələ iki il vaxt var, amma gərək bütün səylərimiz məhz bu məqsədə çatmaq üçün hesablansın. Bir məsələ də var ki, artıq biz bu qələbələrə öyrəşirik və necə deyərlər, bu yüksək nəticələri saxlamaq çətin olacaq, idmanda hər şey ola bilər – məğlubiyyət də, qələbə də. Ancaq əminəm, gələcək yarışlarda nəticələrə baxmayaraq əsas odur ki, idmançılarımız ölkəmizi ləyaqətlə təmsil etsinlər, necə ki, bu günə qədər ləyaqətlə təmsil edirlər. Mən Budapeştdə keçirilmiş çempionatın gedişatına da nəzər yetirirdim, baxırdım, görürdüm ki, ən çətin anlarda rəqib cığallıq edəndə, nalayiq hərəkət edəndə bizim idmançılarımız öz gücü ilə qaydalar çərçivəsində rəqibi yerinə oturda bilmişdilər. Buna fikir verərkən yenə də İkinci Qarabağ müharibəsindəki hadisələr yadıma düşdü, o vaxt da mənfur düşmən döyüş meydanında məğlub olarkən, qaçarkən, 10 min fərari verərkən ən çirkin əməllərə əl atmışdı, ən çirkin əməllərə. Dinc insanlara qarşı terror əməllərinə əl atmışdır. Bizim şəhərlərimiz, dinc şəhərlərimiz gecə vaxtı ballistik raketlərlə atəşə tutuldu, 100-dən çox dinc insan, onların arasında uşaq, qadın, yaşlı insan bu namərd atəş nəticəsində həlak oldu. Amma mən o vaxt demişdim, hələ müharibə gedə-gedə demişdim ki, biz ermənilərin əməllərini heç vaxt təkrar etməyəcəyik. Biz düşmənə döyüş meydanında cavab verəcəyik. Elə cavab verəcəyik ki, onlar əbədi bu dərsi yadda saxlasınlar. Mən keçirilmiş Avropa çempionatında da eyni

xasiyyəti gördüm, Azərbaycan xalqına xas olan xasiyyəti. Ədalət, eyni zamanda, mərhəmət, məğlub edilmiş tərəfə müəyyən dərəcədə mərhəmət hisslərinin göstərilməsi də xalqımıza xas olan xüsusiyyətlərdən biridir. Əsas odur ki, biz düşməni və ya idman rəqibini məhz qaydalar çərçivəsində, ləyaqət prinsipi əsasında məğlub etməliyik. Bunu görərkən mən bir daha əmin oldum ki, Azərbaycan xalqının gələcəyi bundan sonra da çox parlaq olacaq, bundan sonra da istənilən idman növündə. Misal üçün, biz indi bunu futbol yarışlarında da gördük. Bizim məşhur məşqçimiz Qurban Qurbanov çox ləyaqətli hərəkət etmişdir və qol sayıla biləcək vəziyyətdə demişdir ki, yox, bu, bizə lazım deyil, bizə saxta nailiyyət lazım deyil, qazanılmamış uğur lazım deyil. Nəyi qazanmışıqsa, öz əməyimizlə qazanmışıq. O cümlədən Qarabağ məsələsini də öz əməyimizlə, gücümüzlə, zəkamızla həll etmişik. İdman yarışlarında, yəni, feyrpley anlayışı unudulmamalıdır və Azərbaycan idmançıları bu prinsiplərə həmişə əməl etməlidirlər. Çünki bu, qələbədən də vacibdir. Çünki bilirsiniz, qələbə, əlbəttə, hər bir idmançı üçün çox önəmlidir, onun həyatında, necə deyərlər, böyük iz buraxır. Ancaq qələbədən daha vacib ləyaqətdir və biz müharibəni ləyaqətlə aparmışıq. Bu gün bütün dünya bir daha xalqımızın böyüklüyünü görür, hər şey göz qabağındadır. İdmanda da elə olmalıdır, elədir və bu halal qələbəni siz öz istedadınız, zəhmətiniz hesabına qazanmısınız və eyni zamanda, bir daha xalqımızın böyüklüyünü göstərmisiniz. Həm qələbə münasibətilə, həm ləyaqətli davranış münasibətilə sizi təbrik edirəm. Əlbəttə ki, biz hamımız, bütün Azərbaycan xalqı sizdən yeni qələbələr gözləyir. Sağ olun.

* * *

Sərbəst güləş üzrə Azərbaycan milli komandasının baş məşqçisi Namiq Abdullayev dedi:

– Hörmətli Prezident, əvvəlcə bizi növbəti dəfə dəvət etdiyiniz və bizimlə yenidən görüşdüyünüz üçün Sizə həm Azərbaycan Güləş Federasiyası, həm məşqçilər və idmançılar, həm də bütün güləş ailəsi adından dərin təşəkkürümüzü bildirirəm. Bildiyiniz kimi, güləş üzrə milli komandalarımız son bir ayda iki Avropa çempionatında ölkəmizi uğurla təmsil ediblər. Bolqarıstanda keçirilən 23 yaşadək güləşçilərin Avropa çempionatının ardınca Macarıstanda keçirilən böyüklərin Avropa çempionatında da yüksək nəticələr qazanılıb. Komandalarımız ümumilikdə 3 qızıl, 6 gümüş və 7 bürünc medal qazanıb. Həm sərbəst, həm də yunan-Roma güləşi üzrə milli komandalarımız komanda hesabında Avropa çempionu olub. İki komandamızın eyni vaxtda Avropa çempionu olması güləş tariximizdə yeni rekorddur. 23 yaşadək güləşçilərin Avropa çempionatından sonra bizi qəbul etməyiniz güləşçilərimiz üçün böyük stimul oldu. Bunun da nəticəsi olaraq böyüklərin Avropa çempionatında yüksək nəticə qazana bildik. Qarşıda bizi mötəbər yarışlar gözləyir. Bu il İslam Həmrəyliyi Oyunlarında, dünya çempionatında və dünya kubokunda ölkəmizi uğurla təmsil etmək üçün əlimizdən gələni edəcəyik.

Möhtərəm Prezident, bizi qəbul edib daim bizə diqqət və qayğı göstərdiyiniz üçün Sizə bütün güləş ailəsi adından bir daha təşəkkürümüzü bildirirəm. Diqqətinizə görə sağ olun.

Prezident İlham Əliyev: Sağ olun.

* * *

Sərbəst güləş üzrə üçqat dünya çempionu, ikiqat Olimpiya mükafatçısı Hacı Əliyev dedi:

– Cənab Prezident, mən də öz adımdan, həm də sərbəst güləş yığma komandasının adından bizi qəbul etdiyinizə görə təşəkkür edirəm. Bildiyiniz kimi, Macarıstanda keçirilən Avropa çempionatında sərbəst güləşçilərimiz uğurlu nəticələr əldə etdilər. Ümumilikdə 7 medal qazandıq, bunlardan 1-i qızıl, 4-ü gümüş, 2-si isə bürünc medal oldu və biz medal sayına görə komanda hesabında birinci olduq. Sözsüz ki, bu uğurlarımız, bu qələbələrimiz Sizin idmana diqqət və qayğınızın nəticəsidir ki, bu gün belə gözəl nailiyyətlər qazandıq. Eyni zamanda, biz Güləş Federasiyasının da diqqət və qayğısını hər zaman hiss etmişik. Biz belə diqqət və qayğı sayəsində çalışacağıq ki, hər zaman gözəl nəticələr əldə edək.

Cənab Prezident, mənim əsas hədəflərimdən biri Parisdə keçiriləcək Olimpiya Oyunlarında iştirak etmək, qızıl medal qazanmaqdır. Siz bilirsiniz ki, mən iki dəfə Olimpiya Oyunlarında medal qazanmışam – bir gümüş, bir bürünc. Artıq mənə elə gəlir ki, qızıl medal qazanmağın vaxtıdır. Mən inanıram ki, Parisdə keçiriləcək Olimpiya Oyunlarında bizim gənc güləşçilərimiz də, burada olan güləşçilərimiz də yaxşı nəticələr qazanacaqlar İnşallah və medallarımızın sayını daha da çoxaldacaqlar. Sizə gələcək işlərinizdə uğurlar arzu edirəm, Allahdan Sizə uzun ömür, cansağlığı arzulayıram. Çox sağ olun diqqətinizə görə.

Prezident İlham Əliyev: Sağ ol, sağ ol Hacı, əyləş. Mən hesab edirəm ki, sən artıq Olimpiya Oyunlarının qızıl medalını qazanmısan. Çünki sən üçqat dünya çempionusan və dünya çempionatı da Olimpiya Oyunları ilə eyni səviyyəli yarışdır. Bəlkə də Olimpiya Oyunları daha həyəcanlı bir yarışdır, çünki 4 ildən bir keçirilir və bütün dünya ictimaiyyətinin diqqəti oradadır. Amma təmsilçilik baxımından və rəqabət baxımından dünya çempionatları ondan geri qalmır. Ona görə sənin üç qızıl medalın var dünya çempionu kimi. İndi təvazökar insan kimi bir medal taxmısan, amma sənin medalların nə qədərdir, bəlkə özün də sayını itirmisən. Yadındadır nə qədər medalın var sənin?

Hacı Əliyev: Çoxdur.

Prezident İlham Əliyev: İndi üç dünya çempionu medalı, ondan sonra Olimpiya, üç dəfə Avropa çempionu. Ona görə sən bütün medalları taxsan sinəndə yer qalmaz. Biz hər bir idmançıdan qələbə gözləyirik. Amma əsas odur ki, yarışda iştirak edəcəksən. Mən bilirəm ki, sən son Olimpiya Oyunlarında bir az tərəd-

düd edirdin gələcək fəaliyyətinlə bağlı. Amma yaxşı ki, qalmısan idmanda. Sən lazımsan həm idmana, həm gənclərə və doğrudan da gənclər üçün, gənc idmançılar üçün bir nümunəsən. Çünki üçqat dünya çempionu olmaq doğrudan da tarixi nailiyyətdir. Ona görə səni bir daha təbrik edirəm.

* * *

Yunan-Roma güləşi üzrə ikiqat Avropa çempionu və dünya çempionu Eldəniz Əzizli dedi:

- Möhtərəm Prezident, mən də yunan-Roma güləşi milli komandası adından bizim qazandığımız qələbələri yüksək qiymətləndirdiyiniz üçün Sizə öz minnətdarlığımızı bildiririk. Bildiyiniz kimi, Budapeştdə keçirilən Avropa çempionatında yarışa qatılan 10 idmançımızdan 8-i medalla Vətənə qayıtdı. Onlardan iki qızıl medal, bir gümüş və beş bürünc medalla ümumilikdə 165 xal toplayaraq yunan-Roma güləşi tarixində yeni bir rekorda imza atdıq. İlk dəfə idi ki, yunan-Roma güləşi millimiz komanda hesabında Avropa çempionu oldu. Həqiqətən də bu yarış bizim üçün rekordlarla əlamətdar bir yarış oldu.

Cənab Prezident, Sizin idmana və idmançılara göstərdiyiniz diqqət və qayğı bizi həvəsləndirir, gələcək yarışlara daha da ruhlandırır. Bildiyiniz kimi, noyabrın 5-6-da Bakıda yunan-Roma güləşi üzrə dünya kuboku keçiriləcək. Biz ilk dəfə 2015-ci ildə İran İslam Respublikasının Tehran şəhərində dünya kubokunun sahibi olmuşduq. Artıq son qələbəmizdən 7 il keçir. Düşünürəm ki, İnşallah biz idmançılar əlimizdən gələni etməyə çalışıb 7 ildən sonra qazandığımız parlaq qələbəni Bakıda təkrarlayacağıq və var gücümüzlə çalışacağıq ki, kubok Bakıda qalsın, Bakıdan qırağa getməsin. Bizi qəbul etdiyiniz üçün bir daha Sizə öz minnətdarlığımızı bildiririk. Diqqətiniz üçün sağ olun.

Prezident İlham Əliyev: Sağ ol, çox sağ ol. Eldəniz də bizim görkəmli idmançılarımızdandır, ikiqat dünya çempionu, Avropa çempionu. Ona görə əminəm ki, gələcəkdə də bizi sevindirəcək.

* * *

Yunan-Roma güləşi üzrə Azərbaycan milli komandasının baş məşqçisi Aleksandr Tarakanov dedi:

– Hörmətli Prezident, mənim işimi yüksək qiymətləndirdiyinizə və məni "Tərəqqi" medalı ilə təltif etdiyinizə görə Sizə təşəkkürümü bildirmək istərdim. İlham Heydər oğlu, bu medalda Sizin qəlbinizin bir hissəsi də var. Siz idman üçün, gənclər üçün nə lazımdırsa edirsiniz ki, biz çalışaq, cəhd göstərək, qalib gələk və ölkəmizi şöhrətləndirək. Sağ olun. Sizə möhkəm cansağlığı arzu edirəm.

Prezident İlham Əliyev: Sağ olun. Medalınız mübarəkdir. Siz onu öz işinizlə, bizim hamımızı sevindirən nəticələrlə qazanmısınız. Hamınıza yeni qələbələr, yeni uğurlar arzu edirəm. Sağ olun.

### *Gürcüstanın iqtisadiyyat və davamlı inkişaf nazirinin qəbulu*

Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev aprelin 15-də Gürcüstanın Baş nazirinin müavini, iqtisadiyyat və davamlı inkişaf naziri Levan Davitaşvilini qəbul edib.

Dövlətimizin başçısı Azərbaycan-Gürcüstan əlaqələrinin geniş gündəliyə malik olduğunu qeyd edərək həm ikitərəfli, həm də çoxtərəfli formatda əldə olunmuş razılıqların uğurla həyata keçirildiyini bildirdi və bu baxımdan, ilk növbədə, ölkələrimizin icra etdiyi birgə nəqliyyat və enerji layihələrinin önəmini vurğuladı. Prezident İlham Əliyev Azərbaycanla Gürcüstan arasında yükdaşımalarının həcminin, mövcud infrastrukturun buraxılış qabiliyyətinin artırılmasının zəruriliyini qeyd etdi və bunun üçün yaxşı əsasın yaradıldığını bildirdi. Dövlətimizin başçısı, eyni zamanda, ticarət dövriyyəsinin artımından məmnunluğunu ifadə edərək onun həcminin daha da çoxaldılması perspektivlərinin müəyyənləşdirilməsinin vacibliyini qeyd etdi.

Ölkələrimiz arasında sıx əlaqələrin mövcudluğunu vurğulayan Gürcüstanın Baş nazirinin müavini, iqtisadiyyat və davamlı inkişaf naziri Levan Davitaşvili bütün sahələrdə, o cümlədən iqtisadi sferada əlaqələrin uğurla inkişaf etdiyini bildirdi, ölkələrimiz arasında həyata keçirilən enerji və nəqliyyat layihələrinin həm regional, həm də qlobal əhəmiyyətini qeyd etdi. Qonaq, eyni zamanda, ticarət dövriyyəsinin artırılması üçün də böyük potensialın mövcud olduğunu bildirdi.

Görüşdə kənd təsərrüfatında və iqtisadiyyatın digər sahələrində birgə layihələrin həyata keçirilməsinin əhəmiyyəti, Azərbaycan-Gürcüstan iqtisadi əməkdaşlığının hər iki ölkənin iqtisadi inkişafında vacib rolu qeyd edildi.

### *Birləşmiş Ərəb Əmirliklərinin sənaye və qabaqcıl texnologiyalar nazirinin qəbulu*

Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev aprelin 15-də Birləşmiş Ərəb Əmirliklərinin sənaye və qabaqcıl texnologiyalar naziri, Abu-Dabi Milli Neft Şirkətinin idarəedici direktoru, BƏƏ-nin iqlim dəyişikliyi üzrə xüsusi nümayəndəsi, "Masdar" şirkətinin sədri Sultan Əhməd Əl Caberi qəbul edib.

Dövlətimizin başçısı ölkələrimiz arasında əlaqələrin siyasi, iqtisadi, investisiya qoyuluşu və digər sahələrdə uğurla inkişaf etdiyini bildirdi.

Prezident İlham Əliyev bu yaxınlarda Abu-Dabinin vəliəhdi, Birləşmiş Ərəb Əmirlikləri Silahlı Qüvvələrinin Ali Baş Komandanının müavini Məhəmməd bin

Zayed Əl Nahyanla telefon danışığını xatırladaraq həmin söhbət zamanı əməkdaşlığımızın daha da genişləndirilməsi üçün birgə səylərin artırılmasının vacibliyinin qeyd olunduğunu bildirdi.

Bu ilin mart ayında Birləşmiş Ərəb Əmirliklərinin "Masdar" şirkəti tərəfindən Azərbaycanda inşa ediləcək 230 MVt gücündə Qaradağ Günəş Elektrik Stansiyasının təməlqoyma mərasimini xatırladan dövlətimizin başçısı həmin layihənin gələn ilin sonuna yaxın işə düşəcəyinə ümidvarlığını ifadə etdi. Prezident İlham Əliyev bu layihənin icrasını qarşılıqlı maraqların və imkanların təmin edilməsinin yaxşı nümunəsi kimi dəyərləndirdi.

Dövlətimizin başçısı bildirdi ki, ölkələrimiz arasında siyasi əlaqələrin yüksək səviyyədə olduğu nəzərə alınaraq birgə müəssisələrin yaradılması, investisiya imkanlarının müəyyənləşdirilməsi və digər müxtəlif layihələrdə iştirakın da daxil olduğu gələcək birgə iqtisadi gündəliyin reallaşdırılması mövcud potensialın maksimum dərəcədə təmin edilməsi işinə xidmət edə bilər.

Prezident İlham Əliyev Sultan Əhməd Əl Caberin ölkəmizə səfərinin uğurlu və səmərəli keçəcəyinə ümidvar olduğunu dedi.

Xoş sözlərə görə minnətdarlığını bildirən qonaq Birləşmiş Ərəb Əmirliklərinin vitse-prezidenti və Baş naziri, Dubayın Əmiri Məhəmməd bin Rəşid Al Maktumun və Abu-Dabinin vəliəhdi, Birləşmiş Ərəb Əmirlikləri Silahlı Qüvvələrinin Ali Baş Komandanının müavini Məhəmməd bin Zayed Əl Nahyanın salamlarını və xoş arzularını dövlətimizin başçısına çatdırdı.

Prezident İlham Əliyev salamlara və xoş arzulara görə minnətdarlığını bildirdi, onun da salamlarını Məhəmməd bin Rəşid Al Maktuma və Məhəmməd bin Zayed Əl Nahyana çatdırmağı xahiş etdi.

Qonaq vurğuladı ki, Məhəmməd bin Zayed Əl Nahyan ölkələrimiz arasında münasibətlərdə əldə edilmiş inkişafı yüksək qiymətləndirir, bu əlaqələrin önəmini xüsusi qeyd edir və tərəfdaşlığımızın daha da gücləndirilməsi əzmindədir.

### *Avropa İttifaqının Cənubi Qafqaz üzrə xüsusi nümayəndəsinin başçılıq etdiyi nümayəndə heyətinin qəbulu*

Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev aprelin 19-da Avropa İttifaqının Cənubi Qafqaz üzrə xüsusi nümayəndəsi Toivo Klaarın başçılıq etdiyi nümayəndə heyətini qəbul edib.

Avropa İttifaqının nümayəndə heyətini salamlayan Prezident İlham Əliyev dedi:

– Sizi bir daha görməyə çox şadam. Şadam ki, Brüsseldəki görüşümüzdən sonra bizi ziyarət edirsiniz. Çox konstruktiv, yaxşı nəticələri və nailiyyətləri olan üçtərəfli görüşdən sonra artıq iki həftə keçib. Səylərinə, bizə çox mühüm məsələləri müzakirə etmək və normallaşma prosesinin başlanğıcı ilə bağlı razılığa gəlmək imkanı verən ab-hava yaratdığına görə Prezident Şarl Mişelə minnətdarlığımı çatdırmağı sizdən xahiş edirəm. Düşünürəm ki, bu, başlanğıc nöqtəsi idi. Çünki biz sərhəd üzrə komissiyaların və eyni zamanda, sülh sazişi üzrə işçi qrupların yaradılması barədə razılığa gəldik. Biz bununla bağlı əvvəllər də danışırdıq və bildiyiniz kimi, İkinci Qarabağ müharibəsinin bitməsindən sonra Azərbaycanın mövqeyi həmişə ondan ibarət idi ki, biz sülh sazişi ilə bağlı danışıqlara başlamalıyıq. Hesab edirəm ki, rəsmi başlanğıc nöqtəsi aprelin 6-da Brüsseldə baş tutdu. O vaxtdan bəri biz işləyirdik, Xarici İşlər Nazirliyi çalışırdı və mənim administrasiyam sizin komandanızla təmasda idi və biz razılaşdı-ğımız kimi, başlamaya hazırıq. Hesab edirəm ki, bu irəliləyişi davam etdirməyimiz və hər iki tərəfin razılaşmalara riayət etməsi mühüm əhəmiyyət kəsb edir.

Ermənistan tərəfi ilə aydınlaşdırılmasına ehtiyac olan məsələlərdən biri də Azərbaycanla və Naxçıvan Muxtar Respublikası ilə kommunikasiyalar məsələsidir. Mən həm dəmir yolunu, həm də avtomobil yolunu nəzərdə tuturam. Çünki dəmir yolu ilə bağlı mən Prezident Mişelə məlumat verdim ki, biz dəmir yolunun Azərbaycan ərazisində 100 kilometrdən artıq 60 kilometrlik hissəni tikmişik və tikintini gələn il tamamlayacağıq. Lakin əfsuslar olsun ki, Ermənistanda onlar heç bu işin texniki-iqtisadi əsaslandırılmasına başlamayıblar, bu da prosesin ləngiyə bilməsini göstərir.

Avtomobil yoluna gəldikdə, Azərbaycan tərəfindən fəal tikinti işləri gedir və yolun böyük hissəsi artıq inşa olunub. Biz, həmçinin ümid edirik, yəqin ki, növbəti ilin sonuna kimi avtomagistralı Ermənistan sərhədinə çatdıracağıq. Lakin təəssüf ki, Brüssel görüşü zamanı Ermənistanın baş naziri coğrafi koordinatları qeyd etməmişdir. Mən fevralın 4-də videokonfrans vasitəsilə keçirilən görüşdə bu məsələni qaldırdım, lakin cavab olmadı. Aprelin 6-da mən yenidən yolun coğrafi koordinatlarının təqdim edilməsini istədim, lakin cavab olmadı. Ümidvaram ki, tezliklə onu əldə edəcəyik.

Lakin mən ümumilikdə Brüsseldəki görüşün nəticələrini müsbət hesab edirəm. Mən bunu aprelin 12-də ictimaiyyətə açıqladım. Növbəti gün Ermənistanın baş naziri də normallaşma prosesi və Ermənistanın Azərbaycanın irəli sürdüyü 5 prinsipi qəbul etməsi barədə açıq şəkildə danışdı. Bu, prosesdə həqiqətən də daha bir dönüş nöqtəsidir. Düşünürəm ki, müsbət şərhlərdir. İndi hər iki tərəfin bu rəsmi açıqlamasından sonra biz ciddiyyətimizi masa üzərində sübuta yetirməliyik. Burada biz Avropa İttifaqının, xüsusilə də artıq prosesə dərindən cəlb olunmuş Prezident Şarl Mişelin səylərinə çox ümid edirik. O, artıq prosesə çox yaxşı bələddir. Düşünürəm ki, bu, uğurlu danışıqlar üçün çox ümidverici mühit yaradır. Beləliklə, biz bu gün bunu daha ətraflı şəkildə müzakirə edəcəyik. Sadəcə, bizim mövqeyimizə görə, Brüsseldə baş verənlərlə və aprelin

6-dan sonra baş verən hadisələrlə bağlı rəsmi mövqeyimizi ifadə etmək istədim.

Avropa İttifaqının Cənubi Qafqaz üzrə xüsusi nümayəndəsi Toivo Klaar dedi:

– Təşəkkür edirəm, cənab Prezident. Həmçinin Prezident Mişel də Sizə ən xoş arzularını çatdırır. Qeyd etdiyiniz kimi, o, prosesə və prosesin dəstəklənməsinə çox sadiqdir. Onun fikri, bizim fikrimiz ondan ibarətdir ki, Brüsseldəki görüş çox uğurlu oldu. Qeyd etdiyiniz kimi, biz razılaşdırılmış məsələlərin həyata keçirilməsi və davam etdirilməsinin təmin olunması üzərində işləməliyik. Mənim səfərimin məqsədi bundan ibarətdir. Mən Sizin növbəti addımları nədə gördüyünüzü eşitmək və Avropa İttifaqı olaraq normallaşma prosesini dəstəkləmək, əhatəli nizamlanma istiqamətində çalışmaq üçün nə edə biləcəyimizi öyrənmək üçün bu gün burada olacağam, həftənin ikinci yarısında isə İrəvana gedəcəyəm.

### *Kubanın ölkəmizdə yeni təyin olunmuş səfirinin etimadnaməsinin qəbulu*

Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev aprelin 19-da Kuba Respublikasının ölkəmizdə yeni təyin olunmuş fövqəladə və səlahiyyətli səfiri Karlos Enrike Valdes de la Konsepsyonun etimadnaməsini qəbul edib.

Səfir etimadnaməsini Prezident İlham Əliyevə təqdim etdi.

Dövlətimizin başçısı ikitərəfli münasibətlərimizin uğurla inkişaf etdiyini vurğulayaraq Kuba Prezidentinin Qoşulmama Hərəkatının Bakıda keçirilən Zirvə Görüşündə iştirak etmək üçün Azərbaycana səfərini və onunla görüşünü məmnunluqla xatırladı, görüş zamanı əlaqələrimizin geniş gündəliyi ilə bağlı məhsuldar danışıqların aparıldığını bildirdi.

Prezident İlham Əliyev qeyd etdi ki, Azərbaycanla Kubanın beynəlxalq təşkilatlarda, o cümlədən BMT və Qoşulmama Hərəkatında əməkdaşlığı ölkələrimizin bir-birini həmişə dəstəkləməsinin yaxşı nümunəsidir.

Dövlətimizin başçısı iqtisadi, mədəni, tibb, idman və digər sahələrdə ikitərəfli münasibətlərimizin inkişafı üçün yaxşı perspektivlərin olduğunu vurğuladı və ənənəvi sahələrdən başqa, yeni sahələrin, investisiya imkanlarının müəyyənləşdirilməsinin də önəmini qeyd etdi. Prezident İlham Əliyev səfirə fəaliyyətində uğurlar arzuladı.

Xoş sözlərə görə minnətdarlığını bildirən Karlos Enrike Valdes de la Konsepsyon, ilk növbədə, Kuba Respublikasının Prezidenti Migel Dias-Kanel Bermudesin salamlarını dövlətimizin başçısına çatdırdı. Səfir qeyd etdi ki, Kuba Prezidenti dövlətimizin başçısı ilə Bakıda keçirdiyi görüşü və Azərbaycan Prezidentinin sədrliyi ilə Qoşulmama Hərəkatının Bakı sammitini məmnunluqla xatırlayır.

Dövlətimizin başçısı salamlara görə minnətdarlığını bildirdi, onun da salamlarını Kuba Prezidentinə çatdırmağı xahiş etdi.

Səfir ölkələrimiz arasında mövcud olan yüksək səviyyəli siyasi əlaqələrə əsaslanaraq iqtisadi, turizm və digər sahələrdə əməkdaşlığın genişlənməsi istiqamətində səylərini əsirgəməyəcəyini dedi.

### *Misirin Azərbaycanda yeni təyin olunmuş səfirinin etimadnaməsinin qəbulu*

Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev aprelin 19-da Misir Ərəb Respublikasının ölkəmizdə yeni təyin olunmuş fövqəladə və səlahiyyətli səfiri Hişam Mohamed Nağı Abdel Həmidin etimadnaməsini qəbul edib.

Səfir etimadnaməsini Prezident İlham Əliyevə təqdim etdi.

Dövlətimizin başçısı Azərbaycanla Misir arasında siyasi və mədəni sahələrdə sıx əlaqələrin mövcud olduğunu vurğulayaraq beynəlxalq təşkilatlar çərçivəsində ölkələrimizin qarşılıqlı dəstəyini qeyd etdi. Prezident İlham Əliyev Azərbaycanın Qoşulmama Hərəkatına sədr seçilməsi və sədrlik müddətinin uzadılması ilə bağlı Misirin dəstəyini yüksək qiymətləndirdi. Dövlətimizin başçısı İslam Əməkdaşlıq Təşkilatında fəal əməkdaşlığımızı qeyd etdi və ölkəmizin ərazisinin bir hissəsinin Ermənistan tərəfindən işğalı zamanı Azərbaycanın ərazi bütövlüyü ilə bağlı qətnamələrə verdiyi davamlı dəstəyə görə də Misirə minnətdarlığını bildirdi. Prezident İlham Əliyev bu yaxınlarda İslam Əməkdaşlıq Təşkilatının nazirlər səviyyəsində görüşündə Azərbaycanın mədəni irsi və ərazi bütövlüyünün bərpası ilə bağlı qətnamələrin qəbul olunmasında təşkilatın güclü dəstəyini xüsusi olaraq vurğuladı. Dövlətimizin başçısı Azərbaycanın da öz növbəsində Misiri beynəlxalq arenada dəstəklədiyini bildirdi. İqtisadi əlaqələrə toxunan Prezident İlham Əliyev bu sahədə əməkdaşlığın genişləndirilməsi və qarşılıqlı ticarətin həcminin artırılmasının zəruriliyini qeyd etdi. Dövlətimizin başçısı vurğuladı ki, biznes dairələri arasında qarşılıqlı səfərlərin təşkili bu işə öz töhfəsini verə bilər.

Prezident İlham Əliyev dedi ki, Azərbaycan işğaldan azad edilmiş ərazilərdə aparılan bərpa-yenidənqurma işlərində Misir şirkətlərinin iştirakından məmnun olar və bu, əməkdaşlığımızın yaxşı nümunəsi ola bilər. Dövlətimizin başçısı qeyd etdi ki, işğaldan azad olunmuş ərazilərdə böyük həcmdə görüləsi işlər var və ermə-

nilər tərəfindən 10 min kvadratkilometrdən çox sahəsi olan dağıdılmış ərazilərdə hazırda yenidənqurma və bərpa işləri aparılır. Prezident İlham Əliyev, eyni zamanda, digər sahələrdə də əlaqələrimizin inkişafı üçün yaxşı perspektivlərin olduğunu bildirdi. Dövlətimizin başçısı səfirə fəaliyyətində uğurlar arzuladı.

Xoş sözlərə görə minnətdarlığını bildirən səfir ölkəsinin əlaqələrimizin inkişaf etdirilməsi istiqamətində fəaliyyətdə maraqlı olduğunu vurğuladı.

Görüşdə ölkələrimiz arasında iqtisadi-ticari əlaqələrin inkişafında hökumətlərarası birgə komissiyanın bu ilin fevralında keçirilmiş iclasının əhəmiyyəti vurğulandı.

### *Birləşmiş Ərəb Əmirliklərinin Azərbaycanda yeni təyin olunmuş səfirinin etimadnaməsinin qəbulu*

Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev aprelin 19-da Birləşmiş Ərəb Əmirliklərinin (BƏƏ) ölkəmizdə yeni təyin olunmuş fövqəladə və səlahiyyətli səfiri Məhəmməd Əl Bluşinin etimadnaməsini qəbul edib.

Səfir Məhəmməd Əl Bluşi etimadnaməsini Prezident İlham Əliyevə təqdim etdi.

Dövlətimizin başçısı ölkələrimiz arasında əlaqələrin bütün sahələrdə dinamik şəkildə uğurla inkişaf etdiyini bildirdi. Abu-Dabinin vəliəhdi, Birləşmiş Ərəb Əmirlikləri Silahlı Qüvvələrinin Ali Baş Komandanının müavini Məhəmməd bin Zayed Əl-Nəhyanla telefon söhbətini xatırladan Prezident İlham Əliyev həmin söhbət zamanı əlaqələrimizin daha da intensivləşdirilməsinin vacibliyini bildirdiyini vurğuladı. Dövlətimizin başçısı məmnunluqla qeyd etdi ki, bu telefon danışığından sonra Birləşmiş Ərəb Əmirliklərinin sənaye və qabaqcıl texnologiyalar naziri, Abu-Dabi Milli Neft Şirkətinin idarəedici direktoru, BƏƏ-nin iqlim dəyişikliyi üzrə xüsusi nümayəndəsi, "Masdar" şirkətinin sədri Sultan Əhməd Əl Caber Azərbaycanda səfərdə oldu və səfər zamanı əməkdaşlığımızın strateji əhəmiyyəti qeyd edildi, həmçinin BƏƏ-nin ölkəmizdə konkret investisiya layihələri ilə bağlı səmərəli müzakirələr aparıldı. Prezident İlham Əliyev bu baxımdan Birləşmiş Ərəb Əmirliklərinin "Masdar" şirkəti tərəfindən Azərbaycanda inşa ediləcək 230 MVt gücündə Qaradağ Günəş Elektrik Stansiyasının təməlinin qoyulmasının önəmini vurğuladı, hazırda ölkələrimiz arasında bərpaolunan enerji sahəsində çoxmilyardlı investisiya portfeli üzərində iş aparıldığını bildirdi və bunu iki ölkə arasında dostluq, qardaşlıq və böyük qarşılıqlı marağın göstəricisi kimi dəyərləndirdi. Dövlətimizin başçısı vurğuladı ki, Azərbaycanda çox əlverişli investisiya iqlimi, cəlbedici enerji sektoru mövcuddur və bu, BƏƏ hökuməti tərəfindən də yüksək qiymətləndirilir. Prezident İlham Əliyev ölkələrimiz arasında möhkəm siyasi əlaqələrin olduğunu bildirdi, eyni zamanda, digər sahələrdə, o cümlədən nəqliyyat sahəsində də əməkdaşlığın genişlənməsi üçün böyük imkanların olduğunu dedi və artıq ölkəmizin nəqliyyat infrastrukturuna BƏƏ tərəfindən investisiya qoyulduğunu qeyd etdi. Azərbaycanın müxtəlif istiqamətlərə yönəlmiş çoxşaxəli mühüm regional nəqliyyat habına çevrildiyini vurğulayan dövlətimizin başçısı bu sahədə əməkdaşlığımızın genişləndirilməsi üçün çox yaxşı perspektivlərin olduğunu dedi.

Xoş sözlərə görə minnətdarlığını bildirən səfir BƏƏ Prezidenti Şeyx Xəlifə bin Zayed Əl-Nəhyan, BƏƏ-nin vitse-prezidenti Şeyx Məhəmməd bin Rəşid Əl-Maktum və Abu-Dabi Əmirliyinin vəliəhdi Şeyx Məhəmməd bin Zayed Əl-Nəhyanın salamlarını dövlətimizin başçısına çatdırdı.

Prezident İlham Əliyev salamlara görə minnətdarlığını bildirdi, onun da salamlarını Şeyx Xəlifə bin Zayed Əl-Nəhyan, Şeyx Məhəmməd bin Rəşid Əl-Maktum və Şeyx Məhəmməd bin Zayed Əl-Nəhyana çatdırmağı xahiş etdi.

Ölkələrimiz arasında güclü qardaşlıq əlaqələrinin mövcud olduğunu vurğulayan səfir BƏƏ-nin siyasi, iqtisadi, sosial, mədəni sahələrdə əməkdaşlığımızın daha da genişləndirilməsi istiqamətində böyük səylər göstərdiyini bildirdi.

### *İsrailin maliyyə nazirinin qəbulu*

Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev aprelin 25-də İsrailin maliyyə naziri Aviqdor Libermanı qəbul edib.

Görüşdə Azərbaycan ilə İsrail arasında bu il diplomatik əlaqələrin qurulmasının 30 illiyinin qeyd edildiyi vurğulandı, son dövrlərdə qarşılıqlı səfərlərin intensivliyinin və dinamikasının artması, həmçinin İsraildə Azərbaycan ticarət nümayəndəliyinin fəaliyyət göstərməsi və Turizm Mərkəzinin açılması müsbət amil kimi qiymətləndirildi.

Söhbət zamanı iqtisadi-ticarət əlaqələrinin genişləndirilməsi və enerji sahəsində əməkdaşlıq məsələləri müzakirə olundu.

### *Rusiyanın Həştərxan vilayətinin qubernatorunun rəhbərlik etdiyi nümayəndə heyətinin qəbulu*

Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev aprelin 25-də Rusiya Federasiyasının Həştərxan vilayətinin qubernatoru İqor Babuşkinin rəhbərlik etdiyi nümayəndə heyətini qəbul edib.

Görüşdə Azərbaycan Respublikası ilə Rusiya Federasiyası arasında ikitərəfli münasibətlərin müxtəlif sahələrdə uğurla inkişaf etdiyi vurğulandı, ölkəmizin Rusiyanın ayrı-ayrı subyektləri, o cümlədən Həştərxan vilayəti ilə uzun illər səmərəli əməkdaşlıq həyata keçirdiyi bildirildi.

Söhbət zamanı ölkəmizlə Həştərxan vilayəti arasında ticari-iqtisadi, nəqliyyat, tranzit, gəmiqayırma, limanlararası əlaqələr sahələrində əməkdaşlığın perspektivləri ətrafında fikir mübadiləsi aparıldı. Bakıda Həştərxan İş Mərkəzinin, Həştərxanda isə Heydər Əliyev Fondunun dəstəyi ilə inşa edilən Azərbaycan İş Mərkəzinin fəaliyyət göstərməsinin önəmi qeyd olundu.

Görüşdə humanitar sahədə əməkdaşlıq məsələlərinə toxunuldu, Heydər Əliyev Fondunun Həştərxan vilayətində həyata keçirdiyi mühüm layihələr məmnunluqla xatırlandı. Həştərxanda 10 ildən çoxdur ki, fəaliyyət göstərən Heydər Əliyev adına məktəbin humanitar sahədə əlaqələrimizin inkişafına töhfə verdiyi vurğulandı.

Söhbət zamanı İqor Babuşkinin səfərinin əməkdaşlığımızın daha da genişlənməsi işinə töhfə verəcəyinə əminlik ifadə olundu.

### *Rusiyanın Baş nazirinin müavininin qəbulu*

Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev aprelin 26-da Rusiya Federasiyasının Baş nazirinin müavini Aleksey Overçuku qəbul edib.

Dövlətimizin başçısı ölkələrimiz arasında ticari-iqtisadi sahədə qarşılıqlı fəaliyyətin yaxşı səviyyədə olduğunu qeyd edərək, daha əvvəl əldə edilmiş razılıqların yerinə yetirilməsindən məmnunluğunu bildirdi.

Prezident İlham Əliyev Azərbaycan Respublikası ilə Rusiya Federasiyası arasında iqtisadi əməkdaşlıq məsələləri üzrə Hökumətlərarası Dövlət Komissiyasının fəaliyyətinə toxundu və komissiyanın iclasında görülmüş işlərin nəzərdən keçiriləcəyinə, həmçinin ənənəvi əməkdaşlıq sahələrindən başqa potensial istiqamətlərin, o cümlədən ticarət və xidmətlərin həcminin daha da genişləndirilməsi məsələlərinin müzakirə ediləcəyinə, əməkdaşlıq üçün yeni sahələrin müəyyənləşdiriləcəyinə ümidvar olduğunu bildirdi.

Dövlətimizin başçısı Aleksey Overçukun ölkəmizə səfəri zamanı Rusiya-Azərbaycan-Ermənistan Baş nazirlərinin müavinlərinin sədrliyi ilə üçtərəfli komissiyanın fəaliyyətinin və ilk növbədə, nəqliyyat-kommunikasiya xətlərinin açılması məsələlərinin müzakirə ediləcəyinə əminliyini ifadə etdi. Prezident İlham Əliyev bununla əlaqədar dəmir yolunun Azərbaycan ərazisində artıq 60 kilometrlik hissəsinin tikildiyini və gələn il tikintinin tamamlanacağını bildirdi. Avtomobil yolu ilə də bağlı Azərbaycan tərəfindən işlər qrafikə tam uyğun şəkildə aparılır. Əfsuslar olsun ki, Ermənistan tərəfindən bunlarla bağlı heç bir işə başlanılmayıb, Ermənistan öz ərazisindən keçməsi nəzərdə tutulan avtomobil yolu marşrutunun coğrafi koordinatlarını belə qeyd etməyib. Azərbaycanın bu məsələni dəfələrlə qaldırmasına baxmayaraq, Ermənistan tərəfindən bununla bağlı heç bir cavab gəlməyib.

Aleksey Overçuk Rusiya ilə Azərbaycan arasında bu il diplomatik əlaqələrin qurulmasının 30 illiyinin qeyd edildiyini məmnunluqla xatırlatdı. Qonaq Azərbaycan və Rusiya prezidentləri tərəfindən imzalanan "Azərbaycan Respublikası ilə Rusiya Federasiyası arasında müttəfiqlik qarşılıqlı fəaliyyəti haqqında Bəyannamə"nin önəmini vurğuladı.

Görüşdə ticari-iqtisadi, nəqliyyat, tranzit, logistika, maliyyə, bank, energetika, neft-qaz sahələrində əməkdaşlıq məsələləri müzakirə olundu.

### *Ümumdünya Səhiyyə Təşkilatının Avropa üzrə regional direktorunun qəbulu*

Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev aprelin 26-da Ümumdünya Səhiyyə Təşkilatının (ÜST) Avropa üzrə regional direktoru Hans Henri Klugeni qəbul edib.

Görüşdə Prezident İlham Əliyev Ümumdünya Səhiyyə Təşkilatı ilə Azərbaycan Respublikası arasında səmərəli əməkdaşlığın olduğunu vurğuladı. Dövlətimizin başçısı Ümumdünya Səhiyyə Təşkilatının COVID-19-a qarşı mübarizədə Azərbaycana göstərdiyi davamlı dəstəyə görə təşəkkürünü bildirdi, ÜST-ün COVID-19-a qarşı mübarizəyə dair təqdim etdiyi tövsiyələrin ölkəmiz üçün dəyərli olduğunu qeyd etdi. Prezident İlham Əliyev bildirdi ki, Azərbaycanda COVID-19 ilə bağlı vəziyyət çox müsbətdir, həyata keçirilmiş tədbirlər nəticəsində pandemiyanın çətin dövründə vəziyyət nəzarətdə saxlanılıb. Azərbaycan keçən ilin əvvəlində vaksinasiyaya başlayan ilk ölkələrdən biri olub, indiyədək ölkəmizdə 13 milyondan artıq vaksin istifadə edilib. Azərbaycanda vaksinasiya prosesi anlayışla qarşılanıb. Dövlətimizin başçısı bunun vətəndaşlarımız tərəfindən dövlətin həyata keçirdiyi siyasətə etimadın bir nümunəsi olduğunu dedi.

Ölkəmizdə pandemiya ilə bağlı məhdudiyyətlərin tədricən aradan qaldırıldığını deyən Prezident İlham Əliyev bildirdi ki, çox az sayda məhdudiyyətlər qalıb, bunu da Azərbaycan ictimaiyyəti anlayışla qarşılayır.

Azərbaycanın COVID ilə əlaqədar Ümumdünya Səhiyyə Təşkilatının fəaliyyətini daim dəstəklədiyini bildirən dövlətimizin başçısı vurğuladı ki, həm Qoşulmama Hərəkatında, həm də BMT Baş Assambleyasında çıxışları zamanı Ümumdünya Səhiyyə Təşkilatının COVID-19-a qarşı mübarizədə rolunu xüsusilə qeyd edib.

Prezident İlham Əliyev dedi ki, Azərbaycanda pandemiya nəticəsində yaranan sosial-iqtisadi məsələlərin aradan qaldırılması istiqamətində də dövlətimiz tərəfindən zəruri tədbirlər görülüb və hazırda bu sahədə də vəziyyət sabitdir.

Hans Henri Kluge Ümumdünya Səhiyyə Təşkilatının Baş direktoru Tedros Adhanom Qebreyesusun salamlarını dövlətimizin başçısına çatdırdı.

Prezident İlham Əliyev salamlara görə minnətdarlığını bildirdi, onun da salamlarını Tedros Adhanom Qebreyesusa çatdırmağı xahiş etdi.

Ümumdünya Səhiyyə Təşkilatının Avropa üzrə regional direktoru kimi Azərbaycana ilk dəfə gəldiyini vurğulayan Hans Henri Kluge səfərinin Azərbaycanla BMT arasında tərəfdaşlığın 30 illiyinin qeyd olunduğu bir dövrə təsadüf etməsi baxımından önəmini vurğuladı. Hans Henri Kluge dedi: “Mən Sizin beynəlxalq diplomatiyada qlobal liderliyinizi yüksək qiymətləndirir və bu münasibətlə Sizi səmimi qəlbdən təbrik edirəm. Sizin davamlı inkişaf istiqamətində çox mühüm fəaliyyətiniz olduqca önəmlidir. Çünki məhz Sizin şəxsi liderliyiniz sayəsində COVID-19 pandemiyasına qarşı beynəlxalq həmrəylik təbliğ edilib və bu məsələ BMT-dən sonra dünyanın ən böyük beynəlxalq təşkilatının – Qoşulmama Hərəkatının gündəliyinin əsas məsələsi olub”.

Qonaq Azərbaycanın Qoşulmama Hərəkatında sədrliyinin bir il uzadılmasını dövlətimizin başçısına olan etimadın göstəricisi kimi dəyərləndirdi və bu münasibətlə də təbriklərini çatdırdı.

Hans Henri Kluge Azərbaycanla əməkdaşlığın çox uğurlu olduğunu vurğuladı və rəhbərlik etdiyi təşkilatın bu əməkdaşlığın bundan sonra da davam etdirilməsi istiqamətində səylər göstərəcəyini bildirdi. O, Qoşulmama Hərəkatının sədri kimi Prezident İlham Əliyevin təşəbbüsü ilə Qoşulmama Hərəkatının Təmas Qrupunun 2020-ci ilin mayında koronavirusla mübarizəyə həsr olunmuş onlayn Zirvə görüşünə toxunaraq, məhz Azərbaycan Prezidentinin rəhbərliyi sayəsində həmin Sammit zamanı ÜST-ün rolunun yüksək qiymətləndirildiyini dedi, eyni zamanda, humanitar və tibbi ehtiyaclar üzrə informasiya bazasının yaradılmasına və ÜST vasitəsilə Qoşulmama Hərəkatının COVID-dən ən çox əziyyət çəkmiş 10 ölkəsinə Azərbaycanın 10 milyon dollar məbləğində vəsait yönəltdiyinə görə minnətdarlığını bildirdi.

Qonaq dövlətimizin başçısının təşəbbüsü və rəhbərliyi ilə BMT Baş Assambleyasının COVID-19-la mübarizəyə həsr edilən Xüsusi Sessiyasını, Prezident İlham Əliyevin BMT-nin İnsan Hüquqları Şurası çərçivəsində, həmçinin BMT Baş Assambleyasında vaksinlərin ədalətli, bərabər bölgüsünə dair qətnamənin təşəbbüskarı olduğunu, Azərbaycanın Türk Şurası çərçivəsində Zirvə toplantısının gündəliyinə də COVID-ə qarşı mübarizə məsələsini daxil etdiyini vurğuladı.

Hans Henri Kluge Azərbaycanın COVID-19-a qarşı milli səviyyədə həyata keçirdiyi tədbirlərin də çox təqdirəlayiq olduğunu bildirdi, Azərbaycanda COVID-lə bağlı vəziyyətin daim nəzarətdə saxlanıldığını, dövlətimiz tərəfindən zəruri və ardıcıl tədbirlər görüldüyünü qeyd etdi. O, həmçinin Azərbaycanın həyata keçirdiyi vaksinasiya siyasətinin də çox uğurlu olduğunu bildirdi.

Hans Henri Kluge Ümumdünya Səhiyyə Təşkilatının Azərbaycan ilə əməkdaşlığı bundan sonra da davam etdirmək niyyətində olduğunu dedi. Təşkilatın Azərbaycanda hazırda səhiyyə sistemində aparılan islahatlara yaxından töhfə verməyə hazır olduğunu deyən qonaq bildirdi ki, ölkəmizdə rəqəmsal və elektron səhiyyə sistemlərinin qurulması istiqamətində görülən tədbirlər də çox müsbətdir.

Hans Henri Kluge qeyd etdi ki, Azərbaycanın işğaldan azad olunmuş Qarabağ və Şərqi Zəngəzur bölgələrində həyata keçirəcəyi səhiyyə sisteminin qurulması prosesində, xüsusilə rəqəmsal səhiyyə sisteminin yaradılmasında Ümumdünya Səhiyyə Təşkilatı töhfəsini verməyə və Azərbaycan ilə yaxından əməkdaşlığa hazırdır. Vurğuladı ki, Azərbaycan Ümumdünya Səhiyyə Təşkilatı ilə əməkdaşlıq çərçivəsində səhiyyə xidmətlərini təqdim edən regional mərkəzlərdən birinə çevrilə bilər.

***Latviyanın Baş nazirinin müavininin qəbulu***

Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev aprelin 26-da Latviya Respublikasının Baş nazirinin müavini, müdafiə naziri Artis Pabriksi qəbul edib.

Görüşdə Azərbaycan ilə Latviya arasında əlaqələrin inkişafından məmnunluq ifadə olundu, yüksək səviyyəli qarşılıqlı səfərlərin önəmi qeyd edildi. İqtisadiyyat, ticarət, investisiya, nəqliyyat sahələrində əməkdaşlığın perspektivləri barədə fikir mübadiləsi aparıldı.

Söhbət zamanı Azərbaycan-NATO əlaqələrinə toxunuldu, Prezident İlham Əliyevin ötən il NATO-nun Brüsseldəki mənzil-qərargahına səfəri, Baş katib Yens Stoltenberq ilə görüşü və Şimali Atlantika Şurasının iclasında çıxışı xatırlandı, Azərbaycanın NATO-nun Əfqanıstandakı Qətiyyətli Dəstək Missiyasında iştirakı vurğulandı.

Görüşdə, eyni zamanda, Azərbaycanın Avropa İttifaqı ilə də əlaqələrinin uğurla inkişaf etdiyi bildirildi, bu baxımdan ötən il keçirilən Avropa İttifaqının Şərq Tərəfdaşlığının Sammitinin əhəmiyyəti qeyd edildi.

Qonaq ikinci Ermənistan-Azərbaycan müharibəsində əldə etdiyimiz Qələbə münasibətilə dövlətimizin başçısına təbriklərini çatdırdı.

### *Gürcüstanın xarici işlər nazirinin qəbulu*

Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev aprelin 27-də Gürcüstanın xarici işlər naziri İliya Darçiaşvilini qəbul edib.

Dövlətimizin başçısı ilk növbədə İliya Darçiaşvilini Gürcüstanın xarici işlər naziri vəzifəsinə təyin olunması münasibətilə təbrik etdi, ona fəaliyyətində uğurlar arzuladı. Prezident İlham Əliyev ikitərəfli münasibətlərimizin ölkələrimizin və xalqlarımızın qarşılıqlı dəstəyinə, həmrəyliyinə əsaslandığını bildirdi, əlaqələrimizin möhkəm təməllər üzərində qurulduğunu dedi.

Dövlətimizin başçısı ötən 30 il müddətində Azərbaycan ilə Gürcüstan arasında mövcud olan dostluq münasibətlərinin regional sabitlik və əməkdaşlıq işində mühüm amil olduğunu bildirdi.

İqtisadi sahədə əməkdaşlığa toxunan Azərbaycan Prezidenti xüsusilə nəqliyyat sferasında yeni imkanların olduğunu vurğuladı.

Cənubi Qafqazın inkişafı ilə bağlı ölkələrimizin birgə baxışlarının olduğunu deyən Prezident İlham Əliyev xüsusilə postmünaqişə dövründə Azərbaycan, Gürcüstan və Ermənistan arasında üçlü formatda qarşılıqlı fəaliyyət üçün yaxşı imkanların olduğunu bildirdi və Azərbaycan tərəfinin buna hazır olduğunu qeyd etdi. Dövlətimizin başçısı Gürcüstanın da bu mövqeyi bölüşdüyünü dedi, Ermənistanın da bunun regionda sabitliyin və təhlükəsizliyin bərqərar olmasının yeganə yolu olduğunu anlayacağına ümidvarlığını ifadə etdi.

İliya Darçiaşvili Gürcüstanın Baş naziri İrakli Qaribaşvilinin salamlarını və Gürcüstana səfər etməklə bağlı dəvətini Prezident İlham Əliyevə çatdırdı.

Dövlətimizin başçısı salamlara və səfərə dəvətə görə minnətdarlığını bildirdi, onun da salamlarını Gürcüstanın Baş nazirinə çatdırmağı xahiş etdi.

Bakıda çox səmərəli görüşlər keçirdiyini bildirən İliya Darçiaşvili ölkələrimiz arasında ikitərəfli münasibətlərin inkişafına töhfə vermək üçün səylərini əsirgəməyəcini dedi. Qonaq Azərbaycan Prezidentinin əlaqələrimizin inkişafına verdiyi dəstəyi Gürcüstan tərəfinin yüksək qiymətləndirdiyini bildirdi. Bu il ölkələrimiz arasında diplomatik münasibətlərin qurul-masının 30 illiyinin qeyd edildiyini deyən Gürcüstanın xarici işlər naziri əməkdaşlığın gələcəkdə də genişləndirilməsinin zəruriliyini vurğuladı.

Görüşdə qarşılıqlı maraq doğuran digər məsələlər ətrafında fikir mübadiləsi aparıldı.

### *ABŞ Dövlət katibi köməkçisinin müavininin başçılıq etdiyi nümayəndə heyətinin qəbulu*

Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev aprelin 27-də Amerika Birləşmiş Ştatlarının (ABŞ) Dövlət katibi köməkçisinin Qafqaz məsələləri, regional münaqişələr və Cənubi Avropa məsələləri üzrə müavini Erika Olsonun başçılıq etdiyi nümayəndə heyətini qəbul edib.

Nümayəndə heyətinə ABŞ Dövlət Departamentinin Qafqaz bölgəsi danışıqları üzrə ali müşaviri Endryu Şofer, ABŞ-ın Azərbaycandakı səfiri Örl Litzenberqer, Gürcüstandakı səfiri Kelli Deqnan və Ermənistandakı səfiri Linn Treysi daxildir.

Görüşdə Azərbaycanla ABŞ arasında ikitərəfli əlaqələrin inkişaf perspektivlərinə dair geniş müzakirələr aparıldı. Həmçinin bu il Azərbaycanla ABŞ arasında diplomatik münasibətlərin yaradılmasının 30 illiyinin qeyd olunduğu vurğulandı. Bu müddət ərzində ölkələrimiz arasında uğurlu əməkdaşlıq əlaqələrinin qurulduğu, xüsusilə enerji sahəsində sıx əməkdaşlığın həyata keçirildiyi bildirildi.

Söhbət zamanı regional məsələlər barədə fikir mübadiləsi aparıldı, Azərbaycan ilə Ermənistan arasında münasibətlərin normallaşdırılması və sülh müqaviləsinin hazırlanması üçün danışıqların aparılması, kommunikasiyaların açılması məsələləri müzakirə edildi. Prezident İlham Əliyev bildirdi ki, sülh müqaviləsi ilə bağlı danışıqların başlanılması üzrə Azərbaycan nümayəndə heyəti hazırdır.

Dövlətimizin başçısı 30 ilə yaxın davam edən işğal dövründə Ermənistanın ərazilərimizdə törətdiyi dağıntıları, maddi-mədəniyyət abidələrimizin, 60-dan çox məscidin dağıdıldığını və onlardan tövlə kimi istifadə olunduğunu qeyd etdi. İşğal dövründə ərazilərimizdə Ermənistan tərəfindən çox sayda minaların basdırıldığını deyən Prezident İlham Əliyev hazırda Azərbaycanın üzləşdiyi mina problemini vurğuladı, bu xüsusda ABŞ-ın dəstəyinin əhəmiyyəti qeyd edildi.

Söhbət zamanı dövlətimizin başçısı Birinci Qarabağ müharibəsindən etibarən 4 mindən çox soydaşımızın itkin düşmüş hesab olunduğunu, onların bir çoxunun işgəncələrə məruz qaldığını və öldürülərək Ermənistan tərəfindən kütləvi məzarlıqlarda basdırıldığını bildirdi, həmin məzarlıqların yerləri haqqında Ermənistan tərəfindən məlumatın verilməsinin vacibliyini vurğuladı və bununla əlaqədar ABŞ hökumətinin dəstəyinin zəruriliyini qeyd etdi.

Görüşdə regionda davamlı sülhün, sabitliyin, təhlükəsizliyin təmin olunması və qarşılıqlı maraq doğuran digər məsələlər ətrafında geniş fikir mübadiləsi aparıldı.

### *NATO Baş katibinin Qafqaz və Mərkəzi Asiya üzrə xüsusi nümayəndəsinin qəbulu*

Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev aprelin 28-də NATO Baş katibinin Qafqaz və Mərkəzi Asiya üzrə xüsusi nümayəndəsi Xavyer Kolominanı qəbul edib.

Xavyer Kolomina NATO-nun Baş katibi Yens Stoltenberqin salamlarını dövlətimizin başçısına çatdırdı.

Prezident İlham Əliyev salamlara görə minnətdarlığını bildirdi, onun da salamlarını Yens Stoltenberqə çatdırmağı xahiş etdi.

Görüşdə dövlətimizin başçısının ötən ilin sonunda NATO-nun mənzil-qərargahına səfəri və səfər çərçivəsində Baş katiblə görüşü, həmçinin Şimali Atlantika Şurasının iclasında çıxışı xatırlandı. Eyni zamanda, NATO-nun Əfqanıstandakı Qətiyyətli Dəstək missiyasında ölkəmizin iştirakı qeyd edildi.

Söhbət zamanı postmünaqişə dövründə Azərbaycanla Ermənistan arasında münasibətlərin normallaşdırılması prosesi, enerji təhlükəsizliyi, regional təhlükəsizlik ilə bağlı məsələlər və Azərbaycan-NATO əməkdaşlığının perspektivləri ətrafında fikir mübadiləsi aparıldı.

### *Dünya Turizm Təşkilatının Baş katibinin qəbulu*

Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev aprelin 30-da Dünya Turizm Təşkilatının Baş katibi Zurab Pololikaşvilini qəbul edib.

Görüşdə Azərbaycanla Dünya Turizm Təşkilatı arasında uğurlu əməkdaşlığın həyata keçirildiyi bildirildi.

Zurab Pololikaşvili turizmin inkişafına verdiyi dəstəyə görə dövlətimizin başçısına minnətdarlığını ifadə etdi.

Söhbət zamanı ölkəmizdə hazırkı postpandemiya dövründə pandemiyadan əvvəlki turizmin inkişaf səviyyəsinin bərpa edilməsi və daha da artırılması istiqamətində həyata keçirilən və görüləcək işlərdən danışıldı. Bu baxımdan ölkəmizin müvafiq strukturları tərəfindən Dünya Turizm Təşkilatının tövsiyələrindən istifadə olunmasının önəmi vurğulandı.

Ölkəmizin əldə etdiyi böyük iqtisadi uğurların, hökm sürən əmin-amanlığın, geniş turizm infrastrukturunun yaradılması istiqamətində həyata keçirilən tədbirlərin turizmin inkişafı üçün çox yaxşı zəmin yaratdığı bildirildi.

Görüşdə əməkdaşlığın perspektivləri ətrafında fikir mübadiləsi aparıldı.

### *Fransa Xarici İşlər Nazirliyinin Şərq Tərəfdaşlığı üzrə səfirinin qəbulu*

Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev mayın 2-də Fransa Respublikasının Xarici İşlər Nazirliyinin Şərq Tərəfdaşlığı üzrə səfiri Bris Rokföyü qəbul edib.

Bris Rokföy Fransanın Cənubi Qafqazda sülh gündəliyini, eyni zamanda, Avropa İttifaqının sədri kimi ölkəsinin Avropa İttifaqının Azərbaycanla əlaqələrin müxtəlif sahələri üzrə təşəbbüslərini tam dəstəklədiyini dedi.

Söhbət zamanı Azərbaycan-Avropa İttifaqı əlaqələrinin uğurla inkişaf etdiyi vurğulandı, dövlətimizin başçısının ötən ilin dekabrında Brüsseldə Avropa İttifaqının Şərq Tərəfdaşlığı Sammitində iştirakı xatırlandı.

Görüşdə postmünaqişə dövrü və Azərbaycan ilə Ermənistan arasında əlaqələrin normallaşdırılması, sülh müqaviləsinin hazırlanması üçün danışıqların aparılması, sərhədlərin delimitasiyası ilə bağlı məsələlər müzakirə olundu. Ölkəmizin irəli sürdüyü 5 prinsipi Ermənistan tərəfinin qəbul etdiyini vurğulayan dövlətimizin başçısı sülh müqaviləsi ilə bağlı danışıqların başlanılması üzrə Azərbaycan nümayəndə heyətinin hazır olduğunu bildirdi.

Söhbət zamanı Azərbaycan-Fransa münasibətlərinə toxunuldu. Prezident İlham Əliyev ötən ilin dekabrında Fransa Prezidenti Emmanuel Makronla Brüsseldə görüşünü və bu ilin fevralında videoformatda görüşünü qeyd etdi. Dövlətimizin başçısı, eyni zamanda, Emmanuel Makrona Fransa Respublikasının Prezidenti vəzifəsinə yenidən seçilməsi münasibətilə təbrik ünvanladığını xatırladı.

### *Vahid Hacıyevin Prezidentin Zəngilan rayonunda xüsusi nümayəndəsi təyin olunması ilə əlaqədar videoformatda qəbulu*

Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev mayın 4-də Vahid Hacıyevi Prezidentin Şərqi Zəngəzur iqtisadi rayonuna daxil olan Zəngilan rayonunda xüsusi nümayəndəsi təyin olunması ilə əlaqədar videoformatda qəbul edib.

Dövlətimizin başçısı qəbulda çıxış edib.

#### Prezident İlham Əliyevin çıxışı

– Siz bu gün Zəngilan rayonunda Prezidentin xüsusi nümayəndəsi vəzifəsinə təyin edilirsiniz. Sizi təbrik edirəm və uğurlar arzulayıram. Sizə böyük etimad göstərilir və siz bu etimadı öz işinizlə doğrultmalısınız.

Zəngilan rayonu azad edilmiş digər rayonlarımız kimi böyük dağıntılara məruz qalmışdır. Ermənistan işğalçı qüvvələri Zəngilan rayonunu demək olar ki, yerlə-yeksan etmişlər. Zəngilan şəhərində cəmi 1-2 salamat bina qalıb, o binalardan da Ermənistan işğalçıları - hərbçilər istifadə edirdilər. Bir dənə də salamat kənd qalmayıb, Zəngilanın bütün kəndləri yerlə-yeksan edilib. Bu, bir daha erməni vandalizminin eybəcər sifətini bütün dünyaya göstərir, bir də onu göstərir ki, Azərbaycan xalqı və Azərbaycan Ordusu bölgəmizi böyük bəladan – erməni faşizmindən xilas etmişdir.

Zəngilan rayonunda, eyni zamanda, bütün tarixi-dini abidələrimiz ermənilər tərəfindən dağıdılıb. Biz artıq tarixi-dini abidələrimizin bərpası işinə başlamışıq. Heydər Əliyev Fondunun maliyyə dəstəyi ilə Zəngilan şəhər məscidi indi əsaslı şəkildə təmir olunur, faktiki olaraq yenidən qurulur. Çünki bu məsciddən cəmi bir divar qalmışdı. Yəni, Zəngilanda mövcud olan acı mənzərə azad edilmiş bütün başqa torpaqlarda da mövcuddur.

Biz azad edilmiş bütün torpaqları bərpa edəcəyik və Zəngilan rayonu bu sahədə birinci rayondur ki, artıq keçmiş məcburi köçkünlər yaxın gələcəkdə oraya qayıdacaqlar. Bildiyiniz kimi, birinci pilot layihə Zəngilanın Ağalı kəndində həyata keçirilir. Ağalı kəndi faktiki olaraq yenidən qurulur, böyük və rahat kənd olacaq. Ağalı kəndinin timsalında hər bir Azərbaycan vətəndaşı və ümumiyyətlə, hər bir insan bizim planlarımızı görə bilər. Biz azad edilmiş torpaqları necə görmək istəyirik? Biz insanlara, oraya qayıdacaq insanlara hansı şəraiti yaratmaq istəyirik? Hər kəs görəcək ki, işlərimiz planlı və sistemli şəkildə aparılacaq, bütün amillər nəzərə alınacaq – təhlükəsizlik, rahatlıq, rifah, məşğulluq və gələcək inkişaf.

Eyni zamanda, hazırda Zəngilan rayonunda böyük infrastruktur layihələri icra edilir. Onların arasında Zəngəzur dəhlizinin tərkib hissəsi olan nəqliyyat infrastrukturunu mən qeyd etmək istərdim. Bu il Zəngilan Beynəlxalq Hava Limanı istismara veriləcəkdir. Əminəm ki, bu hava limanının çox böyük funksiyaları olacaqdır. Çünki biz Zəngilanı gələcəkdə beynəlxalq nəqliyyat-logistika mərkəzi kimi görürük. Rayonun yerləşməsi, beynəlxalq bazarlara yaxın olması və digər amillər bunu təmin edəcək. Azad edilmiş torpaqlarda Füzulidən sonra ikinci hava limanının məhz Zəngilanda yaradılması əlbəttə ki, coğrafi vəziyyəti nəzərdə tutur, buna əsaslanır, eyni zamanda, bizim həm iqtisadi, nəqliyyat, həm də təhlükəsizliklə bağlı məsələlərimizi həll etmək üçün vacib vasitə olacaqdır. Zəngəzur dəhlizinə gəldikdə, artıq bu dəhliz reallıqdır. Zəngilan rayonunun ərazisindən keçən həm dəmir yolu, həm avtomobil yolu nəinki Azərbaycanın əsas hissəsini Naxçıvan Muxtar Respublikası ilə birləşdirəcək, eyni zamanda, beynəlxalq yükdaşımaları üçün yeni bir yol olacaq, beynəlxalq bir yol olacaq. Ona görə və eyni zamanda, keçmiş məcburi köçkünlərin rahatlığı üçün biz dörd və altı zolaqdan ibarət olan avtomobil yolunu sürətlə inşa edirik. Bu yolun hissə-hissə istifadəyə verilməsi gələn ildən başlayacaq.

Azərbaycan vətəndaşları yaxşı bilirlər ki, işğal dövründə Ermənistan rəhbərliyi Ermənistandan Cəbrayıla yol çəkmək istəyirdi. Həmin bu yol təbii ki, Zəngilandan keçməli idi. Onların bu ümidləri və ümumiyyətlə, bütün ümidləri gözlərində qaldı. Bildiyimə görə, birzolaqlı kənd tipli bir yol çəkmək fikrində idilər. Biz isə Horadizdən Zəngilana dörd və altızolaqlı magistral avtomobil yolu çəkirik. Eyni zamanda, mövcud yol, yəni, sovet vaxtından qalan yol, hansı ki, indi biz ondan istifadə edirik, o da əsaslı şəkildə təmir olunacaq. Yəni, yeni çəkilən yol tam yeni və daha əlverişli marşrutla keçir və yolboyunca yol infrastrukturu həm məsafə baxımından daha əlverişli olacaq, həm də əlbəttə, vətəndaşlar bu yolla rahat gedib-gələcəklər və beynəlxalq yükdaşıma məsələləri öz həllini tapacaqdır.

Bununla yanaşı, Zəngilandan Qubadlıya və Qubadlıdan Laçına bir çox zolaqdan ibarət yol çəkilir. Bu da Şərqi Zəngəzur iqtisadi rayonundakı rayonlar arasında birləşməni təmin edəcəkdir. Dəmir yoluna gəldikdə, hazırda bizim sonuncu dəmir yolu infrastrukturu olan bu istiqamətdə stansiyamız Horadizdir. Horadizdən Ağbəndə gedən dəmir yolunun inşası artıq sürətlə aparılır və əminəm ki, gələn il tam istismara veriləcəkdir. Bu da həm vətəndaşlar üçün, həm də beynəlxalq yükgöndərənlər üçün çox əlverişli bir infrastruktur olacaqdır.

Biz həm Azərbaycanın əsas hissəsini Naxçıvan Muxtar Respublikası ilə Zəngəzur dəhlizi vasitəsilə birləşdirəcəyik, tam yeni nəqliyyat dəhlizi açılacaq. Nəzərə alsaq ki, son vaxtlar Azərbaycana Xəzər dənizinin Şərq hissəsindən çoxlu müraciətlər daxil olub. Azərbaycan ərazisindən yük göndərmək istəyənlərin həm sayı, həm də yüklərin həcmi artır, əlbəttə, Zəngəzur dəhlizi bizim üçün və qonşu dövlətlər üçün əlavə imkanlar yaradacaq.

Biz son illər ərzində, deyə bilərəm ki, təqribən 10-15 il ərzində nəqliyyat sektoruna çox böyük əhəmiyyət vermişik. Məhz buna görə bu gün istənilən yükü qəbul edə və onu tranzit kimi ötürə bilərik, bunu edirik və bizim imkanlarımız daha da artacaq.

Digər vacib məsələ məşğulluqla bağlıdır. Ağalı kəndində bu məsələ nəzərdə tutulub. Bu il orada yeni müəssisələrin yaradılması nəzərdə tutulur. Mən göstəriş vermişdim ki, keçmiş məcburi köçkünlər Ağalı kəndinə qayıdan zaman artıq orada işlə məşğul olmaq üçün imkan olsun – həm kənd təsərrüfatında, həm də dövlət və özəl şirkətlər tərəfindən yaradılmış müəssisələrdə insanlar çalışacaqlar. Azad edilmiş torpaqlarda bizim kənd təsərrüfatı ilə bağlı çox böyük planlarımız var. İndi hər kəs yaxşı görür və bilir ki, ərzaq təhlükəsizliyi ön plana çıxır. Son illərdə bu istiqamətdə bir çox işlər görülüb. Ancaq hələ ki, biz özümüzü tam şəkildə, yəni, 100 faiz ərzaqlıq buğda ilə və bütövlükdə taxılla təmin edə

bilmirik. Əminəm ki, görüləcək əlavə tədbirlər nəticəsində idxaldan asılılıq böyük dərəcədə azalacaq. Burada əsas məsələ həm məhsuldarlıq, sudan düzgün istifadə edilməsi, eyni zamanda, azad olunmuş torpaqlarda əkin yerlərinin düzgün seçilməsi və orada aqrotexniki xidmətin göstərilməsidir.

Azad edilmiş ərazilərin təbii iqlimi və coğrafiyası elədir ki, orada həm heyvandarlıqla çox genişmiqyaslı məşğul olmaq olar, xüsusilə Laçın, Kəlbəcər, o cümlədən Qubadlı, Zəngilan rayonlarında, həm də əkinçiliklə daha çox Ağdam, Füzuli, Xocavənd, Cəbrayıl və eyni zamanda, Zəngilan, Qubadlı rayonlarında. Azad edilmiş ərazilərdə birinci aqropark məhz yenə də Zəngilan rayonunda yaradılır. Keçən il mən qardaşım, Türkiyə Cümhuriyyətinin Prezidenti ilə birlikdə “DOST Aqropark” adlandırılan aqroparkın təməlini qoyduq. Bu yaxınlarda aqroparkın fəaliyyəti ilə bağlı mənə məlumat verildi. Çox şadam ki, hər şey plan üzrə gedir. Bu, birinci, nümunəvi bir aqropark olacaq. Əminəm ki, azad edilmiş torpaqlarda aqroparkların sayı çox olacaq. Necə ki, indi sənaye zonaları yaradılır həm Cəbrayıl rayonunda, həm Ağdam rayonunda.

Hesab edirəm ki, Zəngilan rayonunda əsas məşğulluq və iqtisadiyyatın əsas hissələrindən biri də kənd təsərrüfatı olmalıdır. Çünki təbii iqlim çox əlverişlidir və yenə də “DOST Aqropark”ın timsalında biz azad edilmiş bütün torpaqlarda gələcəkdə yaradılacaq mənzərəni görməliyik.

Eyni zamanda, azad edilmiş hər bir rayonda kəndlərin bərpası ilə bağlı işlərə artıq start verilmişdir. Bu haqda bu yaxınlarda ictimaiyyətə məlumat verilmişdir. Biz kəndləri də planlı şəkildə bərpa edəcəyik. Biz bu prosesi də mərhələlərə böldük. Birinci mərhələdə hansı kəndlər qurulacaq, ikinci mərhələdə və sair. Əlbəttə, kəndlərin qurulması da planlı şəkildə aparılmalıdır. Yəni, kortəbii yox, sistemli şəkildə. Ona görə hər bir yeni yaradılacaq, bərpa ediləcək kəndin baş planı olmalıdır və baş planlar hazırda hazırlanır. Necə ki, şəhərlərin baş planları, o cümlədən Zəngilan şəhərinin, eləcə də kəndlərin baş planları hazırlanacaq. Azad edilmiş bütün torpaqlarda görüləcək bütün işlər ancaq baş planlar əsasında olmalıdır. Baş plandan kənar bir dənə də daş daş üstə qoyulmamalıdır, bir dənə də qanunsuz tikili olmamalıdır. Yəni, biz nümunəvi bir yaşayış məkanını yaradırıq. Həm Azərbaycan üçün, həm dünya üçün nümunəvi bir təcrübə sahibi olacağıq. Ona görə hər şey şəffaf, tenderlər və baş planlar əsasında yaradılacaqdır. Ona görə azad edilmiş bütün rayonlarda, o cümlədən Zəngilan rayonunda da bu işlərə artıq hazırlıq gedir.

Ermənistan işğal dövründə işğal altında olan torpaqların ekologiyasına da böyük zərər vurmuşdur və mən həmin rəqəmləri səsləndirmişdim. Əlli-altmış min hektar meşə ilə örtülü sahə tamamilə məhv edilmişdir. Biz bunu peyk vasitəsilə müşahidə edirdik. Xüsusilə Kəlbəcər, Laçın, Zəngilan və Qubadlı rayonlarında meşələrin kütləvi surətdə qırılması prosesi gedirdi. Yəni, bu, faktiki olaraq vəhşilik və talançılıqdır. Ermənistanın işğal dövründə çirkin əməllərini təsvir etmək üçün, hesab edirəm ki, bu iki ifadə ön planda olmalıdır – vəhşilik və talançılıq. Zəngilanda da bu mənfur işlər görülmüşdür və bunun nəticəsində təbiətə çox böyük ziyan vurulmuşdur.

Hər kəs yaxşı bilir ki, Avropada ərazisinə görə ikinci ən böyük çinar meşəsi Zəngilan rayonunda olub - Bəsitçay təbiət qoruğu. O Bəsitçay təbiət qoruğunun böyük hissəsi məhv edilib və mən Zəngilanda olarkən o kəsilmiş ağacların kötüklərini görmüşəm və eyni zamanda, yandırılmış ağacları da görmüşəm. Eyni çirkin əməlləri onlar Kəlbəcər və Laçın rayonlarında müharibədən dərhal sonra etmişdilər. Onlara möhlət verilmişdi o ərazilərdən çıxmaq üçün, iyirmi gün vaxt verilmişdi. O günləri onlar yenə də bəd əməllər üçün istifadə etmişdilər. Onlara məxsus olmayan, azərbaycanlıların tikdirdikləri və onların qanunsuz yaşadıqları evləri məhv etmiş, yandırmış, ağacları kəsmiş, yandırmışlar. Bütün əşyaları ya məhv etmiş, ya da ki, söküb aparmışlar. Bu biabırçı kadrlar xarici kanallar vasitəsilə də görüntüləndi və hər kəs görə bildi ki, onlar hansı əşyaları özləri üçün əziz bilib tələm-tələsik çıxartmağa nail olmuşdular. Amma, eyni zamanda, ağacları kəsib yandırmışdılar.

Biz Bəsitçay təbiət qoruğunun bərpasına başladıq. Mən tarixi Zəfərdən sonra ilk dəfə Zəngilanda olanda orada ağaclar əkmişəm. Göstəriş verilib və təbii ki, biz Bəsitçay təbiət qoruğunu bərpa edəcəyik. Amma, buna, əlbəttə ki, çox vaxt lazım olacaq.

Eyni zamanda, Ermənistan Zəngilandakı və digər rayonlardakı qızıl və digər qiymətli metallar yataqlarını da vəhşicəsinə istismar etmişdir. Zəngilanda Vejnəli qızıl yatağını vəhşicəsinə istismar etmişdir. Oranı da ekoloji fəlakət zonasına çevirmişdir və qanunsuz olaraq orada çıxarılan qızıl xaricə aparılıb satılmışdır.

Biz indi bütün hüquqi prosedurlara start vermişik. Mən bu haqda Azərbaycan ictimaiyyətini məlumatlandırmışdım. Bir cinayət də cavabsız qalmayacaq. Birincisi, biz dəymiş bütün ziyanı hesablayırıq, bütün şəhər və kəndlərimizin pasportlaşdırılması prosesi gedir. Hər bir binanın, yaxud da ki, o binadan qalan dağıntıların video-foto çəkilişi aparılır. Bu, sübutdur və biz beynəlxalq məhkəmələrə də müraciət etmək əzmindəyik, hazırlıq işləri gedir. Həmçinin Vejnəli qızıl yatağının xarici vətəndaşlar tərəfindən, o cümlədən erməni əsilli xarici vətəndaşlar tərəfindən qanunsuz istismar edilməsi onlara baha başa gələcək. Biz o adamların adlarını bilirik. Biz onları dünya qarşısında ifşa edəcəyik və bizə təzminat ödəyəcəklər. Vurulmuş ziyanın təzminatını mütləq ödəyəcəklər.

Eyni zamanda, təbii fəlakət zonaları arasında yenə də Zəngilanın ərazisindən keçən Oxçuçay çayının taleyini biz əfsuslar olsun ki, ürək ağrısı ilə dilə gətiririk. Oxçuçay da Ermənistanın ekoloji terroruna məruz qalmışdır. Əfsuslar olsun ki, bir xarici şirkət də bu

ekoloji terrorun ermənilərlə birlikdə müəllifi olmuşdur. Oxçuçayın sarı rəngə boyanması artıq mətbuatda dəfələrlə dərc edilib, həm foto, həm videogörüntülər var. Yəni, Ermənistanda istismar edilən mis kombinatının bütün axıntıları Oxçuçaya təmizlənmədən ötürülürdü. Bu, cinayətdir, bu, ekoloji terrordur. Bunu kim edib? Ermənistanın keçmiş rəhbərliyi. Çünki həmin o mis kombinatının səhmdarları Ermənistanın keçmiş rəhbərliyinə yaxın olan və qohumluq əlaqələri olan adamlardır. Biz bilirik ki, bu mis kombinatının işlənilməsi korrupsiya sxemləri əsasında olub. Təəssüf ki, beynəlxalq auditə subyekt olan xarici şirkət də bu korrupsiya əməllərində iştirak edib.

Ermənistan rəhbərliyinə gəldikdə, onların hər bir addımı, hər bir hərəkəti biabırçılıq olub. Amma beynəlxalq auditlə işləyən beynəlxalq şirkət bu çirkin əməllərə əl atırsa, burada həmin o şirkətin yerləşdiyi ölkələrin hüquq-mühafizə orqanlarının işi olmalıdır. Biz bir neçə dəfə o şirkətin adını çəkmişik, bu gün də çəkə bilərəm: "Cronimet" şirkəti. Nə üçün bu günə qədər reaksiya verilmir? Nə üçün Almaniyanın hüquq-mühafizə orqanları bu şirkətin əməllərini araşdırmır? Biz axı, rəsmən müraciət etmişik. Həm də həmin "Cronimet" şirkətinə müraciət etmişik: gəlin, təmizləyin bu ekoloji terrorun fəsadlarını. Cavab yoxdur. Hüquq-mühafizə orqanlarından cavab yoxdur. Axı, biz bilirik ki, Avropada ekologiyaya nə qədər böyük diqqət göstərilir. Biz bilirik ki, havanın yarım dərəcə istiləşməsi indi bütün dünya, Avropa üçün böyük problem kimi qəbul edilir. İqlim dəyişikliyi problemi bu gün dünya gündəliyinin diqqətini cəlb edib. Amma burada açıq-aşkar görünür ki, təmiz qaynaqlardan axan çay sarı rəngə boyanır. Yəni, oradan götürülən nümunələr, o cümlədən işğal dövründə götürülən nümunələr bunu göstərir. Birinci olaraq erməni ekoloqları bu məsələni qaldırmışdılar. Onlar qeyd edirdilər ki, burada təbii fəlakət baş verir. Əlbəttə ki, onlar Azərbaycana, necə deyərlər, xoş münasibət göstərən adamlar deyildilər, onlar hesab edirdilər ki, bu torpaqlar Ermənistanın əlində əbədi olacaq. Ona görə məsələ qaldırmışdılar və əvvəlki rəhbərliyi, kriminal xunta rejimini - Serjik Sarkisyanı və onun qohumlarını ittiham etmişdilər. Onların da əlində sübutlar var. Amma bir addım atıldı? Yox.

Ona görə bu məsələni də indi bizim mərkəzi icra orqanları qaldırıblar və məşğul olurlar. Əlbəttə ki, siz mənim nümayəndəm kimi bütün bu məsələləri daha dərindən təhlil etməlisiniz və vurulmuş ziyanın ödənilməsi, məhkəmə və hüquq iddialarının qaldırılması ilə bağlı öz töhfənizi verməlisiniz. Əlbəttə, bu, əsas məsələlərdir, bu, ilkin mərhələdə görüləcək işlərdir, o cümlədən minatəmizləmə işləri. İndi bizim müvafiq qurumlarımız bu işlə məşğul olurlar. Əlbəttə ki, mənim yerlərdəki nümayəndələrim də burada fəal iştirak etməlidirlər, öz köməklərini göstərməlidirlər.

Qarşıda duran digər vəzifələr, əlbəttə ki, ilk növbədə, keçmiş məcburi köçkünlərin azad edilmiş torpaqlara tezliklə qayıtmaları ilə bağlıdır. Burada da dövlət nə mümkünsə edir, bütün güclər səfərbər olunub. Maliyyə vəsaiti səfərbər edilib. Keçən il və bu il bu məqsədlər üçün hər il üzrə 2,2 milyard manat vəsait nəzərdə tutulub, yəni, toplam 4,4 milyard manat. Bu il bizim iqtisadi inkişafımız daha sürətlidir və ilin birinci rübündə iqtisadiyyat təxminən 7 faiz artıb, gəlirlərimiz də artıb. Ona görə mən hesab edirəm ki, təxirəsalınmaz işlərin görülməsi üçün biz əlavə vəsait ayırmalıyıq. Azad edilmiş torpaqların bərpası üçün əlavə vəsait ayırmalıyıq. Hökumətə bu məsələ ilə bağlı göstəriş verildi. Yəqin ki, yaxın gələcəkdə biz bunu rəsmən təsdiqləyəcəyik ki, daha çox işi bu il görə bilək. Hələ, deməli, ilin 4 ayı keçib, görüləcək işlər çoxdur. Ona görə keçmiş məcburi köçkünlərin qaytarılması üzrə birinci layihə, qeyd etdiyim kimi, yaxın zamanlarda icra olunacaq. Digər layihələrə də mütləq başlamaq lazımdır.

Zəngilan şəhərinin Baş planının ilkin versiyası mənə təqdim edilmişdir. Prinsip etibarilə bu, məqbuldur. Amma, əlbəttə ki, göstəriş vermişəm ki, daha geniş diskussiyalar, müzakirələr aparılsın. Siz də təbii olaraq bu işlərə dərhal qoşulun. Zəngilan şəhərinin Baş planı bütün müasir memarlıq normalarını ehtiva edəcək. Həm xarici görünüşü çox gözəl olmalıdır, rahatlıq olmalıdır, həm də bütün ekoloji standartlar burada təmin edilməlidir və tətbiq olunmalıdır. Zəngilan şəhəri və ümumiyyətlə, Zəngilan rayonu təbiət nöqteyi-nəzərindən çox gözəl olduğu üçün yeni yaradılacaq şəhər də bu gözəlliyi özündə təcəssüm etdirməlidir. Ona görə Baş planın qəbul edilməsi, təsdiq olunması və ondan sonra işlərin daha sürətlə getməsi, əlbəttə ki, təmin ediləcəkdir.

Zəngilanda kənd təsərrüfatının inkişafı ilə bağlı çox böyük imkanlar var. Mən artıq bəzi fikirlərimi bildirmişəm. Amma rayonun bütün kənd təsərrüfatı potensialı tam dəqiqliyi ilə təhlil edilməlidir və ora qayıdacaq keçmiş məcburi köçkünlər üçün də tövsiyələr verilməlidir. Əlbəttə ki, burada mərkəzi icra orqanları - Kənd Təsərrüfatı Nazirliyi, İqtisadiyyat Nazirliyi, Ekologiya və Təbii Sərvətlər Nazirliyi və mənim nümayəndəm kimi siz birgə işləməlisiniz. Zəngilan rayonunun kənd təsərrüfatı potensialının maksimum dərəcədə realizə etmək üçün tövsiyələr verilməlidir - harada hansı iş görülməlidir? Əlbəttə ki, sovet vaxtında orada kənd təsərrüfatı ilə bağlı aparılan işlər təhlil edilməlidir. Ancaq təbii ki, bu, bizim üçün əsas ola bilməz. Çünki o vaxt tam fərqli aqrotexniki imkanlar, tam fərqli texnologiyalar var idi. Biz Zəngilan rayonunda kənd təsərrüfatı sahəsinə ən qabaqcıl texnologiyaları gətirməliyik və bunu mən mərkəzi icra orqanları qarşısında vəzifə kimi qoymuşam – dünyada ən mütərəqqi texnologiya nədirsə, o, bizdə olmalıdır, xüsusilə azad edilmiş ərazilərdə. Çünki 30 ilə yaxın insanlar torpaq həsrəti ilə yaşamışlar, Ermənistan onların ömrünün böyük hissəsini oğurlamışdır. Onlardan minlərlə, on minlərlə insan öz doğma torpağını görməyib, həsrətlə həyatdan gedib. Ona görə oraya qayıdacaq insanlar üçün xüsusi şərait yaradılma-

lıdır. Kənd təsərrüfatı həm məşğulluq, həm ərzaq təhlükəsizliyi, həm də ixrac deməkdir.

Zəngilan rayonu həmsərhəd rayondur, həm İranla, həm Ermənistanla və Naxçıvana da məsafə çox yaxındır. Zəngəzur dəhlizinin işə düşməsi nəticəsində, eyni zamanda, Zəngilan rayonundan İran İslam Respublikasına keçən yollar nəzərə alınmaqla ixrac bazarlarına Zəngilanda yetişdiriləcək malların çox böyük çıxış imkanı var və biz bundan maksimum faydalanmalıyıq. Çünki Zəngilandan Ordubada gedən dəmir yolu, avtomobil yolu, o cümlədən İran ərazisinə keçir, – mart ayında müvafiq Memorandum imzalanmışdır, – eyni zamanda, Ermənistan ərazisindən də mütləq keçməlidir və əminəm ki, keçəcəkdir. Ona görə ixrac bazarlarına yaxınlığı, əlbəttə ki, əlavə imkanlar yaradır, həm ixrac üçün, həm də idxal üçün. Yerli istehsalın genişləndirilməsi üçün, əlbəttə ki, ixrac malları da gətirilməlidir, texnologiyalar gətirilməlidir.

Təbiətin qorunması, əlbəttə ki, ön planda olmalıdır. Zəngilan rayonunun çox gözəl təbiəti var, füsunkar təbiəti var və təbiət nöqteyi-nəzərdən hesab edirəm ki, ölkəmizin ən gözəl rayonlarından biridir. Təbii ki, Zəngilan rayonunda böyük turizm potensialı vardır. Çünki gözəl meşələr, dağlar, bulaqlar, çaylar və beynəlxalq hava limanı, dəmir yolu, avtomobil yolları bütün bunlar böyük bir sərvət olacaq. Zəngilan rayonunun turizm potensialı, əlbəttə ki, digər rayonlarda yaradılacaq turizm imkanları ilə də uzlaşdırılmalıdır. İndi Zəngilan, Qubadlı, Laçın yolu ilə Şuşa şəhərinə də məsafə çox qısa olacaq, çox rahat olacaq. Yəni, Zəngilan rayonunun turizm imkanları dərindən təhlil edilməlidir, təxirəsalınmaz işlərə biz dərhal başlamalıyıq. Yeni otellər, istirahət zonaları yaradılmalı, kənd turizmi inkişaf etdirilməlidir. Bu, oraya qayıdacaq insanlar üçün də məşğulluq və gəlir mənbəyi olacaq. Yəni, burada dünyada və xüsusilə Avropada mövcud olan ən mütərəqqi prinsiplər tətbiq edilməlidir, bütün sahələrdə. Mən, sadəcə olaraq, əsas sahələri qeyd edirəm. Amma bütün sahələrdə ən mütərəqqi təcrübə, ən şəffaf mexanizmlər, insanlar üçün rahatlıq təmin edilməlidir və belə olan halda biz istədiyimizə nail olacağıq. İstədiyimiz isə odur ki, keçmiş məcburi köçkünlər tezliklə öz dədə-baba torpaqlarına qayıtsınlar, orada rahat yaşasınlar və maksimum çox adam oraya qayıtsın, orada yaşasın. Biz elə şərait yaratmalıyıq ki, onlar da həvəsli olsunlar. Biz İkinci Qarabağ müharibəsindən sonra keçmiş məcburi köçkünlər arasında sorğu keçirmişik ki, biz bilək, nə qədər insan qayıtmaq istəyir, çünki görüləcək işlər, tikilən binalar buna uyğun olmalıdır. Şadam ki, keçmiş məcburi köçkünlərin mütləq əksəriyyəti qayıtmaq üçün öz fikirlərini bildirmişlər. Amma, əlbəttə ki, onlar təxminən 30 il Bakıda, Sumqayıtda, başqa yerlərdə yaşayıblar, bu yaşayışa öyrəşiblər, onların işləri var, onların uşaqlarının məktəbləri var, nəvələrinin məktəbləri var. Biz bunun hamısını başa düşürük və bir yerdən başqa yerə köçmək o qədər də asan məsələ deyil. Amma, əminəm ki, Vətən sevdası onları oraya aparacaq. Biz elə etməliyik ki, onlar oraya gedən zaman orada özlərini rahat hiss eləsinlər.

Mən bir daha sizi bu yüksək vəzifəyə təyin olunmağınız münasibətilə təbrik edirəm, uğurlar arzulayıram.

* * *

Prezidentin Zəngilan rayonunda xüsusi nümayəndəsi Vahid Hacıyev dedi: Çox sağ olun, möhtərəm cənab Prezident.

Sizə dərin təşəkkürümü bildirirəm. İlk növbədə, göstərdiyiniz etimada görə təşəkkür edirəm və fəaliyyətimə verdiyiniz qiymət mənim üçün ən böyük şərəfdir.

Bu ərazilərdə, Şərqi Zəngəzurda görüləcək işlər hər birimiz üçün çox şərəfli olacaq. Yəni, Sizin rəhbərliyinizlə, Sizin tapşırdığınız prinsipləri əsas götürməklə biz sevimli Qarabağın inkişafı üçün əlimizdən gələni edəcəyik. Mən də bir qarabağlı olaraq bütün təcrübə və potensialımdan istifadə edib həmin ərazilərin inkişafı üçün əlimdən gələni əsirgəməyəcəyəm.

Cənab Prezident, Sizin kimi müdrik siyasi Liderin rəhbərliyi altında çalışmaq mənim üçün ən böyük şərəfdir. Yüksək etimadınıza görə Sizə bir daha dərin təşəkkürümü bildirmək istəyərdim. Çox sağ olun.

Prezident İlham Əliyev: Sağ olun.

***BMT-nin Ərzaq və Kənd Təsərrüfatı Təşkilatının baş direktorunun videoformatda qəbulu***

Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev mayın 6-da BMT-nin Ərzaq və Kənd Təsərrüfatı Təşkilatının (FAO) baş direktoru Qu Donqyunu videoformatda qəbul edib.

Qonaqları salamlayan Prezident İlham Əliyev dedi: Sabahınız xeyir.

Qu Donqyu: Sabahınız xeyir, möhtərəm Prezident.

Prezident İlham Əliyev: Cənab Baş direktor və nümayəndə heyətinin üzvləri, xoş gəlmisiniz. Sizi görməyə çox şadam. Çox şadam ki, nümayəndə heyətinizlə birlikdə ölkəmizdə səfərdəsiniz.

Biz FAO ilə Azərbaycan arasında tərəfdaşlığın səviyyəsindən çox məmnunuq. Yeddi il əvvəl imzalanmış razılaşma faktiki olaraq əməkdaşlığımızın yeni formatını yaratdı. Ümidvarıq ki, qarşıdakı illərdə biz bu səmərəli tərəfdaşlığı davam etdirəcəyik, xüsusilə indi - hər bir ölkə, o cümlədən Azərbaycan üçün ərzaq təhlükəsizliyi ilə bağlı məsələlərin getdikcə daha çox əhəmiyyət kəsb etdiyi bu çətin zamanda. Çünki kənd təsərrüfatı məhsullarının ixracında artım olduğuna baxmayaraq, biz hələ də kənd təsərrüfatı məhsullarını idxal edirik. Ona görə də, düşünürəm ki, bu, bizim ərzaq

təhlükəsizliyi ilə bağlı gələcək planlarımızı, ümumi regional inkişafı müzakirə etmək və yeni çağırışları həll etmək baxımından vacibdir.

Görüşümüz zamanı qaldırmaq istədiyim məsələlərdən biri də işğaldan azad edilmiş ərazilərdə kənd təsərrüfatının inkişafı ilə bağlı planlarımızdır. Azərbaycan ərazilərinin işğaldan azad edilməsi nəticəsində hazırda biz infrastrukturun, o cümlədən kənd təsərrüfatının inkişafı baxımından həmin torpaqların işlənilməsinin aktiv mərhələsindəyik. Çünki işğaldan azad edilmiş ərazilərdə kənd təsərrüfatı potensialı həqiqətən də çox böyükdür. Bu ərazinin fərqli təbiəti, iqlim qurşaqları və həm yerli istehlak, həm də ixrac üçün istehsalımızı əhəmiyyətli dərəcədə artırmaq imkanı var. Hazırda biz işğaldan azad edilmiş ərazilərdə kənd təsərrüfatının inkişafının planlaşdırılması mərhələsindəyik və ona görə də sizin dəyərli tövsiyələriniz yüksək qiymətləndiriləcək.

Ümumilikdə Azərbaycanda kənd təsərrüfatının inkişafı hökumətimiz üçün prioritetlərdən biridir. Çünki, birincisi, hazırda hər bir ölkə üçün, ola bilsin ki, bir neçə il əvvəl olduğundan daha vacib olan ərzaq təhlükəsizliyidir. Bizim üçün ikinci məsələ odur ki, bu, bizim artmaqda olan qeyri-enerji ilə bağlı ixracımızın mühüm hissəsini təşkil edir. Bu ilin üç ayı ərzində Azərbaycanda qeyri-enerji ixracında artım 45 faiz olub. Əlbəttə ki, bu, məşğulluq baxımından əhəmiyyətlidir. Çünki əhalimizin demək olar ki, yarısı kənd yerlərində yaşayır. Ona görə də bu insanlar üçün kənd təsərrüfatı əsas gəlir mənbəyidir. Siz yəqin ki, bizim islahatlarımızdan, hökumətin fermerlərə verdiyi subsidiyalardan, dəstəkdən xəbərdarsınız. Fermerlər hər hansı vergidən, o cümlədən torpaq vergisindən azaddırlar. Həmçinin biz fermerlərə güzəştli, aşağı faizlərlə kreditlər veririk. Bütün bunlar kənd təsərrüfatının sürətli inkişafı üçün imkanlar yaradır. Lakin, əlbəttə ki, biz xüsusilə indi, ərazilər işğaldan azad ediləndən sonra hər şeyi düzgün planlaşdırmalı və müasir texnologiyalar tətbiq etməliyik.

Beləliklə, müzakirə edilməli çox məsələlər olacaq. Mən həqiqətən də çox şadam ki, söhbət etmək və birlikdə görə biləcəyimiz başqa işlərə nəzər salmaq imkanımız var. Bir daha xoş gəlmisiniz. Sizə Azərbaycanda yaxşı vaxt keçirməyi arzulayıram.

BMT-nin Ərzaq və Kənd Təsərrüfatı Təşkilatının baş direktoru Qu Donqyu: Təşəkkür edirəm, möhtərəm Prezident. Həmçinin mən Sizin çoxşaxəli, gözəl, əlverişli mövqedə yerləşən ölkənizə səfərə gəldiyimə görə çox şadam. Bu, nadir ölkədir. Çox şadam ki, Sizin ölkənizdə səfərdəyəm, təkcə ona görə yox ki, nadir mövqedə yerləşirsiniz, həm də ona görə ki, ərzaq sistemləri və kənd təsərrüfatının inkişafı üçün böyük potensial var. Tərəfinizdən də güclü dəstəklənən aqroelektron ticarət və ya rəqəmsal kənd təsərrüfatı və ərzaq, habelə kənd yerlərinin rəqəmsal inkişafı xüsusi əhəmiyyətə malikdir. Mən bu təşəbbüsləri dünyada təşviq etmək və təşkilata üzv olan, ərazi baxımından Azərbaycan kimi ölkələrlə paylaşmaq istərdim.

Bakıda keçirilən “Gələcəyə baxış: Rəqəmsal kənd təsərrüfatına keçid” mövzusunda beynəlxalq konfransın önəmini vurğulayan Qu Donqyu ölkəmizə səfər edərək bu tədbirdə şəxsən iştirak etməsindən məmnunluğunu bildirdi.

FAO-nun baş direktoru dedi: “Beləliklə, hesab edirəm ki, bu, bizim üçün Sizdən, həmkarlarınızdan öyrənmək baxımından yaxşı fürsətdir”.

## *Səudiyyə Ərəbistanı Baş prokurorunun rəhbərlik etdiyi nümayəndə heyətinin qəbulu*

Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev mayın 9-da Səudiyyə Ərəbistanı Krallığının Baş prokuroru Şeyx Səud bin Abdullah Əl Müacibin başçılıq etdiyi nümayəndə heyətini qəbul edib.

Dövlətimizin başçısı ölkələrimizin müxtəlif sahələrdə uğurla əməkdaşlıq etdiyini vurğulayaraq siyasi əlaqələrimizin yüksək səviyyədə olduğunu qeyd etdi. Səudiyyə Ərəbistanı Krallığına səfərlərini məmnunluqla xatırlayan Prezident İlham Əliyev bu səfərlər zamanı göstərilən qonaqpərvərliyin xalqlarımız arasında mövcud olan qardaşlıq münasibətlərini bir daha nümayiş etdirdiyini bildirdi.

Dövlətimizin başçısı vurğuladı ki, Azərbaycanda Səudiyyə Ərəbistanı Krallığına xüsusi rəğbətlə yanaşılır. Çünki Səudiyyə Ərəbistanı Krallığı dünyanın nadir ölkələrindəndir ki, Ermənistanla heç bir diplomatik əlaqə qurmayıb. Bunun səbəbi isə torpaqlarımızın işğal altında olması idi. Prezident İlham Əliyev qeyd etdi ki, biz bu mövqeyi çox yüksək qiymətləndiririk. Dövlətimizin başçısı bildirdi ki, 44 günlük Vətən müharibəsi nəticəsində torpaqlarımızın işğaldan azad olunması erməni vəhşiliyini, azad edilmiş torpaqlarda hər şeyin, o cümlədən 67 məsciddən 65-nin ermənilər tərəfindən dağıdıldığını bütün dünyaya göstərdi.

Ölkəmizin ərazi bütövlüyünü bərpa etməsindən sonra iqtisadi sahədə, o cümlədən energetika sahəsində əməkdaşlıq imkanlarının daha da artdığını vurğulayan Prezident İlham Əliyev bu baxımdan Səudiyyə Ərəbistanı Krallığının böyük şirkətlərinin Azərbaycana maraq göstərməsinin məmnunluq doğurduğunu bildirdi, bu ölkənin “ACWA Power” şirkəti tərəfindən Azərbaycanda Külək Elektrik Stansiyasının təməlinin qoyulmasını bunun yaxşı nümunəsi kimi qiymətləndirdi.

Beynəlxalq təşkilatlarda da ölkələrimizin bir-birini dəstəklədiyini vurğulayan dövlətimizin başçısı, eyni zamanda, insanlar arasındakı əlaqələrin, qarşılıqlı səfərlərin və turistlərin sayının artmasının əməkdaşlığımızın gələcəkdə daha da inkişaf etməsi üçün yaxşı zəmin yaratdığını bildirdi.

Prezident İlham Əliyev Şeyx Səud bin Abdullah Əl Müacibin səfərinin ikitərəfli münasibətlərin inkişafına töhfə verəcəyinə əminliyini ifadə etdi.

Şeyx Səud bin Abdullah Əl Müacib İki Müqəddəs Ocağın Xadimi, Səudiyyə Ərəbistanının Kralı Salman bin Əbdüləziz Al Səud və vəliəhd Məhəmməd bin Salman bin Əbdüləziz Al Səudun salamlarını dövlətimizin başçısına çatdırdı.

Prezident İlham Əliyev salamlara görə minnətdarlığını bildirdi, onun da salamlarını Salman bin Əbdüləziz Al Səud və vəliəhd Məhəmməd bin Salman bin Əbdüləziz Al Səuda çatdırmağı xahiş etdi.

Azərbaycanda gördüyü inkişaf proseslərinin onlarda sevinc hissi doğurduğunu bildirən qonaq dedi: "Ölkənizin əldə etdiyi inkişafla bağlı Sizi təbrik etmək istəyirəm. Biz Azərbaycan haqqında, ölkənizin iqtisadi, ictimai və sosial sahələrdə əldə etdiyi nailiyyətlər barədə çox eşitmişik. Xüsusilə, böyük Qələbəniz, torpaqlarınızı qısa vaxt ərzində azad etdiyinizə görə Sizi təbrik edirik".

Şeyx Səud bin Abdullah Əl Müacib 10 may - ulu öndər Heydər Əliyevin doğum günü ərəfəsində onun xatirəsini dərin ehtiramla yad etdi.

Görüşdə əməkdaşlığın perspektivləri ilə bağlı fikir mübadiləsi aparıldı.

***Özbəkistan Ali Məclisinin Qanunvericilik Palatasının sədrinin başçılıq etdiyi nümayəndə heyətinin qəbulu***

Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev mayın 16-da Özbəkistan Respublikası Ali Məclisinin Qanunvericilik Palatasının sədri Nurdinjon İsmoilovun başçılıq etdiyi nümayəndə heyətini qəbul edib.

Dövlətimizin başçısı Azərbaycanla Özbəkistan arasında qardaşlıq münasibətlərinin bütün istiqamətlərdə, ilk növbədə siyasi sahədə uğurla inkişaf etdiyini vurğuladı, bu işdə iki ölkənin dövlət başçıları arasında münasibətlərin xüsusi önəm daşıdığını qeyd etdi və bu baxımdan Özbəkistana səfərini məmnunluqla xatırladı. Prezident İlham Əliyev tarixi, dil və mədəni yaxınlığın münasibətlərimizin möhkəmlənməsi üçün əsas yaratdığını bildirdi.

İqtisadi sahədə əməkdaşlığa toxunan dövlətimizin başçısı ticarət dövriyyəsinin səviyyəsinin artırılmasının önəmini qeyd etdi və bunun üçün yaxşı imkanların olduğunu vurğuladı. Həm Azərbaycanda, həm də Özbəkistanda nəqliyyat infrastrukturu sahəsində böyük işlərin görüldüyünü deyən Prezident İlham Əliyev bu istiqamətdə əməkdaşlığın genişləndirilməsi və nəqliyyat dəhlizlərinin tam şəkildə işə salınması üçün perspektivlərin mövcud olduğunu bildirdi. Dövlətimizin başçısı ölkələrimizin iqtisadi sahədə qazandığı nailiyyətləri də qeyd edərək qarşılıqlı sərmayə qoyuluşu və digər ölkələrdəki layihələrə birgə sərmayə yatırılması imkanlarının da nəzərdən keçirilməsinin əhəmiyyətini vurğuladı.

Prezident İlham Əliyev Azərbaycanın və Özbəkistanın qanunverici orqanları arasındakı münasibətlərə toxunaraq, qarşılıqlı səfərlərin və beynəlxalq parlamentlərarası strukturlardakı əlaqələrimizin bu sahədə əməkdaşlığa töhfə verdiyini bildirdi.

Türk Dövlətləri Təşkilatında əməkdaşlıq məsələlərinə toxunan dövlətimizin başçısı bu təşkilat çərçivəsində iş birliyimizin ölkələrimizin qardaşlığı və tarixi dostluğundan, mədəni köklərdən irəli gələrək təbii əməkdaşlıq xarakteri daşıdığını vurğuladı və bu baxımdan Özbəkistanın bu təşkilata tamhüquqlu üzv olmasının önəmini qeyd etdi.

Prezident İlham Əliyev digər beynəlxalq təşkilatlar, o cümlədən BMT, ATƏT, İslam Əməkdaşlıq Təşkilatı, İqtisadi Əməkdaşlıq Təşkilatı çərçivəsində də uğurlu əməkdaşlığın və ölkələrimizin qarşılıqlı dəstəyinin önəminə toxundu.

Dövlətimizin başçısı xüsusi olaraq qeyd etdi ki, qardaş türk dövlətlərinin Azərbaycanın ərazi bütövlüyünün bərpa olunması məsələsinə münasibəti ölkəmiz tərəfindən yüksək qiymətləndirilir.

Azərbaycanın beynəlxalq əlaqələrinə toxunan Prezident İlham Əliyev ölkəmizin bütün dövlətlərlə, o cümlədən qonşu ölkələrlə yaxşı münasibətlərə malik olduğunu vurğulayaraq, Azərbaycan tərəfinin Ermənistanla sülh müqaviləsinin imzalanmasını təklif etdiyini bir daha xatırlatdı.

Dövlətimizin başçısı Nurdinjon İsmoilovun səfərinin ikitərəfli münasibətlərimizin inkişafına töhfə verəcəyinə əminliyini ifadə etdi.

Xoş sözlərə görə minnətdarlığını bildirən Nurdinjon İsmoilov, ilk növbədə, Özbəkistan Prezidenti Şavkat Mirziyoyevin salamlarını və ən xoş arzularını dövlətimizin başçısına çatdırdı. Eyni zamanda, o, Özbəkistanın dövlət başçısının 28 May - Müstəqillik Günü ilə bağlı təbrik məktubunu Prezident İlham Əliyevə təqdim etdi. Nurdinjon İsmoilov Şavkat Mirziyoyevin Prezident İlham Əliyevin Özbəkistana səfərini gözlədiyini diqqətə çatdırdı.

Prezident İlham Əliyev salamlara görə minnətdarlığını bildirdi, onun da salamlarını Özbəkistanın dövlət başçısına çatdırmağı xahiş etdi.

Nurdinjon İsmoilov bildirdi ki, Özbəkistan Prezidenti böyük siyasi xadim ulu öndər Heydər Əliyevin xatirəsini daim ehtiramla yad edir və Prezident İlham Əliyevin Ümummilli Liderin siyasətini uğurla davam etdirdiyini bildirir. Qonaq Ulu Öndərin bütün həyatını Azərbaycanın inkişafına həsr etmiş siyasi xadim olduğunu vurğuladı.

Özbəkistan Ali Məclisinin Qanunvericilik Palatasının sədri Bakıda gördüyü inkişaf proseslərinin onlarda dərin təəssürat hissi yaratdığını qeyd etdi və ölkəmizin qazandığı nailiyyətlər münasibətilə Prezident İlham Əliyevə təbriklərini çatdırdı.

### *İsrailin kənd təsərrüfatı və kənd yerlərinin inkişafı nazirinin qəbulu*

Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev mayın 17-də İsrailin kənd təsərrüfatı və kənd yerlərinin inkişafı naziri Oded Foreri qəbul edib.

Görüşdə Azərbaycanla İsrail arasında iqtisadi əlaqələrə toxunuldu, kənd təsərrüfatı sahəsində həyata keçirilən əməkdaşlığın perspektivlərindən danışıldı. İsrailin müasir texnologiyalarının Azərbaycanın kənd təsərrüfatında tətbiqi ilə bağlı fikir mübadiləsi aparıldı.

Oded Forerin səfərinin kənd təsərrüfatı sahəsində əməkdaşlığın genişləndirilməsi işinə töhfə verəcəyinə əminlik ifadə olundu.

Dövlətimizin başçısı müasir dövrdə ərzaq təhlükəsizliyinin bütün ölkələr, o cümlədən Azərbaycan üçün də prioritet məsələ olduğunu qeyd edərək, ölkəmizdə kənd təsərrüfatının inkişafı sahəsində görülən işlərdən danışdı. Prezident İlham Əliyev yerli kənd təsərrüfatı istehsalının və ixracatın əhəmiyyətli dərəcədə artdığını vurğuladı, eyni zamanda, idxaldan asılılığın maksimum dərəcədə azaldılması istiqamətində də işlərin həyata keçirildiyini dedi.

Erməni işğalından azad edilmiş ərazilərdə görülən işlərdən danışan dövlətimizin başçısı bu torpaqlarda dərhal kənd təsərrüfatı layihələrinin həyata keçirilməsinə başlanıldığını və artıq müəyyən nəticələrin əldə edildiyini bildirdi. İşğal dövründə ermənilərin ərazilərimizdə ekoloji soyqırımı törətdiyini vurğulayan Prezident İlham Əliyev xüsusilə bunun nəticəsində bu yerlərin su mənbələrindən də məhrum olunduğunu, buna görə hazırda həmin ərazilərdə su mənbələrinin bərpası və irriqasiya sistemi ilə bağlı genişmiqyaslı işlərin planlaşdırıldığını qeyd etdi.

Oded Forer kənd təsərrüfatı sahəsində ölkələrimizin müvafiq qurumları arasında yaxşı əməkdaşlığın mövcud olduğunu dedi, Bakıda keçiriləcək “Caspian Agro 2022” - Beynəlxalq Kənd Təsərrüfatı Sərgisinin əhəmiyyətini qeyd etdi və eyni zamanda, Azərbaycan-İsrail kənd təsərrüfatı biznes forumunda iştirak etmək üçün onunla birlikdə İsraildən xeyli sayda şirkətin nümayəndələrinin də gəldiyini məmnunluqla bildirdi. İsrailin kənd təsərrüfatı sahəsində yaxşı təcrübəsinin olduğunu qeyd edən nazir bu təcrübəni azərbaycanlı həmkarları ilə bölüşməsindən məmnunluğunu ifadə etdi.

Oded Forer bildirdi ki, Azərbaycanda əldə edilən inkişafın böyük imkanlar yaratdığı nəzərə alınaraq Qarabağ regionunda da əməkdaşlıq üçün yaxşı potensial var.

### *Türkiyənin kənd təsərrüfatı və meşəçilik nazirinin başçılıq etdiyi nümayəndə heyətinin qəbulu*

Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev mayın 19-da Türkiyə Respublikasının kənd təsərrüfatı və meşəçilik naziri Vahid Kirişçinin başçılıq etdiyi nümayəndə heyətini qəbul edib.

Vahid Kirişçi Türkiyə Prezidenti Rəcəb Tayyib Ərdoğanın salamlarını dövlətimizin başçısına çatdırdı.

Prezident İlham Əliyev salamlara görə minnətdarlığını bildirdi, onun da salamlarını Türkiyə dövlətinin başçısına çatdırmağı xahiş etdi.

Söhbət zamanı Prezident İlham Əliyevin bir neçə gün əvvəl Türkiyəyə səfəri məmnunluqla xatırlandı və bu səfərin əlaqələrimizin inkişafında rolu qeyd edildi.

Prezident İlham Əliyev Vahid Kirişçini Türkiyənin kənd təsərrüfatı və meşəçilik naziri vəzifəsinə təyin olunması münasibətilə təbrik etdi, ona fəaliyyətində uğurlar arzuladı.

Vahid Kirişçi təbrikə görə minnətdarlığını bildirdi, nazir kimi özünün ilk səfərini qardaş Azərbaycana etdiyini vurğuladı.

Görüşdə ölkələrimiz arasında dostluq və qardaşlıq münasibətlərinin bütün sahələrdə uğurla inkişaf etdiyi bildirildi, əməkdaşlığımızın gündəliyində kənd təsərrüfatının mühüm yer tutduğu qeyd olundu.

Prezident İlham Əliyev ermənilər tərəfindən işğal dövründə ərazilərimizdə kənd təsərrüfatı ilə bağlı hər şeyin dağıdıldığını qeyd etdi və azad olunmuş torpaqlarımızda digər sahələrlə yanaşı, kənd təsərrüfatı ilə də bağlı genişmiqyaslı işlərin planlaşdırıldığını bildirdi. Bu baxımdan işğaldan azad edilmiş ərazilərdə Türkiyə ilə kənd təsərrüfatı sahəsində sıx əməkdaşlıq və birgə fəaliyyətin həyata keçirildiyi məmnunluqla vurğulandı.

Söhbət zamanı Bakıda keçirilən “Caspian Agro 2022” – Beynəlxalq Kənd Təsərrüfatı Sərgisinin əhəmiyyəti və Türkiyənin kənd təsərrüfatı və meşəçilik nazirinin başçılığı ilə nümayəndə heyətinin bu sərgidə iştirakının önəmi qeyd edildi, Türkiyə şirkətlərinin sərgidə geniş təmsil olunduqları bildirildi. Vahid Kirişçinin ölkəmizə səfərinin əməkdaşlığımızın genişləndirilməsinə töhfə verəcəyinə əminlik ifadə olundu.

### *ICESCO-nun Baş direktorunun qəbulu*

Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev mayın 20-də ICESCO-nun Baş direktoru Salim bin Məhəmməd əl-Maliki qəbul edib.

Dövlətimizin başçısı ICESCO-nun Baş direktorunun keçən il Ağdam və Füzuliyə, bu il isə Azərbaycanın mədəniyyət paytaxtı Şuşaya səfərindən məmnunluğunu

bildirdi, Salim bin Məhəmməd əl-Malikin Şuşada təşkil edilən beynəlxalq konfransda iştirakını yüksək qiymətləndirdi.

Prezident İlham Əliyev Azərbaycanın uzun illər ICESCO ilə səmərəli və uğurlu əməkdaşlıq həyata keçirdiyini vurğulayaraq, torpaqlarımızın ermənilər tərəfindən işğal olunduğu, eləcə də 44 günlük müharibə dövründə ICESCO-nun ölkəmizin ədalətli mövqeyini davamlı dəstəklədiyinə görə minnətdarlığını bildirdi. Dövlətimizin başçısı qeyd etdi ki, biz istərdik UNESCO-nun nümayəndələri də işğaldan azad olunmuş ərazilərə səfər edərək ermənilərin törətdikləri dağıntıları öz gözləri ilə görsünlər. Lakin əfsuslar olsun ki, müharibənin bitməsindən il yarımdan artıq vaxt keçməsinə baxmayaraq, bu təşkilatın nümayəndələri həmin ərazilərə səfər etməyiblər. Prezident İlham Əliyev qeyd etdi ki, ermənilər tərəfindən ölkəmizə vurulan maddi ziyanın qiymətləndirilməsində və bunun beynəlxalq ictimaiyyətə çatdırılmasında ICESCO-nun fəaliyyəti və onun ekspertlərinin iştirakı önəmli rol oynaya bilər.

Dövlətimizin başçısı Bakıda ICESCO-nun Regional Ofisinin yaradılmasının əməkdaşlığımızın genişləndirilməsi işində əhəmiyyətini qeyd etdi, bu təşkilatın Azərbaycanın haqq işinə göstərdiyi dostluq və tərəfdaşlıq dəstəyinə görə bir daha təşəkkürünü bildirdi.

Xoş sözlərə görə minnətdarlığını ifadə edən ICESCO-nun Baş direktoru işğaldan azad edilmiş ərazilərə bundan əvvəlki səfərini xatırladaraq, həmin səfər zamanı orada gördükləri mənzərənin onları çox məyus etdiyini bildirdi, həmin ərazilərdə kütləvi dağın-tıları, hər şeyin yerlə-yeksan olunduğunu gördüklərini dedi. Eyni zamanda, Salim bin Məhəmməd əl-Malik budəfəki səfəri zamanı işğaldan azad olunmuş ərazilərimizdə həyata keçirilən böyük quruculuq işlərinin şahidi olduqlarını məmnunluqla qeyd etdi. Bu yerlərin çox gözəl olduğunu vurğulayan ICESCO-nun Baş direktoru artıq xarici ölkələrdən də çox sayda insanın buraya gəlmək istədiklərini bildirdi. Bu baxımdan Salim bin Məhəmməd əl-Malik dövlətimizin başçısının işğaldan azad edilmiş ərazilərə mütəmadi səfərlərini və bu səfərlər zamanı məscidləri ziyarətini, insanlarla görüşlərini, orada çalışanlara verdiyi mənəvi dəstəyi yüksək qiymətləndirdi. ICESCO-nun Baş direktoru Şuşaya səfəri zamanı kilsəyə də baş çəkdiklərini və orada bərpa işlərinin yekunlaşmaq üzrə olduğunu qeyd etdi.

### *Özbəkistanın Baş nazirinin müavininin qəbulu*

Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev mayın 24-də Özbəkistan Respublikasının Baş nazirinin müavini, turizm və mədəni irs naziri Aziz Abduhakimovu qəbul edib.

Aziz Abduhakimov Özbəkistan Prezidenti Şavkat Mirziyoyevin salamlarını dövlətimizin başçısına çatdırdı.

Prezident İlham Əliyev salamlara görə minnətdarlığını bildirdi, onun da salamlarını Özbəkistan dövlətinin başçısına çatdırmağı xahiş etdi.

Görüşdə Azərbaycan ilə Özbəkistan arasında dostluq münasibətlərinin müxtəlif sahələrdə - siyasi, iqtisadi, nəqliyyat və digər sahələrdə uğurla inkişaf etdiyi vurğulandı, bu baxımdan qarşılıqlı səfərlərin önəmi qeyd edildi.

Söhbət zamanı Şamaxının Türk Dövlətləri Təşkilatı tərəfindən Türk Dünyasının Turizm Paytaxtı seçilməsi və orada Təşkilata üzv ölkələrin turizm nazirlərinin VII iclasının keçirilməsinin önəminə toxunuldu. Bu tədbirin Təşkilata üzv dövlətlər arasında turizm sahəsində əməkdaşlığın genişləndirilməsi işinə töhfə verəcəyinə əminlik ifadə olundu.

Dövlətimizin başçısı Füzuli rayonunun erməni işğalından azad edilmiş ərazisində Özbəkistan Prezidentinin məktəb binasının tikintisi ilə bağlı təşəbbüsünü yüksək qiymətləndirdiyini bir daha qeyd etdi.

Prezident İlham Əliyev bildirdi ki, ölkələrimizdə tarixi baxımdan xeyli sayda görməli yerlərin və dünya əhəmiyyətli tarixi abidələrin mövcudluğu nəzərə alınaraq turizm sahəsində əməkdaşlığın genişləndirilməsi üçün yaxşı potensial var.

Qonaq turizmlə bağlı ölkələrimizin müvafiq qurumları arasında səmərəli əməkdaşlığın həyata keçirildiyini vurğuladı və Şamaxıdakı tədbirdə iştirakından məmnunluğu ifadə etdi.

### *Türk Dövlətləri Təşkilatının Baş katibinin qəbulu*

Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev mayın 24-də Türk Dövlətləri Təşkilatının Baş katibi Bağdad Amreyevi qəbul edib.

Görüşdə Türk Dövlətləri Təşkilatı çərçivəsində müxtəlif istiqamətlərdə uğurlu əməkdaşlığın həyata keçirildiyi qeyd olundu, Azərbaycanın bu Təşkilatın fəaliyyətində rolu yüksək qiymətləndirildi.

Torpaqlarımızın Ermənistan tərəfindən işğalı zamanı və Vətən müharibəsi dövründə Təşkilatın Azərbaycanın ədalətli mövqeyinə verdiyi dəstəyin əhəmiyyəti bir daha vurğulandı.

Bağdad Amreyev işğaldan azad edilmiş ərazilərə, o cümlədən Şuşaya səfərlərini məmnunluqla xatırladı. Qonaq yaxın günlərdə Bakıda Türk Dövlətləri Təşkilatına üzv dövlətlərin informasiya və yüksək texnologiyalar nazirlərinin də toplantısının keçiriləcəyini və həmin toplantıda iştirak edən nazirliklərin təmsilçilərinin “TEKNOFEST Azərbaycan” Aerokosmik və Texnologiya

Festivalına da qatılacaqlarını diqqətə çatdırdı. O, həmçinin iyunda Şuşada Türk Dövlətləri Təşkilatı çərçivəsində genişmiqyaslı biznes forumun keçirilməsi niyyətinin olduğunu diqqətə çatdırdı, Türk dünyasından olan özəl şirkətlərin və iş adamlarının Azərbaycanın işğaldan azad edilmiş Qarabağ və Şərqi Zəngəzur bölgələrində həyata keçirilən quruculuq layihələrinə böyük maraq göstərdiklərini bildirdi. Bağdad Amreyev Şuşanın 2023-cü ildə Türk Dünyasının Mədəniyyət Paytaxtı elan olunduğunu qeyd etdi, bu baxımdan Azərbaycan ilə birlikdə Şuşada çoxsaylı mədəniyyət tədbirlərinin keçiriləcəyini dedi.

Söhbət zamanı Türk Dövlətləri Təşkilatı tərəfindən Şamaxı şəhərinin 2023-cü il üçün Türk Dünyasının Turizm Paytaxtı seçilməsinin əhəmiyyəti qeyd edildi və Bağdad Amreyevin Şamaxıya səfərinin türk dövlətləri arasında turizm sahəsində də əməkdaşlığın genişləndirilməsi işinə töhfə verəcəyinə əminlik ifadə edildi.

Söhbət zamanı əməkdaşlığın perspektivləri ətrafında fikir mübadiləsi aparıldı.

Sonda xatirə şəkli çəkdirildi.

### *Estoniya Parlamenti sədrinin başçılıq etdiyi nümayəndə heyətinin qəbulu*

Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev mayın 25-də Estoniya Respublikası parlamentinin sədri Yuri Ratasın başçılıq etdiyi nümayəndə heyətini qəbul edib.

Dövlətimizin başçısı Azərbaycanla Estoniya arasında ikitərəfli münasibətlərin gələcəkdə də uğurla inkişaf edəcəyinə ümidvar olduğunu bildirərək qarşılıqlı təmasların önəmini qeyd etdi və bu baxımdan Azərbaycan parlamenti sədrinin Estoniyaya, Estoniya parlamenti sədrinin isə ölkəmizə səfərinin həm ikitərəfli münasibətlərin, o cümlədən parlamentlərarası əməkdaşlığın genişlənməsinə töhfə verdiyini bildirdi.

Prezident İlham Əliyev Yuri Ratasın başçılıq etdiyi nümayəndə heyətinin Şuşaya səfərinə toxunaraq bu səfərin ermənilərin həmin ərazilərdə işğal dövründə törətdikləri genişmiqyaslı dağıntıları öz gözləri ilə görmələri baxımından çox önəmli olduğunu vurğuladı.

Avropa İttifaqı-Azərbaycan əlaqələrinə toxunan dövlətimizin başçısı Brüsselə son səfərinin nəticələrini çox müsbət qiymətləndirdi və səfər zamanı Avropa İttifaqı Şurasının Prezidenti Şarl Mişelin bəyanatını qeyd edərək, Avropa İttifaqının Ermənistan və Azərbaycan arasında münasibətlərin normallaşmasında vacib rol oynadığını bildirdi. Dövlətimizin başçısı Avropa İttifaqı ilə əlaqələrin ölkəmiz üçün önəmini qeyd edərək, bu əlaqələrin çoxşaxəli olduğunu və ənənəvi enerji sahəsindən əlavə digər istiqamətləri də əhatə etdiyini dedi və qeyd etdi ki, ölkəmizdə yaradılan müasir nəqliyyat infrastrukturu və Azərbaycanın Xəzəryanı dövlətlər, eləcə də Qərb istiqaməti üzrə bağlantıları Avropa ilə Asiya arasında qarşılıqlı əlaqədə çox mühüm rol oynayacaq.

Estoniya parlamentinin sədri Yuri Ratas ilk növbədə 28 May – Müstəqillik Günü münasibətilə Prezident İlham Əliyevi və xalqımızı təbrik etdi, iki ölkə arasında diplomatik münasibətlərin qurulmasının 30 illiyinin qeyd olunmasının önəmini vurğuladı. Yuri Ratas Bakıya səfəri zamanı səmərəli və məhsuldar görüşlər keçirdiyini diqqətə çatdırdı.

Görüşdə əməkdaşlığın perspektivləri ətrafında fikir mübadiləsi aparıldı.

### *Türkiyənin milli müdafiə nazirinin başçılıq etdiyi nümayəndə heyətinin qəbulu*

Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev mayın 28-də Türkiyə Respublikasının milli müdafiə naziri Hulusi Akarın başçılıq etdiyi nümayəndə heyətini qəbul edib.

Görüşdə Azərbaycanla Türkiyə arasında dostluq və qardaşlıq münasibətlərinin bütün sahələrdə uğurla inkişaf etdiyi bildirildi, Hulusi Akarın səfərinin hərbi sahədə əməkdaşlığımızın genişlənməsi işinə töhfə verəcəyinə əminlik ifadə olundu.

Türkiyənin milli müdafiə naziri 28 May - Müstəqillik Günü münasibətilə Prezident İlham Əliyevə təbriklərini çatdırdı. Dövlətimizin başçısı təbriklərə görə minnətdarlığını bildirdi. Qeyd edildi ki, bu bayram günündə də bir yerdə olmağımız qardaşlıq rəmzidir.

Söhbət zamanı Bakıda keçirilən “TEKNOFEST Azərbaycan” Festivalının önəminə toxunuldu və bu tədbir yüksək səviyyəli münasibətlərimizin bariz nümunəsi kimi qiymətləndirildi.

Görüşdə digər sahələrdə olduğu kimi, hərbi sahədə də əməkdaşlığımızın uğurla davam etdiyi qeyd olundu, əlaqələrimizin perspektivləri ətrafında fikir mübadiləsi aparıldı.

### *ABŞ dövlət katibinin enerji diplomatiyası üzrə müavininin müşavirinin heyətinin qəbulu*

Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev mayın 31-də ABŞ dövlət katibinin enerji diplomatiyası üzrə müavininin müşaviri Laura Loxmanı qəbul edib.

Söhbət zamanı Cənub Qaz Dəhlizinin fəaliyyətinə toxunuldu. Azərbaycanın Avropanın enerji təhlükəsizliyində və qazla təmin olunmasının şaxələndirilməsində rolu vurğulandı. Ölkəmizdən Avropaya qaz ixracının artırılması ilə bağlı fikir mübadiləsi aparıldı.

Görüşdə Azərbaycan ilə ABŞ arasında ikitərəfli münasibətlərin müxtəlif sahələrdə uğurla inkişaf etdiyi

bildirildi, qlobal enerji layihələrinin həyata keçirilməsində, o cümlədən Bakı-Tbilisi-Ceyhan layihəsinin reallaşdırılmasında ABŞ hökumətinin Azərbaycana verdiyi daimi dəstək yüksək qiymətləndirildi. Azərbaycanda elektrik enerjisi və bərpaolunan enerji sahəsində həyata keçirilən genişmiqyaslı işlərdən danışıldı.

Söhbət zamanı Bakıda ənənəvi keçirilən Beynəlxalq Xəzər Neft və Qaz Sərgisinin önəmi qeyd edildi və bu tədbirin energetika sahəsində beynəlxalq əməkdaşlığın genişləndirilməsinə töhfə verdiyi bildirildi.

### *Serbiya Baş nazirinin müavininin qəbulu*

Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev iyunun 1-də Serbiya Baş nazirin müavini, mədən və energetika naziri Zorana Mixayloviçi qəbul edib.

AZƏRTAC xəbər verir ki, Zorana Mixayloviç Serbiya Prezidenti Aleksandr Vuçiçin salamlarını dövlətimizin başçısına çatdırdı.

Prezident İlham Əliyev salamlara görə minnətdarlığını bildirdi, onun da salamlarını Serbiya dövlətinin başçısına çatdırmağı xahiş etdi.

Görüşdə ölkələrimiz arasında strateji tərəfdaşlığa əsaslanan ikitərəfli münasibətlərin müxtəlif sahələrdə inkişafından məmnunluq ifadə edildi, əlaqələrimizin daha da genişləndirilməsi üçün yaxşı potensialın olduğu bildirildi.

Zorana Mixayloviç azad edilmiş torpaqlarımızda dağıntılar barədə məlumatlı olduğunu bildirərək, bununla əlaqədar ölkəmiz və xalqımız naminə görülən işlər, o cümlədən azad olunmuş ərazilərimizdə aparılan genişmiqyaslı yenidənqurma layihələri ilə bağlı dövlətimizin başçısını təbrik etdi.

Qonaq Azərbaycan şirkətlərinin Serbiyada uğurla fəaliyyət göstərdiyini vurğuladı.

Dövlətimizin başçısı işğal dövründə ermənilərin torpaqlarımızda törətdiyi böyük dağıntılardan danışdı.

Söhbət zamanı 27-ci Beynəlxalq Xəzər Neft və Qaz Sərgisinin regional və beynəlxalq əməkdaşlığın möhkəmkənməsi işinə töhfə verdiyi bildirildi, Zorana Mixayloviçin sərgidə iştirakının önəmi qeyd edildi.

Görüşdə ikitərəfli münasibətlərin perspektivləri ilə bağlı fikir mübadiləsi aparıldı, energetika, kənd təsərrüfatı sahələrində əməkdaşlıq məsələlərinə toxunuldu.

Zorana Mixayloviç Prezident İlham Əliyevə xatirə hədiyyəsi təqdim etdi.

### *Minifutbol üzrə Avropa çempionatının qalibi olan milli komandamızın üzvlərinin qəbulu*

Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev iyunun 14-də Slovakiyada keçirilmiş minifutbol üzrə Avropa çempionatının qalibi olan milli komandamızın üzvlərini qəbul edib.

AZƏRTAC xəbər verir ki, dövlətimizin başçısı görüşdə çıxış etdi.

#### Prezident İlham Əliyevin çıxışı

– Salam, ilk növbədə, sizi tarixi qələbə münasibətilə təbrik edirəm. Hesab edirəm ki, bu qələbə Azərbaycan idmanının tarixində qalacaq. Çünki ilk dəfədir ki, ölkəmiz komanda idman növündə Avropa çempionu olmuşdur və bu qələbəni siz qazanmısınız, minifutbol üzrə milli komandamız.

Azərbaycanda idmanın inkişafı ilə bağlı çox işlər görülüb, ancaq bu günə qədər komanda idman növündə biz böyük uğurlara nail ola bilməmişik. Düzdür, bizim şahmatçılarımız iki dəfə Avropa çempionu olmuşlar, amma şahmat fərdi idman növüdür, sadəcə olaraq, komanda şəklində çıxış etmiş şahmatçılarımız bu böyük nailiyyəti əldə etmişlər. Ancaq oyun idman növlərində belə bir qələbə olmamışdır. Ona görə bu qələbənin çox böyük mənası var və əminəm ki, digər idman növləri üçün bu, çox gözəl nümunədir.

Düzdür, bu tarixi uğuru təkrarlamaq heç kim üçün asan olmayacaq, amma hər halda biz çalışmalıyıq ki, təkcə fərdi idman növlərində deyil, eyni zamanda, komanda idman növlərində də Azərbaycan idmançıları beynəlxalq yarışlarda yüksək nəticələr göstərsinlər. Bildiyiniz kimi, fərdi idman növlərində isə bizim çox böyük uğurlarımız var, Olimpiya, dünya, Avropa çempionlarımızın sayı çoxdur və əminəm ki, artacaq. Beləliklə, komanda idman növlərinin inkişafı imkan verəcək ki, idmanın inkişafı hərtərəfli olsun.

Şadam ki, komandamızın tərkibi yerli idmançılardan ibarətdir - həm oyunçular, həm məşqçilər, mütəxəssislər. Bu, məni xüsusilə sevindirir. Onu da bilirəm ki, minifutbol üzrə bizim komandamız cəmi ikinci dəfə Avropa çempionatında iştirak edir və artıq çempion tituluna layiq görülüb. Mübarizə gərgin olub, istənilən idman növündə Avropa çempionatları çox gərgin keçir. Əlbəttə ki, Avropanın ən güclü komandaları orada təmsil olunur. Çempionat boyunca göstərdiyiniz həm peşəkarlıq, deyə bilərəm ki, həm də böyük fədakarlıq bu qələbəni mümkün edib. Siz xalqımızı sevindirmisiniz və təsadüfi deyil ki, Azərbaycan vətəndaşları sizi hava limanında böyük məhəbbətlə qarşılayıblar. Mən sizi ürəkdən təbrik edirəm. Bu, doğrudan da çox böyük qələbədir, tarixi qələbədir.

Hər dəfə beynəlxalq yarışlarda idmançılarımız qələbə qazananda əminəm ki, hər bir vətənpərvər insan qürur hissi keçirir, hər dəfə bayrağımız qaldırılanda hər birimiz sevinirik. Qələbələr xalqımıza yaraşır, həm

döyüş meydanında, həm idman arenalarında. Əminəm ki, Azərbaycan idmançıları bundan sonra da beynəlxalq yarışlarda Vətənimizi ləyaqətlə təmsil edəcəklər.

Dövlət tərəfindən bütün şərait yaradılıb və idmanın inkişafı ilə bağlı heç bir maneə yoxdur, əksinə dövlət dəstəyi daim göstərilir. Ancaq minifutbol idman növünə gəldikdə, bizim üçün bu, nisbətən yeni idman növü olduğuna görə bu sahədəki nailiyyətləri siz özünüz qazanmısınız. Mən deyə bilmərəm ki, minifutbolçular üçün hansısa xüsusi şərait yaradılmışdır, yaxud da ki, xaricdən tanınmış mütəxəssislər, məşqçilər, legionerlər dəvət edilmişdir, yox, bunların heç biri olmayıb. Ona görə sizin qələbəniz çox böyük qiymətə layiqdir. Bu qələbəni siz özünüz qazanmısınız, əlbəttə ki, federasiya və idman mütəxəssisləri, məşqçilər və oyunçular, idmançılar, - komanda deyəndə mən bunu nəzərdə tuturam, - siz bu qələbəni halal zəhmətinizlə qazanmısınız.

Azərbaycanda idmana da, idmançılara da diqqət göstərilir. İdmançılar dövlət tərəfindən hər zaman qayğı ilə əhatə olunurlar və bu, təbiidir. Çünki idman, idmanda qələbələrimiz həm ölkəmizin beynəlxalq nüfuzunu qaldırır, eyni zamanda, sağlam həyat tərzini təbliğ edir və bu, hesab edirəm ki, daha vacibdir. Çünki hamımız istəyirik ki, Azərbaycan xalqı sağlam olsun, gənclər kütləvi surətdə idmanla məşğul olsunlar. İdmanın kütləviliyinin genişləndirilməsi və idmanda qələbələrin əldə edilməsi üçün dövlət idmançılara, klublara, federasiyalara həmişə böyük diqqət və qayğı göstərir. Əminəm ki, bundan sonra Minifutbol Federasiyamız da dövlət tərəfindən eyni qayğı ilə əhatə olunacaq.

Siz öz qələbənizlə göstərirsiniz ki, əgər iradə və peşəkarlıq varsa, Vətən sevgisi varsa hətta bəziləri üçün əlçatmaz olan nailiyyətləri əldə etmək olar. Mən əminəm ki, Azərbaycanda heç kim sizin qələbənizi gözləmirdi. Bilmirəm özünüz gözləyirdiniz, yoxsa yox, bəlkə də artıq çempionat gedə-gedə bunu hiss etməyə başlamısınız ki, bu, mümkündür. Amma əminəm ki, mən də daxil olmaqla, Azərbaycanda heç kim bu qələbəni gözləmirdi və bu qələbənin ikiqat sevinci məhz bununla bağlıdır. Yəni, bu, göstərir ki, mümkündür, ən güclü rəqibləri məğlub etmək mümkündür – əgər komanda ruhu varsa, yenə də deyirəm, peşəkarlıq, vətənpərvərlik varsa.

Bilirəm ki, bir çoxlarınız ayrı-ayrı işlərlə məşğulsunuz, sözün əsl mənasında, həvəskar idmançılarsınız və əgər belə demək mümkündürsə, minifutbol sizin üçün bir hobbidir. Sizin qarşınızda Avropanın ən güclü komandaları vardı. Əminəm ki, o komandaların maliyyə təminatı, dəstəyi və digər üstünlükləri sizinkindən qat-qat artıq idi. Amma buna baxmayaraq, qələbə qazanmısınız, hamımızı sevindirmisiniz və öz adlarınızı Azərbaycanın idman tarixinə yazdırmısınız.

Mən sizi bir daha təbrik edirəm və yeni uğurlar arzulayıram. Əlbəttə ki, bu uğuru təkrarlamaq çox çətin olacaq. Amma əminəm ki, komandamızın perspektivləri də çox gözəldir. Əminəm, bu qələbədən sonra gənc nəsil - uşaqlar, yeniyetmələr bu idman növünü seçəcəklər ki, sizin kimi Avropa çempionu olsunlar.

Bir daha təbrik edirəm, sizə yeni qələbələr arzulayıram və təşəkkürümü bildirirəm ki, Azərbaycan xalqını bu gözəl qələbə ilə sevindirmisiniz.

* * *

Azərbaycan Minifutbol Federasiyasının fəxri prezidenti Orxan Məmmədov çıxış edərək dedi:

– Möhtərəm cənab Prezident, icazə verin, federasiyamız, bütün futbolçularımız və məşqçi heyəti adından Sizə dərin təşəkkürümü bildirim. Bu gün bizim üçün çox şərəfli bir gündür. Çünki Siz də doğru qeyd etdiniz, futbolçularımız öz halal zəhməti ilə kuboku Sizin qarşınıza gətiriblər. Biz doğrudan da çox şadıq və Sizi əmin etmək istəyirik ki, bundan sonra da var gücümüzlə çalışacağıq bu qələbələr ardıcıl olsun.

Möhtərəm cənab Prezident, diqqətinizə çatdırım ki, minifutbol qeyri-peşəkar idman növü olsa da, əhali arasında çox geniş yayılıb. Biz 2017-ci ildə qərara gəldik ki, federasiyanı yaradaq və 2018-ci ildə artıq həm Dünya Minifutbol Federasiyasına, həm də Avropa Minifutbol Federasiyasına üzv seçildik. 2018-ci ildə Ukraynada keçirilən Avropa çempionatına qatıldıq və orada iştirak etmək bizim üçün çox böyük təcrübə oldu. Bildiyiniz kimi, pandemiya dövründə qapanmalar oldu, amma biz məşqləri dayandırmadıq, xüsusilə bu çempionata hazırlaşırdıq. Bu çempionat başlayanda biz artıq tam hazır idik. Əlbəttə ki, bizim üçün iştirak əsas idi. Siz düzgün vurğuladınız, bu, futbolçularımız üçün böyük bir təcrübə idi. Amma hər oyunda qazandığımız qələbə bizim həvəsimizi artırırdı. Birinci oyunumuzu Avropa çempionlarına – Rumıniyaya qarşı uduzduq. Amma sonra İspaniyaya qarşı möhtəşəm qələbə qazandıq və biz başqa ölkələrin komandalarını üstələdik. Xüsusilə finalda yenə də rumınlarla üzləşdik. Əlbəttə ki, burada məşqçinin super taktiki gedişlərinin bəhrəsini gördük. Orada bunu rəqiblərimiz də vurğuladılar. Biz demək olar ki, səhv etmədən qələbə qazandıq.

Əlbəttə, cənab Prezident, bu gün danılmaz faktdır ki, Siz xüsusilə idmana və idmançılara böyük qayğı göstərirsiniz və onları həmişə qəbul edirsiniz. Hər oyunda qələbə qazandıqca inanırdıq və düşünürdük ki, bəlkə də cənab Prezident bizi qəbul edəcək. Biz Sizə çox minnətdarıq. Doğrudan da bizim üçün çox fəxredici bir gündür. Sizə çox təşəkkür edirik, cənab Prezident.

Prezident İlham Əliyev: Sağ ol.

* * *

Minifutbol üzrə milli komandanın baş məşqçisi Elşad Quliyev dedi: Cənab Prezident, Sizə öz adımdan, komandanın adından dərin təşəkkür edirik ki, Siz bu dəyərli vaxtınızı bizə ayırmısınız. Biz də əlimizdən gələni əsirgəmədik ki, bizə baxan xalqımız sevinsin. Çox sağ olun, çox təşəkkür edirəm.

Prezident İlham Əliyev: Sağ ol.

* * *

Komandanın kapitanı, qapıçı Ramil Həsənzadə dedi:

– Cənab Prezident, bu sıx iş qrafikinizdə bizə vaxt ayırdığınız üçün Sizə təşəkkürümüzü bildiririk. İdmançılara göstərdiyiniz diqqəti biz minifutbolçular da hiss edirik. Bu Avropa çempionatı ərzində kimə desəydilər ki, Azərbaycan çempion olacaq, heç kim inanmazdı. Amma biz döyüşdəki "Dəmir yumruğu" futbol meydançasında da göstərdik. İnşallah, gələcəkdə də iştirak edəcəyimiz bütün yarışlarda Vətənimizi layiqincə təmsil edəcəyik. Çox sağ olun.

Cənab Prezident, bizim Sizə hədiyyələrimiz var, icazə versəydiniz, təqdim edərdik.

Prezident İlham Əliyev: Buyurun.

* * *

Dövlətimizin başçısına xatirə hədiyyələri təqdim olundu.

Sonda xatirə şəkli çəkdirildi.

### *ABŞ Dövlət katibinin köməkçisi Karen Donfridin qəbulu*

Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev iyunun 15-də ABŞ Dövlət katibinin Avropa və Avrasiya məsələləri üzrə köməkçisi Karen Donfridi qəbul edib.

AZƏRTAC xəbər verir ki, Karen Donfrid ABŞ Dövlət katibi Entoni Blinkinin salamlarını Prezident İlham Əliyevə çatdırdı.

Dövlətimizin başçısı salamlara görə minnətdarlığını bildirdi, onun da salamlarını Entoni Blinkinə çatdırmağı xahiş etdi.

Görüşdə əlaqələrimizin gündəliyinin geniş olduğu qeyd edildi, onun enerji sahəsində əməkdaşlıq, regionda təhlükəsizlik, postmünaqişə dövrü, Azərbaycan və Ermənistan arasında əlaqələrin normallaşdırılması və digər məsələləri əhatə etdiyi bildirildi.

Dövlətimizin başçısı qeyd etdi ki, Azərbaycan Cənubi Qafqazı əməkdaşlıq regionu kimi görmək istəyir.

Prezident İlham Əliyev ABŞ Prezidenti Cozef Baydenin Azərbaycanın Müstəqillik Günü münasibətilə və Bakı Enerji Həftəsi çərçivəsində ona ünvanladığı məktublarda, həmçinin özünün Cozef Baydenə məktubunda qeyd olunmuş məsələlərin ikitərəfli münasibətlərin inkişafı baxımından önəmini vurğuladı.

Söhbət zamanı əməkdaşlığın perspektivləri ətrafında fikir mübadiləsi aparıldı.

### *Nizami Gəncəvi Beynəlxalq Mərkəzinin həmsədrlərinin və İdarə Heyətinin üzvlərinin qəbulu*

Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev iyunun 15-də Nizami Gəncəvi Beynəlxalq Mərkəzinin həmsədrləri Vayra Vike-Freyberqanı və İsmail Serageldini, keçmiş dövlət və hökumət başçılarını, Mərkəzin İdarə Heyətinin üzvlərini qəbul edib.

AZƏRTAC xəbər verir ki, görüşdə Prezident İlham Əliyevin Nizami Gəncəvi Beynəlxalq Mərkəzinin fəaliyyətinə verdiyi dəstək yüksək qiymətləndirildi.

Paytaxtımızda keçiriləcək IX Qlobal Bakı Forumunun əhəmiyyəti vurğulandı, bu tədbirdə dünyanın müxtəlif ölkələrindən xeyli sayda qonağın iştirak etdiyi qeyd olundu və Forumun beynəlxalq əməkdaşlığı genişləndirmək işinə töhfə verəcəyinə əminlik ifadə edildi.

Söhbət zamanı Nizami Gəncəvi Beynəlxalq Mərkəzinin dünyada nüfuzunun artdığı və aparıcı beynəlxalq təşkilatlarla əlaqələrinin genişləndiyi məmnunluqla qeyd olundu.

Görüşdə əməkdaşlığın perspektivləri ilə bağlı fikir mübadiləsi aparıldı.

### *Gürcüstan Prezidenti xanım Salome Zurabişvili ilə görüş*

Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev iyunun 16-da Gürcüstan Prezidenti xanım Salome Zurabişvili ilə görüşüb.

Görüşdə Prezident Salome Zurabişvili IX Qlobal Bakı Forumunun uğurla keçirilməsi münasibətilə Prezident İlham Əliyevə təbriklərini çatdırdı.

Söhbət zamanı regional əməkdaşlıq və ikitərəfli gündəlikdə duran məsələlər barədə fikir mübadiləsi aparıldı. Həmçinin nəqliyyat, enerji məsələlərinə toxunuldu, tranzit sahəsində yeni imkanların yaradıldığı qeyd edildi.

### *Albaniya Prezidenti İlir Meta ilə görüş*

Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev iyunun 16-da Albaniya Respublikasının Prezidenti İlir Meta ilə görüşüb.

AZƏRTAC xəbər verir ki, görüşdə Albaniya Prezidenti Bakı şəhərində inkişaf proseslərinin onda dərin təəssürat yaratdığını bildirdi və son səfərindən keçən dövrdə Azərbaycan paytaxtının daha da gözəlləşdiyinin şahidi olduqlarını dedi. Prezident İlham Əliyevə və Azərbaycan xalqına yeni uğurlar arzulayan Albaniya dövlətinin başçısı TAP layihəsinin müvəffəqiyyətlə başa çatdırılması ilə əlaqədar Azərbaycan Prezidentinə təşəkkürünü bildirdi. Prezident İlir Meta işğaldan azad olunmuş ərazilərimizdə həyata keçirilən genişmiqyaslı quruculuq işlərində Azərbaycana uğurlar arzuladı. Albaniya və Azərbaycan xalqlarının qardaş xalqlar olduğunu deyən İlir Meta gələn il ölkələrimiz arasında

diplomatik əlaqələrin qurulmasının 30 illiyinin qeyd ediləcəyini məmnunluqla bildirdi.

Azərbaycan Prezidenti İlham Əliyev IX Qlobal Bakı Forumunda iştirakına görə Albaniya Prezidenti İlir Metaya təşəkkürünü bildirdi. Dövlətimizin başçısı Albaniyanın həmişə olduğu kimi, İkinci Qarabağ müharibəsində də Azərbaycanın ərazi bütövlüyünə verdiyi dəstəyi yüksək qiymətləndirdi və vurğuladı ki, bu, Albaniyanın Azərbaycan üçün dost və qardaş ölkə olduğunu bir daha göstərir.

İşğaldan azad edilmiş ərazilərimizdə dağıntıların miqyasının çox böyük olduğunu qeyd edən Prezident İlham Əliyev bildirdi ki, xarici jurnalistlər, siyasətçilər və digər rəsmi şəxslər həmin ərazilərə səfər edərək bunun şahidi olurlar. Azərbaycanın mina problemi ilə üzləşdiyini deyən dövlətimizin başçısı indiyədək 220-dən çox şəxsin mina hadisələri nəticəsində həlak olduğunu və ya xəsarət aldığını vurğuladı.

Söhbət zamanı iqtisadi, ticarət, enerji və digər sahələrdə əməkdaşlıq məsələləri müzakirə olundu.

### *Bosniya və Herseqovinanın Rəyasət Heyətinin Sədri ilə görüş*

Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev iyunun 16-da Bosniya və Herseqovinanın Rəyasət Heyətinin Sədri Şefik Caferoviç ilə görüşüb.

AZƏRTAC xəbər verir ki, görüşdə Prezident İlham Əliyev ölkəmizə səfər etdiyinə və IX Qlobal Bakı Forumunda iştirakına görə Bosniya və Herseqovinanın Rəyasət Heyətinin Sədrinə təşəkkürünü bildirdi, onunla əvvəlki görüşlərini xatırladı. Dövlətimizin başçısı həmin görüşlərdə ikitərəfli və regional məsələlərə dair geniş fikir mübadilələrinin aparıldığını qeyd etdi.

Prezident İlham Əliyev torpaqlarımızın işğalı zamanı və İkinci Qarabağ müharibəsi dövründə Bosniya və Herseqovinanın Azərbaycanın ərazi bütövlüyünün bərpasına göstərdiyi dəstəyə görə minnətdarlığını ifadə etdi. Azərbaycan Prezidenti COVID-19 pandemiyasından sonra formalaşmış şəraitdə əlaqələrin inkişafı üçün daha yaxşı imkanların yarandığını qeyd etdi.

Dövlətimizin başçısı Bosniya və Herseqovinanın nümayəndələrinin Cənub Qaz Dəhlizi Məşvərət Şurasının iclaslarında iştirakını xatırladı və enerji sahəsində ölkələrimiz arasında əməkdaşlığın bundan sonra da genişlənəcəyinə ümidvar olduğunu bildirdi.

Bosniya və Herseqovinanın Rəyasət Heyətinin Sədri Şefik Caferoviç Qlobal Bakı Forumuna dəvətə görə təşəkkürünü bildirdi, forumun artıq dünyada nüfuzlu tədbirlərdən birinə çevrildiyini qeyd etdi. Dövlətimizin başçısının nitqini diqqətlə izlədiyini deyən Bosniya və Herseqovinanın Rəyasət Heyətinin Sədri Prezident İlham Əliyevin vacib məqamlara toxunduğunu vurğuladı. Bildirdi ki, ədalət və beynəlxalq hüquq həmişə Azərbaycanın tərəfində olub. Azərbaycan ilə Bosniya və Herseqovinanı qardaşlıq əlaqələrinin birləşdirdiyini vurğulan Şefik Caferoviç münasibətlərimizin xalqlarımızın iradəsindən irəli gələrək inkişaf etdiyini məmnunluqla bildirdi. Pandemiya dövründə Azərbaycanın Bosniya və Herseqovinaya yardımına görə minnətdarlığını ifadə etdi.

Bosniya və Herseqovinanın Rəyasət Heyətinin Sədri Azərbaycanın və ölkəsinin mina təhlükəsi ilə üzləşdiyini qeyd etdi və bu sahədə də əməkdaşlığın vacibliyini vurğuladı.

Prezident İlham Əliyev Azərbaycanın işğaldan azad olunmuş ərazilərdə geniş yenidənqurma və quruculuq işləri həyata keçirdiyini qeyd etdi. Azərbaycanın mina problemi ilə üzləşdiyini vurğulayan dövlətimizin başçısı 2020-ci il noyabrın 10-dan etibarən 220-dən çox vətəndaşımızın mina hadisələri nəticəsində həlak olduğunu və ya xəsarət aldığını dedi.

Söhbət zamanı qarşılıqlı maraq doğuran məsələlər, o cümlədən iqtisadi, ticari əlaqələrlə bağlı fikir mübadiləsi aparıldı. Həmçinin Azərbaycanın Bosniya və Herseqovinada səfirliyinin açılması və bu ölkənin Bakıda səfirliyinin fəaliyyətə başlayacağı məmnunluqla qeyd edildi, bunun da əlaqələrimizin inkişafına əlavə təkan verəcəyi vurğulandı.

### *Türkiyənin sabiq Baş naziri Binəli Yıldırımın qəbulu*

Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev iyunun 16-da Türkiyə Respublikasının sabiq Baş naziri Binəli Yıldırımı qəbul edib.

AZƏRTAC xəbər verir ki, görüşdə Azərbaycanla Türkiyə arasında dostluq və qardaşlıq münasibətlərinin bütün sahələrdə uğurla inkişaf etdiyi vurğulandı.

Binəli Yıldırım Qlobal Bakı Forumuna dəvətə görə təşəkkürünü bildirdi, bu tədbirin yüksək səviyyədə keçirilməsi münasibətilə təbriklərini çatdırdı. Qonaq Forumun dünya miqyasında ən mühüm tədbirlərdən biri olduğunu bildirdi və Türkiyə Prezidenti Rəcəb Tayyib Ərdoğanın Forum iştirakçılarına müraciətini çatdırdığını məmnunluqla qeyd etdi.

Şuşa Bəyannaməsinin birinci ildönümü münasibətilə ötən gün Şuşada beynəlxalq konfransının keçirilməsinin önəmini vurğulayan Binəli Yıldırım həmin tədbirdə də vacib müzakirələrin aparıldığını dedi.

Söhbət zamanı qarşılıqlı maraq doğuran məsələlər ətrafında fikir mübadiləsi aparıldı.

Binəli Yıldırım dövlətimizin başçısına xatirə hədiyyəsini təqdim edərək bildirdi ki, bu, İstanbulu fəth edən Fateh Sultan Mehmedin qılıncının eynisidir və Qarabağın fatehi Prezident İlham Əliyevə hədiyyə olunur.

### *Ümumdünya Səhiyyə Təşkilatının Baş direktorununun qəbulu*

Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev iyunun 16-da Ümumdünya Səhiyyə Təşkilatının Baş direktoru Tedros Adhanom Qebreyesusu qəbul edib.

AZƏRTAC xəbər verir ki, görüşdə dövlətimizin başçısı Azərbaycana səfərinə və Qlobal Bakı Forumunda iştirak etdiyinə görə Ümumdünya Səhiyyə Təşkilatının Baş direktoruna təşəkkürünü bildirdi. Azərbaycan Prezidenti COVID-19-a qarşı mübarizədə Ümumdünya Səhiyyə Təşkilatının Azərbaycana verdiyi tövsiyələrin və ölkəmizlə əməkdaşlığın yüksək qiymətləndirildiyini qeyd etdi.

Tedros Adhanom Qebreyesus Azərbaycana səfərindən məmnunluğunu bildirdi və COVID-19-a qarşı uğurlu mübarizənin aparılmasına, ölkəmizin bu sahədə milli, regional və beynəlxalq səviyyədə həyata keçirdiyi fəaliyyətə görə təbriklərini çatdırdı, eyni zamanda, pandemiya dövründə Azərbaycanın Ümumdünya Səhiyyə Təşkilatına verdiyi könüllü maliyyə töhfələrinə və dəstəyinə görə təşəkkürünü bildirdi.

Qonaq Nizami Gəncəvi Beynəlxalq Mərkəzi ilə Ümumdünya Səhiyyə Təşkilatının sıx əməkdaşlıq etdiyini və Anlaşma Memorandumunun imzalandığını vurğuladı.

Dövlətimizin başçısı Azərbaycanda COVID-19 ilə bağlı vəziyyətin çox yaxşı olduğunu, yoluxma sayının ən aşağı səviyyəyə düşdüyünü, vəziyyətin tam nəzarətdə saxlanıldığını, əksər məhdudiyyətlərin aradan qaldırıldığını və normal həyata qayıdıldığını qeyd etdi. Azərbaycan Prezidenti COVID-19-a qarşı mübarizə aparılmasına dair dövlətimizin siyasətinin vətəndaşlar tərəfindən böyük etimadla qarşılandığını və əhalinin pandemiya ilə mübarizə qaydalarına riayət etməsini məmnunluqla bildirdi. Dövlətimizin başçısı işğaldan azad olunmuş ərazilərimizdə səhiyyə infrastrukturunun qurulması layihələri ilə əlaqədar Ümumdünya Səhiyyə Təşkilatı ilə Azərbaycan arasında əməkdaşlığın vacibliyini qeyd etdi.

Tedros Adhanom Qebreyesus Azərbaycanın Dayanıqlı İnkişaf Məqsədlərinin həyata keçirilməsində əldə etdiyi uğurlara görə bir daha təbriklərini çatdırdı.

### *Səudiyyə Ərəbistanının Kral Faysalın İslam Araşdırmalar Mərkəzinin İdarə Heyətinin sədrinin qəbulu*

Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev iyunun 17-də Səudiyyə Ərəbistanının Kral Faysalın İslam Araşdırmalar Mərkəzinin İdarə Heyətinin sədri Şahzadə Türki Al Faysal Al Saudu qəbul edib.

AZƏRTAC xəbər verir ki, söhbət zamanı Türki Al Faysal Al Saudun ötən il ölkəmizə səfəri və dövlətimizin başçısı ilə görüşü məmnunluqla xatırlandı. IX Qlobal Bakı Forumunun əhəmiyyətinə toxunuldu, bu tədbirdə çox sayda nüfuzlu qonağın iştirak etməsi Foruma olan marağın göstəricisi kimi qiymətləndirildi. Bu Forumun beynəlxalq səviyyədə artıq qlobal məsələlərin müzakirə olunduğu bir platformaya çevrildiyi bildirildi.

Görüşdə Azərbaycan ilə Səudiyyə Ərəbistanı arasında dostluq münasibətlərinin uğurla inkişaf etdiyi vurğulandı.

### *BMT Baş katibinin müavininin qəbulu*

Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev iyunun 17-də BMT Baş katibinin müavini və BMT-nin Cenevrədəki bölməsinin baş direktoru Tatyana Valovayanı qəbul edib.

AZƏRTAC xəbər verir ki, görüşdə dövlətimizin başçısı bu il Azərbaycanın BMT-yə üzv olmasının 30 illiyinin qeyd edildiyini, mart ayında Şuşada bununla əlaqədar konfransın keçirildiyini və bunun xüsusi rəmzi məna daşıdığını bildirdi.

Prezident İlham Əliyev Azərbaycanın BMT və onun ixtisaslaşmış təşkilatları ilə sıx əməkdaşlıq etdiyini vurğuladı, Dayanıqlı İnkişaf Məqsədlərinə nail olunması istiqamətində ölkəmizin əldə etdiyi nailiyyətlərdən danışdı. Dövlətimizin başçısı Azərbaycanda Dayanıqlı İnkişaf üzrə Milli Əlaqələndirmə Şurasının fəaliyyət göstərdiyini və ölkənin əsas inkişaf göstəricilərinin davamlı surətdə artdığını qeyd etdi.

Prezident İlham Əliyev işğaldan azad edilmiş ərazilərimizin bərpasının və yenidən qurulmasının hazırda ölkəmizin gündəmində prioritet vəzifələrdən biri olduğunu, Azərbaycanın böyük mina problemi ilə üzləşdiyini də dedi, 2020-ci il noyabrın 10-dan indiyədək 220-dən çox şəxsin mina hadisələri nəticəsində həlak olduğunu və ya xəsarət aldığını, bu gün daha bir analoji hadisənin baş verdiyini bildirdi.

Tatyana Valovaya Azərbaycana səfər etməkdən və Nizami Gəncəvi Beynəlxalq Mərkəzinin təşkil etdiyi "Qlobal dünya nizamına təhdidlər" mövzusunda IX Qlobal Bakı Forumunda iştirakından, həmçinin Nizami Gəncəvi Beynəlxalq Mərkəzi ilə BMT-nin Cenevrədəki ofisi arasında əməkdaşlığın qurulmasından məmnunluğunu ifadə etdi.

Qonaq Azərbaycanda dövlət səviyyəsində Dayanıqlı İnkişaf Məqsədlərinə nail olunmasına xüsusi diqqət yetirilməsinin önəmini bildirdi. O, Dayanıqlı İnkişaf Məqsədlərinə nail olunmasında qadınların rolunun artırılmasına dair konsepsiya ilə çıxış etdiyini və bu xüsusda işlərin aparıldığını dedi.

Söhbət zamanı Azərbaycan ilə BMT-nin Cenevrədəki ofisi və ixtisaslaşmış təşkilatları arasında əməkdaşlığa dair fikir mübadiləsi aparıldı.

### *Ərəb Dövlətləri Liqasının Baş katibinin qəbulu*

Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev iyunun 17-də Ərəb Dövlətləri Liqasının Baş katibi, Misirin sabiq xarici işlər naziri Əhməd Əbul Qeyti qəbul edib.

AZƏRTAC xəbər verir ki, Əhməd Əbul Qeyt Azərbaycanda olmaqdan məmnunluğunu ifadə etdi, ölkəmizdə və paytaxt Bakıda gördüyü inkişaf proseslərinin onda dərin təəssürat hissi yaratdığını dedi. Qonaq Azərbaycanın əldə etdiyi nailiyyətlərin məhz dövlətimizin başçısı tərəfindən həyata keçirilən uzaqgörən siyasətin nəticəsi olduğunu vurğuladı. Qlobal Bakı Forumunda iştirakdan məmnunluğunu bildirən Əhməd Əbul Qeyt Forumun aktual mövzuya həsr olunduğunu və tədbir çərçivəsində maraqlı müzakirələrin aparıldığını qeyd etdi. Qonaq Azərbaycan ilə Ərəb Dövlətləri Liqası arasında əməkdaşlıq məsələlərinə toxundu.

Prezident İlham Əliyev tarixən Azərbaycanın ərəb dövlətləri ilə sıx əlaqələrə malik olduğunu, ölkələrimizin ortaq dini dəyərlər və tarix əsasında bir-birinə bağlı olduğunu bildirdi. Dövlətimizin başçısı 2007-ci ildə Ərəb Dövlətləri Liqasının Baş Qərargahına səfərini və oradakı görüşlərini xatırladı.

Söhbət zamanı Azərbaycan ilə Ərəb Dövlətləri Liqası arasında əməkdaşlığın inkişaf etdirilməsinə dair fikir mübadiləsi aparıldı.

Sonda Əhməd Əbul Qeyt Ərəb Dövlətləri Liqası adından dövlətimizin başçısına xatirə hədiyyəsi təqdim etdi.

### *İsrailin sabiq Baş nazirinin qəbulu*

Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev iyunun 17-də İsrailin sabiq Baş naziri Ehud Barakı qəbul edib.

AZƏRTAC xəbər verir ki, görüşdə paytaxtımızda keçirilən IX Qlobal Bakı Forumunun önəmi vurğulandı. Bu tədbirin beynəlxalq əhəmiyyətli mühüm məsələlərin müzakirə edilməsi üçün geniş imkanlar yaratdığı bildirildi.

Forumun çox yüksək səviyyədə təşkil olunduğu və burada iştirak etmək üçün dünyanın müxtəlif yerlərindən çox sayda qonağın ölkəmizə gəldiyi məmnunluqla qeyd olundu. Bildirildi ki, Forum beynəlxalq əməkdaşlığın genişləndirilməsi işinə öz töhfəsini verir.

### *Xorvatiyanın sabiq Prezidentinin qəbulu*

Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev iyunun 17-də Xorvatiyanın sabiq Prezidenti Kolinda Qrabar-Kitaroviçi qəbul edib.

AZƏRTAC xəbər verir ki, görüşdə Qlobal Bakı Forumunun önəminə toxunuldu, burada iştirak edənlərin sayının hər il daha da artdığı vurğulandı. Tədbirin gündəliyinin çox geniş olduğu bildirildi. Forumun beynəlxalq əməkdaşlığın genişləndirilməsi, geosiyasi vəziyyət, enerji, səhiyyə, iqlim məsələləri, mədəniyyətlərin dialoqu kimi sahələrlə bağlı müzakirələrin aparılması və yeni ideyaların yaranması üçün yaxşı platforma olduğu qeyd edildi.

### *Rumıniya nümayəndə heyətinin qəbulu*

Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev iyunun 23-də Azərbaycan Respublikası Hökuməti və Rumıniya Hökuməti arasında ticarət-iqtisadi əlaqələr və elmi-texniki əməkdaşlıq üzrə Müştərək Komissiyanın həmsədri, Rumıniyanın energetika naziri Virgil-Daniel Popeskunu, kənd təsərrüfatı və kənd yerlərinin inkişafı naziri Adrian-İonuts Kesnoyunu və Rumıniya Prezidentinin strateji layihələr üzrə xüsusi nümayəndəsi Ana Birçalı qəbul edib.

AZƏRTAC xəbər verir ki, görüşdə Azərbaycan ilə Rumıniya arasında ikitərəfli əlaqələrin müxtəlif istiqamətlərdə uğurla inkişaf etdiyi məmnunluqla vurğulandı. Bir çox sahələrdə, xüsusilə enerji, kənd təsərrüfatı sferalarında hərtərəfli əməkdaşlıq, enerji təchizatı, ərzaq təhlükəsizliyi, kənd təsərrüfatında yeni texnologiyaların və elektron sistemlərin tətbiqi ilə bağlı təcrübə mübadiləsi, gələcəkdə bir çox iqtisadi layihələrin icrasına dair məsələlər müzakirə olundu.

Söhbət zamanı hökumətlərarası komissiyanın iclasının keçiriləcəyi qeyd edildi və komissiyanın fəaliyyəti barədə fikir mübadiləsi aparıldı.

### *Rusiyanın xarici işlər naziri Sergey Lavrovun qəbulu*

Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev iyunun 23-də Rusiya Federasiyasının xarici işlər naziri Sergey Lavrovu qəbul edib.

AZƏRTAC xəbər verir ki, görüşdə çıxış edən Prezident İlham Əliyev dedi:

– Hörmətli Sergey Viktoroviç, sizi yenidən görməyimə çox şadam. Xoş gəlmisiniz. Elə sizin səfəriniz ərəfəsində həm sizinlə, həm də Rusiya Federasiyasının Prezidenti ilə əvvəlki görüşlərimizi xatırlamışam. Bu ilin əvvəlində Moskvada Müttəfiqlik Qarşılıqlı Fəaliyyəti

haqqında Bəyannamənin imzalanması bizim münasibətlərə, münasibətlərimizin yeni mərhələsinə yaxşı start, belə müsbət ahəng, dinamika verdi. Hesab edirəm ki, bizim münasibətlərimizin gələcək inkişafı üçün bu əsas sənəd çoxillik, çox səmərəli əməkdaşlığın gözəl yekunudur. Bəyannamənin müddəalarının implementasiyası çərçivəsində artıq xeyli iş görülüb. Əminəm ki, sizin səfəriniz çərçivəsində bu istiqamətdə yeni addımlar atılacaq. Əlamətdar haldır ki, diplomatik münasibətlərin yaradılmasının 30-cu ilində biz görülmüş bütün işlərə müəyyən mənada yekun vurduq və dostluq, mehriban qonşuluq münasibətlərinin inkişafının sonrakı istiqamətlərini müəyyən etdik.

Bizim münasibətlər haqqında çox danışmaq olar. Sizinlə bu mövzuda dəfələrlə fikir mübadiləsi aparmışıq. Siyasi münasibətlərin, ali səviyyədə daimi dialoqun, bu il yaxşı dinamika nümayiş etdirən ticari-iqtisadi əlaqələrin, nəqliyyat, energetika sahələrində, təbii ki, humanitar sahədə əməkdaşlığın inkişafından məmnun olduğumu bir daha bildirmək istərdim. Yəni, bizdə sıx qarşılıqlı fəaliyyətin olmadığı sahələri göstərmək daha asandır. Əlbəttə, Müttəfiqlik Qarşılıqlı Fəaliyyəti haqqında Bəyannamə bizim ikitərəfli münasibətlərdə çox mühüm addımdır və artıq dediyim kimi o, bizim əlaqələrimizin inkişaf yollarını müəyyən edəcək.

Bu gün, əlbəttə, regionda vəziyyət, münaqişədən sonrakı vəziyyət, Azərbaycanla Ermənistan arasında münasibətlərin normallaşması prosesi barədə danışacağıq. Siz bizim mövqeyimizi bilirsiniz. Bu mövqe regionda uzunmüddətli sülhün bərqərar olmasına yönəlib. Əminəm ki, göstərdiyimiz səylər Ermənistan tərəfindən də müsbət qəbul ediləcək və çoxillik qarşıdurmaya son qoyulacaq. Sülh müqaviləsi üzərində işə başlamaq barədə bizim təklifimiz hələlik cavabsız qalır, lakin biz hələ ümid edirik ki, bu təklif müsbət qəbul ediləcək.

Müsbət məqamlar arasında Rusiya, Azərbaycan və Ermənistanın baş nazirlərinin müavinlərinin sədrliyi ilə üçtərəfli işçi qrupun işinin intensivləşməsini qeyd etmək istərdim. Lap yaxın vaxtlarda Sankt-Peterburqda yeni görüş keçirilib. Ümid edirik ki, 2020-ci il noyabr Bəyannaməsinin implementasiyası məqsədilə məhz kommunikasiyaların açılması, Azərbaycan yüklərinin və vətəndaşlarının Naxçıvan Muxtar Respublikasına maneəsiz çatdırılmasının təmin edilməsi kontekstində də praktiki addımlar atılacaq. Bu, Ermənistan tərəfinin hüquqi öhdəliyidir. Lakin təəssüf ki, İkinci Qarabağ müharibəsinin başa çatmasından ilyarımdan çox keçməsinə baxmayaraq Bəyannamənin həmin bəndi indiyə qədər yerinə yetirilməyib. Düşünürəm ki, bütövlükdə vəziyyətin normallaşması üçün bizim konsepsiya çərçivəsində çox praktiki addımlar atmaq mümkün olacaq. Əlbəttə, Qafqazda möhkəm sülhün bərqərar olması işində Rusiya Federasiyasının fəal səylərinə də ümid bəsləyirik.

Bir daha xoş gəlmisiniz. Vaxtınızı xoş keçirməyi arzu edirəm.

* * *

Rusiyanın xarici işlər naziri Sergey Lavrov çıxış edərək dedi:

– Çox sağ olun, hörmətli İlham Heydər oğlu.

İlk növbədə, Sizə Vladimir Putinin ən səmimi salamlarını və ən xoş arzularını çatdırmaq istəyirəm. O da Sizin səfərinizin yekunlarını və ikitərəfli münasibətlərimizin bütün aspektlərini, regional və beynəlxalq gündəliyə dair etimada əsaslanan söhbətlərimizi çox yüksək qiymətləndirir. Əlbəttə, səfərin əsas yekunu qəbul edilmiş sənəd – Müttəfiqlik Qarşılıqlı Fəaliyyəti haqqında Bəyannamə oldu. Bütövlükdə, həmin sənəd bizim münasibətlərimizin yeni keyfiyyətini, bütün əvvəlki illər ərzində toplanmış müsbət təcrübəni təsbit etdi. Biz iki Prezidentin bu Bəyannaməni icra etmək, onu sektoral şəkildə həyata keçirmək, digər razılaşmaları artıq praktiki səviyyədə reallaşdırmaq barədə tapşırıqlarını yerinə yetirmək əzmindəyik.

Baş nazirlərin müavinləri səviyyəsində hökumətlərarası komissiya fəal işləyir. Sizin dediyiniz kimi, keçən il əmtəə dövriyyəsi rekord səviyyədə – təqribən 3,5 milyard dollar olub. Bu da son hədd deyil, həm hökumətlərimiz, həm də regionlar səviyyəsində yeni planlar var. 70-dən çox region Azərbaycanla əməkdaşlıqda iştirak edir. Mənə dedilər ki, təkcə bu il ərzində Udmurtiya, Başqırdıstan, Perm diyarı və əlbəttə, Azərbaycanla xüsusi münasibətləri olan Həştərxan vilayətinin nümayəndə heyətləri Sizin ölkəyə səfər ediblər.

Diplomatik münasibətlərin yaradılmasının 30-cu ilində də sanballı tədbirlər proqramı həyata keçirilir. İyirmidən çox müxtəlif tədbir planlaşdırılır, onların bir qismi artıq təşkil edilib, qalanları ilin sonunadək keçiriləcək. Bu tədbirlər bizim vətəndaşlar tərəfindən yaxşı qarşılanır. Bu, xalqlarımızın qarşılıqlı olaraq bir-birinə can atmasını, mədəniyyətlərimizin, tarixi yaddaşımızın ümumiliyini vurğulayır. Əlbəttə, biz Azərbaycanda rus dilinə göstərilən diqqəti qiymətləndiririk, Siz də Prezident Putin ilə bu barədə danışmısınız.

Regional problemlərə gəldikdə, biz üç lider tərəfindən 2020-ci ilin noyabrında, 2021-ci ilin yanvarında və noyabrında imzalanmış üç sənədin reallaşmasına hər vasitə ilə kömək etməyə hazırıq. Bizim dəyərləndirməmizə görə, kommunikasiyaların açılması üzrə üçtərəfli işçi qrupunun fəaliyyətində müəyyən irəliləyiş var. Razılaşdırılmalı məsələləri biz Ermənistan tərəfi ilə müzakirə edirik. Mənə belə gəlir ki, avtomobillərin maksimum komfort şəkildə hərəkətinə heç bir süni maneə yaradılmaması üçün bu işin təşkili məsələsini necə həll etmək barədə ümumi fikir formalaşır. Rusiya nəticə əldə olunana qədər bu işə kömək edəcək. Ümidvaram ki, bu, tezliklə olacaq. Biz həm də başqa razılaşmalara uyğun olaraq Azərbaycanda və Ermənistanda

sərhədlərin delimitasiyası və demarkasiyası üçün yaradılmış iki komissiyanın xətti üzrə işə məsləhət xidmətləri göstərməyə də hazırıq. Bu barədə konkret təkliflər var. Onları Sizinlə müzakirə etməyə şad olaram.

Siz münasibətlərin normallaşdırılmasını, sülh müqaviləsini, gələcək müqavilənin sizin tərəfinizdən təqdim olunmuş müddəalarını xatırlatdınız. Yeri gəlmişkən, biz eşitmişik, Ermənistan tərəfi, baş nazir Paşinyan bu mövzuda danışıqlar aparmağa hazırdır. Biz burada da Azərbaycanın və Ermənistanın razılığı ilə kömək göstərməyə hazırıq. Əlbəttə, Azərbaycanın və Rusiyanın iştirak etdiyi digər beynəlxalq forumlar – həm BMT, həm ATƏT, həm də "Xəzər beşliyi" – bütün bu məkanlar, necə deyərlər, artıq xarici konturda bizim qarşılıqlı fəaliyyətimizi inkişaf etdirməyə imkan verir. Düz bir həftədən sonra Aşqabadda "Xəzər beşliyi"nin növbəti sammiti keçiriləcək. Biz də buna fəal hazırlaşırıq. Həmkarım və dostum Ceyhun Əziz oğlu ilə liderlərin bəyənməsi üçün təklif edə biləcəyimiz yekunları müzakirə etmişik.

Dəvətə və ənənəvi qonaqpərvərliyə görə bir daha çox sağ olun. Sağ olun.

* * *

Dövlətimizin başçısı Rusiya Federasiyasının Prezidentinə salamlarına görə minnətdarlığını bildirdi, onun da salamlarını Vladimir Putinə çatdırmağı xahiş etdi.

### *BP qrupunun baş icraçı direktorunun qəbulu*

Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev iyunun 24-də BP qrupunun baş icraçı direktoru Bernard Lunini qəbul edib.

AZƏRTAC xəbər verir ki, görüşdə BP şirkətinin SOCAR ilə uzun illər uğurlu əməkdaşlıq həyata keçirdiyi vurğulandı. Şirkətin bundan sonra da ölkəmizdə fəaliyyət göstərmək niyyəti ifadə olundu.

BP-nin Azərbaycanda yaşıl enerji növlərinə keçidlə bağlı verdiyi töhfə qeyd edildi. Şirkət tərəfindən Cəbrayılda inşa ediləcək 240 meqavatlıq günəş elektrik stansiyasının əhəmiyyətinə toxunuldu, bununla bağlı iyunun 4-də Şuşada BP ilə imzalanmış sənədin önəmi vurğulandı.

Söhbət zamanı gələcək planlar barədə fikir mübadiləsi aparıldı.

### *İslam Əməkdaşlıq Təşkilatının Baş katibinin qəbulu*

Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev iyunun 27-də İslam Əməkdaşlıq Təşkilatının (İƏT) Baş katibi Hissein Brahim Tahanı qəbul edib.

AZƏRTAC xəbər verir ki, Prezident İlham Əliyev Azərbaycanın xarici siyasət prioritetlərində müsəlman ölkələri ilə əməkdaşlığın xüsusi yer tutduğunu qeyd edərək, bu əməkdaşlığın həm ikitərəfli, həm də beynəlxalq təşkilatlar çərçivəsində uğurla aparıldığını bildirdi. Dövlətimizin başçısı ölkəmizin İƏT ilə səmərəli əməkdaşlıq həyata keçirdiyini vurğulayaraq Azərbaycanın islam həmrəyliyinin gücləndirilməsi işində çox fəal çalışdığını qeyd etdi.

Prezident İlham Əliyev bildirdi ki, Azərbaycan Qoşulmama Hərəkatına üzv olan bir çox müsəlman ölkələri ilə də sıx əməkdaşlıq edir. Bununla əlaqədar dövlətimizin başçısı bu günlərdə Bakıda Qoşulmama Hərəkatının Parlament Şəbəkəsinin təsis ediləcəyini məmnunluqla vurğuladı.

Prezident İlham Əliyev həm İkinci Qarabağ müharibəsi zamanı, həm də postmüharibə dövründə İslam Əməkdaşlıq Təşkilatının Azərbaycanın haqq işini, ərazi bütövlüyünü dəstəkləməsini yüksək qiymətləndirdi. Dövlətimizin başçısı işğal illərində ermənilər tərəfindən tarixi və mədəni abidələrimizin, o cümlədən məscidlərimizin vəhşicəsinə darmadağın edildiyini bildirərək bunu xalqımıza qarşı mədəni soyqırımı, bütün müsəlman ölkələrinə qarşı təhqir kimi dəyərləndirdi.

Azərbaycan Prezidenti işğaldan azad edilmiş ərazilərimizdə aparılan genişmiqyaslı bərpa və yenidənqurma layihələrindən, o cümlədən dini abidələrimizin bərpası istiqamətində görülən işlərdən danışdı.

İslam Əməkdaşlıq Təşkilatının Baş katibi Azərbaycana səfərindən məmnunluq hissi keçirdiyini qeyd etdi. Hissein Brahim Taha Azərbaycanın İƏT üçün çox önəmli ölkə olduğunu bildirərək dövlətimizin başçısının lider kimi fəaliyyətini yüksək qiymətləndirdi. Qeyd etdi ki, İƏT Prezident İlham Əliyevin üzv ölkələr arasında həmrəyliyin gücləndirilməsi istiqamətindəki mövqeyinin dünya miqyasında təşviq edilməsi üçün yorulmaz səylər göstərir.

Prezident İlham Əliyev BMT tərəfindən də təqdir edilən və İslam Əməkdaşlıq Təşkilatı ilə Avropa Şurasının birgə əməkdaşlığının təzahürü olan Bakı Prosesinin mədəniyyətlərarası dialoqa verdiyi töhfəni xüsusi qeyd etdi.

Görüşdə İslam Əməkdaşlıq Təşkilatına üzv ölkələr arasında həmrəyliyin önəmi vurğulandı, əməkdaşlığın perspektivləri ətrafında fikir mübadiləsi aparıldı. Dünyanın bəzi regionlarında islamofobiya meyillərinin artdığı bildirildi və onun qarşısının alınması istiqamətində birgə fəaliyyətin aparılmasının vacibliyi vurğulandı.

***Türkiyə Böyük Millət Məclisinin sədrinin qəbulu***

Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev iyunun 30-da Türkiyə Böyük Millət Məclisinin sədri Mustafa Şentopu qəbul edib.

AZƏRTAC xəbər verir ki, görüşdə Mustafa Şentop Türkiyə Prezidenti Rəcəb Tayyib Ərdoğanın salamlarını dövlətimizin başçısına çatdırdı.

Dövlətimizin başçısı salamlara görə minnətdarlığını bildirdi, onun da salamlarını Türkiyə Prezidentinə çatdırmağı xahiş etdi.

Türkiyə parlamentinin sədri Qoşulmama Hərəkatı Parlament Şəbəkəsinin Bakı konfransının əhəmiyyətini vurğuladı, Azərbaycanın Hərəkata sədrliyi müvəffəqiyyətlə həyata keçirdiyini bildirdi.

Mustafa Şentop Azərbaycan ilə Türkiyə arasında parlamentlərarası əlaqələrin yüksək səviyyədə olduğunu vurğuladı. Türk Dövlətləri Təşkilatı, TÜRKPA çərçivəsində əməkdaşlığın vacibliyini qeyd edən Mustafa Şentop İqtisadi Əməkdaşlıq Təşkilatı Parlament Assambleyasının üçüncü ümumi konfransı ilə əlaqədar bir müddət əvvəl Azərbaycanda səfərdə olduğunu məmnunluqla xatırladı.

Söhbət zamanı 2019-cu ildə Azərbaycanda Qoşulmama Hərəkatının Zirvə görüşü keçirilərkən Türkiyənin ölkəmizin xüsusi dəvəti ilə tədbirdə iştirakının əhəmiyyəti vurğulandı.

Dövlətimizin başçısı Azərbaycanın Qoşulmama Hərəkatının fəaliyyətinin daha da inkişaf etdirilməsinə, onun təsisatlanmasına mühüm əhəmiyyət verdiyini və bu istiqamətdə bir sıra təşəbbüslərlə çıxış etdiyini bildirdi.

Vətən müharibəsi zamanı Qoşulmama Hərəkatına üzv dövlətlərin BMT Təhlükəsizlik Şurasında Azərbaycana göstərdiyi dəstəyin əhəmiyyəti qeyd olundu.

***Pakistan Senatının sədrinin qəbulu***

Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev iyunun 30-da Pakistan İslam Respublikası Senatının sədri Məhəmməd Sadiq Sancranini qəbul edib.

AZƏRTAC xəbər verir ki, görüşdə Məhəmməd Sadiq Sancrani Pakistan İslam Respublikasının Prezidenti Arif Alvinin salamlarını dövlətimizin başçısına çatdırdı.

Dövlətimizin başçısı salamlara görə minnətdarlığını bildirdi, onun da salamlarını Arif Alviyə çatdırmağı xahiş etdi.

Prezident İlham Əliyev Məhəmməd Sadiq Sancraninin ölkəmizə səfərinə toxunaraq yüksək səviyyədə olan əlaqələrimizə dair məsələlər ətrafında fikir mübadiləsinin aparılması üçün bu səfərin yaxşı imkan yaratdığını bildirdi.

Dövlətimizin başçısı qardaş Pakistanın hər zaman, xüsusilə də torpaqlarımızın işğalı illərində, İkinci Qarabağ müharibəsi və postmüharibə dövründə ölkəmizə göstərdiyi qardaşlıq dəstəyini yüksək qiymətləndirdi. Prezident İlham Əliyev o vaxt erməni işğalına görə Pakistanın Ermənistanla heç bir diplomatik əlaqə qurmamasının xalqımız tərəfindən böyük rəğbətlə qarşılandığını bildirdi.

Ölkəsinin keçmiş Ermənistan-Azərbaycan münaqişəsində Azərbaycanın haqlı və ədalətli mövqeyini daim dəstəklədiyini bildirən Məhəmməd Sadiq Sancrani Pakistan xalqının Azərbaycanın Qələbəsini böyük sevinclə qeyd etdiyini vurğuladı.

Pakistan İslam Respublikası Senatının sədri Vətən müharibəsində qazanılan Şanlı Qələbə və torpaqlarımızın işğaldan azad olunması münasibətilə Prezident İlham Əliyevi təbrik etdi.

Qonaq Qoşulmama Hərəkatı Parlament Şəbəkəsinin Bakı konfransının əhəmiyyətini vurğuladı.

Söhbət zamanı ölkələrimizin beynəlxalq təşkilatlar çərçivəsində uğurlu əməkdaşlığı məmnunluqla qeyd edildi. Həmçinin müxtəlif istiqamətlərdə, xüsusilə iqtisadi-ticari sahələrdə əməkdaşlığımızın genişləndirilməsinin, birbaşa hava əlaqəsinin bərpasının önəmi bildirildi.

***Özbəkistan Senatının sədrinin qəbulu***

Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev iyunun 30-da Özbəkistan Respublikası Ali Məclisi Senatının sədri Tənzilə Narbayevanı qəbul edib.

AZƏRTAC xəbər verir ki, Tənzilə Narbayeva Özbəkistan Prezidenti Şavkat Mirziyoyevin salamlarını və ən xoş arzularını Azərbaycan Prezidentinə çatdırdı.

Dövlətimizin başçısı salamlara görə minnətdarlığını bildirdi, onun da salamlarını Şavkat Mirziyoyevə çatdırmağı xahiş etdi.

Prezident İlham Əliyev Özbəkistana dövlət səfərinin nəticələrindən çox məmnun olduğunu vurğuladı, göstərilən yüksək qonaqpərvərliyə görə təşəkkürünü bildirdi, səfərin çox məzmunlu olduğunu qeyd etdi. Səfər zamanı razılaşdırıldığı kimi, aidiyyəti dövlət qurumlarına tapşırıqların verildiyini, əldə edilmiş razılaşmaların həyata keçirilməsi üçün bu məsələlərin müntəzəm olaraq nəzarətdə saxlanılacağını dedi. Dövlətimizin başçısı səfərin ölkələrimiz arasında dostluq və qardaşlıq əlaqələrinin nə dərəcədə güclü olduğunu bir daha nümayiş etdirdiyini bildirdi.

Bakıda keçirilən Qoşulmama Hərəkatı Parlament Şəbəkəsinin konfransının əhəmiyyətinə toxunan Prezident

İlham Əliyev BMT-dən sonra ikinci böyük təşkilat olan Qoşulmama Hərəkatı çərçivəsində əməkdaşlığın vacibliyini vurğuladı, hazırda Hərəkatın təsisatlanması istiqamətində Azərbaycan tərəfindən bir sıra təşəbbüslərin həyata keçirildiyini qeyd etdi.

Tənzilə Narbayeva Prezident İlham Əliyevin Özbəkistana dövlət səfərinin Prezident Şavkat Mirziyoyevə və Özbəkistan xalqına dərin təəssürat hissi bağışladığını xüsusi olaraq vurğuladı. Bu səfərin nəticəsi olaraq Özbəkistan rəhbərliyi tərəfindən müvafiq qurumlara göstərişlərin verildiyini bildirdi.

Azərbaycan xalqının ümummilli lideri Heydər Əliyevin əziz xatirəsini dərin ehtiramla yad edən Tənzilə Narbayeva Ulu Öndərin Özbəkistan ilə Azərbaycan arasında dostluq əlaqələrinin inkişafına böyük töhfə verdiyini qeyd etdi, Prezident İlham Əliyevin onun siyasətini uğurla davam etdirdiyini dedi.

Azərbaycanın ərazi bütövlüyünün təmin olunmasını qeyd edən Özbəkistan Senatının sədri ölkəmizə səfəri çərçivəsində Şuşaya gedəcəklərini vurğuladı. Qonaq bu gün Azərbaycanın dünyada siyasi, iqtisadi və humanitar xarakterli tədbirlərin keçirildiyi məkana çevrildiyini qeyd etdi.

Tənzilə Narbayeva Qoşulmama Hərəkatı Parlament Şəbəkəsinin Bakı konfransının müvəffəqiyyətlə keçirildiyini deyərək bu tədbirə dəvətə görə təşəkkürünü bildirdi. O, bu tədbirin keçirilməsi ilə bağlı təşəbbüsün müəllifinin məhz Prezident İlham Əliyev olduğunu xüsusi vurğuladı, Azərbaycanın çox səmərəli şəkildə Hərəkata sədrlik etdiyini söylədi.

Söhbət zamanı ölkələrimiz arasında parlamentlərarası əlaqələrin vacibliyi qeyd olundu. Parlamentlərin dövlət başçıları tərəfindən əldə olunmuş razılaşmaların həyata keçirilməsi prosesinə dəstək verəcəyi xüsusi vurğulandı.

Qonaq ölkəmizə hər səfərlərində Bakıda böyük inkişaf proseslərinin şahidi olduqlarını bildirdi.

# AZƏRBAYCAN RESPUBLİKASININ PREZİDENTİ İLHAM ƏLİYEVİN SƏFƏRLƏRİ

## *Belçika Krallığına səfər*

Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev Avropa İttifaqı Şurasının Prezidenti Şarl Mişelin dəvəti ilə aprelin 6-da Belçika Krallığının paytaxtı Brüsselə işgüzar səfərə gəlib.

Aprelin 6-da Brüsseldə işgüzar səfərdə olan Azərbaycan Respublikasının Prezidenti İlham Əliyevin Avropa İttifaqı Şurasının Prezidenti Şarl Mişel ilə təkbətək görüşü keçirilib.

Avropa İttifaqı Şurasının Prezidenti Şarl Mişel dövlətimizin başçısı İlham Əliyevi qarşıladı.

Sonra birgə foto çəkdirildi.

Görüşdə dövlətimizin başçısı Avropa İttifaqı Şurasının Prezidenti Şarl Mişelin Ermənistanla Azərbaycan arasında postmünaqişə dövründə münasibətlərin normallaşması prosesinə verdiyi töhfəsini yüksək qiymətləndirdi və ötən ilin dekabrında keçirilmiş üçtərəfli görüşdə müəyyən edilmiş Brüssel sülh gündəliyinin əhəmiyyətini vurğuladı. Prezident İlham Əliyev Brüssel sülh gündəliyinin davamı olaraq Ermənistan tərəfinin iştirakı ilə bu gün keçiriləcək üçtərəfli formatda görüşün nəticəyönümlü olacağına ümidvarlığını ifadə etdi.

Avropa İttifaqı Şurasının Prezidenti Şarl Mişel bu çərçivədə Ermənistan və Azərbaycan arasında aparılan dialoqun əhəmiyyətini qeyd etdi. O, Azərbaycanın Avropanın enerji təhlükəsizliyində oynadığı rolu yüksək qiymətləndirdi.

Görüşdə Avropa İttifaqı ilə Azərbaycan arasında ikitərəfli gündəliyə dair məsələlər müzakirə edildi və əməkdaşlığın müxtəlif istiqamətlər üzrə dinamik şəkildə inkişaf etdiyi qeyd olundu.

Söhbət əsnasında qarşılıqlı maraq doğuran digər məsələlər, o cümlədən regional təhlükəsizliyə dair fikir mübadiləsi aparıldı.

Aprelin 6-da Brüsseldə Azərbaycan Respublikasının Prezidenti İlham Əliyevin Avropa İttifaqı Şurasının Prezidenti Şarl Mişel və Ermənistan Respublikasının baş naziri Nikol Paşinyan ilə işçi nahar formasında görüşü olub.

## *Şuşaya səfər*

Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev aprelin 21-də Füzuli rayonunda Köndələnçay su anbarlarında aparılacaq təmir-bərpa işləri, Şuşa rayonunun Daşaltı kəndində Əhmədbəyli-Füzuli-Şuşa avtomobil yolunun və bu yolun üzərindəki tunellərin inşası, Şuşa şəhərində inzibati binanın əsaslı təmiri və konfrans zalının tikintisi ilə tanış olub.

İşğaldan azad olunmuş ərazilərin bərpasını öz maliyyə imkanları hesabına həyata keçirən Azərbaycan bu sahədə də öz standartlarını yaradıb. Mina problemi, eyni zamanda, pandemiyanın yaratdığı çətinliklərə rəğmən, bərpa və yenidənqurma işləri bütün istiqamətlər üzrə sürətlə və planlı şəkildə aparılır. Su anbarlarının gələcək istismarı, hidroehtiyatların ölkənin su təsərrüfatı sisteminə inteqrasiyası da bərpa prosesinin və Böyük Qayıdışın tərkib hissəsidir.

Prezident İlham Əliyev Köndələnçay su anbarlarında aparılacaq təmir-bərpa işləri ilə tanış oldu.

Bildirildi ki, işğal dövründə on minlərlə hektar əkinəyararlı torpaq sahələrinin suvarılmaması faktiki olaraq bu sahələrin təsərrüfat dövriyyəsindən çıxarılmasına səbəb olub. Mövcud su anbarlarının qəsdən məhv edilməsi isə Ermənistanın Qarabağda aqrar sahədə dağıdıcı fəaliyyətinin nəticəsidir. Köndələnçay su anbarı buna bariz misaldır. Ümumi sistemə daxil olan “Köndələnçay-1”, “Köndələnçay-2” və “Aşağı Köndələnçay” su anbarlarının bərpası ilə Füzuli rayonu ərazisində 6200 hektar əkin sahəsinin suvarılması mümkün olacaq.

Qeyd edək ki, işğaldan azad olunmuş ərazilərdə ümumilikdə 9 su anbarı tikilir və ya təmir olunur. Qarabağın zəngin su ehtiyatlarının düzgün və səmərəli idarə olunması bütövlükdə regionun iqtisadi inkişafını sürətləndirəcək.

İşğaldan azad olunan ərazilərin kənd təsərrüfatı sahəsində potensialı ölkə iqtisadiyyatı üçün mühüm drayverlərdən birinə çevriləcək. Su ehtiyatlarının düzgün idarə edilməsi və səmərəli istifadəsi isə Qarabağda aqrar sahənin inkişafına töhfə verəcək. Hazırda bərpası nəzərdə tutulan su anbarlarının istifadəyə verilməsi ilə bu məsələ həllini tapacaq.

İşğal dövründə Ermənistan məqsədli şəkildə su ehtiyatlarından təzyiq vasitəsi kimi istifadə edirdi. Bu gün Azərbaycan Prezidenti İlham Əliyevin strateji kursuna əsasən, bərpa prosesi zamanı sudan məqsədyönlü istifadə üçün infrastruktur imkanları təkmilləşdirilir. Bu, eyni zamanda, keçmiş məcburi köçkünlərin həyat şəraitinin yaxşılaşdırılması, məşğulluğun artırılması, ölkədə ərzaq təhlükəsizliyinin təmin olunmasına hesablanıb.

Sonra dövlətimizin başçısı Şuşa rayonunun Daşaltı kəndində Əhmədbəyli-Füzuli-Şuşa avtomobil yolunun və bu yolun üzərindəki tunellərin inşası ilə tanış oldu.

Qeyd edək ki, Qarabağın dirçəlişinə aparan Böyük Qayıdış proqramının əsas tərkib hissələrindən biri yol infrastrukturunun qurulmasıdır. Şuşaya çəkilən Zəfər yolunun cığırı qəhrəman əsgər və zabitlər tərəfindən açılıb. Hazırda bu yolda işlər davam etdirilir – məqsəd Şuşaya avtomobillə daha tez və rahat çatmaqdır. Cəmi 10 ay əvvəlki vəziyyətlə hazırkı mərhələni müqayisə etdikdə mübaliğəsiz demək olar ki, dünyada bu sürət və keyfiyyətdə görülən işlərə rast gəlmək mümkün deyil.

Əhmədbəyli-Füzuli-Şuşa avtomobil yolunun digər önəmi onun Zəngəzur dəhlizinin magistralı ilə birləşməsindədir.

Məlumat verildi ki, yolun uzunluğu 81,6 kilometr, hərəkət zolaqlarının sayı 4-6, hərəkət zolağının eni isə 3,5 metrdir. Yolboyu 7 tunelin tikintisi aparılır. Bir neçə tuneldə qazma işləri artıq tamamlanıb, digərlərində isə qazma, partlatma və qırma üsulları ilə qaya qruntlardan ibarət hissələrin kənarlaşdırılması işləri davam edir. Bundan başqa, tunellərdə havalandırma və izolyasiya sistemləri də quraşdırılır.

Əhmədbəyli-Füzuli-Şuşa avtomobil yolunda tunellərin inşası ilə yanaşı, yolboyu müxtəlif hissələrdə torpaq yatağının, körpülərin, yeraltı keçid və suötürücü boruların tikintisi də layihəyə uyğun şəkildə icra olunur.

Prezident İlham Əliyev avtomobili tuneldə idarə etdi.

Qeyd edək ki, Qarabağ və Şərqi Zəngəzur iqtisadi rayonları ərazisində icra olunan yol-nəqliyyat infrastrukturu işğaldan azad edilən rayon və kəndlərin sosial-iqtisadi inkişafında mühüm rol oynayacaq. Əhmədbəyli-Füzuli-Şuşa avtomobil yolunun tikintisinin 2024-cü ildə başa çatdırılması planlaşdırılır.

Daha sonra Prezident İlham Əliyev Şuşa şəhərinə gəldi.

Məlum olduğu kimi, aparılan kompleks işlər çərçivəsində Şuşa şəhərinin tarixi görkəminin bərpası, əvvəlki şöhrətinin özünə qaytarılması və ənənəvi dolğun mədəni həyatına qovuşması üçün bərpa-quruculuq işləri sürətlə davam etdirilir.

Dövlətimizin başçısı əvvəlcə Şuşa şəhərində tullantıların idarə olunması poliqonunda gedən işlərlə tanış oldu.

Bildirildi ki, burada məişət tullantıları Avropa standartlarına uyğun xüsusi yeraltı konteynerlərdə yerləşdiriləcək. Poliqonda 4 çeşid üzrə 600 ədəd SMART yeraltı konteyner və 11 ədəd xüsusi texnika nəzərdə tutulub. Ərazidə söküntü materiallarının çeşidlənməsi də aparılacaq. Şəhərin su təchizatı sisteminin dayanıqlığının təmini də iki mərhələdə paralel layihələrlə həyata keçiriləcək.

Sonra Prezident İlham Əliyev Şuşa şəhərində inzibati binanın əsaslı təmiri və konfrans zalının tikintisi ilə tanış oldu.

Məlumat verildi ki, hazırda binada işlər tamamlanmaq üzrədir. Şəhərin arxitekturasına uyğun tikilən binada hər cür şərait yaradılacaq.

Aprelin 22-də Şuşa şəhərində Dünya Azərbaycanlılarının V Qurultayı – Zəfər Qurultayı işə başlayıb.

Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev Qurultayda geniş nitq söyləyib.

**Prezident İlham Əliyevin nitqi**

– Hörmətli qurultay iştirakçıları, sizi səmimiyyətlə salamlayıram, Şuşaya, Qarabağa xoş gəlmisiniz!

Xahiş edirəm ki, ilk növbədə, Vətən uğrunda canından keçmiş, qəhrəmancasına həlak olmuş əziz şəhidlərimizin xatirəsini bir dəqiqəlik sükutla yad edək.

Allah rəhmət eləsin!

Biz şəhidlərimizin qanını döyüş meydanında aldıq, qisasımızı düşməndən döyüş meydanında aldıq. Onların qanı yerdə qalmadı, bu, onların yaxınları üçün, qohumları üçün, bütün Azərbaycan xalqı üçün təsəlli verir.

Biz bu gün azad Qarabağda, azad Şuşada Dünya Azərbaycanlılarının Qurultayını keçiririk. Bu qurultayın adı Zəfər qurultayıdır və bu, təbiidir. Çünki tarixi Zəfərdən sonra ilk dəfədir ki, dünya azərbaycanlıları toplaşır, qurultay keçirir və ümumiyyətlə Zəfər adı xalqımıza çox yaraşır. Siz buraya Zəfər yolu ilə gəlmisiniz, qurultayın adı Zəfər qurultayıdır. Hazırda ölkəmizin müxtəlif yerlərində, ilk növbədə, azad edilmiş ərazilərdə Zəfər muzeyləri inşa edilir.

Bundan sonra Azərbaycan xalqı müzəffər xalq kimi əbədi yaşayacaq, bundan sonra bizim dövlətimiz qalib dövlət kimi yaşayacaq. Bu, böyük xoşbəxtlikdir - hamımız üçün, Azərbaycanda yaşayanlar, Azərbaycan vətəndaşları üçün, xaricdə yaşayan azərbaycanlılar üçün. Bu tarixi missiyanı həyata keçirən bizim qəhrəman övladlarımız tarix qarşısında, xalq qarşısında, Vətən qarşısında misilsiz xidmətlər göstərmişlər. Müstəqillik dövründə yetişən gənclər, vətənpərvərlik ruhunda yetişən gənclər bu tarixi hadisəni, tarixi müjdəni Azərbaycan xalqına bəxş etmişlər.

Buraya gələrkən 2001-ci ildə keçirilmiş ilk qurultayı xatırlayırdım. Bildiyiniz kimi, ulu öndər Heydər Əliyevin təşəbbüsü ilə ilk qurultay 2001-ci ildə keçirilmişdir. Ulu Öndər dərin məzmunlu çıxışında, eyni zamanda, təbii ki, Qarabağ problemi ilə bağlı öz fikirlərini bildirmişdir və demişdir ki, Azərbaycan öz ərazi bütövlüyünü bərpa edəcək, işğal altında olan torpaqlar işğaldan azad ediləcək və Azərbaycan xalqı öz dədə-baba torpaqlarına qayıdacaqdır. Biz – Ulu Öndərin

davamçıları bu sözləri gerçəyə çevirdik və V qurultaya hazırlıq işləri başlayarkən mənə məruzə edildi və mən dedim ki, bu qurultay mütləq Şuşada keçirilməlidir. Əminəm ki, qurultay iştirakçıları da buna çox müsbət yanaşıblar və böyük həvəslə Şuşaya, qədim Şuşaya, bizim mədəniyyətimizin paytaxtı olan Şuşaya gəlmişlər. Şuşa da öz doğmalarını bax, belə günəşli hava ilə qarşılayır və bu, bir daha onu göstərir ki, bura bizim tarixi torpağımızdır. Hətta təbiət, günəş də bizimlə həmrəydir.

Qarabağ münaqişəsinin həll edilməsi Prezident kimi mənim üçün başlıca vəzifə idi. Vəzifəyə seçildiyim ilk gündən bu günə qədər bu məsələnin həlli və postmünaqişə dövrünün Azərbaycanın xeyrinə inkişaf etməsi mənim üçün başlıca vəzifədir və bütün güclər səfərbər edilmişdir. Biz hamımız - həm Azərbaycanda yaşayan Azərbaycan vətəndaşları, dünya azərbaycanlıları bir nöqtəyə vururduq, bir hədəfə çatmaq üçün çalışırdıq. Mən deyirdim ki, biz hər birimiz hər gün bu müqəddəs günü yaxınlaşdırmalıyıq, öz əməyimizlə, işimizlə, hərə öz yerində və torpaqlarımızın işğaldan azad olunmasından daha vacib və ali vəzifə yox idi. Məhz buna görə ordu quruculuğu sürətlə aparılmışdır, buna görə Azərbaycan müasir orduya malik olmuşdur, buna görə gənc nəsil vətənpərvərlik, düşmənə nifrət, Vətənə sədaqət ruhunda tərbiyə olunurdu, buna görə iqtisadi islahatlar aparılmışdır. Bizim bütün işlərimizin, apardığımız siyasətin, atdığımız addımların fövqündə bu müqəddəs günü yaxınlaşdırmaq və bu günü görmək amalı dururdu. Biz buna öz gücümüzlə nail olduq. Azərbaycan xalqı 30 il davam edən mənasız danışıqlar əvəzinə öz gücünü ortaya qoydu, ədaləti bərpa etdi, beynəlxalq hüququ bərpa etdi və bütün dünyaya sübut etdi ki, biz böyük xalqıq və heç vaxt bu xalq, Azərbaycan xalqı işğalla barışmaq fikrində deyildi.

Mən dəfələrlə, o cümlədən birinci Qurultaydan sonra keçirilmiş Dünya Azərbaycanlılarının qurultaylarında çıxış edərkən deyirdim ki, biz heç vaxt bu işğalla barışmayacağıq, nəyin bahasına olursa-olsun öz dədə-baba torpaqlarımızı işğaldan azad edəcəyik. Ancaq həqiqətən mən istəyirdim ki, bu məsələ sülh yolu ilə həll olunsun, müharibə yolu ilə yox. Çünki hesab edirdim ki, sülh yolu ilə bu məsələnin həlli mümkündür. Beynəlxalq hüququn norma və prinsipləri ölkəmizin mövqeyini müdafiə edirdi. Dünyanın aparıcı beynəlxalq təşkilatları Azərbaycanın mövqeyini dəstəkləyən və haqq-ədalətə söykənən qərar və qətnamələr qəbul etmişlər. Ermənistanın işğalçılıq siyasəti dünya miqyasında artıq heç kimə sirr deyildi. Eyni zamanda, Azərbaycanla Ermənistan arasındakı qüvvələr nisbəti bizim xeyrimizə böyük dərəcədə dəyişdiriləndən sonra hesab edirdim ki, Ermənistan rəhbərliyi də nəhayət dərk edəcək ki, bizimlə rəqabət aparmaq üçün onların heç bir resursu yoxdur – nə siyasi resursu, nə iqtisadi, nə də insan resursu yoxdur. Hesab edirdim ki, Ermənistanda nəhayət anlayacaqlar ki, XXI əsrdə qonşu dövlətin torpağının böyük hissəsini işğal altında saxlamaq mümkün deyil. Ancaq əfsuslar olsun ki, həm Ermənistan rəhbərliyi, eyni zamanda, beynəlxalq ictimaiyyət, beynəlxalq təşkilatlar fərqli fikirdə idi və uzun sürən – 30 ilə yaxın davam edən danışıqlar, sadəcə olaraq, bu işğalı əbədiləşdirmək, Ermənistanın işğalçılıq siyasətini pərdələmək və bizi bu acı vəziyyətlə barışdırmaq məqsədi güdürdü. Əlbəttə, biz heç vaxt buna razı ola bilməzdik və Vətən müharibəsindəki göstərdiyimiz iradə, qətiyyət, döyüş meydanındakı qəhrəmanlıq bunu bir daha göstərdi. Biz təkcə Ermənistanla müharibə aparmamışıq. Biz təkcə dünya erməniliyi ilə müharibə aparmamışıq, biz Ermənistanın himayədarları ilə müharibə aparmışıq və bu müharibədə Qələbə qazanmışıq. Ona görə bu Qələbənin tarixi əhəmiyyəti daha böyükdür. Biz sübut etmişik ki, ölümə getməyə hazırıq, öldü var, döndü yoxdur. Müstəqillik dövründə vətənpərvərlik ruhunda yetişən gənclərimiz ölümə gedirdilər, bilərəkdən ölümə gedirdilər Vətən uğrunda.

İkinci Qarabağ müharibəsində həlak olanların böyük əksəriyyəti gənc nəslin nümayəndələri idi. Onların heç biri Qarabağda olmamışdı, bu diyarı görməmişdilər, amma onların qəlbində yaşayan milli ruh, ədalət və Vətən sevgisi onları ölümə aparırdı. Biz bütün dünyaya sübut etdik ki, XXI əsrdə necə müharibə aparmaq lazımdır, ləyaqətlə müharibə aparmaq lazımdır, müasir üsullarla müharibə aparmaq lazımdır və cəmi 44 gün ərzində Ermənistan ordusu tamamilə məhv edilmişdir. Ermənistanın məhv edilmiş silah-sursatının, texnikasının və qənimət götürülmüş texnikasının qiyməti ən aşağı 4-5 milyard dollar təşkil edir. O başqa məsələdir ki, kasıb ölkə bu pulu haradan əldə edib. Ancaq demək olar ki, Ermənistan ordusu yoxdur. Ermənistan ordusunda müharibə zamanı kütləvi fərarilik hökm sürürdü, onların özlərinin etirafına görə, 10 min fərari olmuşdur Ermənistan ordusunda. Azərbaycan Ordusunda bir dənə də fərari olmamışdır. Budur, xalqımızın böyüklüyü, xalqımızın qələbəyə inamı, xalq-iqtidar birliyi və bütün dünya azərbaycanlılarının birliyi. Mən bilirəm ki, siz və sizin kimi xaricdə yaşayan milyonlarla azərbaycanlı hərə öz ölkəsində həm müharibənin gedişatını yaxından izləyirdiniz, eyni zamanda, öz çıxışlarınızda, öz şərhlərinizdə, sosial şəbəkələrdə və digər imkanlardan istifadə edərək, Azərbaycanın haqq səsini, haqq işini yaşadığınız ölkələrin ictimaiyyətinə çatdırırdınız. Buna bu gün də ehtiyac var. Bu gün də ehtiyac var, çünki müharibə başa çatsa da, bizə qarşı olan ərazi iddiaları hələ ki, başa çatmayıb. Mən əminəm ki, bu da başa çatacaq. Əminəm ki, biz postmüharibə dövründə göstərdiyimiz səylər nəticəsində və bundan

sonra göstərəcəyimiz səylər nəticəsində Ermənistanın və dünya erməniliyinin Azərbaycana qarşı ərazi iddiala rını da aradan götürəcəyik. Ancaq bu gün hələ ki, bu iddialar var və biz buna hazır olmalıyıq. Biz müharibə dövründə - cəmi 44 gün ərzində 300-dən çox şəhər və kəndi döyüş meydanında azad etmişik. Məhz buna görə Ermənistan məcbur olub və noyabrın 10-da - noyabrın 9-dan 10-na keçən gecə kapitulyasiya aktına imza atdı. Məhz biz Şuşanı noyabrın 8-də azad edəndən sonra Ermənistan rəhbərliyi nəhayət anladı ki, müharibəni davam etdirmək onlara daha baha başa gələcək. Halbuki əgər onlar müharibənin ilk günlərində dediyim sözlərimə əməl etsəydilər və bizə işğal edilmiş torpaqlardan onların çıxarılmasının tarixini, cədvəlini versəydilər, müharibə daha tez dayana bilərdi. Mən müharibə dövründə dəfələrlə Azərbaycan xalqına müraciət edərkən deyirdim ki, Ermənistan rəhbərliyi bizə tarix versin, nə vaxt torpaqlarımızdan çıxır və həmin an biz müharibəni dayandırmağa hazırıq. Belə də oldu. Ancaq məcburən bunu etdilər. Qırx dörd gün ərzində tamamilə məhv edilmiş Ermənistan ordusu və Ermənistan dövləti faktiki olaraq uçurum kənarında idi. Məcburən noyabrın 10-da kapitulyasiya aktı imzaladı və biz bir güllə atmadan Ağdam, Kəlbəcər və Laçın rayonlarını geri qaytardıq. Beləliklə, biz müharibəni hərbi-siyasi yollarla həll etdik. Yenə də deyirəm, təkbaşına, heç bir vasitəçi olmadan.

Vasitəçilərə gəldikdə, əfsuslar olsun ki, bu gün də hələ də Minsk qrupu haqqında Ermənistanda yüksəkvəzifəli şəxslər sözlər deyirlər. Hesab edirəm ki, bu, əbəsdir, bunun heç bir mənası yoxdur. Minsk qrupu faktiki olaraq 2019-cu ildə iflic olmuşdur. 1992-ci ildə bu məsələni həll etmək üçün mandat almış bu qrup faktiki olaraq heç bir nəticə əldə etməmişdir. İndi bu qrupun tarixçəsinə və hərəkətlərinə, verdiyi təkliflərə nəzər yetirərkən bir daha görmək olar ki, bu qrup məsələni həll etmək üçün yaranmamışdır. Sadəcə olaraq, biz o vaxt bir qədər sadəlövh idik. Bu qrup məsələni həll etmək üçün yox, işğalı əbədiləşdirmək üçün yaradılmışdır. Minsk qrupunun həmsədr ölkələrində erməni lobbi qrupları çox təsirlidir. Məhz buna görə 28 il bu qrupun heç bir nəticəsi olmamışdır.

2019-cu ildə isə qrupun fəaliyyəti demək olar ki, dayanmışdır. Bunun da səbəbi Ermənistanın yeni rəhbərliyinin çox qəribə davranışı olmuşdur. Çünki Ermənistanın yeni rəhbərliyi 2018-ci ildə hakimiyyətə gələndə həm Minsk qrupunda, həm, – onu da açıq deməliyəm, – bizdə də bəzi ümidlər var idi ki, indi kriminal xunta rejim artıq devrildi və hakimiyyətə gələn yeni nəsil siyasətçilər reallığı dərk edəcəklər, anlayacaqlar ki, Azərbaycanla mübarizə aparmaq, müharibə aparmaq onların iqtidarında deyil. Demək olar ki, bir il ərzində aparılan fəal danışıqlar bu fikri daha da gücləndirirdi. Ancaq 2019-cu ildə Ermənistan rəhbərliyi tam fərqli mövqe sərgiləməyə başlamışdır. Ermənistan rəhbərliyi tərəfindən səsləndirilən cəfəng fikirlər faktiki olaraq danışıqlar prosesinə son qoymuşdur. “Qarabağ Ermənistandır və nöqtə” deməklə danışıqlar prosesinə son qoyuldu və bu açıqlamadan sonra mənimlə görüşə gələn Minsk qrupu demək olar ki, çox qeyri-müəyyən vəziyyətdə idi. Çünki bu bəyanatdan sonra hər hansı bir danışıqların aparılması qeyri-mümkündür. Çünki danışıqların mahiyyəti ondan ibarət idi ki, işğal altında olan torpaqlar azad olunacaq.

Faktiki olaraq Minsk qrupu ondan sonra, hətta görüntü naminə hər hansı bir fəaliyyət göstərə bilmədi. Ancaq Ermənistan rəhbərliyi daha uzağa getdi. Ondan sonra bizə qarşı açıq təhdidlər dilə gətirildi. Yeni torpaqlar uğrunda yeni müharibə ilə bizi hədələdilər. Amma yenə də beynəlxalq ictimaiyyət buna susdu. Bu, açıq təhdiddir. Özü də işğalçı dövlət tərəfindən işğala məruz qalan dövlətə qarşı növbəti təhdiddir. Yəni, bizi növbəti işğalla hədələyirdilər. Ancaq nə BMT, nə ATƏT, nə başqa təşkilatlar, nə Minsk qrupu heç bir açıqlama verməmişdi. Əlbəttə ki, işğalçı bundan ruhlanaraq daha da azğınlaşmışdı və faktiki olaraq Ermənistan tərəfindən onilliklər ərzində uydurduğu mifologiyaya inanmağa başlamışdı. Biz bu mifologiyanı darmadağın etdik, cəmi 44 gün ərzində düşməni torpağımızdan qovduq, Ermənistan bizim qabağımızda diz çökdü, başını əydi, kapitulyasiya aktına imza atmağa məcbur oldu, imdad dilədi və bu gün də həmin vəziyyətdədir. Bu gün də yer qalmayıb qapısını döyməsin ki, amandır Azərbaycan bizi hədələyir, Azərbaycan bizi burada boğmaq istəyir. Biz öz vəzifəmizi icra etmişik. Bizim başqa dövlətlərin torpağında gözümüz yoxdur, heç vaxt olmayıb. Ancaq biz öz torpağımızı heç kimə verəsi deyilik və İkinci Qarabağ müharibəsi bunu bir daha sübut etdi.

Yəni, münaqişəyə son qoyan Azərbaycan əsgəri oldu, qəhrəman Azərbaycan əsgəri. Müharibənin son hadisələri məhz burada - Şuşada baş vermişdir. Sıldırım qayalara dırmaşaraq bizim qəhrəman əsgərlərimiz, zabitlərimiz demək olar ki, əlbəyaxa döyüşlərdə burada topla, tankla, artilleriya ilə silahlanmış Ermənistan ordusuna qalib gəldilər. Şuşa Zəfərindən sonra faktiki olaraq Ermənistan cəmi bir gün dirəniş, - əgər buna dirəniş demək mümkündürsə, - göstərməyə cəhd etmişdir və noyabrın 9-da artıq kapitulyasiya aktını imzalamağa hazır olduğunu bildirmişdir.

Biz müharibəni də ləyaqətlə aparmışıq, postmüharibə dövründə də özümüzü ləyaqətlə aparırıq. Artıq postmünaqişə dövrünün nəticələri haqqında danışmaq olar. Çünki bir daha demək istəyirəm, bizim Qələbəmiz, özü də 44 gün ərzində əldə etdiyimiz Qələbə bir çoxları üçün gözlənilməz idi. Hərbi ekspertlər, siyasətçilər, bu məsələ ilə məşğul olan müxtəlif təşkilatların nümayəndələri bizə həmişə deyirdilər ki, bu müharibəni

Azərbaycan uda bilməz. Çünki Ermənistan bu 30 il ərzində işğal edilmiş torpaqlarda istehkamlar qurmuşdur, müdafiə xətləri qurmuşdur. Eyni zamanda, Qarabağın təbii relyefi elədir ki, torpaqları azad etmək çətin olacaq. Çoxlu itkilər olacaq, ancaq nəticədə bütün bu fərziyyələr demək olar ki, etibarsız oldu.

Onlar bir məsələni diqqətdən kənarda qoymuşdular – Azərbaycan xalqının əzmini, Azərbaycan əsgərinin gücünü, Vətən sevgisini. Bəli, düzdür, bəzi yerlərdə beş, bəzi yerlərdə altı müdafiə xətti qurulmuşdu, istehkamlar qurulmuşdu, tikanlı məftillər, dəmir parçaları və sair. Bölgənin coğrafiyası bizim üçün çox əlverişsiz idi. Bütün bunlara baxmayaraq, az itki verməklə, Ermənistan ordusundan iki-üç dəfə az itki verməklə biz tarixi missiyamızı yerinə yetirdik və son nöqtəni burada –tarixi şəhərimizdə qoyduq.

Bu gün Şuşaya gələn hər bir insan, hər bir azərbaycanlı görür ki, Şuşa Azərbaycan şəhəridir. Əgər belə olmasaydı, Şuşa belə ağır vəziyyətdə olmazdı. Siz, indi buraya gələn qonaqlar müharibədən ilyarım keçəndən sonra gəlirsiniz. Əgər müharibədən dərhal sonra gəlsəydiniz, görərdiniz ki, nə vəziyyətdədir. Hələ də dağılmış vəziyyətdədir. Ancaq Şuşa bərpa olunur, Şuşa dirçəlir və Şuşanın dirçəlməsi ilə bağlı gedən işlər çox genişmiqyaslıdır və bu haqda sizə məlumat veriləcək.

Əgər bu şəhər ermənilərə mənsub olsaydı, bu günə qoyardılarmı bunu? Burada cəmi 1800 adam yaşayırdı. Özü də onların 90 faizi hərbçilər və onların ailə üzvləri idi. Burada bir dənə də salamat tarixi bina qalmamışdır. Ermənilər 17 bulağın 17-sini də qurutmuşdular, məscidlərimizi təhqir etmişdilər, sökmüşdülər, saraylarımızı sökmüşdülər. Yəni, bir dənə də burada yeni bir bina tikilməmişdi. Sadəcə olaraq, bizim təbii sərvətlərimizi istismar ediblər və təkcə Şuşa yox, bütün digər şəhərlər də eyni vəziyyətdədir. Tamamilə dağılmış Ağdamı xarici ekspertlər, jurnalistlər Xirosimaya bənzədirlər. Bəli, Xirosima atom bombası nəticəsində məhv edildi. Ağdam və digər şəhərlər erməni vandallığı nəticəsində məhv edildi. Birinci Qarabağ müharibəsi dayanandan sonra 30 il ərzində binaları daş-daş söküb, daşıyıb satmışdılar və beynəlxalq təşkilatların hesabatlarında bu, var. Qəbirləri qazırdılar, ölülərin qızıl dişlərini çıxarırdılar. Yəni, Ermənistan və erməni xalqı bu vəhşiliyə görə dünya miqyasında rəzil oldu. Ona görə gələn hər qonaq, azad edilmiş torpaqlara gedən hər qonaq erməni vəhşiliyini görür və görməlidir. Görməlidir ki, biz təkcə işğalçını yox, faşistləri məhv etdik. Onların Birinci Qarabağ müharibəsində, İkinci Qarabağ müharibəsində, iki müharibə arasındakı dövr ərzində bütün əməlləri faşist əməlləridir. Bizim dinc şəhərlərimizi müharibə dövründə ballistik raketlərlə atəşə tutmaq, insanları məhv etmək faşizm deyil, bəs nədir? "Tocka-U", "SCUD", "İskəndər-M" raketi ilə Şuşa vurulmuşdu. Qar əriyəndən sonra Şuşada, şəhərin mərkəzində "İskəndər-M" raketinin qalıqları aşkarlanmışdır və bir daha biz sübut etdik ki, Ermənistan bu ölümcül silahdan, qadağan edilmiş silahdan və onlarda heç cür olmayan silahdan istifadə edib. Buna inanmayanlar gəlib Hərbi Qənimətlər Parkında "İskəndər-M" raketinin qalıqlarını görə bilərlər.

Biz faşizmi məhv etdik. Biz Cənubi Qafqazı faşizmdən xilas etdik. Ancaq hələ də faşizmin təzahürləri baş qaldırır, hələ də Ermənistanda bəzi dairələr və dünya erməniliyi, xarici ölkələrdə yaşayan ermənilər bizi hədələməyə çalışırlar. Amma İkinci Qarabağ müharibəsinin tarixçəsi onların yadından çıxmamalıdır. Biz gücümüzü artırmışıq. İlyarım ərzində ordu quruculuğu sahəsində çox böyük işlər görüldü. Bu işlərin bir hissəsi ictimaiyyətə təqdim edildi, bir hissəsi, əlbəttə ki, təqdim edilə bilməz. Ancaq hər kəs bilməlidir, bu gün Azərbaycan Ordusu istənilən vəzifəni icra edə bilər. Həm döyüş qabiliyyəti, həm milli ruh, həm mənəvi ruh, silah-sursat, texnika, yeni döyüşkən hərbi birləşmələrin yaradılması - bütün bunları biz məhz ona görə edirik ki, erməni faşizminin hələ də təzahürləri var və biz hər an erməni faşizmini,- əgər bir daha baş qaldırsa, - əzməyə hazır olmalıyıq və hazırıq. Ermənistan bunu yaxşı bilir, yaxşı başa düşür və heç vaxt bunu unutmamalıdır.

Biz bundan sonra ancaq və ancaq güclənəcəyik və postmüharibə dövrü bunu bir daha göstərdi. Həm ərazilərin bərpası, həm beynəlxalq müstəvidə addımlarımız bizim gücümüzü göstərdi. Çünki postmüharibə dövrü çox həssas bir dövrdür və artıq ilyarım keçəndən sonra tam əminliklə demək olar ki, biz bu çətin sınaqdan da şərəflə çıxdıq. Aparıcı beynəlxalq təşkilatlar postmüharibə reallıqlarını qəbul etdilər. BMT, hansı ki, Şuşada beynəlxalq tədbir keçirmişdir. Avropa İttifaqı hazırda Azərbaycan-Ermənistan arasında normallaşma prosesində çox fəal iştirak edir. ATƏT, hansı ki, çox yaxşı başa düşür Minsk qrupu artıq yoxdur. Düzdür mən, bir neçə ay bundan əvvəl, hələ Rusiya-Ukrayna müharibəsindən əvvəl demişdim, məndən soruşmuşdular ki, Minsk qrupu nə ilə məşğul olacaq? Dedim ki, 2022-ci ildə onların yaranmasının 30 illik yubileyidir. Yubiley keçirəcəklər, sonra pensiyaya gedəcəklər. Amma Rusiya-Ukrayna müharibəsi başlayandan sonra heç yubiley keçirməyə bunlarda fürsət olmadı.

Digər beynəlxalq təşkilatlar - məsələn, sədrlik etdiyimiz Qoşulmama Hərəkatı, İslam Əməkdaşlıq Təşkilatı, bütün aparıcı beynəlxalq təşkilatlar bizim mövqeyimizi dəstəkləmişlər və postmünaqişə reallıqlarını qəbul etmişlər. İndi qonşu ölkələr 3+3 formatda beş ölkə hazırda əməkdaşlıq formatı yaradıbdır. Qonşu ölkələrin hamısı postmünaqişə reallıqlarını qəbul etmişlər. Böyük dövlətlər – Amerika Birləşmiş Ştatları, Böyük Britaniya, Amerika Prezidenti, Böyük Britaniyanın Baş

naziri mənə göndərdikləri məktublarda bu, açıq-aydın göstərilir. Yəni, biz artıq bu mərhələni keçdik və bundan sonra Azərbaycan-Ermənistan əlaqələrinin normallaşması məsələsi gündəlikdədir. Yenə də bu gündəliyi biz ortaya qoyduq. Bütün ağrılı məqamlara baxmayaraq, işğala baxmayaraq, edilmiş bu vəhşiliklərə baxmayaraq, bölgənin gələcəyi naminə biz hesab edirik ki, buna ehtiyac var və biz sülh gündəliyi təqdim etdik və Ermənistandan hər hansı bir cavab gəlmədi. Beynəlxalq təşkilatlar da demək olar ki, buna o qədər də maraq göstərmədilər. Ona görə biz konkret olaraq beş prinsipdən ibarət təklif irəli sürdük və Ermənistan bu beş prinsipi qəbul etdi. Beləliklə, Ermənistan rəhbərliyi rəsmən bəyan etdi ki, Azərbaycanın ərazi bütövlüyünü tanıyır və Azərbaycana hər hansı bir ərazi iddiası yoxdur və gələcəkdə də olmayacaq. Hesab edirəm ki, bu, postmünaqişə dövrü üçün vacib məqamdır və biz məhz bu beş prinsip əsasında danışıqları aparmaq fikrindəyik.

Hazırda iki ölkənin xarici işlər nazirləri, nazirlikləri işçi qrupları formalaşdırır və hesab edirəm ki, yaxın gələcəkdə konkret danışıqlara başlamaq lazımdır və danışıqları çox uzatmaq lazım deyil. Çünki məhz beş prinsip əsasında sülh müqaviləsi imzalanacaq. Ona görə müqavilənin mətni tezliklə hazırlana bilər, imzalana bilər və beləliklə, Ermənistanla Azərbaycan arasında əlaqələr, o cümlədən diplomatik əlaqələr yaradıla bilər. Bu təklifi irəli sürməklə bir daha biz xoş niyyətimizi göstəririk və yenə də deyirəm, uzaqgörənlik göstəririk. Ermənistanda hərdənbir baş qaldıran revanşist qüvvələr bilməlidirlər ki, bu, Ermənistan üçün yeganə çıxış yoludur və bəlkə də son şansdır. Əgər bundan imtina etsələr, onda biz də Ermənistanın ərazi bütövlüyünü tanımayacağıq, bunu rəsmən bəyan edəcəyik. İkinci Qarabağ müharibəsinin nəticələrini nəzərə alaraq Ermənistan tərəfi yaxşı başa düşməlidir ki, bu addım nəyə gətirib çıxaracaq.

Amma yenə də dediyim bütün bu müsbət məqamlara baxmayaraq, hər birimiz – həm Azərbaycan hökuməti, həm səfirliklər, diaspor təşkilatları, bütün fəallar yeni reallıqları dünya ictimaiyyətinə çatdırmalıdırlar. Sizin – xaricdə yaşayan azərbaycanlıların bu sahədə daha böyük imkanlarınız var. Son illər ərzində bizim diaspor təşkilatlarımız çox fəallaşıb, həm İkinci Qarabağ müharibəsində biz bunu gördük, həm də ondan əvvəlki dövrdə. Hətta erməni radikal qüvvələrinin fiziki hücumlarına baxmayaraq, – onlar yenə də say çoxluğundan istifadə edib bizim fəallara qarşı cinayət törətmişlər, – azərbaycanlılar öz sözünü demişdilər, bu gün də bunu etmək lazımdır.

Yəni, yaşadığınız ölkələrin ictimaiyyətini, əgər belə demək mümkündürsə, maarifləndirmək lazımdır - həm Azərbaycan reallıqları haqqında, postmünaqişə dövrü haqqında və Azərbaycan tarixi haqqında. Hesab edirəm ki, bu, çox vacibdir. Çünki tarixi amillər həmişə istənilən münaqişənin siyasi və digər yollarla həll edilməsi üçün çox vacibdir. Tarix də göz qabağındadır. Uzaq tarixə getməyə ehtiyac yoxdur. Sadəcə olaraq, XIX əsrdə imzalanmış müqavilələri beynəlxalq ictimaiyyətə çatdırmaq kifayətdir. Kürəkçay, Gülüstan, Türkmənçay sülh müqavilələri. Orada erməni əhalisindən söhbət getmir. Kürəkçay müqaviləsini İbrahimxəlil xan Şuşalı və Qarabağlı, - titulu belə də gedib, - imzalayıb. XIX əsrin bu tarixi hadisələrindən sonra Qarabağa ermənilərin kütləvi köçü başlamışdır. Bu da heç kimə sirr deyil və artıq dünya ictimaiyyəti, ekspertlər bunu bilir, yaxşı olar ki, geniş ictimaiyyət də bunu bilsin. Azərbaycan xalqına qarşı edilən haqsızlıqlar haqqında biz beynəlxalq ictimaiyyəti mütləq məlumatlandırmalıyıq. XIX əsrdə, XX əsrin əvvəllərində ermənilərin Azərbaycan torpaqlarına köçürülməsi. 1920-ci ildə sovet hakimiyyəti tərəfindən Zəngəzurun Azərbaycandan qoparılıb Ermənistana verilməsi, bu da tarixi faktdır. Ondan iki il əvvəl Azərbaycan Xalq Cümhuriyyətinin İrəvanı Ermənistana bağışlaması, bu da sənədlərlə təsdiq olunan faktdır. 1921-ci ildə sovet hakimiyyəti tərəfindən bizə qarşı növbəti təxribat hazırlanırdı. Zəngəzur 1920-ci ilin noyabrında bizdən qoparıldı, bir il sonra Qafqaz Bürosu Qarabağı da bizdən qoparmaq istəyirdi. Ancaq alınmadı və qərar qəbul olundu ki, Dağlıq Qarabağ Azərbaycanın tərkibində saxlanılsın. Amma buna baxmayaraq, ilyarım keçəndən sonra – 1923-cü il iyulun 7-də Azərbaycan ərazisində tamamilə əsassız, süni bir qurum yaradıldı – Dağlıq Qarabağ Muxtar Vilayəti. Bunun yaradılmasının heç bir əsası yox idi. O vaxt indiki Ermənistanda yaşayan azərbaycanlıların sayı Qarabağda yaşayan ermənilərlə müqayisədə bəlkə də iki dəfə çox idi. Ancaq nədənsə, bu muxtar vilayəti orada yox, burada yaradıblar. Bunu yaradıblar və eyni zamanda, qədim Azərbaycan şəhərini – Şuşanı da onun tərkibinə salıblar, bir məqsədlə ki, Şuşa erməniləşsin. Çünki Şuşa tək bir qala kimi qalmışdı və yaxşı bilirsiniz ki, Şuşaya bütün yollar ermənilərin məskunlaşdığı yerlərdən keçirdi, ərazilərdən keçirdi. Yəni, Şuşaya gəlmək üçün mütləq ermənilərin yaşadıqları kəndlərdən keçmək lazım idi. İndi biz Zəfər yolunu çəkmişik. Zəfər yolunu bizim əsgər, zabitlər ayaqla açdılar, o dağın, dərənin, meşənin içi ilə. Yəni, bu da təxribat idi. Yəni, Şuşanı bizdən qoparmaq üçün, erməniləşdirmək üçün Şuşanı da saldılar bu süni qurumun tərkibinə. Amma alınmadı, nə qədər çalışsalar da, alınmadı. Şuşa öz milli ruhunu o vaxt həmişə qoruyurdu və işğal dövründə ermənilər Şuşanı erməniləşdirə bilmədilər.

Ondan sonra 1940-1950-ci illərdə azərbaycanlıların Ermənistandan kütləvi deportasiyası, - bu da xalqımız üçün böyük faciə və böyük ədalətsizlik idi. Azərbaycanlılar öz tarixi torpaqlarından Azərbaycanın Mil-Muğan

zonasına zorla köçürülmüşdür. O Azərbaycana qarşı bu edildi ki, İkinci Dünya müharibəsində 300 min Azərbaycan övladı müharibəyə getdi, qayıtmadı. O Azərbaycan ki, İkinci Dünya müharibəsində Sovet Ordusunun yanacağının 90 faizini verirdi. Əgər Azərbaycan olmasaydı, Azərbaycan nefti olmasaydı, Sovet İttifaqı müharibədə qələbə qazana bilməzdi və 3-4 il bundan sonra xalqımıza qarşı bu ədalətsizlik hansı mənəviyyata sığır?

Bu, tarixdir. Bu tarixi biz bilməliyik. Bu tarixi bilmədən 1980-1990-cı illərin tarixi yarımçıq qalacaq. Ondan sonra 1980-ci illərin sonlarında başlamış separatizm meyilləri faktiki olaraq Qarabağın böyük hissəsini Azərbaycandan qopardı. Hələ Sovet İttifaqı dövründə bunu etdilər. Xüsusi idarəetmə komitəsi yaradıldı və Moskvadan bir ermənipərəst adam təyin olundu. Ondan sonrakı tarix də bəllidir. Bax, bizim xalqımız iki əsr ərzində bütün bu iztirablardan keçib və nəhayət öz sözünü deyib. Nəhayət “dəmir yumruq”la düşmənin başını əzib, tarixi ədaləti və milli ləyaqəti bərpa edibdir. Ona görə, çox vacibdir ki, bu tarixi məqamlar daim diaspor təşkilatlarının gündəliyində olsun.

Əlbəttə, mən çox şadam ki, xaricdə fəaliyyət göstərən diaspor təşkilatlarımız Azərbaycan ilə daim təmasdadırlar, Dövlət Komitəsi ilə təmasdadırlar və müxtəlif ölkələrdə fəaliyyət göstərən diaspor təşkilatları arasında koordinasiya da təkmilləşir. Bu da çox vacibdir. Əlbəttə, biz hamımız – Azərbaycanda yaşayan azərbaycanlılar istəyirik ki, xaricdə yaşayan azərbaycanlılar öz tarixi Vətəni ilə sıx bağlı olsunlar. Heç olmasa, ildə bir dəfə hər bir azərbaycanlı öz ailəsi ilə Azərbaycana gəlsə, çox yaxşı olar – xüsusilə azad edilmiş torpaqlara getmək üçün. İndi bu gün biz qurultayı Şuşada keçiririk. Ancaq azad edilmiş ərazilər 10 min kvadratkilometrdən çoxdur və indi marşrutlar da açılır, aeroportlar da tikilir. Ona görə gəliş-gediş çox rahat olacaq.

Əlbəttə, çox istəyirik ki, ikinci, üçüncü nəsil azərbaycanlılar öz mədəniyyətinə bağlı olsunlar. Əlbəttə, bu, o qədər də asan məsələ deyil. Burada onlar, ilk növbədə, Azərbaycan dilini bilməlidirlər. Burada, əlbəttə ki, təkcə ailələrdə Azərbaycan dilini yaşatmaq mümkündür, ancaq kifayət deyil. Ona görə Azərbaycan məktəblərinin, bazar günü məktəblərinin açılması istiqamətində də biz hər zaman kömək göstərməyə hazırıq. Əslində, bunu edirik. Bəlkə də bunu daha da təşkilatlanmış şəkildə etmək lazımdır. Çünki Ana dili əsas amildir. Ana dili bütün Azərbaycan vətəndaşlarını birləşdirir.

Bizim xaricdə yaşayan gənc azərbaycanlılarımız həm İkinci Qarabağ müharibəsinin tarixini yaxşı bilməlidir, həm də bu həqiqətləri öz dostlarına çatdırmalıdırlar. Yəni, bir sözlə, xaricdə yaşayan azərbaycanlılar böyük qüvvədir. Onların fəaliyyəti ölkəmiz üçün çox önəmlidir. Onların fəallığı və Azərbaycan həqiqətlərinin çatdırılması, Azərbaycan maraqlarının müdafiə edilməsi, əlbəttə ki, bizim dövlətimizi daha da gücləndirir. Biz Azərbaycan dövləti olaraq öz fəaliyyətimizdə həmişə xaricdə yaşayan azərbaycanlıların yaşayışı ilə maraqlanırıq, təmaslar qururuq. Dövlətlərarası münasibətlər müstəvisində bu, önəmli bir amildir. Mən də öz həmkarlarımla, harada ki, azərbaycanlılar yaşayır, o ölkələrin rəhbərləri ilə daim bu məsələyə diqqət yetirirəm.

Şuşada keçirilən qurultayın çox böyük tarixi mənası var. Bu gün Azərbaycan yeni dövrə qədəm qoyub. Biz otuz il torpaqları işğal edilmiş ölkə kimi yaşamışıq. Bu, bizim üçün çox ağır idi. Mənim üçün Prezident kimi, hər bir vətəndaş üçün, sizin üçün – xaricdə yaşayan azərbaycanlılar üçün. Biz bilirdik ki, bu məğlubiyyətin heç bir real əsası olmamışdır. Sadəcə olaraq, 1990-cı illərin əvvəllərində Azərbaycanda baş vermiş hadisələr – hakimiyyət uğrunda gedən müharibə, milli xəyanət, satqınlıq və digər bəd əməllər, bax, bu vəziyyəti yaratmışdır. Biz bilirdik ki, bu Qələbəyə layiqik. Bir daha demək istəyirəm, – çıxışımın əvvəlində mən bunu dedim, – mənim üçün Prezident kimi başlıca vəzifəm ölkəmizi gücləndirmək və ərazi bütövlüyümüzü bərpa etmək idi. Sizin üçün də çox çətin idi. Çünki sizin yaşadığınız ölkələrdə erməni diaspor təşkilatları var. Siz ermənilərlə istər-istəməz hansısa ünsiyyətdə olursunuz, görüşürsünüz, ya da ki, haradasa tədbirlərdə bir yerdə olursunuz. Mən başa düşürəm ki, bu dövr sizin üçün çox ağır idi.

Ancaq bu gün vəziyyət tam başqadır. Bu gün alnımız açıqdır, bu gün üzümüz gülür, bu gün başımız dikdir və həmişə belə olacaq. Mən tam əminəm ki, bundan sonra Azərbaycan xalqı müzəffər xalq kimi əbədi yaşayacaq, Azərbaycan dövləti qalib dövlət kimi əbədi yaşayacaq. Biz öz torpağımızdayıq, bu torpaqda möhkəm dayanmışıq və heç kim heç vaxt bu torpaqlardan bizi tərpədə bilməz.

Yaşasın Şuşa! Yaşasın Qarabağ! Hamımız birlikdə: Qarabağ Azərbaycandır! Sağ olun.

Qurultay işini “Postmüharibə dövründə Azərbaycan diasporunun qarşısında duran vəzifələr, fəaliyyət planı/yol xəritəsi” və “Qarabağın bərpası və yenidən qurulmasında Azərbaycan diasporunun töhfələri” mövzusunda panel iclasları ilə davam etdirib.

Aprelin 23-də başa çatacaq Zəfər Qurultayında 65 ölkədən 400-dən çox diaspor nümayəndəsi və qonaq iştirak edir.

Xatırladaq ki, Dünya Azərbaycanlılarının I Qurultayı ümummilli lider Heydər Əliyevin təşəbbüsü ilə 2001-ci ildə, II qurultay Prezident İlham Əliyevin Sərəncamına əsasən 2006-cı ildə, III qurultay 2011-ci ildə, IV qurultay isə 2016-cı ildə keçirilib.

## *Füzuli və Şuşaya səfər*

Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev və birinci xanım Mehriban Əliyeva mayın 10-da Füzuli rayonuna səfər ediblər.

Dövlətimizin başçısı və birinci xanım əvvəlcə Füzuli şəhərində inşa olunacaq Peşə Liseyinin təməlinin qoyulması mərasimində iştirak ediblər.

Təhsil naziri Emin Əmrullayev Prezident İlham Əliyevə və birinci xanım Mehriban Əliyevaya kompleks barədə məlumat verdi.

Bildirildi ki, Peşə Liseyinin ərazisi 3,2 hektar sahəni əhatə edəcək. Kompleksdə tədris, laboratoriya təcrübələri, idman binaları və meydançası yaradılacaq. Burada, həmçinin avtomobil təmiri emalatxanası, avadanlıq və texnika, təsərrüfat anbarları, təsərrüfat qurğusu, praktik təlimlər qurğusu da inşa ediləcək. Kompleksin elektrik enerjisi ilə fasiləsiz təminatı üçün transformator yarımstansiyası da quraşdırılacaq. Füzuli şəhər Peşə Liseyinin inşası zamanı yaşıllıq zolaqlarının yaradılması xüsusilə diqqətdə saxlanılıb. Belə ki, yaşıllıq sahəsi bu kompleksin ərazisinin 43,7 faizini təşkil edəcək. Burada yaradılacaq idman meydançasının sahəsi 540 kvadratmetr olacaq.

Dövlətimizin başçısı Füzuli şəhər Peşə Liseyinin təməlini qoydu.

Qeyd edək ki, XXI əsrin çağırışlarına və yeni trendlərinə müvafiq olaraq ölkəmizdə təhsil sahəsində islahatlar çərçivəsində peşə təhsili sisteminin müasirləşdirilməsi istiqamətində məqsədyönlü tədbirlər həyata keçirilir. Azərbaycanda peşə təhsilinin inkişaf etdirilməsi prioritet istiqamət kimi müəyyən olunub. Bu sahədə peşəkar tədris prosesinin qurulması, əmək bazarının, o cümlədən işəgötürənlərin tələbatlarına uyğun ixtisaslar üzrə kadr hazırlığının təmin olunması qarşıda duran əsas vəzifələrdən biridir. Son dövrlər paytaxt Bakı ilə yanaşı, bölgələrdə də yeni peşə təhsili müəssisələri qurulur. Füzuli şəhərində Peşə Liseyinin təməlinin qoyulması da bu istiqamətdə həyata keçirilən layihələrdən biridir. Lisey ildə 800-yə yaxın tələbə qəbul etməklə yanaşı, 1000-dək tələbə üçün qısamüddətli kurslar və ömürboyu təhsil proqramları təmin etmək imkanında olacaq.

Bu sahədə həyata keçirilən tədbirlər gənclərin müvafiq peşələrə yiyələnərək məşğulluğunun təmin olunmasına, eləcə də müəssisə və təşkilatların ixtisaslı kadrlarla təminatına əhəmiyyətli təsir göstərir. Prezident İlham Əliyevin 2016-cı il aprelin 20-də imzaladığı Fərmanla Təhsil Nazirliyi yanında Peşə Təhsili üzrə Dövlət Agentliyinin yaradılması ölkəmizdə peşə təhsilinin səmərəliliyinin artırılması və rəqabətqabiliyyətli ixtisaslı kadrların hazırlanması baxımından mühüm addım oldu. İki il əvvəl Təhsil Nazirliyinin tabeliyində Peşə Təhsilinin İnkişafı Fondunun yaradılması, peşə təhsili sahəsində bir sıra normativ hüquqi aktların qəbul olunması, peşə təhsili müəssisələrinin birləşdirilməsi və müəyyən ixtisaslaşmış peşə təhsili mərkəzlərinin yaradılması yolu ilə müasir standartlara cavab verən pilot peşə təhsili müəssisələrinin qurulması da Yol Xəritəsində qarşıya qoyulan mühüm vəzifələrdəndir.

İşğaldan azad olunmuş ərazilərdə Prezident İlham Əliyevin rəhbərliyi ilə aparılan bərpa-quruculuq işləri bu yerlərə yenidən həyat verir, ermənilərin ekoloji sistemə vurduqları zərərin nəticələri aradan qaldırılır.

Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev və birinci xanım Mehriban Əliyeva mayın 10-da Füzuliyə səfərləri çərçivəsində şəhərdə yeni yaradılacaq mərkəzi park kompleksinin ərazisində ağac əkiblər.

Qarabağ Dirçəliş Fondunun İdarə Heyətinin sədri Rəhman Hacıyev dövlətimizin başçısına və birinci xanıma parkda görüləcək şərait barədə məlumat verdi.

Qeyd edək ki, işğaldan azad olunmuş ərazilər minalardan təmizlənib təhlükəsiz vəziyyətə gətirildikcə, digər quruculuq işləri kimi, ekoloji tarazlığın bərpası istiqamətində də ciddi addımlar atılır. İşğalçı Ermənistan tərəfindən məhv edilmiş yaşıllıq massivlərinin bərpası məqsədilə ağacəkmə tədbirləri davam etdirilir. İşğaldan azad olunan ərazilərdə ekoloji tarazlığın bərpası istiqamətində görülən tədbirlər Füzuli rayonunu da əhatə edir. Füzulidə yeni yaradılacaq park kompleksi də şəhərdə ekoloji tarazlığın qorunması işinə mühüm töhfə verəcək.

Mayın 10-da Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev və birinci xanım Mehriban Əliyeva 180 çarpayılıq Füzuli Rayon Mərkəzi Xəstəxanasının təməlinin qoyulması mərasimində iştirak ediblər.

Qarabağ iqtisadi rayonuna daxil olan işğaldan azad edilmiş ərazilərdə (Şuşa rayonu istisna olmaqla) Azərbaycan Respublikası Prezidentinin xüsusi nümayəndəsi Emin Hüseynov görüləcək işlər barədə dövlətimizin başçısına və birinci xanıma məlumat verdi.

Bildirildi ki, bu tibb müəssisəsində əsasən üç bölmənin – inzibati, stasionar və ambulator xidmət bölmələrinin yaradılması nəzərdə tutulub. Stasionar xidmət bölməsindəki qəbul mərkəzində 40 çarpayılıq terapiya, o cümlədən kardiologiya və nevrologiya şöbələri fəaliyyət göstərəcək. Xəstəxanada, həmçinin cərrahiyyə, travmatologiya-ortopediya, LOR, əməliyyat bloku, pediatriya, doğum, ginekologiya, yoluxucu xəstəliklər, anesteziologiya-reanimasiya və hemodializ şöbələri yaradılacaq. Ambulator xidmət hissəsi isə konsultativ poliklinika, uşaq poliklinikası, şüa-diaqnostika, funksional diaqnostika, fizioterapiya və tibbi bərpa şöbələrindən, klinik diaqnostika laboratoriyasından və aptekdən ibarət olacaq.

Prezident İlham Əliyev xəstəxananın təməlini qoydu.

Məlumat verildi ki, müalicə ocağı maqnit rezonans tomoqrafiya və digər ən müasir tibbi avadanlıqla təmin olunacaq. Xəstəxana binasının zirzəmisi zəruri hallarda sığınacaq və hərbi hospital təyinatına malik strukturda inşa ediləcək.

Qeyd edək ki, gələcəkdə Füzuli rayonunda digər səhiyyə müəssisələrinin də tikintisi nəzərdə tutulub. Belə ki, rayonda Gigiyena və Epidemiologiya Mərkəzi, Təcili Tibbi Yardım Stansiyası (hər növbədə 4 briqada olmaqla), Məhkəmə Tibbi Ekspertiza və Patoloji Anatomiya Birliyinin binası da inşa ediləcək.

Bu ilin fevralında Ağdamda, indi isə Füzuli rayonunda ən müasir tələblərə cavab verən səhiyyə ocaqlarının inşası işğaldan azad olunan ərazilərin dirçəldilməsi istiqamətində həyata keçirilən kompleks abadlıq-quruculuq işlərinin mühüm tərkib hissələrindən biridir. İşğaldan azad edilən ərazilərdə tibbi xidmətlərin təşkili işləri sürətlə həyata keçirilir. Fizuli Rayon Mərkəzi Xəstəxanası burada yaşayacaq əhalinin tibbi təminatı və sağlam-lığının qorunması istiqamətində mühüm infrastruktur layihələrindən biridir. Ən müasir tibbi avadanlıqla təchiz ediləcək xəstəxanada müayinə və müalicə işinin yüksək səviyyədə aparılması üçün hər cür şərait yaradılacaq.

Prezident İlham Əliyevin rəhbərliyi ilə səhiyyə sisteminin təkmilləşdirilməsi, onun maddi-texniki bazasının möhkəmləndirilməsi istiqamətində mühüm işlər görülür. Son illərdə ölkəmizdə 750-dən çox tibb müəssisəsi tikilib və ya əsaslı təmir edilib. Bu sahədə aparılan ardıcıl islahatlar səhiyyə sisteminin yeni, müasir mərhələyə qədəm qoymasına hərtərəfli zəmin yaradıb. Səhiyyə sahəsinin inkişafı ilə bağlı icra olunan layihələr respublikanın bütün bölgələrini əhatə edir. Yeni tibb müəssisələrinin ən son texnoloji yeniliklərə əsaslanan avadanlıq və qurğularla təchiz olunması ölkəmizin ümumi inkişafının göstəricisidir. İstər infrastruktur, istər tibbi sığorta sisteminin tətbiqi, istərsə də digər inzibati tədbirlər həm də sosial siyasətdə mühüm yer tutan səhiyyə islahatlarının uğurla və məqsədyönlü şəkildə davam etdirildiyini təsdiqləyir.

Mayın 10-da Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev və birinci xanım Mehriban Əliyeva Şuşa şəhərində də səfərdə olublar.

Prezidentin Şuşa rayonunda xüsusi nümayəndəsi Aydın Kərimov dövlətimizin başçısına və birinci xanıma şəhərdəki inzibati binada aparılan son tamamlama və binanın ətrafında həyata keçirilən abadlıq işləri barədə məlumat verdi.

Sonra Prezident İlham Əliyev və birinci xanım Mehriban Əliyeva Şuşadakı Şirin su hamamında aparılan bərpa işləri ilə tanış oldular.

Prezidentin köməkçisi Anar Ələkbərov məlumat verdi ki, tarixi Şirin su hamamında bərpa işləri Heydər Əliyev Fondu tərəfindən həyata keçirilir. Milli memarlıq ənənələrini özündə əks etdirən hamamın birmərtəbəli binası plan kompozisiyasına görə düzbucaqlı formadadır. Hamam ölkə əhəmiyyətli daşınmaz tarix və mədəniyyət abidələrinin siyahısındadır və tarixi görkəmi qorunub saxlanılmaqla bərpa ediləcək.

Azərbaycanın mədəniyyət paytaxtı Şuşa şəhəri qədim mədəniyyət və memarlıq abidələri ilə zəngindir. Qədim Şuşanın 17 məhəlləsinin hər birində hamam, məscid və bulaq olub. Şəhərin Mərdinli məhəlləsində yerləşən Şirin su hamamı 1880-ci ildə inşa edilib. Vaxtilə şəhərin digər hamamlarında ərazilərdəki şor quyu sularından istifadə olunub. Bu hamam isə Xan qızı Xurşidbanu Natəvanın Şuşaya çəkdirdiyi içməli şirin su ilə təchiz edilib. Məhz buna görə də hamam Şirin su hamamı adlandırılıb. 1986-cı ildə aparılan ölçü işlərindən sonra memar Ədalət Məmmədov tərəfindən hazırlanan layihə üzrə abidədə əsaslı bərpa-təmir işləri görülüb. Şirin su hamamı 1992-ci il mayın 8-də Şuşa şəhəri ermənilər tərəfindən işğal edilənədək öz təyinatı üzrə fəaliyyət göstərib. İşğal dövründə digər bütün abidələrimiz kimi bu qədim hamam da ermənilər tərəfindən dağıdılıb.

Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev və birinci xanım Mehriban Əliyeva mayın 10-da Şuşada məşhur tarzən, bəstəkar və Azərbaycan tarını təkmilləşdirən sənətkar Sadıqcanın vaxtilə yaşadığı evin bərpası işləri ilə tanış olublar.

Prezidentin köməkçisi Anar Ələkbərov dövlətimizin başçısına və birinci xanıma görülən işlər barədə məlumat verdi.

Bildirildi ki, Şuşa şəhərinin mərkəzində, Mərdinli məhəlləsində yerləşən bina ilkin görkəmini 80 faizə qədər itirib. Binanın qalan hissələrində isə konstruktiv çatlar müşahidə olunur və qəza vəziyyətindədir. Sadıqcanın evində də bərpa işlərini Heydər Əliyev Fondu həyata keçirəcək. Dördbucaqlı plan quruluşu olan ev ikimərtəbəlidir. Bina Şuşaya xas memarlıq üslubunda inşa olunub.

Qeyd edək ki, 1846-cı ildə Şuşada anadan olan Sadıqcan Azərbaycanın tanınmış tarzənlərindən biridir. O, tarı təkmilləşdirərək ona cingənə və kök simləri əlavə edib, simlərin sayını 5-dən 11-ə çatdırıb. Sadıqcan ilk dəfə tarı sinədə ifa etməyə başlayıb. Məhz onun təkmilləşdirdiyi Azərbaycan tarı Qafqazda və Orta Asiyada geniş yayılaraq milli musiqimizin rəmzinə çevrilib. Sadıqcan, eyni zamanda, istedadlı bəstəkar idi. O, "Orta Segah" və "Bayatı-Şiraz" muğamlarına bir neçə rəng bəstələyib.

Prezident İlham Əliyevə və birinci xanım Mehriban Əliyevaya Şuşada yeni inşa olunacaq məscid kompleksinin layihəsi barədə də məlumat verildi.

Bildirildi ki, məscidin layihəsi üzrə işlər başa çatıb və inşaat işlərinə başlanılıb.

Mayın 10-da Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev və birinci xanım Mehriban Əliyeva Şuşada Mehmandarovların malikanə kompleksində aparılan bərpa işlərinin hazırkı mərhələsi ilə tanış olublar.

Prezidentin köməkçisi Anar Ələkbərov dövlətimizin başçısına və birinci xanıma görülən işlər barədə məlumat verdi.

Bildirildi ki, Şuşada Mehmandarovların malikanə kompleksində də Heydər Əliyev Fondu tərəfindən aparılan bərpa işləri davam edir.

İşğal dövründə ciddi ziyan dəyən, ermənilər tərəfindən dağıntılara məruz qalan malikanə kompleksində mütəxəssislər qiymətləndirmə işləri aparıb, bunun əsasında bərpa prosesi icra olunur. Kompleksə məscid, kiçik və böyük yaşayış evləri daxildir. Ötən müddətdə evin dam örtüyü orijinala uyğun quraşdırılıb, binanın tökülmüş bütün daşları, eyvanları, həmçinin kompleksə daxil olan məscidin uçmuş günbəzləri, damı və mehrabı bərpa edilib. Hazırda digər bərpa işləri aparılır.

Kompleksin həyətində bulağın bərpası yekunlaşıb, landşaft işlərinə hazırlıq görülür.

Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev və birinci xanım Mehriban Əliyeva mayın 10-da Şuşaya səfər çərçivəsində "Shusha Boutique Hotel"in yerləşəcəyi ərazidə olublar.

Prezidentin köməkçisi Anar Ələkbərov dövlətimizin başçısına və birinci xanıma burada aparılan təmir-bərpa işləri haqqında məlumat verdi.

Qeyd edildi ki, Şuşanın bərpası konsepsiyasında şəhərin turizm potensialı da nəzərə alınaraq buna uyğun infrastruktur yaradılır. Butik otel şəhərin Köçərli küçəsindəki binada yerləşəcək. Müasir səviyyəyə çatdırılacaq oteldə Şuşa şəhərinə səfər edəcək ziyarətçilərin rahatlığı üçün şərait yaradılacaq. Burada 13 otaq və kiçik restoran qonaqların ixtiyarına veriləcək.

Xatırladaq ki, işğaldan azad olunan kimi dərhal bərpa və yenidənqurma işlərinin aparılmasına başlanılan Şuşada qısa zamanda böyük quruculuq işləri görülüb. Mədəniyyət paytaxtımızda çoxsaylı tədbirlərin keçiriləcəyi, bu şəhərin keçmişdə olduğu kimi, indi də turistlərin istirahət üçün seçdikləri sevimli məkanlardan biri olacağı nəzərə alınaraq burada lazımi infrastrukturun yaradılmasına, o cümlədən otellərin inşasına xüsusi diqqət göstərilir.

Onu da bildirək ki, ötən ilin mayında Şuşada "Xarıbülbül" otelinin, həmin otelin nəzdindəki 48 mənzilli korpus və kotteclərin, avqustda isə "Qarabağ" otelinin yenidənqurmadan sonra açılışı olub.

Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev və birinci xanım Mehriban Əliyeva mayın 10-da Şuşa Realnı Məktəbində həyata keçiriləcək təmir-bərpa işləri ilə də tanış olublar.

Təhsil naziri Emin Əmrullayev dövlətimizin başçısına və birinci xanıma görüləcək işlər barədə məlumat verdi.

Fəaliyyətə 1881-ci il sentyabrın 20-də başlayan Şuşa Realnı Məktəbi həm tədrisi, təhsil ənənələri, həm də yetişdirdiyi görkəmli şəxsiyyətlərlə bütün Cənubi Qafqazda seçilən təhsil ocaqlarından biri idi. Əvvəlcə 6 sinifdən ibarət olan və 159 şagirdi qəbul edən məktəbin Haşım bəy Vəzirov, Mirzə Salah bəy Zöhrabbəyov, Yusuf bəy Məlikhaqnəzərov kimi pedaqoqları, İsmayıl bəy Səfibəyov, Əbdürrəhman bəy Haqverdiyev, Yusif Vəzir Çəmənzəminli, Cabbar bəy Vəlibəyov, Xudadat bəy Məlik-Aslanov, Cavad bəy Məlik-Yeqanov, Rüstəm bəy Axundov, Əhməd bəy Ağaoğlu, Soltan bəy Vəlibəyov, Xan Şuşinski kimi parlaq yetirmələri olub.

Qeyd edək ki, xalqın maariflənməsi, elmə yiyələnməsi işində müstəsna xidmətləri olan Şuşa Realnı Məktəbinin binasında sonradan bir sıra digər təhsil müəssisələri fəaliyyət göstərib. Şuşa şəhəri 1992-ci ilin mayında işğal edildikdən sonra bir çox tarixi yerlərlə bərabər bu məktəb də erməni vandalları tərəfindən yandırılaraq xarabazara çevrilib.

Mayın 10-da Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev Şuşa şəhərində "Azərişıq" ASC-nin Şuşa Rəqəmsal İdarəetmə Mərkəzinin açılışında iştirak edib.

"Azərişıq" ASC-nin sədri Vüqar Əhmədov dövlətimizin başçısına idarəetmə mərkəzində yaradılan şərait barədə məlumat verdi.

Bildirildi ki, Şuşada istifadəyə verilən Rəqəmsal İdarəetmə Mərkəzi şəhərin dayanıqlı və keyfiyyətli enerji ilə təchizatı baxımından əhəmiyyətli hadisədir. Ənənəvi üçpilləli 35/10-6/0,4kV-luq paylayıcı elektrik şəbəkələrinin yerinə Şuşada qurulan yeni dairəvi elektrik təchizat sxemi müasir dəringirişli ikipilləli 35/0,4kV-luq şəbəkələrlə əvəz edilib.

Yeni şəbəkənin istifadəyə verilməsi ilə ənənəvi 35/10 kV-luq yarımstansiyaların və 10 kV-luq elektrik verilişi xətlərinin tikintisi, saxlanma və istismar xərcləri aradan qaldırılacaq, texnoloji itkilər minimuma endirilməklə, ətraf mühit və canlı orqanizmlərə elektromaqnit sahə şüalanmasının mənfi təsiri azaldılacaq, xidmət heyəti və texniki nəqliyyat vasitələri ixtisar ediləcək, xidmətin keyfiyyəti yaxşılaşdırılacaq. Bununla yanaşı, 110/35/0,4 kV-luq şəbəkələri tam əhatə edən müasir SK-11 SCADA dispetçer idarəetmə sisteminin tətbiqi ilə şəbəkənin idarəetmə imkanları genişlənir. İlk dəfə olaraq SK-11 SCADA dispetçer idarəetmə sistemi ilə müasir rəqəmsal şəbəkə modelində aşağı gərginlik (0,4 kV) dövrələrini son istehlakçıyadək nəzarətdə saxlamaq mümkün olur.

Əvvəllər paylayıcı şəbəkələrdə dispetçer idarəetmə sistemi yalnız yüksək gərginlikli xətləri əhatə edirdisə, hazırda bu imkanlar daha da genişləndirilib. Nəticədə

elektrik enerjisinin alış nöqtəsindən abonent sayğacınadək idarə olunması, enerji balansı, keyfiyyəti, fasiləsiz çatdırılması, qəza hallarında avtomatik bərpa edilməsi, elektroenergetika sənədləşmə sahəsində ilk dəfə olaraq kağız daşıyıcılarından elektron jurnala keçidlə şəbəkələr haqda məlumatların qeydiyyatının aparılması və arxivləşdirilməsi yeni SK-11 sistemi üzərindən idarə edilərək tam nəzarətdə saxlanılır.

İlk dəfə Şuşada tətbiq edilən 35/0,4 kV-luq şəbəkələrin Rəqəmsal İdarəetmə Mərkəzi digər yarımstansiyalarla dairəvi əlaqələndirilmə imkanlarına malik olub Şuşa şəhərinin dayanıqlı və fasiləsiz elektrik enerjisi təchizatını təmin edir.

Elektroenergetika sahəsində ilk dəfə olaraq, Şuşa Rəqəmsal İdarəetmə Mərkəzi yarımstansiyanın qəza hallarında enerji təchizatının təmin edilməsi və yarımstansiyanın xüsusi sərfiyyat tələbatının kompensasiyası üçün alternativ və bərpaolunan enerji mənbəyindən istifadə tətbiq edilib, texniki-iqtisadi göstəricilər yüksəldilib, avadanlıqların fasiləsiz idalandırılması təmin olunub.

Prezident İlham Əliyev "Azərişıq" ASC-nin Şuşa Rəqəmsal İdarəetmə Mərkəzini işə saldı.

Mayın 10-da Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev "Azərişıq" ASC-nin Şuşa Rəqəmsal İdarəetmə Mərkəzini işə salandan sonra şəhərdəki inzibati binanın qarşısında müraciət edib.

**Prezident İlham Əliyevin müraciəti**

– Bu gün ulu öndər Heydər Əliyevin anadan olmasının 99-cu ildönümüdür. Bu gün Füzuli və Şuşa şəhərlərinə səfər etmişəm. Keçən il mayın 10-da Naxçıvanda idim. Bu il mayın 10-da isə Qarabağdayam, işğaldan azad edilmiş Qarabağda.

Heydər Əliyev Azərbaycan xalqı qarşısında misilsiz xidmətlər göstərmişdir. Xalqımız üçün ən çətin anlarda xalqın yanında olmuşdur, Azərbaycan xalqını böyük bəlalardan, faciələrdən xilas etmişdir. Heydər Əliyev Azərbaycan dövlətçiliyinin, Azərbaycan dövlətinin banisidir, onun qurucusudur. O, öz həyatını xalqa həsr etmişdir və onun ən böyük arzusu Qarabağı yenidən azad görmək, ərazi bütövlüyümüzü bərpa etmək idi. O, öz fəaliyyəti ilə dövlət quruculuğu, ordu quruculuğu sahələrində gördüyü işlər nəticəsində dövlətin əsasları yaradıldı və ölkəmiz inkişaf yoluna qədəm qoydu.

Əfsuslar olsun ki, atam bu günü görə bilmədi. Onun kimi yüz minlərlə azərbaycanlı bu günü görmədən həyatdan getdilər. Biz – onların davamçıları onların işini tamamladıq, atamın vəsiyyəti yerinə yetirildi. Bu gün atamın, bu günü görmədən həyatdan getmiş yüz minlərlə insanın, şəhidlərimizin ruhu şaddır. Biz onların ruhunu şad eləmişik.

2003-cü ildə Azərbaycan xalqı ilk dəfə mənə etimad göstərərək bir daha Ulu Öndərin siyasətinə sədaqətini nümayiş etdirdi. Mən isə öz növbəmdə demişdim ki, əgər xalq etimad göstərərsə, mən prezident kimi Heydər Əliyev yolu ilə gedəcəyəm, bu yoldan dönməyəcəyəm və ölkəmizin ərazi bütövlüyünü bərpa edəcəyəm. Buna and içmişdim. Xoşbəxt adamam ki, bu anda sadiq oldum və bu gün Qarabağ azaddır. Bu gün Qarabağda və Zəngəzurda Azərbaycan bayrağı dalğalanır. Arxamdakı inzibati binanın damında Şuşanın alınmasından sonra Azərbaycan bayrağı qaldırılmışdır və binanın damından müzəffər Azərbaycan əsgərləri Şuşanın azad olunması ilə bağlı mənə raport vermişlər. Bu gün mayın 10-da mən yenidən Ulu Öndərin xatirəsinə Azərbaycan xalqının ehtiramını ifadə edərək Azərbaycan xalqını əmin etmək istəyirəm ki, bundan sonra da xalqımızın, dövlətimizin inkişafı, müstəqilliyimizin möhkəmləndirilməsi üçün əlimdən gələni əsirgəməyəcəm.

Bu gün Qarabağ dirçəlir. Bu gün Füzulidə və Şuşada bir neçə tədbirdə iştirak etmişəm. Bütün bölgələrdə quruculuq-bərpa işləri sürətlə gedir, azad edilmiş bütün ərazilərdə genişmiqyaslı abadlıq-quruculuq və bərpa işləri aparılır. Əslində, şəhərlər, kəndlər yenidən qurulur. Çünki işğal dövründə düşmən bütün şəhər və kəndlərimizi yerlə-yeksan etmişdir, bütün tarixi abidələrimizi dağıtmışdır, Qarabağın, bölgənin, Qafqazın incisi olan Şuşa kimi şəhəri bərbad hala qoymuşdur. Biz - bu torpaqların sahibləri artıq qayıtmışıq və bu torpaq, bu səma bunu görür. Görür ki, hər gün inkişafla bağlı daha bir addım atılır. Hər gün daş üstə bir daş qoyulur. Biz azad edilmiş bütün torpaqları bərpa edəcəyik, bərpa edirik.

Bu gün mayın 10-da mən mütləq burada olmalı idim. Ulu Öndərin xatirəsinə öz ehtiramımı və Azərbaycan xalqının ehtiramını buradan ifadə etməli, bir daha deməli idim ki, biz bu torpaqlara, doğma torpaqlarımıza əbədi qayıtmışıq və burada əbədi yaşayacağıq.

Qarabağ bizimdir, Qarabağ Azərbaycandır!

## *Şuşaya səfər*

Mayın 12-də Azərbaycanın mədəniyyət paytaxtı Şuşa şəhərində V "Xarıbülbül" Beynəlxalq Folklor Festivalının açılışı olub.

Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev və birinci xanım Mehriban Əliyeva festivalın açılışında iştirak ediblər.

Şuşa şəhərinin 270 illiyi ilə əlaqədar Azərbaycan Respublikasının Prezidenti İlham Əliyevin Sərəncamı ilə elan edilən "Şuşa İli"ndə keçirilən V "Xarıbülbül" Beynəlxalq Folklor Festivalı Heydər Əliyev Fondu, Mədəniyyət Nazirliyi və Şuşa Şəhəri Dövlət Qoruğu tərəfindən təşkil olunub. Mayın 14-də başa çatacaq sayca beşinci festivala xarici ölkələrdən müxtəlif folklor üslublarında çıxış edən musiqiçilər, rəqs kollektivləri, həmçinin Azərbaycanın müxtəlif regionlarından folklor kollektivləri qatılıblar.

Festivalın açılış konserti Fikrət Əmirov adına Azərbaycan Dövlət Mahnı və Rəqs Ansamblının ifasında "Vətən süitası" ilə başladı.

Sonra Əməkdar artistlər İlkin Əhmədov, Babək Niftəliyev və Səbinə Ərəblinin ifasında "Qarabağ şikəstəsi"nin sədaları Şuşa dağlarına yayıldı.

Vətən müharibəsində Azərbaycana əsl qardaşlıq dəstəyi göstərən Türkiyəni festivalda Türk Dünyası Musiqi və Xalq Rəqsləri Ansamblı təmsil edir. Ansamblın ifasında "Van yöresi" xalq rəqsi maraqla qarşılandı.

Azərbaycanın Xalq artisti Polad Bülbüloğlu "Çal oyna" xalq mahnısını, "Cəngi" Estrada Folklor Rəqs Ansamblı "Tənzərə", Əməkdar artist Şirzad Fətəliyev və nəfəs alətləri qrupu isə "Turacı" xalq rəqslərini ifa etdilər.

Malinin Şeyx Tidiane Sek etnocaz qrupu "Sanqa Bo" kompozisiyasını, "Pakistan rəngləri" qrupu "Bhanqra" rəqsini, Melitassi Gürcü Folklor Rəqs Ansamblı "Svanuri" rəqsini təqdim etdilər.

Azərbaycan Dövlət Rəqs Ansamblı avar xalq rəqsini, Tunisin "Yuma" dueti "Smek" kompozisiyasını, Özbəkistanın Baxor Dövlət Rəqs Ansamblı isə "Bayot" xalq rəqsini ifa etdilər.

Daha sonra Əməkdar mədəniyyət işçisi aşıq Samirə Əliyeva və aşıq Əli Tapdıqoğlu "Qarabağ qaytağısı" saz havasını, Xalq artisti Polad Bülbüloğlu və Bakı Xoreoqrafiya Akademiyasının "Xarıbülbül" rəqs ansamblı "Qarabağım" mahnısını səsləndirdilər.

Açılış konserti Əməkdar artist Aybəniz Haşımovanın və "Bülbüllər" qrupunun ifasında "Vətəndən pay olmayır" mahnısı ilə başa çatdı.

Hələ 2020-ci il noyabrın 8-də Prezident İlham Əliyev Şuşanın azad olunması münasibətilə xalqa müraciətində qeyd etmişdi ki, Qarabağın tacı olan bu şəhər tezliklə dirçəldiləcək və özünün əvvəlki şöhrətini qaytaracaqdır. Ötənilki festivalın açılış mərasimində isə dövlətimizin başçısı "Biz bu gözəl ənənəni bərpa etdik və bundan sonra "Xarıbülbül" festivalı Şuşada hər il keçiriləcək", – demişdi. V "Xarıbülbül" Beynəlxalq Folklor Festivalının keçirilməsi Prezidentimizin həmin fikirlərinin əyani təsdiqidir.

Qeyd edək ki, Şuşa şəhərində ilk "Xarıbülbül" festivalı məşhur xanəndə, pedaqoq, Xalq artisti Seyid Şuşinskinin (1889-1965) 100 illik yubileyi ilə əlaqədar 1989-cu ildə keçirilib. Tədbir həmin ilin mayında – Şuşada xarıbülbülün çiçəklənmə dövründə təşkil olunub. İlk festivalda yerli ifaçılarla yanaşı, keçmiş ittifaq respublikalarından Qırğızıstan, Qazaxıstan, Rusiya (Başqırdıstan), Litva və Belarusdan da musiqi qrupları iştirak ediblər.

1990-cı ildən "Xarıbülbül" festivalı beynəlxalq status alıb. İkinci festivala Hollandiya, Almaniya, İsrail və Türkiyədən də folklor qruplarının dəvət edilməsi böyük marağa səbəb olub. Qarabağ münaqişəsinin başlaması ilə əlaqədar Şuşada ağır vəziyyət yarandığından əsas konsertlər Ağdamda təşkil edilib. Festivalın bir sıra konsertləri Bərdə və Ağcabədidə də keçirilib. Ümumilikdə ikinci festivalda müxtəlif ölkələrdən 170-ə yaxın nümayəndə iştirak edib.

1991-ci ildə keçirilən III "Xarıbülbül" festivalına 25 ölkədən 300-ə yaxın nümayəndə qatılıb. ABŞ və Avstraliyadan olan rəssamlar da festivala təşrif buyurublar. Tamaşaçıların çoxluğu səbəbindən festivalın əsas konsertləri stadionlarda keçirilib. II və III festivalların yekun konsertləri Bakıda Heydər Əliyev Sarayında təşkil olunub.

Dördüncü festival 1992-ci il mayın 15-də başlamalı, o zamanadək keçirilənlərin ən möhtəşəmi olmalı idi. Dünyanın 30-dan çox ölkəsindən 500 nəfərin iştirakı nəzərdə tutulmuşdu. Lakin həmin ilin 8 mayında Şuşa şəhəri Ermənistan hərbi birləşmələri tərəfindən işğal edildiyindən "Xarıbülbül" festivalını burada təşkil etmək mümkün olmayıb. Festival yalnız qısa müddətdə Ağdam şəhərindəki İmarət kompleksində keçirilib.

Azərbaycan Respublikasının Prezidenti, Müzəffər Ali Baş Komandan İlham Əliyevin rəhbərliyi ilə rəşadətli Azərbaycan Ordusunun Vətən müharibəsində şanlı Qələbəsindən sonra ənənəvi "Xarıbülbül" festivalı yenidən Şuşa şəhərində təşkil edildi. 2021-ci il mayın 12-13-də Şuşanın Cıdır düzündə Heydər Əliyev Fondunun təşkilatçılığı ilə keçirilən festivalın açılışında Azərbaycan Prezidenti İlham Əliyev, birinci xanım Mehriban Əliyeva və ailə üzvləri də iştirak ediblər.

Festival çərçivəsində milli rəqs, muğam sənəti təqdim olunub, ölkəmizin müxtəlif regionlarını və milli azlıqları təmsil edən folklor kollektivlərinin konsertləri keçirilib, Azərbaycan xanəndələrinin müxtəlif illərdə Şuşada lentə alınmış ifalarından ibarət videoçarxlar nümayiş etdirilib, klassik musiqi əsərləri təqdim olunub.

## *Türkiyə Respublikasına işgüzar səfər*

Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev Türkiyə Respublikasının Prezidenti Rəcəb Tayyib Ərdoğanın dəvəti ilə mayın 14-də qardaş ölkəyə işgüzar səfərə gəlib.

Dövlət başçıları Rize-Artvin Hava Limanının açılış mərasimində iştirak ediblər.

Yeni hava limanına ilk dəfə göyərtələrində Türkiyə Prezidenti Rəcəb Tayyib Ərdoğanın və Azərbaycan Prezidenti İlham Əliyevin olduqları təyyarələr eniş etdi.

Hər iki ölkənin dövlət başçılarının təyyarələri nəhəng su tağının altından keçdi.

Rize-Artvin Hava Limanında Prezident İlham Əliyevin şərəfinə fəxri qarovul dəstəsi düzülmüşdü.

Azərbaycan Prezidenti İlham Əliyevi Türkiyə Prezidenti Rəcəb Tayyib Ərdoğan qarşıladı.

Dövlətimizin başçısı fəxri qarovul dəstəsini salamladı.

Qardaş ölkələrimizin prezidentləri açılış mərasiminin keçirildiyi məkana gəldilər.

Əvvəlcə Azərbaycan Prezidenti İlham Əliyev ilə Türkiyə Prezidenti Rəcəb Tayyib Ərdoğanın görüşü oldu.

Görüşdə Azərbaycanla Türkiyə arasında ikitərəfli dostluq və qardaşlıq münasibətlərinin bütün sahələrdə uğurla inkişaf etdiyi bildirildi.

Söhbət zamanı siyasi əlaqələrin yüksək səviyyədə olduğu qeyd edildi. Bu baxımdan Şuşa Bəyannaməsinin önəmi xüsusi vurğulandı.

Prezident İlham Əliyev Rize-Artvin Hava Limanının açılışında iştirak etmək üçün dəvətə görə Rəcəb Tayyib Ərdoğana təşəkkür edərək, Türkiyədə digər sahələrdə olduğu kimi, nəqliyyat və infrastruktur sahəsində də genişmiqyaslı işlərin həyata keçirildiyini məmnunluqla qeyd etdi və yeni hava limanının açılışı münasibətilə təbriklərini çatdırdı.

Dövlət başçıları energetika, nəqliyyat, enerji təhlükəsizliyi ilə bağlı əməkdaşlıq məsələlərini, həmçinin bölgədəki vəziyyəti müzakirə etdilər.

Söhbət zamanı postmünaqişə dövrü, Azərbaycan ilə Ermənistan və Türkiyə ilə Ermənistan arasında əlaqələrin normallaşdırılması ilə bağlı fikir mübadiləsi aparıldı.

Dövlətimizin başçısı Türkiyə Prezidenti Rəcəb Tayyib Ərdoğanı Azərbaycana səfərə dəvət etdi. Dəvət minnətdarlıqla qəbul olundu.

* * *

Türkiyənin Milliyyətçi Hərəkat Partiyasının sədri Dövlət Bağçalı Prezident İlham Əliyevə ulu öndər Heydər Əliyevlə görüşlərini əks etdirən fotoları və üzərində "Qarabağ Fatehi" yazısı olan tapança hədiyyə etdi.

* * *

Sonra Rize-Artvin Hava Limanının təntənəli açılış mərasimi keçirildi.

Dövlət başçıları mərasimdə çıxış etdilər.

### Azərbaycan Prezidenti İlham Əliyevin çıxışı

– Əziz və dəyərli qardaşım, hörmətli Prezident Rəcəb Tayyib Ərdoğan.

Əziz qardaşlarım, əziz dostlar.

Yenidən qardaş Türkiyə torpağında olmağımdan çox məmnunam. Bütün türk qardaşlarımı səmimi-qəlbdən salamlayıram, Azərbaycandan hərarətli salamlar ifadə edirəm.

İlk növbədə, əziz qardaşım cənab Prezident Rəcəb Tayyib Ərdoğana məni bu mərasimə dəvət etdiyi üçün təşəkkürümü bildirirəm və bu gözəl hava limanının açılışı münasibətilə sizi ürəkdən təbrik edirəm.

Bu hava limanının açılışı Türkiyədə gedən çox xoş və uğurlu inkişafın təzahürüdür. Qardaş Türkiyə gündən-günə güclənir, sürətlə inkişaf edir. Bütün bunun təməlində aparılan siyasət, əziz qardaşımın böyük əməyi, zəhməti vardır. Türkiyə bu gün nəinki dünya miqyasında böyük güc mərkəzinə çevrilib, söz sahibi olub, eyni zamanda, ölkə içində də böyük layihələr icra etməyə qadirdir. Bunların arasında xüsusilə insanlara xidmət göstərən layihələri qeyd etmək istərdim. Hava limanları, su anbarları, yollar, körpülər, məktəblər, xəstəxanalar – bütün bunlar Türkiyənin inkişafını, gücünü göstərən amillərdir və bütün bu işlərin mərkəzində insan amili dayanır, dövlət siyasəti dayanır.

Bu gün sizinlə bərabər olmaq mənim üçün böyük xoşbəxtlikdir. Bu gün bu gözəl mərasimdə Azərbaycan Prezidentinin iştirakı Türkiyə-Azərbaycan birliyinin növbəti təzahürüdür. Biz hər zaman bir yerdəyik – xoş günlərdə, yaxşı günlərdə, çətin günlərdə də və İkinci Qarabağ savaşı bunu bir daha bütün dünyaya göstərdi. Savaşın ilk saatlarından son gününə qədər mənim qardaşım bizim yanımızda idi, qardaş Türkiyə xalqı bizim yanımızda idi.

İkinci Qarabağ savaşı bizim müştərək, ortaq şanlı tariximizdir. Otuzillik işğala son qoyduq və savaşın ilk günündə hörmətli Prezident, qardaşım Rəcəb Tayyib Ərdoğanın "Azərbaycan yalnız deyil, Türkiyə Azərbaycanın yanındadır" deməsi bir çoxları üçün ciddi mesaj oldu. Savaşın son dəqiqəsinə qədər – Şuşa şəhərində bayrağımız ucalana qədər Türkiyə bizim arxamızda idi, bizə arxa idi, dayaq idi və Azərbaycan xalqı heç vaxt bu qardaşlığı unutmayacaq.

Bu gün də biz bir yerdəyik, Qarabağın bərpası işində bərabər, çiyin-çiyinə çalışırıq. Bir çox Türkiyə

şirkətləri, o cümlədən xarüqə adlandırılan bu gözəl hava limanını inşa edən şirkət də Qarabağda bərpa işləri ilə məşğuldur. Bizim minlərlə türk qardaşımız bu gün Azərbaycanda Qarabağın bərpası ilə bağlı öz işini görür, öz sözünü deyir.

Biz dünya miqyasında bir-birinə ən yaxın ölkələrik və ölkələrimiz çox böyük sınaqlardan keçibdir. Keçən il bizim qədim və tarixi şəhərimizdə – Şuşa şəhərində Türkiyə ilə Azərbaycan arasında Birgə Bəyannamənin imzalanması bizim əlaqələrimizi müttəfiqlik səviyyəsinə qaldırdı. Biz həm dostuq, həm qardaşıq, həm də artıq rəsmən müttəfiqik. Bu siyasət bizə atalarımızdan qalan mirasdır, atalarımızın vəsiyyətidir və biz bu vəsiyyətə sadiqik.

Əziz dostlar, əziz qardaşlar. Mən ilk dəfədir ki, Rizedəyəm. Bu diyar haqqında çox eşitmişəm. Təyyarə ilə gələrkən pəncərədən bu gözəl mənzərəni seyr edərkən və artıq buradan seyr edərkən əziz qardaşıma dedim ki, bu yer cənnətə bənzəyir. Rizenin, Artvinin, Qara dəniz bölgəsinin gözəl, füsunkar təbiəti böyük sərvətdir, amma ən böyük sərvət bu bölgənin insanlarıdır – mərd, vətənpərvər, döyüşkən, Türkiyə Cümhu-riyyətinin keşiyində duran insanlardır. Eşq olsun bu insanlara!

Mən bu gün qardaşımın məmləkətindəyəm və demək olar ki, öz məmləkətimdəyəm. Rize Türk dünyasına böyük lider və mənim qardaşım Rəcəb Tayyib Ərdoğanı bəxş etmişdir. Buna görə sizə minnətdarıq. Bütün Türk dünyası sizinlə fəxr edir.

Əziz dostlar, qardaşlar, bacılar, sizi bu gözəl hadisə – hava limanının açılışı münasibətilə bir daha təbrik edirəm. Yaşasın Rize! Yaşasın Türkiyə! Yaşasın Türkiyə-Azərbaycan birliyi!

### Türkiyə Prezidenti Rəcəb Tayyib Ərdoğanın çıxışı

– Azərbaycan Prezidenti qardaşım hörmətli Əliyev. Milliyyətçi Hərəkat Partiyasının sədri hörmətli Dövlət Bağçalı, Böyük Birlik Partiyasının sədri hörmətli Mustafa Destici.

Hörmətli rizeli və artvinli həmyerlilərim, hörmətli qonaqlar.

Sizləri ən səmimi duyğularımla, məhəbbətlə salamlayıram.

Ölkəmizin qürurverici əsərləri arasında yer alan Rize-Artvin Hava Limanımızın şəhərlərimizə, bölgəmizə və millətimizə xeyirli olmasını diləyirəm.

Qardaşım Əliyevə, cənab Bağçalıya, cənab Desticiyə və digər qonaqlarımıza bu gözəl günümüzü bizlərlə bölüşdükləri üçün şəxsən öz adımdan və millətim adından təşəkkür edirəm.

Xalqa xidmət siyasətimizin son nümunəsi olan bu hava limanımız adi bir layihə deyil. Dünyada dəniz üzərində inşa edilən cəmi beş hava limanı var. Bunların açılışını etdiyimiz Rize-Artvinlə birlikdə ikisi ölkəmizdədir. Beləliklə, ölkəmizdəki hava limanlarının sayını 26-dan 58-ə çatdırdıq.

Prezident Rəcəb Tayyib Ərdoğan ötən illərdə Türkiyənin əsaslı və kompleks inkişaf yolu keçdiyini vurğuladı. Dövlət başçısı iqtisadiyyatın hərtərəfli inkişaf etdiyini, o cümlədən nəqliyyat sahəsinin köklü inkişafı üçün silsilə layihələrin reallaşdırıldığını bildirdi. Bu baxımdan istismara verilən yeni Rize-Artvin Hava Limanının da mühüm əhəmiyyət kəsb etdiyini söylədi.

Türkiyə Prezidenti çıxışında təhsil, səhiyyə, abadlaşdırma, yeni yaşıllıqların və istirahət ocaqlarının yaradılması üçün də çoxsaylı layihələrin həyata keçirildiyini qeyd etdi.

Prezident Rəcəb Tayyib Ərdoğan Türkiyədə xalqın rifah halının daha da yaxşılaşdırılmasının maksimum diqqətdə saxlandığını və bu sahədə ardıcıl tədbirlərin reallaşdırıldığını vurğuladı. Ölkəsinin beynəlxalq səviyyədə də milli maraqlarını daim inamla müdafiə etdiyini bildirən dövlət başçısı dedi:

– Türkiyənin ikiəsrlik demokratiya və inkişaf yolu öz tarixi, həm də bütün dost və qardaşları, bölgəsi üçün böyük bir uğur hekayəsidir. Bu, elə bir uğur hekayəsidir ki, özündə bizim mübarizə ruhumuzu ehtiva edir. İndi mən qarşımda sizi belə görürəm. Bunu Qarabağda sübut etdiniz. Bunu Liviyada sübut etdiniz. Əminəm ki, Qabarda, Cudidə, Tendürekdə, Beşlər dərəsində bütün terror təşkilatlarına qarşı sübut etdiniz.

Prezident Rəcəb Tayyib Ərdoğan hərtərəfli dövlət siyasəti sayəsində Türkiyənin inamla və qətiyyətlə irəlilədiyini, dünyanın ən güclü və beynəlxalq səviyyədə söz sahibi olan ölkələrindən birinə çevrildiyini vurğuladı. O, Türkiyənin bütün bölgələri kimi, Rize və Artvin bölgələrinin də kompleks inkişafı üçün ardıcıl tədbirlərin davam etdirildiyini söylədi. Yeni hava limanının açılışı münasibətilə bir daha təbriklərini çatdıran Prezident Rəcəb Tayyib Ərdoğan dedi:

– Bu duyğularla bir daha Rize-Artvin Hava Limanımızın şəhərlərimizə və bölgəmizə xeyirli olmasını diləyirəm. Bu hava limanının ölkəmizə qazandırılmasında əməyi keçən başda nəqliyyat nazirimə, heyətinə, memar, mühəndis və işçilərimizə, podratçı firmalarımıza sizin hüzurunuzda xüsusilə təşəkkür edirəm. Hava limanımızın açılış sevincini bizimlə bölüşən hörmətli Əliyev qardaşıma bir daha minnətdarlığımı bildirirəm. Sizləri sevgi və ehtiramla salamlayıram. Sağ olun.

Azərbaycan Prezidenti İlham Əliyevə və Türkiyə Prezidenti Rəcəb Tayyib Ərdoğana xatirə hədiyyələri təqdim olundu.

Birgə foto çəkdirildi.

Sonra Rize-Artvin Hava Limanının açılışını bildirən lent kəsildi.

Daha sonra birgə naharda dövlət başçıları arasında görüş davam etdi.

Mayın 14-də Rize-Artvin Hava Limanında Prezident İlham Əliyevin yolasalma mərasimi oldu.

Türkiyə Prezidenti Rəcəb Tayyib Ərdoğan dövlətimizin başçısını yola saldı.

Prezident İlham Əliyev Rəcəb Tayyib Ərdoğanı çay süfrəsinə dəvət etdi.

Çay süfrəsində Türkiyə Böyük Millət Məclisinin keçmiş sədri İsmayıl Qəhrəman iştirak edirdi.

Qeyd edək ki, təməli 2017-ci il aprelin 3-də Prezident Rəcəb Tayyib Ərdoğanın iştirakı ilə qoyulan Rize-Artvin Hava Limanı Türkiyədə Ordu-Giresun aeroportundan sonra dənizin doldurularaq inşa edildiyi ikinci, dünyada isə beşinci hava limanıdır.

Rize şəhərinə 34, Artvin şəhərinə isə 125 kilometr məsafədə yerləşən bu aeroport Türkiyənin 58-ci hava limanıdır. Bu hava limanının tikintisi üçün dəniz sahəsinə ümumilikdə 100 milyon ton daşın tökülməsi ilə suyun qurudulması və möhkəmləndirmə işləri aparılıb. Rize-Artvin Hava Limanı ildə təxminən 3 milyon sərnişinə xidmət edəcək.

Müasir tipli böyük təyyarələri qəbul etmək imkanında olan yeni hava limanı müasir standartlara tam uyğundur. Yeni hava limanı dənizə paralel tikilmiş 3045 metr uzunluğunda uçuş-enmə zolağına malikdir.

Ümumi sahəsi 3 milyon kvadratmetr olan Rize-Artvin Hava Limanı Türkiyənin iqtisadiyyatına, o cümlədən turizm sahəsindəki yeni layihələrin həyata keçirilməsinə böyük töhfələr verəcək.

Bu hava limanının dənizin doldurularaq inşa edilməsi maraq doğuran suallardandır. Məlum olduğu kimi, Rize-Artvin bölgəsi Anadolu ərazisində ən mürəkkəb coğrafi relyefə malikdir. Türkiyədə həyata keçirilən regionların inkişafı və mövcud potensialdan daha səmərəli istifadə edilməsi strategiyasına uyğun olaraq, yeni hava və dəniz limanlarının inşası, eləcə də dəmir yolu və avtomagistralların tikintisi, körpülərin salınması, tunellərin çəkilməsi mühüm istiqamətlərdəndir. Məhz bu strategiya sayəsində həyata keçirilən layihələr bütün növ daşımalarda əhəmiyyətli irəliləyişlər yaradıb.

Xatırladaq ki, hazırda Türkiyədə mövcud olan 58 hava limanından 37-də beynəlxalq uçuşlar həyata keçirilir. Rize-Artvin Hava Limanının bu sıraya daxil olması Qara dəniz sahili ölkələri ilə hava nəqliyyatı və gəmi-bərələrlə daşımalar və turizm üçün böyük imkanlar yaradır.

Hava limanının çay yarpağı şəklindəki giriş tağı və çay stəkanı formasındakı hava nəqliyyatına nəzarət qülləsi bölgənin yerli memarlıq üslubunda inşa olunub. Aeroportun əsas binasında türk çayının tanıdılacağı Çaykur muzeyi və kiçik çay fabriki də yaradılıb.

## *Belçika Krallığına işgüzar səfər*

Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev Avropa İttifaqı Şurasının Prezidenti Şarl Mişelin dəvəti ilə mayın 22-də Belçika Krallığının paytaxtı Brüsselə işgüzar səfərə gəlib.

Mayın 22-də Brüsseldə işgüzar səfərdə olan Azərbaycan Respublikasının Prezidenti İlham Əliyevin Avropa İttifaqı Şurasının Prezidenti Şarl Mişel ilə təkbətək görüşü olub.

Avropa İttifaqı Şurasının Prezidenti Şarl Mişel dövlətimizin başçısı İlham Əliyevi qarşıladı.

Sonra birgə foto çəkdirildi.

Görüşdə Prezident İlham Əliyev Şarl Mişelin Ermənistan ilə Azərbaycan arasında Sülh müqaviləsinin hazırlanması, iki ölkənin münasibətlərinin normallaşdırılması, nəqliyyat dəhlizlərinin açılması, sərhədlərin delimitasiyası və demarkasiyası proseslərinə verdiyi dəstəyi yüksək qiymətləndirdi.

Bu formatda Avropa İttifaqının təşəbbüsü və vasitəçiliyi ilə üçüncü dəfədir ki, görüşün keçirildiyini qeyd edən dövlətimizin başçısı bu görüşün təşkilinə görə Şarl Mişelə təşəkkürünü bildirdi.

Prezident İlham Əliyev Ermənistan ilə Azərbaycan arasında münasibətlərin normallaşdırılması və sülh müqaviləsinin imzalanması üçün Azərbaycan tərəfindən beynəlxalq hüquqa əsaslanan 5 prinsipin təqdim olunduğunu qeyd etdi və bu prinsiplərin sülh müqaviləsinin hazırlanmasında əsas rol oynadığını vurğuladı.

Dövlətimizin başçısı iki ölkə arasında sülh müqaviləsinin hazırlanması prosesinin sürətli şəkildə həyata keçiriləcəyinə ümidvar olduğunu bildirdi.

Prezident İlham Əliyev bu il aprelin 6-da Azərbaycan, Ermənistan və Avropa İttifaqı arasında keçirilmiş görüşün nəticələrinə uyğun olaraq, Azərbaycanın aprelin sonunda sülh müqaviləsi üzrə danışıqlara başlamaq üçün İşçi Qrupunun tərkibini, həmçinin sərhədlərin delimitasiyası üzrə milli komissiyanın tərkibini müəyyənləşdirdiyini və bu xüsusda danışıqlara hazır olduğunu bir daha qeyd etdi.

Azərbaycan Prezidenti İlham Əliyev, həmçinin işğaldan azad edilmiş ərazilərimizdə mina problemi və Birinci Qarabağ müharibəsində itkin düşmüş hesab olunan 4 minə yaxın şəxsin taleyinə aydınlıq gətirilməsinin vacibliyini bir daha vurğuladı.

Dövlətimizin başçısı 10 noyabr Bəyanatının bütün müddəalarının Ermənistan tərəfindən icra olunmasının zəruriliyini qeyd etdi.

Avropa İttifaqı Şurasının Prezidenti Şarl Mişel Avropa İttifaqının Ermənistan ilə Azərbaycan arasında münasibətlərin normallaşdırılması prosesinə dəstək vermək əzmini bir daha ifadə etdi, vasitəçilik səylərini davam etdirəcəyini bildirdi və bu formatda keçirilmiş əvvəlki görüşlərin əhəmiyyətinə toxundu. Şarl Mişel Brüsseldə bu formatda görüşdə iştirakına görə dövlətimizin başçısına minnətdarlığını bildirdi.

Görüşdə qarşılıqlı maraq doğuran digər məsələlər ətrafında da fikir mübadiləsi aparıldı.

Mayın 22-də Brüsseldə Azərbaycan Respublikasının Prezidenti İlham Əliyevin Avropa İttifaqı Şurasının Prezidenti Şarl Mişel və Ermənistan Respublikasının baş naziri Nikol Paşinyan ilə görüşü olub.

## *Zəngilan rayonuna səfər*

Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev və birinci xanım Mehriban Əliyeva mayın 26-da Füzuli rayonuna səfər ediblər.

Dövlətimizin başçısı və birinci xanım səfər çərçivəsində Horadiz-Cəbrayıl-Zəngilan-Ağbənd avtomobil yolunun (Zəngəzur dəhlizi) tikintisi ilə tanış olublar.

Prezident İlham Əliyevə və birinci xanım Mehriban Əliyevaya məlumat verildi ki, Azərbaycan və Türkiyə prezidentləri tərəfindən təməli qoyulan və ümumi uzunluğu 123,6 kilometr olan bu yolun tikintisi sürətlə davam etdirilir. Başlanğıcını Füzuli rayonunun Əhmədbəyli kəndindən götürən bu yol birinci texniki dərəcəyə uyğun inşa edilir. Yolun ilk 77 kilometrlik hissəsi altı, qalan 46,6 kilometrlik hissəsi isə dörd hərəkət zolaqlı olacaq. Yol boyunca üç avtomobil tuneli inşa edilir. Tunellərdən birində qazma işləri artıq yekunlaşıb, hazırda beton işləri icra olunur. Digər iki tuneldə isə qazma işləri davam etdirilir. Həmçinin bu yolun üzərində 15 avtomobil körpüsü, 5 yolötürücü və 54 yeraltı keçidin inşası nəzərdə tutulub. Hazırda 14 körpü, 3 yolötürücü və 38 yeraltı keçidin tikintisi aparılır.

Qeyd edək ki, hazırda yolun ilk 110 kilometrlik hissəsində torpaq işləri icra edilir. Yolun genişləndirilərək profilə salınması, birinci texniki dərəcəyə uyğun yeni torpaq yatağının inşası və paralel olaraq asfalt örtüyünün salınması həyata keçirilir. Tikinti işlərinin 2024-cü ildə başa çatdırılması nəzərdə tutulur.

Bu yol Hacıqabul-Horadiz-Ağbənd-Zəngəzur dəhlizi magistral avtomobil yolunun bir hissəsi olmaqla, Zəngilanı Azərbaycanın digər rayonları və Naxçıvan Muxtar Respublikası ilə birləşdirmək baxımından çox böyük əhəmiyyətə malikdir.

Mayın 26-da Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev və birinci xanım Mehriban Əliyeva Cəbrayıl rayonunda da səfərdə olublar.

Dövlətimizin başçısı və birinci xanım Horadiz-Ağbənd dəmir yolu xəttinin Cəbrayıl rayonu ərazisində Soltanlı stansiyasının təməlqoyma mərasimində iştirak ediblər.

Prezident İlham Əliyevə və birinci xanım Mehriban Əliyevaya dəmir yolu və stansiya barədə məlumat verildi.

Bildirildi ki, təkxətli dəmir yolunun uzunluğu 110,4 kilometrdir. Layihəyə əsasən yol boyunca 9 stansiyanın (Horadiz, Mərcanlı, Mahmudlu, Soltanlı, Qumlaq, Həkəri, Mincivan, Bartaz, Ağbənd), 3 tunelin, 41 körpünün, 7 yolötürücünün, 300-ə yaxın süni mühəndis qurğusunun, rabitə və işarəvermə sisteminin, elektrik təsərrüfatının tikintisi planlaşdırılır. Yol boyunca 85 kilometr ərazi minalardan təmizlənib və proses davam edir. Dəmir yolu xəttinin yan yollarla birlikdə 60 kilometrlik hissəsi tamamlanıb. Bu məsafədə yük qatarları hərəkət edir. Tikinti işləri Türkiyənin "Kalyon RSY İnşaat Adi Ortaklığı Ticari İşletmesi" şirkəti tərəfindən həyata keçirilir.

Prezident İlham Əliyev Soltanlı stansiyasının təməlini qoydu.

Bildirildi ki, stansiyada sərnişinlər üçün gözləmə zalı, rabitə, işarəvermə və digər xidməti otaqlar yaradılacaq.

Qeyd edək ki, Horadiz-Ağbənd dəmir yolu xəttinin təməli 2021-ci il fevralın 14-də Prezident İlham Əliyev tərəfindən qoyulub. Layihənin 2023-cü ilin sonunadək yekunlaşdırılması nəzərdə tutulur. Azərbaycan Prezidentinin sərəncamları ilə yolun inşasına 312 milyon 700 min manat vəsait ayrılıb.

Mayın 26-da "Azərenerji" ASC-nin 330/110 kilovoltluq "Cəbrayıl" enerji qovşağının təməlqoyma mərasimi olub.

Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev və birinci xanım Mehriban Əliyeva mərasimdə iştirak ediblər.

Dövlətimizin başçısına və birinci xanıma məlumat verildi ki, Cəbrayıl-Naxçıvan-Ağrı (Türkiyə) yarımstansiyalarına, oradan isə Türkiyə enerji sistemi vasitəsilə Avropa enerji bazarlarına əlavə və daha əlverişli çıxış əldə etmək, 1000 meqavat yükötürmə qabiliyyətinə malik olmaqla ixrac imkanlarını artırmaq, uzun illərdən sonra Naxçıvan Muxtar Respublikasını Azərbaycanın ümumi enerjisisteminə qoşmaq, "Xudafərin" və "Qız Qalası" Su Elektrik stansiyalarının, o cümlədən "BP Cəbrayıl" Günəş Elektrik Stansiyasının enerjisistemə inteqrasiyasını həyata keçirmək üçün 330 kilovoltluq "Cəbrayıl" yarımstansiyasının tikilməsi olduqca əhəmiyyətli hadisədir.

Bir çox dövlətlərin marağında olduğu və beynəlxalq əhəmiyyət kəsb edən Azərbaycan–Türkiyə–Avropa ölkələrarası layihənin həyata keçirilməsi üçün üçmərhələli planlaşdırma aparılıb. Bunun üçün birinci mərhələdə istismar müddəti başa çatan və işğaldan azad edilən ərazilərə ən yaxın məsafədə yerləşən 330 kilovoltluq "Ağcabədi" və "İmişli" yarımstansiyaları genişləndirilərək tamamilə yenidən qurulacaq.

Prezident İlham Əliyev "Cəbrayıl" enerji qovşağının təməli qoydu.

Bildirildi ki, "Ağcabədi" yarımstansiyasından 132, "İmişli" yarımstansiyasından isə 130 kilometr məsafədə Cəbrayıla yüksək gərginlikli 330 kilovoltluq ötürmə xətti çəkiləcək. Ən əsası isə Cəbrayılda 330 kilovoltluq qovşaq yarımstansiyası tikiləcək. "Cəbrayıl" enerji qovşağının inşası nəticəsində Qarabağ və Şərqi Zəngəzurun yeni yaradılmış ötürücü elektrik şəbəkəsinin etibarlılığı və dayanıqlılığı artırılacaq. İkinci mərhələdə Naxçıvanın ölkənin əsas enerjisistemi ilə əlaqələndirilməsi üçün "Cəbrayıl" qovşaq yarımstansiyasından Zəngəzur dəhlizini keçməklə muxtar respublikanın Şahtaxtı kəndinə 255 kilometr məsafədə ikidövrəli olmaqla 330 kilovoltluq ötürmə xətti çəkiləcək və 330 kilovoltluq "Şahtaxtı" yarımstansiyası tikiləcək. Üçüncü mərhələdə isə Azərbaycan, Naxçıvan, Türkiyə və Avropa enerji qovşağının yaradılması üçün Naxçıvanın Türkiyəyə yaxın ərazisində 330 kilovoltu 400 kilovolta keçirmək üçün Avropa enerji standartlarına uyğun əlavə çevirici yarımstansiya inşa ediləcək və Naxçıvandan Türkiyəyə 230 kilometr məsafədə ikidövrəli 400 kilovoltluq elektrik verilişi xətti çəkiləcək.

Diqqətə çatdırıldı ki, "Cəbrayıl" yarımstansiyasının rəqəmsal idarəetmə sistemi yaradılacaq. Yarımstansiyada 330 və 110 kilovoltluq açıq, 10 kilovoltluq qapalı paylayıcı qurğular və müasir idarəetmə mərkəzi inşa olunacaq. Mövcud layihələrin yarımstansiyaya inteqrasiyası ilə bərabər, gələcəkdə burada genişlənmə imkanları nəzərə alınmaqla əlavə əsas və köməkçi qurğuların yerləşməsi də nəzərə alınacaq.

Qeyd edək ki, "Cəbrayıl" enerji qovşağı beynəlxalq enerji dəhlizinin yaradılması sahəsində ölkəmizin əhəmiyyətinin bariz nümunəsidir.

Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev və birinci xanım Mehriban Əliyeva mayın 26-da Zəngilan rayonuna da səfər ediblər.

Dövlətimizin başçısı və birinci xanım Zəngilan Beynəlxalq Hava Limanında aparılan tikinti işlərinin gedişi ilə tanış olublar.

Prezident İlham Əliyevə və birinci xanım Mehriban Əliyevaya hava limanında görülən işlər barədə məlumat verildi.

Bildirildi ki, perronda torpaq işləri tamamlanıb, uçuş-enmə zolağında asfalt-beton işləri davam edir. Zolağın uzunluğu 3000 metr, eni isə 60 metr olacaq. Bu hava limanı bütün növ təyyarələri, o cümlədən ağır yük təyyarələrini qəbul edəcək.

Aeroportun hava hərəkəti qülləsinin tikintisinin iyulda tamamlanması planlaşdırılır. Avqustun sonunda isə terminal binasında işlərin başa çatdırılması nəzərdə tutulur. Beynəlxalq standartlara uyğun inşa edilən terminal binası saatda 200 sərnişinə xidmət edəcək. Terminal daxilində VIP zallar, kafelər, tibb xidməti və ofis otaqları yaradılacaq. Avadanlıq və materiallar İtaliya, Almaniya və Türkiyədən gətirilib.

Qeyd edək ki, Zəngilan Beynəlxalq Hava Limanı Qarabağın mühüm nəqliyyat qovşağına çevrilməsini şərtləndirən əsas amillərdəndir. Həmçinin bu hava limanı Zəngəzur dəhlizinin hava nəqliyyatı infrastrukturu ilə gücləndirilməsi baxımından strateji əhəmiyyət kəsb edir. Görülən işlərin sürəti buranın beynəlxalq nəqliyyat-logistika habına çevriləcəyi günü yaxınlaşdırmaqdadır.

Onu da deyək ki, işğaldan azad olunan ərazilərdə Füzulidəki hava limanından sonra beynəlxalq statuslu daha iki aeroport tikilməkdədir. Onlardan biri də Zəngilan hava limanıdır. Digəri isə Laçın rayonunun ərazisində inşa olunur.

Mayın 26-da Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev və birinci xanım Mehriban Əliyeva "Paşa Holding" MMC-nin dəstəyi ilə Heydər Əliyev Fondu tərəfindən inşa olunan Zəngilan məscidində tikinti işlərinin gedişi ilə tanış olublar.

Prezidentin köməkçisi Anar Ələkbərov görülən işlər barədə dövlətimizin başçısına və birinci xanıma məlumat verdi.

Qeyd edək ki, Ermənistanın torpaqlarımızı işğal altında saxladığı otuz il ərzində digər ərazilərimizdə olduğu kimi, Zəngilan rayonunda da tarixi, dini, mədəniyyət abidələrimiz erməni vandalizminə məruz qalıb, dağıdılıb, təhqir edilib. İşğal dövründə Zəngilan şəhərindəki məsciddən də tövlə kimi istifadə olunub.

Rayonun işğaldan azad edilməsi nəticəsində buradakı tarixi, memarlıq abidələri də erməni əsarətindən qurtuldu. Otuz ilə yaxın işğal dövründə dağıdılan, təhqir olunan dini abidələrimizin, məscidlərimizin yenidən həyata qaytarılması prosesində Heydər Əliyev Fondu müstəsna xidmət göstərir. Qarabağdakı dini abidələrin, məscidlərin bərpası işləri sürətlə davam etdirilir.

Zəngilan məscidinin bərpasının təməl daşı dövlətimizin başçısı İlham Əliyevin, birinci xanım Mehriban Əliyevanın və qızları Leyla Əliyevanın iştirakı ilə ötən il aprelin 26-da qoyulub, bərpa işləri fasiləsiz həyata keçirilir.

* * *

Sonra dövlətimizin başçısı və birinci xanım İşğal və Zəfər muzeyləri kompleksinin təməlqoyma mərasimində iştirak etdilər.

Məlumat verildi ki, Zəngilan İşğal və Zəfər muzeyləri kompleksi layihəsinin əsas məqsədi müharibənin ətraf mühitə dağıdıcı təsirləri barədə məlumatlılığı artırmaqdır. Layihə hazırlanarkən dayanıqlılığın müxtəlif aspektləri həm landşaft, həm də bina dizaynı üçün nəzərə alınıb və BMT-nin Dayanıqlı İnkişaf Məqsədlərinə nail olmaq hədəflənib.

Zəngilan İşğal və Zəfər muzeyləri kompleksi İşğal Muzeyi, Zəfər Muzeyi və dağıntıları əks etdirən Memorial Parkdan ibarət olacaq.

Dövlətimizin başçısı və birinci xanım İşğal və Zəfər muzeyləri kompleksinin təməlini qoydular.

İşğal Muzeyi düşmənin işğalı zamanı şəhərin və bölgənin məruz qaldığı vandallığın əyani surətdə nümayiş etdirilməsi məqsədi daşıyır. Zəngilan şəhərinin müəyyən hissəsinin dağıdılmış vəziyyətdə qalması və Ermənistanın işğalçılıq siyasətinin ümumi mənzərəsini əks etdirən açıq səma altında muzey kimi nümayiş etdirilməsi nəzərdə tutulur. İşğal Muzeyində ətraf mühitə vurulan ekoloji zərərlər, xüsusilə Zəngilan şəhərində ətraf mühitə, bioloji müxtəlifliyə, meşələrə, yeraltı və yerüstü təbii ehtiyatlara ciddi ziyan vurmaq məqsədilə törədilən ekoloji terror aktları barədə məlumatlar diqqətə çatdırılacaq. Muzeyin ekspozisiyası müxtəlif audio və vizual texnologiyalardan istifadə etməklə təşkil olunacaq. Muzey binasının şüşədən hazırlanacaq fasadının üzərindəki təsvirlər və naxışlar çinar yarpağına bənzəyəcək ki, bu da Zəngilan şəhərinin təbiətlə sıx əlaqəsini tərənnüm edəcək.

Zəngilan Zəfər Muzeyi Azərbaycan xalqının və şanlı Ordumuzun 44 günlük Vətən müharibəsi zamanı nümayiş etdirdiyi əzmkarlıq, rəşadət və peşəkarlığı əbədiləşdirən kompleks, həmçinin qazanılmış Qələbəni müasir təqdimat metodları ilə insanlara çatdıran məkan olacaq. Zəfər Muzeyinin binasının çinar meşəsini xatırladacaq fasadı dünyada sahəsinə görə ikinci ən böyük təbii çinar meşəsi olan Zəngilan meşələrinə həsr olunacaq. Muzeyin foyesi vizual texnologiyalar vasitəsilə Zəfərə həsr olunan məlumatları nümayiş etdirmək üçün sərgi məkanı kimi istifadə olunacaq. Həmçinin muzeydə 80 tamaşaçı yeri olan 4D kinoteatr da yaradılacaq. Bu muzeyin inşasında əsas məqsədlərdən biri də məhz gələcəkdə burada "Zangilan Earth Film Festival"ın təşkil olunması və Zəngilanda törədilmiş ekoloji terroru beynəlxalq ictimaiyyətin diqqətinə çatdırmaqdır.

Azərbaycanın ərazi bütövlüyü uğrunda canlarından keçmiş şəhidlərimizin əziz xatirəsini əbədiləşdirmək məqsədilə Zəfər Muzeyi binasının yanında qəhrəmanlarımızın adlarının qeyd olunduğu beton hasar formasında "Memorial lövhə" yaradılacaq.

Hər iki muzey Azərbaycan xalqının iftixar və qürur mənbəyinə çevrilən Şanlı Ordumuzun 44 günlük Vətən müharibəsində qazandığı möhtəşəm Qələbəni indiki və gələcək nəsillərin yaddaşına həkk edən, beynəlxalq hüquqa uyğun olaraq ərazi bütövlüyünü bərpa etməyə nail olan Azərbaycanın haqq səsini dünyaya çatdıran təşviqat və informasiya mərkəzi olacaq.

Zəngilanla bağlı tarixi faktların yaradıcı üsulla dağıntılar üzərində əks etdirilməsi üçün xüsusi layihə həyata keçiriləcək. Dünyanın müxtəlif ölkələrindən cəlb olunacaq rəssamlar dağıntılar üzərində fərqli divar rəsmləri ("Street art") yaradacaqlar. Beləliklə, 10 min 500 kvadratmetr sahəni əhatə edən dağıntılardan ibarət Memorial Park boyunca açıq səma altında sərgi təşkil olunacaq.

* * *

Daha sonra Prezident İlham Əliyevə və birinci xanım Mehriban Əliyevaya Zəngilan şəhərinin Baş planı təqdim olundu.

Dövlət Şəhərsalma və Arxitektura Komitəsinin sədri Anar Quliyev məlumat verdi ki, Baş plan Komitənin sifarişi əsasında bu sahədə böyük təcrübəyə malik nüfuzlu beynəlxalq şəhərsalma qrupu - İsveçrənin "sa_partners" şirkəti tərəfindən yerli mütəxəssislərin iştirakı ilə hazırlanıb. Layihəyə əsasən, Zəngilan şəhəri beynəlxalq əhəmiyyətli Zəngəzur nəqliyyat dəhlizi ilə sıx əlaqələri olan strateji əhəmiyyətli yaşayış məntəqəsi kimi inkişaf etdiriləcək. Belə ki, Araz vadisinin yaxınlığında, həm Zəngəzur nəqliyyat dəhlizindən, həm də Zəngilan Beynəlxalq Hava Limanından cəmi 10 kilometr məsafədə yenidən qurulacaq şəhər yaradılacaq əhəmiyyətli nəqliyyat şəbəkəsini müasir infrastrukturu ilə tamamlayacaq. Şəhərin strateji əhəmiyyəti nəzərə alınaraq Baş planda Zəngilanın beynəlxalq nəqliyyat dəhlizi ilə əlaqəsi olan logistika, turizm və ticarət mərkəzi, bərpaolunan enerji məkanı kimi inkişaf etdirilməsi nəzərdə tutulur.

Diqqətə çatdırıldı ki, Baş planın konseptual əsasını "rahat yaşayış", "yaşıl və təmiz", "mütərəqqi innovasiyalar" kimi şəhər yanaşmaları təşkil edir. Gələcəyin şəhəri mənzərəli landşaftı, çayətrafı ictimai məkanları, sağlam ətraf mühiti sayəsində sakinləri və qonaqları üçün rahat həyat şəraiti ilə seçiləcək. Şəhərin yerləşdiyi Oxçuçay çayının sahilində geniş parkın, həmçinin dağüstü parkın və daxili yaşıl dəhlizlərin salınması əhalinin asudə vaxtının səmərəli və maraqlı təşkili ilə yanaşı, təmiz ekoloji mühitin formalaşmasına imkan yaradacaq. Burada "ağıllı şəhər" yanaşmasının tətbiqi, müasir texnologiyalardan və bərpaolunan enerji mənbələrindən geniş istifadə edilməsi isə Zəngilanın yaşayış üçün əlverişliliyini artıracaq, nəqliyyat sistemini ekoloji təmiz, müasir və davamlı edəcək, onu iqtisadiyyatın inkişafı baxımından region səviyyəsində nümunəvi şəhərə çevirəcək.

Sonra Prezident İlham Əliyev və birinci xanım Mehriban Əliyeva "sapartners" şirkətinin nümayəndələri ilə söhbət etdilər.

Prezident İlham Əliyev dedi: Salam. Siz görməyimə şadam. Təbrik edirəm. Bilirsiniz ki, çoxlu ideyalar, təkliflər olur. Lakin yekdil qərarla sizin konsepsiya ən yaxşı kimi qəbul olundu. Mən belə hesab edirəm ki, o, təbiətə yaxşı inteqrasiya edilib. Xüsusilə, burada, Zəngilanda biz şəhəri təbiətə inteqrasiya etməliyik və onu park şəhərinə çevirməliyik. Küçə boyu gəzərkən insanlar sanki özlərini parkda hesab etsinlər. Bəli, parkda, təbiətdə. Yaşayış binalarının konsepsiyası da yüksəkmərtəbəli olmayan, şəffaf, çox gözəl olmalıdır.

Şirkətin nümayəndəsi: Əvvəla, təşəkkürümüzü bildirməliyəm. Biz çox şadıq ki, burada - Azərbaycanın çox gözəl guşəsindəyik. Bura ən yaxşı yerlərdən biridir. Biz buraya öz töhfəmizi verdiyimizə görə fərəhlənirik. Hesab edirəm ki, eyni konsepsiya ölkənizin digər əraziləri üçün örnək olmalıdır.

Prezident İlham Əliyev və birinci xanım Mehriban Əliyeva Oxçuçayın mənzərəsini seyr etdilər.

Mayın 27-də Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev və birinci xanım Mehriban Əliyeva Zəngilan rayonunda intensiv meyvə bağı ilə tanış olublar.

Kənd təsərrüfatı naziri İnam Kərimov ilə bağban Qalib Hümbətov dövlətimizin başçısına və birinci xanıma intensiv meyvə bağında görülən işlər barədə məlumat verdilər.

Bildirildi ki, burada 40 hektar sahədə intensiv ərik bağı salınıb. Hər biri 10 hektar olmaqla 4 çeşiddə ting əkilib. Tinglərdən ikisi İspaniya çeşididir, ikisi isə yerli növdür. Gələcəkdə burada 60 hektar sahədə nektarin bağının salınması nəzərdə tutulur.

İntensiv meyvə bağında yetişdirilən məhsulu saxlamaq və çeşidləmək üçün Zəngilan Logistika Mərkəzi tikiləcək. Mərkəzdə tutumu 5 min ton olan 36 soyuducu kameradan ibarət saxlama anbarı, yetişdirmə kameraları, avtomatlaşdırılmış terminallar, qablaşdırma, çeşidləmə, tərəzi sahələri, yükdaşıma, nəqliyyat parkı və ofis binası yaradılacaq.

Qeyd edək ki, "Ağıllı təsərrüfat" "Ağıllı kənd" fəlsəfəsinin 3 sütunundan biridir. Burada toxumun seçimindən başlamış aqrotexniki qulluq məsələlərinə qədər hər bir detal nəzərə alınır, nəticədə vahid sahədən maksimum məhsul götürmək mümkün olur.

Mayın 27-də Zəngilan rayonunun Ağalı kəndində "Ağıllı kənd" layihəsinin birinci mərhələsi üzrə açılış mərasimi olub.

Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev və birinci xanım Mehriban Əliyeva mərasimdə iştirak ediblər.

Dövlətimizin başçısı və birinci xanım əvvəlcə Ağalı kənd meydanı ilə tanış olublar. Kənd meydanında otuz ilə yaxın müddətdə işğal altında qalmış əzəli torpaqlarımızda sülhün əbədi təmin olunmasını təcəssüm etdirən göyərçin abidə-fəvvarə kompleksi yaradılıb.

Prezident İlham Əliyev və birinci xanım Mehriban Əliyeva fəvvarəni işə saldılar.

Sonra dövlətimizin başçısı və birinci xanım kənd meydanında yaradılmış Dövlət Xidmətləri Mərkəzi ilə tanış olublar. Bildirilib ki, burada "Azərpoçt" MMC-nin rayon şöbəsi, "ASAN xidmət" mərkəzi, DOST mərkəzi, Kiçik və Orta Biznesin İnkişafı Mərkəzi fəaliyyət göstərəcək. Bunlardan məqsəd kənd sakinlərinin dövlət xidmətlərinə rahat çıxışı təmin etməkdir. Məsələn, kənd sakinlərinin "ASAN" və ya "DOST" xidmətlərinə müraciət üçün rayon mərkəzinə getmələrinə ehtiyac qalmayacaq. Bu mərkəzlərdə kənd sakinlərinə sosial təminat və məşğulluq sahəsində 100-dən çox xidmət onlayn formada göstəriləcək. Vətəndaş birbaşa video-bağlantı ilə "DOST" mərkəzlərinin sosial agentinə müraciət edəcək və müraciəti yerindəcə həll olunacaq.

Kənd ağıllı idarəetmə mərkəzi (situasiya mərkəzi) ilə tanışlıq zamanı SİNAM şirkətinin rəhbəri Elçin Əliyev Prezident İlham Əliyevə və birinci xanım Mehriban Əliyevaya məlumat verdi ki, "Ağıllı kənd" üçün "ağıllı həllər" də nəzərdə tutulub. Bundan əsas məqsəd istismar xərclərinin azalmasından, yaşayış səviyyəsinin isə yüksəldilməsindən ibarətdir. Əsas məsələ yüksək sürətli internetdir. Ağalı kəndindəki internetin sürəti ölkə üzrə orta sürətdən dəfələrlə artıqdır.

Dövlətimizin başçısı və birinci xanım Ağalı kənd meydanında "Kapital Bank"ın Zəngilan filialı, kənd təsərrüfatı təyinatlı laboratoriyalar, baytarlıq və bitki mühafizə idarələri və digər ictimai iaşə obyektləri ilə də tanış oldular.

Ağalı kəndində müasir şəhərsalma standartları tətbiq olunub. Küçələrin "ağıllı" işıqlandırılması, isti və soyuğadavamlı ekoloji evlərin inşası, məişət tullantılarının idarə olunması, günəş panellərinin quraşdırılması kimi amillər bu konsepsiyanın tərkib hissələridir. Prezident İlham Əliyev və birinci xanım Mehriban Əliyeva "golf car"la kəndin ərazisini gəzdilər, 5 nömrəli üçotaqlı evə baxdılar.

Prezident İlham Əliyev və birinci xanım Mehriban Əliyeva Ağalı kəndində "Gillmed" tikiş fabriki, ailə sağlamlıq mərkəzi (tibb məntəqəsi), uşaq bağçası və kənd orta məktəbi ilə də tanış oldular.

Ailə sağlamlıq mərkəzində tele-tibb sisteminin təqdimatı zamanı dövlətimizin başçısına və birinci xanıma məlumat verildi ki, tele-tibb vasitəsilə xəstənin qanında arterial təzyiq, oksigen təchizatı, triqleserin və şəkər ölçülür, ürək ritmi, dəri örtüyü və göz bəbəyinin görüntüsü əldə edilir. Cihazlardan toplanan məlumatlar xüsusi planşetlə platformaya ötürülür, ürək, ağ ciyər, böyrək, dalaq, lor (qulaq, burun, boğaz), dermatoloji xəstəliklərin, həmçinin qalxanabənzər və mədəaltı vəzin müayinəsində istifadə edilir.

Prezident İlham Əliyev və birinci xanım Mehriban Əliyeva "Salam Doktor" platforması üzərindən əhaliyə

xidmət göstərən azərbaycanlı həkimlərlə videobağlantı vasitəsilə söhbət etdilər.

Mehriban xanım Əliyeva: Salam.

Prezident İlham Əliyev: Salam.

Danimarkada yaşayan həkim Məsud Aşina: Möhtərəm cənab Prezident, salam. Mehriban xanım, salam.

Sizi öz adımdan və həmkarlarım adından Danimarkadan salamlayıram. Mən Bakıda anadan olmuşam, 33 ildir Danimarkada yaşayıram, nevrologiya üzrə professoram. Bakıdan olan travmatoloq Siyamak Nani, – beş ildir İsveçdə yaşayır və mənim kiçik qardaşım Harvarddan, Bostondan Sait Aşina da bizimlə bir yerdədir. O da Bakıda anadan olub, amma Tibb Universitetini Danimarkada bitirib.

Həkim Cavid Baloğlanov da bizimlə bir yerdədir, "Salam Doktor"u təmsil edirik. Fürsətdən istifadə edərək Sizə təşəkkürümü bildirmək istəyirəm ki, belə bir imkan yaradılıb. Biz bu texnologiyadan istifadə edəcəyik. Əsas məqsəd ondan ibarətdir ki, seminarlar, konsultasiyalar, konsiliumlar keçirək, tele-tibb imkanından maksimum istifadə edib hər zaman Qarabağ zonasında, bizim Zəngəzurda olaq. Sizə təşəkkürümü bildirmək istəyirəm, çox sağ olun.

Prezident İlham Əliyev: Çox sağ olun.

"Salam Doktor" şirkətinin tibbi direktoru Cavid Baloğlanov: Möhtərəm cənab Prezident, hörmətli Mehriban xanım, bir məsələni də vurğulamaq istəyirəm, bizim "Salam Doktor" platformamızın xüsusiyyəti ondan ibarətdir ki, bu, Azərbaycanda ilk milli platformadır və tərəfimizdən istehsal olunmuş milli proqram təminatıdır.

Prezident İlham Əliyev: Sağ olun. Sizi görməyimə şadam. Bu təşəbbüsə qoşulduğunuza görə sizə minnətdaram. Mən çox şadam ki, xaricdə yaşayan azərbaycanlılar azad edilmiş torpaqların bərpası ilə bağlı fəal çalışırlar, işləyirlər. Bu platformanın həyata keçirilməsində, əlbəttə ki, xaricdə yaşayan soydaşlarımız da mühüm rol oynayıblar. Bildiyiniz kimi, keçən ay Dünya Azərbaycanlılarının Qurultayı ilk dəfə olaraq Şuşada keçirilmişdir. Hamımızın böyük arzusu idi ki, bir gün bu qurultay Şuşada keçirilsin, buna da nail olduq. Xaricdə yaşayan yüzlərlə azərbaycanlı doğma Şuşamıza gəlib burada öz ürək sözlərini deyə biliblər. Əlbəttə ki, dünya azərbaycanlılarının azad edilmiş torpaqlarda bərpa işlərinin aparılmasında da böyük rolu ola bilər. Artıq var, biz bunu görürük. Bax, bugünkü bizim videobağlantımız bunu əyani şəkildə göstərir.

Bildiyiniz kimi, biz azad edilmiş torpaqları müasir mütərəqqi texnologiyalara əsaslanmış böyük bir məkan kimi görmək istəyirik və indi olduğumuz Ağalı kəndinin timsalında bunu görürük. Ona görə aparıcı Qərb ölkələrinin texnologiyaları, o cümlədən tibb sahəsində və digər sahələrdə burada tətbiq edilərsə, əlbəttə ki, biz istədiyimizə nail ola bilərik.

Bu gün biz videoformatda görüş keçirərək bir-birimizi görürük. Amma arzu edirəm ki, siz buraya da gələsiniz, azad edilmiş digər yerlərdə, o cümlədən Ağalı kəndində də olasınız və bu gediş-gəliş daimi olsun.

Mən Qurultay zamanı xaricdə yaşayan soydaşlarımıza üz tutaraq demişdim ki, istərdim, hər biriniz heç olmasa ildə bir dəfə Azərbaycana, Qarabağa, Zəngəzura gələsiniz və bizim bu canlı bağlantımız, qəlbdən-qəlbə gedən bu bağlar daha da möhkəm olsun. Bu gün burada iştirak etdiyiniz üçün sizə təşəkkürümü bildirirəm.

Həkim Məsud Aşina: Təşəkkür edirəm, cənab Prezident, biz hər zaman hazırıq. Mən özüm də Şuşa Qurultayında iştirak etdim. Mənim üçün çox qürurlu gün idi. Mən sonuncu dəfə 1984-cü ildə Şuşada olmuşdum. Artıq bu il Şuşaya gəlmişdim. Çox böyük həyəcan keçirdim. Biz hər zaman orada olmalıyıq, həmişə bir yumruq kimi Sizin yanınızda olmalıyıq.

Prezident İlham Əliyev: Sağ olun. Qarabağ Azərbaycandır!

Azərbaycanlı həkimlər: Qarabağ Azərbaycandır! Sağ olun.

* * *

Prezident İlham Əliyevə və birinci xanım Mehriban Əliyevaya kənddəki uşaq bağçasında yaradılan şərait barədə məlumat verildi. Həmçinin kənd tam orta məktəbinə baxış zamanı distant təhsil həllərinin təqdimatı keçirildi.

Bakıdakı Heydər Əliyev adına Müasir Təhsil Kompleksi ilə canlı bağlantıda Prezident İlham Əliyev dedi: Əminəm ki, Ağalı məktəbi ilə Heydər Əliyev adına Müasir Təhsil Kompleksinin arasında əlaqələr bundan sonra da davam edəcək. Burada oxuyan uşaqlar gələcəklər Bakıya, sizin şagirdlərinizlə, eyni zamanda, müəllim heyəti ilə görüşəcəklər. Yəni, bu təmaslar davamlı olmalıdır, həm distant təhsillə bağlı, eyni zamanda, canlı təmaslara da böyük ehtiyac var. Yaxın günlərdə ilk vətəndaşlar burada məskunlaşacaqlar. Ondan sonra yaxşı olardı ki, siz müəllimlər və eyni zamanda, uşaqlar buraya gələsiniz, bu gözəlliyi görəsiniz, necə deyərlər, bu videobağlantı artıq canlı bağlantıya keçsin.

Prezident İlham Əliyevə və birinci xanım Mehriban Əliyevaya məlumat verildi ki, 360 şagird yerlik ikimərtəbəli məktəb binası və birmərtəbəli 60 yerlik uşaq bağçasının binasında monolit dəmir-beton, xarici və daxili divarların hörgü işləri, kommunikasiya xətlərinin çəkilişi və damın quraşdırılması üzrə işlər tam başa çatdırılıb, daxili və xarici bəzək işləri görülür. Göründüyü kimi, "Ağıllı kənd"də müasirlik təkcə qurulan infrastrukturla məhdudlaşmır, burada təhsilə yeni yanaşmanın tətbiqi də mühüm rol oynayır.

Dövlətimizin başçısına və birinci xanıma "Ağıllı kənd" layihəsinə dair stendin təqdimatında "Ernst & Young" şirkəti ilə birgə hazırlanmış "İqtisadi səmərəliliyin təhlili"nin əsas məqamları, kəndin perspektiv inkişaf planı və kənd bazarının planı, həmçinin şəhər evi tipli üç nəfərədək ailələrin məskunlaşması üçün evlərin planı barədə məlumat verildi.

Sonra Prezident İlham Əliyev və birinci xanım Mehriban Əliyeva Ağalı kəndinin sakinləri ilə görüşdülər.

Dövlətimizin başçısı görüşdə çıxış etdi.

* * *

Prezident İlham Əliyevə və birinci xanım Mehriban Əliyevaya kənddəki uşaq bağçasında yaradılan şərait barədə məlumat verildi. Həmçinin kənd tam orta məktəbinə baxış zamanı distant təhsil həllərinin təqdimatı keçirildi.

Bakıdakı Heydər Əliyev adına Müasir Təhsil Kompleksi ilə canlı bağlantıda Prezident İlham Əliyev dedi: Əminəm ki, Ağalı məktəbi ilə Heydər Əliyev adına Müasir Təhsil Kompleksinin arasında əlaqələr bundan sonra da davam edəcək. Burada oxuyan uşaqlar gələcəklər Bakıya, sizin şaridlərinizlə, eyni zamanda, müəllim heyəti ilə görüşəcəklər. Yəni, bu təmaslar davamlı olmalıdır, həm distant təhsillə bağlı, eyni zamanda, canlı təmaslara da böyük ehtiyac var. Yaxın günlərdə ilk vətəndaşlar burada məskunlaşacaqlar. Ondan sonra yaxşı olardı ki, siz müəllimlər və eyni zamanda, uşaqlar buraya gələsiniz, bu gözəlliyi görəsiniz, necə deyərlər, bu videobağlantı artıq canlı bağlantıya keçsin.

Prezident İlham Əliyevə və birinci xanım Mehriban Əliyevaya məlumat verildi ki, 360 şagird yerlik ikimərtəbəli məktəb binası və birmərtəbəli 60 yerlik uşaq bağçasının binasında monolit dəmir-beton, xarici və daxili divarların hörgü işləri, kommunikasiya xətlərinin çəkilişi və damın quraşdırılması üzrə işlər tam başa çatdırılıb, daxili və xarici bəzək işləri görülür. Göründüyü kimi, "Ağıllı kənd"də müasirlik təkcə qurulan infrastrukturla məhdudlaşmır, burada təhsilə yeni yanaşmanın tətbiqi də mühüm rol oynayır.

Dövlətimizin başçısına və birinci xanıma "Ağıllı kənd" layihəsinə dair stendin təqdimatında "Ernst & Young" şirkəti ilə birgə hazırlanmış "İqtisadi səmərəliliyin təhlili"nin əsas məqamları, kəndin perspektiv inkişaf planı və kənd bazarının planı, həmçinin şəhər evi tipli üç nəfərədək ailələrin məskunlaşması üçün evlərin planı barədə məlumat verildi.

Sonra Prezident İlham Əliyev və birinci xanım Mehriban Əliyeva Ağalı kəndinin sakinləri ilə görüşdülər.

Dövlətimizin başçısı görüşdə çıxış etdi.

**Prezident İlham Əliyevin çıxışı**

– Əziz dostlar, ilk növbədə, sizi qarşıdan gələn Müstəqillik Günü münasibətilə təbrik edirəm. Sizə və bütün Azərbaycan xalqına daim rifah, xoşbəxtlik arzulayıram. Müstəqillik Günü ərəfəsində biz sizinlə görüşürük, Ağalı kəndində, dirçələn Ağalı kəndində. Bunun çox böyük rəmzi mənası var. Çünki Ağalı kəndinin yenidən qurulması və belə müasir vəziyyətə gətirilməsi müstəqilliyimizin möhkəmlənməsindən asılı idi. Bu gün hər bir Azərbaycan vətəndaşı və əminəm, hər bir insan ümumiyyətlə görür ki, bu gün Azərbaycanın dövlət müstəqilliyi möhkəmdir, əsaslıdır və xalqımızın xoşbəxtliyi üçün əsas amildir.

İlk Xalq Cümhuriyyəti yaradılanda vəziyyət fərqli idi. Əlbəttə, rus imperiyasının dağılması nəticəsində Azərbaycan xalqı 104 il bundan əvvəl müstəqilliyə qovuşdu. Ancaq birinci respublika çox yaşaya bilmədi, süqut etdi, cəmi iki ilə yaxın müddət ərzində yaşamışdır. Düzdür, bir çox önəmli addımlar atılmışdır və Azərbaycan Xalq Cümhuriyyətinin qurucularının xatirəsini biz daim hörmətlə anırıq. Ancaq, eyni zamanda, onu da bilməliyik ki, müstəqillik cəmi iki il çəkdi. Ondan sonra Azərbaycan Xalq Cümhuriyyəti süqut etdi, müstəqilliyi qoruya bilmədi və Azərbaycan xalqı azadlıqdan məhrum edildi. Bununla bərabər, hamımız yaxşı bilirik ki, o vaxt Ermənistan millətçiləri xalqımıza və gənc Xalq Cümhuriyyətinə qarşı təcavüzə başlamışdılar və bunun nəticəsində Azərbaycan xalqı böyük əzablar yaşamışdır.

Onu da artıq nəinki Azərbaycanda, dünyada bilirlər ki, dövlət müstəqilliyimiz elan olunandan bir gün sonra Azərbaycan Xalq Cümhuriyyəti bizim qədim şəhərimiz olan İrəvanı Ermənistana təhvil verdi və bu, bağışlanmaz bir cinayət idi. Beləliklə, bizim qədim diyarımız bizdən ayrı düşdü.

Amma Azərbaycan Xalq Cümhuriyyəti süquta uğrayandan bir neçə ay sonra Zəngəzur da bizim əlimizdən alındı. Bu tarixi də hər kəs bilməlidir, 1920-ci ilin noyabrında sovet hakimiyyətinin qərarı ilə heç bir əsas olmadan tarixi diyarımız Qərbi Zəngəzur Azərbaycandan ayrıldı və Ermənistana verildi. Bu, xalqımıza qarşı növbəti düşmənçilik və ədalətsizlik idi. Çünki Zəngəzurun şərqində də, qərbində də Azərbaycan xalqı əsrlər boyu yaşamışdır və indiki Ermənistan ərazisində olan Qərbi Zəngəzurun bütün toponimləri, bütün kəndlərin milli tərkibi Azərbaycan xalqına məxsus idi.

Müasir Azərbaycan müstəqilliyə qovuşandan sonra da vəziyyət təxminən eyni idi. Çünki iki il ərzində - 1991-ci ilin oktyabrından 1993-cü ilə qədər Ermənistan Azərbaycana qarşı növbəti təcavüz etmişdir və müstəqillik elan olunandan dörd ay sonra Ermənistan dövləti xalqımıza qarşı Xocalı soyqırımını törətmişdir. Ondan

üç ay keçəndən sonra Şuşa işğal olundu, Laçın işğal olundu və 1993-cü ilin aprelində Kəlbəcər işğal olundu. Beləliklə, Ermənistanla Qarabağ arasında canlı bağlantı yaradıldı.

Biz 1993-cü ildə də eyni vəziyyətlə üzləşə bilərdik. Yəni, müstəqilliyimiz faktiki olaraq böyük təhlükə altında idi, sözdə var idi, amma de-fakto yox idi. Çünki Azərbaycan müstəqil siyasət apara bilmirdi. Müstəqillik, əsl müstəqillik məhz odur ki, sən müstəqil siyasət apara bilirsən, yoxsa yox. Əks təqdirdə bu, sadəcə olaraq, şərti xarakter daşıyır.

1993-cü ildən başlayaraq xalq Ulu Öndərə müraciət edib onu hakimiyyətə dəvət edəndən sonra əsl müstəqillik həyatımız başlamışdır. Bu gün burada olmağımız, Ağalı kəndinin açılışında iştirak etməyimiz məhz müstəqilliyimizin möhkəmlənməsinə bağlıdır. Nə XX əsrin əvvəllərində, nə də sonlarında müstəqilliyimiz möhkəm olmamışdır. Ona görə xalqımız böyük faciələrlə üzləşmişdi. Həm Şərqi Zəngəzur, həm Qarabağ işğala məruz qaldı. Ovaxtkı hakimiyyət torpaqlarımızı qoruya bilmədi. Ancaq bu gün müstəqilliyimiz möhkəmdir və bunun nəticəsində biz İkinci Qarabağ müharibəsində Qələbə qazandıq, tarixi Qələbə qazandıq. Bunun nəticəsində düşməni diz çökdürdük və bunun nəticəsində bu gün biz buradayıq.

Biz müstəqilliyimizin möhkəmlənməsi istiqamətində çox böyük işlər görmüşük. Siyasi cəhətdən tam müstəqilik. Heç bir ölkə bizim iradəmizə təsir edə bilməz və bunu artıq hər kəs bilir ki, Azərbaycanla hesablaşmaq lazımdır, Azərbaycanın mövqeyini nəzərə almaq lazımdır. Azərbaycan özünə hörmət edən dövlətdir və hər kəsdən bu hörməti tələb edir və bunu əldə edir.

Biz iqtisadi cəhətdən müstəqilik. Bu gün iqtisadi cəhətdən müstəqil ölkələrin sayı o qədər də çox deyil. Bunu yaxın tarix göstərib. Ancaq biz tam müstəqilik, heç kimdən asılı deyilik, öz həyatımızı özümüz qururuq və heç bir yardıma, kreditə ehtiyacımız yoxdur. Əksinə, biz özümüz indi bəzi ölkələrə kreditlər veririk. Məhz iqtisadi müstəqillik nəticəsində bu gün, bax, bu Ağalı kəndi deyə bilərəm ki, dünyanın ən mütərəqqi kəndlərinin birinə çevrilib. Bunu biz etmişik, öz gücümüzlə və azad edilmiş bütün digər torpaqlarda öz gücümüzlə bərpa işlərini aparırıq və indi nəhəng layihələr icra edilir. Bu haqda Azərbaycan xalqı müntəzəm olaraq məlumatlandırılır.

Siyasi və iqtisadi müstəqillik imkan verdi ki, biz öz həyatımızı bildiyimiz kimi quraq, Azərbaycan xalqının qədim ənənələri, dəyərləri əsasında dövlət quraq və bu dövlətdə rahat yaşayaq. Bu gün dünyada gedən proseslər hər birimizin gözü önündədir. Azərbaycan sabitlik, təhlükəsizlik diyarıdır, deyə bilərəm ki, adasıdır. Bunu artıq bütün dünya görür və bilir. Əlbəttə, biz müstəqil olmasaydıq, yəni, sözün əsl mənasında, müstəqil olmasaydıq, erməni işğalına son qoya bilməzdik. Çünki bu işğalı şərtləndirən hansı amillər olub, əlbəttə ki, xarici amillər. Ermənistan özü nə hərbi, nə siyasi, nə iqtisadi cəhətdən hətta orta səviyyəli dövlət sayıla bilməz. İndi Ermənistandakı vəziyyət göz qabağındadır. Əlbəttə, biz bu xarici amilləri nəzərə almalıyıq. Amma, eyni zamanda, bu, bizi dayandıra bilməzdi. Müharibənin ilk günlərindən son gününə qədər mən demişdim ki, heç kim və heç nə bizi dayandıra bilməz. Ancaq Ermənistan rəhbərliyi bizə tarix verməlidir, nə vaxt bizim torpağımızdan rədd olur, onda biz dayanmağa hazırıq və sözümüzə də əməl etdik. Ona görə əgər müstəqil siyasət aparmasaydıq, ola bilər ki, bu xarici amillər, Ermənistanın xarici havadarları, onların bəzilərinin bizə hədə-qorxu gəlməsi bizi bu işdən çəkindirə bilərdi. Ancaq çəkindirmədi. Çünki güclü iradə göstərdik, xalqımız birləşdi və bunun da təməlində, əlbəttə ki, həmrəylik, milli qürur, ləyaqət və güc dayanır.

Bu gün güc amili ön plandadır. Mən bu haqda hələ on il bundan əvvəl demişdim. Mənim çıxışlarımın hamısı mətbuatda var. Dedim ki, beynəlxalq hüquq işləmir. Biz özümüzü aldatmamalıyıq, daha güclü olmalıyıq, güc toplamalıyıq. Lazım olarsa, düşməni güc yolu ilə torpağımızdan qovmalıyıq. Bunu demişəm də, bunu etmişəm də.

Bundan sonra da güc amili dünyada hakim olacaq. Bunu indi yaxın tarix də göstərir. Ona görə bundan sonra da güclü olmalıyıq və güclü oluruq. Bu gün iqtisadi göstəricilərimiz çox müsbətdir. Deyə bilərəm ki, dünya miqyasında ən sürətlə inkişaf edən ölkələrdən biri Azərbaycandır. Hərbi gücümüzü də artırırıq. Müharibədən sonra yeni silahlı birləşmələr yaradılır, yeni texnika alınır və bundan sonra da biz bunu edəcəyik. Çünki biz güclü olmasaq, istədiyimiz kimi yaşaya bilmərik. Biz istəyirik ki, azad yaşayaq. Biz istəyirik ki, bundan sonra heç kim bizim işimizə qarışmasın. Buna ehtiyac yoxdur. Biz elə gözəl dövlət qurmuşuq ki, bu gün bir çoxları buna həsəd aparır. Heç kim gəlib bizə dərs oxumasın, məsləhət verməsin, öyrətməsin. Buna ehtiyac yoxdur.

Mən Prezident kimi hər dəfə bu cəhdləri dəf edəndə xalqa arxalanıram, dövlətimizin gücünə arxalanıram, o cümlədən hərbi, iqtisadi və siyasi gücünə. 44 günlük Vətən müharibəsi həm xalqımızın gücünü, həm də mənəvi keyfiyyətlərini göstərdi. Biz ermənilərdən fərqli olaraq dinc əhaliyə qarşı müharibə aparmamışıq. Biz ermənilərdən fərqli olaraq etnik təmizləmə aparmamışıq. Biz Ermənistandan fərqli olaraq şəhər və kəndləri yerlə-yeksan etməmişik. Biz azərbaycanlıyıq, bu, bizə yaraşmaz. Bizim təfəkkürümüz, bizim adət-ənənələrimiz və dədə-babalardan qalan miras bunu qoymaz. Bütün dünya bunu gördü ki, azərbaycanlılar necə məharətlə, peşəkarlıqla, fədakarlıqla və ləyaqətlə vuruşdular, öz vəzifə borclarını yerinə yetirdilər və Qarabağ

münaqişəsini müharibədən sonra siyasi yollarla həll etdilər. Biz bu məsələni həll etmişik, Ermənistan istəsə də, istəməsə də bunu bütün dünya qəbul edir. Biz Dağlıq Qarabağ münaqişəsini həll etmişik. Dağlıq Qarabağ münaqişəsi həll olunub. Qaldı ki, Dağlıq Qarabağ inzibati ərazisinə, bu ərazi Azərbaycan ərazisində yoxdur. Ona görə beynəlxalq qurumların leksikonunda Dağlıq Qarabağ sözü yoxdur və son Brüssel görüşü bunu bir daha göstərdi. Düzdür, Ermənistanda indi bu məsələ ilə bağlı yenə də hay-haray qaldırıblar və necə deyərlər, başlarını divara vururlar, amma bu, reallıqdır və onlar bu reallıqla barışmağa məcburdurlar.

Dağlıq Qarabağ münaqişəsi həll olunub, Minsk qrupu öz fəaliyyətini başa vurub. Minsk qrupu ilə bağlı mən öz fikirlərimi demişdim, bir daha təkrar etməyə ehtiyac yoxdur və indi postmünaqişə dövrüdür. Biz bu dövrdə yaşayırıq və postmünaqişə dövründə də biz gündəliyi diktə edirik və müharibədən keçən ilyarım ərzində nəyi istəmişiksə ona nail olmuşuq. Nəyi demişəmsə buna biz nail olmuşuq, ya da ki, nail oluruq. Birincisi, bütün dünya, aparıcı ölkələr və aparıcı beynəlxalq təşkilatlar yeni reallıqları qəbul ediblər. Bu, çox vacib idi, çünki başqa cür də ola bilərdi. Bu, bizim çox böyük siyasi uğurumuzdur. İkincisi, bizim gündəliyimiz artıq aparıcı beynəlxalq təşkilatlar tərəfindən əsas kimi götürülür. Mən demişdim ki, biz Ermənistanla sərhədləri müəyyən etməliyik. Ermənistan bundan imtina edirdi, ilyarım imtina edirdi. Amma nəticə nə oldu? Mayın 24-də Azərbaycan-Ermənistan sərhədində komissiyaların birinci görüşü keçirildi. Bunun çox böyük mənası var. Həm o nöqteyi-nəzərdən ki, biz bu sərhədləri müəyyən edəcəyik və bu, çox vacibdir. Çünki ermənilər o sərhədləri də zəbt etmişlər. Digər tərəfdən bu, avtomatik olaraq Ermənistanda revanşist, faşist qüvvələr tərəfindən Azərbaycana qarşı irəli sürülən ərazi iddialarına da rəsmən son qoyur. Çünki əgər biz sərhədləri müəyyən ediriksə, hansı dırnaqarası “Dağlıq Qarabağ” statusundan söhbət gedə bilər?! Qarabağ zonası var, Qarabağ diyarı var. Bu, Azərbaycan ərazisidir və bütün dünya bunu qəbul edir. Ona görə Azərbaycan-Ermənistan sərhəd delimitasiyası üzrə komissiyaların birinci iclasının çox böyük əhəmiyyəti var.

Digər məsələ, biz demişdik ki, Ermənistan ilə Azərbaycan arasında sülh müqaviləsi imzalanmalıdır. Ermənistan bundan boyun qaçırmağa can atırdı. Çünki sülh müqaviləsi ölkələrin ərazi bütövlüyünün qarşılıqlı surətdə tanınması deməkdir. Amma nəticə etibarilə biz buna da nail olduq və artıq Azərbaycan öz işçi qrupunu müəyyən edib. Daha bir vacib məsələ, Zəngəzur dəhlizinin açılmasıdır. Ermənistan hər zaman buna da maneçilik törətməyə çalışırdı. Amma yenə də, Brüssel görüşünün rəsmi açıqlamasına baxın, artıq həm dəmir yolu, həm avtomobil yolunun Mehridən, Zəngəzurdan keçməsi müəyyən olunub. Yəni, biz buna da nail oluruq və mən demişdim ki, nail olacağıq. Yəni, biz gündəliyi diktə edirik. Nəyin hesabına? Əlbəttə ki, müharibənin nəticələrinin hesabına. Çünki biz qalib dövlətik, Ermənistan məğlub edilmiş dövlətdir. Bu reallığı hər kəs qəbul etməlidir və edir. Əlbəttə ki, bu amil Azərbaycan-Ermənistan təmasları əsnasında ön plandadır.

Digər səbəb nədir? Bizim gücümüz. Ermənistan xarici dəstək olmadan ayaqda dura bilməz. Bunu onlar da yaxşı bilirlər. Amma biz? Biz müharibəni bütün təzyiqlərə, hədə-qorxulara rəğmən elə aparmışıq və istədiyimizə nail olmuşuq. “Öldü var, döndü yoxdur” demişik, buna əməl etmişik və indi qalib xalq kimi üzümüz ağ, alnımız açıq yaşayırıq.

Əlbəttə, bu gün postmünaqişə gündəliyinin formalaşmasında Azərbaycan öz sözünü deyir və bu söz həlledicidir. Amma bununla bərabər, biz heç bir qeyri-real tələb də irəli sürmürük. Biz deyirik ki, ərazi bütövlüyümüzü tanıyın, gəlin sərhədləri müəyyən edək, hərə öz ölkəsində yaşasın, bir-birinin işinə qarışmasın. Biz bunu deyirik və mənim tərəfimdən irəli sürülmüş sülh müqaviləsi üçün 5 əsas prinsipin mahiyyəti də budur. O cümlədən bir-birinə qarşı ərazi iddialarından əl çəkmək prinsipi də böyük önəm daşıyır və Ermənistan rəhbərliyi bu 5 prinsipi qəbul edib. İndi nə isə əlavə etmək istəyir, amma əsas fundamental prinsiplər budur. O ki qaldı, ermənilərin Azərbaycanda yaşamasına - istər Qarabağ bölgəsində, istər başqa yerlərdə bu məsələdə heç bir problem yoxdur. Azərbaycan çoxmillətli, çoxkonfessiyalı bir ölkədir. Azərbaycanda bütün xalqların nümayəndələri rahat yaşayırlar, bütün hüquqlardan istifadə edirlər. Heç vaxt Azərbaycanda milli, dini zəmində ayrı-seçkilik olmayıb və olmayacaq. Ona görə Azərbaycanda yaşayan ermənilərin hüquqları, təhlükəsizliyi Azərbaycanda yaşayan digər xalqların təhlükəsizliyi, hüquqları qədər önəmlidir. Burada hansısa xüsusi imtiyazdan söhbət gedə bilməz. Bir də ki, dünyada, Avropada təcrübə var. İndi Avropada müxtəlif konvensiyalar var. Həm Avropa Şurası ölkələri bu konvensiyalara qoşulublar, həm Avropa İttifaqı ölkələri çərçivəsində qaydalar və rəsmi sənədlər var. Orada hər şey göstərilib və biz bu ümumbəşəri trend, yəni, meyil məcrasında gedirik. Ermənistan əgər hansısa xüsusi tələb irəli sürərsə bilməlidir ki, bizim də bir çox tələblərimiz ola bilər. Bax, buraya çox da uzaq olmayan məsafədə bizim qədim torpağımız Qərbi Zəngəzurdur. Biz Ermənistana qarşı ərazi iddiası ilə çıxış etmirik ki? Etmirik. Amma əgər onlar bizə qarşı ərazi iddiası ilə çıxış edəcəksə, biz niyə etməməliyik? Tarix var. Hər kəs açsın baxsın kitablara, ensiklopediyalara: nə vaxt Qərbi Zəngəzuru bizdən ayırıb Ermənistana verdilər? 1920-ci ilin noyabrında.

O ki qaldı, ermənilərin Azərbaycanda yaşamasına, bu tarixi də hər kəs yaxşı bilir. Rus-İran müharibəsindən

sonra XIX əsrin əvvəllərində İrandan və Şərqi Anadoludan ermənilər kütləvi surətdə köçürülüb və Azərbaycanda, Qarabağda məskunlaşdırılıb. Bunu biz hamımız yaxşı bilirik. O ki qaldı, 1923-cü ildə Dağlıq Qarabağ Muxtar Vilayətinin yaradılmasına, onun da heç bir əsası yox idi. Bu, qanunsuz bir addım idi, sadəcə olaraq, bir saat bombasını Azərbaycanın canına yerləşdirmək, istənilən an onu partlatmaq və xalqımızı məhv etmək məqsədi daşıyırdı. Heç bir əsası yox idi ki, orada hansısa bir muxtar vilayət yaradılsın. Özü də Şuşanı da salmışdılar onun içinə.

Mən nə üçün bunu deyirəm, çünki Ermənistanda faşistlər hələ, necə deyərlər, baş qaldırmağa cəhd göstərirlər və onlara elə gəlir ki, əgər onlar hakimiyyətdə olsaydılar müharibənin nəticələri başqa cür ola bilərdi. Qətiyyən yox! Onlara elə gəlir ki, əgər onlar hakimiyyətə gəlsələr, nə isə əldə edə bilərlər. Qətiyyən yox! Əksinə, əgər istəmirlərsə ki, onların başı bir daha əzilsin, otursunlar və bu tərəfə heç baxmasınlar. Biz hələ ki, səbirlə bu mənzərəni izləyirik. Amma bunu Ermənistan faşistləri - bizə hürməyə çalışan faşistlər bilsinlər ki, hər an onların dərsini verməyə bir daha hazırıq, necə ki, İkinci Qarabağ müharibəsi zamanı. İndi kimdir Ermənistanda meydan sulayan? İkinci Qarabağ müharibəsi zamanı Qarabağdan dovşan kimi qaçan Sarkisyan-Köçaryan cütlüyü. Əgər onlar belə qəhrəman idilərsə, niyə qaçmışdılar? Oturardılar, vuruşardılar. Hər ikisi Xankəndidə idi, o cümlədən onların keçmiş müdafiə naziri. İndi bizi hədələməyə çalışırlar. Niyə qaçmısınız dovşan kimi? Axı, gərək bunu unutmasınlar. Bizim gücümüzü hər an görüb buna adekvat addım atsınlar.

Biz isə bundan sonra müzəffər xalq kimi yaşayacağıq. Biz 44 gün ərzində həm ərazi bütövlüyümüzü bərpa etdik, həm ədaləti bərpa etdik, həm milli ləyaqətimizi bərpa etdik. Bu gün, bax, bu gözəl Zəngilan torpağında həyat qururuq. Bax, həyat qayıdır – Zəngilana, başqa yerlərə, Şuşaya. Yaxşı bilirsiniz ki, bu bölgənin inkişafı üçün nə qədər böyük işlər görülür. İndi yol boyunca gələn hər bir adam dəmir yolunu görür, avtomobil yolunu görür. Özü də altı və dörd zolaqlı avtomobil yolu. Zəngilanda hava limanı tikilir, bu il istifadəyə veriləcək. Artıq böyük aqropark salınıb, ilk məhsul bu il götürüləcək.

Dünən mən Zəngilan şəhərinin Baş planı ilə tanış oldum. Hesab edirəm ki, ən gözəl variantı seçdik. Bu sahədə təcrübəsi olan beynəlxalq şirkət Baş planı təqdim etdi və mən dedim ki, Zəngilan şəhəri park şəhərinə çevrilməlidir. Yəni, Zəngilanın təbiəti o qədər gözəldir ki, biz təbiətə bir zərrə ziyan vurmamalıyıq, əksinə, təbiəti daha da zənginləşdirməliyik, xüsusilə nəzərə alsaq ki, ermənilər Bəsitçay təbii qoruğunu da məhv etmişlər. O məşhur palıd ağaclarını da kəsmişlər, Oxçuçayı da zəhərləmişlər. Vejnəlidə də bizim qızıl yataqlarımızı istismar edərkən heç bir ekoloji normaya riayət etməmişlər. Biz təbiəti qorumalıyıq və Zəngilan şəhərinin artıq dünən Baş planı təsdiq olunandan sonra inşaat işləri başlanacaq.

Əlbəttə ki, bunu artıq bilməyən yoxdur, birinci pilot layihə məhz Zəngilanda icra edildi, Ağalı kəndində. Bir il bundan əvvəl inşaat işləri başlamışdır. İndi 200 evdən ibarət gözəl kənd salınıb – “Ağıllı kənd”. Bu gün bu kəndlə tanış olarkən, – bilirsiniz, mən dəfələrlə burada olmuşam, – görürəm ki, doğrudan da böyük, necə deyərlər, mütərəqqi bir addım atmışıq.

Bilirəm ki, Ağalı kəndində yaşayan ailələrin sayı 200-dən çoxdur. Ona görə yeni layihə təqdim edildi. Kəndin genişləndirilməsi və əlavə 150 evin inşa edilməsi, o cümlədən ikimərtəbəli, üçmərtəbəli mənzil tipli evlərin inşa edilməsi nəzərdə tutulur. Məşğulluq, məktəb, bağça, tibb məntəqəsi, bütün xidmətlər – “ASAN”, “DOST”, kiçik və orta biznesə dəstək, hər şey burada var. Bir o qalıb ki, 30 ilə yaxın həsrət içində yaşayan insanlar gəlsinlər, burada rahat yaşasınlar, müzəffər xalq kimi əbədi yaşasınlar. Belə də olacaq. Bundan sonra həm Zəngilan rayonunda, həm digər rayonlarda, indi Baş planları təsdiq edilmiş rayonlarda inşaat işləri daha sürətlə gedəcək.

Mən sizi tarixi hadisə münasibətilə təbrik edirəm. Sizə cansağlığı, xoşbəxtlik arzulayıram.

Ağalı kənd sakini Fərmayıl İsmayılov: Cənab Prezident. Biz çox qürur hissi duyuruq ki, həqiqətən də bugünkü gün bir Ağalı kənd sakini kimi mənim həyatımda tarixə yazılası bir gündür. Çünki bu gün mən Sizinlə bir masa ətrafında əyləşmişəm. Bu, mənim həyatımda tarixə yazılan bir gündür. Bu, mənə nəsib olduğu üçün Sizə minnətdarlığımı bildirirəm. Dərin təşəkkürümü bildirirəm ki, Siz tarixi Qələbə qazanan bir Prezident kimi vaxt tapıb bizimlə görüşə gəlmisiniz. Bu, bizim üçün qürurverici bir haldır, şəxsən mən bunu çox yüksək dəyərləndirirəm. Çünki biz bu 28 il müddətində, – mən şəxsən özümdən danışıram, – valideynlərimizin qəbirlərini ziyarət edə bilmirdik, gecə-gündüz onu yuxuda görürdük. Kəndimizdə bir daş var idi, mən həmişə onu yuxuda görürdüm, öz tay-tuşlarıma da danışırdım ki, belə bir yuxu görürdüm, o daşı həmişə gedib görmək istəyirdim. Öz həyətimizə gedə bilmirdim. Amma Siz onu bizə bəxş etdiniz.

Sizə dərin təşəkkürümüzü bildiririk. Allah Sizi həmişə var eləsin, bizim başımızın üstündən əskik etməsin. Biz də Ağalı kəndinin sakinləri həmişə Sizin siyasətinizi dəstəkləmişik və bundan sonra da dəstəkləyəcəyik. Həyata keçirdiyiniz quruculuq işlərində əlimizdən gələni etməyə canla-başla hazırıq.

Çox sağ olun, var olun, Allah Sizi qorusun.

Prezident İlham Əliyev: Çox sağ olun.

Ağalı kənd sakini Gəray Hüseynov: Cənab Prezident. Sizi qədim Zəngəzur diyarının ən gözəl guşələrindən biri olan Zəngilanımızda salamlayırıq. Cənab Prezident, bir ilə yaxındır ki, bu Ağalı kəndinin təməlini qoymusunuz. Artıq bu gün Ağalı kəndi Sizin sayənizdə çox gözəl şəkildə tikilib, qurulub, yaradılıb. Sizə öz dərin təşəkkürümü bildirirəm, Sizə cansağlığı arzulayıram ki, Ağalı camaatı üçün belə gözəl şəraiti yaratmısınız. Sizi əmin edirəm, bizim Ağalı sakinləri səbirsizliklə o günü gözləyirlər ki, tezliklə bu kəndə köçüb yaşasınlar. Çox sağ olun.

Prezident İlham Əliyev: Sağ ol.

Ağalı kənd sakini Gülüş Səmədli: Hörmətli Ali Baş Komandan, dəyərli Birinci vitse-prezidentimiz Mehriban xanım. Sizləri əzəli torpağımızda – Zəngilanda salamlamaq mənim üçün qürurverici hadisədir. Bu, mənim Zəngilana ilk səfərim deyil, üçüncü səfərimdir. İlk səfərim Sizinlə təməlqoyma mərasimində olmuşdu. Az müddət ərzində Zəngilanda dirçəlişi görmək həqiqətən bizə qürur verir. Az müddətdə xeyli dəyişiklik olmuşdur. Eyni zamanda, biz Azərbaycan xalqı olaraq, Zəngilan sakinləri olaraq hər zaman Sizin siyasətinizi dəstəkləyir, bir yumruq kimi Sizin ətrafınızda birləşirik.

Zəngilanda “Ağıllı kənd”in təməlinin qoyulması və bu gün “Ağıllı kənd”in ərsəyə gəlməsi təkcə Azərbaycan Respublikasında ilk deyil, eyni zamanda, MDB ölkələrində də ilkdir. Biz bununla bütün dünyaya sübut etdik ki, yoxdan var yaratmışıq. Yəni, biz az müddətdə xeyli dirçəliş etmişik. Şəxsən mən Zəngilan rayonunun ən gənc sakini və həm də hüquqşünas olaraq canla-başla gəlib burada məskunlaşıb xalqıma xidmət etməyi arzulayıram. İnşallah, o günləri də səbirsizliklə gözləyirəm. Çünki mən bilirəm ki, burada həm gənclər, həm də yaşlı sakinlər üçün xeyli iş yerləri var. Mən də öz hüquqşünas ixtisasıma uyğun olaraq işlə təmin olunacağıma və xalqıma vicdanla xidmət edəcəyimə əminəm.

Bir daha Sizlərə təşəkkür edirəm. Allah Sizləri var eləsin. Biz hər zaman Sizinləyik.

Prezident İlham Əliyev: Sağ ol. Mən çox şadam ki, gənclər də öz dədə-baba yurduna qayıtmağa çox həvəslidirlər. Mən bunu alqışlayıram. İkinci Qarabağ müharibəsi başa çatandan sonra mən göstəriş vermişdim ki, keçmiş məcburi köçkünlər arasında sorğu keçirilsin, kim qayıtmaq istəyir, kim qayıtmaq istəmir. Çünki bilirsiniz, həyat elə şeydir ki, hər şey ola bilər. 30 il, 27 il böyük bir zaman kəsiyi idi. Məsələn, Zəngilan 27 il işğal altında idi, digər şəhər və rayonlarımız da bir qədər çox, bir qədər az. Elə insanlar var ki, artıq onlar həyat qurublar, haradasa işləyirlər, həyatdan da razıdırlar və heç yerə getmək istəmirlər, şəhərdə yaşayırlar, Bakıda, Sumqayıtda. İndi böyük şəhərdən kiçik şəhərə, kəndə qayıtmaq o qədər də asan məsələ deyil. Bunu hər kəs anlamalıdır. Nəzərə alsaq ki, qayıdış da könüllü olmalıdır və biz elə şərait yaratmalıyıq ki, hər kəs qayıtmaq istəsin. Ona görə dedim ki, sorğu keçirək və nəticələrinə baxaq. Çünki biz indi böyük işlərə start veririk, yaşayış evləri, məktəblər, xəstəxanalar – bütün bunlar hesablanmalıdır nə qədər adam yaşayacaq. Çünki böyük məsrəfdir. Mənə məlumat verildi ki, məcburi köçkünlərin mütləq əksəriyyəti qayıtmaq istəyir. Bu, məni çox sevindirdi. Mən belə də təxmin edirdim. Bu, bir daha göstərdi ki, xalqımız öz ulu babalarının yurduna nə qədər bağlıdır. Hətta Zəngilanı görməyənlər Zəngilanda yaşamaq istəyirlər. Necə ki, Vətən müharibəsində Qarabağı heç vaxt görməyənlər Qarabağ uğrunda ölümə getməyə hazır idilər və ölümə də getmişdilər. Üç minə yaxın şəhidimizin xatirəsi bizim qəlbimizdə əbədi yaşayacaq. Allah bütün şəhidlərimizə rəhmət eləsin.

Ancaq insanların qayıdışı üçün şərait olmalıdır. Bax, biz birinci layihəni icra etdik, bunu təqdim etdik, həm Ağalı kəndinin sakinlərinə, həm də bütün Azərbaycana. Bizim gələcək planlarımız da belədir. İndi birinci mərhələdə hər rayonda bir çox kəndlər seçilib ki, ilk növbədə orada işlər aparılacaq. Ondan sonra insanlar qayıtdıqca, əlbəttə ki, bütün qalan yerləri də bərpa edəcəyik. Əlbəttə, ilk növbədə, böyük şəhərlərin Baş planları təsdiq edilməli idi. Məsələn, Ağdam, Füzuli və Şuşa şəhərlərinin Baş planları təsdiq olunub, dünən isə Zəngilan şəhərlərinin Baş planı təsdiqləndi, artıq işlərə başlanılmışdır. İndi Ağdamda yaşayış binaları inşa edilir, Füzulidə də hazırlıq işləri gedir, Zəngilanda isə gedəcək. Yəni, bu, böyük bir prosesdir və onu da bildirməliyəm ki, biz bu işi dövlət büdcəsi hesabına edirik. Heç bir yerdən heç bir yardım almamışıq, heç bir kredit almamışıq, heç bir ianə, yaxud da ki, bir hədiyyə almamışıq, öz gücümüzə arxalanırıq, necə ki, həmişə belə yaşamışıq, gücümüz qədər nailiyyətlər də əldə etmişik.

Bu il də investisiya proqramı təsdiq olunub və proqrama əlavələr də ediləcək. Mən bu gün bunu bəyan etmək istəyirəm. Biz dövlət büdcəsinə əlavələr etməliyik, çünki iqtisadi göstəricilər daha yaxşıdır. Gəlirlərimiz nəzərdə tutulandan daha çoxdur. Ona görə biz bu əlavə gəlirləri və iqtisadi imkanlarımızı səfərbər etməliyik ki, vaxt itirmədən azad edilmiş torpaqlarda daha böyük həcmdə iş görək. İndi hökumətə tapşırılıb, yəqin yaxın gələcəkdə Milli Məclis bu məsələyə baxacaq ki, biz daha çox vəsait ayıraq. Mən demişəm, iqtisadiyyatımız nə qədər güclü inkişaf edərsə, biz azad edilmiş bütün əraziləri o qədər tez bərpa edəcəyik.

Ancaq hər kəs bilməlidir ki, bu, asan məsələ deyil. Azad edilmiş ərazilərin miqyası dörd Lüksemburq ölkəsi qədərdir, bir Livan ölkəsinə bərabərdir, yəni, təsəvvür edin, nə qədər böyük iş nəzərdə tutulur. Onu

da hamımız bilməliyik ki, minatəmizləmə işi hələ də davam edir və əlbəttə ki, burada hər şey, bütün ərazilər minalardan təmizlənib. Əlbəttə, burada yaşayacaq insanlar bunu nəzərə almalıdırlar ki, ancaq minalardan təmizlənmiş ərazilərə gedə bilərlər. Çünki bu təhlükə hələ də var, ermənilər həm işğal zamanı, həm də müharibədən sonra torpağımızdan çıxmaq üçün onlara vaxt verildiyi zaman yenə də bu çirkin əməllərə əl ataraq bir çox minalar basdırmışlar.

Bu gün biz Müstəqillik Günü ərəfəsində görüşürük. Onu da deməliyəm ki, keçən il Müstəqillik Günündə mən Ağdam şəhərində idim, Ağdam sakinləri ilə görüşmüşdüm və Ağdam şəhərinin Baş planını təsdiqləmişdim. Bu il də planlaşdırırdım ki, Müstəqillik Günündə burada olum. Ancaq bildiyiniz kimi, sabah qardaş ölkənin – Türkiyənin Prezidenti Azərbaycana gələcək və biz Müstəqillik Gününü bərabər qeyd edəcəyik. Ona görə mən bir gün əvvəl gəldim, amma yenə də Müstəqillik Günü ərəfəsində. Çünki bunun böyük rəmzi mənası var, budur müstəqillik, budur azadlıq. Xalqımız artıq 30 ildir ki, azad xalq kimi yaşayır və bütün əldə edilmiş nəticələr, o cümlədən Şanlı Qələbəmiz bax, bunun təməlindədir, bu müstəqilliyin təməlindədir. Ona görə müstəqillik ən böyük dəyərimizdir, sərvətimizdir, qoruyuruq və əbədi qoruyacağıq. Bu gün "Böyük Qayıdış" dediyimiz prosesə start verildi. "Böyük Qayıdış"ın birinci kiçik addımı, bax, bu gün atılır. Sizi təbrik edirəm.

Sonra xatirə şəkli çəkildi.

Görüşdən sonra Prezident İlham Əliyev və birinci xanım Mehriban Əliyeva "Aqroservis" ASC tərəfindən təqdim edilən "ağıllı kənd təsərrüfatı" texnikaları ilə tanış oldular.

Məlumat verildi ki, "Ağıllı kənd" təsərrüfatı idarəetmə sistemində ən müasir texnoloji yeniliklər tətbiq olunacaq. Belə ki, burada yaradılacaq iqlim stansiyaları bitki xəstəlikləri ilə bağlı erkən xəbərdarlıq əldə etməyə, suvarmanı planlı şəkildə aparmağa və hava məlumatını almağa imkan verəcək. Bundan başqa, burada zərərvericilərin uzaqdan izlənilməsinə və əkin ərazilərinin, araşdırma sahələrinin mövsümi olaraq yüksək keyfiyyətli fotoşəkillərini çəkə bilən sistemlər də quraşdırılacaq.

Həmçinin heç bir sahə məhdudiyyəti olmadan sərbəst hərəkət edən və ərazidə təhlil aparan skaner, əməliyyatları səmərəli şəkildə həyata keçirmək üçün süni intellekt və proqnozlaşdırıcı analizə sahib platforma, məhsulun yetişdirilməsi zamanı ortaya çıxa biləcək problemləri vaxtında aşkarlaya biləcək dron texnologiyaları da yüksək məhsuldarlığın əldə olunmasında mühüm rol oynayacaq.

Diqqətə çatdırıldı ki, Zəngilan pivot suvarma sistemləri də ən müasir texnoloji yeniliklərlə təchiz olunacaq. Burada 5 pivot sistemi quraşdırılacaq ki, bu da 157 hektar ərazinin suvarılmasına imkan verəcək.

Daha sonra dövlətimizin başçısı və birinci xanım "Arximed" tipli hidroelektrik stansiya, alternativ enerjinin istehsalı üçün süni göl və 62 nömrədən ibarət otel kompleksində aparılan işlərlə tanış oldular.

Məlumat verildi ki, süni gölün yaradılması üzrə qazma və 3-cü gil izolyasiya qatının kipləşdirilmə işləri başa çatdırılıb, 4-cü qat gil izolyasiya işləri davam edir.

Göründüyü kimi, Ağalı kəndində "Ağıllı kənd" konsepsiyasının hər üç komponenti – ağıllı dövlət idarəçiliyi, ağıllı infrastruktur və xidmətlər, eyni zamanda, ağıllı təsərrüfat və biznes mühiti yaradılıb.

## *Özbəkistan Respublikasına dövlət səfəri*

Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev iyunun 21-də Özbəkistan Respublikasına dövlət səfərinə gəlib.

Hər iki ölkənin dövlət bayraqlarının dalğalandığı İslam Kərimov adına Daşkənd Beynəlxalq Hava Limanında Prezident İlham Əliyevin şərəfinə fəxri qarovul dəstəsi düzülmüşdü.

Prezident İlham Əliyevi Özbəkistanın Baş naziri Abdulla Aripov və digər rəsmi şəxslər qarşıladılar.

İyunun 21-də Daşkənddə Heydər Əliyev Meydanının açılışı olub.

Özbəkistanda dövlət səfərində olan Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev və Özbəkistan Respublikasının Prezidenti Şavkat Mirziyoyev açılış mərasimində iştirak ediblər.

Meydan paytaxtın Mirabad rayonunda azərbaycanlıların yığcam yaşadıqları ərazidə yerləşir. Ətrafdakı binalar abadlaşdırılıb. Meydanın ərazisi tamamilə yenidən qurulub, burada yaşıllıq salınıb, sakinlərin istirahəti üçün hər cür şərait yaradılıb.

Meydanın mərkəzi hissəsində ulu öndər Heydər Əliyevin böyük memorial kompleksi ucaldılıb.

Ümummilli lider Heydər Əliyevin adını daşıyan küçədə yerləşən meydan şəhər sakinləri və qonaqların istirahət üçün ən çox üz tutduqları yerlərdən biri olacaq.

Özbəkistanın və Azərbaycanın dövlət başçıları mərasimdə çıxış etdilər.

### Özbəkistan Prezidenti Şavkat Mirziyoyevin çıxışı

– Hörmətli İlham Heydər oğlu.

Hörmətli nümayəndə heyətinin üzvləri.

Xanımlar və cənablar.

Bu gün biz bərəkətli Özbəkistan torpağında əziz qonağımız, Azərbaycan Respublikasının Prezidenti, hörmətli İlham Heydər oğlu Əliyevi salamlayırıq. Dərin rəmzi məna daşıyır ki, Sizin dövlət səfəriniz Azərbaycan xalqının ümummilli lideri, Özbəkistanın böyük dostu, hörmətli Heydər Əlirza oğlu Əliyevin şərəfinə onun adını daşıyan küçənin və burada qoyulmuş barelyefin təntənəli açılış mərasimi ilə başlayır.

Biz hamımız tarixə XX əsrin görkəmli siyasi və dövlət xadimi kimi daxil olmuş Heydər Əliyevi yaxşı tanıyırıq. O, bütün həyatını doğma Azərbaycana həsr edib. Ölkə üçün ən ağır illərdə onun taleyinə görə çox böyük məsuliyyəti cəsarətlə öz üzərinə götürüb, müasir dövlətçiliyin əsaslarını yaradıb, Azərbaycanda bütün sahələrdə genişmiqyaslı dəyişiklikləri uğurla həyata keçirib. O, həqiqətən müstəqil Azərbaycanın memarı idi. Onun qətiyyəti və siyasi iradəsi, zəngin rəhbərlik təcrübəsi və müstəsna liderlik keyfiyyətləri gənc, müstəqil dövləti xilas etdi. Dərin məna daşıyan faktdır ki, iyunun 15-i Azərbaycanda Milli Qurtuluş Günü kimi qeyd edilir. Məhz həmin gün Heydər Əliyev ölkə rəhbərliyinə qayıdıb və Azərbaycan Ali Sovetinin sədri seçilib.

Fikrimcə, bizim ölkələrimizin müstəqilliyini bərpa etməsi ərəfəsində onların tarixinin çətin səhifələrini xatırlamaq burada yerinə düşər. Xalqlarımız çətin, bəzən faciəli dövrlər yaşamalı olub. Bununla belə, həm özbək, həm də Azərbaycan xalqları öz mənəvi dəyərlərini, milli qürur və mənliyini qoruyub saxlayıb, öz gələcəklərini özlərinin qurması hüququnu saxlayıblar. Çoxdan gözlənilən azadlığa doğru keçdiyimiz keşməkeşli yolu qiymətləndirərək inamla demək olar ki, xalqlarımızın müstəqilliyi və suverenliyi bizə baha başa gəlib. Azadlığın qiyməti həmişə nəsillərin taleyi, həyatı, onların inamı və vicdanı olub. Əldə edilmiş milli müstəqilliyi bu gün də layiqincə qiymətləndirmək, onu hərtərəfli möhkəmləndirmək və sonrakı nəsillərə çatdırmaq bizim müqəddəs borcumuzdur. Bu gün biz tarixin dərslərini nəzərə almaqla Heydər Əlirza oğlu Əliyevin nadir şəxsiyyətinə bir daha dərin ehtiramımızı bildiririk. Bir an və əbədiyyət öz aralarında ayrılmaz şəkildə bağlı olduğu kimi, Heydər Əliyevi də Azərbaycan xalqının tarixindən və onun həyatından ayırmaq olmaz.

Heydər Əliyev böyük Səməd Vurğunun ölməz misralarını tez-tez təkrarlayardı: "Ayrılarmı könül candan, Azərbaycan, Azərbaycan!". Buna görə də Heydər Əliyevin adı və obrazı bütün dünyada Azərbaycan xalqına xas olan bütün xeyirxah və nəcib keyfiyyətlərin rəmzi kimi qəbul edilir.

Ölkə həyatının ən dramatik dövründə Prezident seçilmiş Heydər Əliyev sülhə və sabitliyə, vətəndaş həmrəyliyinə nail oldu, bir çox onillik irəlicədən müasir Azərbaycanın inkişaf vektorunun əsasını qoydu, iqtisadiyyatı, elmi, təhsili əsaslı şəkildə irəlilədə bildi, milli dəyərlərin dirçəldilməsinə, Azərbaycan xalqının tolerantlıq ənənələrinin möhkəmlənməsinə şərait yaratdı. Nisbətən qısa müddətdə ölkədə yeni sahələr yaradıldı, onlarca iri zavod və fabrik tikildi, yüzlərlə məktəb, kitabxana, mədəniyyət sarayı və muzeylər açıldı. Azərbaycan sürətlə inkişaf etməyə başladı, demokratik hüquqi dövlət quruculuğu yoluna qədəm qoyaraq beynəlxalq arenada layiqli yer tutdu, yüksək nüfuz və hörmət qazandı.

Heydər Əliyev əsl vətənpərvər idi. Onun adının özü rəmzi məna daşıyır. Məlum olduğu kimi, Heydər "bələdçi" deməkdir. O, həqiqətən öz xalqının bələdçisi, lideri idi. O, öz fəaliyyətində böyük şair və mütəfəkkir Nizami Gəncəvinin müdrik sözlərinə istinad edərək

həmişə deyirdi: "Doğma torpağa sevgini özümə borc bilirəm". Bu, onun həyatının mənası idi. Onun ən böyük arzusu Azərbaycanın ərazi bütövlüyünün bərpa edilməsi, Cənubi Qafqazda möhkəm sülhün və sabitliyin bərqərar olması idi. Azərbaycan Prezidenti hörmətli İlham Heydər oğlu Əliyev tarixi ədaləti bərpa edərək bu arzunu uğurla həyata keçirdi.

Bütün bu illər ərzində Özbəkistan beynəlxalq hüquq əsasında Azərbaycanın ərazi bütövlüyü mövqeyində möhkəm dayanıb. Biz mümkün olan hər yerdə bu barədə danışmışıq, həmişə bunu qətiyyətlə və sərt şəkildə dəstəkləmişik. Bu Qələbə münasibətilə qardaş Azərbaycan xalqını özbək xalqı adından və şəxsən öz adımdan bir daha səmimi qəlbdən təbrik edirəm.

Heydər Əliyevin fəaliyyətini, onun sanballı şəxsiyyətini və böyük irsini dünyanın müxtəlif ölkələrinin görkəmli siyasətçiləri və ictimai xadimləri yüksək qiymətləndirirlər.

Hörmətli mərasim iştirakçıları, bizim ölkələrimiz arasında dostluq münasibətlərinin, iki xalqın tarixi əlaqələrinin inkişafına və möhkəmlənməsinə Heydər Əliyevin böyük töhfəsini xüsusi qeyd etmək istərdim. Onunla Özbəkistanın rəhbərləri Şərəf Rəşidoviç Rəşidov, daha sonra İslam Abduqəniyeviç Kərimov arasında etimada əsaslanan səmimi münasibətlər yaranmışdı. Bizim liderlər arasında dostluq iki ölkənin və iki qardaş xalqın sıx qarşılıqlı əlaqə saxlamasına, fəal mübadilələri, o cümlədən humanitar mübadilələri inkişaf etdirməsinə imkan verib. Azərbaycan xalqının Ümummilli Lideri özbək xalqına həmişə böyük hörmətlə yanaşırdı. Hərtərəfli savadlı və əsl ziyalı insan olan Heydər Əliyev bizim tariximizə, mədəniyyətimizə və ənənələrimizə səmimi heyranlığını bildirirdi. Məsələn, 1996-cı ildə Daşkənddə olarkən, Heydər Əliyev Teymurilər Tarixi Muzeyini ziyarət edərək Fəxri qonaqlar kitabında yazdığı qeyddə xüsusi olaraq vurğulamışdı: "Əmir Teymurun xidmətlərinə, onun tarixi irsinə qayğıkeş, hörmətli münasibətə görə Özbəkistan xalqı çox sağ olsun". Bu, yüksək mənəviyyat və müdriklik təzahürüdür.

Son illərdə bizim birgə səylərimiz sayəsində Özbəkistan ilə Azərbaycanın münasibətləri yüksək strateji tərəfdaşlıq səviyyəsinə çatıb, konkret məzmun kəsb edib. Hörmətli İlham Heydər oğlu, Sizə, xüsusən ölkələrimiz arasında əməkdaşlığın hərtərəfli möhkəmlənməsinə şəxsi diqqətinizə görə xüsusi minnətdarlığımı bildirmək istərdim. Əminəm ki, Sizin dövlət səfəriniz qarşılıqlı faydalı əlaqələrimizin daha da inkişafına yeni güclü təkan verəcək.

Əziz dostlar, bu gün Azərbaycanın Ümummilli Liderinin xoş adını xatırlayaraq, böyük özbək şairi Həmid Alimcanın sözlərini sitat gətirmək istəyirəm: "İnsanın xatirəsi yaşadıqca, o da yaşayır". Əminəm ki, bu sözlər həm Özbəkistanda, həm də Azərbaycanda qəbul edilir. Əminəm ki, dahi insana və vətənpərvərə, qurucu şəxsiyyətə, bu gün həm Azərbaycanda, həm də Özbəkistanda gənclərin örnək hesab etdiyi Heydər Əlirza oğlu Əliyevə həsr edilmiş bu memorial kompleks ölkələrimizin və xalqlarımızın sarsılmaz dostluğunun parlaq simvolu olacaq, bizim doğma Özbəkistanın sakinləri və qonaqları üçün ziyarətgaha çevriləcək. Bir daha səmimi minnətdarlığımı bildirmək istəyirəm. Biz bu səfərə çoxdan hazırlaşırdıq. Obyektiv səbəblər olub, pandemiya olub. Demək istəyirəm ki, İlham Heydər oğlu pandemiyadan sonra ilk rəsmi səfərini məhz Özbəkistana edir. Bu, çox rəmzi məna daşıyır. Bir daha demək istəyirəm: "Özbəkistana xoş gəlmisiniz".

Bu gün Özbəkistanın bütün sakinləri, bütün xalq Sizi gözləyir. Fikrimcə, bu səfər həqiqətən tarixi səfər olacaq. Əlbəttə, bu gün biz hər şey haqqında söhbət edəcəyik. Bu, bizim qarşılıqlı münasibətlərimizə böyük təkan verəcək və gələcəkdə biz öz münasibətlərimizi tamamilə başqa səviyyəyə çatdıracağıq, ona görə ki, biz buna çoxdan hazırlaşırdıq. Cənab Prezident, Özbəkistana xoş gəlmisiniz.

İndi isə sözü məmnuniyyətlə Azərbaycan Prezidenti İlham Heydər oğlu Əliyevə verirəm.

### Azərbaycan Prezidenti İlham Əliyevin çıxışı

– Hörmətli Şavkat Miromonoviç.

Əziz dostlar.

İlk növbədə, qardaş Özbəkistana səfərə dəvətə görə Şavkat Miromonoviçə dərin təşəkkürümü bildirmək istərdim. Şavkat Miromonoviçin qeyd etdiyi kimi, pandemiya ilə əlaqədar mən özümün bütün rəsmi səfərlərimi dayandırdım, iki ildən artıq müddətdə rəsmi səfərlər etmədim. Pandemiya ilə bağlı vəziyyət imkan verəndən sonra mən ilk rəsmi səfərimi qardaş Özbəkistana edirəm. Bu, bizim münasibətlərimizin təzahürü, xalqlarımızın qardaşlığının və dostluğunun təzahürüdür.

Əziz qardaşım Şavkat Miromonoviçin bu təşəbbüsünə, Daşkəndin mərkəzində atam Heydər Əliyevin xatirəsinə həsr edilmiş belə gözəl guşə yaradılmasına görə ona çox təşəkkür edirəm. Küçə, meydan, barelyef, gözəl park – bunlar Azərbaycan xalqının böyük Liderinin xatirəsinə, bütün Azərbaycan xalqına həqiqi qardaşlıq münasibətidir. Biz Azərbaycanda bunu çox yüksək qiymətləndiririk, çox təşəkkür edirik və bunu özbək qardaşlarımızın bizim Ulu Öndərə, ortaq tariximizə həqiqətən qardaşcasına münasibəti hesab edirik. Bu, həm də Heydər Əliyevin bütün həyatını həsr etdiyi bütün Azərbaycan xalqına hörmətdir. Mən atam haqqında səmimi sözlərinə görə Şavkat Miromonoviçə

çox təşəkkür edirəm. O, bizim Liderimizi çox sanballı və dəqiq səciyyələndirdi. Heydər Əliyev bütün həyatını Azərbaycana xidmətə həsr edib. Sovet dönəmində də, müstəqillik dövründə də həmişə xalqın yanında olub. Ən ağır dövrdə, xalqımız təcavüzə, təqiblərə məruz qaldığı vaxtlarda o, həmişə xalqın yanında olub. 1990-cı il yanvarın 20-də, Sovet İttifaqının parçalanmasından hələ iki il əvvəl o, sovet ordusunun Bakıya yeridilməsi, Azərbaycanın yüzlərlə günahsız vətəndaşının öldürülməsi və yaralanması ilə əlaqədar sovet rəhbərliyini açıq pisləmişdi. Bu, böyük siyasi əzmkarlıq tələb edirdi. Ona görə ki, o vaxt Sovet İttifaqının tarixə qovuşacağına hələ nə qədər qaldığı məlum deyildi. O, bunu etdi. Ən çətin dövrdə, Naxçıvan Muxtar Respublikası təcavüzə məruz qalanda da o, öz xalqının yanında idi. Naxçıvan Muxtar Respublikasına rəhbərlik edərkən əslində o, Azərbaycanın bu tarixi hissəsini, qədim torpağını təcavüzdən müdafiə etdi. Yenə onun təşəbbüsü ilə 1918-1920-ci illərdə mövcud olmuş Azərbaycan Xalq Cümhuriyyətinin bayrağı məhz Naxçıvanda, Sovet İttifaqı dağılandan və Azərbaycan öz müstəqilliyini bərpa edəndən xeyli əvvəl dövlət bayrağı kimi rəsmən qəbul edilib.

Vətəndaş müharibəsi dövründə xalqın iradəsi ilə məhz Heydər Əliyev 1993-cü ildə vətəndaş müharibəsini dayandırdı və ölkəmizi inkişaf yoluna çıxartdı. Azərbaycanda dövlətçiliyin möhkəmlənməsi, islahatlar, inkişaf – bütün bunlar onun adı ilə bağlıdır və biz fəxr edirik ki, onun işini davam etdiririk. Vəfatından bir qədər əvvəl öz siyasi vəsiyyətində Azərbaycan xalqına müraciətlə demişdi: “Mənim edə bilmədiklərimi mənim davamçılarım edəcəklər”. Biz, onun davamçıları fəxr edirik ki, onun bütün vəsiyyətlərini həyata keçirmişik və ilk növbədə, tarixi ədaləti bərpa etmişik, Azərbaycanın ərazi bütövlüyünü bərpa etmişik.

Şavkat Miromonoviçin düzgün olaraq qeyd etdiyi kimi, Heydər Əliyev özbək xalqına böyük sevgi ilə yanaşırdı. Onun oğlu kimi, canlı şahid kimi təsdiq edə bilərəm ki, 1970-ci illərdə də onun Şərəf Rəşidoviç Rəşidov ilə dostluğu bütün sovet rəhbərliyinə məlum idi, 1990-cı illərdə də onun İslam Abduqəniyeviç Kərimov ilə dostluğu da xalqlarımıza məlum idi və bu, bizim münasibətlərimizin bugünkü inkişafının təməli idi. Şavkat Miromonoviç ilə biz də bu şanlı estafeti davam etdiririk. Biz xalqlarımızı inkişaf yolu ilə və sıx qarşılıqlı fəaliyyət yolu ilə aparırıq.

Mənim bugünkü dövlət səfərim təkcə bizim niyyətlərimizin təsdiqi deyil, həm də qardaşlıq, dostluq münasibətlərimizin möhkəm təməlinin təsdiqidir. Özbəkistanda Heydər Əliyevin özbək xalqına, Özbəkistana münasibətini çox yaxşı bilirlər. Bu gün biz mənim qardaşım Şavkat Miromonoviçin rəhbərliyi ilə Özbəkistanı müstəqil xarici siyasət kursu yürüdən, öz resurslarına güvənən, sosial-iqtisadi inkişafda böyük uğurlar qazanmış qüdrətli müstəqil dövlət kimi görməyə çox şadıq. Şavkat Miromonoviçin rəhbərliyi ilə Özbəkistanın müstəqilliyinin, müdafiə qabiliyyətinin, iqtisadi potensialının möhkəmlənməsi, sosial məsələlərin həlli, şəhərsalma sahələrində necə böyük uğurlar qazandığını görmək üçün son 5-6 ilə aid statistik rəqəmlərə baxmaq kifayətdir. Biz bütün bunları görürük və dostlar, qardaşlar kimi bütün bunlara görə sevinirik.

Mən Heydər Əliyevin xatirəsinə belə yüksək münasibətə görə bütün Azərbaycan xalqı adından bir daha, ilk növbədə, Özbəkistan Prezidentinə, qardaş özbək xalqına təşəkkürümü bildirmək istərdim. Biz Azərbaycanda bunu yüksək qiymətləndiririk və heç vaxt unutmayacağıq. Bu, Özbəkistan ilə Azərbaycan arasında qardaşlıq münasibətlərinin möhkəmlənməsinə daha bir töhfədir. Yaşasın Özbəkistan və Azərbaycan birliyi, qardaşlığı!

Sonra Özbəkistanın İstedadlı gənclərə dəstək üzrə Uluqbəy adına Respublika Fondunun rəhbəri, akademik Akil Səlimov çıxış edərək dedi:

– Hörmətli Azərbaycan Prezidenti İlham Heydər oğlu.

Hörmətli Özbəkistan Prezidenti Şavkat Miromonoviç.

Əziz qonaqlar, bu gün bu gözəl meydanda və bütün Özbəkistanda sevinc dolu yüksək əhval-ruhiyyə hökm sürür. Buraya toplaşanların hamısı tarixi hadisədə - paytaxtımızda Azərbaycan xalqının böyük oğlu Heydər Əliyevin şərəfinə yenilənmiş küçənin və abidənin təntənəli açılışında iştirak edirlər. Yaxşı yadımdadır, hələ 1970-ci illərdə Azərbaycan və Özbəkistan, Heydər Əliyev və Şərəf Rəşidoviç birbaşa, möhkəm əlaqələr yaratmağa çalışırdılar. İki respublika arasında dostluq körpüləri qurulurdu. Əlbəttə, bu nəcib işə bu böyük insanların qarşılıqlı anlaşması, səmimi dostluğu şərait yaradırdı. Bu halda onlar, heç şübhəsiz, xalqlarımızın çoxəsrlik, əsl qardaşlıq münasibətlərinə arxalanırdı.

İlk dəfə Heydər Əliyevin təşəbbüsü ilə Bakıda “Özbəkistan günləri” keçirildi. Deməliyəm ki, bu, həqiqətən cəsarətli addım idi, axı həmin dövrdə bütün qərarlar yalnız mərkəzdə qəbul edilirdi. Bakıda bizim respublikanın nümayəndə heyətini təntənəli şəkildə, böyük hörmət və ehtiramla qarşıladılar. “Özbəkistan günləri” keçirilən bütün həftə ərzində Heydər Əliyev çox məşğul olmasına baxmayaraq daim bizimlə birlikdə idi. Ona görə ki, Heydər Əliyev özbək xalqını, özbək mədəniyyətini, özbək incəsənətini çox sevirdi.

Sonrakı dövrdə respublikalarımız arasında mədəniyyət və incəsənət günlərinin keçirildiyini qeyd edən akademik Akil Səlimov bu tədbirlərin xalqlarımızın dostluq və qardaşlıq münasibətlərinin daha da inkişafına mühüm töhfələr verdiyini vurğulayaraq bildirdi:

– Bu forumların sayəsində xalqlarımız daha da yaxınlaşdı, bənzərsiz melodiyalar və mahnılar, bir-birimizin zəngin mədəni irsi daha çox sevildi. Daşkənddə

xalqlar dostluğuna həsr edilmiş konsertdə Özbəkistanın Xalq artisti Batır Zakirov tamaşaçıların xahişi ilə Azərbaycan haqqında, Bakı və Azərbaycan insanları haqqında mahnını dörd dəfə ifa etdi. Bu, iki xalq arasında dostluğun hərtərəfli möhkəmlənməsində Heydər Əliyevin görkəmli tarixi xidmətlərinin ən yüksək səviyyədə etiraf edilməsinin rəmzidir. Bu, bizim sarsılmaz qardaşlıq əlaqələrimizin, inkişaf etməkdə olan strateji tərəfdaşlığımızın, ümumi gələcək nailiyyətlərimizin rəmzidir.

Hazırda xalqlarımızın böyük qurucu qüvvəsi yeni Azərbaycanda və yeni Özbəkistanda həyata keçirilən geniş, əsaslı dəyişiklərdə xüsusilə parlaq şəkildə təzahür edir. Bu gün iki dövlət başçısı – möhtərəm İlham Heydər oğlu Əliyev və hörmətli Şavkat Miromonoviç Mirziyoyev bizim ikitərəfli əməkdaşlığımızı keyfiyyətcə yeni səviyyəyə çatdırıblar və dostluğumuzu yeni mühüm konkret işlərlə təsdiqləyirlər. Qoy bu sarsılmaz dostluq məşəli ölkələrimizin və xalqlarımızın rifahı naminə daim şölələsin!

Yaşasın Azərbaycan və Özbəkistan!

Mirabad rayonunun Temiryolçilar məhəllə komitəsinin sədri Mehriban Rəhimova çıxış edərək dedi:

– Əssəlamunaleykum hörmətli Şavkat Miromonoviç.

Xoş gördük Sizi, hörmətli İlham Heydər oğlu.

Siz bizim gözəl vətənimiz Özbəkistana xoş gəlmisiniz. Mən Özbəkistanın azərbaycanlı övladı Mehriban Ziyadxan qızı Azərbaycanın Şəki rayonunda doğulmuşam. On doqquz yaşımda Özbəkistana gəldim. Mən 41 ildir bu gözəl ölkədə yaşayıram. Mənə xalqım hörmət edib, bu məhəllədə sədr seçib və 15 ildir məhəllə komitəsinin sədriyəm.

M.Rəhimova təmsil etdiyi məhəllədə 3500-dən çox əhalinin yaşadığını, onların 70 faizinin azərbaycanlı olduğunu vurğulayıb. Özbəkistanda doğma Vətəndəki kimi yaşadıqlarını vurğulayan M.Rəhimova burada insana diqqət və qayğının, millətlərarası dostluğun dövlət siyasətinə çevirdiyini bildirib, azərbaycanlıların bu gözəl diyarda özlərini xoşbəxt hiss etdiklərini deyib:

– Mən anayam. Analar həm öz övladlarının, həm də bütün dünyanın xalqlarının dincliyini, xoşbəxtliyini daim Allahdan arzu edirlər. Canım Özbəkistandır, ana canım Azərbaycandır, hər ikisini eyni dərəcədə sevirəm. Əziz Prezidentimiz Şavkat Miromonoviç, Siz bizlərə bu gözəl bağı, babamız, atamız Heydər Əliyevin abidəsini bəxş etdiniz. Bu, Özbəkistanda yaşayan biz azərbaycanlılara olan böyük mükafatdır, hədiyyədir. Buna görə Sizə təşəkkür edirik.

Yaşasın Azərbaycan-Özbəkistan dostluğu! Bizim dostluğumuz əbədi olsun!

Özbəkistan Yazıçılar Birliyinin üzvü, əslən Şuşadan olan Əli Nəzərli əməyinin yüksək qiymətləndirildiyini, Özbəkistanın "Dostluq" ordeni ilə təltif olunduğunu vurğulayaraq dedi:

– Özbəkistanda yaşayan 41 min azərbaycanlının 3 min nəfəri mənim yaşadığım Sırdərya vilayətində yaşayır. Yeni Özbəkistanın böyük gələcəyi üçün hamımız birlikdə səmimi qəlbdən çalışırıq. Mən bir yaradıcı şəxs kimi bildirmək istəyirəm ki, bizim dostluq və qardaşlıq ənənələrimizin tarixi kökləri çox qədimdir. Bunu klassik şairlərimizin, alimlərimizin əsərlərində, onların bir-biri ilə münasibətlərində aydın görmək olar. Uzağa getməyək, astronomiya elminin dahisi Mirzə Uluqbəyin ən sevimli şagirdi Əli Quşçu azərbaycanlı olub. Möhtərəm ümummilli lider Heydər Əliyevin yurddaşı, Azərbaycanın böyük dramaturqu Hüseyn Cavid hələ 1925-ci ildə "Əmir Teymur" dramını yazıb.

Azərbaycan Prezidentinin səfərinin ölkələrimiz arasında münasibətlərin inkişafında yeni səhifə açdığını vurğulayan Ə.Nəzərli dedi:

– Hörmətli Şavkat Miromonoviç.

Hörməli İlham Heydəroğlu.

Bu gün Özbəkistan - Azərbaycan münasibətləri yeni bir mərhələyə qədəm qoydu. Əlaqələrimizə yeni nəfəs, yeni ruh verildi. Bu ruhun adı yüksəliş ruhudur. Mən inanıram ki, bu yüksəliş ruhu bu iki dövləti çox yaxın zamanlarda dünyanın ən tərəqqi edən dövlətlərinin qatarına qoşacaq.

Hörmətli Şavkat Miromonoviç.

Mən bu gün Azərbaycan xalqının ümummilli lideri Heydər Əliyevin abidəsinin, bu parkın açılışı bizim üçün fəxrdir. Bu yer bizim üçün dostluq və qardaşlıq məkanıdır. Əminəm ki, burada dostluğa və qardaşlığa xidmət edən əsərlər yaranacaq. Mən Sizə bunun üçün dərin minnətdarlığımı bildirirəm.

Azərbaycan, Özbəkistan,<br>
Bir ürəkdir, bir candır.<br>
İkisi də bizim üçün<br>
Əziz, doğma məkandır.

Yaşasın azərbaycanlıların və özbəklərin qardaşlığı, dostluğu!

Dövlət başçıları memorial kompleksin açılışını etdilər.

Daha sonra Prezident İlham Əliyev və Prezident Şavkat Mirziyoyev memorial kompleksin önünə gül dəstələri qoydular.

İyunun 21-də Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev və Özbəkistan Respublikasının Prezidenti Şavkat Mirziyoyev Daşkənddə Müstəqillik abidəsini ziyarət ediblər.

Prezident İlham Əliyev abidənin önünə əklil qoydu.

Məlumat verildi ki, Özbəkistanın müstəqilliyinin 30 illiyi münasibətilə ucaldılan abidə özbək xalqının üç min illik tarixini əks etdirir. Yeni abidə paytaxt yaxınlığında yerləşən, ölkənin müstəqilliyinin ildönümünə həsr olunan "Yangi Uzbekiston" ("Yeni Özbəkistan") kompleksinin mərkəzində yerləşir. Altmış metr hündürlüyündəki abidə görkəmli şəxsiyyətlərin həyat və fəaliyyəti ilə əlamətdar olan dövrü əks etdirir.

Abidə Özbəkistan Prezidenti Şavkat Mirziyoyevin tapşırığı ilə layihələndirilib. Bu abidədə Özbəkistan tarixində qədim vaxtlardan müasir dövrədək baş verən mühüm hadisələr təsvir edilib. Kompleksdə əsasən sərkərdə və döyüşçülərin, alim və mütəfəkkirlərin, maarifçilərin obrazları əks olunub. Müstəqillik abidəsini sülh, azadlıq, xeyirxahlıq və xoşbəxtliyi tərənnüm edən, qanadları geniş açılmış Humay quşunun obrazı tamamlayır.

Sonra prezidentlər xatirə şəkli çəkdirdilər.

İyunun 21-də Azərbaycan Respublikasının Prezidenti İlham Əliyevin Daşkənddəki "Kuksaroy" dövlət iqamətgahında rəsmi qarşılanma mərasimi olub.

Azərbaycanın və Özbəkistanın dövlət bayraqlarının dalğalandığı meydanda Prezident İlham Əliyevin şərəfinə fəxri qarovul dəstəsi düzülmüşdü.

Özbəkistan Respublikasının Prezidenti Şavkat Mirziyoyev Azərbaycan Respublikasının Prezidenti İlham Əliyevi qarşıladı.

Azərbaycanın və Özbəkistanın Dövlət himnləri səsləndi.

Fəxri qarovul dəstəsinin rəisi Azərbaycan Prezidentinə raport verdi.

Azərbaycan Prezidenti İlham Əliyev Özbəkistan əsgərlərini salamladı.

Prezidentlər fəxri qarovul dəstəsinin qarşısından keçdilər.

Özbəkistanın dövlət və hökumət nümayəndələri Prezident İlham Əliyevə, Azərbaycan nümayəndə heyətinin üzvləri isə Prezident Şavkat Mirziyoyeva təqdim edildi.

Fəxri qarovul dəstəsi hərbi marşın sədaları altında prezidentlərin qarşısından keçdi.

İyunun 21-də Azərbaycan Respublikasının Prezidenti İlham Əliyevin Özbəkistan Respublikasının Prezidenti Şavkat Mirziyoyev ilə məhdud tərkibdə görüşü olub.

Dövlət başçıları əvvəlcə birgə foto çəkdirdilər.

İyunun 21-də Azərbaycan Respublikasının Prezidenti İlham Əliyevin Özbəkistan Respublikasının Prezidenti Şavkat Mirziyoyev ilə geniş tərkibdə görüşü olub.

Dövlət başçıları görüşdə çıxış ediblər.

**President Şavkat Mirziyoyevin çıxışı**

– Hörmətli İlham Heydər oğlu.

Hörmətli nümayəndə heyətinin üzvləri. Sizi və Azərbaycan nümayəndə heyətini bir daha ürəkdən salamlayıram. Vurğulayım ki, Sizin hazırkı səfəriniz ikitərəfli münasibətlərimizin tarixində vacib əlamətdar hadisədir. Özbəkistana xoş gəlmisiniz.

Azərbaycan bizim üçün yaxın dost və zamanın sınağından çıxmış etibarlı strateji tərəfdaşdır. Ölkələrimizi ortaq din, mənəvi dəyərlər, oxşar ənənələr, dil və mədəniyyət birləşdirir ki, bu barədə bu gün biz məhdud tərkibdə keçirilən görüşdə çox ətraflı danışdıq. Biz Azərbaycanın sanballı uğurlarına Özbəkistanda həmişə ürəkdən sevinirik. Bu gün Sizin əldə etdiyiniz nailiyyətlər bütün dünyada tanınır. Mənim qardaşım, hörmətli İlham Heydər oğlu dahi atası Heydər Əliyevin işini davam etdirdi və Azərbaycan xalqının əzəli torpaqlarını geri qaytarmaqla tarixi ədaləti bərpa etdi. Bu gün Sizin rəhbərliyinizlə böyük quruculuq işləri aparılır. Bu torpaqlar bizim gözlərimiz qarşısında yenidən çiçəklənən diyara çevrilir. Biz bu nəcib işə öz töhfəmizi verməyə şad olarıq, bu barədə də məhdud tərkibdə keçirilən görüşdə danışdıq.

Hörmətli görüş iştirakçıları, İlham Heydər oğlu ilə keçirilən məhdud tərkibdə, məhdud formatlı bugünkü görüşdə fikrimcə, biz ikitərəfli münasibətlərimizin bütün məsələləri barədə çox əyani, açıq, səmimi söhbət etdik, hətta hansı istiqamətlər üzrə real nəticə olması üçün nə etməli və necə etməli olmağımız barədə danışdıq. Əlbəttə, son illər biz etimada əsaslanan dialoqumuzu və praktiki əlaqələrimizi əhəmiyyətli dərəcədə fəallaşdırmışıq. Bu gün mühüm siyasi sənəd – Strateji tərəfdaşlığın genişləndirilməsi və hərtərəfli əməkdaşlığın artırılması haqqında Bəyannamə qəbul olunacaq. Birləşmiş Millətlər Təşkilatı, Türk Dövlətləri Təşkilatı, Müstəqil Dövlətlər Birliyi, Avropada Təhlükəsizlik və Əməkdaşlıq Təşkilatı, Qoşulmama Hərəkatı və digər beynəlxalq təşkilatlar çərçivəsində sıx əlaqələrimiz mövcuddur. Biz ticarətdə, sənayedə, kooperasiyada dinamik artım müşahidə edirik. Biz yalnız bu gün bu barədə tənqidi, ciddi danışdıq, qeyd etdik ki, əslində, əmtəə dövriyyəsi 6 dəfə artıb, lakin bu barədə tənqidi fikirləşməyə dəyər və biz bu məsələləri çox ciddi təhlil etdik. Birgə müəssisələrin sayı 4 dəfə artıb. Uğurlu əlamətdar layihələr arasında Hacıqabulda avtomobillərin birgə istehsalının təşkilini və ipəkçilik sahəsində kooperasiyanı qeyd etmək olar. Lakin göstəricilər hələ çox cüzidir və iqtisadiyyatlarımızın bir-birini qarşılıqlı tamamlayan amillərinin mövcud böyük potensialından istifadə etməyin zəruri olduğunu göstərir.

Bizim görüşümüz ərəfəsində səmərəli biznesforum keçirilib, yarım milyard dollardan yuxarı həcmdə investisiya sazişləri və ticarət müqavilələri paketi imzalanıb. Onların arasında neft-qaz, neft-kimya sahələrində, energetika, əczaçılıq, tikinti materialları istehsalı, şərabçılıq, yeyinti, toxuculuq məhsullarının və zərgərlik məmulatlarının istehsalı üzrə perspektiv layihələr mövcuddur. Ələt Azad İqtisadi Zonasının bazasında sonradan Avropa İttifaqı bazarlarına çıxmaqla layihələrin icrası üçün imkan var.

Həmçinin razılığa gəldik ki, layihələrin icrası üçün birgə investisiya fondu yaradılacaq, artıq növbəti ayda onların sürətli həlli üzrə proqram tədbirlərinin qəbul edilməsi üçün hökumətlərarası komissiyanın iclası təşkil olunacaq.

Hörmətli nümayəndə heyətinin üzvləri, nəqliyyat və kommunikasiya sahəsində əməkdaşlığımız strateji xarakter daşıyır. Biz Azərbaycanın müasir nəqliyyat şəbəkəsindən, o cümlədən Bakı-Tbilisi-Qars dəmir yolundan istifadə edərək, yük daşımalarını bundan sonra da artırmaq niyyətindəyik. Bu, xüsusən, ərzaq və sənaye mallarının tranziti məsələlərinə aiddir.

Eyni zamanda, indiki reallıqlar alternativ dəhlizlərin formalaşmasını tələb edir. Bu baxımdan, Özbəkistan-Qırğızıstan-Çin və Termez-Məzari-Şərif-Kabil-Pişəvər dəmir yollarının tikintisi gələcəkdə ölkələrimizin Asiya-Sakit okean regionu və Cənubi Asiya dövlətlərinin 3 milyarddan çox istehlakçısı olan bazarlarına ən qısa yolla çıxışı təmin etməyə imkan verəcək. Biz bu istiqamətdə birinci dərəcəli məsələlərin həlli üçün nəqliyyat nazirlərinin rəhbərliyi ilə işçi qrupu yaratmaq barədə razılaşdıq. Biz həm də xarici işlər nazirlərinin rəhbərliyi ilə işçi qrupu yaratmaq barədə razılığa gəldik. Biz bu məsələləri uzatmırıq, ilk görüş gələn ay Daşkənddə olacaq. Əlbəttə, nəqliyyat nazirləri, investisiya və iqtisadiyyat nazirləri xarici işlər nazirlərinin himayədarlığı ilə işləyəcəklər. Fikrimcə, ona görə ki, bizim çox ciddi niyyətlərimiz var.

Kənd təsərrüfatında kooperasiyanın gücləndirilməsini çox vacib hesab edirəm. Söhbət ipək istehsalı üzrə klaster yaradılmasından, pambıqçılıq sahəsində layihələrdən, innovasiya araşdırmalarının tətbiqindən gedir. Bizim nazirlər bu günlərdə bütün perspektiv istiqamətlər üzrə yol xəritəsini razılaşdırmalı və vaxt var ikən öz təkliflərini verməlidirlər.

Çoxplanlı əməkdaşlığın genişlənməsində birbaşa regionlararası əlaqələrə mühüm rol ayrılır. Biz razılaşdıq ki, ən yaxın vaxtlarda paytaxtlarımız və iri şəhərlərimiz tərəfdaşlıq münasibətləri quracaqlar. Bu gün baza sazişi imzalanacaq. Bundan əlavə, bu il Daşkənddə regionların birinci forumunu və onların sənaye potensialı sərgisini keçirməyi təklif edirik.

Humanitar məsələlərdə mütəmadi olaraq qarşılıqlı Mədəniyyət və Kino Günləri keçirmək, ali məktəblər, elmi müəssisələr, idman və gənclər təşkilatları arasında mübadilələri və əlaqələri genişləndirmək lazımdır. İşgüzar və humanitar əlaqələrin möhkəmlənməsi turizm sahəsində əməkdaşlığın genişlənməsinə şərait yaradacaq. Azərbaycan Prezidentinin turizm üzrə ayrıca proqram qəbul edilməsinə xüsusi diqqətinə, bu təklifi dəstəkləməsinə görə ona minnətdaram. Bu il birgə Özbəkistan-Azərbaycan turizm yarmarkası keçirilməsini təklif edirik. Biz çox zəngin mədəni irs abidələrimizin bərpası və qorunub saxlanması sahəsində sıx qarşılıqlı faydalı əməkdaşlığı da inkişaf etdirməyə hazırıq.

Bundan əlavə, bu gün hərbi və hərbi-texniki əməkdaşlıq sahəsində mühüm sənəd qəbul ediləcək. Müdafiə nazirləri artıq bu gün bizim bu sazişlərin reallaşdırılması üzrə birinci dərəcəli addımları müəyyən etməlidirlər.

Hörmətli İlham Heydər oğlu, hörmətli nümayəndə heyətinin üzvləri. Bir daha vurğulamaq istərdim ki, ölkələrimiz çox böyük potensiala malikdir. Bu gün biz məhdud tərkibdə görüşdə bütün istiqamətlər üzrə potensiallarımızı bir daha çox ətraflı müzakirə etdik və hökumətlərarası komissiyaların həmsədrlərinə və ya sədrlərinə tapşırıqlar verdik ki, ən yaxın vaxtda, bu ilin noyabrında Səmərqənddə keçiriləcək görüşə qədər real nəticə olsun. Ən başlıcası, biz qarşılıqlı münasibətlərimizin müsbət təcrübəsini qazanaq. Nümayəndə heyətinin bütün üzvlərinə demək istəyirəm ki, indiyə qədər bizim bu cür etimada əsaslanan açıq söhbətimiz olmayıb. Bu gün biz çox səmimi formada açıq etiraf etdik ki, çox böyük imkanlarımız var, lakin təəssüf ki, nəticələr azdır. Bu nəticələr onu göstərir ki, İlham Heydər oğlunun tarixi səfəri özlüyündə bizim münasibətlərə yeni təkan verməlidir. Mən bizim bugünkü danışıqlardan tam razıyam, çünki istəyirdim ki, bu görüş tarixi olsun – bu, həqiqətən tarixidir, bu mənada ki, bizim qarşılıqlı münasibətlərimizin böyük potensialında böyük iz qoyacaq və bu, real nəticə olacaq.

İlham Heydər oğlu, Sizi Özbəkistanda bir daha salamlayıram və məmnuniyyətlə sözü Sizə verirəm.

**Prezident İlham Əliyevin çıxışı**

– Sağ olun, hörmətli Şavkat Miromonoviç, hörmətli özbək qardaşlar.

İlk növbədə, qonaqpərvərliyə və dəvətə görə bir daha təşəkkür etmək istərdim. Mən qardaş Özbəkistana səfər etməyimə və gələcək qarşılıqlı fəaliyyətimizin mühüm məsələlərini Sizinlə müzakirə etmək imkanına malik olduğuma görə çox şadam. Bu səfər həqiqətən tarixi səfərdir. Mən Şavkat Miromonoviçin çıxışında qeyd etdiyi istiqamətlər üzrə onun fikirləri ilə tamamilə şərikəm. Biz münasibətlərimizin gələcək hərtərəfli inkişafının əsasını qoyuruq. Dünən və bu gün bizim həyat fəaliyyətimizin demək olar ki, bütün mühüm sahələrini əhatə edən 20-yə yaxın sənəd imzalanıb və imzalanacaq. Bir də, əlbəttə, siyasi sənəd – bizim inkişafımızı çox illər əvvəlcədən istiqamətini müəyyən edən birgə Bəyannamə.

Qarşılıqlı iqtisadi fəaliyyət məsələlərinə gəldikdə, mən Şavkat Miromonoviçin dedikləri ilə həmrəyəm. Biz əlaqələrimizi intensivləşdirməliyik. Nazirlərə müvafiq tapşırıqlar verilib. Əminəm ki, hər bir istiqamət – iqtisadi qarşılıqlı fəaliyyət, əmtəə dövriyyəsinin artırılması, nəqliyyat-logistika sferası, energetika üzrə yaxşı nəticələr olacaq. Biz, iki Prezident qərara aldıq ki, tapşırıqlarımızın yerinə yetirilməsini özümüz nəzarətdə saxlayacağıq və müvafiq nazirliklər müntəzəm surətdə

irəliləyiş barədə bizə məruzə edəcəklər. Bu yolla biz ticari-iqtisadi sahədə və təkcə bu sahədə deyil, ciddi tərəqqiyə nail ola bilərik. Ona görə ki, bu gün biz qarşılıqlı beynəlxalq fəaliyyətin mühüm məsələlərini müzakirə etdik və əlbəttə, bütün beynəlxalq strukturlarda daimi qarşılıqlı dəstəyi böyük məmnunluqla qeyd edirik. Şavkat Miromonoviç bizim əməkdaşlıq etdiyimiz təşkilatlar barədə danışdı. Biz həqiqətən dostlar, qardaşlar kimi əməkdaşlıq edirik, bir-birimizi dəstəkləyirik.

Mən, həmçinin Azərbaycanın ərazi bütövlüyünün bərpası işində Azərbaycanı dəstəklədiyinizə görə ayrıca təşəkkürümü bildirmək istərdim. Azərbaycan xalqı ən ağır dövrdə özbək xalqının qardaşlıq dəstəyini hiss edirdi və mən Azərbaycan Prezidenti kimi qardaşım Şavkat Miromonoviçin qardaşlıq dəstəyini həmişə hiss edirdim. Bu, bizim üçün çox qiymətlidir, bunlar bizim münasibətlərimizin tarixində unudulmaz hadisələrdir.

Əlbəttə, dünyadakı vəziyyət nəzərə alınmaqla hər bir ölkə müdafiə qabiliyyətini möhkəmlətməyə çalışmalıdır. Bu gün Şavkat Miromonoviç ilə dialoqumuzun bir hissəsi bu məsələyə həsr edilib. Müvafiq tapşırıqlar verilib. Düşünürəm ki, hərbi əməkdaşlıq, hərbi-texniki əməkdaşlıq, habelə hərbi təhsil sahəsində əməkdaşlıq istiqamətində əlavə addımlar atılacaq. Mənim fikrimcə, bu sahədə də qarşılıqlı fəaliyyətimiz möhkəmlənəcək, çünki həm Özbəkistanda, həm də Azərbaycanda elə mövzular var ki, onları müzakirə etmək lazımdır, kənar təhdidlər var, ölkələrimiz və xalqlarımız onlarla üzləşməli olurlar. Buna görə də düşünürəm ki, bu sahədə təcrübə mübadiləsi və praktiki qarşılıqlı fəaliyyət həmişəkindən daha vacib olacaq.

Azərbaycanda ipəkçiliyin inkişafı ilə bağlı məsələlərin operativ həllinə görə Şavkat Miromonoviçə təşəkkür edirəm. Mən dəstək üçün müraciət edəndə dərhal kömək göstərildi və bu, həmin sahəni inkişaf yoluna çıxarmaq üçün addımlar atmağımıza imkan verdi. Biz bu gün həm də kənd təsərrüfatı fəaliyyətinin başqa istiqamətləri ilə bağlı məsələləri müzakirə etdik. Əminəm ki, bu istiqamətlər üzrə də mühüm uğurlar əldə ediləcək. Əlbəttə, mən səfərdən əvvəl də, səfər çərçivəsində də Özbəkistanın bugünkü sənaye potensialı haqqında çox eşitmişəm. Bu gün sənaye potensialı, onun bir hissəsi ilə texnoparkda tanış olmaq imkanı olacaq. Əminəm ki, bu, müştərək layihələrin praktiki reallaşdırılması baxımından da bizim kooperasiyamız üçün çox vacibdir. Qarşılıqlı ünsiyyət çərçivəsində görürük ki, artıq yaxşı elementlər var. Konkret olaraq Hacıqabulda avtomobil zavodu. Mənə bu gün deyildi ki, avtomobil istehsalı nomenklaturunu genişləndirmək və istehsal edilən avtomobillərin sayını artırmaq planlaşdırılır. Özbəkistan haqlı olaraq bu müəssisə ilə fəxr edə bilər. Bilirəm ki, Özbəkistanda belə müəssisələr az deyil.

Qarabağın bərpası işində qardaş köməyinə görə, Prezident Şavkat Miromonoviçin işğaldan azad edilmiş Füzuli şəhərində hədiyyə kimi məktəb tikmək qərarına görə də ayrıca təşəkkürümü bildirmək istərdim. İşlər artıq başlanıb və növbəti tədris ilinə qədər məktəbin istifadəyə verilməsi planlaşdırılır. Biz bunu çox yüksək qiymətləndiririk. Bu, bizə verilmiş ilk belə böyük hədiyyədir. Biz Qarabağı hələlik öz gücümüzlə bərpa edirik. Əlbəttə, qardaşlıq münasibəti bizim üçün çox qiymətlidir. Ona görə ki, İkinci Qarabağ müharibəsi başa çatandan dərhal sonra biz Şavkat Miromonoviçlə görüşəndə o, belə bir təşəbbüs irəli sürdü və bu təklif minnətdarlıqla qəbul edildi. Bu məktəb praktiki baxımdan həm də bizim qardaşlığımızın rəmzi olacaq, yüzilliklər boyu Azərbaycan xalqının xatirində qalacaq.

Mən Şavkat Miromonoviçin apardığı islahatları – Özbəkistanın investisiya baxımından cəlbediciliyinin, sənaye potensialının artırılması, sosial məsələlərin həlli üzrə apardığı islahatları çox yüksək qiymətləndirirəm. Biz müxtəlif beynəlxalq tədbirlər çərçivəsində, o cümlədən Bakıda da dəfələrlə görüşmüşük, fikir mübadiləsi aparmışıq. Əlbəttə, Özbəkistan kimi müsbət demoqrafik dinamikaya malik olan ölkə bu təhdidlərin öhdəsindən gəlir. Sənaye istehsalı, iş yerləri, xalqın sosial rifahı – bütün bu mövzular daim Prezidentin diqqət mərkəzindədir və Azərbaycanda biz də, əminəm ki, Özbəkistan sakinləri də bu istiqamətlərdə böyük nailiyyətlər, böyük tərəqqi görürlər. Biz buna şadıq. Biz dostlar kimi, qardaşlar kimi Sizin uğurlarınıza sevinirik. Əminik ki, qardaş özbək xalqının ardıcıl inkişafı davam edəcək. Biz də, əlbəttə, öz tərəfimizdən qarşılıqlı fəaliyyətimizi genişləndirmək üçün səy göstərəcəyik. Biz bu gün çox mövzular barədə ətraflı söhbət etdik. Ən başlıcası odur ki, bütün tapşırıqların yerinə yetirilməsinə nəzarət edəcəyik.

Qonaqpərvərliyə görə bir daha sağ olun. Ümidvaram ki, bu gün də, sabah da Sizinlə bu fəal, səmərəli dialoqu davam etdirəcəyik.

Prezident Şavkat Mirziyoyev: Bir daha sağ olun, İlham Heydər oğlu. Özbəkistanda son illərdə aparılmış islahatlara qiymət verildi. Əlbəttə, biz indi çox mürəkkəb dövrdə yaşayırıq və bu mürəkkəb dövrdə biz bir-birimizi tapmalıyıq.

İyunun 21-də Daşkənddə geniş tərkibdə görüş başa çatdıqdan sonra Azərbaycan Respublikasının Prezidenti İlham Əliyevin və Özbəkistan Respublikasının Prezidenti Şavkat Mirziyoyevin iştirakı ilə Azərbaycan-Özbəkistan sənədlərinin imzalanması mərasimi olub.

"Azərbaycan Respublikası ilə Özbəkistan Respublikası arasında strateji tərəfdaşlığın dərinləşdirilməsi və hərtərəfli əməkdaşlığın genişləndirilməsi haqqında Bəyannamə"ni Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev və Özbəkistan Respublikasının Prezidenti Şavkat Mirziyoyev imzaladılar.

"Azərbaycan Respublikasının Əmək və Əhalinin Sosial Müdafiəsi Nazirliyi ilə Özbəkistan Respublikasının Məşğulluq və Əmək Münasibətləri Nazirliyi arasında Anlaşma Memorandumu"nu Azərbaycanın əmək və əhalinin sosial müdafiəsi naziri Sahil Babayev və Özbəkistanın məşğulluq və əmək münasibətləri naziri Nozim Xusanov imzaladılar.

"Azərbaycan Respublikasının Rəqəmsal İnkişaf və Nəqliyyat Nazirliyi və Özbəkistan Respublikasının İnnovativ İnkişaf Nazirliyi arasında Anlaşma Memorandumu"nu Azərbaycanın rəqəmsal inkişaf və nəqliyyat naziri Rəşad Nəbiyev və Özbəkistanın innovativ inkişaf naziri İbroxim Abduraxmonov imzaladılar.

"Azərbaycan Respublikası Hökuməti ilə Özbəkistan Respublikası Hökuməti arasında bitki karantini və mühafizəsi sahəsində əməkdaşlıq haqqında Saziş"i Azərbaycanın kənd təsərrüfatı naziri İnam Kərimov və Özbəkistanın Karantin Və Bitkilərin Mühafizəsi Agentliyinin baş direktoru İbrahim İrqaşev imzaladılar.

"Azərbaycan Respublikası Hökuməti ilə Özbəkistan Respublikası Hökuməti arasında sənaye mülkiyyətinin mühafizəsi sahəsində əməkdaşlıq haqqında Saziş"i Azərbaycanın iqtisadiyyat naziri Mikayıl Cabbarov və Özbəkistanın ədliyyə naziri Ruslanbek Davletov imzaladılar.

"Azərbaycan Respublikası Hökuməti ilə Özbəkistan Respublikası Hökuməti arasında beynəlxalq avtomobil əlaqələri haqqında Saziş"i Azərbaycanın rəqəmsal inkişaf və nəqliyyat naziri Rəşad Nəbiyev və Özbəkistanın nəqliyyat naziri İlxam Maxkamov imzaladılar.

"Azərbaycan Respublikası Hökuməti ilə Özbəkistan Respublikası Hökuməti arasında hərbi sahədə əməkdaşlıq haqqında Saziş"i və "Azərbaycan Respublikası Hökuməti ilə Özbəkistan Respublikası Hökuməti arasında hərbi-texniki əməkdaşlıq haqqında Saziş"i Azərbaycanın müdafiə naziri Zakir Həsənov və Özbəkistanın müdafiə naziri Baxodir Kurbanov imzaladılar.

"Azərbaycan Respublikası Hökuməti ilə Özbəkistan Respublikası Hökuməti arasında qanunsuz miqrasiyaya qarşı mübarizə sahəsində əməkdaşlıq haqqında Saziş"i və "Azərbaycan Respublikasının Xarici İşlər Nazirliyi ilə Özbəkistan Respublikasının Xarici İşlər Nazirliyi arasında 2022-2024-ci illər üzrə əməkdaşlıq Proqramı"nı Azərbaycanın xarici işlər naziri Ceyhun Bayramov və Özbəkistanın xarici işlər nazirinin vəzifələrini icra edən Vladimir Norov imzaladılar.

"Azərbaycan Respublikası Hökuməti ilə Özbəkistan Respublikası Hökuməti arasında sənaye sahəsində əməkdaşlıq haqqında Saziş"i və "Azərbaycan Respublikası Hökuməti və Özbəkistan Respublikası Hökuməti arasında regionlararası əməkdaşlıq haqqında Saziş"i Azərbaycanın iqtisadiyyat naziri Mikayıl Cabbarov və Özbəkistanın Baş nazirinin müavini, investisiyalar və xarici ticarət naziri Sardor Umurzakov imzaladılar.

İyunun 21-də Daşkənddə sənədlərin imzalanması mərasimi başa çatdıqdan sonra Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev və Özbəkistan Respublikasının Prezidenti Şavkat Mirziyoyev mətbuata bəyanatlarla çıxış ediblər.

Əvvəlcə Özbəkistan dövlətinin başçısı bəyanatla çıxış edib.

**Prezident Şavkat Mirziyoyevin bəyanatı**

– Hörmətli İlham Heydər oğlu.

Hörmətli kütləvi informasiya vasitələrinin nümayəndələri.

Azərbaycan Respublikasının Prezidenti hörmətli İlham Heydər oğlu Əliyevi və Azərbaycan nümayəndə heyətinin bütün üzvlərini qonaqpərvər Özbəkistan torpağında bir daha səmimiyyətlə salamlamaq istəyirəm. Özbəkistana bir daha xoş gəlmisiniz.

Özbəkistanda Azərbaycan ilə ənənəvi dostluq, etimad və qarşılıqlı anlaşma münasibətlərinə xüsusi qiymət verirlər. Bu münasibətlərin əsasını ortaq mənəvi dəyərlər, din, oxşar mədəniyyətlər və dil təşkil edir. Xalqlarımızı çoxəsrlik tarix bağlayır. Əhməd Fərqaninin və Əbu Reyhan Büruninin elmi əsərlərində Azərbaycanın bir çox şəhərləri xatırlanır, bu şəhərlərdə Şərq və Qərb sivilizasiyaları bir-birinə qarşılıqlı təsir göstərir. Bizim Şərqşünaslıq İnstitutunun fondlarında Nizami, Xaqani, Tusi, Füzuli, Xətai və bir çox başqa Azərbaycan şairlərinin və mütəfəkkirlərinin onlarca nadir əlyazmaları qayğı ilə qorunub saxlanır. Füzulinin əlyazmalarından birini mən bu gün hörmətli İlham Heydər oğluna hədiyyə etdim. Fikrimcə, bu, bizim sərvətimizdir. Özbəkistanda belə əlyazmalar çoxdur. Bu, bir daha onu göstərir ki, özbək xalqı əsrlər boyu Azərbaycan mədəniyyətinə böyük hörmət və maraq bəsləyir. Xüsusi qeyd etmək istəyirəm ki, özbək ədəbiyyatının və poeziyasının banisi Əlişir Nəvai böyük Nizami Gəncəvinin əsərlərindən ilham alırdı, Nizamini "şairlərin şahı" adlandırırdı. O, Nizamiyə belə qiymət verirdi.

İki xalqın qarşılıqlı münasibətlərinin şanlı tarixi bizim günlərdə də çoxtərəfli əməkdaşlığı inkişaf etdirmək üçün möhkəm təməl yaradıb. Rəmzi haldır ki, budəfəki səfər Azərbaycanın ümummilli lideri Heydər Əlirza oğlu Əliyevin ölkəmizə birinci rəsmi səfərindən düz 25 il sonra keçirilir. Bu gün bizim əziz qonağımız hörmətli Prezidentlə birlikdə Heydər Əliyevin adını daşıyan yenilənmiş küçəni və orada qoyulmuş abidəni açmaq məndən ötrü böyük şərəf oldu. Bu, öz xalqının həqiqi liderinə və Özbəkistanın yaxın dostu olmuş dahi insanın xatirəsinə bizim ehtiramımızın əlamətidir.

Hörmətli jurnalistlər, məhdud tərkibdə və geniş formatda görüşlərdə biz ikitərəfli münasibətlərimizə aid məsələləri ətraflı müzakirə etdik. Sizə demək istəyirəm ki, biz bütün istiqamətlər üzrə çox səmimi, etimada əsaslanmaqla, çox diqqətlə, obrazlı desək əlimizə qələm götürərək münasibətlərimizi bundan sonra necə irəlilətməli olduğumuzu dedik ki, bu münasibətlər həqiqətən strateji səviyyəyə çatsın və İlham Heydər oğlunun Özbəkistana bugünkü tarixi səfərindən real nəticə əldə edilsin. Fikrimcə, geniş tərkibdə görüşdə də bizim nümayəndə heyətlərinin hər bir üzvünə nə istədiyimiz, necə işləyəcəyimiz barədə ətraflı məlumat verildi və biz razılığa gəldik ki, iki prezident hər ay işlərin gedişini yoxlayacaq. Ona görə ki, bizim hökumətlərarası komissiyaların sədrləri, həmsədrləri hər ay fikir mübadiləsi aparacaqlar. Biz hətta razılığa gəldik ki, başlanğıc mərhələdə həmsədrlər ayda bir dəfə görüşəcək, real nəticə olması üçün vəziyyəti yoxlayacaqlar. Biz bunu nə üçün edirik? Ona görə ki, biz həqiqətən münasibətlərimizi tamamilə yeni səviyyəyə qaldırırıq. Bunu nə üçün edirik? İstəyirik ki, real nəticə olsun, iki ölkənin xalqları bunu hiss etsin.

Fikrimcə, bizim ümumi səylərimiz və daha yaxınlaşma istəyimiz sayəsində Özbəkistan ilə Azərbaycan arasında münasibətlər açıq, geniş əhatəli xarakter kəsb edib, ticari-iqtisadi, parlamentlərarası, mədəni-humanitar və regionlararası əməkdaşlıq fəallaşıb. Bir daha demək istəyirəm, budəfəki danışıqlar göstərdi ki, biz xalqlarımızın mənafeyi naminə qarşılıqlı fəaliyyəti bundan sonra da hərtərəfli möhkəmləndirməyə hazırıq.

Siz indicə sanballı sənədlər paketinin imzalanmasının şahidi oldunuz. Onların arasında Strateji tərəfdaşlığın dərinləşməsi və hərtərəfli əməkdaşlığın genişləndirilməsi barədə Bəyannamə ikitərəfli münasi-bətlərdə yeni mərhələ açır. Biz, həmçinin qarşılıqlı fəaliyyətin əsas istiqamətlərini müəyyən etdik. Bizim ən mühüm prioritetimiz ticarəti və sənaye kooperasiyasını genişləndirməkdir. Bu istiqamətdə ciddi irəliləyişlər müşahidə edirik.

Bu gün biz razılaşdıq ki, komandalarımızın və ya nümayəndə heyətlərimizin hazırladığı rəqəmlər üzərində dayanmayacağıq, çünki rəqəmlər heç nə demir. Əlbəttə, mən deyə bilərəm ki, onlar altı dəfə artıb, lakin məcmu halda onlar bizim münasibətlərimizə, imkanlarımıza uyğun gəlmirsə və deyiriksə ki, sıfırdan başlayaq, çox real, bütün istiqamətlərdə, iqtisadiyyatımızın bütün sahələrində geniş əhatəli layihələri inkişaf etdirəcəyik. Bir daha demək istəyirəm, biz qarşılıqlı fəaliyyətimizi əsaslı şəkildə fəallaşdırmaq barədə razılığa gəldik. Bundan ötrü bizim geniş imkanlarımız, hər şeydən əvvəl iqtisadiyyatlarımızın qarşılıqlı tamamlanması amili var. Bu ərəfədə keçirilmiş biznesforumun yekunlarına əsasən yarım milyard dollardan artıq məbləğdə sazişlər və kontraktlar imzalanıb. Əlbəttə, yarım milyard rəqəmi nəyəsə dəlalət edir, lakin o, bizim imkanlarımıza müvafiq deyil.

Kooperasiya layihələrinə xüsusi diqqət yetiriləcək. Bildiyiniz kimi, biz Hacıqabulda avtomobillərin birgə istehsalını uğurla nizamlamışıq. İpəkçilik sahəsində əməkdaşlığı inkişaf etdiririk. Avtomobilqayırma üzrə razılığa gəldik ki, yeni istiqamətlər üzrə buraxılışı genişləndirəcəyik, ona görə ki, bizim artıq təcrübəmiz, tam qarşılıqlı anlaşma və tam etimad var. Biz dedik ki, bu sahəni hər iki tərəfdən dəstəkləyəcəyik. Hasilat, neft kimyası, əczaçılıq, tikinti materialları və hazır tekstil malları, qida məhsulları, zərgərlik məmulatları istehsalı və şərabçılıq sahələrində onlarca yeni layihə üzərində işləyirik. Bu məqsədlə artıq cari ildə birgə investisiya fondunu işə salmaq barədə razılığa gəldik. Biz, həmçinin hökumətlərarası birgə komissiyaya sənaye kooperasiyası proqramını qəbul etməyi tapşırdıq.

Digər strateji istiqamət nəqliyyat kommunikasiyalarının inkişafıdır. Bu gün, o cümlədən Bakı-Tbilisi-Qars dəmir yolu ilə yük daşımaların həcmi artır. Biz yeni dəhlizləri inkişaf etdirmək, multimodal daşımaları artırmaq, ölkələrimizin nəqliyyat müəssisələri üçün əlverişli şərait yaratmaq barədə razılığa gəldik. İqlimlə bağlı təhdidlərin və ərzaq təhlükəsizliyi problemlərinin artması fonunda biz kənd təsərrüfatı sahəsində daha sıx işləmək niyyətindəyik. Elmi və innovasiya araşdırmalarını fəal surətdə bölüşəcək, aqrosektorun rəqəmsallaşdırılması üzrə qarşılıqlı fəaliyyəti nizamlayacaq, investisiya layihələrini həyata keçirəcəyik. Kənd təsərrüfatında konkret olaraq hansı sahələrdə işləmək və hansı sahələrin daha tez nəticə verməsi, hansı istiqamətlərdə bir-birimizi tamamlamaq barədə də razılaşdıq. Azərbaycanda kənd təsərrüfatında rəqəmsallaşma çox inkişaf edib və biz dedik ki, kənd təsərrüfatında rəqəmsallaşmanın bu təcrübəsini öyrənmək bizim üçün çox faydalı olardı.

Danışıqlarda regionlararası əlaqələrin fəallaşdırılmasına xüsusi diqqət yetirilib. Bu gün bizim şəhərlər və regionlar arasında birbaşa əlaqələr üçün geniş imkanlar yaradan saziş imzalanıb. Regionların birinci forumunu keçirməyi, ilk növbədə, ticarət, innovasiyalar, mədəniyyət, turizm sahələrində sıx əlaqələr yaratmağı planlaşdırırıq. Mədəni-humanitar sahədə də bizi qədimdən bağlayan ümumi cəhətlər çoxdur. Özbəkistanda Azərbaycan muğamını, Azərbaycanda isə bizim məqamları nəinki məmnuniyyətlə dinləyir, həm də ifa edirlər. Azərbaycan və özbək estradası hər iki ölkədə çox populyardır. Biz azərbaycanlı dostlarımıza təşəkkür edirik ki, bu yaxınlarda Bakıda Əlişir Nəvainin məşhur ədəbiyyatşünas Ramiz Əsgər tərəfindən tərcümə edilmiş onlarca kitabı nəşr edilib. Özbəkistanda da Azərbaycan klassiklərinin və müasir yazıçılarının əsərləri müntəzəm

olaraq nəşr edilir. Bu günlərdə Daşkənddə Azərbaycanın Xalq yazıçısı Anarın yeni kitabının təqdimatı keçirilib. Hörmətli İlham Heydər oğlu ilə danışıqlar zamanı biz qarşılıqlı mədəniyyət və kino günlərinin keçirilməsi, humanitar və turizm mübadiləsi proqramının fəal inkişafı barədə razılığa gəldik.

Biz, həmçinin beynəlxalq gündəliyin aktual məsələlərinə dair fikir mübadiləsi apardıq, hərbi və hərbi-texniki əməkdaşlıq sahəsində planlar cızdıq. Birləşmiş Millətlər Təşkilatı və Türk Dövlətləri Təşkilatı, MDB, ATƏT, Qoşulmama Hərəkatı və digər beynəlxalq təşkilatlar çərçivəsində dialoqun konstruktiv xarakterini və qarşılıqlı dəstəyin vacibliyini qeyd etdik.

Əziz dostlar, Azərbaycan Prezidentinin tarixi dövlət səfərinin yekunları həqiqətən sıçrayış xarakteri daşıyır. Bu gün mən qardaşım İlham Heydər oğlu ilə birlikdə bütün şərtləri formalaşdırdıq ki, gələcəkdə real nəticə alınsın, dediyim kimi, Sizin tarixi səfəriniz həqiqətən bizim strateji tərəfdaşlığımıza uyğun olsun. Biz strateji tərəfdaşlığın dərinləşməsi haqqında danışırıq. Deyirik ki, bizim bütün komanda, bütün nazirliklərimiz işə tamam başqa cür yanaşsınlar. Səmimi demək istəyirəm ki, bugünkü danışıqlardan çox məmnunam. Biz məhdud və geniş tərkibdə görüşlərdə qaldırılan bütün məsələlər barədə çox ətraflı danışdıq. Qeyd etdik ki, həm beynəlxalq, həm də regionlararası siyasətdə ikitərəfli qarşılıqlı anlaşma və ümumi yanaşmalar mövcuddur. Biz ikitərəfli münasibətlərimizə xüsusilə böyük diqqət ayırdıq.

Beləliklə, bir daha demək istəyirəm, biz hər şeyi edirik ki, güclü Özbəkistan və güclü Azərbaycan olsun. Onlar güclü olanda məcbur edəcəyik ki, bizə hörmət etsinlər və bundan ötrü bizim hər cür əsasımız var. Belə ki, bu səfər tarixi səfərdir, onun çox yaxşı əsası var və gələcəkdə biz bu əsası həyata keçirməliyik. Sizə bir daha demək istəyirəm, biz razılığa gəldik ki, noyabr ayında İlham Heydər oğlu Səmərqəndə səfər edəcək. Səmərqənddə biz nazirlərimizi bugünkü razılaşmalar barədə dinləyəcəyik. Bunu nəyə görə deyirəm? Ona görə ki, bilirsiniz, bizim çox böyük imkanlarımız var, lakin nəticə çox kiçikdir. Biz bu gün gələcək əməkdaşlığımızın ciddi perspektiv layihələri barədə razılığa gəldik. Fikrimcə, bu səfər tarixi səfərdir və danışıqlarımızdan tamamilə məmnunam. Diqqətinizə görə təşəkkür edirəm, indi isə sözü məmnuniyyətlə İlham Heydər oğluna verirəm.

Sonra Azərbaycan dövlətinin başçısı bəyanatla çıxış edib.

### Prezident İlham Əliyevin bəyanatı

– Hörmətli Şavkat Miromonoviç, icazə verin, dəvətə, mənə və Azərbaycan nümayəndə heyətinin üzvlərinə göstərilən qonaqpərvərliyə görə Sizə bir daha təşəkkürümü bildirim. Qardaş Özbəkistan torpağında olmaq, ikitərəfli münasibətlərin geniş spektrini və xarici siyasət gündəliyində duran mühüm məsələləri Sizinlə müzakirə etmək fürsətinə malik olmaq mənə çox xoşdur.

Bu gün mənim səfərim çox əlamətdar hadisədən – Daşkəndin mərkəzində ümummilli lider Heydər Əliyevin abidəsinin, onun adını daşıyan meydanın və gözəl parkın açılışından başlandı. Şavkat Miromonoviç, mən Sizə atamın xatirəsinə belə münasibətə görə Azərbaycan Prezidenti kimi, Heydər Əliyevin oğlu kimi öz adımdan və bütün Azərbaycan xalqı adından təşəkkürümü bildirirəm. Biz bunu çox yüksək dəyərləndiririk. Biz gördük ki, Özbəkistanda Heydər Əliyevin xatirəsi necə sevgi ilə, necə hörmətlə yad edilir, bu, bizə çox xoşdur. Bu gün biz abidənin və meydanın açılışında çıxış etdik, Heydər Əliyev haqqında, onun Özbəkistana münasibəti haqqında danışdıq. Əminəm ki, bu gün bu münasibəti hər bir azərbaycanlı bölüşür. Mən atamın işinin davamçısı kimi, Azərbaycan Prezidenti kimi öz fəaliyyətimdə bizim ikitərəfli münasibətlərə daim xüsusi diqqət ayırıram. Bugünkü dövlət səfəri bunun əyani təsdiqidir. Səfər pandemiya ilə əlaqədar təxirə salınmışdı. Həmçinin onu diqqətlə hazırlamaq lazım idi ki, qardaşım Şavkat Miromonoviçin dediyi kimi, sıçrayış edək. Fikrimcə, bu, həqiqətən sıçrayış xarakterli səfərdir. Çünki müzakirə olunan mövzuların həm mahiyyətinə, həm formasına, həm məzmununa, bizim gəldiyimiz qərarlara əsasən bu səfər və razılaşmalar münasibətlərimizin gələcək inkişafı üçün əsas olacaq.

Dünən biznesforum çərçivəsində xeyli sənəd imzalanıb. Bu gün belə sənədlərin ümumi sayı iyirmiyə yaxındır. Şavkat Miromonoviçin dediyi kimi, Strateji tərəfdaşlığın dərinləşdirilməsi və qarşılıqlı fəaliyyətin genişləndirilməsi haqqında siyasi Bəyannamə çox qlobal xarakter daşıyır. Bu, mahiyyətcə gələcək fəaliyyətimizin yol xəritəsidir. Orada xarici siyasətimizin prioritetləri əksini tapıb, dövlətlərimizin ərazi bütövlüyünün, müstəqilliyinin, suverenliyinin qarşılıqlı dəstəklənməsi ifadə olunub, eləcə də həyat fəaliyyətinin müxtəlif istiqamətləri üzrə konkret məsələlər və hədəflər müəyyən edilib. Bu gün burada artıq bir neçə saat bir yerdə keçirdikdən sonra işləyəcəyimiz istiqamətləri daha da konkretləşdirdik. Tapşırıqlar verilib. Şavkat Miromonoviç artıq bu barədə ətraflı danışdı, mən həyat fəaliyyətinin müzakirə etdiyimiz istiqamətlərini təkrarlamaq istəmirəm. Əminəm ki, nəticələr olacaq. Çünki bu, prezidentlərin nəzarətindədir. Əminəm, müvafiq nazirlər, dövlət strukturlarının rəhbərləri yaxşı başa düşürlər ki, biz prezidentlər qarşıya qoyduğumuz məsələlərin yerinə yetirilməsinə nəzarət edəcək və onlardan cavab istəyəcəyik. Bu məsələlərin icrası isə

ona gətirib çıxaracaq ki, ölkələrimiz arasında münasibətlər daha möhkəm olacaq, aramızda daha çox əməkdaşlıq və qarşılıqlı dəstək olacaq. Çünki bu gün Xəzər, Mərkəzi Asiya, Cənubi Qafqaz regionlarının sülhə və sabitliyə ehtiyacı var. Bunun əsası, əlbəttə ki, liderlərin siyasi iradəsi, eləcə də iqtisadi zəminlərdir. Fikrimcə, bu gün əmtəə dövriyyəsinin artırılması, investisiya layihələri, nəqliyyat-logistika istiqamətləri, kənd təsərrüfatında əməkdaşlığın dərinləşməsi ilə bağlı layihələr barəsində əldə etdiyimiz razılaşmalar – bütün bunlar həm əmtəə dövriyyəsinin artırılması, həm də ölkələrimiz və xalqlarımız arasında daha artıq əməkdaşlıq üçün gözəl imkanlar yaradacaq.

Hərbi və hərbi-texniki sahələrdə nəzərdə tutulan əməkdaşlığı xüsusi qeyd etmək istərdim. Bu sahə hər bir ölkə üçün, xüsusən bizim ölkələr üçün prioritet əhəmiyyət kəsb edir. Bizim yerləşdiyimiz regionlar təhlükəsizliyin və müdafiə qabiliyyətinin möhkəmlənməsi məsələlərinə gündəlik diqqət tələb edir. Buna görə də, düşünürəm ki, bu gün razılığa gəldiyimiz məsələlər yerinə yetiriləcək. Biz təcrübə mübadiləsi, hərbi-texniki sahədə, müdafiə istiqamətli təhsil sahəsində əməkdaşlıq üzrə fəal əlaqə saxlayacaq, həmçinin təhlükəsizliyimizi qarşılıqlı möhkəmlədəcək addımlarımızı planlaşdıracağıq.

Bu gün Bəyannamə imzalandı. Siyasi Bəyannamə mahiyyət etibarilə bizim münasibətlərimizi keyfiyyətcə yeni səviyyəyə çatdırır. Təbii ki, qarşılıqlı dəstək də olacaq – həm mövcud beynəlxalq təşkilatlar çərçivəsində, həm də ölkələrimizin və xalqlarımızın təhlükəsizliyi ilə bağlı bütün başqa məsələlər daimi diqqət tələb edir. Bu da olacaq. Ona görə ki, bundan ötrü siyasi iradə var.

Bu gün mən biz ərazi bütövlüyümüzü bərpa edərkən özbək xalqının və Özbəkistan Prezidentinin Azərbaycana göstərdiyi dəstəyi xüsusi qeyd etmək istərdim. Azərbaycanlılar bunu çox yaxşı bilir, qardaşlıq münasibətini xatırlayır və yüksək qiymətləndirirlər. Özbəkistan Prezidentinin sözləri, bizim Qələbəmiz münasibətilə təbrikləri – bütün bunlar, təbii ki, Azərbaycanda dost sözü, qardaş sözü kimi qəbul edilir. Biz bunu yüksək qiymətləndiririk və öz tərəfimizdən biz də bütün məsələlərdə Özbəkistanın, özbək xalqının yanındayıq. Bugünkü səfər buna daha bir sübutdur. Əslində, biz bu gün iqtisadi qarşılıqlı fəaliyyət, biznes strukturlarının əlaqələri, təhlükəsizlik, müdafiə qabiliyyəti ilə bağlı məsələlər, xarici siyasətlə bağlı təşəbbüslər, beynəlxalq təşkilatlar çərçivəsində əməkdaşlığın dərinləşdirilməsi, humanitar sahə ilə, mədəniyyətlə bağlı məsələlər barədə danışırıq, yəni, sözün geniş mənasında bu gün bizim gələcək aktiv qarşılıqlı fəaliyyətimizin əsası qoyulur və əminəm ki, nəzərdə tutduqlarımızın hamısı yerinə yetiriləcək.

Çıxışımın sonunda qardaş özbək xalqını qazanılmış bütün nailiyyətlər münasibətilə bir daha təbrik etmək istərdim. Biz Özbəkistanda baş verənləri diqqətlə izləyirik. Sizin uğurlarınıza sevinirik. Sevinirik ki, Şavkat Miromonoviçin başladığı islahatlar artıq nəticə verir. Aydındır ki, belə fundamental islahatlar üçün vaxt lazımdır. Lakin qısa müddətdə əldə edilənlər, əvvəla, Prezidentin iradəsindən xəbər verir, göstərir ki, özbək xalqı bu təşəbbüsləri dəstəkləyir və həmin təşəbbüslər nəticə verir. Bu, təkcə statistikada görünmür, əminəm ki, Daşkəndi ziyarət edən hər kəs bunu görür. Mən Daşkənddə əvvəllər olmuşam və bugünkü dəyişiklikləri görəndə ürəkdən sevinirəm ki, qardaş ölkə uğurla inkişaf edir, burada sülh, asayiş, sabitlik, iqtidarla cəmiyyətin vəhdəti mövcuddur – bunlar hər bir dövlətin inkişafı üçün əsas amillərdir. Əlbəttə, Prezidenti təbrik etmək istərdim ki, onun nəzərdə tutduğu işlərin hamısı yerinə yetirilir və əminəm ki, tamamilə yerinə yetiriləcək. Bu nailiyyətlər münasibətilə qardaş özbək xalqını da təbrik edirəm. Həmçinin əminəm ki, bu gün iki Prezidentin öz nümayəndə heyətlərinə verdiyi bütün tapşırıqlar yerinə yetiriləcək. Əlbəttə, onlar bilirlər ki, tələb ciddi olacaq, biz ciddi nəzarətçilərik, səhvləri bağışlamayacağıq, amma yaxşı nəticələr olsa onları tərifləməyə şad olarıq.

Hörmətli Şavkat Miromonoviç, belə xoş münasibətə, qonaqpərvərliyə görə bir daha sağ olun, qardaş özbək xalqına firavanlıq, bundan sonra da inkişaf arzu edirəm. Sağ olun.

Prezident Şavkat Mirziyoyev: İlham Heydər oğlu, bizim islahatları bu cür dəstəklədiyinizə görə bir daha çox sağ olun. Əlbəttə, bizim bugünkü razılaşmalarımız onu göstərir ki, biz bugünkü nailiyyətlərimizi gələcəkdə real həyata tətbiq edəcəyik. Siz çox düzgün olaraq qeyd etdiniz ki, bu gün görülən bütün işlər iki xalqın rifahı naminədir. Biz çox gərgin dövrdə yaşayırıq. Əlbəttə, bu gün hər bir ölkə sabahkı gün barədə düşünür və Siz düzgün olaraq dediniz ki, bu gün xalq bizim Özbəkistanda həyata keçirdiyimiz islahatlara etibar edir və əlbəttə, bu islahatların böyük perspektivi var. Bu cür qısa müddətdə heç bir ölkədə belə nəticələrə nail olmaq mümkün deyil. Bununla əlaqədar biz öz dostlarımızla, o cümlədən Azərbaycanla elə münasibətlər qurmaq istəyirik ki, həqiqətən strateji istiqamətləri ehtiva etsin. Azərbaycanda İlham Əliyevin rəhbərliyi ilə islahatlar sahəsində çox iş görülüb. Əlbəttə, biz də bunu görür və yaxın qonşular kimi həmişə sevinirik. Biz də Siz başda olmaqla Azərbaycan xalqına arzu edirik ki, hər şey reallaşsın və bizim dost ölkəmiz olan Azərbaycan firavanlaşsın.

Bir daha demək istəyirəm, biz öz komandamıza bunu həqiqətən qəti şəkildə dedik ki, nəticələr çox ciddi olacaq. İlham Heydər oğlunun dediyi kimi, həm cəzalandıracaq, həm də həvəsləndirəcəyik. Nəyə görə? Ona görə ki, bilirsiniz, bu gün biz ümumiyyətlə öz imkanlarımız və bizim bugünkü əməkdaşlığımızın vəziyyəti barədə çox diqqətlə, çox etimadla, açıq danışdıq. Bilirsiniz,

elə bir istiqamət yoxdur ki, o istiqamətdə biz əməkdaşlıq edə bilməyək və orada nəticə olmasın. Sadəcə, bu gün iki Prezidentin möhkəm siyasi iradəsi var və bu gün biz iki Prezidentin həmin iradəsini bizim komandanın məsuliyyətinə əlavə etdik. Düşünürəm ki, komandanın üzvləri, həm Özbəkistan, həm də Azərbaycan tərəfinin nümayəndə heyətinin üzvləri düzgün nəticələr çıxaracaq və dediyim kimi Səmərqənddə görüş tarixi, nəticəli görüş olacaq. Nəticə necə olacaq? Biz öz qarşılıqlı münasibətlərimizi genişləndirməli və həqiqətən yeni platforma, yeni istiqamətlər yaratmalıyıq. İlham Heydər oğlunun dediyi kimi, bu yol xəritəsi real həyata keçirilməlidir. Biz həmin xəritəni tamamlayanda və bir-birimizi başa düşəndə bu, bizim gələcək münasibətlərimizin rəhni olacaq. Əgər biz yol xəritəsini tamamlasaq və düzgün yol xəritəsi qəbul etsək, 2023-cü il nəticəli il olacaq. Düşünürəm ki, gələcək görüşlərimizdə bu nəticə göz qabağında olacaq.

İlham Heydər oğlunu və bütün Azərbaycan xalqını bir daha səmimi qəlbdən salamlamaq və uğurlar arzu etmək istəyirəm.

İyunun 21-də Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev və Özbəkistan Respublikasının Prezidenti Şavkat Mirziyoyev Daşkənddə “TEXNOPARK” MMC-nin fəaliyyəti ilə tanış olublar.

Dövlətimizin başçısına “TEXNOPARK” barədə məlumat verildi. Bildirildi ki, “TEXNOPARK” MMC 2019-cu ildə Özbəkistan Prezidenti Şavkat Mirziyoyevin təşəbbüsü ilə yaranıb. “TEXNOPARK” yüksək texnologiyalı, rəqabətqabiliyyətli, ixracyönümlü və idxalı əvəz edən sənaye məhsullarının istehsalını təmin etmək məqsədilə yaradılıb. “TEXNOPARK” MMC-nin sahəsi 103 hektardan artıqdır.

Dövlətimizin başçısı burada istehsal olunan sənaye, texniki, elektron, inşaat və məişət məhsullarına baxdı.

Bildirildi ki, tərəfdaşları dünyanın aparıcı şirkətləri olan “TEXNOPARK” MMC-nin fəaliyyəti, eyni zamanda, geniş çeşiddə məişət texnikası istehsalı üzrə müəssisələrin, həmçinin yeni iş yerlərinin yaradılmasına yönəlib. Hazırda burada 13 istehsal obyekti fəaliyyət göstərir. Bunların sırasına lift, eskalator, elektron qaz sayğacları, məişət soyuducuları, sənaye kondisionerləri, soyutma sistemləri, paltaryuyan maşın və digərləri daxildir. 2022-ci ildə burada yeni sənaye avadanlıqlarının istehsalı, avtomatlaşdırılmış logistika mərkəzinin yaradılması nəzərdə tutulub.

“TEXNOPARK” MMC-də 16 sənaye istiqaməti birləşib. Burada, həmçinin logistik mərkəz də fəaliyyət göstərir, daxili və xarici bazarlara yönəlmiş geniş çeşiddə sənaye, texniki, elektron, tikinti və məişət məhsulları istehsal olunur.

İyunun 21-də Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev və Özbəkistan Respublikasının Prezidenti Şavkat Mirziyoyev “Kuksaroy” dövlət iqamətgahında Fəxri qonaqlar xiyabanında ağac əkiblər.

Xəbər verdiyimiz kimi, iyunun 21-də Daşkənddəki “Kuksaroy” dövlət iqamətgahında Özbəkistan Respublikasının Prezidenti Şavkat Mirziyoyevin adından Azərbaycan Respublikasının Prezidenti İlham Əliyevin şərəfinə rəsmi ziyafət verilib.

Ziyafətdə konsert proqramı təqdim olunub.

Sonra prezidentlər İlham Əliyev və Şavkat Mirziyoyev incəsənət ustaları ilə söhbət ediblər.

Prezident Şavkat Mirziyoyev: Bu, ilk görüşdür. Biz Azərbaycana gedəcəyik. Mədəniyyət günləri əvvəl Azərbaycanda, sonra isə Özbəkistanda keçiriləcək. Biz razılaşdıq ki, Müstəqillik Günündə həm azərbaycanlı, həm də özbək artistləri Azərbaycanın və Özbəkistanın Xalq artisti adları ilə təltif edək. Lakin münsiflər heyəti belə qərara gəlib ki, birinci namizəd Nəsibə xanımdır.

Prezident İlham Əliyev: Mən bu gün qardaş Özbəkistanda olmağımdan çox məmnunam. Qardaşım Şavkat Miromonoviç ilə bu gün bütün günü bir yerdəyik və bu günün sonunda siz bizi sevindirdiniz, yəni, öz sənətinizlə, öz musiqinizlə, Azərbaycan və özbək mahnılarının gözəl ifası ilə bizi sevindirdiniz.

Dinimiz də, dilimiz də, mədəniyyətimiz də birdir, köklərimiz də birdir. Bu gün birlik hamımızın gözü qarşısındadır və bu birliyi biz əbədi etməliyik. Sağ olun, sizə təşəkkür edirəm. Sizin hər birinizi Azərbaycana dəvət edirəm. Azərbaycanda sizi qəbul etməyə hazırıq. Buna çox şad olarıq.

İncəsənət ustaları: Çox sağ olun. Xoş gəlmisiniz.

Prezident Şavkat Mirziyoyev: Mənim əziz qardaşım, bizim əziz qonağımız bu gün Özbəkistana səfərə gəlib. Ümumiyyətlə, mənim qardaşımın səfəri tarixi səfərdir. Bizim birinci tədbirimiz Azərbaycan xalqının böyük oğlu Heydər Əlirza oğlu Əliyevin adını daşıyan meydanın, küçənin və onun abidəsinin açılışı oldu. Bu, bizim tariximizdir, bizim səmimi dostluğumuzun təcəssümüdür.

Bizim dostluğumuzun təcəssümü olan nailiyyətləri çox göstərmək olar. Biz ruhən, mənəviyyatca, baxışlarımıza görə daha yaxın olanda bu, çox qiymətlidir. Bizim üçün Azərbaycanın və ya Özbəkistanın heç bir fərqi yoxdur. Bizim böyük ortaq tariximiz var.

Dövlətimizin başçısını salamlayan Özbəkistan Ali Məclis Senatının sədri Tənzilə Narbayeva dedi: Mehriban xanıma məndən salam deyin.

Prezident İlham Əliyev: Sağ olun. Hökmən deyərəm.

Tənzilə Narbayeva: Biz onu çox yaxşı tanıyırıq.

Sonda xatirə şəkli çəkdirildi.

Özbəkistanda dövlət səfərində olan Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev iyunun 22-də Daşkənddən Ürgənc şəhərinə yola düşüb.

Hər iki ölkənin dövlət bayraqlarının dalğalandığı İslam Kərimov adına Daşkənd Beynəlxalq Hava Limanında Prezident İlham Əliyevin şərəfinə fəxri qarovul dəstəsi düzülmüşdü.

Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev iyunun 22-də Özbəkistanın Ürgənc şəhərinə gəlib.

Hər iki ölkənin dövlət bayraqlarının dalğalandığı Ürgənc şəhərinin Beynəlxalq Hava Limanında Prezident İlham Əliyevi Özbəkistan Respublikasının Prezidenti Şavkat Mirziyoyev qarşıladı.

Özbəkistanda dövlət səfərində olan Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev və Özbəkistan Respublikasının Prezidenti Şavkat Mirziyoyev iyunun 22-də Xivə şəhərində İçan-Qala Dövlət Tarixi Memarlıq Muzeyi ilə tanış olublar.

İçan-Qala barədə dövlətimizin başçısına məlumat verildi.

Bildirildi ki, İçan-Qala Dövlət Tarixi Memarlıq Muzeyi 1920-ci ildə yaradılıb. 1969-cu ildə tarixi İçan-Qala şəhəri muzey-qoruq elan edilib. Muzeyin fondunun əsasını xan dəftərxanasının sənədləri və sarayın müxtəlif əşyaları təşkil edir.

Qeyd edildi ki, ümumi sahəsi 26 hektar olan muzeydəki ekspozisiyalar Özbəkistanın qədim tarixini və müasir dövrünü əlaqələndirir. Burada Xivə xanlığının, qədim Xarəzmin tarixi, etnoqrafiyası, sənət nümunələri, müxtəlif kolleksiyalar ilə bağlı 14 stasionar muzey və ekspozisiyalar var.

Muzeydə, həmçinin Xivə xanlığının tarixi barədə nəşrlər nümayiş etdirilir.

Muzeyin əsas işi eksponatların toplanması, onların öyrənilməsi, nümayişi və abidələrin mühafizəsindən ibarətdir.

İyunun 22-də Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev və Özbəkistan Respublikasının Prezidenti Şavkat Mirziyoyev Xivə şəhərində “Nurullaboy” saray kompleksi ilə tanış olublar.

Saray kompleksi barədə dövlət başçılarına məlumat verilib.

Bildirilib ki, əzəməti və gözəlliyi ilə məşhur olan “Nurullaboy” saray kompleksi Xivə xanı II Məhəmməd-Rəhimbayanın əmri ilə 1906-1912-ci illərdə tikilib. Dörd hissədən ibarət saray kompleksinə ümumilikdə 100-dən çox zal və otaq, o cümlədən mərasim və məhkəmə zalları, yaşayış binaları və mədrəsə daxildir. Saray kompleksindəki bütün tikililər uzunluğu 650 metrdən çox olan güclü istehkamla əhatə edilib. Qala divarı üzərində yarımdairəvi qüllələr ucaldılıb. Rusiya imperatoru II Nikolay kompleksin tikintisi başa çatdıqdan sonra saraya iki çilçıraq və kiçik bir elektrik stansiyası bağışlayıb.

“Nurullaboy” sarayı milli və Avropa memarlıq üslublarının vəhdəti əsasında inşa olunub. Bu da həmin dövrdə şəhərsalma sahəsində üstünlük təşkil edən üslubla əlaqədardır. Qızılı və rəngli rəsmlərlə örtülmüş məşhur Xivə oymaları sarayın cəlbediciliyini daha da artırır.

Saray kompleksində daimi rəsm sərgiləri fəaliyyət göstərir, tarixi sənədlər, milli geyim nümunələri nümayiş olunur.

İyunun 22-də Xivə şəhərində Özbəkistan Respublikasının Prezidenti Şavkat Mirziyoyev tərəfindən Azərbaycan Respublikasının Prezidenti İlham Əliyevin şərəfinə qəbul təşkil edilib.

Qəbulda konsert proqramı təqdim olunub.

Dövlət başçıları incəsənət ustalarının çıxışlarını dinləyib, onlarla söhbət ediblər.

Prezident Şavkat Mirziyoyev: Əvvəlcə, bu gün bizim sənətçilər dostum, qardaşım İlham Heydər oğluna gözəl Xivədə, Özbəkistanda bizim mədəniyyətimizi, sənətimizi və onların yaxınlığını göstərdilər. Mən Sizə olduqca minnətdaram və bu gün çox qurur hissi keçirdim ki, qardaşımla bir dildə danışdıq və aramızda tərcüməçi yox idi. Bu sənətçilər bizim mədəniyyətimizi, tariximizi, soykökümüzü, birliyimizi dərin sevgi, məhəbbət və ehtiramla tərənnüm etdilər, göstərdilər ki, bu iki böyük xalqın tarixi birliyi və gələcəyi həqiqətən də sarsılmazdır. Biz dünəndən dostluğumuz, əlaqələrimiz haqqında danışır və müzakirələr aparırıq. Lakin bu gün bizə bunu əməli olaraq sənət ilə göstərdiniz. Mən sizə minnətdaram.

Son illər bizim mədəniyyətimizə, tariximizə, ümumiyyətlə, makomumuza və muğamımıza ehtiramla yanaşmağımız təqdirəlayiqdir. İllər ötəcək, əsrlər keçəcək və gələcəkdə siz bu mədəniyyətin iştirakçıları olacaqsınız. Övladlarınız, qonşularınız, dostlarınız həmişə bu mədəniyyət ilə təmasda olacaqlar. Mən qardaşım İlham Heydər oğluna məmnuniyyətlə demək istəyirəm ki, bu gün sənətçilər bizə Yeni Özbəkistanda yeni mədəniyyəti göstərdilər.

Prezident İlham Əliyev: Qardaşım Şavkat Miromonoviçin bütün dediklərini mən anladım, tərcüməçiyə ehtiyac qalmadı. Mənim dövlət səfərim bu gün başa çatır. Dünən Daşkənddə, bu gün Xivədə, Ürgəncdə, Xarəzm vilayətində olmağımdan çox məmnunam. Dünən və bu gün bir daha gördüm ki, xalqlarımız bir-birinə nə qədər yaxındır. Mədəniyyətimiz, incəsənətimiz, ümumiyyətlə, xalqlarımızın kökləri birdir. Bu gün Azərbaycan dilində oxunan mahnılar, nəğmələr sanki Azərbaycan müğənniləri tərəfindən ifa olundu. Heç bir ləhcə, şivə yoxdur. Bu, nəyi göstərir? Xalqlarımızın birliyini. Siz Türk mədəniyyətimizi tərənnüm edən ifaçılar, sənətkarlar və mədəniyyət ustadları bizim fəxrimizsiniz.

Şavkat Miromonoviçlə bu masa arxasında söhbət əsnasında o, hər bir ifaçının adını bilirdi. Bilirdi harada

oxuyub, bu, Bakıda oxuyub, o orada oxuyub, bu, mədəniyyət naziridir, o orada. Bu, onu göstərir ki, Prezident hər bir sənət adamının məsələləri ilə şəxsən məşğul olur. Onun sizə olan sevgisi özbək xalqına olan sevgisidir.

Bu gün yeni Özbəkistanı mən özüm üçün kəşf etdim. Yeni Özbəkistan qardaşımın simasında, sizin simanızda çiçəklənir. Yeni Özbəkistanın həyatı uğurlu olsun, xeyirli olsun. İnşallah, hamımız – özbək və Azərbaycan xalqları bir yumruq kimi birlikdə olacağıq.

Prezident Şavkat Mirziyoyev: İnşallah.

Prezident İlham Əliyev: Bu papaqlardan bizdə də var. Xarəzm şivəsi, ləhcəsi Azərbaycan dilinə çox oxşayır. Biz bu papağa Buxara papaq deyirik.

Prezident Şavkat Mirziyoyev: Biz ilk gündən qardaşım İlham Heydər oğlu ilə xeyli məsələləri reallaşdırmaq, birliyimiz, həmrəyliyimiz, ən əsası dinc yaşayışımız, firavanlığımızla bağlı çox fikir mübadiləsi apardıq və qərarlar qəbul etdik. Gələcək əməkdaşlığımızla bağlı böyük planları müzakirə etdik. Mən bir məsələni sizlərə bildirmək istəyirəm ki, iqtisadiyyat, siyasət vacibdir, lakin bizi birləşdirən əsas dəyər mədəniyyətdir. Düşünürəm ki, bizləri birləşdirən möhkəm vasitə mədəniyyətdir. Biz razılaşdıq ki, heç olmasa üç aydan bir qarşılıqlı səfərlər reallaşdıraq, gediş-gəlişi artıraraq mədəni birliyimizi yeni müstəviyə qaldıraq.

Cari ilin noyabrında Səmərqənd şəhərində keçiriləcək görüşümüz zamanı orkestrimizin iştirakı ilə muğam və makom sənətinə dair Füzuli, Nəvai şeirləri əsasında birgə konsert təşkil etmək necə də gözəl olar. Düşünürəm ki, Siz buna bir ay hazırlaşsanız, nə qədər yüksək nəticə əldə edə bilərsiniz. Heç bir niyyətimiz, amalımız mədəniyyətsiz, mədəniyyətlə təmasda olmadan reallaşa bilməz.

Özbəkistanın paytaxtı Daşkənd öz yerində, Xivədə, Xarəzm vilayətində, uzaq bir diyarımızda qardaşım üçün bu konserti hazırlayan orkestrimizə minnətdarlığımı bildirirəm. Mədəniyyət nazirimiz bu orkestri təşkil etdi və mən bunun üçün onun xidmətini qiymətləndirirəm. Sağ olun.

Prezident İlham Əliyev: Sağ olun.

Sonda xatirə şəkli çəkdirildi.

Azərbaycan Respublikasının Prezidenti İlham Əliyevin Özbəkistan Respublikasına dövlət səfəri iyunun 22-də başa çatıb.

Hər iki ölkənin dövlət bayraqlarının dalğalandığı Ürgənc şəhərinin Beynəlxalq Hava Limanında Prezident İlham Əliyevi Özbəkistan Respublikasının Prezidenti Şavkat Mirziyoyev yola saldı.

## *Göygöl, Kəlbəcər və Laçın rayonlarına səfər*

İyunun 26-da Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev Göygöl, Kəlbəcər və Laçın rayonlarına səfər edib.

Dövlətimizin başçısı əvvəlcə Göygöl rayonunda Toğanalı-Kəlbəcər avtomobil yolunun 13-cü kilometrliyində inşa edilən iki tunelin tikintisi ilə tanış olub.

Azərbaycan Avtomobil Yolları Dövlət Agentliyinin İdarə Heyətinin sədri Saleh Məmmədov dövlətimizin başçısına görülən inşaat işləri haqqında məlumat verdi.

Qeyd edildi ki, Göygöl və Kəlbəcər rayonlarını birləşdirən avtomobil yolu 2-4 hərəkət zolaqlı olmaqla I, II və III texniki dərəcəyə uyğun inşa edilir. Belə ki, yolun keçdiyi ərazinin sərt dağlıq və qayalıq olması nəzərə alınaraq, onun əsas hissəsinin ikizolaqlı, yoxuşlarda isə əlavə zolaq artırılmaqla tikintisi aparılır. Bu yol tunel və körpü hissələrdə dörd hərəkət zolaqlı olacaq.

Hazırda yolboyu torpaq yatağının, həmçinin zəruri yerlərdə suötürücülərin tikintisi davam edir. İki hissədə mövcud kanalların köçürülməsi, həmçinin bəzi ərazilərdə suötürücülərin inşası tamamlanıb, yeni su kanalının tikintisi davam etdirilir.

Bildirildi ki, layihənin 13,5-ci kilometrindən Murovdağ silsiləsi başlayır. Yüksəklik 1700 metrdən Murovdağ zirvəsinədək 3250 metrədək artır. Bu hissədə dünyanın ən uzun avtomobil tunellərindən biri olacaq Murovdağ tunelinin inşası davam etdirilir. Artıq tuneldə gediş və gəliş istiqaməti üzrə 2,1 kilometr uzunluğunda qazma işləri tamamlanıb.

Tunel müvəqqəti havalandırma sistemi ilə təmin edilib. Piyadalar və avtomobillər üçün nəzərdə tutulan iki ehtiyat keçidin tikintisi yekunlaşıb.

Hazırda tuneldə partlatma və qırma prosesləri nəticəsində əmələ gələn qaya parçalarının və süxurların daşınması, lay sularının kənarlaşdırılması və tuneldaxili hissənin üzlənməsi işləri davam etdirilir.

Həmçinin məlumat verildi ki, Toğanalı-Kəlbəcər-İstisu avtomobil yolunun tikintisi layihəsi çərçivəsində Murovdağ tunelindən əlavə, daha üç tunelin inşası nəzərdə tutulur. Uzunluğu 542, eni 12 metr olan birinci və uzunluğu 607 metr olan ikinci tuneldə tikinti işlərinə başlanılıb. Artıq birinci tuneldə üst qatda qazma işləri icra olunaraq tuneldaxili hərəkət təmin edilib. İkinci tuneldə isə üst qatda qazma işləri tamamlanmaq üzrədir.

Tikintisi 2025-ci ilədək yekunlaşdırılması nəzərdə tutulan Toğanalı-Kəlbəcər-İstisu avtomobil yolu başlanğıcını Göygöl rayonunun Toğanalı kəndindən götürməklə Kəlbəcər rayonunun ərazisindən keçir. Buna görə də yol rayonun bir çox yaşayış məntəqələri ilə yanaşı, Kəlbəcər şəhərinə və məşhur İstisu ərazisinə qədər rahat gediş-gəlişi təmin edəcək.

İyunun 26-da Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev Kəlbəcər rayonunda yeni tikilmiş 4,4 MVt gücündə "Kəlbəcər-1" Kiçik Su Elektrik Stansiyasının (KSES) açılışında iştirak edib.

"Azərenerji" Açıq Səhmdar Cəmiyyətinin prezidenti Baba Rzayev dövlətimizin başçısına "Kəlbəcər-1" Kiçik Su Elektrik Stansiyası haqqında məlumat verdi.

Bildirildi ki, Lev çayı üzərində inşa olunan stansiya işğaldan azad edildikdən sonra Kəlbəcərdə tikilərək istismara verilən ilk enerji istehsalı obyektidir.

"Yaşıl enerji zonası" konsepsiyasına uyğun olaraq, ekoloji cəhətdən təmiz enerji istehsal edəcək "Kəlbəcər-1" KSES-də maşın zalı tikilib, yeni aqreqat, generator, idarəetmə panelləri və transformatorlar quraşdırılıb. Burada 110/6 kilovoltluq yarımstansiya da inşa edilib.

Qeyd olunub ki, "Kəlbəcər-1" KSES Azərbaycanın ümumi enerji sisteminə qoşulub. Rəqəmsal qaydada açılıb-qoşulma, intellektual idarəetmə, operativ monitorinq və təhlil aparılması mümkün olan yeni stansiyanın işinə Kəlbəcərdən olduğu kimi, Bakıdakı Baş İdarəetmə Mərkəzindən də nəzarət və onu idarə etmək əlçatan olub. Məsafədən idarə edilən KSES-lər demək olar işçi heyət olmadan işlədilir. Stansiyaların idarəetmə sistemi tam avtomatlaşdırılıb, xüsusi proqram təminatı ilə rəqəmsallaşdırılıb ki, bu da istehsal olunan elektrik enerjisinin maya dəyərinin daha da aşağı düşməsinə gətirib çıxarır.

Dövlətimizin başçısı stansiyanı işə saldı.

Xatırladaq ki, işğaldan azad edilən ərazilərin "yaşıl enerji zonası"na çevrilməsi ilə bağlı dövlətimizin başçısının tapşırığına uyğun olaraq, Vətən müharibəsində Qələbədən sonra ümumi gücü 20 meqavat olan "Güləbird", "Suqovuşan-1", "Suqovuşan-2" və "Kəlbəcər-1" Kiçik Su Elektrik stansiyaları tikilib istifadəyə verilib. İndiyədək bu stansiyalarda 30 milyon kilovat/saat elektrik enerjisi istehsal olunub.

Azərbaycan Respublikasının Prezidenti, Silahlı Qüvvələrin Müzəffər Ali Baş Komandanı İlham Əliyev iyunun 26-da – Silahlı Qüvvələr Günündə Kəlbəcər rayonuna səfəri çərçivəsində komando hərbi hissəsinə döyüş bayrağının verilməsinə həsr olunmuş təntənəli mərasimdə iştirak edib.

Müdafiə naziri general-polkovnik Zakir Həsənov Ali Baş Komandan İlham Əliyevə raport verdi.

Müdafiə naziri yeni inşa edilən hərbi şəhərciyin baş planı barədə Ali Baş Komandana məlumat verdi.

Prezident, Ali Baş Komandan İlham Əliyev şəxsi heyəti salamladı və hərbçiləri 26 İyun – Silahlı Qüvvələr Günü münasibətilə təbrik etdi.

Xalqımızın ümummilli lideri Heydər Əliyevin, Azərbaycan Respublikasının suverenliyi və ərazi bütövlüyü uğrunda mübarizədə canlarından keçmiş qəhrəman Vətən övladlarının xatirəsi bir dəqiqəlik sükutla yad olundu.

Şəxsi heyət hərbi orkestrin müşayiəti ilə Azərbaycan Respublikasının Dövlət Himnini ifa etdi.

Dövlətimizin başçısı tədbirdə çıxış etdi.

**Prezident, Ali Baş Komandan İlham Əliyevin çıxışı**

– Bu gün biz Silahlı Qüvvələr Gününü Kəlbəcərdə qeyd edirik, azad olunmuş Kəlbəcərdə. Eyni zamanda, bu gün Kəlbəcərdə yeni yaradılmış komando qüvvələrinin hərbi hissəsi açılır.

Altı ay bundan əvvəl, dekabrın 24-də birinci komando hərbi hissəsi azad edilmiş Hadrutda istifadəyə verilmişdir. Bu gün Kəlbəcərdə yeni yaradılmış komando qüvvələrinin hərbi hissəsini açırıq. Bu, onu göstərir ki, İkinci Qarabağ müharibəsindən sonra ordu quruculuğu prosesi sürətlə gedir və komando qüvvələri bütün digər silahlı birləşmələrlə bərabər ölkə qarşısında duran bütün vəzifələri yerinə yetirmək, ərazi bütövlüyünü müdafiə etmək və sərhədlərimizi qorumaq üçün bütün imkanlara malikdir.

Bu gün Silahlı Qüvvələrimizlə fəxr edə bilərik. Bu gün biz müzəffər xalq kimi, qalib ölkə kimi Ordu Gününü qeyd edirik. İşğal illəri dövründə hərbçilərlə çoxsaylı görüşlərdə – hərbi hissələrdə, səngərlərdə, Lələtəpə zirvəsində, hərbi paradlarda hər zaman deyirdim ki, gün gələcək biz öz doğma torpaqlarımızı qaytaracağıq. Hər zaman deyirdim ki, Ermənistan öz xoşu ilə bizim torpaqlarımızdan çıxmasa, biz hərbi yolla Qarabağ məsələsini həll edəcəyik. Belə də oldu. Müzəffər Azərbaycan Ordusu tarixi missiyanı şərəflə yerinə yetirdi.

Biz Vətən müharibəsində xalqımızın böyüklüyünü göstərdik, yenilməz ruhumuzu göstərdik, güclü iradəni göstərdik və göstərdik ki, Azərbaycan xalqı heç vaxt işğalla barışmaq fikrində deyildi. Sadəcə olaraq, biz istəyirdik ki, bu məsələ sülh yolu ilə həll olunsun və uzun illər apardığımız danışıqların məqsədi məhz bu idi. Biz istəmirdik ki, qan tökülsün. Ümid edirdik ki, beynəlxalq aləm Ermənistana sanksiyalar tətbiq etməklə işğalçını məcbur edib bizim torpağımızdan çıxaracaq. Ancaq əfsuslar olsun ki, biz bunu görmədik və Azərbaycan xalqı bütün gücünü səfərbər edib tarixi şərəfli missiyanı yerinə yetirib.

Biz müzəffər xalq kimi, qalib dövlət kimi bundan sonra əbədi yaşayacağıq. Ancaq biz bu şanlı Qələbəni əldə etmək üçün gecə-gündüz çalışmalı idik, güc toplamalı idik. Çünki bu gün dünyada güc amili ön plandadır. Beynəlxalq hüququn norma və prinsipləri işləmir, beynəlxalq təşkilatlar faktiki olaraq fəaliyyəti formal şəkildə davam etdirir. Haqq-ədalət bizim tərəfimizdə idi, beynəlxalq hüquq bizim tərəfimizdə idi, bizim torpaqlar işğal altında idi. Ancaq işğalçıya heç kim "Azərbaycan

torpaqlarından çıx!" deməmişdir. Ona görə biz güc toplamalı idik ki, özümüz bu vəzifəni icra edək və toplayırdıq. Siyasi güc topladıq, beynəlxalq aləmdə öz gücümüzü artırdıq. Bütün dünyaya sübut etdik ki, Qarabağ Azərbaycandır və Azərbaycan xalqı bu işğalla heç vaxt barışmayacaq. İqtisadi güc topladıq və iqtisadi müstəqillik əldə etdik. Əgər iqtisadi müstəqillik olmasaydı, imkanlarımız olmasaydı, biz müharibəni hansı vasitələrlə aparacaqdıq? Ona görə iqtisadi müstəqillik və sürətli inkişaf bizim Qələbəmizi yaxınlaşdırırdı.

Vətənpərvərlik işinə çox böyük önəm verirdik. Gənc nəsli vətənpərvərlik ruhunda tərbiyə etmək üçün bir çox tədbirlər görülmüşdür və buna nail olduq. Bu gün Azərbaycan gəncləri vətənpərvər gənclərdir, Vətənə bağlıdır və Vətən müharibəsi bunu bütün dünyaya göstərdi. Bizi Qələbəyə aparan ən başlıca amil milli ruh, ləyaqət, Vətənə sevgi idi və bunu gənc nəslin nümayəndələri, müstəqillik dövründə yetişən gənclər etdilər. Öz canlarını fəda edərək, ölümə gedərək bunu etdilər. Əziz şəhidlərimizin xatirəsi daim bizim qəlbimizdə yaşayacaq. Ona görə vətənpərvərlik, nizam-intizam, iqtisadi güc, siyasi mövqelər və əlbəttə ki, Silahlı Qüvvələrimizin müasir silahlarla təchiz edilməsi - bütün bu amillərin vəhdəti İkinci Qarabağ müharibəsinin nəticələrini şərtləndirdi. Cəmi 44 gün ərzində biz düşməni torpağımızdan qovduq, düşməni diz çökdürdük, onu məcbur etdik ki, ağ bayraq qaldırsın və Kəlbəcərdən məcbur olaraq çıxsın. Kəlbəcər bir güllə atılmadan azad edilmişdir. Biz onsuz da Kəlbəcəri azad edəcəydik. Çünki artıq Ermənistan ordusunun beli qırılmışdı, ancaq itkilər çox olacaqdı. Ona görə 44 gün ərzində Ermənistan ordusunu elə vəziyyətə saldıq ki, onların başqa yolu qalmamışdı.

Bizim şanlı müharibəmiz indi müxtəlif ölkələrin ali məktəblərinin hərbi dərsliklərindədir və bunu bir çox hərbi ekspertlər qeyd edirlər. Çox çətin relyefi olan ərazini, Şuşa kimi alınmaz qalanı cəmi 44 gün ərzində azad etmək ancaq Azərbaycan əsgərinin ruhu, gücü hesabına mümkün olmuşdur. Biz bütün dünyaya göstərdik ki, həm ruhən, həm fiziki cəhətdən, həm peşəkarlıq, həm döyüş qabiliyyəti, həm də Vətənə olan sevgi və məhəbbət nöqteyi-nəzərindən böyük xalqıq. Biz bu gün qalib insanlar kimi yaşayırıq. Bütün dünya azərbaycanlıları yaşadıqları yerlərdə başlarını dik tutub qalib xalqın nümayəndələri kimi yaşayırlar. Biz tarix qarşısında, əcdadlarımızın ruhu qarşısında və gələcək nəsillər qarşısında tarixi missiyanı icra etdik. Bu tarixi Qələbə daim bizim tariximizdə olacaq. Biz daim bu tarixi Qələbə ilə fəxr edəcəyik.

Ermənistan ordusu 44 gün ərzində demək olar ki, məhv edilmişdir. Ermənistan ordusunda panika, isterika vüsət almışdı. Özlərinin etirafına görə, 10 min fərari olmuşdu. Azərbaycan Ordusunda bir nəfər də döyüş meydanından qaçmadı. Budur Azərbaycan övladının ruhu, Vətənə olan bağlılığı. Qarabağın tacı olan Şuşanı – bu alınmaz qalanı alaraq biz Şuşada Azərbaycan bayrağını ucaltdıq. Ermənistan məcbur olub kapitulyasiya aktına imza atıb və o vaxt işğal altında qalan ərazilərdən çıxmağa məcbur olub.

Biz indi bütün sərhəd boyunca yerləşmişik. Bütün sərhədlərdə hərbi hissələr yaradılmışdır. Müharibədən keçən ilyarım ərzində biz gecə-gündüz çalışmışıq ki, ordumuzu daha da gücləndirək, daha da müasir silahlarla təchiz edək, sərhəd boyunca bütün əlverişli mövqelərə sahib olaq, yerləşək və buna nail olduq. Altı ay bundan əvvəl Hadrutda birinci komando hərbi hissəsi açılmışdır. Bu gün Kəlbəcərdə ikinci komando hərbi hissəsi açılır. Növbəti komando hərbi hissələrinin açılması nəzərdə tutulur və bu silahlı birləşmələrdə minlərlə azərbaycanlı xidmət edəcək. Bu, bizim gücümüzü daha da artıracaq.

Müharibədən sonra bu gün Azərbaycan Ordusu daha güclüdür – həm təchizat nöqteyi-nəzərdən, həm də döyüş qabiliyyəti nöqteyi-nəzərdən. Ona görə biz bundan sonra da Ordumuzun inkişafı üçün ciddi addımlar atacağıq. Ən müasir silahları almaq üçün yeni kontraktlar imzalandı. Bu kontraktlar artıq icra olunur, yeni silahlar, ən müasir texnika Azərbaycana gətirilir və gətiriləcək. Ermənistanla sərhəddə bizim mövqelərimiz daha da möhkəmlənəcək. Əgər Ermənistan sərhədlərin müəyyən edilməsi işində yenə də öz köhnə taktikasına qapılsa, vaxt uzatmağa çalışsa, nəticədə özü peşman olacaq. Biz Ermənistanda baş qaldıran revanşist qüvvələrin hərəkətlərinə diqqətlə baxırıq. Onlar da bunu bilsinlər. Bax, o dağın başında mənim sözlərim yazılıb: "Dəmir yumruq" yerindədir, bunu heç kim unutmasın".

Vətən müharibəsində Ermənistanı məğlub etməyimiz onlar üçün dərs olmalıdır. Onlar hesab edirdilər ki, orduları məğlubedilməzdir və öz orduları haqqında olmayan şayiələri yayırdılar. Biz göstərdik ki, onlar Azərbaycan Ordusu qarşısında duruş gətirə bilməzlər. Onlar bəyan edirdilər ki, Azərbaycan öz torpaqlarını heç vaxt silahlı yollarla ala bilməz. Çünki həm qurulmuş istehkamlar, həm 30 il ərzində mühəndislik işlərinin aparılması, həm də ki, bu bölgənin coğrafiyası onlar üçün çox əlverişli idi. Biz bu mifi də dağıtdıq və göstərdik ki, güclü iradə olan yerdə, xalq-iqtidar birliyi olan yerdə, hərbçilərin vətənpərvərliyi olan yerdə heç kim bizim qabağımızda dura bilməz. Əgər yenə də Ermənistanda revanşist qüvvələr baş qaldırsa, bilməlidirlər ki, onları nələr gözləyir.

Biz müharibə istəmirik, heç vaxt istəməmişik. Amma biz istəyirik ki, bizim maraqlarımız təmin olunsun. Biz istəyirik ki, müharibə nəticəsində yaradılmış reallıqlar hamı tərəfindən qəbul edilsin. Deyə bilərəm ki, dünyanın aparıcı qüvvələri postmüharibə reallıqlarını

artıq qəbul ediblər və öz fəaliyyətini bu reallıqlar əsasında qururlar. Ermənistan da bu reallığı qəbul etməlidir. Müharibədən cəmi bir il yarım keçibdir. Bu müharibəni unutmasınlar – nə onlar, nə də ki, sonrakı nəsillər. Bilsinlər ki, Azərbaycan güclü dövlətdir, Azərbaycanın güclü ordusu var, Azərbaycan əsgəri, zabiti dövlətimizi qorumaq üçün canını fəda etməyə hazırdır, necə ki, İkinci Qarabağ müharibəsində canlarını fəda etdilər.

Ordu quruculuğu ilə bağlı işlər planlı şəkildə gedir. Kəlbəcər rayonunda, Laçın rayonunda və azad edilmiş digər rayonlarda bir çox hərbi hissələr yaradılır və xidmət şəraiti də yaxşıdır. Bütün şərait təmin edilir ki, hərbçilərimiz xidmət şəraitini nəzərə alaraq daha yaxşı xidmət etsinlər.

Bu gün Ordu Gününü Kəlbəcərdə qeyd etməklə biz hamımız qürur hissi keçiririk. Kəlbəcər 1993-cü ilin aprel ayında işğal altına düşmüşdü. O vaxt hakimiyyətdə olan AXC-Müsavat xəyanətkar cütlüyü Kəlbəcəri nəinki müdafiə etmirdi, hətta Kəlbəcəri qurban verməyə hazır idi, bunu da etdi. Ondan əvvəl Laçın və Şuşa işğal altına düşdü və Kəlbəcərin işğal altına düşməsi ermənilərin planlarında idi. AXC–Müsavat hakimiyyəti talançılıqla, soyğunçuluqla məşğul olurdu, orduya, ordu təchizatına fikir vermirdi, bu bölgədə yaşayan insanlara fikir vermirdi, onlara biganə yanaşırdı və Kəlbəcər işğal altına düşdü. Beləliklə, Ermənistan öz arzularına, çoxəsrlik arzularına çatdı ki, Qarabağla, – o zaman “Dağlıq Qarabağ” adlandırılırdı, – bu bölgə ilə Ermənistan arasında canlı bağlantı olsun. Kəlbəcər, Laçın dağları bu bağlantının qabağını almışdı. Kəlbəcərin itirilməsi strateji nöqteyi-nəzərdən böyük faciə idi. Eyni zamanda, burada yaşayan insanların bir çoxu ermənilər tərəfindən öldürülüb, buradan çıxa bilən insanların bir çoxu Murov dağlarında donub və həyatlarını itirib. İndi buraya gələn hər bir insan Murov dağını aşaraq görür ki, nə qədər çətin yoldur, daim dumanlı yoldur və bu gün səhər mən oradan keçmişəm - yağış, duman. İnsanlar aprelin əvvəllərində o qarlı, şaxtalı havada oradan ayaqyalın keçməyə məcbur idilər. Onlara yolda da işgəncələr verildi, pusqular quruldu. Mənfur düşmən tərəfindən dinc əhali öldürüldü. Hərbi cinayətkarlar – Sarkisyan, Köçəryan bunu törətdilər: İkinci Qarabağ müharibəsi dövründə Xankəndiyə gəlmişdilər, guya orada müqavimət göstərəcəklər. Dovşan kimi, fərari kimi qaçdılar oradan. Ona görə Kəlbəcərin itirilməsi müharibənin ondan sonrakı gedişatına da əlbəttə ki, mənfi təsir göstərmişdi.

Biz Kəlbəcəri bir güllə atılmadan azad etdik, öz doğma diyarımızı qaytardıq və bu gün Kəlbəcərdə quruculuq işləri gedir. Mən ikinci dəfədir Kəlbəcərə gəlirəm və bu gün də bir çox tədbirlər var. Kəlbəcərin infrastrukturu, elektrik təchizatı, su təchizatı, evlərin tikilməsi - artıq buna start verilir. Əlbəttə ki, biz, ilk növbədə, hərbi təyinatlı yolları inşa etməliydik və bunu etdik. Bu gün bu hərbi hissənin açılması bir daha göstərir ki, biz istədiyimizə nail olacağıq – Qarabağı və Şərqi Zəngəzuru bərpa edəcəyik. Artıq bu proses başlamışdır və ilk növbədə, bu bölgədə – Qarabağda və Şərqi Zəngəzurda bizim hərbi gücümüz daim möhkəm olmalıdır. Ona görə bugünkü mərasim xüsusi məna daşıyır, rəmzi məna daşıyır.

Biz 1993-cü ilin aprelində itirdiyimiz Kəlbəcərdə bu gün Ordu Gününü qeyd edirik, qürurla qeyd edirik. Onu da deməliyəm, işğal dövründə müxtəlif variantlar müzakirə olunurdu, vasitəçilər tərəfindən bizə müxtəlif variantlar təklif edilirdi. Bütün bu variantlarda Kəlbəcərin Azərbaycana qaytarılması məsələsi ayrıca mövzu kimi gündəlikdə idi. Mən hər zaman deyirdim ki, biz bütün torpaqları geri almalıyıq. Beş rayonla biz kifayətlənə bilmərik. Kəlbəcər, Laçın, Şuşa, digər rayonlar da bizdə olmalıdır, bu, bizim tarixi torpağımızdır, dədə-babalarımızın diyarıdır və buna nail olduq. Kəlbəcərdə bu hərbi bayramı keçirmək əlavə zövq verir, bizim qəlbimizi daha da böyük qürurla doldurur.

Biz bütün dünyaya sübut etmişik ki, biz böyük xalqıq. Qarabağ hər zaman Azərbaycan torpağı olub – işğal dövründə də, müharibə dövründə də, müharibədən sonra da və bu gün də. Qarabağ Azərbaycandır!

Hərbçilər: Qarabağ Azərbaycandır!

Sonra Azərbaycan Respublikası Prezidentinin komando hərbi hissəsinə döyüş bayrağının verilməsi haqqında təqdimatı oxundu.

Polkovnik-leytenant Fəxrəddin Cavadov döyüş bayrağını Ali Baş Komandandan qəbul edərək and içdi.

Sonra komando hərbi hissəsinin şəxsi heyəti Müzəffər Ali Baş Komandan qarşısında “Komando andı”nı qəbul etdi.

Ali Baş Komandan “Komando andı”nı qəbul edən şəxsi heyəti təbrik etdi.

Şəxsi heyət təntənəli marşın sədaları altında döyüş bayrağı ilə tribunanın önündən keçdi.

Daha sonra Prezident İlham Əliyev hərbi şəhərcikdə əsgər yeməkxanası, tibb məntəqəsi, əsgər yataqxanası ilə tanış oldu, yeni inşa edilən qərargah binasında yaradılan şəraitlə maraqlandı.

Qərargah binasındakı akt zalında Quru Qoşunlarının komandanı general-leytenant Ənvər Əfəndiyev əməliyyat şəraiti barədə Ali Baş Komandana məlumat verdi.

Sonra Prezident İlham Əliyev hərbi şəhərciyin ərazisində uzunömürlülük rəmzi kimi çinar ağacı əkdi, şəhidlərin xatirəsinə ucaldılan abidə-kompleksini və “Dəmir yumruq” abidəsini ziyarət etdi.

Ali Baş Komandan Silahlı Qüvvələr Günü və yeni hərbi hissənin açılışı münasibətilə Müdafiə Nazirliyinin rəhbərliyini və şəxsi heyəti bir daha təbrik etdi, onlara uğurlar arzuladı.

Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev iyunun 26-da Kəlbəcər-Laçın avtomobil yolunun tikintisi ilə bağlı görülən işlərlə tanış olub.

Azərbaycan Avtomobil Yolları Dövlət Agentliyinin İdarə Heyətinin sədri Saleh Məmmədov dövlətimizin başçısına görülən işlər barədə məlumat verdi.

Bildirildi ki, Kəlbəcər və Laçın rayonlarını birləşdirən bu avtomobil yolu 2-4 hərəkət zolaqlı olmaqla, 1-ci və 2-ci texniki dərəcəyə uyğun olaraq inşa edilir.

Hazırda yolun müəyyən hissələrində qazma-dolğu işləri icra olunur, yeni torpaq yatağı inşa edilir. Bundan başqa, düzbucaqlı və dairəvi suötürücü boruların, həmçinin su kanallarının tikintisi, drenaj işləri və daş divarın inşası aparılır.

Qeyd olundu ki, layihə üzrə yol boyunca tikintisi nəzərdə tutulan avtomobil tunellərindən ikisində qazma prosesi davam etdirilir, birinin isə giriş və çıxış hissələrində işlərə başlanılıb.

Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev iyunun 26-da Laçın rayonunda 110 kV-luq "Qorçu" elektrik yarımstansiyasında görülən işlərlə tanış olub.

"Azərenerji" Açıq Səhmdar Cəmiyyətinin prezidenti Baba Rzayev dövlətimizin başçısına yarımstansiyada görülən işlər barədə məlumat verdi.

Bildirildi ki, Laçın rayonunun Azərbaycanın ümumi enerji sisteminə qoşulması, dayanıqlı və fasiləsiz elektrik enerjisi ilə təchiz edilməsi üçün ötən il istismara verilən "Kəlbəcər" yarımstansiyasından Laçının Qorçu kəndinə 42 kilometr məsafədə ikidövrəli olmaqla 110 kilovoltluq yüksəkgərginlikli ötürücü xətt çəkilir.

Bəzi yerlərdə 2200 metr yüksəklikdən, dağlıq, sıldırım qayalıq, çaylaq, sıx meşəlik və yolsuzluq şəraitində çəkilən ötürücü xətt üzrə hər birinin çəkisi orta hesabla 10 ton, hündürlüyü 40 metr olan 250-yə qədər anker və aralıq dayaq basdırılır.

Yüksəkgərginlikli xəttin üzərindəki ildırımötürücü funksiyalı 24 damarlı fiber-optik kabellə internet xətti çəkilir ki, bu da enerjisistemin idarə olunmasında siqnalların etibarlı şəkildə ötürülməsini təmin edəcək.

Paralel olaraq Laçın rayonunun Qorçu kəndində dəniz səviyyəsindən 1800 metr yüksəklikdə 110/35/10 kilovoltluq rəqəmsal yarımstansiya tikilir.

Sistem əhəmiyyətli "Qorçu" yarımstansiyasında idarəetmə mərkəzi, açıq və qapalı paylayıcı qurğular yaradılır. Yarımstansiyanın ərazisində işçi heyət üçün yataqxana binası tikilir, lazımi şərait yaradılır.

Qeyd edək ki, yarımstansiyanın yaxınlığında hava limanı tikilir və Qorçu kəndi mərkəz olmaqla, burada 7 kəndi birləşdirən yaşayış massivinin inşası planlaşdırılır.

Yeni yarımstansiya Laçın hava limanını, rayon ərazisindəki hərbi hissələri, gələcəkdə bölgədə inşa olunacaq bütün infrastrukturu elektrik enerjisi ilə təchiz edəcək.

Perspektivdə Laçın dəhlizində 110 kV-luq "Laçın Şəhər" və "Zabux" yarımstansiyalarını tikməklə, Qorçudan Laçın şəhərinə 110 kV-luq ikidövrəli elektrik verilişi xətti çəkiləcək və Laçın şəhərindən 110 kV-luq yeni xətt çəkilməklə "Şuşa" yarımstansiyası ilə əlaqələndiriləcək.

Ən əsası odur ki, Laçın şəhərindən Güləbird istiqamətində "Qubadlı" yarımstansiyasına ikidövrəli 110 kV-luq elektrik verilişi xətti çəkilməklə enerjisistem üçün mühüm əhəmiyyəti olan və regionun enerji dayanıqlılığını təmin edən dairəvi elektrik təchizat sxemi yaradılacaq.

İyunun 26-da Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev Laçın rayonunda "Həkəriçay" su anbarı layihəsi ilə tanış olub.

Azərbaycan Meliorasiya və Su Təsərrüfatı Açıq Səhmdar Cəmiyyətinin sədri Zaur Mikayılov dövlətimizin başçısına layihə barədə məlumat verdi.

Bildirildi ki, işğaldan azad olunmuş ərazilər həm təbii ehtiyatlar, biomüxtəliflik, meşə ərazilərinin bolluğu, həm də su ehtiyatları baxımından çox zəngindir. Azərbaycanda formalaşan su ehtiyatlarının təqribən 20 faizi məhz bu ərazilərin payına düşür. Başlanğıcını Laçın rayonu ərazisindən götürən Həkəri çayının uzunluğu 113 kilometr, orta illik su sərfi saniyədə 10,7 kubmetrə yaxındır. Həkəridə tutumu təxminən 90 milyon kubmetr olan su anbarı tikməklə buradakı təmiz, genetik faydalı suyu 254 kilometr uzunluğunda magistral yolla Sabirabada qədər gətirmək mümkündür. Artıq bu sahədə müvafiq tədqiqatlar aparılıb. Hazırda layihənin texniki-iqtisadi əsaslandırılması həyata keçirilir.

Qeyd edildi ki, "Həkəriçay" su anbarı içməli suyun toplanması üçün nəzərdə tutulur. Magistral üzərində nasos stansiyalarının tikilməsi ilə nisbətən hündür coğrafi ərazidə yerləşən 7 rayona suyun verilməsi planlaşdırılır. Layihənin istifadəyə verilməsi nəticəsində 3 milyona yaxın insanı içməli su ilə təmin etmək mümkün olacaq.

İyunun 26-da Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev Laçın Beynəlxalq Hava Limanında aparılan tikinti işləri ilə tanış olub.

Dövlətimizin başçısına hava limanında görülən işlər barədə məlumat verildi.

Bildirildi ki, təməli 2021-ci ildə qoyulan Laçın Beynəlxalq Hava Limanının tikintisinin 2024-cü ildə tamamlanması planlaşdırılır. Hava limanının uçuş zolağının uzunluğu 3000 metr, eni isə 60 metr olacaq.

Laçın dağlıq bölgə olduğuna görə ərazinin planlaşdırılması işləri davam etdirilir.

Aeroportun beynəlxalq standartlara uyğun olaraq layihələndirilən terminal binasının sahəsi 5000 kvadratmetrdir və saatda 200 sərnişinə xidmət edə biləcək.

Qeyd olundu ki, aeroportun hava hərəkətini idarəetmə qülləsinin, transformator binalarının, nəzarət-

buraxılış məntəqəsinin və digər yardımçı tikililərinin layihələndirilmə işləri də başa çatdırılıb.

Laçın Beynəlxalq Hava Limanında yaradılacaq şərait ICAO və IATA standartlarına uyğun uçuşların həyata keçirilməsinə imkan verəcək.

Hava limanı Laçın şəhərinə 30, Şuşaya 70, Kəlbəcərə 60 kilometrlik məsafədə yerləşir. Bu hava limanı strateji təyinatı ilə yanaşı, gələcəkdə regionun turizm potensialının tam inkişafına da imkan verəcək.

Laçın Beynəlxalq Hava Limanı Prezident İlham Əliyevin işğaldan azad olunan ərazilərdə yol-nəqliyyat strategiyasının vacib elementlərindən birini təşkil edir.

İyunun 26-da Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev Kəlbəcər şəhərinin Baş planı ilə tanış olub, İşğal və Zəfər muzeyləri kompleksinin təməlini qoyub.

Dövlət Şəhərsalma və Arxitektura Komitəsi sədrinin birinci müavini Namiq Hümmətov dövlətimizin başçısına Kəlbəcər şəhərinin Baş planı barədə məlumat verdi.

Bildirildi ki, Kəlbəcər şəhərinin Baş planının hazırlanması zamanı onun özünəməxsus simasının formalaşdırılması üçün ərazinin coğrafi yerləşməsinə, quruluşuna uyğun olaraq müxtəlif memarlıq ənənələri də araşdırılıb, tətbiq edilə biləcək nümunələrlə bağlı təkliflər verilib. Baş planın konseptual əsasını sağlamlıq və dağ turizmi imkanlarının inkişafı, təbiətlə vəhdətdə yaşıl şəhər mühitinin yaradılması təşkil edir. Şəhərin mərkəzi hissəsində çoxmənzilli binalar, ətraflara doğru isə həyətyanı sahəsi olan fərdi evlər inşa olunacaq. Növbəti 20 il ərzində Kəlbəcər şəhərinin ərazisinin 237 hektara, əhalisinin sayının isə 17 min nəfərə çatacağı proqnozlaşdırılır.

Ağdam, Cəbrayıl, Füzuli və Zəngilan rayonlarından sonra Kəlbəcər rayonunda da Zəfər və İşğal muzeyləri yaradılacaq.

Prezident İlham Əliyev Kəlbəcər Zəfər və İşğal muzeylərini layihələndirən "ACN" şirkətinin nümayəndələri ilə görüşdü.

Şirkətin icraçı direktoru Laura Konti dedi: Sizi görmək bizim üçün şərəfdir.

Prezident İlham Əliyev: Gəldiyiniz üçün təşəkkür edirəm.

Laura Konti: Bizi dəvət etdiyiniz üçün minnətdarıq. Burada olmaqdan məmnunluq və şərəf hissi keçiririk. Təşəkkür edirəm. Xüsusilə bu möhtəşəm mühitdə, gözəl təbiətdə olmaq heyrətamizdir. Bura bizim olduğumuz ən gözəl yerlərdən biridir.

Prezident İlham Əliyev: Bəli, bütün bu ərazilər belədir. Bütün bu ərazilər yaşıllıqdır.

Laura Konti: Təbiət heyrətamizdir. Təbiət bizim layihənin ilham mənbəyidir.

Dövlətimizin başçısı İşğal və Zəfər muzeylərinin layihəsini əks etdirən videoçarxa baxdı.

Prezident İlham Əliyevə Kəlbəcər şəhərində inşa olunacaq İşğal və Zəfər muzeyləri kompleksi barədə məlumat verildi. Qeyd olundu ki, hər iki muzey şəhərin mərkəzində salınacaq parkda tikiləcək. Bu, gözəl bir mühitdə yerləşən möhtəşəm layihə olacaq. Çünki bu ərazi landşaftına görə heyrətamiz gözəlliyə malikdir. Kompleksin bir hissəsi işğal tarixinə, digəri isə Zəfərə həsr olunacaq. Bu layihə ilə həm də təbiətə ehtiram nümayiş olunacaq.

"ACN" şirkətinin nümayəndəsi: Ermənilər buranı işğal ediblər, lakin burada yaşamayıblar.

Prezident İlham Əliyev: Yaşamayıblar və hər şeyi dağıdıblar.

Şirkətin nümayəndəsi: Hər şeyi bir-bir dağıdıblar.

Prezident İlham Əliyev: Bunu etmək üçün heç bir səbəb yox idi. Biz onlara qarşı heç bir pis iş görməmişik. Biz etnik təmizləməyə məruz qalmışıq. Onlar bizim torpağımıza gəldilər, hər şeyi dağıtdılar və getmədilər. Kəlbəcəri tərk etmək üçün onlara vaxt verəndə nə etdilər? Evləri yandırmağa, ağacları kəsməyə başladılar və 32 su elektrik stansiyasını dağıtdılar. Təsəvvürünüzə gətirirsinizmi?

Şirkətin nümayəndəsi: Mən su elektrik stansiyalarının dağıdılmasını görmüşəm.

Laura Konti: Hər şey yandırılmışdır.

Sonra dövlətimizin başçısı İşğal və Zəfər muzeyləri kompleksinin təməlini qoydu.

İyunun 26-da Kəlbəcər Rəqəmsal İdarəetmə Mərkəzinin təməli qoyulub.

Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev mərasimdə iştirak edib.

Dövlətimizin başçısına məlumat verilib ki, Kəlbəcər rayonu ərazisində xüsusi dövlət əhəmiyyətli obyektlərin və hərbi hissələrin elektrik enerjisi ilə təmin olunması istiqamətində genişmiqyaslı işlər bu gün də davam etdirilir. İşlər çərçivəsində mənbə kimi Gəncə şəhərində yerləşən "Gəncə-2" yarımstansiyasından Daşkəsənə 110 kV-luq elektrik verilişi xətti çəkilib. Kəlbəcərin dayanıqlı və keyfiyyətli elektrik enerjisi ilə təminatında bu xətt müstəsna rol oynayacaq. Bu, Azərbaycanda ən mürəkkəb və çətin relyeflərdən keçən yüksəkgərginlikli xətdir. Dağlarda texnikanın rahat hərəkət etməsi üçün əvvəlcə yol inşa edilib.

Diqqətə çatdırılıb ki, Kəlbəcərin yüksək dağlıq ərazidə yerləşməsinə və çətin şəraitə baxmayaraq, "Azərişıq" Açıq Səhmdar Cəmiyyəti tərəfindən işlər bu gün də sürətlə davam etdirilir. Sovet dövründə elektrik enerjisinin olmadığı ucqar ərazilərdə belə müasir elektrik şəbəkələr qurulur. Rayonun Alagöllər və digər əraziləri ilk dəfə "Azərişıq" ASC tərəfindən elektrik enerjisi ilə təmin olunur, Zod qızıl yatağı ərazisinə 35 kV-luq mühafizəli, izolyasiyalı kabel xəttinin çəkilməsi işləri davam edir.

Görülən işlər nəticəsində Kəlbəcərdə iki istiqamət üzrə 110 kV-luq hava xətləri bərpa edilib, bir istiqamətdə 110 kv-luq, dörd müxtəlif əraziyə isə 35 kV-luq elektrik xətləri çəkilib. Ümumilikdə rayon ərazisində müxtəlif güclərdə 15 komplekt transformator məntəqəsi quraşdırılıb.

Bundan başqa, altı müxtəlif istiqamətdə 35 kV-luq müasir izolyasiyalı kabel xətlərinin çəkilməsi nəzərdə tutulub. Həmçinin 110/35 kV-luq "İstisu" yarımstansiyasının, Kəlbəcər və Laçın rayonlarının elektrik şəbəkələrini birləşdirən dairəvi elektrik təchizat sxeminin yaradılması planlaşdırılıb.

İyunun 26-da Kəlbəcərdə “İstisu” mineral su zavodunun təməli qoyulub.

Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev mərasimdə iştirak edib.

Prezidentin İşlər müdiri Ramin Quluzadə dövlətimizin başçısına görüləcək işlər barədə məlumat verdi.

Bildirildi ki, istifadəyə veriləcək zavodda həm şüşə, həm də plastik butulka istehsalı xətlərinin qurulması planlaşdırılır. Müəssisədə gündə 327 min, ildə isə 95 milyon butulka mineral su istehsal olunacaq. Suyun mənbəyinə gəldikdə, 200 metr dərinlikdə yeni quyu qazılıb. Çıxışda istilik 60-65 C dərəcəyə bərabərdir.

Azərbaycan Prezidenti İlham Əliyev Kəlbəcər “İstisu” mineral su zavodunun təməlini qoydu.

Qeyd edək ki, “İstisu” bulağının suyu kimyəvi tərkibi və fiziki xüsusiyyətlərinə görə seçilir. Laborator analizlər göstərib ki, mineralların miqdarı 6,7 qrama çatan bir litr suyun tərkibi litium, brom, yod, mərgümüş, fosfor, sink, mis, nikel, maqnezium, dəmir və digər kimyəvi maddələrlə zəngindir. Bu bulaqların suyundan mədə-bağırsaq, qaraciyər, öd kisəsi və sair xəstəliklərin müalicəsində istifadə edilir.

Statistikaya görə, Azərbaycanda mineral suların ümumi ehtiyatının 33 faizi Kəlbəcər və Laçın rayonlarında yerləşir. Bu rayonlarda suların gündəlik istismar ehtiyatı 7393 kubmetr təşkil edir ki, bunun da 42 faizi Laçının, 58 faizi isə Kəlbəcərin payına düşür.

İyunun 26-da Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev Kəlbəcər rayonunda “Çıraq-1” Kiçik Su Elektrik Stansiyasında tikinti işlərinin gedişi ilə tanış olub.

Dövlətimizin başçısına stansiyada görülən işlər barədə məlumat verilib.

Bildirilib ki, “yaşıl enerji” strategiyasına uyğun olaraq hazırda Kəlbəcər rayonunun ərazisində ümumi gücü 27 meqavat olan 5 kiçik su elektrik stansiyası tikilir.

Kiçik su elektrik stansiyalarında ümumilikdə 9 hidroaqreqat fəaliyyət göstərəcək. Stansiyaların enerjisistemə inteqrasiyası üçün 110 və 35 kV-luq xətlər çəkilir. İşlərin böyük hissəsi görülən bu 5 stansiya rəqəmsal qaydada mərkəzi SCADA Dispetçer İdarəetmə Sisteminə inteqrasiya ediləcək. Açılıb-qoşulma, intellektual tənzimləmə, operativ monitorinq və təhlil aparılması mümkün olan yeni stansiyaların idarə edilməsi Kəlbəcərdən olduğu kimi, Bakıdan da həyata keçiriləcək.

Kəlbəcərdə yeni tikilən elektrik stansiyalarında il ərzində ümumilikdə 100 milyon kilovat/saata yaxın ekoloji cəhətdən təmiz enerji istehsal olunacaq. Bu isə 50 milyon kubmetr təbii qaza qənaət edilməsi deməkdir.

“Azərenerji” ASC-nin mütəxəssislərinin apardığı araşdırmalar göstərir ki, ermənilərin təbiəti məhv etməklə köhnə nəsil texnologiyalar əsasında kortəbii hesablamalarla apardıqları planlaşdırmadan fərqli olaraq, dördüncü nəsil sənaye inqilabına uyğun süni intellektə adaptasiya edilən müasir texnologiyalar əsasında ölkənin ən böyük su bazası olan bol sulu Kəlbəcər və Laçın çayları üzərində nəzərdə tutulandan dəfələrlə artıq ekoloji cəhətdən təmiz hidroyaşıl enerji istehsal etmək mümkündür.

Qeyd edilib ki, növbəti illərdə Kəlbəcər və Laçın rayonlarında yenidən qurulması təklif edilən digər kiçik su elektrik stansiyalarının ümumi gücü 82,2 MVt təşkil etsə də, yeni hesabatlara əsasən bu həcmi iki dəfə artırmaq mümkün olacaq.

Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev iyunun 26-da Kəlbəcər rayonunda “İstisu” sanatoriyasının təməlqoyma mərasimində iştirak edib.

Prezidentin İşlər müdiri Ramin Quluzadə dövlətimizin başçısına sanatoriyada görüləcək işlərlə bağlı məlumat verdi.

Bildirildi ki, 34 hektar ərazidə salınması nəzərdə tutulan “İstisu” İstirahət-Müalicə Kompleksi gündəlik 300 nəfər qəbul etmək imkanına malik olacaq. Kompleksdə sağlamlıq-bərpa mərkəzi ilə yanaşı, 10 kottecin tikilməsi də planlaşdırılır.

Diqqətə çatdırıldı ki, Kəlbəcərin İstisu kəndinin məşhur mineral suyu olan "İstisu" bulağı ətrafında 1928-ci ildə eyniadlı sanatoriya yaradılıb. İşğal dövründə yararsız hala salınan sanatoriya yeni simada tam bərpa olunacaq və əvvəlki şöhrəti qaytarılacaq.

Prezident İlham Əliyev “İstisu” sanatoriyasının təməlini qoydu.

Sonra dövlətimizin başçısı çıxış etdi.

**Prezident İlham Əliyevin çıxışı**

– Kəlbəcər və Laçın rayonlarına mənim səfərim başa çatır. Keçən il olduğu kimi, bu il də burada - İstisu qəsəbəsində başa çatır. İstisu qəsəbəsinin inkişafı ilə bağlı artıq konkret addımlar atılır. İlk növbədə, yeni su zavodunun tikintisi nəzərdə tutulur. Bu gün mən bu su zavodunun təməlini qoydum. Vaxtilə məşhur olan İstisu suyu yenidən buraxılacaq, istehsal olunacaq, Azərbaycanda

istehlak olunacaq və ixrac ediləcək. Eyni zamanda, arxada gördüyünüz İstisu sanatoriyasının dağıntılarıdır. Keçən il burada bu dağıntılarla tanış oldum və göstəriş verdim ki, bu yerdə – İstisu qəsəbəsində yeni mehmanxana inşa edilsin və müalicə mərkəzi yaradılsın. Çünki vaxtılə sovet dövründə minlərlə insan gəlib burada dincəlib, öz sağlamlığını bərpa edib, bu gözəl təbiətdən zövq alıb.

Bu dağıntılar erməni faşizminin təzahürüdür. Onlar binalarımızı, məscidlərimizi, məktəblərimizi, şəhər və kəndlərimizi dağıdıblar. Bu sanatoriyanı da dağıdıblar. Amma bir müddətdən sonra burada yeni gözəl mehmanxana və müalicə mərkəzi yaradılacaq. Mən hesab edirəm ki, bu, çox vacibdir. Çünki İstisu sanatoriyası və İstisu suyu bu bölgənin rəmzi, Kəlbəcərin təbii sərvəti idi. Bu gün biz – bu torpaqların sahibləri vaxtılə əlimizdən alınmış bütün sərvətləri özümüzə qaytarmışıq. Bütün şəhər və kəndlərimizi yenidən, sıfırdan bərpa edirik və edəcəyik, o cümlədən Kəlbəcər rayonunda, Laçın rayonunda böyük quruculuq işləri gedir.

Ancaq mənim iyunun 26-da bu rayonlara səfərimin əsas səbəbi bu gün – Silahlı Qüvvələr Günündə hərbçilərlə bir yerdə olmağımdır. Mən bu gün hərbçilərlə – yeni yaradılmış komando qüvvələri ilə Ordu Gününü Kəlbəcərdə qeyd etdim. Hesab edirəm ki, bunun çox böyük rəmzi mənası var. Hərbi xidmət nöqteyi-nəzərdən bu bölgə – Kəlbəcər-Laçın zonası həm iqlim, həm relyef, həm də təbiət baxımından bəlkə də ən çətin bölgədir. Ona görə bu gün mən burada olmalı idim, Müzəffər Ordumuzla bərabər olmalı idim, hər zaman olduğu kimi.

Eyni zamanda, bu fürsətdən istifadə edərək son bir il ərzində burada görülmüş işlərlə də tanış oldum. Görürdüm, baxırdım, mənim göstərişlərim necə yerinə yetirilir, ümumiyyətlə, Kəlbəcər və Laçın rayonlarının inkişafı ilə bağlı hansı əlavə addımlar atılmalıdır. Çünki bu rayonların bərpası azad edilmiş digər rayonlara nisbətən daha çətindir. Ona görə ki, biz hələ də Murov aşırımından keçib gəlməliyik. Qış aylarında gediş-gəliş çətindir. Hava limanı hələ hazır deyil ki, yükləri hava yolu ilə göndərək. Ona görə bu bölgələrin, bu iki rayonun inkişafı ilə bağlı işlər gedir. Ancaq, əlbəttə, bu təbii şərait imkan vermir ki, bu işlər daha geniş vüsət alsın. Amma buna baxmayaraq, bütün infrastruktur layihələri uğurla icra edilir. Keçən il 4 su elektrik stansiyası istifadəyə verilib. Bu il isə 5 su elektrik stansiyasının istifadəyə verilməsi təmin ediləcək. Həmin 4 stansiya artıq işləyir və ümumi enerji gücümüzü artırır, bərpaolunan enerji növlərinin həcminin artırılmasına xidmət göstərir.

Yollar çəkilir. Kəlbəcər və Laçın rayonlarında 10-dan çox tunel inşa edilir. Təsəvvür edin, 10-dan çox tunel. Onların arasında ən böyük tunelin uzunluğu təxminən 12 kilometrdir. Biz bu tuneli Murov dağının altından çəkirik ki, buraya gediş-gəliş rahat olsun. Bu, həm mülki əhali üçün, həm hərbçilər üçün, həm də müdafiə nöqteyi-nəzərdən lazımdır. Hazırda bütövlükdə 10-dan çox tunel tikilir və gələcəkdə bu tunellərin sayı daha da çox ola bilər. Çünki burada hər tərəf dağlardır, meşələrdir. Qarabağ bölgəsində isə indi 10-dan çox tunel, 9 viaduk, onlarla körpü inşa edilir. Görün, həm Zəngəzurda, həm də Qarabağda ancaq yol təsərrüfatına aid olan nə qədər genişmiqyaslı işlər görülür. Çünki bunlar – elektrik enerjisi və yol əsasdır. Bunlar olmadan heç bir inkişafdan söhbət gedə bilməz.

Bu gün mənə, eyni zamanda, digər infrastruktur layihələrinin icrası ilə bağlı məlumat verildi. Hesab edirəm ki, qısa müddət ərzində, – müharibədən cəmi ilyarım keçib, – bu genişmiqyaslı işlərin görülməsi həm gücümüzü, niyyətimizi, iradəmizi göstərir, bir daha xalqımızın böyüklüyünü göstərir. Biz bunu təkbaşına edirik və edəcəyik.

Bu gün Kəlbəcər şəhərinin Baş planı mənə təqdim edildi. Bu Baş planı hazırlayan şirkət Zəngilan şəhərinin Baş planını da hazırlayıb. Mən o vaxt demişdim ki, Zəngilan şəhəri təbiətə sıx inteqrasiya olunmalıdır, park-şəhər olmalıdır, Kəlbəcər də həmçinin. Kəlbəcərin də özünəməxsus füsunkar təbiəti var. Kəlbəcər şəhərinin Baş planının təsdiq olunması əlbəttə ki, bu təbii gözəlliyi ehtiva edir. Artıq ilin sonuna qədər müfəssəl layihələndirmə gedəcək və ondan sonra yaşayış binaları, məktəb, xəstəxana inşa ediləcəkdir. Hərbi hissələr, ictimai yerlər artıq fəaliyyət göstərir. Göstəriş vermişəm ki, Kəlbəcərdə mütləq aşıq mərkəzi və lazım olan digər tikililər inşa edilsin. Bu, ancaq Kəlbəcər şəhərinin Baş planıdır. Kəlbəcər rayonunun inkişafı ilə bağlı isə bizdə konsepsiya artıq hazırdır. Kəndlərin yenidən qurulması konsepsiyamız hazırdır və biz bunu icra edəcəyik.

Laçın rayonunda yeni hava limanı inşa edilir. Bu hava limanının tikintisinin ən çətin tərəfi Laçın rayonunda və Kəlbəcər rayonunda düz yerin olmamasıdır. Ona görə biz dağları yarırıq, dağları kəsirik ki, zolaq üçün uyğun şərait yaradılsın. Ona görə bu torpaq işləri hələ gələn il də davam edəcək. Ümid edirəm ki, 2024-cü ildə Laçın rayonunda beynəlxalq hava limanı açılacaq və ondan sonra gediş-gəliş daha rahat olacaq. Əminəm ki, bu bölgə turizm zonası olacaq. Çünki burada olan təbii gözəllik heç bir yerdə yoxdur. Təbii gözəllik – çaylar, bulaqlar, meşələr – biz bütün bu sərvətdən məhrum idik, ermənilər bizim xalqımızı məhrum etmişdilər. Otuz il ərzində bizim təbii sərvətlərimizi istismar edir, ağaclarımızı kəsirdilər, – 60 min hektar ağac fondu, meşə fondu məhv edilib, – çaylarımızı zəhərləyir, binalarımızı sökür, qızıl yataqlarımızı qanunsuz istismar edirdilər. Hər şeyi qanunsuz edirdilər. Bu gün erməni

vəhşiliyi haqqında dünyada kifayət qədər böyük məlumat var və biz bu məlumatı daha da genişləndirəcəyik.

Bu gün, eyni zamanda, Kəlbəcər şəhərində İşğal və Zəfər muzeylərinin təməli qoyuldu. Azad edilmiş bütün şəhərlərdə mənim göstərişimlə İşğal və Zəfər muzeyləri inşa edilməlidir. Artıq bir neçə şəhərdə layihələr təsdiqlənib. Bu gün Kəlbəcər şəhərində də bu layihə təsdiqləndi və təməl daşı atıldı.

Yəni, biz hərtərəfli iş görürük – həm infrastruktur işləri, xəstəxanalar, məktəblər, yaşayış binaları, mədəniyyət obyektləri, məscidlərimizin bərpası, muzeylər, hava limanları, dəmir yolları, tunellər. Cəmi bir il yarım ərzində görülən bütün işləri sadalamaq mümkün deyil. Bu onu göstərir ki, biz bu torpaqların sahibləriyik. Bu torpaqlar 30 il ermənilərin əlində idi. Nə qoyub getdilər? Xarabaxana, viran qoyulmuş şəhərlər, kəndlər! Dəfələrlə demişəm, hər dəfə də bu dağıntıları görəndə bir daha deyəcəyəm: Elə bil ki, burada vəhşi qəbilə yaşayıb. Burada ondan da eybəcər işlər görülüb – ancaq dağıtmaq, sökmək, yandırmaq. Bu qədər nifrət, bu qədər qeyri-insani hərəkət, görəsən, haradan qaynaqlanır? Bunu gərək psixoloqlar, yaxud psixiatrlar bizə desinlər. Çünki normal adam bu əməllərə əl atmaz.

Biz isə qurub-yaradan xalqıq. Biz gəlmişik, tamamilə dağılmış 10 min kvadratkilometr ərazidə yeni həyat qururuq. Artıq yeni həyatın təzahürləri görünməkdədir. Azad edilmiş şəhərlərimizdə, kəndlərimizdə artıq geniş inşaat işləri gedir. Məsələn, mənə verilən məlumata görə, indi Şuşa şəhərində mindən çox insan yerləşib və inşaat işləri ilə məşğuldur, xidmət sahəsində işləyir. Artıq Ağdamda sənaye parkı yaradılır. Zəngilanda, Ağalı kəndində birinci "ağıllı kənd" layihəsi istismara verilmişdir. Yəni, bunu biz edirik, biz – bu torpaqların sahibləri. Ancaq hər kəs bilməlidir, bu, çox genişmiqyaslı işdir.

Bununla bərabər, Ermənistanla bütün sərhəd boyunca yeni mövqelər, yeni postlar quraşdırılır. Heç vaxt olmayan, Ermənistan sərhədinə gedən bir çox yollar salınır ki, biz mövqelərə daha rahat gələ bilək.

Bütün bu işlərin həcmi bir daha xalqımızın böyüklüyünü göstərir. Onu göstərir ki, bir daha demək istəyirəm, biz bu torpaqların sahibiyik, buraya qayıtmışıq və burada əbədi yaşayacağıq. Qarabağ Azərbaycandır!

# AZƏRBAYCAN RESPUBLİKASININ PREZİDENTİ İLHAM ƏLİYEVİN NİTQLƏRİ, ÇIXIŞLARI VƏ MÜSAHİBƏLƏRİ

## *Macarıstanda keçirilmiş Güləş üzrə Avropa çempionatında iştirak edən Azərbaycan millisinin üzvlərinin qəbulunda İlham Əliyevin nitqi*

Salamaleykum, əyləşin.

Bir neçə gün bundan əvvəl Budapeştdə keçirilmiş Avropa çempionatında güləşçilərimiz bir daha xalqımızı sevindirmişlər, böyük qələbə ilə Vətənə qayıtmışlar. 16 medal qazanmış idmançılar bir daha Azərbaycanın idman şöhrətini yüksəklərə qaldırmışlar. Bu medalların birini qadın idmançımız qazandı, qalanlarını isə sərbəst güləş və yunan-Roma güləşi üzrə komandalarımız. Beləliklə həm sərbəst güləş, həm yunan-Roma güləşi üzrə komandalarımız Avropada birinci oldular. Bu, böyük qələbədir, böyük nailiyyətdir. Avropada birinci olmaq, istənilən idman növündə birinci olmaq böyük uğur hesab edilə bilər. Əlbəttə ki, bir daha Azərbaycan güləşçilərimiz bizim güləşimizi təbliğ etmişlər, çünki güləş bizim ənənəvi idman növümüzdür. Güləşin çox böyük ənənələri vardır və bu ənənələr yaşayır.

Bir müddət bundan əvvəl elə bu otaqda gənc güləşçilərlə görüş zamanı onlara bildirmişdim, yarışa çıxanda unutmamalıdırlar ki, müzəffər ölkəni və qalib xalqı təmsil edirlər. Mən onları da gənclər arasında Avropa çempionatında birinci yerlə bağlı ürəkdən təbrik edərkən demişdim ki, onlar gələcəkdə də bizi sevindirməlidirlər, böyüklər arasındakı yarışlarda çıxış edərkən bu uğurları təkrar etməlidirlər. Həm gənclər, həm böyüklər arasında Avropada birinci yeri tutmaq bir daha demək istəyirəm ki, böyük nailiyyətimizdir və onu göstərir ki, güləşdəki ənənələrimiz yaşayır və güclü gənc nəsil yetişir. Böyüklər arasında biz öz gücümüzü hər dəfə təsdiqləyirik, həm ölkəmizin idman şöhrəti və bütövlükdə ölkəmizin nüfuzu artır.

Əminəm ki, böyüklər arasında keçirilmiş çempionatda bizim idmançılarımız da eyni fikirlə, eyni duyğu ilə yarışlara çıxırdılar və bu yüksək məsuliyyəti dərk edirdilər. Çünki doğrudan da, cəmi 44 gün ərzində böyük tarixi Qələbə qazanmış xalqı təmsil etmək həm böyük qürurdur, həm də böyük məsuliyyətdir. İdmanın inkişafı və idman nailiyyətləri təkcə ölkəmizi dünyada təbliğ etmir, gücümüzü göstərmir, eyni zamanda, cəmiyyətdə vətənpərvərlik hisslərini gücləndirir. Məhz vətənpərvərlik, Vətənə olan sədaqət, fədakarlıq bizi Qarabağın azad olunması uğrunda müharibədə irəliyə aparırdı.

Gənc nəsil də mütləq vətənpərvərlik ruhunda tərbiyə almalıdır, milli ruhda tərbiyə almalıdır, milli dəyərlər əsasında tərbiyə almalıdır və Azərbaycan dövləti buna nail olmaq üçün bütün imkanlardan istifadə edir. Vətənpərvərliyi daha da gücləndirən amillərdən biri əlbəttə ki, tarixi-hərbi Zəfərimizdir və eyni zamanda, idman uğurlarımızdır. Əminəm ki, Azərbaycan vətəndaşları – həm idmansevərlər, həm də idmanla o qədər də maraqlanmayan vətəndaşlar həmişə idman arenalarında əldə edilmiş qələbələrin xəbəri gələndə sevinirlər. Hamımız sevinirik, çünki sevinirik ki, siz buna nail olmusunuz. Bu, sizin həyatınızda çox əlamətdar və unudulmaz hadisədir. Bu titul – Avropa çempionu, yaxud da ki, gümüş, bürünc mükafatçısı əbədi sizinlə olacaqdır. Həm də biz hamımız sevinirik. Çünki gənc nəsil yetişir, gənclər Vətəni ləyaqətlə təmsil edirlər, hərə öz yerində, idmançı, hərbçi, mütəxəssis. Hər bir Azərbaycan vətəndaşı öz əməyi ilə ölkəmizi gücləndirir. Məhz buna görə bu gün Azərbaycan dünyada sürətlə inkişaf edən ölkə kimi tanınır və dünyada nadir ölkələrdəndir ki, öz taleyini özü həll edir, müəyyən edir, öz siyasətini müstəqil şəkildə aparır və istər döyüş meydanlarında, istər siyasi arenalarda qələbə qazanır.

Güləş, qeyd etdiyim kimi, hər birimiz üçün çox əziz idman növüdür, yəqin ki, Azərbaycanda ən populyar, ən məşhur idman növüdür. Ona görə həm məşqçilər, həm idman federasiyasının nümayəndələri, Gənclər və İdman Nazirliyi bu amili nəzərə alaraq güləşə əlbəttə ki, xüsusi diqqət verməlidirlər. Əminəm ki, gələcək yarışlarda biz, əlbəttə, birinci sıralarda olacağıq. Gələcək yarışlara gəldikdə isə iki ildən sonra Yay Olimpiya Oyunları keçiriləcək. Vaxt az qalıb və hesab edirəm ki, nəinki güləş, eyni zamanda, bütün idman növlərində lisenziya qazanacaq idmançılar bu əsas yarışa indidən hazırlaşmalıdırlar, düzgün təlim-məşq toplanışları, yarışlar müəyyən edilməlidir. Əminəm ki, belə də olacaq və Yay Olimpiya Oyunlarında da biz bir daha ölkəmizin gücünü, idman gücünü göstərəcəyik. Çünki Olimpiya Oyunları, Yay Olimpiya Oyunları bütün idman yarışları arasında əlbəttə ki, xüsusi yer tutur, fərqlənir. Hesab edirəm ki, bütövlükdə növbəti Olimpiya Oyunlarında Azərbaycan çox uğurla çıxış edə bilər. İndidən bir şey deyə bilmərəm, çünki hələ iki il vaxt var, amma gərək bütün səylərimiz məhz bu məqsədə çatmaq üçün hesablansın. Bir məsələ də var ki, artıq biz bu qələbələrə öyrəşirik və necə deyərlər, bu yüksək nəticələri saxlamaq çətin olacaq, idmanda hər şey ola bilər

- məğlubiyyət də, qələbə də. Ancaq əminəm, gələcək yarışlarda nəticələrə baxmayaraq əsas odur ki, idmançılarımız ölkəmizi ləyaqətlə təmsil etsinlər, necə ki, bu günə qədər ləyaqətlə təmsil edirlər. Mən Budapeştdə keçirilmiş çempionatın gedişatına da nəzər yetirirdim, baxırdım, görürdüm ki, ən çətin anlarda rəqib cığallıq edəndə, nalayiq hərəkət edəndə bizim idmançılarımız öz gücü ilə qaydalar çərçivəsində rəqibi yerinə oturda bilmişdilər. Buna fikir verərkən yenə də İkinci Qarabağ müharibəsindəki hadisələr yadıma düşdü, o vaxt da mənfur düşmən döyüş meydanında məğlub olarkən, qaçarkən, 10 min fərari verərkən ən çirkin əməllərə əl atmışdı, ən çirkin əməllərə. Dinc insanlara qarşı terror əməllərinə əl atmışdır. Bizim şəhərlərimiz, dinc şəhərlərimiz gecə vaxtı ballistik raketlərlə atəşə tutuldu, 100-dən çox dinc insan, onların arasında uşaq, qadın, yaşlı insan bu namərd atəş nəticəsində həlak oldu. Amma mən o vaxt demişdim, hələ müharibə gedə-gedə demişdim ki, biz ermənilərin əməllərini heç vaxt təkrar etməyəcəyik. Biz düşmənə döyüş meydanında cavab verəcəyik. Elə cavab verəcəyik ki, onlar əbədi bu dərsi yadda saxlasınlar. Mən keçirilmiş Avropa çempionatında da eyni xasiyyəti gördüm, Azərbaycan xalqına xas olan xasiyyəti. Ədalət, eyni zamanda, mərhəmət, məğlub edilmiş tərəfə müəyyən dərəcədə mərhəmət hisslərinin göstərilməsi də xalqımıza xas olan xüsusiyyətlərdən biridir. Əsas odur ki, biz düşməni və ya idman rəqibini məhz qaydalar çərçivəsində, ləyaqət prinsipi əsasında məğlub etməliyik. Bunu görərkən mən bir daha əmin oldum ki, Azərbaycan xalqının gələcəyi bundan sonra da çox parlaq olacaq, bundan sonra da istənilən idman növündə. Misal üçün, biz indi bunu futbol yarışlarında da gördük. Bizim məşhur məşqçimiz Qurban Qurbanov çox ləyaqətli hərəkət etmişdir və qol sayıla biləcək vəziyyətdə demişdir ki, yox, bu, bizə lazım deyil, bizə saxta nailiyyət lazım deyil, qazanılmamış uğur lazım deyil. Nəyi qazanmışıqsa, öz əməyimizlə qazanmışıq. O cümlədən Qarabağ məsələsini də öz əməyimizlə, gücümüzlə, zəkamızla həll etmişik. İdman yarışlarında, yəni, feyr-pley anlayışı unudulmamalıdır və Azərbaycan idmançıları bu prinsiplərə həmişə əməl etməlidirlər. Çünki bu, qələbədən də vacibdir. Çünki bilirsiniz, qələbə, əlbəttə, hər bir idmançı üçün çox önəmlidir, onun həyatında, necə deyərlər, böyük iz buraxır. Ancaq qələbədən daha vacib ləyaqətdir və biz müharibəni ləyaqətlə aparmışıq. Bu gün bütün dünya bir daha xalqımızın böyüklüyünü görür, hər şey göz qabağındadır. İdmanda da elə olmalıdır, elədir və bu halal qələbəni siz öz istedadınız, zəhmətiniz hesabına qazanmısınız və eyni zamanda, bir daha xalqımızın böyüklüyünü göstərmisiniz. Həm qələbə münasibətilə, həm ləyaqətli davranış münasibətilə sizi təbrik edirəm. Əlbəttə ki, biz hamımız, bütün Azərbaycan xalqı sizdən yeni qələbələr gözləyir. Sağ olun.

## *2022-ci ilin birinci rübünün yekunlarına həsr olunan müşavirədə İlham Əliyevin giriş və yekun nitqləri*

### İlham Əliyevin giriş nitqi

İlin üç ayı arxada qaldı. Bu gün biz görülmüş işləri təhlil edəcəyik, eyni zamanda, ilin sonuna qədər olan planlar haqqında danışacağıq. Bu ilin üç ayında ölkəmiz bütün sahələrdə uğurla inkişaf edib. Biz bu üç ayın yekunlarını keçən il əldə edilmiş uğurların davamı kimi qiymətləndirməliyik.

Keçən il ölkəmizin həyatında çox əlamətdar bir il olmuşdur. Müharibədən sonra birinci il olmuşdur. Əlbəttə ki, müharibədən sonrakı dövr üçün keçən ilin çox böyük əhəmiyyəti olmuşdur. Bizim əsas məqsədimiz keçən il həm azad edilmiş torpaqlarda bərpa işlərinə start vermək idi, eyni zamanda, beynəlxalq müstəvidə yeni reallıqları qəbul etdirmək idi və hər iki istiqamət üzrə nəticələr göz qabağındadır.

Postmünaqişə dövrünün birinci ilinin nəticələri deməyə əsas verir ki, qarşımızda duran bütün vəzifələr icra edilmişdir. Biz, ilk növbədə, beynəlxalq təşkilatlarla öz təmaslarımızı, fəal əməkdaşlığımızı davam etdirmişik və dünyanın aparıcı beynəlxalq təşkilatları yeni reallıqları qəbul etmişlər. İlk növbədə, BMT xətti ilə Şuşa şəhərində bu yaxınlarda beynəlxalq tədbir keçirilmişdir – Azərbaycanın BMT-yə üzvlüyünün 30 illiyinə həsr edilmiş tədbir. Bu, çox əlamətdar hadisə idi. Bu, bir daha onu göstərdi ki, BMT Azərbaycanın ərazi bütövlüyünü tam tanıyan qurumdur. Əlbəttə ki, biz BMT-yə üzv olandan sonra işğalla üzləşdiyimiz dövrdə gördük ki, BMT, onun Təhlükəsizlik Şurası ədalətli qərarlar qəbul etmişlər. Əfsuslar olsun ki, bu qərarlar 30 ilə yaxın bir müddətdə kağız üzərində qalmışdır. Ancaq Qarabağ münaqişəsinin həlli, Azərbaycan tərəfindən birtərəfli həlli, eyni zamanda, BMT-nin üzərindən bu yükü götürmüş oldu. Şuşa şəhərində bu tədbirin, bir daha demək istəyirəm ki, xüsusi əhəmiyyəti var idi və təsadüfi deyil ki, Ermənistanda bu, növbəti panikaya, isterikaya səbəb olmuşdur.

Digər aparıcı beynəlxalq təşkilatlardakı fəaliyyətimiz də uğurlu idi. BMT-dən sonra ən böyük beynəlxalq təsisat Qoşulmama Hərəkatıdır. Qoşulmama Hərəkatına hazırda Azərbaycan sədrlik edir və bildiyiniz kimi, bütün üzv dövlətlərin razılığı və dəstəyi ilə bizim

sədrliyimiz bir il daha da uzadıldı. Bu, bizə göstərilmiş böyük etimadın təzahürüdür. Qoşulmama Hərəkatı Azərbaycan bu hərəkata üzv olandan dərhal sonra keçmiş münaqişə ilə bağlı ədalətli mövqe nümayiş etdirmişdir və hesab edirəm ki, müharibədən sonra bu istiqamətdə əlavə önəmli hadisələr baş vermişdir. Birmənalı şəkildə Qoşulmama Hərəkatı həm müharibədən əvvəl, işğal dövründə, həm müharibə dövründə, həm müharibədən sonra Azərbaycanla həmrəy olmuşdur.

Digər böyük beynəlxalq təşkilat İslam Əməkdaşlıq Təşkilatıdır. İslam Əməkdaşlıq Təşkilatı işğal dövründə dəfələrlə ədalətli, bizim mövqeyimizi əks etdirən qərar-qətnamələr qəbul etmişdir. Bu yaxınlarda İslam Əməkdaşlıq Təşkilatının xarici işlər nazirləri səviyyəsindəki toplantıda bir daha bir neçə qətnamə – Azərbaycan mövqeyini dəstəkləyən, o cümlədən Azərbaycanın tarixi-dini abidələrinin ermənilər tərəfindən dağıdılmasına dair önəmli qərar-qətnamələr qəbul etmişdir və təşkilatın rəhbərliyi azad edilmiş torpaqlara səfərlər etmişlər.

ATƏT, hansı ki, Minsk qrupuna mandat vermişdir. ATƏT də yeni reallıqları tam qəbul edib. Bu yaxınlarda ATƏT-in fəaliyyətdə olan sədri ilə mənim görüşüm olub və görüş bir daha onu göstərdi ki, ATƏT də yeni reallıqları qəbul edir və bu da çox əlamətdar hadisədir. ATƏT-in Minsk qrupuna gəldikdə, müharibədən dərhal sonra Minsk qrupunun həmsədrləri Bakıya gəlmişdilər. Bu, onların Azərbaycana müharibədən sonra birinci və sonuncu səfəri idi və o görüşlə bağlı mətbuatda kifayət qədər məlumat var, təkrar etmək istəmirəm. Bizim mövqeyimiz həmişə birmənalı olub. Biz müzakirə zamanı nəyi demişiksə, rəsmi açıqlamalarda da eyni tezisləri, eyni fikirləri səsləndirmişik. Biz bu münaqişəni özümüz həll etdik. Minsk qrupu İkinci Qarabağ müharibəsinə qədər 28 il fəaliyyətdə idi və həmsədr ölkələr bu illər ərzində Azərbaycana, Ermənistana bəlkə də yüzlərlə səfər etmişlər. Nəticə də göz qabağındadır, nəticə sıfır. Bunun səbəbləri də Azərbaycan ictimaiyyətinə məlumdur. Bu haqda çox danışmaq istəməzdim. Nəticə göz qabağındadır və bir daha demək istəyirəm ki, nəticə sıfır və Azərbaycan bu münaqişəni özü həll edib. Hərbi-siyasi yollarla həll edib. Minsk qrupuna münaqişənin həlli üçün verilmiş mandat faktiki olaraq de-yure qüvvədə olsa da, de-fakto artıq etibarsız sayıla bilər. Müharibədən keçən dövr ərzində – son Rusiya-Ukrayna müharibəsinə qədər olan dövr ərzində biz bu məsələ ilə bağlı öz fikirlərimizi bildirmişdik. Bizim xarici işlər nazirimiz Minsk qrupunun həmsədrləri ilə müxtəlif beynəlxalq tədbirlərdə görüşmüşdür və biz deyirdik ki, siz bizə deyin görək, nə ilə məşğul olmaq istəyirsiniz? Dağlıq Qarabağ münaqişəsi həll olunub, Azərbaycan ərazisində Dağlıq Qarabağ inzibati ərazisi yoxdur və olmayacaq. Siz nə ilə məşğul olmaq istəyirsiniz, deyin, biz də bilək və öz fikrimizi bildirək. Bir ildən çox müddətdə bu məsələ ilə bağlı bizə hər hansı bir təklif verilməmişdir. İndiki şəraitdə isə Minsk qrupu, onun həmsədrlər formatı faktiki olaraq qeyri-funksional vəziyyətdədir. Bunu artıq bu həmsədr ölkələrin yüksəkvəzifəli şəxsləri bildirirlər və belə olan halda, əlbəttə ki, hər hansı bir qrup şəklində fəaliyyətdən söhbət gedə bilməz. Hesab edirəm ki, ATƏT bir mötəbər beynəlxalq təşkilat kimi öz rolunu oynaya bilər. Bu yaxınlarda qeyd etdiyim kimi, ATƏT-in fəaliyyətdə olan sədri ilə görüşlər əsnasında mən bildirmişdim ki, vətəndaş cəmiyyətinin nümayəndələri, media nümayəndələri, digər ictimai rəyə nüfuz, yəni təsir edə bilən şəxslər ATƏT-in fəaliyyəti çərçivəsində, yəni ki, bu format çərçivəsində görüşlər keçirə bilərlər ki, Ermənistan-Azərbaycan əlaqələri normallaşsın. İndi gündəlikdə duran məsələ budur. Dağlıq Qarabağ münaqişəsi həll olunub. İndi məsələ Ermənistan-Azərbaycan münasibətlərinin normallaşmasıdır və istənilən beynəlxalq təşkilat, bu sahədə öz töhfəsini verə bilən təşkilat, əlbəttə ki, qəbuledilələndir.

Eyni zamanda, Avropa İttifaqı ilə bizim təmaslarımız müharibədən sonra daha intensiv xarakter almışdır. Avropa İttifaqı da postmünaqişə dövrünün reallıqlarını qəbul etmişdir. Avropa İttifaqı Şurasının Prezidenti cənab Şarl Mişelin təşəbbüsü ilə dekabr və aprel aylarında üçtərəfli görüşlər keçirilmişdir. Görüşlər haqqında məlumat verilmişdir, bu məsələ ilə əlaqədar çox da danışmaq istəmirəm. Ancaq, əlbəttə ki, həm ekspertlər, həm Azərbaycan ictimaiyyəti gördülər ki, yekun kommunikedə “Dağlıq Qarabağ” adı yoxdur, bu da təbiidir. Çünki Azərbaycan buna etiraz etmişdir və “münaqişə” sözü də yoxdur. Bu da təbiidir, çünki münaqişə yoxdur. Münaqişə həll olunub. İndi isə Avropa İttifaqı Azərbaycan-Ermənistan əlaqələrinin normallaşması ilə məşğuldur və son aprel görüşündə – 6 aprel tarixində keçirilmiş görüşdə bu məsələlər müzakirə edilmişdir. Bildiyiniz kimi, Azərbaycan iki ölkə arasındakı əlaqələri normallaşdırmaq üçün 5 prinsipdən ibarət təklif vermişdir və Ermənistan tərəfi də bu təklifə müsbət yanaşmışdır və Brüssel görüşünə qədər artıq bu açıqlamalar verilmişdir. Brüssel görüşündə isə mən bunu özüm üçün, sadəcə olaraq, daha da yəni, aydınlaşdırmaq istəyirdim və aydınlaşdırdım ki, Ermənistan 5 prinsipi qəbul edir. Beləliklə, Azərbaycanın ərazi bütövlüyü qəbul edilir və Ermənistan Azərbaycana ərazi iddiasından əl çəkir. Yəni, əgər bu 5 prinsipi qəbul edirsə, – bu, aprel görüşündə təsdiqləndi, - bu məsələlər bu 5 prinsipin tərkib hissəsidir. Bu, çox müsbət haldır və hesab edirəm ki, ikitərəfli əlaqələrin normallaşdırılması üçün əsas şərtdir. Razılaşdırıldı ki, həm sərhədlə, həm də sülh müqaviləsinin hazırlanması ilə bağlı işçi qrupları yaradılsın. Bildiyiniz kimi, bu günlərdə Azərbaycan və Ermənistan

xarici işlər nazirləri arasında hesab edirəm ki, yaxın tarixdə, bəlkə də son 30 il ərzində birinci dəfə telefon söhbəti də olmuşdur. Biz bunu da müsbət qiymətləndiririk. Çünki iki ölkə arasındakı münasibətləri iki ölkə həll etməlidir. Buna köməklik göstərmək istəyənlər kömək göstərməlidirlər. Mən bunu belə görürəm, bizim mövqeyimiz bundan ibarətdir. Hesab edirəm ki, sərhədin delimitasiyası ilə bağlı aprelin sonuna qədər formalaşdırılacaq işçi qruplar, eyni zamanda, sülh müqaviləsinin hazırlanmasına dair işçi qruplar tezliklə öz işinə başlamalıdır. Bu prosesə biz çox böyük ümidlərlə baxırıq və vaxt itirmək lazım deyil. Hər halda, biz bunun tərəfdarıyıq ki, vaxt itirmədən məsələnin həllinə başlayaq.

Beləliklə, bir daha demək istəyirəm, müharibədən dərhal sonra apardığımız siyasət, beynəlxalq təşkilatlardakı fəaliyyətimiz, ikitərəfli formatda böyük dövlətlərlə əlaqələrimiz, eyni zamanda, Qarabağ və Şərqi Zəngəzurda baş verən inkişaf və hadisələr, bax, bu reallıqlara gətirib çıxarıb. Onu da bildirməliyəm ki, biz beynəlxalq təşkilatlarla yanaşı, qonşu ölkələrlə də sıx əlaqədə idik. Bütün qonşu ölkələr yeni, postmünaqişə reallıqlarını qəbul etmişlər və bu da çox müsbət hal kimi qiymətləndirilməlidir. Eyni zamanda, 3+3 əməkdaşlıq formatının işə düşməsi də bizi sevindirir. Birinci belə görüş keçirilmişdir. Birinci görüşün gündəliyi yox idi. Bu, sadəcə olaraq, bu formatı yaratmaq üçün bir görüş idi. İkinci görüş üçün gündəliklə bağlı bizim planlarımız var, hansı məsələlər orada müzakirə olunmalıdır. Hesab edirəm ki, yaxın gələcəkdə ikinci görüş də keçirilməlidir. Yəni, vaxt itirmək lazım deyil. Bizə bu formatlar, sadəcə olaraq, görüntü naminə lazım deyildir. Bu formatlar əgər konkret nəticə verməsə, onda onun əhəmiyyəti də itəcəkdir.

Biz real işlərin tərəfdarıyıq və gələcəkdə bölgənin inkişafı ilə bağlı bizim çox aydın təsəvvürümüz var, biz bilirik nə istəyirik və öz məqsədlərimizə bundan sonra da çatmaq üçün bütün imkanlardan istifadə edəcəyik. Bax, postmünaqişə dövrü ilə bağlı əsas məsələlər bundan ibarətdir və bu işlərin böyük hissəsi 2021-ci ildə, bir hissəsi isə bu ilin üç ayında görülüb. Bu, bizə imkan verir ki, əgər bütün bu gündəlik həyatda öz əksini taparsa, bölgədə, doğrudan da Cənubi Qafqazda sülh olacaq, əmin-amanlıq olacaq, müharibə riskləri böyük dərəcədə azalacaq və beləliklə, biz rahat yaşaya bilərik. Azərbaycan xalqına xas olan yüksək xüsusiyyətləri nəzərə alaraq qurub yarada bilərik. Bunu edirik və bu haqda da bu gün danışacağıq.

Eyni zamanda, əlbəttə, biz heç vaxt bu işğalı unutmamalıyıq, erməni vəhşiliyini unutmamalıyıq. Eyni zamanda, onu da unutmamalıyıq ki, bu gün Azərbaycan güclüdür, Ermənistan zəifdir. Ermənistan tərəfinin davranışı da məhz bu amillərə söykənir. Biz real həyatda yaşayırıq və 1990-cı illərin əvvəlində Ermənistan tərəfindən bizə qarşı aparılmış etnik təmizləmə siyasətini, Xocalı soyqırımını, işğalı heç vaxt unutmamalıyıq, azərbaycanlılar kimi həmişə bizim yaddaşımızda olmalıdır. Məsuliyyətli insanlar kimi həmişə biz hər şeyə hazır olmalıyıq.

Əlbəttə, gələcəyə baxdıqda, mən tam əminəm ki, Azərbaycan daha da güclənəcək. Bu gün digər məsələləri müzakirə edərkən bir daha Azərbaycan ictimaiyyəti bunu görəcəkdir. Ermənistanın isə inkişafı onun özündən asılı olacaq, Ermənistanın qonşu ölkələrə olan münasibətindən asılı olacaq. Çünki indi hər kəsə aydındır ki, Azərbaycanla və Türkiyə ilə əlaqələri normallaşdırmadan Ermənistan inkişaf edə bilməz və onların 30 illik işğalçılıq siyasəti onların özlərinə baha başa gəldi. Onlar real müstəqil ölkə olmaq şansını itirmişlər. Biz isə 30 il ərzində, – baxmayaraq ki, torpaqlarımız işğal altında idi, – tam siyasi və iqtisadi müstəqilliyə nail olmuşduq. Ona görə bu gün inamla və qürurla öz sözümüzü bütün kürsülərdə deyirik. Ona görə Ermənistan üçün bəlkə də bu, son şansdır. Ya ölkə inkişaf edəcək, ya da daha ağır vəziyyətə düşəcək. İnkişaf üçün də, bir daha demək istəyirəm ki, ilk növbədə, Azərbaycan və Türkiyə ilə əlaqələr beynəlxalq hüquq norma və prinsiplər əsasında normallaşmalıdır.

Qeyd etdiyim kimi, biz heç nəyi unutmamışıq və unutmayacağıq. Ona görə müharibədən dərhal sonra bütün başqa bərpa işləri ilə bərabər, biz həmişə olduğu kimi hərbi sahəyə də fikir vermişik. Bildirməliyəm ki, müharibədən sonra Türkiyə və İsrail şirkətləri ilə yeni, böyük kontraktlar imzalandı. Bəzi kontraktların icrası başlanmışdır, bəzi kontraktların icrası başa çatmışdır, bəzilərinin isə icrası davam edir.

Müharibənin 44 gününün hər günü dərindən təhlil edildi və əlbəttə, bu təhlil bizə imkan verdi ki, biz gələcək ordu quruculuğumuzu real vəziyyətə əsaslanaraq quraq. Bunu nəzərə alaraq yeni silahların, texnikaların alınması da təşkil edilir. Bununla bərabər, müharibədən sonra Müdafiə Nazirliyində struktur islahatları aparılmışdır, struktur dəyişikliyi edilmişdir və bu, ordumuzu daha da gücləndirəcək, daha da müasirləşdirəcək. Müharibədən sonra yeni qoşun növü – Komando növü yaradılmışdır və Hadrutda birinci Komando hərbi bazasının açılışında mən şəxsən iştirak etmişəm. Bu, çox güclü bir qoşun növüdür. Əminəm ki, hazırda artıq bu qoşun növü istənilən vəzifəni icra edə bilər. Biz isə sadəcə olaraq, komandoların sayını ildən-ilə artıracağıq. Hesab edirəm ki, onların sayı ilə bağlı məlumat vermək yersizdir, ancaq hər kəs bilməlidir ki, minlərlə tam hazırlıqlı döyüşçü artıq hazırlanıb və hazırlanacaq.

Bununla paralel olaraq, İkinci Qarabağ müharibəsində xüsusi qəhrəmanlıq göstərmiş Xüsusi Təyinatlı

Qüvvələrin şəxsi heyətinin sayı artırıldı və artırılacaq. Hərbi məsələlərin həlli üçün nə qədər vəsait lazımdırsa, o qədər də vəsait ayrılacaq və ayrılır. Ermənistanda isə bu, tam fərqlidir. Ermənistanda xaricdən nə qədər maliyyə yardımı, yaxud da qaytarılmayan kreditlər ayrılarsa, onlar o qədər də xərcləyə bilərlər. Bu məsələyə də mən aydınlıq gətirmək istəyirəm. Hesab edirəm ki, bölgədə sülhün bərqərar olunması üçün Ermənistanın silahlanmasına son qoyulmalıdır. Ermənistanın özünün silah almağa pulu yoxdur, heç vaxt da olmayıb. İkinci Qarabağ müharibəsində biz Ermənistanın haradasa 4-5 milyard dollarlıq dəyərində hərbi texnikasını məhv etmişik. Bu texnikanın bir hissəsi qənimət kimi götürülüb, biz ondan istifadə edirik. Bir hissəsi isə Hərbi Qənimətlər Parkında nümayiş etdirilir. Sual olunur: Kasıb ölkədə bu qədər pul haradandır? Bu kreditlər haradandır? Bu kreditlərin sonra pulu qaytarılıbmı, qaytarılmayıbmı? Yoxsa silinib? Əgər o kreditlər verilməsəydi, mən tam əminəm ki, İkinci Qarabağ müharibəsinə ehtiyac qalmazdı. Ermənistan özü gəlib boynunu büküb razılığa gələrdi, necə ki, kapitulyasiya aktını imzaladı, bütün şərtlərimizi qəbul etdi və müharibədən sonra da necə deyərlər, tam başqa mövqe sərgiləyir. Ona görə əgər yenidən Ermənistanın silahlanmasına pul ayrılacaqsa, biz bunu qeyri-dost addım kimi qiymətləndirəcəyik və öz addımlarımızı buna uyğun şəkildə atacağıq.

Biz isə əlbəttə, öz hesabımıza yaşayan ölkə kimi bundan sonra ordu quruculuğuna, bir daha demək istəyirəm, nə qədər pul lazımdırsa, o qədər də ayıracağıq.

Postmünaqişə dövründə, əlbəttə, biz bütün bizim iqtisadiyyatla bağlı, ərazilərin bərpası ilə bağlı addımlarımızı ölçüb-biçilmiş şəkildə atmışıq və nəticələr də göz qabağındadır. Azərbaycanda postmünaqişə dövrü ilə bağlı bütün planlar yerinə yetirilir. Qeyd etdiyim kimi, beynəlxalq ictimaiyyət həm siyasi nöqteyi-nəzərdən bu reallıqları qəbul edib, eyni zamanda, bizə olan maraq daha da artıb - həm hörmət, həm maraq. Bu marağı biz böyük investisiya layihələrində görürük. Təkcə bu ilin üç ayında iki böyük investisiya layihəsinə start verildi – bərpaolunan enerji üzrə iki elektrik stansiyasının təməli qoyuldu. 470 meqavat gücündə olan stansiyalar xarici investorlar tərəfindən inşa edilir və gələn il istismara veriləcək. Beləliklə, böyük həcmdə təbii qaza qənaət edib öz ixrac imkanlarımızı genişləndirə bilərik. Eyni zamanda, bu, digər investorlar üçün də hesab edirəm ki, çox önəmli bir məsələdir. Hazırda həm aparılan islahatlar, həm şəffaflıq, həm kadr islahatları nəticəsində, eyni zamanda, İkinci Qarabağ müharibəsindəki Qələbəmiz nəticəsində Azərbaycana çox böyük maraq var. İş görmək, biznes əlaqələri qurmaq müraciətləri kifayət qədər çoxdur. Bu gün dünya miqyasında Azərbaycan nadir ölkələrdəndir ki, bu qədər marağı özünə cəlb edə bilib.

Bizim iqtisadi göstəricilərimiz də çox müsbətdir. Birinci rübün yekunları, bu rəqəmlər faktiki olaraq heç bir şərhə ehtiyac qoymur. Ümumi daxili məhsul 6,8 faiz artıb. Hazırda dünya, əgər belə demək mümkündürsə, postpandemiya dövrünə qədəm qoyur və bəlkə də “postpandemiya” sözünü işlətmək bir qədər tezdir. Amma hər halda, dünyadakı və Azərbaycandakı indiki vəziyyət buna işarə verir. Ona görə 6,8 faiz artan iqtisadiyyatımız hesab edirəm ki, böyük nailiyyət sayıla bilər. Qeyri-neft sektorunda isə bu, daha da yüksək rəqəmlərlə ölçülür. Qeyri-neft iqtisadiyyatımız 10 faizdən çox artıb. Sənaye istehsalı sahəsində artım təxminən 4 faizdir, ancaq qeyri-neft sənaye istehsalında 18 faizdən çoxdur. Bu rəqəmlər özlüyündə dediyim sözlərin təsdiqidir. Çünki iqtisadiyyatın şaxələndirilməsi, neft-qaz sektorundan asılılığın azaldılması, həm ümumi daxili məhsuldakı payının, həm ixracdakı payının aşağı düşməsi – bütün bunlar reallıqlardır.

Xarici ticarət dövriyyəmiz 60 faizdən çox artıb. İxracımız təxminən iki dəfə artıb. Əlbəttə, burada neftin artan qiymətləri də nəzərə alınmalıdır. Ancaq qeyri-neft ixracımız da kifayət qədər artıb – 45 faiz. Bu da məhz aparılan islahatlar nəticəsində baş vermiş hadisədir. Mən başqa ölkələrlə Azərbaycanı heç vaxt müqayisə etməmişəm. Amma inanmıram ki, bir çox ölkələrdə buna oxşar statistika olsun. Əlbəttə, xarici ticarət dövriyyəmiz artıb və xarici dövlət borcumuz azalıb. Əgər keçən ilin aprel ayı ilə müqayisə etsək, görərik ki, keçən ilin aprelində xarici dövlət borcumuz ümumi daxili məhsulun 18 faizini təşkil edirdi, hazırda cəmi 12,5 faizini təşkil edir. Yəni, biz bir il ərzində xarici borcu təqribən 600 milyon dollardan çox bir səviyyədə aşağı sala bilmişik. Bu da xarici borcun idarə edilməsi strategiyasının icrası nəticəsində mümkün olmuşdur. Mən vaxtilə qarşıya vəzifə qoymuşdum ki, biz kreditlərin alınmasına çox böyük ehtiyatla yanaşmalıyıq. Eyni zamanda, dövlət şirkətləri hansılar ki, vaxtilə heç kimdən soruşmadan özbaşına müxtəlif kreditlər götürürdülər. Sonra da bu kreditləri qaytara bilməyəndə bu ödəniş dövlətin üzərinə düşürdü. Eyni zamanda, çox qeyri-şəffaf mənzərə müşahidə olunurdu. Buna da son qoyuldu. İndi heç bir dövlət qurumu hökumətin icazəsi olmadan bir manat kredit götürə bilməz. Hər götürülən kredit də hökumət tərəfindən təsdiqlənir və kreditləri biz ancaq vacib olan layihələrə cəlb etməliyik, yüksək texnoloji komponenti olan layihələrə, eyni zamanda, azad edilmiş torpaqlarda həyata keçirilən layihələrə. Digər layihələrə kreditlərin verilməsinə ehtiyac yoxdur. Məhz buna görə biz xarici dövlət borcumuzu həm mütləq rəqəmlərlə, həm ümumi daxili məhsula nisbətdə azaltmışıq. Təbii ki, ümumi

daxili məhsul da artıb və hələ ki, mən rəqəm səsləndirmək istəmirəm. Amma hesab edirəm ki, əgər biz bu templərlə inkişafı davam etsək, ilin sonuna qədər çox əhəmiyyətli bir artım olacaqdır. Xarici ticarətin balansı da çox müsbətdir, müsbət saldo cəmi üç ayda 5 milyard dollardan çoxdur. Yəni, bu, çox böyük rəqəmdir. Mütəxəssislər onu da bilirlər ki, dünyanın əksər ölkələrində saldo mənfidir. Ölkələr daha çox idxal edir, nəinki ixrac edir. Azərbaycanda isə təkcə üç ayda 5,1 milyard dollar gəlir – bizim ixracımız idxalı üstələyir. Əlbəttə ki, ilin sonuna qədər əminəm bu rəqəm daha da artacaq. Həm makroiqtisadi sabitliyə bunun əvəzolunmaz təsiri var, eyni zamanda, valyuta ehtiyatlarımızın artması da göz qabağındadır. Üç ayda da valyuta ehtiyatlarımız artıb. Ona görə, bütün bu göstəricilərlə biz haqlı olaraq fəxr edə bilərik. Amma o demək deyil ki, biz bu nailiyyətlərlə kifayətlənməliyik. Yox. İndi dünyada proseslər mənfi istiqamətdə gedir. Toqquşmalar, müharibələr alovlanır və gələcəkdə sabitliyin təmin edilməsi ilə bağlı müxtəlif fikirlər var. Dünyada ərzaq qıtlığı ola bilər, ərzaq qiymətləri qalxır. Biz bu gün bu haqda da danışacağıq. Onu da bildirməliyəm ki, biz bütün bu nailiyyətləri öz zəhmətimiz hesabına qazanmışıq. Heç kimdən bir manat dəstək almamışıq. Azad edilmiş torpaqları da yüz faiz öz gücümüzə bərpa edirik. Bəli, xarici şirkətləri dəvət etmişik. Onlar orada podratçı kimi işləyir. Amma bu günə qədər heç kimdən bir manat almamışıq. Ancaq öz gücümüzə, öz istedadımıza güvənirik. Bunu mən xüsusilə qeyd etmək istəyirəm. Çünki adətən belə qanlı müharibələrdən, belə dağıntılardan sonra, – Qarabağ və Zəngəzurda dağıntıların dünyada bənzəri yoxdur, heç İkinci Dünya müharibəsində bu qədər dağıntılar olmamışdı, – donor konfransları, beynəlxalq təşkilatlar yığışır və bərpa planı icra edilir. İndi yenə də İkinci Dünya müharibəsinin tarixçəsinə nəzər salmaq kifayətdir. O vaxt Marşal planı tətbiq edilmişdir. Əgər Amerika Avropanı bərpa etmək üçün bu planı tətbiq etməsəydi, Avropa öz gücünə öz potensialını bəlkə də 50 ilə bərpa edə bilərdi. Digər münaqişələrlə bağlı beynəlxalq fondlar maliyyə yardımı göstərirlər. Bizə isə heç kim heç bir yardım göstərmir, nə işğal dövründə, nə də sonra. Hətta ölkələrin əksəriyyəti işğalı işğal kimi adlandırmaq istəmirdilər. Mənim yadımdadır, işğal dövründə beynəlxalq təşkilatlardakı fəaliyyətimiz, eyni zamanda, ikitərəfli formatda apardığımız danışıqlar əsnasında biz güc-bəla ilə, zorla ölkəmizin ərazi bütövlüyü prinsipini o bəyannamələrə saldırırdıq. Bir çoxları imtina edirdi. Halbuki bu, gün kimi aydın idi, kim işğalçıdır, kim işğala məruz qalan ölkədir. İkili standartlar, ədalətsizlik, bax, budur. Biz bunu bu gün də görürük, Rusiya-Ukrayna müharibəsində görürük. Vaxtilə biz torpaqlarımızı işğaldan azad edəndə və məşhur "Bayraktar" dronlardan istifadə edəndə xarici ekspertlər və mətbuat bunu ölüm silahı kimi qələmə verirdi. İndi isə Rusiya-Ukrayna müharibəsində bunu mələk adlandırırlar. Fərq budur, ikili standartlar budur, bizə qarşı ədalətsizlik budur. Bu, reallıqdır. Biz isə öz gücümüzlə yeni reallıq yaratmışıq və yaradırıq. Ona görə bir daha demək istəyirəm ki, mən hələ də ümid edirəm, beynəlxalq təşkilatlar, böyük fondlar, xeyriyyəçiliklə məşğul olan beynəlxalq qeyri-hökumət təşkilatları bir nəzər yetirəcəklər. Ağdam Qafqazın Xirosimasıdır. Bunu mən yox, beynəlxalq mütəxəssislər deyir. Ağdam kimi bütün şəhərlər ermənilər tərəfindən yerlə-yeksan edilib. Biz heç kimdən bir manat almamışıq. Ancaq bu ədalətsizliklə barışmaq da olmaz. Mən hesab edirəm ki, bizim qurumlarımız, hökumət, Prezident Administrasiyası, nazirliklər, hərə öz xətti ilə bu məsələ ilə bağlı gərək ciddi fəaliyyət göstərsin. Yardım göstərmək istəmirlərsə, desinlər ki, biz sizə yardım etməyəcəyik. Biz də işimizi bilək. Yəni, müharibədən təxminən bir il yarım keçibdir. Bir fond belə bizə heç bir yardım göstərməyib. Minaların təmizlənməsi ilə bağlı – müharibədən sonra 200-dən çox insan ya həlak olub, ya da ki, ağır yaralanıb. Dünyada bu məsələ ilə məşğul olan o qədər fondlar var, QHT-lər var. Nə ilə məşğuldurlar? Gəlsinlər, kömək göstərsinlər. Bizim fiziki cəhətdən gücümüz çatmır. Biz nə lazımdırsa, almışıq. Maşın, mexanizm almışıq, texnika almışıq, hətta dronlar almışıq ki, o minalarla çirklənmiş yerləri təsbit edir. Ancaq bizdə mütəxəssis çatışmır, bizdə işçi qüvvə çatışmır. Ona görə, heç olmasa, bu sahədə bizə kömək göstərsinlər. Yenə də deyirəm, biz onsuz da öz gücümüzlə hər şeyi bərpa edəcəyik. Mən demişəm, Qarabağı da, Zəngəzuru da nümunəvi bir bölgə kimi quracağıq. Azərbaycan vətəndaşları orada rahat, firavan yaşayacaqlar. Dünya üçün də bir nümunə olacaq. Ancaq mənim sözüm beynəlxalq təşkilatlaradır. İnsan hüquqları ilə məşğul olanlar, ədalət prinsiplərini rəhbər tutanlar heç olmasa, Azərbaycana da diqqət yetirsinlər və ikili standartlardan kənar olsunlar. Bir sözlə, bu mənzərə hər şeyi necə deyərlər, göstərir. Bu ilin üç ayında əldə edilmiş iqtisadi nailiyyətlər əminəm ki, ilin sonuna qədər davam edəcək. Çünki biz görürük ki, buna nail olmaq üçün imkanlar var. Beləliklə, biz bu ili də uğurla başa vuracağıq.

**İlham Əliyevin yekun nitqi**

Bu ilin sonuna qədər görüləcək bəzi işlər haqqında danışmalıyıq. Mən bu gün ancaq Qarabağ və Şərqi Zəngəzurda görüləcək işlərlə bağlı, planlarımız haqqında deyəcəyəm. Çünki bütün ölkə üzrə görüləcək işləri dilə gətirsəm, çox vaxt lazım olacaq. Ölkə üzrə bütövlükdə investisiya proqramının icrası nəticəsində

işlər plan üzrə gedir və hər bir bölgədə vətəndaşlar bunu görürlər. Bir çox layihələr vətəndaşların məktubları əsasında icra edilir. Vətəndaşları narahat edən məsələlərlə bağlı onlar müraciət edirlər, həm mənə, həm də Prezident Administrasiyasına, hökumətə, aidiyyəti qurumlara və hər bir müraciət diqqətlə əhatə olunur. Ona görə investisiya proqramımızı tərtib edərkən, əlbəttə ki, yerlərdən gələn təkliflərə üstünlük verilir.

O ki qaldı, Qarabağ və Şərqi Zəngəzurdakı işlərə, orada hələ ki, heç kim yaşamır. Ona görə biz orada görüləcək işləri mərkəzləşdirilmiş qaydada etməliyik və edirik. Keçən il genişmiqyaslı abadlıq-quruculuq işlərinə start verildi, böyük infrastruktur layihələri icra edildi. Mən bu gün onların hamısını sadalasam, yenə də çox vaxt gedəcək.

Bu ilin sonuna qədər və növbəti bir-iki il ərzində görüləcək işlərlə bağlı öz tapşırıqlarımı bir daha vermək istəyirəm. Birincisi, şəhərlərin Baş planları ilə bağlıdır. Bizim hazırda Ağdam və Füzuli şəhərlərinin Baş planları təsdiqlənib və Baş planlar əsasında işlərə start verilib. Artıq mən işlərin gedişatı ilə tanış olmuşam. Digər şəhərlərin Baş planlarının təsdiqlənməsi bu yaxınlarda öz həllini tapmalıdır. Şuşa, Cəbrayıl, Kəlbəcər, Zəngilan, Qubadlı şəhərlərinin, Hadrut və Suqovuşan qəsəbələrinin Baş planları hazırlanmalıdır, bu il təsdiq edilməlidir və ondan sonra bizim Qarabağ və Şərqi Zəngəzura aid olan investisiya proqramında əlavələr edilməlidir. Çünki burada da qeyd olundu, 2,2 milyard manat vəsait nəzərdə tutulur. Amma birinci rübdə cəmi 300 milyon manatdan bir qədər çox vəsait istifadə olundu. Əlbəttə ki, Baş planlar təsdiq olunandan sonra biz ancaq praktiki işlərlə məşğul olacağıq. Mən, ilk növbədə, yaşayış binalarının inşasını nəzərdə tuturam. Çünki digər infrastrukturla bağlı layihələr icra edilir. Minalardan təmizlənmə prosesini sürətləndirmək üçün bu il dövlət büdcəsində 100 milyon manata yaxın vəsait nəzərdə tutulub və bu, bizim üçün prioritet məsələdir. Çünki bu məsələ həll olunmadan biz vətəndaşları o bölgələrə yerləşdirə bilmərik. Ancaq tam əmin olandan sonra ki, o ərazilər minalardan təmizlənib, biz vətəndaşları o ərazilərə yerləşdirə bilərik.

Qeyd etdiyim kimi, yeni texnikanın alınması təmin edilir, o cümlədən ən müasir texnika, dronlar və digər müasir cihazlar alınır. Burada, əlbəttə ki, beynəlxalq mütəxəssislərin dəstəyinə böyük ehtiyac var. Bizim indi üç qurumumuz – ANAMA, Müdafiə Nazirliyinin bölmələri və Fövqəladə Hallar Nazirliyi minatəmizləmə işləri ilə məşğuldurlar. Əlbəttə ki, bir müddət bundan əvvəl yerli şirkətlərin buraya cəlb olunması məsələsi müzakirə edilmişdir və bildiyimə görə, yerli şirkətlər də bu işlərə qoşulur. Çünki bu təşəbbüs həm sahibkarlığın inkişafına təkan verəcək, – əfsuslar olsun ki, ölkəmizdə minatəmizləmə prosesi uzunmüddətli olacaq, – eyni zamanda, yerli şirkətlər burada təcrübə toplayıb öz xidmətlərini təqdim edə bilərlər. Xarici şirkətlərə gəldikdə, onların təklifi, əlbəttə ki, bu günə qədər qiymət baxımından bizim üçün o qədər də məqbul olmayıb. Çünki yerli şirkətlərin verdikləri qiymətlə xarici şirkətlərin verdikləri qiymətlər arasında dəfələrlə fərq var. Ona görə mən hesab edirəm ki, üç dövlət qurumu ilə bərabər, yerli şirkətlər nə qədər çox yaransa, o qədər yaxşıdır. Bir də ki, dövlət xətti ilə ən müasir maşın və mexanizmlərin alınması da təmin edilməlidir.

Azad edilmiş ərazilərdə bu il elektrik təchizatı ilə bağlı işlər davam etdiriləcək. Azad edilmiş torpaqlarda keçən il 20 meqavat gücündə 4 Su Elektrik Stansiyası inşa edilmişdir. İkisi Suqovuşanda, biri Laçın rayonunun Güləbird kəndində, biri isə Kəlbəcər rayonunda Lev çayı üzərində. Mənfur düşmən torpaqlarımızı tərk edərkən 30-dan çox elektrik stansiyasını dağıdıb, yandırıb, o stansiyaların qalıqları orada qalıbdır. Xüsusilə Kəlbəcər, Laçın rayonlarında olarkən bunu hər kəs görə bilər. Biz keçən il bu stansiyaların bərpasına başlamışıq. Bu il beş stansiya "Azərenerji" tərəfindən bərpa ediləcək və bu stansiyaların gücü 27 meqavata bərabər olacaq. Ancaq qalan stansiyaların bərpası və ondan sonra işlənməsi sahibkarlar tərəfindən olsa, daha yaxşı olar. Çünki əlbəttə, dövlət də bu işi öz üzərinə götürə bilər, ancaq dövlətin digər başqa xərcləri çoxdur – bu, birincisi. İkincisi, bu, sahibkarlar üçün də əlverişli investisiya ola bilər. Nəzərə alsaq ki, azad edilmiş bütün bölgələr bu gün Azərbaycanın digər bölgələri ilə elektrik xətləri ilə birləşdirilib, ona görə orada istehsal olunacaq enerji ümumi sistemə daxil ediləcək. Mən hesab edirəm ki, sahibkarlar üçün bu, çox cəlbedici ola bilər. Mən bilirəm ki, İqtisadiyyat Nazirliyi və Prezident Administrasiyası bu işlə məşğuldurlar və təkliflər də verildi. Hesab edirəm ki, hər bir stansiya üzrə təkliflər verilsin və bəlkə bu müşavirədən sonra sahibkarlar da bu məlumatı məndən eşidib daha da həvəsli olacaqlar. Yaxşı olar ki, bu məsələ ilə maraqlanan sahibkarlar üçün qalan stansiyaların yerləri ilə bağlı xüsusi bir təqdimat keçirilsin, təkcə ermənilər tərəfindən dağıdılmış stansiyalardan söhbət getmir. Hazırda xüsusilə, Kəlbəcər, Laçın rayonlarında külək elektrik stansiyalarının tikintisi ilə bağlı xarici şirkətlər bizə müraciət edirlər. Əgər xarici şirkətlər üçün bu, maraqlıdırsa, deməli, burada mənfəət olacaq. Yerli şirkətləri də cəlb etməliyik, ya xarici şirkətlərlə birlikdə, ya da ki, ayrı-ayrılıqda. Cəbrayıl, Zəngilan rayonlarında Günəş Elektrik stansiyalarının potensialı həddindən artıq böyükdür. Yəni, bütün bunlardan biz səmərəli şəkildə istifadə etməliyik. Həm bərpaolunan enerji növlərinin ümumi enerji balansımızdakı payını 30 faizə artırmalıyıq, – mən bu göstərişi

vermişdim, bəlkə də gələcəkdə daha çox olacaq, – həm də ki, təbii qaza qənaət edib onu indiki yüksək qiymətlərlə ixrac edə biləcəyik.

Qeyd etdiyim kimi, artıq bütün bölgələri birləşdirən xətlər var. Keçən il azad edilmiş torpaqlarda 9 elektrik yarımstansiyası inşa edilmişdir. Bu, çox böyük göstəricidir. Eyni zamanda, ən çətin relyefə malik olan Daşkəsəndən, Kəlbəcər dağlarından da elektrik xətləri çəkildi – Daşkəsəndən Kəlbəcərə. Orada dağların hündürlüyü 3500 metrdir, ağır, çətin şəraitdə, qış aylarında biz bunu bacardıq. “Azərenerji”nin mütəxəssisləri yüksək qiymətə layiqdirlər. Bu il “Xudafərin” və “Qız qalası” Su Elektrik stansiyalarının tikintisi ilə bağlı işlər sürətləndirilməlidir. İran İslam Respublikası ilə danışıqlar aparılır və hesab edirəm ki, daha da sürətlə aparılmalıdır ki, biz tezliklə burada da razılığa gələk. Çünki bu stansiyaların potensialı çox böyükdür – 240 meqavat gücündədir və bu stansiyalar inşa ediləndən sonra bunun yarısı bizə çatacaq. Beləliklə, biz bu imkanlardan da istifadə edə bilərik. “bp” şirkəti ilə Cəbrayılda Günəş Elektrik Stansiyasının tikintisi üzrə danışıqlar gedir. Ümid edirəm ki, yaxın gələcəkdə bir nəticə də olacaq. Hesab edirəm ki, bu stansiyanın çox böyük potensialı olacaq.

Bütövlükdə artıq bu rəqəmi mən səsləndirmişdim. Təkcə azad edilmiş torpaqlarda bərpaolunan stansiyaların 9 min meqavatdan çox potensialı var və biz dünyanın aparıcı xarici şirkətlərindən çoxlu təkliflər alırıq. Nəzərə alsaq ki, bizim qonşu ölkələrlə elektrik xətləri mövcuddur və ixrac imkanlarımız genişlənir və keçən il elektrik enerjisinin ixracatı 2020-ci ilə nisbətdə daha da artıb. Burada doğrudan da həm ölkə üzrə, həm Xəzər dənizini nəzərə almaq şərti ilə çox unikal bir potensial var. Amma mən bu gün azad edilmiş torpaqlarda görüləcək işlər haqqında danışarkən məhz bu məsələni diqqətinizə çatdırmaq istərdim. Eyni zamanda, Zəngilandan İran üzərindən Naxçıvana və oradan yenə də İranın enerji sisteminə və Türkiyəyə elektrik xətlərin çəkilişi də gündəlikdə duran məsələlərdəndir.

Keçən ay İranla Azərbaycan arasında körpülərin, dəmir yolu körpülərinin tikintisi ilə bağlı memorandum imzalanmışdır. Eyni zamanda, o memorandumda elektrik xətlərinin çəkilişi ilə bağlı müddəa var. Ona görə biz bu işlərə də tezliklə başlamalıyıq. Hər halda, Azərbaycan ərazisində görüləcək işlərlə bağlı bu il konkret təkliflər verilməlidir. Cəbrayıl yarımstansiyasından Zəngilana qədər xətlərin çəkilməsi və İran İslam Respublikası ilə son razılaşmaya gələndən sonra artıq İran üzərindən bu xətt gedə bilər.

Eyni zamanda, avtomobil körpülərinin və dəmir yolu körpülərinin inşası da nəzərdə tutulur. Əlbəttə, bu, Zəngəzur dəhlizinin açılmasını inkar etmir. Zəngəzur dəhlizi açılmalıdır. Zəngəzur üzərindən həm dəmir yolu, həm avtomobil yolu məsələsi ilə bağlı aprelin 6-da Brüsseldə geniş fikir mübadiləsi aparılmışdır. İran üzərindən yolun Naxçıvana çəkilməsi və oradan dünya bazarlarına çıxarılması layihəsi də artıq hazırlanır. Ümid edirəm ki, yaxın gələcəkdə təməlqoyma mərasimi də keçirilə bilər və beləliklə, yeni beynəlxalq nəqliyyat dəhlizi açılacaqdır. Ümumiyyətlə, bizim nəqliyyat infrastrukturu ilə bağlı olan bütün planlarımız vaxtlı-vaxtında yerinə yetirildi. Əgər bu gün həm limana, həm dəmir yollarına, həm hava limanlarına, avtomobil yollarına və digər infrastruktura bu böyük investisiyalar qoyulmasaydı, Azərbaycan, əlbəttə ki, yeni yaranan bu imkanlardan məhrum ola bilərdi. Ancaq, əksinə, biz bu gün öz nəqliyyat infrastrukturumuzu maksimum işə sala bilərik. Gəmiqayırma zavodunda yeni yük gəmiləri, tankerlər inşa edilir. Yəni, bütün bunlar vaxtında atılmış addımlardır. Əgər biz gəmiqayırma zavodunu inşa etməsəydik, bu gün bu imkanlardan istifadə edə bilməzdik. İndi isə biz heç kimdən asılı deyilik. Nə qədər istəsək, o qədər də bərə, tanker, yük gəmisi inşa edə bilərik və Xəzər üzərindən yükdaşımaların həcmini bu il artıracağıq və gələn il daha da artıracağıq.

Onu da bildirməliyəm ki, 100 kilometr uzunluğu olan Horadiz-Ağbənd dəmir yolunun 60 kilometri artıq hazırdır. Yəni, biz sürətlə gedirik. Dörd və altı zolaqlı avtomobil yolu da çəkilir.

Mən bir məsələyə də diqqət yetirmək istərdim. Ermənistan da görməlidir ki, o, bizim planlarımızı əngəlləyə bilməz. Əgər Zəngəzur üzərindən bizə keçid verməsə, özü itirəcək və birinci növbədə, 10 noyabr Bəyannaməsini pozmuş olacaq. Çünki 10 noyabr Bəyannaməsində açıq-aşkar yazılıb ki, Azərbaycanın qərb rayonları ilə Naxçıvan Muxtar Respublikası arasında əlaqə olmalıdır və bu, Ermənistanın öhdəliyidir. Əgər o, öz öhdəliyini yerinə yetirmək istəmirsə, onda biz də hər hansı bir öhdəliyin yerinə yetirilməsi ilə bağlı heç bir məsuliyyət daşımayacağıq. Onlar bunu bilməlidirlər, vaxtı uzatmamalıdırlar. Onsuz da biz istədiyimizə gec-tez nail olacağıq. Daha yaxşı olar ki, onlar özləri də bir az cəld tərpənsinlər. Yoxsa yenə də dalan kimi qalacaqlar.

Digər infrastruktur layihələrinə gəldikdə isə deyə bilərəm ki, Bərdə-Ağdam dəmir yolunun inşası bu il davam edir. Yəqin ki, gələn il istifadəyə veriləcəkdir. Bununla paralel olaraq, Ağdamda və Füzulidə dəmir yolları, vağzalları da inşa edilməlidir. Layihələr təqdim edilməlidir və aidiyyəti qurumlar tərəfindən nəzərdən keçirilməlidir və mənə təqdim olunmalıdır.

Nəqliyyat infrastrukturu ilə bağlı digər məsələ Zəngilan Beynəlxalq Hava Limanının istifadəyə verilməsidir. Bu da bu ilə nəzərdə tutulur. Azad edilmiş

torpaqlarda Füzulidən sonra ikinci beynəlxalq hava limanı olacaq. O ki qaldı, Laçın Beynəlxalq Hava Limanının inşasına, bunu biz 2024-cü ilə planlaşdırırıq. Orada işlərin həcmi çox böyükdür, həm dağlar partladılmalıdır, həm ərazi düzəlməlidir və orada doğrudan da çox böyük torpaq işləri var. Amma o da mütləq olacaq.

Avtomobil yollarının çəkilişinə gəldikdə, bu il Naftalandan Talış kəndinə qədər yollar tam istismara verilməlidir. Bu, eyni zamanda, Naftalanı Suqovuşanla birləşdirəcək. Hər iki yaşayış yeri turizm üçün çox əlverişlidir. Naftalan artıq beynəlxalq turizm mərkəzinə çevrilib və Suqovuşana oradan məsafə çox qısadır. Suqovuşanda da turizm imkanları bu yaxınlarda təqdim edildi – həm turizm, həm yaşayış, həm idman. Yəni, bu yolun çox böyük əhəmiyyəti var və biz Suqovuşana həm Naftalan istiqamətindən, həm də Tərtər istiqamətindən rahatlıqla gedə biləcəyik. Ona görə bu il bu yol istismara verilməlidir.

Laçın şəhərindən yan keçən yeni alternativ yolun istifadəyə verilməsi də bu ilə planlaşdırılır. Bu yolun da çox böyük əhəmiyyəti var və biz bunu artıq bu il istismara verməliyik. Bu il istifadəyə veriləcək yolların arasında Füzuli-Hadrut avtomobil yolu, Qubadlı-Eyvazlı kəndi yolu və digər yollar var. O cümlədən Kəlbəcər və Laçın rayonlarında hərbi əhəmiyyətli yolların çəkilişi davam etdiriləcək. Tarixdə heç vaxt yollar olmayan yerlərdə, ərazilərdə təkcə keçən il 700 kilometrə yaxın yollar çəkilib. Yəni, Azərbaycan-Ermənistan sərhədinə qədər bu yollar çəkilib.

İndi sərhəddə rahat xidmət etmək mümkündür. Davam edən layihələrlə bağlı Azərbaycan ictimaiyyətini məlumatlandırmaq istəyirəm. Deməli, avtomobil yolları arasında Bərdə-Ağdam avtomobil yolunda işlər çox sürətlə gedir, Kəlbəcər-Laçın avtomobil yolu və təxminən 4 kilometrlik tunel inşa edilir. Xudafərindən Qubadlıya, oradan isə Laçına gedən magistral yol inşa edilir. Cəbrayıl-Hadrut yolu inşa olunur. Zəfər yolu açıldı, amma indi Füzuli-Şuşa 4 cərgəli magistral yol, Horadiz-Ağbənd, Ağdam-Füzuli yolları çəkilir. Ən vacib yollardan biri Toğana-Kəlbəcər avtomobil yoludur, çünki bu yol və 12 kilometrlik tunel çəkiləndən sonra daha Murov aşırımından keçməyə ehtiyac qalmayacaq, biz rahat tunellə keçəcəyik. Kəlbəcər-İstisu avtomobil yolunun tikintisi bu il davam etdirilir. Bunun da böyük rəmzi mənası var. İstisu sanatoriyası sovet vaxtında çox məşhur idi. Həm Azərbaycan sakinləri, həm sovet ittifaqının müxtəlif yerlərindən oraya gələnlər çox idi. Amma biz Mehriban xanımla İstisuda olanda dəhşətli mənzərəni gördük. Sanatoriya, su mənbələri tamamilə dağıdılıb. Mən demişəm bu vəhşi qəbilə hər yerə burnunu soxub, o cümlədən oraya. Keçmiş sanatoriyadan ancaq bəzi qalıqlar qalıb. Ona görə mən qərara gəldim ki, orada yeni, müasir otel inşa edilsin. İndi təqribən 150-160 yerlik otelin layihəsi hazırlanır. Biz müalicəvi içməli suyun istehsalına da başlamalıyıq. Bu göstəriş də verildi. İndi ilkin təmaslar olubdur və hesab edirəm ki, bu il hər iki vacib və böyük rəmzi məna daşıyan layihələrin təməli qoyula bilər. Eyni zamanda, əminəm ki, necə deyərlər, bu tarixi ədaləti bərpa edəcəyik və yenə də beynəlxalq səviyyəli kurort yaranacaq. Çünki Laçın aeroportu istifadəyə veriləndən və Toğana-Kəlbəcər avtomobil yolu, tunel çəkiləndən sonra həm Gəncə istiqamətindən, həm Laçın istiqamətindən Kəlbəcərə gəlmək çox rahat olacaq. Əminəm, çox vaxt keçməyəcək ki, İstisu yenə də öz şöhrətini qaytaracaq. Azad edilmiş torpaqlarda indi içməli su mənbələrinin layihələndirilməsi gedir. Onların arasında, əlbəttə ki, Şuşa şəhərinin içməli su layihəsi prioritetdir. Çünki artıq Şuşada insanlar yaşayır. Şuşada yaşayış binaları da tikilir və tezliklə insanlar qayıdacaqlar. Ona görə Şuşanın içməli su layihəsi bu il tam istifadəyə verilməlidir. Ermənilər müharibə zamanı Şuşadan qaçarkən o su xətlərini də partlatmışdılar, növbəti vəhşilik törətmişdilər və işğal dövründə 17 bulağın 17-sini də yararsız vəziyyətə salıb qurutmuşdular. Bunlar vəhşiliyin təzahürləridir və bu, bir daha onu göstərir ki, Şuşa ermənilər üçün həmişə yad şəhər olub. Həmişə Şuşaya paxıllıq edirdilər, öz çirkin arzularını yaşadırdılar ki, nə vaxtsa Şuşanı onlar işğal edəcəklər. Əfsuslar olsun ki, 1992-ci ilin mayında Şuşa milli xəyanət nəticəsində işğal olundu. İndi isə biz Şuşaya qayıtmışıq, biz Şuşanın sahibləri qayıtmışıq və əbədi orada yaşayacağıq. Şuşanın bərpası bütün digər azad edilmiş torpaqlarla yanaşı, əlbəttə ki, çox önəmlidir və hesab edirəm ki, prioritet olmalıdır. Azərbaycan xalqı da bu yanaşmanı təqdir edir. İndi Şuşada artıq bərpa işləri gedir, bəzi tarixi abidələr bərpa edilib və bu il görüləcək işlərlə bağlı tapşırıqlar vermək istəyirəm. Tarixi abidələr bərpa edilir, Heydər Əliyev Fondu 3 məscidi əsaslı şəkildə bərpa edir, eyni zamanda, yeni məscidin inşası yaxın aylarda başlanacaq. Artıq yer müəyyən olundu, biz onun təməlini qoyduq.

İndi digər tarixi abidələrin bərpası gedir. Bəzi təkliflər, eskizlər var və əlbəttə ki, biz Şuşanın tarixi simasını bərpa etməliyik. Hər hansı bir tarixi memarlıq ansambla xələl gətirə biləcək başqa layihə orada icra edilməməlidir. Şuşada yeni teleqüllənin təməli qoyuldu və yəqin ki, yaxın gələcəkdə layihə təqdim ediləcək. Təqdim edilən kimi mütləq vəsait ayrılmalıdır. 960 şagirdlik məktəb, 90 çarpayılıq xəstəxana inşa edilir. Bu layihələrin təməli qoyuldu. Keçmiş poçt binasında "ASAN xidmət", DOST mərkəzi və əhaliyə xidmət göstərən digər qurumlar yerləşəcək. Poçt binası memarlığı saxlanılmaq şərti ilə əsaslı şəkildə təmir olunacaq.

Onu da bildirməliyəm ki, Şuşada yaşayış məhəlləsinin təməli qoyuldu, evlərin inşasına start verildi. Yeni beşulduzlu otelin inşası üçün yer seçildi. O, həmin yerdir ki, o vaxt qondarma qurum orada dırnaqarası parlament inşa etmək istəyirdi və digər şeytan yuvası orada yerləşmişdi. Müharibə zamanı o da yox oldu. İndi orada beşulduzlu otelin layihəsi mənə təqdim edildi. Şuşanın memarlığına uyğun gözəl bir bina olacaq. Şəhər meriyası binası əsaslı şəkildə təmir edilir və onun yanında yeni konfrans zalı inşa olunur. Çünki indi Şuşada böyük tədbir keçirmək üçün yer yoxdur. Ona görə konfrans zalı meriya binasına bitişik olacaq və orada yaxın gələcəkdə ən mötəbər tədbirlər keçiriləcək.

Gələn ay Şuşada "Xarıbülbül" festivalı yenidən keçiriləcək. Keçən il Heydər Əliyev Fondunun təşəbbüsü ilə bu festivalda Azərbaycanda yaşayan xalqlar öz istedadını nümayiş etdirmişlər. Bu gün isə eyni zamanda, biz dünyanın müxtəlif ölkələrindən folklor kollektivlərini dəvət etmişik. Artıq məndə ilkin məlumat var, vaxtından qabaq anons vermək istəmirəm, amma hesab edirəm ki, çox maraqlı festival olacaqdır. Artıq bu ənənəni də biz bərpa etmişik. Bildiyiniz kimi, TÜRKSOY Şuşanı 2023-cü ildə "Türk dünyasının mədəniyyət paytaxtı" elan etmişdir.

Azad edilmiş ərazilərdə suvarma ilə bağlı layihələrin icrası bu il nəzərdə tutulur. Bu layihələrin xüsusiyyəti ondan ibarətdir ki, hazırlıq işləri çox vaxt aparır. Çünki layihələndirmə işləri düzgün aparılmalıdır, yerlər düzgün seçilməlidir. Harada kanal çəkiləcək, harada su anbarı tikiləcək – bu, doğrudan da vaxt aparan məsələdir. Ona görə mən heç kimi tələsdirmirəm. Amma, eyni zamanda, artıq təsdiq edilmiş layihələrin icra edilməsi üçün də biz mütləq vəsait tapmalıyıq. Burada da qeyd olundu ki, biz indi büdcəni profisitlə icra edirik. Vergi orqanları bu ilin 3 ayında proqnozdan əlavə 500 milyon manatdan çox və gömrük orqanları 200 milyon manatdan çox vergi toplamışlar. Yəni, bizim indi imkanımız var.

Suvarma işləri həm azad edilmiş torpaqlar üçün, həm bütün ölkə üçün ərzaq təhlükəsizliyini şərtləndirən əsas amillərdən biri olacaq. Bu layihələr elə icra edilməlidir ki, bizim ümumi suvarma təsərrüfatımıza inteqrasiya olunsun. Bax, buna da çox ciddi fikir vermək lazımdır. Çünki azad edilmiş torpaqların relyefi belədir ki, - xüsusilə Kəlbəcər, Laçın, Qubadlı zonasını nəzərdə tuturam, – oradan həm suvarma suyu, həm içməli su öz axarı ilə gəlib Ağdama, Bərdəyə və digər yerlərə çata bilər. Bu, ümumi suvarma sistemimizə inteqrasiya edilməlidir. Eyni zamanda, biz çaylarımızdan içməli su mənbəyi kimi istifadə etməliyik. İşğal dövründə çaylarımız da ekoloji terrora məruz qalmışdır, çaylarımız da işğal altında idi və düşmən bizi çaylarımızdan da məhrum etmişdi. Çünki biz Tərtər çayının suyundan faktiki olaraq istifadə edə bilmirdik. Tərtər çayı isə Azərbaycanın ən böyük çaylarından biridir. Suqovuşan ermənilərin əlində olduğu üçün yayda suyu kəsirdilər, bizə qarşı ekoloji terror törədilmişdi. Qışda isə buraxırdılar ki, o da daşqınlara səbəb olurdu.

İndi Qarabağda ermənilərin yaşadıqları yerdə qaz xətti nasaz vəziyyətə düşmüşdür və bir müddət qaz yox idi. Dünyaya hay-haray qaldırmışdılar ki, Azərbaycan burada humanitar fəlakət törədir. Naxçıvan qazını onlar 15 il kəsib belə vəziyyətdə saxlamışdılar. Naxçıvanda isə qış daha sərtdir. Haradasa şaxta mənfi 30 dərəcəyə çatır. Yaxşı, naxçıvanlılar 1990-cı ildən 2005-ci ilə qədər qazsız yaşamışlar. Kim məhrum etmişdi onları? Ermənilər və Ermənistan rəhbərliyi, Ermənistan dövləti.

Bir adam, bir təşkilat, bir ölkə səsini qaldırmışdı? Yox! Biganə idilər. Amma bir həftə Xankəndidə qaz olmayanda adam qalmayıb ki, bizə zəng etməsin – Amerikadan tutmuş Avropaya qədər. Birincisi, Avropanın özündə elə ölkələr var ki, orada qaz yoxdur, ümumiyyətlə yoxdur, qazlaşdırma aparılmayıb. İndi mən ad çəkmək istəmirəm. Elə ölkələr var ki, qazlaşdırmanın səviyyəsi 3-5 faizdir. Orada humanitar fəlakət hökm sürür? Bunlar bir həftə qazsız qalıblar, bu, humanitar fəlakətdir? Bəs, Naxçıvan 15 il qazsız qalanda niyə humanitar fəlakət deyildi. Sualdır bu. Bu suala cavab var? Var! İkili standartlar və ayrı-seçkilik. Biz indi qazı bərpa etmişik və ermənilər bunu qiymətləndirməlidirlər. Biz, sadəcə olaraq, xoş niyyət göstərmişik. İstəməsəydik, bərpa etməzdik. Kim bizə söz deyə bilər? Biz borclu idik onu bərpa etməyə? Yox! Bərpa etdik, ümid edirik, onlar da anlayacaq ki, Azərbaycan vətəndaşlarıdır və onlar Azərbaycan bayrağı altında yaşamalıdırlar və yaşayacaqlar. Bunu nə qədər tez başa düşsələr, onlar üçün o qədər yaxşı olacaq. Ona görə etmişik, humanizm göstərmişik. Amma Naxçıvanı qazsız qoyan o hadisəni heç vaxt unutmamışıq. Biz 2005-ci ildə İranla razılaşma əsasında İrandan Naxçıvana qaz çəkdik və Astaradan İran Astarasına qaz xətti çəkdik və svop əməliyyatları keçiririk. O vaxtdan bu günə qədər Naxçıvan belə təmin edilir, İrandan qaz alır. Amma bizim qazımız kəsilmişdir, bizim suyumuz kəsilmişdir.

Avropa Şurası Parlament Assambleyasında bir neçə il bundan əvvəl xüsusi məruzə hazırlandı və qəbul edildi - Ermənistanın Azərbaycana qarşı ekoloji terroru ilə bağlı məruzə. Orada hər şey açıq-aşkar deyilmişdi. Tərtər çayının suyundan bizi məhrum etmişdilər. Halbuki Heydər Əliyev Suqovuşan su anbarını inşa edəndə Bərdə, Ağdam, Goranboy, Yevlax, Ağcabədi və digər rayonların 100 min hektar torpağını suvarması nəzərdə tutulurdu və su gedirdi. İndi biz Suqovuşana qayıtmışıq, indi suyu bərpa etmişik və yeni kanallar da çəkiləcək.

Digər çaylar, – qoy, bunu həm Azərbaycan vətəndaşları, həm dünya bilsin, ermənilər bizi nədən məhrum etmişlər, – Həkəri çayı – ən böyük çaylardan biri, istifadə edə bilmirdik. Bazarçay. Buna Bərgüşad çayı da deyilir. Lev çay, Zabux, Tutqun, Turqay, Bəsitçay, Qarqarçay, Quruçay, Köndələnçay, Oxçuçay. Bütün bu çayları ermənilər işğal etmişdilər, vəhşicəsinə istismar edirdilər. Oxçuçay çayının fəlakəti indi dünyanın gözü qabağın=-dadır. Biz bu məsələni qaldırmışıq. Məsələni qaldıranda bizə söz verildi ki, bu fəlakəti törədən şirkət gəlib bunu təmizləyəcək. Amma artıq bundan bir il vaxt keçib, bizə heç bir təklif verilmir. Oxçuçayı zibilləyən, zəhərləyən "Cronimet" şirkətidir. Bu, böyük şirkətdir və bəzi xarici mətbu orqanlarında gedən məlumatlara görə, korrupsiya sxemləri əsasında Serjik Sarkisyanın keçmiş xunta rejiminin nümayəndələri ilə bunların qanunsuz biznes əlaqələri olub və onlar birlikdə orada o mis kombinatını işlədiblər. Ondan sonra Ermənistan hökuməti korrupsiyalaşmış həmin o erməni nümayəndələrindən bu kombinatın payını alıbdır. Ancaq bu fəlakəti törədən "Cronimet" şirkəti buna cavab verməlidir, yoxsa yox? Mən demişəm ki, beynəlxalq məhkəmələrdə məsələ qaldırılmalıdır. İndi mən çox şey demək istəmirəm, biz artıq hüquqi iddia ilə də çıxış edəcəyik, hazırlıq işləri gedir, beynəlxalq mütəxəssislər cəlb olunub. Biz erməniləri törətdikləri vəhşiliklərə görə bütün dünyada ifşa edəcəyik. O cümlədən xarici şirkətləri, hansılar ki, bizim təbii yataqlarımızı istismar ediblər. Qızıl yataqlarımızı, digər yataqlarımızı qanunsuz istismar edən xarici şirkətlər hesab edirlər ki, bizdən yaxa qurtaracaqlar? Yox! Biz onları məhkəməyə gətirəcəyik, onları biabır edəcəyik. Oxçuçay suyunu sarı rəngə boyayan "Cronimet" şirkəti gəlsin o zibilini təmizləsin. Yoxsa hesab edirlər ki, vaxt keçdi və biz hər şeyi unutduq. Biz heç nəyi unutmamışıq və unutmayacağıq.

Görün, işğal altında qalan su anbarları nə qədər idi. Xudafərin - 1 milyard 600 milyon kubmetr su ehtiyatı olan ən böyük su anbarı, Qız qalası, Suqovuşan, Xaçın, Köndələnçay-1, Köndələnçay-2, Aşağı Köndələnçay, Ağdamkənd – bax, bu su anbarları işğal altında idi. İndi biz onları bərpa edirik və bərpa edəcəyik. Konkret layihələrə gəldikdə, mən bu sahədə hansı işlər görüləcəyini də bildirməliyəm. Həkəriçay su anbarının tikintisi nəzərdə tutulur, yeni su anbarı olacaq. Suqovuşan su anbarının və kanalın təmiri. Kanalın uzunluğu 5,2 kilometrdir, təmirdən sonra Suqovuşandan daha böyük əraziyə suyun verilməsi mümkün olacaq. Xaçınçay su anbarının və 7 kilometr uzunluğunda kanalın təmiri. Onu da bildirməliyəm ki, Xaçınçay su anbarı düz Fərrux dağının altındadır, Fərrux kəndinin düz böyüründədir və ermənilərin hərbi mövqeləri bu su anbarının istismarını təhlükəyə salmışdı, yəni, böyük bir təhlükə mənbəyi idi. Dəfələrlə oradan və digər kəndlərdən Ağdam istiqamətinə atəş açılırdı. Fərrux dağını məncə, indi dünyada tanımayan yoxdur və Azərbaycanın böyük dağı olan Fərrux dağı bu gün bizim nəzarətimizdədir, Azərbaycan bayrağı orada dalğalanır. Xaçınçayın təhlükəsizliyi və bu sudan istifadə etmək üçün Fərrux dağının böyük əhəmiyyəti var. Ondan sonra Aşağı Köndələnçay, Köndələnçay-1 və Köndələnçay-2 su anbarlarının təmiri nəzərdə tutulur. Tərtərçay Sol Sahil kanalının, Ağdam, Füzuli və Cəbrayıl rayonlarının su təsərrüfatı kompleksinin yenidən qurulması, o cümlədən su mənbələrinin müəyyən edilməsi nəzərdə tutulur. Çünki sovet vaxtında olan su mənbələri bəzi səbəblərə görə uyğun olmaya bilər. Ona görə bu kompleks tədbirlər nəzərdə tutulur və Bərgüşad su anbarının layihəsinin hazırlanması bu il öz həllini tapmalıdır. Bu yaxınlarda verilən yeni təklif əsasında Zəngilan, ya da Qubadlı rayonlarının birində yeni su anbarının tikintisi nəzərdə tutulur və bu kanalların inşası bizə imkan verəcək ki, yaxın zamanlarda 10 min hektarı suvarma ilə təmin edək. Yenə də demək istəyirəm ki, bütün bu işlər ümumi su təsərrüfatı sistemimizə inteqrasiya edilməlidir.

Digər layihələrə gəldikdə bildirməliyəm ki, Ağalı kəndinin sakinləri artıq bu il Ağalıda yerləşəcəklər, orada yaşayacaqlar. Bu il Ağalı kəndinin açılışı olacaq. Bu, birinci pilot layihədir. Füzulinin Dövlətyarlı kəndinin yaradılmasına bu il başlanacaq. Bu, bir neçə kəndi birləşdirən layihədir. Ağalı kəndindən daha böyük yaşayış yeri olacaq. Azad edilmiş digər rayonlarda kəndlərin yenidən qurulması layihələri hazırlanır və şəhərlərlə paralel olaraq biz kəndləri də bərpa edəcəyik.

Üç məktəbin inşası bu il başa çatmalıdır – Ağdamda 1 nömrəli məktəb, Cəbrayıl şəhərində məktəb və qeyd etdiyim kimi, Şuşa şəhərində məktəb. Hər üç məktəb 960 yerlikdir. Dörd xəstəxana inşa edilir. Şuşa şəhərində xəstəxana bu il istismara veriləcək, Ağdamda 210, Füzulidə 180 çarpayılıq xəstəxanaların inşasına start verilib. Cəbrayılda isə yaxın gələcəkdə xəstəxananın təməli qoyulacaq.

Mən Ağdam və Cəbrayıl rayonlarında iki sənaye parkının təməlini qoymuşam və bu yaxınlarda iqtisadiyyat naziri mənə orada görüləcək işlər barədə məruzə etmişdir. Maraq böyükdür, yerli şirkətlər çox böyük maraq göstərirlər və mən əminəm ki, yaxın, bəlkə də 1-2 ilə, 3 ilə o parklar üçün nəzərdə tutulmuş çox böyük ərazi bəlkə çatmaya da bilər. Ona görə mən çox şadam ki, Azərbaycan sahibkarları böyük həvəslə, ürəklə bu işlərə qoşulurlar. Başa düşürəm ki, bəlkə də ilkin mərhələdə iqtisadi cəhətdən o qədər də böyük səmərə verməyəcək. Ancaq mən bunu onların necə deyərlər, vətəndaşlıq borcu kimi qəbul edirəm və şadam ki, onlar mənim çağırışıma cavab veriblər. Eyni zamanda, azad

edilmiş bölgələrin potensialını, nəqliyyat yollarını nəzərə alaraq əminəm ki, bura qoyulan hər bir manat xeyir gətirəcək.

Beləliklə, keçmiş məcburi köçkünləri qaytarmaq üçün kompleks tədbirlər görürük. Yaşayış binaları, infrastruktur, iş yerləri, kənd təsərrüfatı ilə məşğul olmaq imkanları, sənaye parkları – biz planlı şəkildə bu işləri görəcəyik. Bu, ancaq azad edilmiş torpaqlarda bu il görüləcək işlərin siyahısıdır və əminəm ki, bütün planlar həyatda öz əksini tapacaq. Biz istədiyimizə nail olacağıq. Azad edilmiş torpaqlarda görülən işlərlə bağlı Azərbaycan xalqına bundan sonra da müntəzəm məlumat veriləcəkdir.

Sağ olun.

## *Müdafiə Nazirliyinin Xüsusi Təyinatlı Qüvvələrinin "N" saylı hərbi hissəsində İlham Əliyevin nitqi*

İyirmi üç il əvvəl ulu öndər Heydər Əliyevin Fərmanı ilə Azərbaycanda Xüsusi Təyinatlı Qüvvələr yaradılmışdır. Ulu Öndər bu Fərmanı imzalamaqla növbəti dəfə böyük uzaqgörənlik göstərmişdir. Xüsusi Təyinatlı Qüvvələrin yaradılması İkinci Qarabağ müharibəsindəki tarixi Zəfərimizdə də özünü sübut etdi.

1999-cu ildə vəziyyət fərqli idi. Ermənistan-Azərbaycan Dağlıq Qarabağ münaqişəsinin sülh yolu ilə həll olunması üçün hələ də ümidlər tükənməmişdi. Ancaq buna baxmayaraq, Heydər Əliyevin qərarı əsasında Azərbaycan Silahlı Qüvvələrində xüsusi hərbi birləşmə yaradılmışdır və o gündən bu günə qədər xüsusi təyinatlılar böyük və şərəfli yol keçərək, Vətən müharibəsində böyük qəhrəmanlıq göstərərək tarixi Zəfərimizin əldə olunmasında xüsusi rol oynamışlar.

Birinci Qarabağ müharibəsindəki məğlubiyyətimizin səbəbləri aydındır. O vaxt nizami ordu yox idi, ordu quruculuğu aparılmırdı, ölkə rəhbərliyində olan şəxslər isə öz vəzifə borcunu yerinə yetirə bilməmişdir. 1992-ci ilin may ayında Şuşa və Laçının işğal altına düşməsi və 1993-cü ilin aprelində Kəlbəcərin işğal altına düşməsi Dağlıq Qarabağla Ermənistan arasında coğrafi bağlantı yaratmışdır. Beləliklə, bizim torpaqlarımızın işğalı əfsuslar olsun ki, reallığa çevrilmişdir.

Ulu Öndərin ordu quruculuğu sahəsində gördüyü işlərin nəticəsində Azərbaycan Ordusu demək olar ki, sıfırdan yaranmağa başlamışdır və illər keçdikcə ordumuz öz gücünü artırmışdır. Bunu biz işğal dövründə müxtəlif zamanlarda görmüşük, o cümlədən Aprel döyüşlərində. Aprel döyüşləri işğalçılar üçün bir mesaj, bir siqnal idi ki, işğala son qoyun, torpaqlarımızdan çıxın, rədd olun. Bizim Aprel döyüşlərindəki qələbəmizdə xüsusi təyinatlıların çox böyük xidmətləri olmuşdur. Ancaq əfsuslar ki, Aprel hadisələri işğalçılar üçün dərs olmadı. Onlar işğalı əbədiləşdirmək üçün öz səylərini davam etdirdilər və işğalı əbədi etmək üçün Azərbaycana, Azərbaycan Silahlı Qüvvələrinə hədə-qorxu gəlməyə davam etdilər. Bizi yeni müharibə ilə hədələyən düşmən İkinci Qarabağ müharibəsində öz dərsini aldı. "Qarabağ Ermənistandır və nöqtə" deyən düşmən bu gün "Qarabağ Azərbaycandır" deyir. Nəyin hesabına? Danışıqlar hesabına yox! Güc hesabına, qüdrət hesabına, Azərbaycan Ordusunun Zəfəri hesabına! Biz güclü ordu yaratmışıq. Bundan sonra da bu istiqamətdə işlər aparılacaq. Mən Prezident kimi öz səlahiyyətlərimi icra etməyə başlayan zaman demişdim ki, mənim üçün Prezident və Ali Baş Komandan kimi birinci vəzifə ordu quruculuğudur. Çünki torpaqlarımız işğal altındadır, danışıqlara ümidlərimiz tükənib və güc yolu ilə biz bu məsələni həll etməliyik. Bunu illər boyu bəyan edirdim, çalışırdım Ermənistan rəhbərliyi, nəhayət anlasın ki, Azərbaycan xalqı və Azərbaycan rəhbərliyi, Azərbaycan Ordusu bu işğalla heç vaxt barışmayacaq. Bunu rəsmən bəyan edirdim ki, nəyin bahasına olursa-olsun, torpaqlarımızı düşmənin əlindən alacağıq, ərazi bütövlüyümüzü bərpa edəcəyik. Belə də oldu.

Vətən müharibəsi bizim şanlı tariximizdir. Azərbaycan xalqı öz ordusuna dayaq oldu, arxa oldu, bütün Azərbaycan vətəndaşları birləşdi, bütün dünya azərbaycanlıları birləşdi. Bir yumruq kimi birləşdik və düşmənə elə sarsıdıcı zərbələr endirdik ki, bu günə qədər də özünə gələ bilmir. Ermənistan ordusu 44 gün ərzində tamamilə məhv edilmişdir. Ermənistan ordusunun qalıqları bu gün Bakının mərkəzində, Hərbi Qənimətlər Parkında nümayiş etdirilir. Vaxtilə Ermənistan rəhbərliyi bizi yeni müharibə ilə hədələyirdi. Deyirdilər ki, əgər Azərbaycan hərbi yolla bu məsələni həll etmək istəsə, erməni tankları Bakının küçələrində olacaq. Bəli, erməni tankları Bakının küçələrində oldu, biz onları məhv edilmiş vəziyyətdə gətirdik. İndi o tanklar, digər toplar və texnika Hərbi Qənimətlər Parkında nümayiş etdirilir.

Biz cəmi 44 gün ərzində 300-dən çox şəhər və kəndi düşmənin əlindən aldıq, döyüş meydanında bu Zəfəri qazandıq, danışıqlar yolu ilə yox, kiminsə güzəşti ilə yox, qan tökərək, şəhidlər verərək. Bizi irəliyə nə aparırdı? Vətən sevgisi, Vətənə sevgi, düşmənə nifrət! Bax, biz gənc nəsli bu əhval-ruhiyyədə yetişdirmişik, bu əhval-ruhiyyədə bizim ordumuz yetişib və ordumuzun ən döyüşkən birləşməsi olan xüsusi təyinatlılar bu amalla, bu ideya ilə irəliyə gedirdi, öz sinəsini qabağa verirdi.

Azərbaycan Silahlı Qüvvələrinin tarixi Zəfəri bizim tariximizdə əbədi qalacaq. Biz müzəffər xalq kimi, qalib dövlət kimi bundan sonra əbədi yaşayacağıq. Bu sevinci bizə bəxş edən bizim övladlarımız, əsgər və zabitlərimiz olub. Bütün Silahlı Qüvvələr bu Qələbənin əldə olunmasında öz dəyərli töhfəsini vermişdir və cəmi 44 gün ərzində tarixi Zəfər əldə olundu, düşmən bizim qabağımızda diz çökdü və məcbur oldu öz əli ilə kapitulyasiya aktına imza atdı. Bu, tariximizin və mənim həyatımda bəlkə də ən yaddaqalan, ən sevincli, ən qürurlu anlardan biridir, bəlkə də birincisidir. Ermənistanın kapitulyasiya aktına imza atmaq mənim həyatımda ən qürurlu hadisədir.

Xüsusi təyinatlıların Vətən müharibəsindəki Qələbəmizdə çox böyük payı var. Mən Ali Baş Komandan kimi bunu bilirəm, bu barədə Azərbaycan ictimaiyyətinə də öz sözlərimi demişəm. Bütün Azərbaycan xalqı bunu bilir və düşmən də bunu bilir. Müharibənin ilk günlərindən kəndlərimizin azad olunması düşməni sarsıtdı. Onlar inanmırdılar ki, Azərbaycan Ordusu beş-altı müdafiə xəttini öz sinəsi ilə yararaq, qan tökərək, şəhidlər verərək tarixi Zəfər əldə edə bilər. Onların hələ də ümidləri var idi ki, kimsə bizi dayandıracaq, kimsə bizə təzyiq edəcək və biz o təzyiqə məruz qalaraq öz Zəfər yürüşümüzü dayandıracağıq. Mən demişdim, heç nə və heç kim bizi dayandıra bilməz, biz sona qədər gedəcəyik, düşməni sona qədər torpaqlarımızdan qovacağıq və düşmən kapitulyasiya aktını imzalayandan sonra müharibə dayana bilər, belə də oldu. Sözümüzə yenə də sadiqlik göstərmişik. İlk günlərdən Ordumuz irəliyə gedirdi, bir dəfə də olsun geriyə addım atmamışdır. Ermənistan ordusunda özlərinin etiraflarına görə, on mindən çox fərari olmuşdur. Azərbaycan Ordusunda bir nəfər də fərari olmamışdır. Budur Azərbaycan xalqının mənəvi keyfiyyətləri, budur milli ruhumuz, Vətən sevgisi. Bizi irəliyə aparan Vətən sevgisi idi, ancaq, eyni zamanda, hazırlıq, peşəkarlıq idi.

Bizim bütün əsas həlledici əməliyyatlarımızda xüsusi təyinatlılar ön sırada idilər. Digər hərbi birləşmələr ilə birlikdə şəhər və kəndlərimizi azad edən xüsusi təyinatlıların rolunu mən xüsusilə vurğulamaq istəyirəm. Uğurlu əməliyyatlardan sonra yolumuz Şuşaya açıldı. Yolumuz deyəndə, o yol yox idi. Uğurlu Hadrut əməliyyatından sonra, – hansı ki, Ermənistanda fərarilərin sayını kəskin artırmışdır, – onlar inanmırdılar ki, biz o istiqamətdə gedəcəyik. Onlar bizi başqa yerlərdən gözləyirdilər. Amma bizim aslanlarımız, igidlərimiz olmayan yerdə yol açdılar, öz əlləri ilə, öz ayaqları ilə, öz sinələri ilə. Dərələrdən, meşələrdən, cığırlardan keçərək istiqamət Şuşaya idi. Mən müharibə zamanı demişdim, Şuşasız bizim işimiz yarımçıq qalacaq. Müharibənin ilk günündən son gününə qədər hədəfimiz Şuşanın, bizim Qarabağın tacı olan əziz şəhərimizin erməni tapdağından azad olunması idi və buna nail olduq, buna siz nail oldunuz, xüsusi təyinatlılar nail oldu. Neçə gün yorulmadan, əlində yüngül silahlarla o dərələrdən, meşələrdən keçərək Şuşaya yaxınlaşdı bizim igidlərimiz. Yol boyunca bir çox kəndi azad etdi, qan tökdü, şəhidlər verdi, amma dayanmadı, irəliyə getdi. Bu gün Şuşaya gələn hər bir insan, sadəcə olaraq, məəttəl qalır – bu alınmaz qalanı Azərbaycan övladları necə aldılar. Hər dəfə Şuşaya Zəfər yolu ilə gedəndə hər bir insan bu haqda fikirləşir. Son vaxtlar artıq Zəfər yolu ilə Şuşaya gedən insanların sayı həddindən artıq çoxdur, həm Azərbaycan vətəndaşları, həm xarici vətəndaşlar. Ondan sonra mənimlə təmaslar əsnasında qeyd edirlər ki, siz Azərbaycanda belə qısa müddətdə bu yolu necə çəkmisiniz? Mən isə deyirəm, əsas məsələ bu deyil, siz fikirləşin bizim əsgər və zabitlərimiz o meşələrdən necə keçiblər, o yolu onlar açıblar və bu yola mənim tərəfimdən Zəfər adı verilməklə biz bu şanlı Zəfərimizi bir daha tariximizdə həkk etdik.

Zəfər yolu ilə Şuşaya yaxınlaşarkən o sıldırım qayaları görəndə hər dəfə mənim gözlərimin önünə siz gəlirsiniz. Bu alınmaz qala necə alındı - yüngül silahlarla, şəhər döyüşlərində, əlbəyaxa döyüşlərdə. Qarşıda, yuxarıda, dağın başında təpədən dırnağa qədər silahla, topla, tankla silahlanmış ermənilər sizin qarşınızda aciz idilər.

Həm gücünüz, həm iradəniz, peşəkarlığınız və Vətən sevgisi. Siz öz Vətəniniz uğrunda doğma torpaqda vuruşurdunuz. İşğalçı düşmən isə Azərbaycan torpağında sizin qarşınızda duruş gətirə bilməzdi. Şuşanın azad olunması müharibənin ən parlaq səhifəsidir. Bu gün dünyanın aparıcı hərbi məktəblərində Şuşa əməliyyatı, Hadrut əməliyyatı, digər əməliyyatlar öyrənilir.

İkinci Qarabağ müharibəsindən ilyarım keçib. Hərbi ekspertlər, bu məsələ ilə, münaqişələrlə məşğul olan insanlar bu günə qədər Azərbaycan Zəfəri haqqında danışırlar və mənə bu məsələ ilə bağlı, müharibə ilə, Zəfərimizlə bağlı çoxsaylı suallar verilir. Nə, hansı amillər bu Qələbəni şərtləndirdi? Onların arasında birinci Vətən sevgisidir. Yəni, sizi ölümə aparan, "öldü var, döndü yoxdur" deməyə vadar edən Vətən sevgisi idi və biz bunu nümayiş etdirdik. Bütün dünyaya nümayiş etdirdik ki, biz böyük xalqıq və müharibəni biz ləyaqətlə aparmışıq. Mənfur düşmən döyüş meydanında məğlubiyyətə uğrayarkən bizim şəhər və kəndlərimizi namərd atəşə tutmuşdur. Yüzdən çox dinc insan, onların arasında uşaqlar, qadınlar bu namərd atəş altında öz həyatlarını itirdilər. Biz isə ləyaqətlə müharibəni apardıq və müharibə zamanı mən deyirdim ki, biz qisasımızı döyüş meydanında alacağıq. Biz mülki vətəndaşlarla heç vaxt vuruşmamışıq və vuruşmayacağıq. Azərbaycan

xalqının ülvi keyfiyyətləri bizə imkan verməz və belə də oldu. Bütün dünya bunu etiraf edir ki, azərbaycanlılar ləyaqətlə vuruşdular, kişi kimi vuruşdular, düşməni qovdular, diz çökdürdülər və öz sözlərinə əməl etdilər.

Bu gün isə bölgəmizdə vəziyyət tam fərqlidir. Biz qalib xalq kimi, müzəffər ölkə kimi öz gücümüzü artırırıq. Xüsusi təyinatlıların gələcək fəaliyyəti ilə bağlı bütün göstərişlər verilmişdir. Bu hərbi hissədə mən müharibədən bir il qabaq olmuşdum, xüsusi təyinatlılarla görüşmüşdüm. Bu gün də, bu bayram günündə sizinlə birlikdə olmaq mənim üçün böyük şərəfdir. Mən sizinlə fəxr edirəm. Bütün Azərbaycan xalqı sizinlə fəxr edir. Ermənistan, Ermənistan silahlı qüvvələri Azərbaycan xüsusi təyinatlılarının adı gələndə titrəməyə başlayırlar. Onların canlarında olan bu xof bu günə qədər çıxmayıb və çıxmayacaq. Biz müharibə istəmirik. Biz istədiyimizə nail olduq. Tarixi ədaləti bərpa etdik. Xalq qarşısında, tarix qarşısında, gələcək nəsillər qarşısında öz vətəndaşlıq borcumuzu şərəflə yerinə yetirdik. Ancaq biz hər zaman ayıq olmalıyıq. Çünki Ermənistanda bu gün də revanşist qüvvələr baş qaldırır. Ermənistanda bu gün də Azərbaycana qarşı ərazi iddiaları ilə çıxış edənlər var. Biz bunu daim diqqət mərkəzində saxlamalıyıq, buna laqeyd olmamalıyıq. Məhz buna görə İkinci Qarabağ müharibəsindən sonra ordu quruculuğuna əlavə vəsait ayrıldı və necə ki, 2004-cü ildən bu günə qədər bu il və gələn il hərbi xərclər bir nömrəli xərclər olacaq, o cümlədən xüsusi təyinatlıların sayının artırılması artıq reallıqdır. İndi sayla bağlı mən bir şey demək istəmirəm. Ancaq onu deyə bilərəm ki, İkinci Qarabağ müharibəsindən sonra Xüsusi Təyinatlı Qüvvələrin sayı 2 dəfə artırıldı, indi seçim daha sərtdir və maraq daha böyükdür, müraciətlər kifayət qədər çoxdur. Mənəvi-psixoloji keyfiyyətlər, fiziki hazırlıq, peşəkarlıq və ən önəmlisi Vətən sevgisi bu seçimin əsas şərtləridir.

Digər silahlı birləşmələrimizdə islahatlar aparılır. Xüsusi əməliyyatları aparmaq iqtidarında olan yeni hərbi birləşmələr yaradılır və Azərbaycan Ordusu daha da güclənir. Bu gün bizim Ordumuz müharibə dövründəki ordumuzdan daha da güclüdür, daha da qüvvətlidir.

Mən bir daha sizi Xüsusi Təyinatlı Qüvvələrin yaranmasının 23-cü ildönümü münasibətilə ürəkdən təbrik etmək istəyirəm. Sizə yeni uğurlar, yeni qələbələr arzulamaq istəyirəm. Çıxışımı İkinci Qarabağ müharibəsindəki sözlərlə yekunlaşdırmaq istəyirəm: “Qarabağ Azərbaycandır!”

## *Azərbaycan-Litva biznes forumun açılışında İlham Əliyevin nitqi*

Əziz qonaqlar, xanımlar və cənablar.

Bu gün Litva Prezidentinin rəsmi səfəri zamanı biz biznes forumda iştirak etməyə və işgüzar dairələrimizə öz məsləhətlərimizi verməyə, bu fürsətdən istifadə edərək, çox fəal dialoqa qatılmaq və yaxşı nəticələr əldə etməyə gəldik. Mən bilirəm ki, bu gün bir sıra sənədlər imzalanacaqdır. Mən ümid edirəm ki, bu sənədlər iş qurmaq üçün yeni imkanlar yaradacaqdır.

Ölkələrimiz arasındakı güclü siyasi münasibətləri nəzərə alaraq, uzun illərdir ki, biz artıq strateji tərəfdaşlarıq və Prezidentin hazırkı səfəri fəal siyasi dialoqun olduğunu bir daha nümayiş etdirir. Düşünürəm ki, iqtisadiyyat, ticarət, investisiya və digər sahələrdə fəal qarşılıqlı əlaqədə olmaq üçün əsl vaxtdır.

Əlbəttə ki, biznes forum planlarımız, ölkəmizdəki biznes mühiti, sərmayə də daxil olmaqla imkanlar haqqında bir-birimizi məlumatlandırmaq, həmçinin işgüzar əlaqələr qurmaq üçün yaxşı fürsətdir. Fikrimcə, yaxın zamanlarda bir araya gələcək birgə hökumətlərarası komissiya bizim işgüzar dairələrin səylərini əlaqələndirəcək, eyni zamanda, hər iki ölkədə iş qurmaq üçün çoxlu imkanlar yaradacaqdır. Bu gün nümayəndə heyətlərinin müzakirə edəcəyi məsələlər arasında ticarət, investisiya, kənd təsərrüfatı, informasiya texnologiyalarının inkişaf etdirilməsi, nəqliyyat, enerji, təhsil ilə bağlı məsələlər vardır. Müzakirə etdiyimiz bütün məsələlərə dair bizdə ümumi anlayış vardır. Həmçinin həmin məsələlərə dair praktiki nəticələr əldə etməyə və əməkdaşlığı inkişaf etdirmək üçün başqa nə etməyi müəyyənləşdirməyə ehtiyacımız vardır.

Düşünürəm ki, Azərbaycanda biznes mühiti investorlar üçün əlverişlidir. Biz 10 milyardlarla birbaşa xarici investisiyadan məmnunuq. Xarici şirkətlərin sərmayə portfelinin şaxələndirilməsi də çox vacibdir. İnvestisiya proqramlarımızın ilkin vaxtlarında əsasən neft-qaz sektoruna investisiya qoyulurdusa, indi biz bərpaolunan enerji sahəsində birbaşa xarici investisiyaları görürük. Bu ilin əvvəlində xarici investorlar ilə 470 meqavat gücündə günəş və külək elektrik stansiyaları tikmək üçün iki böyük müqavilə imzalanmışdır ki, bu da əlverişli investisiya mühitinin olmasının göstəricisidir.

Ümumilikdə Azərbaycan iqtisadiyyatının şaxələndirilməsi bizim əsas prioritetdir. Təbii ki, ənənəvi olaraq enerji sektoru bizim iqtisadiyyatda aparıcı sektor olub və bu, davam edəcəkdir. Xüsusilə biz indi Azərbaycan qazını ilk dəfə 2021-ci ilin yanvarından başlayaraq Avropa İttifaqı da daxil olmaqla müxtəlif məntəqələrə nəql edən Cənub Qaz Dəhlizinin tikintisini, 3500

kilometr uzunluğunda birləşdirilmiş çoxsaylı boru kəməri sistemini yekunlaşdırmışıq. Əlbəttə ki, bizim iqtisadiyyatın ənənəvi sahəsi olan neft sektorunun inkişaf etdirilməsi yerli məqsədlər və bir çox ölkələrin enerji təhlükəsizliyi üçün vacib rol oynamaqda davam edir. Bununla belə, şaxələndirmə bizim əsas hədəfdir. Çünki biz başa düşürük ki, şaxələndirmə olmadan davamlı iqtisadiyyat yaratmaq üçün bizim planlar yerinə yetirilməyəcəkdir. Biz bu xüsusda yaxşı nəticələr görürük. Sizə deyə bilərəm ki, bu ilin dörd ayının nəticələri ümumi olaraq perspektivlidir. Bizim iqtisadiyyat 7,2 faiz artmışdır. Pandemiyadan sonrakı dövrü düşünsək, bu, çox yaxşı rəqəmdir. Qeyri-neft sektoru ilə bağlı daha yaxşı rəqəmlər vardır, hansı ki, burada artım 11,4 faizdir. Bizim çox az xarici borcumuz vardır – ümumi daxili məhsulun yalnız 12,5 faizi həcmində. Hədəf onu ümumi daxili məhsulun 10 faizi həcminə qədər azaltmaqdır.

Bizim ixrac potensialımız artır, həm beynəlxalq bazarlara qaz ixracının artmasına, həm də qeyri-enerji sahəsində islahatlara görə. Bu il ixrac 85 faiz artıb, qeyri-neft ixracı isə 40 faizə yaxın artıb. Mən düşünürəm ki, bu, ölkənin dayanıqlı inkişafını göstərir. Çünki enerji potensialı təbii sərvətlərimizə əsaslanır və Azərbaycan xalqının, dost və qonşularımızın rifahına xidmət edir. Eyni zamanda, qeyri-enerji sahəsində artım da iqtisadiyyatımızda islahat aparmaq üçün hökumətimizin istəyini və bacarığını nümayiş etdirir. Azərbaycandakı müsbət demoqrafik vəziyyəti nəzərə alaraq, biz daim işsizliklə bağlı məsələlərə diqqət yetirməliyik. Biz işsizlik səviyyəsini 5-6 faizə qədər azaltmağa nail olmuşuq. Lakin bunu aşağı səviyyədə saxlamaq üçün biz hər il yeni iş yerləri açmalıyıq. Çünki Azərbaycanın əhalisinin sayı, 30 il əvvəl müstəqilliyimiz əldə olunandan bu günə qədər 7 milyondan 10 milyona qədər artmışdır və indi də artmaqdadır. Bu səbəbdən biz daha çox insan üçün iş yerlərinə sahib olmalıyıq. Xüsusilə də indi – dördüncü sənaye inqilabının nəticəsində bir çox işlərin artıq mövcud olmayacağı dövrdə biz özümüzü yeni iş sahələrinə hazırlamalıyıq. Yeri gəlmişkən, bu məsələ bizim bugünkü müzakirələrin mövzusu olmuşdur. Biz, həmçinin təhsil sahəsində əməkdaşlıqdan da danışdıq, xüsusilə də ölkələrimizin inkişaf ehtiyaclarına yönələn təhsil barəsində.

Biz, həmçinin nəqliyyat sektorunda əməkdaşlıq məsələlərini də müzakirə etdik. Mən düşünürəm ki, biznes dairələri üçün və bir-birinə o qədər də yaxın yerləşməyən ölkələrimiz arasında əməkdaşlıq üçün bu dayanıqlı nəqliyyat yollarının olması çox önəmlidir. Biz Azərbaycanda bunun üzərində uzun illər işləmişik və nəqliyyat şəbəkəsinin şaxələndirilmiş zəncirini yaratmışıq. Mən bunu regionun yeni nəqliyyat xəritəsi adlandırardım, Qafqazlarda, həmçinin Xəzər dənizi boyu və Asiyada. Coğrafi yerləşmənin üstünlüklərindən faydalanaraq biz müasir infrastruktur – dəniz limanı, dəmir yolu bağlantıları, bir neçə beynəlxalq hava limanları, avtomobil yolları yaratdıq. Biz Şərq-Qərb və Şimal-Cənub nəqliyyat dəhlizlərinin üzərində yerləşirik. Həmçinin sizə deyə bilərəm ki, Azərbaycan şimaldan qərbə gedən yükləri də ötürür. Biz infrastruktura yatırımlar etdik. Lakin aydındır ki, qonşu ölkələrlə yaxşı işçi münasibətlər olmadan heç bir ölkə, xüsusilə də Azərbaycan kimi açıq dənizə çıxışı olmayan ölkə tranzit ölkəyə çevrilə bilməz. Açıq dənizə çıxışı olmayan ölkə olmasına baxmayaraq, biz Azərbaycanı önəmli nəqliyyat mərkəzinə çevirdik. Azərbaycanın rolu mütləq şəkildə artacaq. Çünki bu yaxınlarda nəqliyyat infrastrukturumuzun necə istifadə edilməsi ilə bağlı qonşularımızdan çox sayda yeni təkliflər almışıq. Əlbəttə, əvvəlcə dediyim kimi, bu, Litva və Azərbaycandan olan biznes dairələrinin əməkdaşlığı və kommunikasiyanın ən yaxşı yollarının tapılması üçün çox önəmli olacaqdır.

Azərbaycanda ümumi iqtisadi artımdan danışarkən, biz enerji təhlükəsizliyi məsələsinə toxunmalıyıq. Bu gün Azərbaycan öz enerji təhlükəsizliyini 100 faiz təmin edir və bir çox digər ölkələrin, o cümlədən Avropa İttifaqının üzvlərinin də enerji təhlükəsizliyini təmin edir. Biz neft, qaz, elektrik enerjisi, neft-kimya məhsulları ixrac edirik. Bizim planlarımıza qazın, elektrik enerjisinin və neft-kimya məhsullarının ixracını böyük həcmdə artırmaq daxildir. Neft ixracına gəldikdə, ixracın bugünkü profili bizi və istehlakçıları qane edir. Eyni zamanda, bugünkü geosiyasi vəziyyəti nəzərə alsaq, aydın olur ki, Azərbaycanın enerji resurslarına ehtiyac heç vaxt olmadığı qədər böyük olacaq. Bu il biz artıq Azərbaycanla Avropa İttifaqı arasında enerji dialoquna başlamışıq. O, bir çox sahələri – neft, qaz, elektrik enerjisi, hidrogen və bərpaolunan enerji mənbələrini əhatə edir.

Bizim aramızda tam anlaşma var və biz böyük həvəslə çalışırıq, çünki bu halda hər bir tərəf udur. Azərbaycana etibarlı və uzunmüddətli bazarlar, ədalətli nizamlama və qanunvericilik olan bazarlar lazımdır. Bu isə Avropa bazarıdır. Avropa istehlakçılarına isə əlavə enerji resursları mənbələri lazımdır. Bu baxımdan, əlbəttə ki, Azərbaycan Avropa İttifaqı tərəfindən töhfə verən tərəf kimi qəbul edilir. Bərpaolunan enerjinin 2030-cu ilə qədər ümumi balansımızda ən azı 30 faiz olması planlarımızı nəzərə alaraq, hesab edirəm ki, həmin planlara dəyişiklik edilə bilər. Fikrimcə, biz hətta enerji balansımızda 30 və ya 40 faiz bərpaolunan enerjini nəzərdə tuta bilərik. Onda, əlbəttə ki, Avropa istehlakçıları üçün bərpaolunan enerji mənbələri hesabına istehsal edilmiş enerji daha çox cəlbedici ola bilər. Biz bunun üzərində işləyirik. Bu baxımdan, biz düzgün yoldayıq.

İqtisadi davamlılığa gəldikdə isə Azərbaycan artıq xarici yardımı və ya beynəlxalq kreditləri alan ölkə deyil. Bəli, biz kreditləri götürürük, lakin onları yalnız yüksək texnoloji layihələrə cəlb edirik. Eyni zamanda, biz donora çevrilmişik. Biz özümüz kredit ayırırıq. Ehtiyatlarımız isə xarici borcumuzu bir neçə ay ərzində sıfıra endirə bilər. Bu, yaxşı iqtisadi vəziyyətdən xəbər verir və gələcək islahatlarımızı lazımınca planlaşdırmağa imkan yaradır.

Avropa İttifaqı ilə aparılan əməkdaşlığımız haqqında bir neçə söz deyim. Avropa İttifaqı bizim əsas ticari tərəfdaşımızdır və bu, belə də davam edəcək. Biz yeni sazişlə bağlı Avropa İttifaqı ilə aparılan danışıqların son mərhələsindəyik. Əlbəttə ki, Avropa İttifaqının üzvləri, xüsusən də Litva ilə əməkdaşlıq bizim üçün strateji əhəmiyyət kəsb edir. Şadam ki, bu əməkdaşlıq çox uğurla inkişaf edir.

İkitərəfli ticari və iqtisadi gündəliyimizə gəldikdə, fikrimcə, çox yaxşı haldır ki, iqtisadiyyatlarımız bir-biri ilə rəqabət aparmır. İqtisadiyyatlar Avrasiyanın fərqli hissələrində yerləşir. Beləliklə, biz birgə səylərimiz və layihələrimizlə, daha çox məlumat verməklə bir növ iş birliyi qura bilərik. Hesab edirəm ki, bu gün keçirilən biznes forumun üstünlüklərindən biri imkanların, biznes mühitinin, qaydaların, vergilərin, sərmayə imkanlarının və digər məsələlərin nümayiş etdirilməsindən ibarətdir. Əminəm ki, hər iki ölkənin biznes nümayəndə heyətləri bu fürsəti əldən verməyəcəklər.

Bir daha bütün qonaqlarımızı salamlayıram və biznes foruma uğurlar arzulayıram. Sağ olun.

## *“TEKNOFEST Azərbaycan” festivalında İlham Əliyevin nitqi*

Əziz qardaşım, Türkiyə Respublikasının Prezidenti hörmətli Rəcəb Tayyib Ərdoğan.

Əziz dostlar, bacılar və qardaşlar.

Bildiyiniz kimi, bu gün Azərbaycanda bayram günüdür, Müstəqillik Günüdür, bizim ən əziz bayramımızdır. Bu bayramı ikiqat bayram edən əziz qardaşımın bizimlə bərabər olmasıdır. Xahiş edirəm, bütün Azərbaycan xalqı adından Türkiyə Respublikasının Prezidentini və onunla bərabər Azərbaycana gəlmiş bütün bacı-qardaşlarımızı səmimiyyətlə salamlayaq.

Yüz dörd il əvvəl müsəlman aləmində Azərbaycan xalqı ilk Xalq Cümhuriyyətini qurmuşdur. Əfsuslar olsun ki, Azərbaycan Xalq Cümhuriyyətinin ömrü uzun olmadı, iki ildən sonra süqut etdi və Azərbaycan öz müstəqilliyini itirdi. Yalnız 1990-cı illərin əvvəlində Azərbaycanın dövlət müstəqilliyi bərpa edildi və 30 ildir Azərbaycan xalqı azad yaşayır, müstəqillik şəraitində yaşayır, öz həyatını özü qurur və müstəqillik yolu ilə inamla gedir. Bu 30 il ərzində türk qardaşlarımız daim bizim yanımızda olublar. Biz 30 il ərzində bu dəstəyi, bu qardaşlıq dəstəyini hər zaman hiss etmişik, bu gün də hiss edirik və bu gün Türkiyə-Azərbaycan yenə də bir yerdədir.

Biz iki həftə bundan əvvəl Türkiyənin gözəl yerlərindən biri olan Rizedə əziz qardaşımla bərabər idik, iki həftədən sonra Bakıda yenə də bərabərik. Biz yaxşı günlərdə də, çətin günlərdə də hər zaman bir-birimizin yanındayıq və elə etməliyik və edəcəyik ki, qarşıda ancaq yaxşı günlər olsun. Türkiyə-Azərbaycan qardaşlığı, birliyi xalqlarımız üçün əsas yol istiqamətidir, bölgə üçün, dünya üçün də çox önəmli amildir, təhlükəsizlik, sabitlik amilidir. Nə qədər Türkiyə və Azərbaycan bir yerdə inamla addımlasa, bölgəmizdə sülh və barış o qədər də möhkəm olacaqdır. Bunu biz və bütün dünya İkinci Qarabağ müharibəsi zamanı gördük. Türkiyə bizim yanımızda idi. Əziz qardaşım, hörmətli Prezident Rəcəb Tayyib Ərdoğanın müharibənin ilk saatlarında “Azərbaycan tək deyil, Türkiyə onun yanındadır” deməsi bizə əlavə güc verdi, ruh verdi, inam verdi. Azərbaycan xalqı bunu heç vaxt unutmayacaq.

Bizim tariximiz parlaqdır və tariximizin ən önəmli anlarında biz bir yerdə idik. Xatırlayıram, Bakının erməni işğalından azad edilməsinə həsr olunmuş hərbi paradda Türkiyə və Azərbaycan əsgərləri çiyin-çiyinə Azadlıq meydanına çıxmışdılar. Bunun təkrarını biz 2020-ci ildə Zəfər paradında gördük. Tarixi Zəfərimizdən sonra yenə də əziz qardaşımla birlikdə Azadlıq meydanında biz Türkiyə və Azərbaycan ordularının hərbi paradını qəbul etdik. Bu, birliyimizin təntənəsi idi. Bu, bütün dünyaya verilən aydın mesaj idi ki, biz bir yerdəyik, bir yerdə olacağıq, gücümüz də gündən-günə artacaq.

Keçən il iyunun 15-də – Milli Qurtuluş Günündə hörmətli Prezident Rəcəb Tayyib Ərdoğan Şuşada idi. Bu da çox əlamətdar hadisə idi. 15 iyun da bayram günüdür, 28 may da bayram günüdür. Biz bu bayram günlərini bir yerdə qeyd etdik və tarixi Şuşa Bəyannaməsini imzalayaraq Türkiyə və Azərbaycan rəsmən müttəfiqlik zirvəsinə ucaldı. Bu müttəfiqlik özünü hər yerdə göstərir – siyasətdə, iqtisadi əlaqələrdə, enerji, nəqliyyat layihələrinin həyata keçirilməsində, mədəniyyətdə, təhsildə, ordu quruculuğu istiqamətində. Bu gün

"TEKNOFEST" bizim birliyimizin növbəti nümayişidir, onun təzahürüdür. "TEKNOFEST" elm, inkişaf, bilik, texnologiya bayramıdır. Əminəm ki, "TEKNOFEST"də iştirak edən gənclər bu tarixi günü hər zaman yadda saxlayacaqlar. Bir neçə gün bərabər olan Türkiyə və Azərbaycan gəncləri artıq bir ailə kimi bir-birinə yaxın oldu, bir-birini tanıdı və əminəm ki, gələcəkdə də daim bir yerdə olacaqlar.

Türk dünyasının böyük oğlu, dünyaşöhrətli alim, Nobel mükafatı laureatı hörmətli Əziz Səncər də "TEKNOFEST"in hörmətli qonağı qismində təşrif buyurub. Əziz bəylə keçən görüşümü xatırlayıram, mənə dedi ki, onun böyük arzusu var idi hər zaman – Şuşaya getmək. Mənimlə görüşdən sonra Şuşaya getmişdir və bildirmişdir ki, artıq həyatda nəyə nail olmaq istəmişəmsə, ona nail olmuşam – Şuşanı da gördüm. Bu, bizi də çox xoşbəxt etdi. Əziz Səncər kimi insanlar gənclər üçün örnəkdir, nümunədir – həm alim, həm vətəndaş, həm türkçü, həm vətənpərvər insan. Siz gənclər, Əziz bəyə oxşamağa çalışmalısınız.

Bu gün, eyni zamanda, Selçuk Bayraktarı səmimiyyətlə salamlamaq istəyirəm. Selçuk bəy nəinki "TEKNOFEST"in təşkilatçısı və təşəbbüskarıdır, Selçuk bəy və Bayraktarlar ailəsi dünyada çox məşhur bir ailədir. İkinci Qarabağ savaşında məşhur "Bayraktar" PUA-larının rolunu indi dünyada bilməyən yoxdur. Selçuk bəy dünən Şuşada idi. Əminəm, Şuşanı görərkən bir daha şahidi oldu ki, Azərbaycan və Türkiyə qarşıda duran istənilən vəzifəni icra etməyə hazırdır, buna qadirdir. Xalqlarımız öz milli qürurunu müdafiə etmək, təmin etmək üçün hər zaman hər bir addıma fədakarcasına hazırdırlar. Selçuk bəy də gənclər üçün gözəl örnəkdir, nümunədir. Əminəm ki, bizim gənclərimiz Selçuk bəy kimi olmağa çalışacaqlar.

Bir də təvazökarlıqdan kənar olsa da, hesab edirəm ki, bu gün daha iki nümunə var – o da mənim qardaşımla mən. Biz ölkələrimizi müstəqillik yolu ilə irəliyə aparırıq. Mən dəfələrlə demişəm ki, Türkiyənin artan gücü bizi gücləndirir və biz bir-birimizə güc qataraq böyük dünya çapında bir güc mərkəzinə çevrildik.

Türkiyənin uğurlu inkişafı, ilk növbədə, Prezident Rəcəb Tayyib Ərdoğanın adı ilə bağlıdır. Mən də öz fəaliyyətimdə həmişə çalışmışam ki, Azərbaycan xalqının və dövlətinin milli maraqlarını müdafiə edim, Azərbaycanın müstəqil siyasətini təmin edim. Bizim aramızdakı qardaşlıq bütün Türkiyə və Azərbaycan xalqına örnək olmalıdır.

Mən bir daha əziz qardaşım, hörmətli Prezident və Türkiyədən gəlmiş bütün dostlarımıza, qardaşlarımıza, bacılarımıza bu bayram günündə bizimlə bərabər olduqları üçün öz təşəkkürümü bildirmək istəyirəm. Əmin olduğumu bildirmək istəyirəm ki, bundan sonra da Türkiyə və Azərbaycan yüksələn xətlə ancaq və ancaq irəliyə gedəcək.

Yaşasın Türkiyə-Azərbaycan birliyi, qardaşlığı! Qarabağ Azərbaycandır!

## *Bakı Enerji Həftəsi çərçivəsində 27-ci Beynəlxalq Xəzər Neft və Qaz Sərgisinin rəsmi açılış mərasimində İlham Əliyevin nitqi*

Hörmətli xanımlar və cənablar.

Əvvəlcə mən pandemiya səbəbindən ikiillik fasilədən sonra Xəzər Neft və Qaz Sərgisinin yenidən başlanmasına görə təşkilatçılara təşəkkürümü bildirmək istərdim. Şadam ki, bu gün bütün dünyadan gəlmiş qonaqlarımız buraya toplaşıblar. Ümid edirəm ki, Neft və Qaz Sərgisində və Bakı Enerji Həftəsində keçiriləcək müzakirələr enerji təhlükəsizliyi və enerji ehtiyatların şaxələndirilməsi kimi mühüm məsələlərlə bağlı dialoqu gücləndirəcək.

Azərbaycan müstəqillik illərində öz enerji təhlükəsizliyinə sərmayə yatırıb, daxili bazarda tələbatları tam təmin edib və sayı artan ölkələrin enerji təhlükəsizliyində get-gedə daha mühüm rol oynamağa çalışır. Müstəqilliyimizin ilk illərində vəziyyət belə olmayıb. Həmçinin bildirmək istərdim ki, artıq 27-ci dəfədir keçirilən Xəzər Neft və Qaz Sərgi və Konfransı qlobal enerji şirkətlərinin o vaxt müstəqilliyini yenicə qazanmış, bir çox çətinliklərlə üzləşmiş, ərazisinin əhəmiyyətli hissəsi işğal olunmuş və bir çox çağırışlarla üzləşmiş Azərbaycana diqqətinin cəlb edilməsində çox əhəmiyyətli rol oynayıb.

Bu səbəbdən, Xəzər Neft və Qaz Sərgisi təşkilatçılarının rolu həqiqətən çox vacib idi ki, diqqəti və sərmayələri cəlb etmək mümkün olsun. Bu konfransın keçirildiyi ilk ildən etibarən Azərbaycan özünün dünyaya açıq olduğunu elan etdi. Biz elan etdik ki, Xəzər dənizini əməkdaşlıq və sərmayələr məkanı kimi görmək istəyirik. Xəzərin neft və qaz yataqlarına yatırılan ilk xarici sərmayələr bizim tərəfdən və tərəfdaşlarımız tərəfindən təmin edilmişdir.

Lakin, söylədiyim kimi, həmin vaxt enerji təhlükəsizliyi tam təmin edilməmişdir. Elektrik enerjinin və qazın təchizatında fasilələr yaranırdı. Enerjinin verilməsi dayanırdı. Biz ürəkdən çalışmağa başladıq ki, öz enerji təhlükəsizliyimizi təmin edək. Bu iş icra olundu.

Eyni zamanda, paralel olaraq, biz neft hasilatını artırmaq və beynəlxalq bazarlara çatdırmaq məqsədilə beynəlxalq sərmayədarlarla, dünyanın aparıcı enerji şirkətləri ilə fəal işləyirdik.

Ötən əsrin sonunda, fikrimcə, mühüm hadisə baş verdi. Azərbaycandan Gürcüstanın Qara dənizdəki Supsa limanına gedən birinci neft boru kəmərinin açılışı baş tutdu. Bunun sayəsində biz ixraca başlaya bildik və bir çox ölkələrin tələbatlarını təmin etdik. Eyni zamanda, biz tərəfdaşlarımızla birgə qaz yataqlarının, xüsusən də, dünyada ən iri qaz yataqlarından biri sayılan "Şahdəniz" yatağının kəşfiyyatına başladıq. 2007-ci ildə Bakı-Tbilisi-Ərzurum qaz boru kəməri istismara verildi, Azərbaycan qazı, ilk dəfə olaraq, Türkiyənin və Gürcüstanın regional bazarlarına nəql olunmağa başladı. Bir il əvvəl - 2006-cı ildə isə biz Xəzər dənizini Aralıq dənizi ilə birləşdirən Bakı-Tbilisi-Ceyhan neft boru kəmərinin tikintisinə müvəffəq olduq. Həmin vaxt və indi də, fikrimcə, o, əlamətdar hadisə idi. Bu, neftin beynəlxalq bazarlara çıxarılmasında yeni marşrut və mənbə idi. Həmin vaxtdan etibarən, Bakı–Tbilisi–Ceyhan və Azərbaycanın bütün digər enerjinin nəql olunması infrastrukturu hər hansı fasilə olmadan istismar edilir. Bu, əlbəttə ki, proqnozlaşdırmanın, etibarlılığın və bu cür nəhəng, texniki və maliyyə baxımından çətin infrastruktur layihələrin icrasında bacarığımızın təzahürüdür. Həmçinin bu layihələr çox mürəkkəb siyasi mühitdə həyata keçirilmişdir.

Bu, regional enerji təhlükəsizliyi məsələlərinə aid olan mühüm tarixi hadisə idi. Əlbəttə ki, o, Azərbaycan ilə onun qonşuları – Türkiyə və Gürcüstan arasında regional əməkdaşlığı gücləndirdi. Bununla belə, planlarımız bundan da böyük idi. Təbii ki, biz Azərbaycanın nəhəng qaz ehtiyatlarını istifadə etmək istəyirdik və əlbəttə, bu məqsədlə bizə yeni boru kəməri lazım idi. Mən deyərdim, XXI əsrin boru kəməri – Cənub Qaz Dəhlizinə ehtiyac duyulurdu. Cənub Qaz Dəhlizin 2020-ci ilin sonuncu günündə uğurla tamamlanması ümumi iradəmizi, komanda daxilində işləmək və böyük uğurları qazanmaq bacarığımızı nümayiş etdirir. Bir çox ölkələri keçən, dənizin dibindən tutmuş uca dağ zirvələrinə qədər gedən 3500 kilometrlik vahid boru kəmərləri sistemi qüdrətimizin və dostluğumuzun təzahürüdür. Buna görə, Azərbaycanın ilkin mərhələdə başlatdığı enerji layihələri regional əməkdaşlıq üçün çərçivə yaratdı və onlar hazırda qlobal enerji layihələrinə çevrilib.

Cənub Qaz Dəhlizi fərəhlənə biləcəyimiz layihədir. Eyni zamanda, o, bizə nəhəng "Şahdəniz" qaz-kondensat yatağında hasilatı artırmağa imkan yaradır. Bu, artıq baş verdi. Cəmi bir il beş aydır ki, Azərbaycan həmin tamamilə yeni müasir infrastrukturdan öz qaz ehtiyatlarının nəqlində istifadə edir. Avropa qitəsində təbii sərvətlərimizlə bağlı fəaliyyətimizin genişləndirilməsi həm bizim, həm tərəfdaşlarımız üçün zəruridir. Biz hasilatın və ixracımızın artırılmasına müvəffəq olduq. Ötən il Azərbaycan 22 milyard kubmetr təbii qaz ixrac etmişdir. Bu il gözlənilir ki, bu rəqəm 24 milyard kubmetr olacaq. Gələn il, o, daha da çox olacaq. Göstəricilər hasilat işlərindən və Azərbaycanın Xəzərdəki sektorunda yerləşən digər yataqların istismarından asılı olaraq, fərqli ola bilər. Bizim qaz potensialımız yalnız "Şahdəniz"lə məhdudlaşmır. Digər yataqlar da çox perspektivlidir. Gələn il onların bəzilərində hasilat başlayacaq. Bu, enerji təhlükəsizliyinə mühüm töhfə olacaq. Xüsusən də, indiki dövrə gəldikdə, Azərbaycanın karbohidrogenlərinə olan tələbat heç zaman görünmədiyi kimi böyükdür. Məsuliyyətli ölkə kimi biz bunu nəzərə alırıq və müxtəlif səbəblərə görə çətinliklərlə üzləşən ölkələri dəstəkləməyə çalışırıq. Hazırda, Azərbaycanın müvafiq strukturları sayı artan ölkələrlə daim təmasdadır.

Cənub Qaz Dəhlizinin icrası ilə məşğul olduğumuz zaman biz boru kəməri ərazisindən keçən ölkələrlə, eləcə də beynəlxalq maliyyə təsisatları, enerji şirkətləri, aparıcı ölkələrin hökumətləri və Avropa Komissiyası ilə çox sıx əməkdaşlıq qurmuşuq. Cənub Qaz Dəhlizin Məşvərət Şurasının hər ilin fevralında Bakıda keçirilən illik toplantısı həmin komanda işinin bariz nümunəsidir. Bu il fevralın 4-də Cənub Qaz Dəhlizi Məşvərət Şurasının illik toplantısı keçirildiyi zaman biz anladıq ki, planlarımızın ən böyük hissəsi artıq icra olunub və Cənub Qaz Dəhlizi artıq işləyir. İndi isə, bizə sadəcə işləmək, yeni körpüləri salmaq, yeni əlaqələri qurmaq, interkonnektorları yaratmaq və Avropanın qaz bazarında fəaliyyətimizi genişləndirmək qalır.

Əlbəttə ki, hazırda - iyunun 1-də söhbət apardığımız zaman vəziyyət tamamilə fərqlidir və Azərbaycan qazına olan tələbat sürətlə artır. Təbii ki, biz bunu nəzərə almalıyıq. Lakin, eyni zamanda, potensial istehlakçılar anlamalıdırlar ki, bir il ərzində qazı böyük həcmdə hasil etmək mümkün deyil. Bunun üçün bizə müqavilələr lazımdır. Biz danışıqlara başlamalı və onları sürətləndirməliyik. Biz ənənəvi tərəfdaşlar və sərmayədarla, eləcə də enerji şirkətləri ilə çalışmalıyıq ki, hasilat artsın. Həmçinin biz mövcud qurğuları genişləndirməliyik. Bu məsələləri biz gələn illərdə planlaşdırmırdıq, çünki Cənub Qaz Dəhlizi, artıq söylədiyim kimi, üç boru kəmərindən ibarət vahid boru kəmərləri sistemidir. Onun sonuncu hissəsi – Trans-Adriatik boru kəmərinin buraxıcılıq qabiliyyəti 10 milyard kubmetrdir. İndi isə biz onun genişləndirilməsi haqqında düşünürük, çünki buna ehtiyac var. Əlbəttə, bu, vaxt və çoxlu maliyyə vəsaitlərini, o cümlədən sıx əlaqələndirməni, əməkdaşlığı və bütün iştirakçı ölkələrlə fəal dialoqu tələb edəcək. Biz buna hazırıq. Azərbaycanın Energetika Nazirliyi və

Dövlət Neft Şirkəti artıq bütün təlimatlarımı alıblar və onlar fəal danışıqlar aparırlar.

Yeri gəlmişkən, Bakı Enerji Həftəsi gözəl fürsət olacaq, çünki həmin mühüm məsələlərin müzakirəsi üçün qonaqlarımız arasında bir çox ölkələrdən yüksək səviyyəli rəsmilər var. Eyni zamanda, əlbəttə, biz Cənub Qaz Dəhlizinin komanda üzvləri, o cümlədən hökumətləri ilə fəal dialoqu davam etdirməliyik. Mən Cənub Qaz Dəhlizində iştirak edən ölkələrin – Türkiyənin, Gürcüstanın, Bolqarıstanın, Yunanıstanın, Albaniyanın, İtaliyanın hökumətlərinə fəal əməkdaşlıq etdiklərinə görə təşəkkürümü bildirmək istəyirəm. Hazırda yeni çağırışların və tələbatların olduğunu nəzərə alaraq, əlbəttə, biz artıq digər potensial istehlakçı ilə danışıqlar prosesindəyik. Lakin bunun üçün yalnız bizim səylər kifayət olmayacaq. Avropada infrastruktura, yeni interkonnektorların tikintisinə yatırımlar olmalıdır və yeni şərtlər üzərində razılıq əldə edilməlidir. Çünki hamımız bilirik ki, qaz biznesində siz birincisi qazı satırsınız, müqaviləni imzalayırsınız, sonra isə, sərmayə yatıraraq hasilata başlayırsınız.

Lakin, bütün söylədiklərimin məqsədi ümumi vəziyyəti öz nöqteyi-nəzərimizdən təqdim etməkdən ibarət idi. Bununla belə, eyni zamanda, biz prosesin sürətləndirilməsi üçün əlimizdən gələni edəcəyik və bu, artıq başlayıb.

Mən, həmçinin Birləşmiş Ştatların və Birləşmiş Krallığın hökumətlərinə təşəkkürümü bildirmək istərdim. Onlar enerji siyasətimizin və fəaliyyətimizin bütün mərhələlərində bizə hər zaman böyük dəstək veriblər. Biz həmin böyük dəstəklə bu nəticələrə nail ola bildik. Mən, həmçinin beynəlxalq maliyyə təsisatlarına – Dünya Bankına, Avropa Yenidənqurma və İnkişaf Bankına, Asiya İnkişaf Bankına, Avropa İnvestisiya Bankına, Asiyanın İnfrastruktur və İnvestisiya Bankına, yəni Cənub Qaz Dəhlizini maliyyələşdirmiş bütün banklara təşəkkürümü bildirmək istəyirəm. Ümid edirəm ki, onlar, həmçinin bizim yeni planlarımızın həyata keçirilməsinə, xüsusilə də Trans-Adriatik boru kəmərinin genişləndirilməsinə də maliyyə dəstəyi verəcəklər. Həmçinin biz TANAP-ın genişləndirilməsi haqqında da düşünə bilərik. Çünki mən artıq dediyim kimi, Azərbaycan qazına tələbat artır, bunun uçun potensial var, siyasi iradə var. Beləliklə, biz təbii qazın nəqli ilə bağlı infrastruktur imkanlarımızın potensial tələbatın səviyyəsinə gətirilməsi üçün vaxt itirməməliyik. Burada yalnız TAP deyil, həm də Cənubi Qafqaz boru kəməri və TANAP sürətli qaydada genişləndirilməlidir və biz bunun üzərində çalışırıq.

Bundan əlavə, mən Azərbaycan və Avropa Komissiyası arasında məhsuldar əməkdaşlığı qeyd etmək istəyirəm. Bu da, “Cənub Qaz Dəhlizi” layihəsinin icrasında vacib rol oynayıb və gələcək planlarımızın reallaşdırılmasında da mühüm rol oynayacaq. Biz bununla bağlı Avropa Komissiyası ilə daimi təmasdayıq və cari ilin fevral ayının əvvəlində Bakıda Avropa İttifaqının enerji məsələləri üzrə komissarı və bizim energetika naziri arasında aparılmış müzakirələr nəticəsində Avropa İttifaqı və Azərbaycan arasında enerji dialoqunu yaratdıq. Gündəlik olduqca genişdir, buraya neft və qaz kimi ənənəvi sahələr daxildir. Bununla yanaşı, elektrik enerjisi, bərpaolunan enerji, hidrogen və enerjinin səmərəliliyi məsələləri də gündəmdədir. Hesab edirəm, geniş spektrli mövzular və bu məsələlərdə fəal əməkdaşlıq bizə imkan verəcək ki, ixrac üçün daha çox qaz həcmlərimiz olsun.

Çünki bizim gündəlikdə duran növbəti planımız yenilənən enerjidir və artıq bu sahədə işlər görülür. Bu sahədə Azərbaycan çox gözəl nəticələr nümayiş etdirir. Çünki biz artıq özümüzü etibarlı ölkə olaraq təsdiq etmişik, o ölkə ki, öz öhdəliklərinə hörmət edir. Qeyd etmək istəyirəm ki, hasilatın pay bölgüsünə dair 1994-cü ildə xarici şirkətlərlə imzalanmış ilk sazişdən bu günə qədər müqavilələrdə bir söz belə dəyişdirilməyib. Bu isə bizim mövqeyimizin təzahürüdür. Biz öz öhdəliklərimizə hörmət edirik və tərəfdaşlarımızdan öz öhdəliklərinə hörmət etməyi gözləyirik.

Beləliklə, etibarlılıq vacib amil idi. İkincisi məsələ isə əlbəttə ki, Azərbaycanda olan siyasi və iqtisadi sabitlik, neft, qaz və elektrik enerjisi ilə bağlı infrastrukturun yaradılmasında gözəl nəticələrimizdir. Yeri gəlmişkən, Azərbaycan təkcə neft və qaz deyil, eyni zamanda, elektrik enerjisi ixrac edən ölkədir. Nəhəng potensial və təcrübə – bütün bu amillər mühüm enerji şirkətlərini cəlb etməyə və yenilənən enerjiyə investisiya yatırmağa imkan verib.

Bu il biz artıq dünyanın aparıcı enerji şirkətləri olan “ACWA Power” və “Masdar” şirkətləri ilə iki təməlqoyma mərasimi keçirmişik. Hazırda biri günəş, digəri isə külək olmaqla, iki elektrik stansiyası inşa olunur ki, onların birgə istehsal gücü 470 meqavatdır. Gələn il bu iki stansiya istifadəyə veriləcəkdir və bu, yalnız başlanğıcdır. Çünki biz artıq yenilənən enerji sahəsində bir çox aparıcı enerji şirkətləri ilə fəal danışıqlar mərhələsindəyik.

Xəzər dənizinin nəhəng potensialı var və artıq bu hesablama aparılıb. Mənə verilən məlumata görə, Xəzər dənizinin Azərbaycan sektorunun potensialı 150 min meqavat təşkil edir, yəni, bu, nəhəng həcmdir.

Eyni zamanda, İkinci Qarabağ müharibəsi nəticəsində işğaldan azad olunan ərazilərin, xüsusilə də Kəlbəcər və Laçının potensialının 9-10 min meqavat olduğunu hesab edirik. Burada söhbət külək və günəş enerjisindən gedir. Buraya hidroelektrik enerjini əlavə

etsək, - hansı ki, onun da böyük potensialı var, - buraya daha 1000 meqavat və ya artıq güc əlavə etmək olar.

Bütün bunlar bizim hökumətimiz tərəfindən ciddi şəkildə nəzərdən keçirilir və bərpaolunan enerjiyə nə qədər çox sərmayə qoyulacaq, bir o qədər qaza qənaət ediləcək və ixrac olunacaq, bu, təbiidir.

Beləliklə, bütün bu amillərin vəhdəti, o cümlədən enerjinin səmərəliliyi və bizim şəbəkəmizdə itkilərin aradan qaldırılması Azərbaycandan qaz ixracının artırılması ilə nəticələnəcək. Bu, bizim hədəfimizdir və əminəm ki, biz buna nail olacağıq. Çünki bu günədək planlaşdırdıqlarımızın hamısı reallaşıb. Yalnız neft və qaz sahəsində yox, hökumətimiz bütün planlarına nail olub. Biz bütün bunlara maksimal dərəcədə səmərəliliklə nail olmuşuq.

Ənənəvi Xəzər Neft-Qaz Sərgisi və Konfransı, həmçinin Bakı Enerji Həftəsi çərçivəsində bütün bu vacib məsələlər müzakirə ediləcəkdir. Neft təchizatı həcminin artırılması müzakirə olunacaq. Bu gün artıq Azərbaycan digər ölkələr üçün vacib tranzit imkanlarını təqdim edir. Bu potensialdan da maksimum dərəcədə istifadə oluna bilər. Təəssüf ki, bu günədək bu potensialdan tam istifadə edilməyib. Təəssüf ki, Azərbaycanın mühüm tranzit ölkəsi qismində potensialı təchizatçılar tərəfindən düzgün qiymətləndirilməmişdir.

Hesab edirəm ki, bu gün artıq onlar fikirlərini dəyişiblər. Çünki hər kəs anlayır ki, şaxələndirmə enerji təhlükəsizliyinin başlıca amillərindəndir. Biz isə enerji strategiyamızın həyata keçirilməsinin ilk günündən etibarən şaxələndirmə üzərində çalışmışıq. Bunun nəticəsində bizim şaxələndirilmiş ixrac marşrutlarımız var – müxtəlif istiqamətə uzanan 3 neft boru kəməri və 4 qaz boru kəmərimiz mövcuddur. Elektrik enerjisi xətlərinə gəldikdə isə biz 4 qonşu ölkəyə elektrik enerjisi ixrac edirik və Avropaya elektrik enerjisi ixrac etməyi planlaşdırırıq.

Biz Zəngəzur dəhlizinin fəaliyyətinə start vermək istəyirik. Bu da yalnız yüklər üçün deyil, elektrik enerjisi üçün mühüm ixrac marşrutu ola bilər. Biz işlərə başlamışıq və bu istiqamətdə investisiya ilə bağlı artıq praktiki addımlar atırıq. Beləliklə, hər bir məsələdə şaxələndirmə vacibdir.

Bu səbəbdən vaxtilə Azərbaycanın etibarlı tranzit ölkəsi kimi potensialını düzgün qiymətləndirməyənlər fikirlərini dəyişəcəklər. Biz artıq müəyyən eyhamlar görürük və biz buna hazırıq. Biz köməyə ehtiyacı olan hər kəsə yardım etməyə hazırıq. Bunun üçün bizdə siyasi iradə var. Hər zaman bizim siyasətimiz körpülər qurmaqdan və əməkdaşlığı gücləndirməkdən ibarət olub.

Bundan əlavə, biz zəruri infrastruktura malikik. Yeni dəniz limanı, bütün istiqamətlərlə bizi birləşdirən dəmir yolu, avtomobil yolları və hava limanları. Azad olunmuş ərazilərdə üç yeni hava limanımız olacaq. Onlardan biri artıq istifadə verilib. Beləliklə, Azərbaycan 9 beynəlxalq hava limanına sahib olacaq. Nəhayət, ölkəmizin coğrafi yerləşməsi, yəni, neft və qaz sahəsində əməkdaşlıqla bağlı planlar qurarkən Azərbaycanın tranzit potensialı nəzərə alınmalıdır.

Burada söylədiklərim beynəlxalq tərəfdaşlarımız üçün də önəmlidir. Burada SOCAR və BP arasında strateji tərəfdaşlığı xüsusi vurğulamaq istərdim. Bizim üçün neft və qaz sahəsində BP strateji tərəfdaş və aparıcı investordur. Mən çox məmnunam ki, BP bərpaolunan enerji sahəsinə maraq göstərir. Hazırda SOCAR və BP azad olunmuş Cəbrayıl rayonunda 200 meqavatdan artıq gücə malik elektrik enerjisi stansiyasının inşasını müzakirə edir və ümidvaram ki, tezliklə yaxşı nəticələr olacaq.

Perspektiv planlarımıza gəldikdə, onların reallaşdırılması ənənəvi enerji tərəfdaşlarımızın iştirakı olmadan mümkün olmazdı. Biz bu mühüm dövrdə, dünyada geosiyasi vəziyyətin bir neçə ay bundan öncə ilə müqayisədə kəskin şəkildə fərqli olduğu bir vaxtda istənilən ölkədən olan hər bir şirkətlə əməkdaşlıq etməyə hazırıq.

Burada qeyd etdiklərimin hamısı daxili inkişafımız üçün də çox əhəmiyyətlidir. Enerji amili, enerji diplomatiyası və bütün layihələr bizim iqtisadi potensialımızı gücləndirir, bizə imkan yaradır ki, cəsarətli islahatlarla yanaşı, neft-qaz sektorundan əldə etdiyimiz gəlirlər iqtisadiyyatımızın qeyri-neft sektoruna yönəldilsin. Biz bunun nəticəsini görürük və diqqətinizə cari ilin bəzi göstəricilərini təqdim etmək istəyirəm. Bu il ümumi daxili məhsul 7.2 faiz artıb. Qeyri-neft sektorunda artım 11.5 faiz, qeyri-neft sənayesində artım 15 faizdən artıq olub. Bütün bunlar islahatların və topladığımız gəlirlərin yönləndirilməsinin təzahürüdür.

Yəni, şaxələndirmə yalnız enerji təchizatına aid deyil. Bu, bizim iqtisadiyyatımızın şaxələndirilməsidir və biz buna nail oluruq. Hesab edirəm ki, bu gün Azərbaycanda biznes mühiti tamamilə lazımi səviyyədir və Azərbaycan xarici investisiya üçün olduqca cəlbedici ölkələrdəndir. Dediyim kimi, birincisi, bizim neft-qaz sahəsində nəhəng təcrübəmiz var, biz ənənəvi şirkətlərlə tərəfdaşlığımıza böyük dəyər veririk. Biz heç vaxt imza atdığımız müqavilənin bir sözünü belə dəyişməmişik. Biz sürətlə inkişaf edirik və əlbəttə ki, Qarabağda və Zəngəzurda aparılan yenidənqurma işləri iqtisadi potensialımızı artıracaqdır.

Xarici borcumuzun aşağı səviyyədə olması – ümumi daxili məhsulun yalnız 12.5 faizini təşkil etməsi də münbit iqtisadi şərait yaradır. Biz əlavə kreditlər götürə bilərik, sadəcə, bunu etmirik, çünki buna ehtiyac

yoxdur. Biz xarici borcumuzu ümumi daxili məhsulun 10 faizi səviyyəsinə salmaq istəyirik və bununla bağlı hökumətə göstəriş vermişəm.

Bununla yanaşı, görsək ki, Azərbaycan üçün vacib olan qlobal əhəmiyyətli layihələr var, əlbəttə, biz ənənəvi tərəfdaşlarımıza, aparıcı maliyyə institutlarına müraciət edəcəyik ki, bizə dəstək olsunlar. Bizim bununla bağlı Cənub Qaz Dəhlizi və digər layihələrdə təcrübəmiz var.

Biz bu gözəl tədbir üçün darıxmışdıq və artıq dediyim kimi, bu, regionun aparıcı beynəlxalq enerji tədbiridir. Mən bir daha qonaqlarımıza bizimlə olduqlarına görə təşəkkür edirəm və Bakı Enerji Həftəsinin işinə uğurlar diləyirəm. Sağ olun.

## *IX Qlobal Bakı Forumunun açılışında İlham Əliyevin nitqi*

Çox sağ olun. Sabahınız xeyir, hörmətli dostlar, xanımlar və cənablar.

Hörmətli prezidentlər, Nizami Gəncəvi Beynəlxalq Mərkəzinin hörmətli həmsədrləri.

Sizin hamınızı salamlayıram. Bu gün bizimlə olduğunuza görə sizə təşəkkürümü ifadə etmək istəyirəm. Bu gün IX Qlobal Bakı Forumunun açılışıdır və əminəm ki, müzakirələr həmişəki kimi çox məhsuldar olacaq. Çünki bizim böyük auditoriyamız var. Nizami Gəncəvi Beynəlxalq Mərkəzinin üzvləri və Forumda iştirak edən qonaqlar əminəm ki, qlobal arenada ən vacib məsələlərlə bağlı çox açıq və səmimi müzakirəyə töhfə verəcəklər.

Əminəm ki, müzakirələr və fikir mübadiləsi qlobal gündəlikdə əsas yer alan məsələlərin həllində yeni yanaşmaların işlənib hazırlanmasına kömək edəcək. Öz fəaliyyəti ərzində Nizami Gəncəvi Beynəlxalq Mərkəzi qlobal məsələləri müzakirə edən və geniş beynəlxalq birliyi öz sıralarına qata bilən aparıcı beynəlxalq institutlardan birinə çevrilmişdir. Biz İdarə Heyətinin üzvləri ilə dünən görüşdük və mənə məlumat verildi ki, IX Forumda demək olar ki, 50 ölkədən nümayəndə, yüksək səviyyəli nümayəndə iştirak edir və bu göstərici bir il bundan əvvəlki göstəricidən xeyli çoxdur. Bu, bizim müzakirələrin cəlbedici olduğunu nümayiş etdirir, bu platformaya ehtiyacın olduğunu nümayiş etdirir və o, çox faydalıdır, onun çox mühüm praktiki təsiri var.

Mən əminəm ki, bu gün Bakıda və bazar günü Şuşada müzakirə olunan məsələlər qərar qəbul edən şəxslər üçün vacib olacaq. Çünki bu gün heç vaxt olmadığı kimi, yeni yanaşmaların işlənib hazırlanmasına ehtiyac var. Nizami Gəncəvi Beynəlxalq Mərkəzinin həmsədrlərinə, xanım Vike-Freyberqaya və cənab Serageldinə Mərkəzin və Qlobal Forumun, – hesab edirəm ki, indi bu Forum beynəlxalq aparıcı forumlar sırasında yüksək yerdədir, – transformasiyasına verdikləri böyük töhfələr üçün təşəkkürümü bildirmək istəyirəm. Həmçinin İdarə Heyətinin bütün üzvlərinə bu transformasiyada fəal rol oynadıqlarına görə təşəkkürümü bildirmək istəyirəm.

Yeni yanaşmalar haqqında danışarkən görürük ki, ötən ilin noyabrına təsadüf edən, burada – “Gülüstan” sarayında keçirilən görüşümüzdən bəri dünyanın dəyişməsi aydındır. Dəyişiklik fundamentaldır. Hələ ki, proqnozlaşdırılması mümkün olmayan fəsadlarla müşayiət olunur, lakin dünyanın fərqli olacağı aydındır və o, artıq fərqlidir. Buna görə də müzakirələr, fikir mübadilələri, bəzən fərqli fikirlərin ziddiyyətləri yeni yanaşmaların işlənib hazırlanması üçün lazım olanlar da bunlardır. Əlbəttə ki, hər bir ölkə bu prosesə, ilk növbədə, təhlükəsizlik tədbirləri ilə bağlı töhfə verməlidir. Çünki təhlükəsizlik məsələləri beynəlxalq arenada, beynəlxalq gündəlikdə duran əsas məsələlərdən birinə çevrilib. Eyni zamanda, mən əminəm ki, Avropadakı cari vəziyyət barədə açıq müzakirələrin aparılması tələb olunur. Qlobal Bakı Forumu bunun üçün mükəmməl platforma olaraq çıxış edir. Bu Forum müxtəlif tərəflərin fikirlərini toplayan inklüziv bir Forumdur və hesab edirəm ki, bu, belə də olmalıdır. Çünki biz hamımız dünyanı daha da təhlükəsiz etmək üçün bir-birimizlə daha yaxından çalışmalıyıq.

Eyni zamanda, mən əminəm ki, gündəlikdə duran məsələlərdən biri beynəlxalq institutların, aparıcı beynəlxalq institutların, aparıcı maliyyə institutlarının ərzaq böhranı ilə mübarizədə rolunun nədən ibarət olması məsələsi olacaq. Çünki bu məsələ labüddür, o, artıq bizə yaxınlaşır. Beynəlxalq təşkilatlar və aparıcı ölkələr, həmçinin miqrantların potensial artımı ilə bağlı vəziyyətin öhdəsindən gəlməlidirlər. Bu, ərzaq böhranı nəticəsində baş verəcəkdir. Enerji bazarlarındakı vəziyyəti buraya əlavə etsək, bu vəziyyəti proqnozlaşdırmaq çətindir. O, istehsalçılar və istehlakçılar arasında qeyri-bərabərsizliyə yol açır və bu, həmçinin istehsalçılar üçün də riskdir. Əgər kimsə neft və qaz istehsal edən ölkələrin bu yüksək qiymətlərə görə çox sevindiyini düşünürsə, bu, düzgün dəyərləndirmə deyil. İstehsalçılar və istehlakçılar arasında maraqlar tarazlığı, sabit bazar - istehsalçılara həqiqətdə bu, lazımdır. Azərbaycanın fəal iştirak etdiyi OPEC+ formatında səylər buna yönəlib. Bütün bunlar yeni çağırışlardır. Mənim indi de-

diklərim altı ay bundan əvvəl burada əyləşərək söylədiklərimdən tamamilə fərqlidir. Bu, onu göstərir ki, hər şey dəyişə bilər, hər şey dəyişir və heç nə sabit deyil.

Əlbəttə, Azərbaycanın Prezidenti olaraq mən ölkəmizin təhlükəsizliyi ilə bağlı məsələlər üzərində çalışıram və Qarabağ münaqişəsinin həlli, zənnimcə, regionda təhlükəsizlik üçün, regionda sülh üçün bir fürsətdir. Keçən dəfə görüşəndə mən işğal, dağıntı və xalqımızın demək olar ki, otuz il əziyyət çəkdiyi humanitar böhranla bağlı məsələyə geniş şəkildə toxundum. Bunları təkrarlamaq istəmirəm, bunlar artıq məlumdur. Çünki işğaldan azad edilmiş ərazilərdə o qədər ziyarətçilər – siyasətçilər, ictimai xadimlər, jurnalistlər, vətəndaş cəmiyyətinin nümayəndələri olublar, onlar hər şeyi, erməni işğalından sonra hansı dağıntıların qaldığını öz gözləri ilə görüblər.

Keçən il Nizami Gəncəvi Beynəlxalq Mərkəzi sessiyalardan birini Şuşada təşkil etmişdir. Mən buna görə Mərkəzə minnətdaram və bizim orada görüşmək imkanımız oldu. Mən qonaqlarımız üçün sanki bir bələdçi olaraq onlara vəziyyəti göstərirdim. Buna görə mən bizim müharibədən sonrakı vəziyyət, Qafqazda regional təhlükəsizliklə bağlı yanaşmalarımızı ifadə etmək istəyirəm. Azərbaycan müharibədə qalib gəldi, müharibə ədalətli idi, müharibə labüd idi və ədalətin, beynəlxalq hüququn və Azərbaycan xalqının milli ləyaqətinin bərqərar olunması ilə nəticələndi. İndi biz sülh haqqında danışırıq. Hesab edirəm ki, belə uzunmüddətli qarşıdurmadan sonra ədaləti bərqərar edən və təcavüzkarı məğlub edən ölkənin qısa müddət ərzində sülh təklif etməsi dünyada nadir hallardan biridir. Müharibələr tarixinə baxsanız, bir çox hallarda bu mənzərə müşahidə edilmir. Nə üçün biz sülhü seçdik? Çünki biz Cənubi Qafqazda sabit, dayanıqlı inkişafı görmək istəyirik. Bu, nadir fürsətdir. Cənubi Qafqaz üç Cənubi Qafqaz ölkəsinin müstəqillik illəri ərzində parçalanmışdır. Ermənistanın işğalı səbəbindən o, 30 il ərzində parçalanmışdır. İndi sülh, əməkdaşlıq yaratmaq vaxtıdır və Azərbaycan bunun üzərində çalışır.

Ermənistanla münasibətlərin normallaşması prosesinə gəlincə, biz sülh razılaşması üzərində çalışmağa başlamağı təklif etdik. Ermənistan cavab vermədi. Sonra biz daha bir addım atdıq. Biz hər iki ölkənin sərhədlərinə və ərazi bütövlüyünə qarşılıqlı hörmət etmək və tanımaq, indi və gələcəkdə hər hansı bir ərazı iddialarından qarşılıqlı şəkildə çəkinmək prinsipi də daxil olmaqla, beynəlxalq hüququn beş əsas prinsipini və bizim təklifin əsasını təşkil edən başqa prinsipləri də irəli sürdük. Bu beş prinsipin Ermənistan hökuməti tərəfindən qəbul edilməsi bizi məmnun etdi. Beləliklə, bu, müsbət dinamikadır. Lakin indi biz praktiki icraya keçməliyik. Çünki işğal vaxtının tarixindən bildiyimizə əsaslanaraq danışıqlar apararkən bəzən Ermənistan rəsmiləri tərəfindən hətta yüksək səviyyədə ifadə edilmiş sözlərin o qədər də böyük məna daşımadığını bilirik. Çünki bizə addımların atılması lazımdır. Azərbaycan artıq öz tərəfindən sülh razılaşması üzrə komissiyasını yaradıb və biz eyni addımın Ermənistan tərəfindən atılmasını da gözləyirik. Bu addım atılan kimi və ya atılan təqdirdə danışıqlar başlayacaqdır.

Biz, həmçinin sərhədimizin delimitasiyasına başlanılması ilə bağlı təklif irəli sürdük. Çünki sərhədimizin ən böyük hissəsi də işğal altında idi və orada heç vaxt delimitasiya aparılmamışdır. Buna görə də bu proses də başlanılıb və Azərbaycan-Ermənistan sərhəd komissiyasının birinci birgə iclası keçən ay sərhəddə baş tutmuşdur. Hər iki tərəfin sərhəddə görüşməsi də rəmzi xarakter daşıyırdı. Bu, həmçinin bu məsələdə irəliləyişin olacağına dair mühüm mesaj idi. Əlbəttə ki, biz bu yolun uzun olduğunu anlayırıq, lakin bu proses artıq başlayıb. Eyni zamanda, biz kommunikasiyaların açılması ilə bağlı Ermənistanın 2020-ci il 10 noyabr tarixində imzalanmış Üçtərəfli Bəyanata əməl edəcəyini gözləyirik ki, Azərbaycanın Naxçıvan Muxtar Respublikası ilə əlaqəsi olsun. Ermənistan tərəfindən kapitulyasiya aktının imzalanmasından bəri bir il yarımdan çox vaxt keçib, lakin, əfsuslar olsun ki, indiyədək heç bir çıxış təmin olunmayıb. Bu, qəbuledilməzdir. Birincisi, bu, Ermənistan tərəfindən Üçtərəfli Bəyanatın müddəalarının pozulmasıdır və bu, regionda sanki bir disbalans yaradır. Çünki eyni Bəyanata əsasən, Azərbaycan Ermənistandan Azərbaycanın erməni əhalisinin yaşadığı Qarabağ bölgəsinə maneəsiz çıxışın təmin olunması üçün üzərinə öhdəlik götürdü. Beləliklə, bir il yarımdır ki, ermənilər Laçın yolundan istifadə edirlər və maneəsiz əlaqəyə malikdirlər. Azərbaycanlılar isə Ermənistan ərazisindən keçən yoldan, bizi Naxçıvanla birləşdirən Zəngəzur dəhlizindən istifadə edə bilmirlər. Bu, ədalətsizdir və biz bununla razılaşmayacağıq. Ermənistan tərəfindən bizə belə bir əlaqə yolunun verilməsi məsələsinin məqsədyönlü şəkildə gecikdirilməsi səmərəsizdir. Bu, mənə əvvəlki danışıqlar dövrünü xatırladır ki, Ermənistan o zamanlar vaxt udmaq üçün davamlı olaraq bütün məsələləri gecikdirirdi. Bu, nə ilə nəticələndi? Nəticə həm döyüş meydanında, həm də siyasi arenada tam məğlubiyyət oldu. Nəticə o oldu ki, Ermənistanın ideoloji bazası tamamilə darmadağın edildi. Otuzillik işğal dövrü erməni xalqını heç də xoşbəxt etmədi. Əksinə, onlar dünya ictimaiyyətinin gözündə işğalçı və təcavüzkar oldular. Müharibə başa çatdıqdan sonra artıq hər kəs görə bilər ki, onlar işğal dövründə oraları necə viran qoyublar.

Beləliklə, Zəngəzur dəhlizinin açılması məsələsinin ən qısa zamanda həlli gələcək regional sülhün fundamental elementlərindəndir. Əgər bizə bu əlaqə yolu

təqdim edilməyəcəksə, sülh haqqında danışmaq çətin olacaq və Azərbaycanın Ermənistanla birgə yaşayış və normal qonşuluq münasibətlərinin qurulmasına yönəlmiş bütün səyləri uğursuz olacaq. Bir daha qeyd etmək istəyirəm ki, bu, vacib məsələdir, Azərbaycanın bunu tələb etməyə haqqı var. Birincisi, Ermənistan hökuməti müvafiq Bəyanatı imzalayıb. İkincisi, Azərbaycan müharibədə qalib gəlib və işğaldan əziyyət çəkmiş ölkə olaraq bizim bunu tələb etməyə mənəvi haqqımız var.

Diqqətinizi cəlb etmək istədiyim digər bir məsələ Azərbaycanda yaşayan ermənilərlə bağlıdır. Mənim, Avropa İttifaqı Şurasının Prezidenti və Ermənistanın baş naziri Paşinyanın Brüsseldə baş tutmuş üçtərəfli görüşümüzün nəticələrinə dair cənab Şarl Mişel tərəfindən yayılmış bəyanatda aydın şəkildə deyilir ki, Qarabağda yaşayan erməni əhalisinin də hüquqları və təhlükəsizliyi nəzərə alınacaq. Biz bunu tam şəkildə dəstəkləyirik. Azərbaycanın bütün əhalisinin hüquq və təhlükəsizliyi Konstitusiya ilə təmin edilir. Azərbaycan çoxmillətli ölkədir və erməni əhalisi Azərbaycanın heç də ən böyük milli azlığı deyil. Yəni, bizim Konstitusiyamıza görə, bütün millətlərin nümayəndələri bərabər hüquqa malikdir, o cümlədən illər boyu Azərbaycanda yaşayan ermənilər. Bəli, hüquqlar və təhlükəsizlik məsələləri tərəfimizdən təmin ediləcək. Lakin, təəssüflər olsun ki, biz Ermənistan hökuməti tərəfindən dırnaqarası Dağlıq Qarabağın statusu ilə bağlı fikirlərin səsləndirilməsinin şahidi oluruq. Bu, tamamilə səmərəsizdir və Ermənistanın özü üçün təhlükəlidir. Dağlıq Qarabağ mövcud deyil. Dağlıq Qarabağ Muxtar Vilayəti Azərbaycan parlamentinin qərarı ilə 1991-ci ilin sonlarında ləğv edilib. Bizim ərazimizdə belə bir inzibati struktur yoxdur. Bu səbəbdən, dırnaqarası statusla bağlı istənilən istinad yeni qarşıdurmaya gətirib çıxaracaq. Ermənistan hökuməti bunu anlamalı və tarixi yenidən yazmaq cəhdlərindən çəkinməlidir, çünki tarix artıq yazılıb. Status məsələsinin gündəmə gətirilməməsi ilə bağlı şifahi razılıq var idi. Təəssüflər olsun ki, bu, baş verir və bunun çox ciddi nəticələri ola bilər. Ermənistan Azərbaycanın ərazi bütövlüyünü sual altına qoyacaqsa, Azərbaycan üçün Ermənistanın ərazi bütövlüyünü sual altına qoymaqdan başqa çıxış yolu olmayacaq. Tarixi nöqteyi-nəzərdən bizim bunu etməyə hüququmuz var. Ötən əsrin tarixində aydın göstərilir ki, 1920-ci ilin noyabrında, Azərbaycanın sovetləşdirilməsindən altı ay sonra sovet hakimiyyəti Azərbaycanın tarixi parçası olan Zəngəzuru Ermənistana birləşdirdi. Yəni, Ermənistan Qarabağdakı ermənilər üçün status tələb etməyə cəhd edəcəksə, nə üçün azərbaycanlılar Qərbi Zəngəzurda özləri üçün status tələb etməsin? Həmin ərazilərin əhalisi tamamilə azərbaycanlılardan ibarət olub. Bu yanaşma çıxılmaz vəziyyətə gətirib çıxaracaq və hesab edirəm ki, Ermənistan hökuməti İkinci Qarabağ müharibəsinin dərsini unutmamalıdır. Həmin dərsi yaxşı öyrənməli və Azərbaycana qarşı hər hansı ərazi iddialarından çəkinməlidir.

Sizin bilməyinizi istədiyim digər bir məsələ ATƏT-in Minsk qrupunun fəaliyyəti barədə fərziyyələrlə bağlıdır. Minsk qrupu 1992-ci ildə təsis edilib və onun mandatı münaqişənin həllinə yardım etməkdən ibarət olub. Lakin faktiki olaraq onun fəaliyyəti sıfırla nəticələnib. Təsəvvür edin ki, ATƏT-dən mandat almış bu qrup 28 il ərzində heç bir nəticə əldə etməyib. Azərbaycan Qarabağ münaqişəsini həll etdikdən sonra Minsk qrupunun fəaliyyətinə artıq ehtiyac yoxdur. Hesab edirəm ki, hər kəs bunu anlayır. Xüsusilə Rusiya-Ukrayna müharibəsindən sonra aydındır ki, Minsk qrupunun üç həmsədr ölkəsi bir araya gələ bilməz və biz bununla bağlı artıq mesajlar almışıq – bu qrupun həmsədrlik institutu fəaliyyət göstərməyəcək. Yəni, Minsk qrupu funksiyasını itirib. Bunu yenidən dirçəltmək cəhdləri də səmərəsizdir. Düşünürəm ki, bunun ən yaxşı yolu Minsk qrupuna əlvida deməkdir. Təşəkkür edirik və əlvida deyil, yalnız əlvida demək olar. Yəni, 30 il kifayətdir, təqaüdə çıxmaq vaxtıdır.

Bizim mövqeyimiz ondan ibarətdir ki, Minsk qrupu ilə bağlı Ermənistanda və ya digər ölkədə hər hansı fərziyyə Azərbaycanda ancaq qıcıq doğurur. Biz münaqişəni həll etdik, Minsk qrupu tərəfindən hazırlanmış və Madrid prinsipləri adlandırılan prinsiplər öz həllini tapıb və artıq biz Ermənistanla münasibətləri normallaşdırmaq, sülh sazişi imzalamaq üzərində çalışmalıyıq. Hesab edirəm ki, hər iki tərəf xoş məramla çalışsa, biz sülh sazişini bir il ərzində imzalaya bilərik. Daha sonra Qafqaza sülh gələcək. Bizim Qafqazla bağlı baxışımız inteqrasiya və əməkdaşlıqdan ibarətdir və Azərbaycan bir neçə dəfə buna start verməyi, ilkin addımları atmağı təklif edib. Biz bu məsələ ilə bağlı gürcüstanlı həmkarlarımızla məsləhətləşmə aparmışıq və Gürcüstan hökuməti də bu ideyanı dəstəkləyir – Gürcüstanda Azərbaycan, Gürcüstan və Ermənistan xarici işlər nazirləri səviyyəsində üçtərəfli görüşün keçirilməsi və dialoqun başlanılması. Təəssüflər olsun ki, Ermənistan bundan imtina edir. Bunun səbəbini bilmirəm və buna qaneedici izahat tapa bilmirəm. Bildiyimə görə buna bənzər təşəbbüslər bəzi Avropa təsisatları tərəfindən də irəli sürülüb. Lakin yenə də imtina edilib. Ermənistan Cənubi Qafqazda sülh istəmirsə, istədiyi nədir? Onlar növbəti müharibə istəyirlərsə, bu, onlar üçün fəlakət olacaqdır və onlar bunu yaxşı anlayır. Hesab edirəm ki, Ermənistan hökuməti və oradakı revanşist qüvvələr aydın şəkildə dərk edirlər ki, bu, onların dövlətçiliyinin sonu olacaq. Beləliklə, biz Ermənistandan aydın cavab almalıyıq ki, onlar Cənubi Qafqazı necə görürlər? Bizim mövqeyimiz aydındır, Gürcüstan hökumətinin də mövqeyi aydındır

ki, biz dialoq və təmaslara start verməliyik. Ancaq, əlbəttə ki, Ermənistansız bu, mümkün olmayacaq. Xüsusilə, cari vəziyyəti nəzərə aldıqda, regional əhəmiyyətli məsələlərin müzakirəsinə ehtiyac var – ətraf mühitin qorunması, Azərbaycan ərazisində təbiətin ciddi çirklənməsinə səbəb olan transsərhəd çaylar, nəqliyyat sahəsində əməkdaşlıq, tranzitlə bağlı yeni imkanlar. Nəzərə almaq lazımdır ki, Azərbaycan Zəngəzur dəhlizinin öz ərazisindən keçən hissəsinin yekunlaşdırılmasına yaxındır. Yeni marşrutlar və enerji təhlükəsizliyi də bu sıradadır. Hesab edirəm ki, işə başlamağın vaxtıdır. Biz 30 il itirdik və erməni işğalı olmasa idi, düşünürəm ki, Cənubi Qafqaz bu gün daha müasir, dinamik və daha geniş iqtisadi potensiala malik region ola bilərdi.

Enerji təhlükəsizliyi ilə bağlı bir neçə kəlmə demək istərdim. Çünki bu da qlobal gündəliyin aktual məsələlərindəndir. Azərbaycanın enerji resurslarına ehtiyac artmaqdadır. Bu il fevral ayının 4-də "Gülüstan" sarayında Cənub Qaz Dəhlizi Məşvərət Şurasının illik toplantısını keçirdik və gələcək addımlarımızı müzakirə etdik. Lakın Avropada vəziyyət kəskin şəkildə dəyişib və Azərbaycanın karbohidrogen ehtiyatlarına tələbat artır. Biz bir çox ölkənin artan tələbatını təmin etmək üçün əlimizdən gələni edirik. Son bir neçə ay ərzində bir çox Avropa ölkəsindən qaz təchizatı ilə bağlı bizə müraciətlər daxil olub. Əlbəttə, bu, asan məsələ deyil. Çünki əvvəlcə həmin qaz hasil edilməlidir və biz qaz hasilatını artırmağı planlaşdırmırdıq. Hazırda bu məsələ ilə bağlı biz Avropa Komissiyası ilə çalışırıq. Biz Avropa Komissiyası ilə enerji dialoquna start vermişik. Buraya yalnız qaz deyil, neft, elektrik enerjisi və hidrogen daxildir. Bərpaolunan enerji ilə bağlı Azərbaycanda böyük potensial var.

Biz dünən Nizami Gəncəvi Beynəlxalq Mərkəzinin İdarə Heyətinin üzvləri ilə bu məsələni ətraflı müzakirə etdik. Biz artıq bu işlərə başlamışıq. Biz bu səyləri davam etdirməyi planlaşdırırıq və bir il yarımdan sonra 700 meqavatdan artıq külək və günəş enerjisi həcmi istifadə oluna biləcəkdir. Bu, yalnız başlanğıcdır. Potensial daha böyükdür. Artıq biz 4 qeqavat enerji həcmi ilə bağlı razılaşma imzalamışıq, ancaq təkcə Xəzər dənizinin potensialı 157 qeqavatdan ibarətdir. Bu, nəhəng həcmdir və şübhəsiz ki, Azərbaycan yaşıl enerji zonasına çevriləcək və bərpaolunan enerji sahəsində beynəlxalq enerji bazarında ciddi oyunçu olacaqdır.

Sizin çox vaxtınızı almaq istəmirəm. Çıxışımı burada yekunlaşdırıram. Sizə bir daha xoş gəlmisiniz deyirəm. Bizimlə bir yerdə olduğunuza görə sağ olun. Forumun işinə uğurlar arzulayıram və əminəm ki, bu, həmişəki kimi belə də olacaqdır.

**DAVAMLI İNKİŞAFIN İDARƏ EDİLMƏSİ**
**SUSTAINABLE DEVELOPMENT MANAGEMENT**

UOT 351

**VÜSAL QASIMLI**
**İqtisadi İslahatların Təhlili və Kommunikasiya Mərkəzinin icraçı direktoru, iqtisad elmləri doktoru, professor**
*e-mail: info@ereforms.gov.az*

**MƏSUMƏ TALIBOVA**
**İqtisadi İslahatların Təhlili və Kommunikasiya Mərkəzinin Rəqəmsal Ticarət Qovşağının rəhbəri**
*e-mail: talibovamesume@gmail.com*

# RƏQƏMSAL TRANSFORMASİYA: SƏMƏRƏLİLİK VƏ SOSİAL İNKLÜZİVLİK

## Rəqəmsal cəmiyyət

Rəqəmsal transformasiyanın hər üç istiqamətində - rəqəmsal hökumət, rəqəmsal iqtisadiyyat və rəqəmsal cəmiyyətə keçiddə ən vacibi insanın rəqəmsal hazırlığıdır. Professor Tatyana Çerniqovskaya rəqəmsal reallığın yaratdığı yeni insan tipini Homo Confusus (rus dilində "Человек растерянный") – "çaşqın insan" adlandırır. Homo Confusus yeni reallıqda necə yaşamalı olduğunu tam dərk etmir. Məsələn, əvvəllər insanlar həyatda bir dəfə ixtisas seçməklə kifayətlənə bilərdilər, indi isə ömürboyu oxumaq və öyrənməklə ixtisas dəyişmə və ixtisas artırmaq tələbi var. Rəqəmsal transformasiya həm liderlər, həm də işçilər üçün çaşdırıcı və yorucu ola bilər. İnkişaf etməkdə olan rəqəmsal texnologiyalar, tədarük zəncirlərindən və istehsaldan tutmuş satış və paylamaya qədər hər şeyi pozur, çünki şirkətlər amansız rəqabət şəraitində fərqli müştəri təcrübəsi yaratmaq üçün mübarizə aparır.

## Rəqəmsal məlumat

Davos İqtisadi Forumunun açıqlamasına görə dünya növbəti üç il ərzində son 30 illə müqayisədə daha çox məlumat yarada bilər. Özü də məlumatı insanla yanaşı, həm də internet trafikinin 40%-ə qədərini təmin edən maşınlar yaradır. Nəzərə əalsaq ki, dünyada şəbəkəyə qoşulmuş cihazların sayı proqnoza görə 2030-cu ildə 125 milyarda çatacaq, onda yaranan data həcmi barədə təsəvvür formalaşır. Forrester-in 4036 nəfər yüksək səviyyəli menecer arasında bu yaxınlarda apardığı sorğu göstərdi ki, məlumat haqqında qərar qəbul edənlərin 70%-i məlumatları təhlil və istifadə edə bildiklərindən daha sürətli toplayır, lakin 67%-nin daim daha çox məlumata ehtiyacı var. Dataların artması onun yığılması, ötürülməsi, emalı, istifadəsi və təhlükəsizliyilə bağlı yeni çağırışlar ortaya qoyur. Bu istiqamətdə biznes ilk növbədə data strategiyasını və uyğun bacarıqları yaratmalıdır. Biznesdə Baş Data Direktoru (Chief Data Officer (CDO)) məhz data analitikasını bilən və vizyonu olan şəxs kimi vəzifənin öhdəsindən gəlməlidir. İkincisi, institutsional yanaşmadır: Datalarla bağlı milli və qlobal miqyasda qaydalar modernləşdirilməlidir. Sinqapur, Çili və Yeni Zelandiya tərəfindən irəli sürülən Rəqəmsal İqtisadiyyat Tərəfdaşlığı Sazişi (DEPA), Aİ-nin Ümumi Məlumatların Qorunması Qaydası (GDPR) və Dünya İqtisadi Forumunun Ümumi Məqsəd Təşəbbüsü (DCPI) kimi qabaqcıl təşəbbüslər institutsional yanaşmaya nümunədir. YUNESKO-nun dəstəklədiyi Süni İntellektin

Etikasına dair qəbul edilmiş qlobal saziş bu sahənin sağlam inkişafı istiqamətində düzgün institutsional bir yanaşmadır. Üçüncüsü, data ekosistemindəki bütün maraqlı tərəflər data-əsaslı mədəniyyəti təşviq etməlidirlər.

### Harvard Biznes Məktəbinin yanaşması

Harvard Biznes Məktəbinin araşdırmasında biznes üçün rəqəmsal transformasiyanın yol xəritəsi belə müəyyənləşdirilib: 1. Rəqəmsal transformasiya bütün dəyər zəncirini silkələdiyindən və böyük sürətlə baş verdiyindən işəgötürən və işçilər üçün emosional həllər tapılmalıdır; 2. Müştəri-mərkəzli narrativlər formalaşdırılmalı və fəaliyyətlər də buna uyğunlaşdırılmalıdır; 3. Bacarıqların artırılması və data-əsaslı mədəniyyətin inkişaf etdirilməsi tələb olunur; 4. Data-nın gətirdiyi dinamikanı düzgün idarə etməyi bacarmaq lazımdır; 5. Problemin həlli üçün inklüziv və çevik dizayn mühüm əhəmiyyət kəsb edir; 6. Kənardan baxış və əməkdaşlıq perspektivləri gücləndirilməlidir, hətta rəqib şirkətlər belə eyni təchizatçıların xidmətindən istifadə üçün əməkdaşlıq edə bilərlər; 7. Biznes etikası, idarəetdəmədə normativ tələblərə uyğunluq və pro-aktiv yanaşma üstün götürülməlidir.

### Rəqəmsal transformasiyanın üstünlükləri

Rəqəmsal transformasiyanın gətiridiyi əsas üstünlüklərdən biri ictimai münasibətlərin yeni mərhələyə qədəm qoymasıdır. Fransız alimləri Yann Algan və Pierre Cahuc iqtisadi artımın insanların bir-birinə və cəmiyyətə olan inamından asılılığını hesablayıblar. Aydın olub ki, İsveç dünyada inam səviyyəsinə görə ilk yerdədir və əgər bu səviyyədə inam olsaydı adambaşına düşən gəlir İngiltərədə 7 faiz, Almaniyada 9 faiz, Rusiyada 69 faiz arta bilərdi. Kouz teoreminə görə də, cəmiyyətdə inamsızlıq həm də tranzaksiya xərclərini artırır və iqtisadiyyatı geri çəkir. Mansur Olson da yapon və alman iqtisadiyyatlarının artımında inamın böyük rol oynadığını bildirir. Etimad və inam bütün ölkələrdə olduğu kimi Azərbaycanda da inkişaf üçün resursdur. Rəqəmsal transformasiya inamı gücləndirir, hətta bir-birinə və institutlara lazımınca güvənməyən insanlar da rəqəmsal həllərə inanırlar.

Bizim eranın VII əsrindən başlayaraq çinlilər kağız puldan istifadə etməyə başladılar və XIII əsrdə Çingiz xanın nəvəsi Kublay Xan isə ilk dəfə kağız pula hər hansı əmtəə ilə deyil, dövlət zəmanəti ilə dəyər verdi. Beləliklə, indi anladığımız pul anlayışı yarandı. Eswar Prasada görə, bu dəfə pul inqilabını özəl sektor innovasiyaları edir və ilk qığılcım 2009-cu ildə bitcoin-dən gəldi: rəqəmsal valyutanın dövlət, bank və ödəniş prosessoru kimi üçüncü tərəfə ehtiyacı yoxdur. Prasad "Pulun gələcəyi" kitabında dövlət və özəl bölmə arasında monetar parçalanmanı qeyd edir, dövlətin emissiya etdiyi pulun dəyər ifadəsi və özəl valyutaları isə ödəniş vasitəsi kimi üstün olacağını proqnozlaşdırır. Los-Ancelesdəki Kaliforniya Universitetinin professoru Oleq İtsxoki isə kriptovalyutaları pulun əsas funksiyaları – dəyər ifadəsi, ödəniş və yığım vasitəsi kimi funksiyaları yerinə yetirməkdə bir o qədər də uyğun saymır. İtsxoki fikrini kriptovalyutaların hədsiz volatilliyi ilə izah edir. Əslində Prasad və İtsxokinin mükaliməsini belə də "barışdırmaq" olar ki, dövlətin emissiya etdiyi pul dəyər ifadəsi, ödəniş və yığım vasitəsi kimi funksiyaları yerinə yetirir, kriptovalyutalar isə daha çox aktiv kimi qəbul edilə bilər.

Əslində dövlət emissiya etdiyi pulun rəqəmsal versiyasını yaratmaqla kripto inqilabına qarşılıq verir və dominantlığını saxlamağa çalışır. Məsələn, Çin rəqəmsal yuan layihəsinə başlayıb. Çində rəqəmsal yuana valyuta suverenliyinin qorunması vasitəsi kimi baxılır. Rəqəmsal valyutalar maliyyələşdirmənin əsaslarını dəyişə bilər, necə ki, Amazon.com Inc. pərakəndə ticarəti və Uber Technologies Inc. isə taksi sistemini dəyişdi. 2021-ci ildə "The Wall Street Journal" yazırdı ki, ABŞ-ın maliyyə naziri Janet Yellen and Federal Ehtiyat Sisteminin rəhbəri Jerome Powell rəqəmsal dolların mümkünlüyünü bildiriblər. Beynəlxalq Hesablaşmalar Bankının məlumatına görə dollar dünya valyuta hərraclarında 88 faiz

payla 4 faizlik paya malik Çin yuanını və digər valyutaları üstələyir. Amma bu iki nəhəng iqtisadiyyatı təmsil edən valyutaların rəqəmsal müstəvidə rəqabəti yeni perspektivlər aça bilər. ABŞ dolları yüzillik valyuta hökmranlığını ötən əsrin 20-ci illərində təmin edə bildi. Həmin vaxtı ABŞ dünyanın ən böyük iqtisadiyyatına sahib Böyük Britaniyanı ÜDM həcminə görə 30 il idiki üstələmişdi. Yaxın perspektivdə Çin ÜDM həcminə görə ABŞ-ı üstələyəcək (alıcılıq qabiliyyəti pariteti ilə artıq üstələyib) və beləliklə, dolların valyuta bazarında hökmranlığı üçün ciddi təhdid yaranıb. Valyutaların rəqəmsallaşmasında yarış "valyuta müharibə"-lərində yeni texnoloji silahdır.

**Rəqəmsal transformasiya və kvant "aliliyi" nəzəriyyəsi**

Həyatın sürətini azaldan pandemiya rəqəmsal transformasiyanı nəinki ləngitdi, hətta vacibliyini bir daha sübut etdi. Mikroçipdə tranzistorların iki ildən bir iki dəfə artacağını proqnozlaşdıran Mur Qanunu belə rəqəmsal transformasiyanın sürətinə "tab gətirmir". Kvant fizikası və Heyzenberq qeyri-müəyyənlik prinsipi tamamilə yeni reallıq yaradır. Rəqəmsal transformasiya içərisində bir kvant transformasiyasını yetişdirib. Kvant kompüterinin əsas vahidi kvant bitidir (və ya qısaca olaraq kubit). Günümüzün rəqəmsal kompüterlərində istifadə olunan hər ikili bit 0 və ya 1 ola bilirsə, kubitlər eyni zamanda həm 0, həm də 1 (və ya hər ikisinin birləşməsi) ola bilər. Bu hadisə superpozisiya adlanır. Kvant qarışıqlığı kvant elementlərinin cütləri və ya qrupları arasında xüsusi əlaqədir. Kubitlərin sayının artırılması hesablamaların emal sürətini artırır. Cəmi 54 kubitlik kvant kompüterinin modelini yaratmaq üçün 18 kvadrilyon bit ənənəvi yaddaş tələb olunur. 100 kubitlik kvant kompüterini yaratmaq planetimizdə olan atomların sayından daha çox sayda bit tələb edir. 280 kubitlik kompüter isə bilinən qalaktikadakı atomların sayından daha çox bit tələb edir. Kvant kompüterləri klassik fizika qanunlarına əsaslanan rəqəmsal kompüterlərdən qat-qat yaxşı emal etmək potensialına malikdir. Nobel mükafatı qalibi olan fizik Vilyam Filips, bugünün texnologiyasından kvanta olan sıçrayışla, çötkədən rəqəmsal kompüterə olan sıçrayışı müqayisə edib. Yaxın zamanlara qədər kvant üstünlüyü və ya kvant "aliliyi" deyilən sadəcə nəzəriyyə idi. Lakin 2019-cu ildə Google xüsusi bir hesablama tapşırığını kvant kompüterindən istifadə etməklə 200 saniyə içində həll etdi. Şirkət bildirdi ki, eyni tapşırığı o dövrün ən güclü rəqəmsal kompüteri 10 min ilə bitirərdi. Kvant kompüterləri bütün həyatımızı ağlasığmaz sürətlə dəyişəcək.

**Nəticə**

"Rəqəmsal İnqilab" (və ya "İnformasiya İnqilabı") coğrafi, sosial və iqtisadi məhdudiyyətləri azaldır, biznes innovasiyalarını dəstəkləyir, iqtisadi böyüməyə kömək edir, həyat keyfiyyəti və rahatlığını artırır, idarəetmənin səmərəliliyinin artırılmasına və mənzil, səhiyyə, təhsil, sosial xidmətlər kimi ictimai məhsulların təkmilləşməsinə kömək edir. Cənubi Koreya, İngiltərə, Estoniya, İsveç, Danimarka və Norveç kimi ölkələr yenilikçi texnologiyaların cəmiyyətin və iqtisadiyyatın bütün sahələrində tətbiqi üçün rəqəmsal strategiyanı həyata keçirirlər. Bu ölkələr digərlərinə nisbətən daha yüksək məhsuldarlıq, sürətli böyümə və daha yaxşı həyat standartlarına sahibdirlər.

Rəqəmsal transformasiya dövlət xidmətlərinin modernləşdirilməsi, xidmət məhsuldarlığının artırılması və əmək intensivliyinin azaldılması, xidmətlərdən məmnunluq səviyyəsinin və effektivliyinin artırılması, hökumətlərin açıqlığının, ona inamın artırılmasında əsas rol oynayır.

İnformasiya və kommunikasiya texnologiyalarının tətbiqində ilkin məqsəd iqtisadi səmərəliliyi və sosial inkluzivliyi artırmağa yönəldilir. Daha uzun müddətdə isə rəqəmsal texnologiyaların istifadəsi hökumətlərin fəaliyyət göstərdiyi daha geniş kontekstdə nəzərə alınmalı və istifadəçilərin perspektivləri getdikcə daha ön plana çıxarılmalıdır.

**Ədəbiyyat:**


1. Forrester Conculting - Thought Leadership Paper Commissioned By Dell Technologies, Unveiling Data Challenges Afflicting Businesses Around The World - https://www.delltechnologies.com/asset/en-in/solutions/industry-solutions/industry-market/data-paradox-forrester-thought-leadership-paper.pdf
2. Robert Murray- Understanding China's Digital Yuan- https://policycommons.net/artifacts/1428167/understanding-chinas-digital-yuan/2043023/
3. Tad Hogg, David A. Fattal, Kay-Yut Chen, Saikat Guha - Economic Applications of Quantum Information Processing- https://link.springer.com/chapter/10.1007/978-88-470-1501-2_5#auth-Kay_Yut-Chen
4. The Wall Street Journal- Fed Takes Cautious Approach to Possibly Issuing Digital Currency- https://www.wsj.com/articles/fedtakes-cautious-approach-to-possibly-issuing-digital-currency-11603132490
5. Tim A. Herberger, Jörg J. Dötsch- Digitalization, Digital Transformation and Sustainability in the Global Economy: Risks and Opportunities
6. World Economic Forum- https://www.weforum.org/agenda/2019/04/how-much-data-is-generated-each-day-cf4bddf29f/


***Açar sözlər:*** *rəqəmsal iqtisadiyyat, rəqəmsal transformasiya, sosial inklüzivlik, iqtisadi artım*

**Vusal Gasimli**
*Center for Analysis and Communication of Economic Reforms,*
*Executive Director, doctor of economic sciences, professor*

**Masuma Talibova**
*Center for Analysis and Communication of Economic Reforms*
*Head of Digital Commerce Hub*

# DIGITAL TRANSFORMATION: EFFICIENCY AND SOCIAL INCLUSION

## ABSTRACT

Individual economic entities benefit from implementing digital transformation due to the flexibility of adaptation to innovation. From this point of view, digital transformation should be analyzed from several angles as an object of analysis that needs to be studied in the process of digitalization. For this reason, the study provides a detailed analysis of digital transformation and examines the factors influencing this process.

***Keywords:*** *digital economy, digital transformation, social inclusion, economic growth*

**Вусал Гасымлы**
*Исполнительный директор Центра анализа и коммуникации экономических реформ, доктор экономических наук, профессор*

**Масума Талыбова**
*Руководитель Цифрового Торгового Хаба Центра анализа и коммуникации экономических реформ*

## ЦИФРОВАЯ ТРАНСФОРМАЦИЯ: ЭФФЕКТИВНОСТЬ И СОЦИАЛЬНОЕ ИНКЛЮЗИВНОСТЬ

### РЕЗЮМЕ

В зависимости от гибкости адаптации к инновациям при осуществлении цифровой трансформации преимущество получают отдельные экономические субъекты. С этой точки зрения цифровая трансформация должна быть проанализирована с нескольких сторон как объект анализа, который необходимо изучать в процессе цифровизации. По этой причине в исследовании проводится подробный анализ цифровой трансформации и рассматриваются факторы, влияющие на этот процесс.

***Ключевые слова:*** *цифровая экономика, цифровая трансформация, социальное инклюзивность, экономический рост*

# DAVAMLI İNKİŞAFIN İDARƏ EDİLMƏSİ
# SUSTAINABLE DEVELOPMENT MANAGEMENT

UOT 328; 342.5; 351/354; UOT 008(091)

**FUAD MƏMMƏDOV**
**Azərbaycan Respublikasının Prezidenti yanında**
**Dövlət İdarəçılık Akademiyasının**
**Tarix kafedrasının professoru, tarix elmləri doktoru,**
**"Simurq" Azərbaycan mədəniyyət Assosiasiyasının prezidenti**
*e-mail: fuadtm7@gmail.com*

## AZƏRBAYCAN RESPUBLİKASINDA TƏHSİL SİSTEMİNİN TƏKMİLLƏŞDİRİLMƏSİNİN KULTUROLOJİ KONSEPSİYASI

Dərinləşən sivilizasiya böhranı şəraitində dünyanı xaos və dağıntılardan təkcə yüksək ruhi mədəniyyət xilas edə bilər. Bu postulatdan çıxış etsək, Azərbaycan Respublikasında zamanın çağırışlarına cavab verən dövlət təhsil və maarifləndirmə sisteminin tərəqqiyönümlü kulturoloji islahatlarına hədəflənmiş rəqabətqabiliyyətli innovativ milli konsepsiyaların, proqramların və layihələrin işlənib hazırlanması və həyata keçirilməsinin aktuallığı göz qabağındadır.

Dünya mədəniyyətinin və sivilizasiyasının tarixinin sistemli kulturoloji təhlili bəşər tarixinin fərqli mərhələlərində müxtəlif xalqların təhsilinin inkişafının qanunauyğunluqları və xüsusiyyətlərinin aşkara çıxarılmasına əsaslanan innovativ qərarların axtarışı üçün yeni imkanlar açır. O, Şumer və Babilistan, Misir, Çin, Hindistan, Yaponiya, Almaniya, Böyük Britaniya, Fransa, İsveç, Danimarka, Finlandiya, Sinqapur, İran, Türkiyə kimi Şərq və Qərb ölkələrinin və Müsəlman Şərqinin başqa ölkələrinin təhsil sisteminin təşkilinin və inkişafının zəngin təcrübəsindən yaradıcılıqla istifadə etməyə kömək edir. İntibah və Maarif dövrü, Avropada burjua inqilabları dövrü təhsilinin zəngin təcrübəsinə, habelə YUNESKO-nun beynəlxalq fəaliyyəti ilə toplanmış dünya təhsilinin inkişaf təcrübəsinə müraciət aktual əhəmiyyət kəsb edir.

Bu zəngin təcrübədən çıxış edərək, Azərbaycan Respublikasının milli təhsil sisteminə Azərbaycan cəmiyyətinin və dövlətinin davamlı, rəqabətqabiliyyətli və təhlükəsiz inkişafını təmin edəcək bir sıra elmtutumlu kulturoloji innovasiyaların daxil edilməsi zamanında və məqsədəuyğun görünür.

Tarix göstərir ki, təhsil həmişə bəşəriyyətin ruhi mədəniyyətinin formalaşmasının strateji institutu rolunu oynamışdır. O təkcə insanın inkişaf vasitəsi kimi deyil, həm də onun bütün həyatı boyu davam edən səylərinin nəticəsi kimi qiymətləndirilmişdir. Dünya mədəniyyəti və sivilizasiyasının tarixinin sistemli kulturoloji təhlili göstərir ki, yaxşı təhsilli, yüksək intellektə, humanizmə və vətənpərvərliyə malik insan həm ruhi, həm də müasir dövlətlərin başlıca milli sərvəti olan maddi istehsalın əsas kapitalıdır. Bu arada, həyatın dialektikasından gələn, mədəniyyətin bu vacib sosial institutu daimi təkmilləşmə, milli təhsilin səmərəsini və keyfiyyətini beynəlxalq standartlar və normalar, habelə zamanın çağırışlarına müvafiq yüksəldən daimi kulturoloji islahatların həyata

keçirilməsini tələb edir. Bunun dərk edilməsi əlavə kulturoloji təhsilin tətbiqi və uşaq bağçalarından başlayaraq mütəxəssislərin və alimlərin hazırlığı və yenidən hazırlanmasına qədər milli təhsil sisteminin bütün səviyyələrində universal kulturoloji biliklərin daimi yayılmasını tələb edir.

Üçüncü minilliyin başlanğıcından insanların təhsil səviyyəsinin və keyfiyyətinin yüksəldilməsi problemləri milli dövlətlərin, alimlərin, pedaqoqların, maarifçilərin, siyasətçilərin və bütövlükdə dünya ictimaiyyətinin diqqət mərkəzindədir. Bugünkü günümüzdə universal kulturoloji bilikləri ehtiva edən elmtutumlu təhsil və maarifləndirmə zamanın zəruri tələbinə çevrilib.

6 sentyabr 2016-cı ildə təhsilin monitorinqi üzrə YUNESKO-nun Beynəlxalq hesabatı (Global Education Monitoring Report) dərc olundu. O, davamlı inkişaf üzrə yeni gündəlikdə 2030-cu ilə qədərki dövrdə qlobal məqsədlərə çatmaqda təhsilin necə töhfə verə biləcəyini göstərdi.

Hesabatda vurğulanırdı ki, "mövcud potensialın reallaşması, bəşəriyyətin və bütövlükdə planetin bu gün üzləşdiyi problemlərin səviyyəsinə cavab vermək üçün təhsil sferası ciddi islahatlara ehtiyac duyur". Bununla yanaşı, dəyişikliklərin yüksək tempinə nail olmağın vacibliyinə vurğu edilirdi. Çünki əks halda "2030-cu ilə qədər davamlı inkişaf sahəsində dünyəvi məqsədlərə çatmaq planı 50 il ləngimə ilə həyata keçə bilər".

YUNESKO-nun baş direktoru İrina Bokova dünyada təhsilin insanların rifahının artırılması və planetin daha yaxşı gələcəyinin qurulması amili kimi insan inkişafındakı rolu haqqında təsəvvürün radikal şəkildə dəyişməsinin vacibliyinə diqqət yetirirdi. O vurğulayırdı ki, müasir təhsil təkmilləşdirilməli, "təhsil alanların milliyyətini, məişətini və qabiliyyətlərini nəzərə almalı, insanlarda davamlı inklüziv iqtisadi artım və sülh şəraitində birgə yaşayışın açarına çevriləcək düzgün dəyər ölçüləri və peşəkar vərdişlərin formalaşdırılmasına kömək etməlidir" [28].

Dünya mədəniyyətinin tarixinə kulturoloji baxış göstərir ki, şəxsiyyətin təlim və tərbiyə sistemi kimi təhsil insanın ruhi mədəniyyətinin – onun biliklərinin, bacarıqlarının, təşkilatçılığının, mənəviyyatının və yaradıcı fəaliyyətinin formalaşması prosesidir. O, bəşəriyyətin topladığı biliklərin, təcrübənin, mənəvi dəyərlərin və normaların yeni nəsillərə ötürülməsi üsuludur. Bununla bərabər, insanın əldə etdiyi biliklərin, bacarıqların, təşkilatçılığın, mənəvi yönəlişliklərin və yaradıcı fəaliyyət təcrübəsinin vəhdəti kimi təhsil şəxsiyyətin səriştəliliyini, yəni onun tutduğu vəzifəyə tam uyğun olmasını təmin etməlidir. İnstitusional yolla alınmış təhsildən və ya özünütəhsildən müəyyən dərəcədə şəxsiyyətin taleyinə təsir edən, onun anadangəlmə keyfiyyətlərinin xüsusiyyətlərindən biri olan xarakteri də asılıdır.

Təhsilin mədəniyyət fenomeni kimi dövlət quruculuğu və idarəçilik üçün strateji önəmini başa düşməkdən ötrü keçən əsrin 60-70-ci illərində Şahənşah Məhəmməd Rza Pəhləvinin İranda keçirdiyi "ağ inqilab" adlanan islahatlar proqramının nəticələrini xatırlamaq kifayətdir. İslahatın əsas məqsədi İran xalqının rifahının yaxşılaşdırılması idi. Ona nail olmaq üçün kənd təsərrüfatı islahatı, savadsızlığın ləğvi həyata keçirilmiş və qadınlara seçki hüququ verməklə onların azadlığı üçün addımlar atılmışdı [29]. Amma xalqın intellektual mədəniyyətinin, ruhi mədəniyyətin elm və təhsil kimi flaqmanlarının inkişafı üçün hansı tədbirlərin görülməsi bizə məlum deyil. Belə ki, onların vasitəsilə həyat fəaliyyəti, rəqabətqabiliyyətliliyi və milli inkişafın təhlükəsizliyi təmin olunur. Xüsusilə, İran xalqının dünyəvi təhsili və maarifləndirilməsi sahəsində zamanın tələblərinə uyğun hansı islahatlar həyata keçirildi?

Şübhəsiz, İranda destruktivizm və zorakılıq halları səciyyəvi olan şah rejiminin iflasında bir sıra amillər rol oynadı. Bunlar şahın

xalqla əlaqələrinin qopması, siyasi dialoqun olmaması, sosial ədalətin, tiranlığın aradan qaldırılmasının, xalqın iradəsinin təsdiqinin əhəmiyyətinin olduqca gec anlaşılması və bərpasının gec vəd olunması idi.

Amma çox güman fundamental səbəblərdən biri – dövlətçiliyin monarxik mədəniyyətində və İranın dövlət idarəçiliyində xalqın ruhi mədəniyyətinin "iki qanadının" – intellektual və mənəvi mədəniyyətin ahəngdar və təhlükəsiz inkişafını təmin edən kulturoloji sistemli yanaşmanın olmamasında idi [14]. "İki qanadın" cəmiyyətin sosial-siyasi sabitliyini təmin edən ahənginin və xalqın müxtəlif kateqoriyalarının maraqlar balansının pozulmasının nəticəsində cəmiyyətin sosial-mədəni qütbləşməsi dərinləşdi və kütlələrin tərəqqiyönümlü siyasi islahatlara intellektual baxımdan hazırsızlığı üçün əsaslar yarandı. Son nəticədə, bu, monarxik dövlət sisteminin dağılmasına və xalqın yeganə milli xilas yolu kimi gördüyü dini mədəniyyətə keçməsinə gətirib çıxardı.

Geniş kulturoloji təhsil və xalqın maarifləndirilməsi, kütlələrin akkulturasiyası və şəxsiyyətlərin inkulturasiyası, İran dövlətinin insan kapitalının əsası və hərəkətverici qüvvəsi kimi yüksək mədəniyyətli insanlar cəmiyyətinin formalaşdırılması və inkişafı bəlkə də milli fəlakətin qarşısını ala bilərdi.

Tədrisdə "təbiətyönümlü" və "mədəniyyətyönümlü" kimi tanınan məşhur tarixi dilemmanı nəzərdən keçirərək qeyd edək ki, təhsilin nəticəsi təkcə dövlət siyasətindən, tədris prosesinin şəraitindən, müəllimlərin peşəkarlığı və pedaqoji mədəniyyətindən, ədəbiyyatın keyfiyyətindən, ailədəki və məktəbdəki əlverişli mühitdən yox, həm də uşaqların və gənclərin təbii qabiliyyətlərindən, istedadlarından, könüllü olaraq seçdikləri gələcək ixtisaslarına marağından, iradə gücündən və zəhmətkeşliyindən də çox asılır [30]. Yaponiya, ABŞ və Qərbi Avropa ölkələrinin təcrübəsi göstərir ki, təhsildə daha yüksək nəticələrə nail olmaq üçün insanın genetik materialı ilə şərtlənən təbiətdən gələn qabiliyyətlərinə üstünlük verən təbiətyönümlü yanaşma böyük əhəmiyyət daşıyır. Mark Kvintilian, Yan Komenskiy, Con Lokk, İohann Pestalossi, Adolf Disterveq, Konstantin Uşinskiy və digərləri tərəfindən əsaslandırılan təhsilin xüsusiyyətlərinə belə bir baxış təhsil alanların təbii qabiliyyətlərindən, istedadlarından asılı olaraq məktəbdə şagirdlərin seçilməsinə fərdi yanaşmanı, onların şəxsi seçimləri və xüsusiyyətləri nəzərə alınmaqla, milli inkişafın tələbləri və imkanlarına müvafiq olaraq önəçıxan qabiliyyətlərinin inkişaf etdirilməsini nəzərdə tutur.

Təhsilin ruhi mədəniyyətin flaqmanı kimi dəyəri ölçüsüzdür. Onun bəşəriyyətin formalaşması və inkişafındakı strateji rolunu qiymətləndirmək üçün dünya ictimaiyyətinin ən qədim vaxtlardan günümüzə qədər əsas inkişaf yollarına, nailiyyətlərinə və qanunauyğunluqlarına nəzər salmaq kifayətdir.

Dünyəvi təhsilin tarixini əks etdirən bu və digər materialların sistemli kulturoloji təhlili, onun inkişaf qanunauyğunluqları və müasir meyilləri göstərir ki, təhsil sisteminin səmərəliliyi və keyfiyyəti əsasən aşağıdakılarla müəyyən olunur:

- Müəllimlərin peşəkar səriştəliliyi, məsuliyyəti, mədəniyyəti və əməyinin nəticələri ilə.
- Tədris proqramlarının elmtutumlu və innovativ məzmunu ilə.
- Əlavə kulturoloji təhsil və maarifləndirmənin tətbiqi ilə.
- Tədris prosesinin material-texniki cəhətdən yaxşı təchiz olunması ilə.
- Rəhbərlərin və təhsil işçilərinin idarəetmə mədəniyyəti ilə.
- Kadrların seçilməsi və pedaqoji əməyin keyfiyyətinin qiymətləndirilməsi prinsipləri və meyarları ilə.
- Pedaqoji kadrların kulturoloji hazırlığı və yenidən hazırlığı sistemi ilə.
- Təhsil müəssisələrinin rəhbərlərinin və işçilərinin attestasiyası sistemi ilə.

- Əməyin nəticələrinə əsaslanan pedaqoji fəaliyyətin fərdi motivasiyası ilə.
- Dünyanın aparıcı ali təhsil müəssisələrinin təhsil standartlarına və texnologiyalarına yönümlü tədris prosesinin maliyyə və hüquqi baxımdan təminatı ilə.
- Alimlərin və pedaqoqların maddi rifahının onların cəmiyyət üçün sosial dəyərinə və əməyinin konkret nəticələrinə uyğunluğunun təmin edilməsi ilə.

Bu analizin nəticələrindən çıxış edərək, Azərbaycan cəmiyyətinin dəyişən inkişaf tələbatları və qloballaşmanın çağırışlarını nəzərə alaraq, Azərbaycan Respublikasında təhsilin keyfiyyətinin yüksəldilməsi məqsədi ilə məqsədəuyğun görünür:

- Milli təhsil sistemində əlavə kulturoloji təhsil və dövlət müəssisələrinin personalı, uşaq bağçalarının, təhsil müəssisələrinin rəhbərləri, müəllimlər, jurnalistlər, siyasətçilər, idarəçilər, iqtisadçılar, hüquqşünaslar və digər mütəxəssislər daxil olmaqla vətəndaş cəmiyyəti üçün treninq sisteminin tətbiqi.
- Pedaqoqların səriştəliliyi və nüfuzunun yüksəldilməsinə, rəqabətqabiliyyətli insan kapitalının inkişafına hədəflənmiş "Yüksək mədəniyyətli pedaqoq davamlı milli inkişafın strateji bərpaolunan resursu kimi" milli layihəsinin işlənib hazırlanması və həyata keçirilməsi.
- İntellektual əməyin sosial statusunu, elm və təhsilin məqsədli maliyyələşdirilməsini yüksəldəcək, Azərbaycanda tərəqqiyönümlü dəyişikliklər üçün yeni imkanlar açacaq "İntellektual mədəniyyət haqqında Qanun" layihəsini Milli Məclisin müzakirəsinə təqdim etmək.
- Respublika vətəndaşlarının akkulturasiyası və inkulturasiyası məqsədi ilə cəmiyyətdə universal kulturoloji biliklərin yayılması yolu ilə əhalinin müxtəlif kateqoriyaları – qadınlar, ailə başçıları, uşaqlar, gənclər, yaşlı nəsil üçün daimi kulturoloji maarifləndirmənin təşkili.
- Uşaq bağçalarında, orta məktəblərdə və orta ixtisas məktəblərində mədəniyyətşünaslığı tədris etmək.
- Ailələrdə və məktəblərdə uşaqların və gənclərin meritokratik tərbiyələndirilməsi sistemini tətbiq etmək.
- Eksperimental kulturologiya məktəbi və uşaq bağçası açmaq.
- Respublikanın bütün ali təhsil müəssisələrində kulturologiya kafedraları açmaq.
- Təhsil və elm sistemi üçün kulturoloq kadrların hazırlanması məqsədilə Mədəniyyət və Təhsil Nazirlikləri yanında Azərbaycan kulturologiya akademiyası təsis etmək və milli və dünya mədəniyyətinin tarixi və nəzəriyyəsi sahəsində dissertasiyaların müdafiəsi üzrə Respublika fənlərarası Şura yaratmaq.
- Elm və Təhsil Nazirliyi yanında təhsil sahəsində proqramların və qərar layihələrinin kulturoloji ekspertiza Şurasını yaratmaq.
- 2022-ci ilin payızında Bakıda Beynəlxalq kulturoloqlar forumunu (Mədəniyyət Nazirliyi ilə bərabər) keçirmək.

Beləliklə, ruhi mədəniyyətin yuxarıda toxunduğumuz inkişaf problemlərinə sistemli yanaşmadan çıxış edərək Azərbaycan xalqının intellektual və etik mədəniyyətinin daha da təkmilləşdirilməsi aktual milli və beynəlxalq vəzifədir. Bu strateji vəzifənin həyata keçirilmə formalarından biri Heydər Əliyev adına Beynəlxalq Azərbaycan kulturoloji elm-təhsil mərkəzinin yaradılması ola bilər. Mərkəzin məqsədləri, proqramları, layihələri və planları, onun fəaliyyət prinsipləri və meyarları strateji bərpaolunan milli resurs, rəqabətqabiliyyətli insan kapitalının nüvəsi və Azərbaycanın davamlı və təhlükəsiz inkişafının başlıca hərəkətverici qüvvəsi olan yüksək mədəniyyətli azərbaycanlıların və layiqli vətəndaşların yetişdirilməsinə, inkişafına və artırılmasına xidmət etməlidir.

Dövlətin insan kapitalının tərəqqiyönümlü dəyişilməsi və bəşəriyyətin humanitar təhlükəsizliyi maraqlarına cavab verən, "Simurq" Azərbaycan Mədəniyyət Assosiasiyası tərəfindən işlənib hazırlanmış davamlı inkişafın universal kulturoloji postulatları milli təhsil sisteminin təkmilləşdirilməsinə təkan verə bilər. Onlar keçidi nəzərdə tutur: ziddiyyətlərdən – maraqların ahəngi və razılaşdırılmasına; səriştəsiz idarəetmədən – peşəkarlığa və məsuliyyətə; vəzifə hakimiyyətindən – biliklər və etika hakimiyyətinə; rəqabət və manipulyasiyadan – həmrəylik və əməkdaşlığa; etnik və dini identiklikdən – vətəndaş mədəniyyəti identikliyinə; demokratik idarəetmə mədəniyyətindən – meritokratik idarəetmə mədəniyyətinə.

Azərbaycanda təhsilin inkişafının idarə edilməsinin elmi prinsipləri qismində: strategiya, texnologiya, etika, sosiologiya və estetika istifadə oluna bilər.

Təhsil strategiyası Azərbaycan Respublikasında rəqabətqabiliyyətli insan kapitalının formalaşdırılması üçün insan, elmi, təhsil, texniki, informasiya, təşkilati, maliyyə, hüquqi, maarif və digər resursların sistemli kulturoloji təhlilini nəzərdə tutur.

Təhsil texnologiyası dünya mədəniyyəti və təhsilinin nailiyyətlərindən, Qərbin və Şərqin aparıcı ali təhsil müəssisələrinin tədris standartları və texnologiyalarından, o cümlədən Azərbaycan mədəniyyətinin ənənəvi dəyərlərini ehtiva edən məxsusi yeniliklərdən yaradıcı istifadəni nəzərdə tutur.

Təhsil etikası əmək və idarəetmə mədəniyyəti, yüksək ixtisaslı mütəxəssislərin, şəxsiyyətlərin, müxtəlif səviyyələrdə liderlərin, milli insan kapitalının nüvəsini təşkil edən yüksək mədəniyyətli azərbaycanlıların yetişdirilməsi ilə bağlı qoyulmuş vəzifələrin daha səmərəli həlli üçün əlverişli psixoloji mühitin formalaşmasını və pedaqoji müəssisələrin kollektivlərinin səylərinin birləşdirilməsini nəzərdə tutur.

Təhsilin sosiologiyası ölkə daxilində olduğu kimi, beynəlxalq məkanda da elmi-pedaqoji kollektivlərin və ayrı-ayrı mütəxəssislərin milli təhsilin tərəqqisinə, onun həyat qabiliyyətinin, yaradıcılığının, davamlılığının və rəqabətqabiliyyətliliyinin inkişafına təkan verən məhsuldar əməkdaşlığının təminini nəzərdə tutur.

Təhsil estetikası uğurlu insan inkişafı və milli inkişafın təxirəsalınmaz şərti kimi elm, təhsil və maarifləndirmənin dəyər anlayışının artdığı şəraitdə xalqın ictimai şüurunda təhsil tələbinin təmin edilməsi məqsədilə onun məzmununun inkişafı və dəyişilməsinə müvafiq olaraq milli təhsilin xarici formalarının və strukturunun təkmilləşdirilməsini nəzərdə tutur.

Sonda vurğulamaq lazımdır ki, Azərbaycan Respublikasında milli təhsilin keyfiyyətinin və səmərəliliyinin yüksəldilməsi ruhi mədəniyyətin dar sovet təfəkkürü ilə "iqtisadiyyat üzərində üstqurum", əsasən ədəbiyyat, incəsənət, etika normaları və mədəni irs kimi anlamaqdan tez bir zamanda imtina etməyi nəzərdə tutur. Çünki bu anlayış milli inkişaf imkanlarını məhdudlaşdırır. Təhsil praktikasına mədəniyyətə insanın ağlı, qəlbi və əməyi ilə yaradılan bütöv sosial sistem kimi baxan yeni elmi yanaşması tətbiq etmək lazımdır, çünki mədəniyyət anlayışına dar yanaşma onun insanın həyat fəaliyyətinin universal yaradıcı amili kimi hüdudsuz dəyişdirici imkanlarından istifadə etməyə mane olur. Onun başlıca hərəkətverici qüvvələri isə elm, təhsil və maarifləndirmədir. Eyni zamanda qeyd edək ki, təhsilin səmərəliliyinin və keyfiyyətinin əvəzedilməz göstəricisi onsuz ictimai tərəqqi, xalqın rifahının artımı, dövlətin davamlı, rəqabətqabiliyyətli və təhlükəsiz inkişafı mümkün olmayan – elmtutumluluqdur.

Dünya sivilizasiyasının, müasir kulturologiya və pedaqogikanın nailiyyətləri, Azərbaycançılıq ideologiyası, milli inkişafın dəyişən tələbləri və zamanın çağırışları əsasında Azərbaycan Respublikasının təhsil sisteminin təkmilləşdirilməsi sivilizasiya böhranı şəraitində ölkəmizin davamlı inkişafı üçün yeni imkanlar açacaqdır.

**Ədəbiyyat:**


1. Heydər Əliyev. Müstəqilliyimiz əbədidir. 20 cilddə. Bakı, 1997-2007.
2. İlham Əliyev. İnkişaf – məqsədimizdir. 1-3 cildlər. Bakı, 2008-2009.
3. Алакбаров У.К. Основы человеческого развития. Баку: Aspoliqraf, 2017.
4. История Ассоциации культуры Азербайджана «Симург». 1990-2015. Баку, 2015.
5. Корчагин Ю.А. Эффективность и качество национальных человеческих капиталов стран мира. Воронеж, 2011,
6. Мамедов Фуад. Концепция культурологических реформ в Азербайджане. Dövlət idarəçiliyi. 2021. №2, с.121-134.
7. Мамедов Фуад. Культурология, образование и национальное развитие. – «Ali təhsil və cəmiyyət», № 2, 2012, с. 54-62.
9. Мамедов Фуад. Культурология: ответы на вызовы XXI века. Казань, 2019.
10. Мамедов Фуад. Роль культурологии в развитии жизнеспособного общества и сильного государства. Dövlət idarəçiliyi. 2021. №1, с.103-132.
11. Народ и интеллигенция. Москва, 1990.
12. Формальное образование ума // Энциклопедический словарь Брокгауза и Ефрона, в 86 т. (82 т. и 4 доп.). СПб. 1890-1907.


***Açar sözlər:*** *mədəni innovasiyalar, mədəni islahatlar, universal mədəni biliklər, əlavə mədəni təhsil*

**Fuad Mamedov**
*The Academy of Public Administration*
*under the President of the Republic of Azerbaijan,*
*Doctor of History, Professor,*
*President of Simurg Association of Azerbaijan Culture*

# CULTURAL CONCEPT OF IMPROVING THE EDUCATION SYSTEM IN THE REPUBLIC OF AZERBAIJAN

## ABSTRACT

The concept contains a number of innovative cultural proposals based on a systematic analysis of the experience of development of world education. They involve the constant dissemination of universal cultural knowledge in the country through the introduction of additional culturological education and enlightenment at all levels of the national education system, from kindergartens to the system of training and retraining of teachers, journalists, managers, specialists and scientists. The permanent implementation of such culturological reforms should lead to an increase in the efficiency and quality of national education in accordance with international standards and norms, and the challenges of the time. The practical implementation of these science-intensive innovations will help ensure the sustainable, competitive and safe development of the Azerbaijani society and state in the context of a deepening civilizational crisis.

***Keywords:*** *culturological innovations, cultural reforms, universal culturological knowledge, additional culturological education.*

**Фуад Мамедов**
*Профессор кафедры Истории Академии Государственного Управления при Президенте Азербайджанской Республики, доктор исторических наук, президент Ассоциации культуры Азербайджана «Симург»*

# КУЛЬТУРОЛОГИЧЕСКАЯ КОНЦЕПЦИЯ СОВЕРШЕНСТВОВАНИЯ СИСТЕМЫ ОБРАЗОВАНИЯ В АЗЕРБАЙДЖАНСКОЙ РЕСПУБЛИКЕ

## РЕЗЮМЕ

В концепции содержится ряд инновационных культурологических предложений, основанных на системном анализе опыта развития мирового образования. Они предполагают постоянное распространение в стране универсальных культурологических знаний путем введения дополнительного культурологического образования и просвещения на всех уровнях системы национального образования, начиная с детских садов и кончая системой подготовки и переподготовки учителей, журналистов, управленцев, специалистов и ученых. Перманентное осуществление таких культурологических реформ, должно привести к повышению эффективности и качества национального образования в соответствии с международными стандартами и нормами, и вызовами времени. Практическая реализация этих наукоемких инноваций поможет обеспечить устойчивое, конкурентоспособное и безопасное развитие азербайджанского общества и государства в условиях углубляющегося цивилизационного кризиса.

***Ключевые слова:*** *культурологические инновации, культурологические реформы, универсальные культурологические знания, дополнительное культурологическое образование*

**DAVAMLI İNKİŞAFIN İDARƏ EDİLMƏSİ**
**SUSTAINABLE DEVELOPMENT MANAGEMENT**

UOT 328; 342.5; 351/354; 351

**NURİDƏ MUSTAFAYEVA**
**Azərbaycan Respublikasının Prezidenti yanında Dövlət İdarəçilik Akademiyası “Davamlı inkişafın planlaşdırılması və idarəedilməsi” kafedrasının dosenti, biologiya elmləri üzrə fəlsəfə doktoru**
*e-mail: soilnur@yahoo.com*

# AZƏRBAYCAN RESPUBLİKASINDA MİLLİ PRİORİTETLƏR NAMİNƏ İNSAN İNKİŞAFI

XX əsrin sonu – XXI əsrin əvvəlində bəşəriyyəti qlobal problemlərlə üzləşməli oldu. Müasir qlobal problemlərin müəyyən bir qismi təbiət – cəmiyyət və təbiət – insan arasında qarşılıqlı münasibətlərdə tarazlıq və qanunauyğunluqların pozulması nəticəsində baş vermişdir. Hal-hazırda tərəqqiyə yönəlik inkişaf naminə iki əsas istiqamət aktualdır. Birinci istiqamətin mahiyyəti müasir dünyada son vaxtlar kəskin şəkildə baş qaldırmış sosial-iqtisadi problemlər, yoxsulluğun artması, gəlirlərin qeyri-bərabər şəkildə paylanması bir çox dünya ölkələrinin inkişafının qarşısını almaqdır. İkincisi isə qlobal iqlim dəyişikliyi və onun təsirlərini aradan qaldırmaq üçün təcili tədbirlərin aparılmasıdır. Deməli hazırda bəşəriyyətin mövcudluğu üçün qlobal təhlükə yaranmışdır ki, heç bir dövlət, heç bir millət ondan kənarda qala bilməz. Bu qlobal təhlükə bəşəriyyətin qlobal vəhdətini, qlobal siyasət yürütməsini, planetar birlik, birgə mübarizəni tələb edir [6].

Bildiyimiz kimi, 25 sentyabr 2015-ci il tarixində BMT-nin Baş Assambleyasının üzvü olan 193 dövlət tərəfindən “2030-cu ilədək davamlı inkişaf sahəsində Gündəlik” qəbul edildi. Gündəlik 92 bənddən ibarətdir və 51-ci bənddə 17 Davamlı İnkişaf Məqsədi və əlaqəli 169 hədəf göstərilir. Hər bir hədəf üçün irəliləyişi ölçmək məqsədilə bir neçə göstərici müəyyənləşdirilib. Ümumilikdə, 304 göstərici var. BMT və onun tərəfdaşları Azərbaycanda Davamlı İnkişaf Məqsədlərinə (DİM) nail olmaq istiqamətində qoşulub. Bu tərəfdaşlıq nəticəsində Azərbaycan davamlı inkişafın iqtisadi, sosial və ekoloji aspektlərini əhatə edən 17 DİM-i prioritetləşdirib. Azərbaycan 2017, 2019 və 2021-ci illərdə üç Könüllü Milli Hesabat (KMH) hesabatını təqdim edilmişdir.

Azərbaycan 2021-ci ildə dünyada 10 ölkədən biri olmaqla, regionda və MDB məkanında ilk dəfə Üçüncü Könüllü Milli Hesabat təqdim edir. Həmin hesabatda Davamlı İnkişaf Platformasının həyata keçirilməsində sülhün və sabitliyin rolu vurğulanıb. 2020-ci ilin noyabrında Ermənistanla Azərbaycan arasında münaqişənin sona çatmasının regionda təhlükə- sizliyin, sabitliyin, rifahın və qarşılıqlı faydalı əməkdaşlığın formalaşmasına, yeni beynəlxalq və regional nəqliyyat-logistika dəhlizlərinin imkanlarından faydalanmağa, Azərbaycanın və bütövlükdə, regionun inkişafına böyük təkan verəcəyi vurğulanıb. Azərbaycanın inkişaf strategiyasının əsas istiqamətini ölkəmizin işğaldan azad edilmiş və dağıntıya məruz qalmış bölgələrinin yenidən qurulmasının, məcburi köçkünlərin öz yaşayış yerlərinə qayıdışının təşkil edəcəyi bildirilib. KMH-də BMT-nin müəyyən etdiyi tematik mövzuya uyğun olaraq hazırlanmış hesabatlarda siyasət və maarifləndirmə işləri, 2030-cu il Gündəliyinin icrasına pandemiyanın təsirləri və bu təsirlərin minimallaşdırılması tədbirləri, DİM-lər üzrə əldə olunan tərəqqi və s. əksini tapıb.

Ümumiyyətlə, Davamlı İnkişaf Məqsədlərinin qarşısında duran əsas məsələ mövcud

problemlərin ilk olaraq milli səviyyədə həllinə nail olunmasıdır. Xüsusilə bu gündəliyin əsas diqqət mərkəzində insan dayanır, sosial inkişafa daha çox önəm verilir, bu sosial inkişaf da həmçinin ekoloji və iqtisadi inkişafı təşviq edir. Məqsədlər təkcə bu gün üçün deyil, gələcək nəsillər üçün də bərabərlik tələb edir ki, onlar iqtisadi, ekoloji və sosial bərabər cəmiyyətə sahib olsunlar. Davamlı inkişaf - bəşəriyyətin inkişaf göstəricilərinin seçilməsi və reallaşmasında özündə iqtisadi, ekoloji və sosial komponentləri birləşdirən sistemli yanaşmanın həyati vacibliyinin dərk olunmasını əks etdirən yeni inkişaf paradiqmasıdır. Davamlı inkişaf strategiyasının mənası bəşəriyyətin qeyri-müəyyən uzun müddət var olması şərtlərini müəyyənləşdirməkdən ibarətdir. Bunun üçün insanların tələbatının elə şəkildə təmin olunması nəzərdə tutulur ki, bu biosferanın deqradasiyasına, gələcək nəsillərin maraqlarının sıxışdırılmasına gətirib çıxarmasın [5, s. 45].

Nəzərə almaq lazımdır ki, davamlı inkişaf cəmiyyətin yalnız iqtisadi və ekoloji təhlükəsizliyi deyil, həmçinin dünyanın, ayrı-ayrı regionlarının siyasi, sosial inkişafı və sabitliyidir.

Beləliklə də, Azərbaycan dünya inteqrasiya proseslərinə daxil olaraq, ölkəmizin dövlət siyasətində milli prioritetlər üstünlük təşkil edir. Bununla əlaqədar olaraq, ölkədə həyata keçirilən iqtisadi siyasətin və islahatların davamlılığını təmin etmək üçün iqtisadiyyatın mövcud vəziyyətinin dərindən təhlili və yeni iqtisadi inkişaf strategiyasının hazırlanması məqsədilə Azərbaycan Respublikası Prezidentinin 2021-cı il 02 fevral tarixli Sərəncamı ilə “Azərbaycan 2030: sosial-iqtisadi inkişafa dair Milli Prioritetlər təsdiq edilmişdir. Sənəd yaxın və orta perspektivdə ölkəmizin qarşısındakı əsas hədəf və vəzifələrin açıq müzakirə və dinləmələr əsasında müəyyənləşdirilməsinə, bu zaman cəmiyyətin sosial gözlənti və istəklərinin nəzərə alınmasına imkan verir [1]. Milli prioritetlər əsasında hökumət qarşısında 5 mühüm istiqamətdə islahat, layihə və tədbirlərin reallaşdırılması vəzifəsi qoyulub. Növbəti onillikdə ölkənin sosial-iqtisadi inkişafına dair aşağıdakı beş Milli Prioritet reallaşdırılmalıdır:

1. dayanıqlı artan rəqabətqabiliyyətli iqtisadiyyat;
2. dinamik, inklüziv və sosial ədalətə əsaslanan cəmiyyət;
3. rəqabətli insan kapitalı və müasir innovasiyalar məkanı;
4. işğaldan azad olunmuş ərazilərə böyük qayıdış;
5. təmiz ətraf mühit və “yaşıl artım” ölkəsi.

Qeyd edilən Milli Prioritetlər, eyni zamanda, Birləşmiş Millətlər Təşkilatının “Dünyamızın transformasiyası: 2030-cu ilədək dayanıqlı inkişaf sahəsində Gündəlik”dən irəli gələn öhdəliklərin icrası istiqamətində də xüsusi əhəmiyyət kəsb edir [1].

Təsdiq olunmuş Milli Prioritetlər iqtisadi münasibətlərdə iştirak edən bütün subyektlərin fəaliyyətində müsbət təzahür olunacaqdır. Bu məqsədlə, iqtisadiyyatda uzunmüddətli investisiya resurslarının əsas mənbəyi olan kapital və sığorta bazarının inkişafı sürətləndirilməlidir. Milli bank sektorunun dayanıqlığı təmin olunmalı, ona olan etimad yüksəldilməli, real iqtisadiyyatın maliyyələşdiriməsində bankların payı artırılmalı və sahibkarlıq fəaliyyətinin inkişafına təkan verilməlidir. Ölkə iqtisadiyyatına birbaşa xarici investisiyaların, o cümlədən infrastruktur sahələrinə strateji investorların cəlb olunması təmin edilməlidir. Dövlət şirkətlərinin kommersiya prinsipləri əsasında fəaliyyət göstərmələri üçün zəmin yaradılmalı, qabaqcıl beynəlxalq təcrübə nəzərə alınmaqla korporativ idarəetmə standartları tətbiq edilməli və gəlirlilik səviyyələrinin artırılması təmin olunmalıdır.

Ümumiyyətlə, cəmiyyətin inkişafının müxtəlif mərhələlərində iqtisadi artımın mahiyyətinin və rolunun qiymətləndirilməsi fərqli xarakter daşımışdır. Tarixən əhalinin artımı və buna müvafiq tələbatların genişlənməsi prosesi ilə resursların dinamikası arasındakı tarazlığın qeyri-münasibliyi iqtisadi artım probleminin aktuallığını şərtləndirmişdir. Eyni zamanda məhdud resurslar çərçivəsində artan tələbatların ödənilməsinin elmi əsaslarla təşkilini zərurətə çevirmişdir. Bu sahədə müasir dövr üçün əsas hədəflərdən biri məhz iqtisadi artım naminə məhdud resurslardan səmərəli istifadə

olunması baxımından, insan amilinin daha qabarıq formada həlledici amil kimi qəbul edilməsindən ibarətdir. Ümumilikdə isə iqtisadi artım bir çox sosial-iqtisadi xarakterə malik olan problemlərin həllinə əsas yaradan başlıca vasitə kimi qiymətləndirilir. Belə ki, iqtisadi artım ümumdaxili məhsulun kəmiyyət artımını əks etdirməklə, əhalinin həyat səviyyəsinin yüksəlməsinə səbəb olur [7].

Təcrübə göstərir ki, iqtisadi artım coğrafi yerləşmə, təbii sərvətlər, əmək resursları, sərmayələrin həcmi və texnologiya kimi amillərin təsiri altında formalaşır. Makroiqtisadi sabitlik, xaricə açıqlıq, təmiz ekoloji mühit isə belə artımı reallaşdırmağa imkan verir.

Cədvəl 1-dən göründüyü kimi, Azərbaycanda 2021-ci ilin sonu üçün olan makroiqtisadi göstəricilər müsbət dinamika ilə seçilmişdir.

Ölkələrin 50 illik inkişaf təcrübəsi göstərir ki, iqtisadi inkişafın orta hesabla 20 faizi fiziki kapital, 10-30 faizi insan kapitalı, qalanı isə texnoloji inkişaf səviyyəsi ilə izah olunur. Ölkələr arasında gəlir üzrə fərqin 50-75 faizi, iqtisadi artım sürətinin isə 90 faizi məhz iqtisadiyyatın texnoloji tutumluluğu ilə əlaqədardır.

Davamlı inkişafın nəticəsi kimi formalaşan inklüziv cəmiyyət son illərdə dünyanın əsas qlobal prioriteti kimi qəbul edilmişdir. Bildiyimiz kimi, inklüziv inkişaf – (inclusive development)-əhatə edən mənasını daşıyır. XXI əsrin əsas prioritet konsepsiyası olaraq inklüziv inkişaf iqtisadi inkişaf dövründə iqtisadi proseslərin cəmiyyətin hər bir sahəsi üçün faydaları olan bərabər imkanlar təmin edir. Bu konsepsiya iqtisadi inkişafın ənənəvi modellərini genişləndirir, səhiyyə sahəsində bərabərliyə, insan kapitalına, ətraf mühitin keyfiyyətinə, sosial müdafiəyə və ərzaq təhlükəsizliyinə xüsusi diqqət yetirir. Beynəlxalq standartlara əsasən, inklüziv inkişafın vəziyyətinin qiymətləndirilməsi 12 indikator əsasında keçirilir. Həmin indikatorlarlar ölkələrdə inklüziv inkişafın vəziyyətinin iqtisadi, sosial, demoqrafik və ekoloji parametrlərin əsasında müəyyən edilir [5, s.67].

İnklüziv cəmiyyətdə ölkənin bütün əhalisi əmək fəaliyyəti ilə məşğul olmaq, firavan yaşaması üçün zəruri vəsaiti qazanmaq imkanına malik olmalıdırlar. Cəmiyyətdə inklüzivlik səviyyəsinin artması bir çox vacib sahələrdə bilavasitə inklüzivliyə diqqət yetirilməsinin nəticəsində baş verir. Hesab etmək olar ki,

**Cədvəl 1.** 2021-ci ilin yanvar-dekabr aylarında ölkənin iqtisadi və sosial inkişafının makroiqtisadi göstəriciləri [4]

| Göstəricinin adı | 2021-ci ildə, faktiki | 2021-ci il 2020-ci ilə nisbətən, % | 2020-ci il 2019-cu ilə nisbətən, % |
|---|---|---|---|
| Ümumi daxili məhsul, milyon manat | 92 857,7 | 105,6 | 95,7 |
| o cümlədən qeyri neft-qaz ÜDM | 57 786,2 | 107,2 | 97,4 |
| Əhalinin hər nəfərinə düşən ÜDM, manat | 9 269,3 | 105,1 | 95,0 |
| Sənaye məhsulu, milyon manat | 54 480,5 | 105,2 | 96,0 |
| o cümlədən qeyri neft-qaz sənayesi | 15 457,2 | 118,9 | 111,9 |
| Əsas kapitala yönəldilmiş vəsaitlər, milyon manat | 16 127,0 | 91,8 | 92,7 |
| o cümlədən qeyri neft-qaz sektoruna | 10 361,5 | 90,4 | 88,4 |
| ondan qeyri neft-qaz sənayesinə | 1 563,0 | 49,8 | 90,1 |
| Əhalinin hər nəfərinə düşən nominal gəlirlər, manat | 5 708,0 | 102,2 | 97,5 |
| Orta aylıq nominal əməkhaqqı, manat | 724,1 | 102,9 | 112,9 |

cəmiyyətin inklüziv inkişafını ictimai-siyasi və ictimai-iqtisadi sistemin və yeni dövrün innovativ texnologiyalarından bəhrələnməklə təmin etmək olar. Cəmiyyətdə iqtisadi inkişafla yanaşı, sosial məsuliyyət məsələləri, vətəndaşların əməyə və iş yerlərinə münasibətləri, gəlirlərin ədalətli bölgüsü, resurslardan qənaətlə istifadə texnologiyaları kimi məsələlər də araşdırılmalıdır. Sosial yönümlü effektiv idarəetməyə üstünlük verilməlidir. Cəmiyyətdə sosial razılıq mühiti formalaşmalıdır. İnklüziv cəmiyyətdə inklüziv iqtisadiyyat olmalıdır. Cəmiyyət və iqtisadiyyat sosial yönümlü yanaşmalar və texnologiyalar əsasında idarə olunmalıdır. Hər bir kəsin işləməsi, normal əmək haqqı alması üçün ilk növbədə onun fərdi əmək qabiliyyətinin reallaşdırılması istiqamətində müvafiq əmək alətləri, iş şəraiti, istehsal və xidmət sahələri yaradılmalıdır. Hər bir kəsin fiziki vəziyyətindən asılı olmayaraq dəyər yaratmaq imkanı tanınmalı və reallaşdırılmalıdır.

Sadalanan çoxşahəli tədbirlər sayəsində iqtisadiyyat da məhz həmin qrup insanların yaratdıqları dəyərlər hesabına daha da inkişaf edəcəkdir. BMT-nin "inklüziv inkişaf"la əlaqədar tövsiyələrinə müvafiq surətdə inklüziv iqtisadiyyat və inklüziv iqtisadi artım məsələləri Beynəlxalq Valyuta Fondu, İqtisadi Əməkdaşlıq və İnkişaf Təşkilatı, Avropa Yenidənqurma və İnkişaf Bankı kimi bir çox beynəlxalq iqtisadi təşkilatların əsas sənədlərində əks olunmuşdur. Bu problemlər onların əsas işçi orqanlarında dəfələrlə müzakirə edilmişdir [11]. Hazırda milli regional və beynəlxalq səviyyələrdə müvafiq sahələr üzrə qərarlar inklüziv inkişaf indikatorları nəzərə alınmaqla qəbul olunur:

- BMT səviyyəsində (iqtisadi və ekoloji hesabatların uyğunluğu sistemi, insan potensialının inkişaf indeksi);
- İqtisadi Əməkdaşlıq Təşkilatı səviyyəsində (firavan həyat indeksi);
- Dünya İqtisadi Forumu (DİF) səviyyəsində (qlobal rəqabətlilik indeksi, inklüziv inkişaf indeksi).

Bir çox ölkələrin milli strategiyaları davamlı inkişaf üzrə razılaşdırılmış indikatorlara əsaslanaraq işlənilir. Hamı üçün yaşıl iqtisadiyyatın yaradılması inklüziv iqtisadiyyat üçün əsaslı prinsip hesab edilir. Ümumi Daxili Məhsula alternativ kimi işlənilmiş İnklüziv İnkişaf İndeksi müasir dövrün siyasəti üçün ölkələrin iqtisadi inkişafını daha dəqiq ifadə edir [7].

Beynəlxalq metodologiyaya görə, ölkə iqtisadiyyatları iki hissəyə ayrılır: inkişaf etmiş və inkişaf etməkdə olan ölkələr. DİF-in ilk dəfə olaraq 2018-ci ildəki hesabatında nüfuzlu indeks sayılan "İnklüziv İnkişaf İndeksi"-nə görə Azərbaycan inkişaf etməkdə olan ölkələr arasında üçüncü yerdədir-4,69 təşkil edir. Bu dünya ölkələrin arasında 25-ci yerdir və böyük nəticə təşkil edir. İnklüziv indeks üzrə Azərbaycanın ilk üçlükdə qiymətləndirilməsi ölkədə əhalinin sosial vəziyyətinin digər ölkələrə nəzərən yaxşı olmasını və son illərdə həyata keçirilən sosial-iqtisadi islahatların uğurunu təsdiq edir [10].

Onu da qeyd etmək lazımdır ki, inklüziv artım indeksi yoxsulluq, təhsil, səhiyyə, gender bərabərliyi və s. kimi müvafiq göstəricilər üzrə hazırlanır. Dünya İqtisadi Forumu sərvət və gəlir paylanması, yoxsulluğun səviyyəsi üzrə araşdırmalar aparır. Yuxarıda qeyd edildiyi kimi, inklüziv artım indeksi gəlir, yoxsulluq, səhiyyə və davamlılıq kimi müvafiq göstəricilər üzrə hazırlanır. Son illərdə Azərbaycanda da qeyd olunan məsələlərlə, əsasən də yoxsulluğun minimuma endirilməsi ilə əlaqədar ciddi islahatlar həyata keçirilib və müsbət göstəricilər ilə nəticələnib. Məsələn, Azərbaycan Respublikasının Prezidenti İlham Əliyevin 2021-ci il 20 dekabr tarixli "Sosial müavinətlərin məbləğinin artırılması haqqında" sərəncamına etdiyi dəyişikliklər əsasında ölkəmizdə əhalinin gəlirlərinin artırılması və sosial müdafiəsinin təmin olunması istiqamətində tədbirlərin cari ildə də həyata keçirildiyinin əyani təzahürüdür. Qeyd etmək lazımdır ki, əvvəlki illər ərzində dövlət başçısının imzaladığı sərəncamlar və fərmanlar, təsdiq etdiyi dövlət proqramlarının nəticəsi olaraq Azərbaycanın davamlı və hər tərəfli sosial-iqtisadi inkişafı təmin olunub [3].

İnklüziv artım indeksində digər əsas göstəricilərdən biri də təhsilin inkişaf göstərici-

ləridir. Qloballaşan dünyada insan inkişafının qiymətləndirilməsində təhsil göstəriciləri xüsusi əhəmiyyət daşıyır. BMT ekspertlərinin insan inkişafı üzrə apardıqları araşdırmaların nəticəsinə görə, Azərbaycanda əhalinin savadlılıq indeksi 99 faiz təşkil edir.

Ümumiyyətlə, qeyd etmək lazımdır ki, hər bir ölkənin uğurlu gələcəyi həmin ölkənin təhsil səviyyəsi ilə ölçülür. Müasir dünya ölkələri, o cümlədən bütün inkişaf etmiş ölkələr təhsili strateji üstün sahə elan edir və ölkələrinin gələcək inkişafının təhsil sisteminin səviyyəsindən asılı olduğunu etiraf edir. İnsan potensialı inkişafın əsas determinantlarından biri olmaqla, cəmiyyətin istər fiziki gücü, istərsə də zehni fəaliyyətlərində malik olduğu bilik və bacarıq kimi göstərilir. Hər hansı bir ölkədə yüksək keyfiyyətli insan potensialı istehsal amillərindən istifadədə yüksək məhsuldarlıq, istehsalda daima yenilikçilik, yüksək texnologiya deməkdir ki, bu da müasir dövrdə iqtisadi rifahın təməlidir. Belə ki, inkişaf etmiş ölkələrdə də bir işçiyə düşən kapital miqdarı, iş vaxtı və işçi sayında bir dəyişiklik olmadığı halda istehsalda əldə etdikləri artım yalnız insan potensialının yüksəlməsi hesabınadır [8].

Beləliklə, Azərbaycan Respublikasının inkişaf konsepsiyasına uyğun olaraq şəxsə hərtərəfli bilik və bacarıqların verilməsi məqsədi ilə təhsil sisteminin institusional əsasları, infrastrukturu və insan resursları inkişaf etdirilməlidir. Təhsilin inkişafı ölkədə əhalinin rifahının yaxşılaşması, həmçinin hər bir fərdin həyatının daha yüksək səviyyədə qurulması üçün zəmin yaradır. Təhsil insanlara texnologiyaları çevik mənimsəmək, əmək bazarında layiqli yer tutmaq və ömür boyu təhsil prosesinə qoşulmaq, sağlam həyat tərzi, ətraf mühitə münasibətdə düzgün mövqe seçmək imkanı verir [6].

Sosial-iqtisadi həyatın müasirləşdirilməsində təhsilin rolu təkcə təhsilalanın qazandığı bilik və bacarıqların iqtisadi amilə çevrilməsi ilə məhdudlaşmır. Təhsil prosesində əldə olunan bilik və bacarıqlar, həmçinin etik-əxlaqi norma və dəyərlər hər bir təhsilalanın cəmiyyətin layiqli üzvü olması üçün lazımi şərait yaradır, onu biliyi və etik davranışı sayəsində örnək ola biləcək həmkara, nümunəvi ailə üzvünə və vətəndaşa çevirir.

Son illərdə ölkədə təhsilin inkişafı istiqamətində mühüm addımlar atılmışdır. Təhsilin normativ hüquqi bazası təkmilləşdirilmiş, maddi-texniki təminatı istiqamətində Azərbaycan Respublikası Prezidentinin sərəncamları əsasında geniş tədbirlər həyata keçirilmişdir. Azərbaycanda Milli Prioritetlərin həyata keçirilməsi üçün təhsil sahəsində kadr siyasətinin gucləndirilməsi böyük əhəmiyyətə malikdir. Ümumiyyətlə, hər hansı bir ölkənin sosial institutlarının gələcək inkişafı elm – təhsil – istehsal üçlüyü arasında əlaqə zəncirinin möhkəmliyi və elastikliyindən çox asılıdır. İslahatların uğurlu nəticələnməsi bilavasitə idarəetmə sahəsində yüksək ixtisaslı mütəxəssislərin hazırlanmasından və kadr potensialının təkmilləşdirilməsindən asılıdır. Bakalavr, magistr və doktorantura pilləsində bu sahədə olan mütəxəssislər yetişdirilməlidir. Azərbaycanın müxtəlif ali təhsil müəssisələrində, ilk olaraq Azərbaycan Respublikası Prezidenti yanında Dövlət İdarəçilik Akademiyasında 2014-cü ildən ”Davamlı inkişafın idarəedilməsi” ixtisası üzrə kadr hazırlığı həyata keçirilir. Tədris prosesində ümumi kurslarla yanaşı, ixtisas profilinə uyğun, “Davamlı inkişafın əsasları”, “İnklüziv inkişafın idarəedilməsinin əsasları”, “İnsan inkişafı və ekoloji sivilizasiyanın əsasları”, “Dövlət idarəçiliyində yeni texnologiyaların tətbiqi ”“Ətraf mühit və onun idarə edilməsi”, “İqtisadi artım” və digər fənlər tədris olunur.

Əsas məqsəd – yüksək ixtisaslı mütəxəssislərin hazırlanması və onların əldə etdiyi biliklərinin idarəetmə prosesində tətbiq olunmaq bacarığının formalaşdırmasıdır. Yalnız belə halda hazırladığımız gənc mütəxəssislər, əmək bazarında rəqabətqabiliyyətli olaraq, Akademiyada topladığı bilik və bacarıqlarını öz iş fəaliyyətlərində də tətbiq etmək imkanını əldə edəcəkdir. Təhsili dövlət siyasətinin əsas prioritetlərindən biri kimi qiymətləndirən Prezident İlham Əliyevin təhsil sistemi qarşısında qoyduğu vəzifələrə uyğun olaraq Təhsil Nazirliyi müxtəlif sahələr üzrə qəbul edilmiş proqramları həyata keçirir. “2019-2023-cü illər

üçün Azərbaycan Respublikasında ali təhsil sisteminin beynəlxalq rəqabətli- liyinin artırılması üzrə Dövlət Proqramı"nın təsdiq edilməsini bu tədbirlərin davamı olaraq qiymətləndirmək olar [3]. Bu proqramlar təhsilin məzmununun yeniləşdirilməsi, yeni proqram, dərslik və dərs vəsaitlərinin hazırlanması, təhsilin idarə olunmasının təkmilləşdirilməsi, təhsil müəssisələrinin maddi-texniki və tədris bazalarının möhkəmləndirilməsi, tədris prosesində informasiya texnologiyalarının istifadə olunması, kadrlarla təminat, məktəbəqədər təhsilin yeniləşdirilməsi, texniki peşə təhsilinin təkmilləşdirilməsi, xüsusi qayğıya ehtiyacı olan uşaqların təhsilinin təşkili, istedadlı uşaq və gənclərin yaradıcılıq potensialının inkişafı və digər sahələri əhatə edir.

Belə nəticəyə gəlmək olar ki, təhsil müəssisələrinin bir-biri ilə koordinasiyalı şəkildə fəaliyyət göstərməsi, rəqabətə davamlı ixtisaslı kadrların hazırlanması üçün ali təhsil müəssisələrində görüləcək işlərdən ən başlıcası effektiv keyfiyyət təminatı sisteminin qurulması və ixtisaslar üzrə təhsil proqramlarının əmək bazarının tələblərinə cavab verəcək şəkildə hazırlanmasıdır.

Yuxarıda qeyd etdiyimiz kimi, inklüziv inkişaf əhalinin bütün təbəqələrinin rifahını nəzərdə tutur və burada inklüziv təhsil də xüsusi önəmli yer tutur. İnklüziv təhsil uşaqların fiziki, psixi, intellektual və digər xüsusiyyətlərindən asılı olmayaraq, onların öz həmyaşıdları ilə məktəbdə eyni sinifdə təhsilə cəlb edilməsidir. Sağlamlıq imkanları məhdud uşaqlar dərs prosesində digər həmyaşıdları ilə birgə iştirak etdikdə, onların arasında bir-birinə qarşı anlaşma və hörmət hissi inkişaf edir. Hazırda sağlamlıq imkanları məhdud uşaqlar əsasən xüsusi məktəblərdə və xüsusi internat məktəblərində və ya evdə təhsilə cəlb olunmuşdurlar. Digər tərəfdən, sağlamlıq imkanları məhdud uşaqlar üçün nəzərdə tutulan mövcud təhsil təminatından istifadə imkanları bütün ölkəni əhatə etmir. Başda vitse-prezident Mehriban Əliyevanın şəxsi təşəbbüsü əsasında Heydər Əliyev Fondu tərəfindən sağlamlıq imkanları məhdud, kimsəsiz, valideyn himayəsindən məhrum olan, cəmiyyətin diqqətindən kənarda qalan uşaqların təhsilinin təşkili, onların təhsil aldığı müəssisələrin maddi-texniki və tədris bazasının möhkəmləndirilməsi istiqamətində məqsədyönlü işlər görülmüş, sağlamlıq imkanları məhdud uşaqlar üçün internat məktəbləri və xüsusi məktəblər əsaslı təmir edilmiş və ya yenidən qurulmuş, həmin müəssisələr müasir tələblərə cavab verən inventar və avadanlıqlarla təchiz edilmişdir [10].

Azərbaycan Respublikasında inklüziv təhsilin tətbiqi ilə bağlı 2004-cü ildən başlayaraq təşəbbüslər olmuşdur. Xüsusi qayğıya ehtiyacı olan uşaqların təhsilinin təşkili ilə əlaqədar 2005-2009-cu illər üçün inkişaf proqramı çərçivəsində inklüziv təhsilin təşkili ilə bağlı 3 pilot layihənin icrasına başlanılmışdır. Layihələrin icrası olaraq 15 ümumi təhsil müəssisəsində, 13 məktəbəqədər təhsil müəssisəsində 268 nəfər əlilliyi olan uşaq inklüziv təhsilə cəlb olunmuşdur. Layihələrin icrası dövründə inklüziv təhsilin hüquqi tənzimlənməsində boşluqların mövcudluğu inklüziv təhsilin Azərbaycan Respublikasında tətbiqində çətinliklər yaratmışdır. 2015-ci ildə Azərbaycan Respublikasının Təhsil Nazirliyi ilə BMT-nin Uşaq Fondunun (UNICEF) birgə əməkdaşlığı çərçivəsində inklüziv təhsil ilə bağlı görülmüş işlər və bu sahədə beynəlxalq təcrübə təhlil edilmişdir. Nəticə etibarilə əlilliyi olan şəxslərin təhsilinin təşkili yeni mərhələyə keçmişdir. Bu mərhələdə xüsusi təhsil sahəsində köklü islahatların aparılması, əlilliyi olan uşaqların təhsilə cəlb olunması qaydalarının yenilənməsi, onların ümumi təhsil müəssisəsində inklüziv təhsilə cəlb edilməsi və inklüziv təhsil sahəsində yeni yanaşmaların tətbiqi nəzərdə tutulmuşdur. 2015-2016-cı tədris ilindən əlilliyi olan uşaqların ümumi təhsil müəssisəsində digər uşaqlarla birgə təhsilə cəlb olunması məqsədilə Azərbaycan Respublikasında "İbtidai təhsil səviyyəsi üzrə inklüziv təhsilin tətbiqi" layihəsinin icrasına başlanılmışdır. Hal-hazırda ölkə ərazisində 65482 nəfər sağlamlıq imkanları məhdud uşaq vardır. Onlardan 9355 nəfəri evdə, 2558 nəfəri uşaq xüsusi məktəblərində, 2725 nəfəri isə xüsusi internat məktəblərində təhsilə cəlb olunmuşdurlar [10].

İnklüziv təhsil sahəsində yeni yanaşmaların tətbiqi ilə bağlı tədbirlər dörd eksperimental məktəbdə uğurla sınaqdan keçirilir. Sağlamlıq imkanları məhdud uşaqların digər uşaqlarla birgə təhsilə (inklüziv təhsilə) cəlb olunması üçün "2018-2024-cü illərdə Azərbaycan Respublikasında sağlamlıq imkanları məhdud şəxslər üçün inklüziv təhsilin inkişafı üzrə Dövlət Proqramı"nın həyata keçirilməsi zəruridir.

Qeyd etməliyik ki, ərazilərimizin erməni işğalından azad edilməsi BMT-nin TŞ-nın işğal olunmuş ərazilərə dair qəbul etdiyi 4 qətnamənin həyata keçirilməsinin və bütün regionda davamlı inkişafın təmin edilməsinin əməli təzahürünə çevrildi. Hal-hazırda işğaldan azad olunan ərazilərin bərpa edilməsi və burada innovativ idarəetmə texnologiyalarından istifadə etməklə inklüziv cəmiyyətin yaradılması dövlətimiz qarşısında duran əsas prioritetlərdən biridir. İnnovativ texnologiyalar hesabına Qarabağda bərpa işlərinin aparılması və yekunda burada davamlı inklüziv cəmiyyətin qurulması ölkəmizi bütün dünya üçün örnək ola biləcək dövlət idarəçiliyində tətbiq olunan yeni texnologiyalardan səmərəli istifadə nümunəsinə çevirəcək.

Bu gün ölkədə gedən proseslər bir daha göstərir ki, dahi lider Heydər Əliyevin əsasını qoyduğu və Prezident İlham Əliyevin uğurla davam etdirdiyi «böyük gələcək» siyasəti artıq öz bəhrələrini verir. Azərbaycanın inkişafı, dünya dövlətləri sırasında öz layiqli yerini tutması hər bir vətəndaşımızın, o cümlədən, müxtəlif ölkələrdə yaşayan soydaşlarımızın üzərinə yeni-yeni vəzifələr qoyur.

**Ədəbiyyat:**


1. Azərbaycan Respublikası Prezidentinin 2021-ci il 2 fevral tarixli Sərəncamı "Azərbaycan 2030: sosial-iqtisadi inkişafa" dair Milli Prioritetlər.
2. "Azərbaycan Respublikası regionlarının 2019–2023-cü illərdə sosial-iqtisadi inkişafı Dövlət Proqramı"nın təsdiq edilməsi haqqında Azərbaycan Respublikası Prezidentinin Fərmanı. Bakı şəhəri, 29 yanvar 2019-cu il.
3. Azərbaycan Respublikasının Prezidenti İlham Əliyevin 2021-ci il 20 dekabr tarixli sərəncamı "Sosial müavinətlərin məbləğinin artırılması haqqında"
4. Azərbaycan Respublikası Dövlət Statistika Komitəsi.
5. Ələkbərov U.K. İnklüziv inkişafın idarəedilməsinin əsasları. Ali məktəb lər üçün dərslik. – Bakı. – 2018.
6. Ələkbərov U.K. Prezident İlham Əliyev Azərbaycanı uğurlu innovativ tədbirlərlə yeni zəfərlərə aparır // Azərbaycan. – 2021 . – 4 mart. – 5 s.
7. Qasımlı V.Ə. İqtisadi artım. Post-konflikt və Post-pandemiya dövrü: Çağırışlar və Həllər. – Bakı. – 2021.
8. Симакова Л.Д., Казимирский М. Экономическая устойчивость стран большой G20 и инклюзивный рост // Инновации и инвестиции. – 2018. – №6. – с. 94-97.
9. The Inclusive Development Index 2018, World economic forum-2018, http://www.weforum.org
10. prezident. az
11. UNDP Azerbaijan. az


***Açar sözlər:*** *inklüziv inkişaf, iqtisadi artım, inklüziv təhsil, milli prioritetlər, davamlı inkişaf məqsədləri*

**Nurida Mustafayeva**
*The Academy of Public Administration under the President of the Republic of Azerbaijan*
*Department of Planning and Management of Sustainable Development*
*Ph.D. in Biological Sciences, Associate Professor*

# HUMAN DEVELOPMENT FOR THE SAKE OF NATIONAL PRIORITIES IN THE REPUBLIC OF AZERBAIJAN

## ABSTRACT

The Azerbaijani state has chosen the path of developing a market economy to further increase the welfare of the population in the country. Accelerating economic growth based on high, sustainable, inclusive technologies to increase the level of national social well-being and ensure the return of the population to the liberated territories is a new strategic direction for the development of Azerbaijan. For the long-term sustainable and rapid development of our country, it is necessary to strengthen successful relations between society, business, and the state.

The author states that in the face of growing competition and creative and innovative management, each country's priority is to form highly competitive human capital. The key to success is the creation of favorable conditions for obtaining modern education based on innovations and world achievements. Within the framework of measures to develop the vocational education system, it is necessary to expand the population's access to quality education, adapt the training of personnel to the requirements of the labor market, and train specialists in accordance with international certificates. In this regard, an analysis of existing studies on the problems of inclusive development was carried out. A system of multilevel indicators characterizing the inclusive development of society has been proposed. An important issue that should be considered is the maximum use of the latest innovative technologies in management and raising the level of inclusive development in society. Today, the analysis of features, comparison of levels of development, development of methodological foundations, and management of these processes are very relevant and of particular importance. The noted potential opportunities are reflected in the National Priorities of our country until 2030, and relevant reforms are being carried out in this direction.

***Keywords:*** *inclusive development, economic growth, inclusive education, national priorities, sustainable development goals*

**Нурида Мустафаева**
*Доцент кафедры «Планирование и управление устойчивым развитием»*
*Академии Государственного Управления*
*при Президенте Азербайджанской Республики,*
*доктор философии по биологическим наукам*

# РАЗВИТИЕ ЧЕЛОВЕЧЕСКОГО ПОТЕНЦИАЛА В НАЦИОНАЛЬНЫХ ПРИОРИТЕТАХ АЗЕРБАЙДЖАНСКОЙ РЕСПУБЛИКИ

## РЕЗЮМЕ

Для дальнейшего повышения благосостояния населения страны правительство Азербайджана избрало путь развития рыночной экономики. Ускорение экономического роста на основе высоких, устойчивых, инклюзивных технологий в целях устойчивого повышения уровня национального социального благосостояния, обеспечение возвращения населения на освобожденные территории является ядром новой стратегической магистрали развития Азербайджана. Для долгосрочного устойчивого и ускоренного развития нашей страны необходимо укреплять успешные отношения между обществом, бизнесом и государством. В будущем в условиях растущей конкуренции и креативно-инновационного управления приоритетом каждой страны должно быть формирование высококонкурентного человеческого капитала. Залогом успеха при этом являются создание благоприятных условий для получения современного образования, основанного на инновациях и мировых достижениях. Следует расширить возможности людей получить качественное образование, адаптировать подготовку кадров к требованиям рынка труда в рамках мероприятий по развитию системы профессионального образования, подготовить специалистов в соответствии с международными сертификатами. В связи с этим был проведен анализ существующих исследований по проблемам инклюзивного развития. Предложена система многоуровневых показателей, характеризующих инклюзивное развитие общества. Важным вопросом следует считать максимальное использование новейших инновационных технологий в повышении уровня инклюзивного развития в обществе. Для управления этим процессом, анализ его особенностей, исследование проблем измерения и сравнения уровней развития, разработки методологических основ весьма актуальны и имеют особое значение. Эти потенциальные возможности отражены в Национальных Приоритетах нашей страны до 2030 года и в этом направлении проводятся соответствующие реформы.

***Ключевые слова:*** *инклюзивное развитие, экономический рост, инклюзивное образование, национальные приоритеты, цели устойчивого развития*

D A V A M L I İ N K İ Ş A F I N İ D A R Ə E D İ L M Ə S İ
S U S T A I N A B L E D E V E L O P M E N T M A N A G E M E N T

UOT 328; 342.5; 351/354; 351

**ELŞAN ƏHMƏDOV**
**Azərbaycan Respublikasının Prezidenti yanında Dövlət İdarəçilik Akademiyası "Davamlı inkişafın planlaşdırılması və idarəedilməsi" kafedrasının dosenti, iqtisad elmləri fəlsəfə doktoru**
*e-mail: elshen80@gmail.com*

# SU RESURSLARININ DAVAMLI İDARƏ EDİLMƏSİNDƏ DÖVLƏT XİDMƏTLƏRİNİN KEYFİYYƏTİNİN ARTIRILMASI

Su resurslarının davamlı idarə edilməsi siyasi-ictimai, sosial-iqtisadi əhəmiyyətə malik, günümüzün aktual mövzularından biridir. Su resursu həm insan potensialının inkişafı üçün, iqtisadi artımın əsas lokomotivi olan sənaye sahəsinin inkişafı üçün əsas resursdur. Eyni zamanda transsərhəd suların dünya ölkələri arasında siyasi məzmun daşıyan ərzaq və enerji təhlükəsizliyini müəyyən edən zəruri resursdur. Ümumiyyətlə su resursunun potensialı olduqca yüksəkdir. İqtisadiyyatın bütün sahələrinin inkişafı üçün lazım olan ən əsas ehtiyatdır. BMT-nın qlobal miqyasda su çatışmazlığı ilə bağlı xüsusi hesabatında vurğulanmışdır ki, dünyada su çatışmazlığından əziyyət çəkən insanların sayı durmadan kəskin şəkildə artır. Mütəxəssislər BMT-nin hesabatına əsasən 2050-ci ildə 65 ölkədə 5 milyard nəfərə yaxın insanın su çatışmazlığı problemi ilə üz-üzə qalacağını proqnozlaşdırırlar. Bu proqnozların texnoloji tərəqqi və demoqrafik dəyişikliklər də nəzərə alınmaqla dəyişkənlik göstərməsi istisna deyil. Ölkəmizdə təməli Heydər Əliyev tərəfindən atılan "Regionların Sosial-İqtisadi İnkişafı Dövlət Proqramları"-nın həyata keçirilməsi ilə iqtisadiyyatın bütün sahələrində inkişafın hədəf və məqsədlərinə uyğun lazımi addımlar atılmaqdadır. Həmin istiqamətlərdən biri də məhz su potensialının düzgün qiymətləndirilməsi və davamlı idarə edilməsidir. Son 5 ildə xüsusilə 2012-ci ildən başlayaraq su resurslarının davamlı idarə edilməsi istiqamətində çox sayda dövlət proqramlarının icrası həyata keçirilmiş, Respublika regionlarının inkişafı istiqamətində səmərəli layihələrə imza atılmışdır.

Görüləcək işlərin nəticəsi olaraq, Azərbaycan Respublikasında içməli və tullantı su infrastrukturunun genişləndirilməsi, habelə təchizatın və istehlakın səmərəliliyinin yüksəldilməsi yolu ilə effektiv su təchizatı sistemi yaradılmaqdadır. Burada strateji hədəf yüksək səviyyəli su idarəetmə strukturunun yaradılmasıdır. Prioritet isə içməli və tullantı su infrastrukturunun tətbiqinin genişləndirilməsi olmuşdur. Əsaslandırmada qeyd edilmişdir ki, 2011-2015-cü illər ərzində dövlət tərəfindən su və kanalizasiya xidmətləri təsərrüfatının modernləşdirilməsinə və idarə edilməsinə böyük həcmdə investisiya qoyulmuşdur. Belə ki, qeyd olunan dövr ərzində bu sahəyə 2,7 milyard manatdan çox vəsait ayrılmışdır (Şəkil 1). Yalnız 2013-cü ildə su və kanalizasiya şəbəkəsinə dövlət vəsaiti hesabına qoyulmuş investisiyaların məbləği onun cəmi kapital qoyuluşu xərclərinin 9,8 faizini təşkil etmişdir. Yalnız 2013-cü ildə su və kanalizasiya şəbəkəsinə dövlət vəsaiti hesabına qoyulmuş investisiyaların məbləği bu sahəyə yönəldilmiş daxili vəsaitlərin 99,8 faizini təşkil etmişdir.

Azərbaycan Respublikasında səmərəli və effektiv su və kanalizasiya sisteminin yaradılması istiqamətində səylərin davam etdirilməsi zəruridir. Son illərdə regionlarda 825 kilometr su, 541 kilometr kanalizasiya xətti çəkilib, 32 artezian quyusu qazılıb, 27 su anbarı inşa olunub. Əhalisi 120 min nəfərdən çox olan 5 şəhərdə su təchizatı layihəsi başa çatıb, 100 min nəfəri

**Şəkil 1.** Abşeron yarımadasında tullantı suların axıdılması xidməti ilə əhatə olunma vəziyyəti və yeni tikilmiş kanalizasiya kollektorları




Mənbə: Azərbaycan Respublikasının Dövlət Statistika Komitəsi, “Azərsu” Açıq Səhmdar Cəmiyyəti







əhatə edən 56 yaşayış məntəqəsində modul tipli sutəmizləyicisi quraşdırılıb. Meliorasiya və irriqasiya tədbirləri çərçivəsində 2016-cı ildə 87 min hektar torpağın su təminatı yaxşılaşdırılıb, 12 min hektardan çox torpaq sahəsi suvarma suyu ilə təmin edilib. 2017-ci ildə dövlət investisiya xərcləri və Dövlət Neft Fondunun vəsaitləri ilə icra olunacaq layihələr hesabına 154 min hektardan çox əraziyə suvarma suyu çatdırılması planlaşdırılır. Texniki iqtisadi əsaslandırılması hazırlanan Yuxarı Şirvan Kanalının yenidən qurulması layihəsi 10 min hektarlarla torpaq sahəsinin dövriyyəyə cəlb olunmasını mümkün edəcək. Aqrar sahədə intensiv metodlar əsasında istehsalın genişləndirilməsi tədbirləri davam etdirilir. Son illərdə 20 rayonda 44 min hektaradək ərazidə 22 sahibkar tərəfindən müasir suvarma sistemlərinin və innovativ texnologiyaların tətbiqinə əsaslanan 32 iri fermer təsərrüfatı yaradılıb.

Dövlət xidmətlərinin səmərəliliyinin və keyfiyyətinin artırılması istiqamətində qarşıya qoyulan məqsədlər içərisində bir neçə il ərzində Azərbaycanın bütün şəhərlərində içməli su və kanalizasiya layihələrinin tam icra edilməsi dayanır. Əhaliyə 24 saat fasiləsiz, Dünya Səhiyyə Təşkilatının standartlarına uyğun içməli suyun verilməsi məqsəd qoyulmuşdur. Hər il bir çox şəhərlərimizdə içməli su layihələri

**Şəkil 2.** Yeni tikilmiş kanalizasiya kollektorları (2020 il)

| | İstismara verilib | Uzunluğu (km) | Diametri (mm) |
|---|---|---|---|
| Həsən Əliyev küçəsi kollektoru | 2012 | 6,5 | 1400 |
| Novxanı-Sumqayıt kollektoru | 2013 | 15 | 1000-1600 |
| Bayıl-Bibiheybət-Lökbatan kollektoru | 2015 | 14 | 1200-1600 |
| Qusar-Quba kollektoru | 2016 | 30 | 800-1000 |

Mənbə: Azərbaycan Respublikasının Dövlət Statistika Komitəsi, "Azərsu" Açıq Səhmdar Cəmiyyəti

**Şəkil 3.** Tullantı sutəmizləyici qurğular (2020 il)

| | Abşeron yarımadası üzrə: | Regionlar üzrə |
|---|---|---|
| İstismarda olan | 5 | 20 |
| Tikilən | 1 | 7 |
| Layihələndirilən | 10 | 18 |

Mənbə: Azərbaycan Respublikasının Dövlət Statistika Komitəsi, "Azərsu" Açıq Səhmdar Cəmiyyəti

istifadəyə verilir [4]. Hazırda Bakının fasiləsiz su təminatı 80 faizə çatmışdır. Ölkə üzrə isə bu göstərici təxminən 65 faizdir. Dövlət xidmətinin səmərəliliyinin artırılması istiqamətində aparılan yeni islahatlardan əvvəl fasiləsiz suyun verilməsi üzrə ümumi göstərici təqribən 25-30 faiz idi. Bununla paralel olaraq, çaylar boyu yerləşən kəndlərdə modul tipli sutəmizləyici qurğular da quraşdırılmışdır. Artıq 300-400 min nəfər əhali bu imkanlardan istifadə edir [4].

Meliorasiya sahəsinin inkişafı həm ərzaq təhlükəsizliyinin təmin olunmasına, həm də ixrac potensialının artırılmasına xidmət göstərir. 2017-ci ildə təqribən 150-160 min hektar torpağa suyun verilməsi planlaşdırılmış və icra edilmişdir. Yeni suvarılacaq torpaqlarda hansı məhsulların əkilməsi çox vacibdir. Bu layihələrin icrası nəticəsində ixrac potensialının artımı gözlənilməkdədir. Burada ilk növbədə, daxili tələbatın ödənilməsi və eyni zamanda, güclü ixrac potensialının yaradılması şərtdir. Bütün bu layihələrə güclü dövlət nəzarəti, həm ictimai nəzarətin olmağı lazımdır. Dövlət İnvestisiya Proqramı çərçivəsində Dövlət tərəfindən yerli icra hakimiyyətlərinin xətti ilə verilən təkliflər əsasında maliyyə vəsaiti ayrılmışdır. 2017-ci il planlamasına görə Ağdam rayonunda 30 artezian quyusu qazılmış və bunun nəticəsində təqribən min hektardan çox torpağa su verilmişdir. Ağdaş rayonunda 15 min 800 hektar, Füzuli rayonunda 3 min hektar, Hacıqabul rayonunda 4800 hektar, İmişli rayonunda 3 min hektar, Kürdəmir rayonunda 10 min 650 hektar, Neftçala rayonunda 8 min hektar, Salyan rayonunda 5 min hektar, Şəmkir rayonunda 8 min hektar və Ucar rayonunda 2100 hektar torpaq su ilə təmin olunmuşdur. Dövlət bu layihələrə vəsait ayırmış və ancaq rayon icra hakimiyyətlərinin xətti ilə bu layihələr icra edilmişdir.

"Meliorasiya və Su Təsərrüfatı" Açıq Səhmdar Cəmiyyətinin xətti ilə 2700 hektar əkin sahəsinin suvarılması üçün Yuxarı Mil kanalının tikintisi; Neftçala magistral kanalının tikintisi hansıki 4300 hektar əkin sahəsinin suvarılmasını təmin edəcək; Sabirabad rayonunun Sarxanbəyli, Moranlı, Balahəşimxanlı, Əliləmbəyli kəndlərinin əkin sahələrinin su təminatının yaxşılaşdırılması üçün kanalın tikintisi, bu da əlavə 2000 hektar torpaq sahəsini suvarmağa imkan verəcək; Araz çayının yeni qolunun tikintisi təxminən 40 min hektar sahəni su ilə təmin edəcək; Goranboy, Samux rayonlarının ərazisində görüləcək suvarma

işləri 4500 hektar əraziyə su gətirəcək; Samur-Abşeron suvarma sisteminin yenidən qurulması və inkişafı hesabına Taxtakörpü su anbarı tikilir və ondan indi qollar ayrılır. Bu da Xızı, Şabran və Siyəzən rayonlarında 20 min hektara suyun verilməsini təmin edəcək; "Azərsu" bu istiqamətdə iki layihəni icra edəcək. Hacıqabul və Şamaxı rayonlarında 10 min hektar torpağa su gətirəcək. Zərdab rayonunda da 10 min hektar torpaq suvarılacaq. Beləliklə, təxminən 160 min hektara yaxın yeni əkin sahələri yaradılacaq. Bütün bu layihələr dövlət tərəfindən planlaşdırılmış, təsdiq edilmiş və müvafiq vəsait ayrılmışdır. Onuda qeyd etmək lazımdır ki, bütün bu layihələrin həyata keçirilməsində ictimaiyyətin nəzarəti və rolu böyük olmalıdır. 2017 ci ildə Azərbaycanda ilk dəfə olaraq suvarma işlərinin bir hissəsini rayon icra hakimiyyətlərinə həvalə edilmişdir [4]. Bu həm rayon icra hakimiyyətləri üçün məsuliyyətdir həm də işlərin daha səmərəli və sürətli yerinə yetirmək üçün bir fürsətdir. Suvarma ilə bağlı müasir texnologiyalar tətbiq edilməlidir. Dövlət xətti ilə pivot suvarma sistemləri artıq Azərbaycana gətirilmişdir. Azərbaycanda pivot suvarma qurğularının istehsal edilməsi üçün planlar mövcuddur. Bunun üçün biznes qurumları fəallıq göstərməlidirlər. Burada həm də dövlət sifarişi olduğu üçün artıq alıcılar da mövcuddur. Yəni, burada bazarla bağlı heç bir problem olmayacaqdır. Eyni zamanda büdcə valyutası kənara getməyəcək [4].

Digər bir tərəfdən qeyd etmək lazımdır ki, dövlət tərəfindən fermerlərə böyük güzəştlər edilir. Onlar torpaq vergisi istisna olmaqla bütün vergilərdən azaddırlar. Suvarma işləri aparılır, infrastruktur yaradılır. Güzəştli şərtlərlə kreditlər, yanacaq, gübrə, subsidiyalar, metodik tövsiyələr verilir. Dövlət, eyni zamanda, öz hesabına fındıq və tut tinglər gətirir. Pambıqçılıqla bağlı dövlət xətti ilə böyük işlər görülür, texnika alınır, suvarma tədbirləri həyata keçirilir. Bu da öz növbəsində həmin yerlərdə yaşayan insanlar üçün yeni imkanlar yaradır. Əhalinin yaşam standartlarının artırılması üçün görülən işlərdir [4].

Respublikanın regionlarında əhalinin sosial məsələlərinin həlli istiqamətində mühüm işlər görülür. Görülən işlər arasında su təchizatı və kanalizasiya sistemlərinin yenidən qurulması əsas yer tutur. Bu baxımdan Qusar şəhərinin içməli su təchizatı və kanalizasiya sistemlərinin yenidən qurulması layihəsi də mühüm əhəmiyyətə malikdir. Qusar rayonunda içməli su təchizatı və kanalizasiya sistemlərinin yenidən qurulması işləri ilə yanaşı, dövlət büdcəsi vəsaiti hesabına Qusar-Quba kanalizasiya kollektorunun tikintisi də tamamlanıb. "Şahdağ" Qış-Yay Turizm Kompleksinin və Qusar şəhərinin tullantı sularının Quba-Xaçmaz kollektoruna ötürülməsi məqsədilə 27,2 kilometr uzunluğunda kanalizasiya kollektoru qısa müddətdə tikilərək istismara verilib. Kollektorun 7,6 kilometrlik hissəsi 1000, 19,6 kilometrlik hissəsi isə 800 millimetrlik borulardan inşa olunub. Bu layihələrin icrası Qusar sakinlərinin içməli su təchizatı və kanalizasiya xidmətlərindən istifadəsini yaxşılaşdırmaqla yanaşı, ətraf mühitin ekoloji tarazlığının qorunmasına imkan verib. Qusar Sukanal İdarəsi üçün 472 kvadratmetr sahəsi olan yeni inzibati bina tikilib. Binada xidməti otaqlar, iclas zalı, zəng mərkəzi, anbar, informasiya texnologiyaları otağı, digər xidməti və yardımçı otaqlar yaradılıb. Bu layihə Azərbaycan Hökuməti ilə Yaponiya Beynəlxalq Əməkdaşlıq Agentliyinin birgə maliyyələşdirdiyi "Kiçik şəhərlərdə su təchizatı və kanalizasiya layihəsi" çərçivəsində həyata keçirilib [8]. Layihə 2030-cu ilə perspektiv inkişaf nəzərə alınmaqla Qusar şəhərində 19 min 600 nəfərin içməli su təchizatı və kanalizasiya xidmətlərindən istifadəsinin yaxşılaşdırılmasına hesablanıb. Eyni zamanda, layihə çərçivəsində Qusar rayonunun 7 və Quba rayonunun 3 kəndinə içməli suyun verilməsi nəzərdə tutulub. Ümumilikdə, layihədən bu kəndlərin 12 min sakini faydalanacaq. Qusar şəhərinin içməli su təchizatı və kanalizasiya sistemlərinin yenidən qurulması layihəsinin icrasına 2012-ci ildə başlanılıb. Layihənin birinci mərhələsində Qusar şəhərini və 10 kəndi keyfiyyətli içməli su ilə təmin etmək üçün Qusarçayın məcrasında məhsuldarlığı saniyədə 102 litr və ya sutkada 8800 kubmetr olan drenaj tipli suqəbuledici qurğu tikilib, su mənbəyindən şəhərə qədər 17,4 kilometr uzunluğunda magistral kəmər çəkilib. Şəhərin dayanıqlı su təchizatını təmin etmək məqsədilə

ümumi tutumu 3 min kubmetr olan 3 su anbarı tikilib və bu anbarlar arasında 2,8 kilometr uzunluğunda su xətləri çəkilib, yeni xlorator binası inşa olunub. Layihənin ikinci mərhələsində isə Qusar şəhərində içməli su və kanalizasiya şəbəkələrinin yenidən qurulması işləri həyata keçirilib. Bu işlər çərçivəsində 106 kilometr içməli su şəbəkəsi yaradılıb, abonentlərə ev birləşmələri verilib, yanğın hidrantları quraşdırılıb. İçməli su şəbəkəsi ilə paralel olaraq, şəhərin kanalkanalizasiya sistemləri də müasir standartlar səviyyəsində yenidən qurulub, 105 kilometr uzunluğunda şəhərdaxili şəbəkə qurulub. Şəhərdə yaranacaq tullantı suları Xaçmaz rayonu ərazisində inşa ediləcək və məhsuldarlığı sutkada 70 min kubmetr layihələndirilən tullantı sutəmizləyici qurğuda təmizlənib zərərsizləşdiriləcək. Bu qurğuda, həmçinin Quba və Xaçmaz şəhərlərinin də tullantı suları emal olunacaq. Azərbaycan Hökuməti və Yaponiya Beynəlxalq Əməkdaşlıq Agentliyinin birgə maliyyələşdirdiyi “Kiçik şəhərlərdə su təchizatı və kanalizasiya layihəsi” çərçivəsində ölkəmizin 5 şəhərində – Qusar, Xaçmaz, Xızı, Qobustan və Naftalanda içməli su təchizatı və kanalizasiya sistemlərinin yenidən qurulması nəzərdə tutulub. Artıq Naftalan şəhərində su və kanalizasiya şəbəkələrinin tikintisi tam başa çatıb, hazırda tullantı sutəmizləyici qurğunun inşasına hazırlıq işləri görülür. Qobustan, Xaçmaz və Xızı şəhərlərində isə içməli su və kanalizasiya sistemlərinin inşası təsdiqlənmiş qrafikə uyğun davam etdirilir [8].

“Qobustan şəhərinin su təchizatı və kanalizasiya sistemlərinin yenidən qurulması” layihəsi 2030-ci ilə qədər perspektiv inkişaf nəzərə alınmaqla Qobustan şəhərində 11,7 min nəfərin içməli su təchizatının və kanalizasiya xidmətlərindən istifadəsinin yaxşılaşdırılmasına hesablanmışdır. Layihə çərçivəsində Qobustan rayonunun Təsi, Bədəlli, Sədəfli, Dərəkənd kəndlərinə də içməli su veriləcəkdir. Ümumilikdə layihədən 14 minədək sakin faydalanacaqdır. İnşasına 2015-ci ilin may ayınında başlanan layihə çərçivəsində 6 ədəd subartezian quyusu qazılmış, ümumi uzunluğu 1055 metr olan quyulararası xəttin 550 metrlik, 7,2 km magistral xəttin isə 6,9 km hissəsində işlər başa çatmışdır, Daşarası və Nərimankənd kəndlərində ümumi tutumu 2000 kubmetr olan 4 su anbarında isə tikinti işləri davam etdirilir. Şəhər üzrə layihələndirilmiş 61,4 km içməli su şəbəkəsinin 37 km-lik hissəsində işlər başa çatdırılmış, 850 yaxın evə birləşmə verilmişdir. Eyni zamanda 59,2 km kanalizasiya şəbəkəsinin 46,8 km-lik hissəsində işlər yekunlaşmış, şəbəkə üzərində 1060 ədəd kanalizasiya baxış quyusu inşa edilmiş, 1653 ünvana birləşmə verilmişdir [9]. Qobustan şəhərində tullantı sularının təmizlənib zərərsizləşdirməsi şəhərin kənarında inşa ediləcək və məhsuldarlığı sutkada 2500 kubmetr olan tullantı sutəmizləyici qurğusunda həyata keçiriləcəkdir [9].

2015-ci ildə içməli su təchizatı və kanalizasiya sektorunda da mühüm layihələr həyata keçirilmiş, istehlakçılara göstərilən xidmətlərin yaxşılaşdırılması istiqamətində ciddi addımlar atılmışdır: “Dövlət başçısının əhalinin 24 saat fasiləsiz və keyfiyyətli içməli su il təmin olunması ilə bağlı tapşırıqlarına uyğun olaraq 2015-ci ildə Bakı şəhəri və Abşeron yarımadasında, eləcə də respublikanın 29 şəhər və rayon mərkəzində və kəndlərdə layihələr icra edilmişdir. Görülmüş tədbirlər nəticəsində ölkə üzrə 200 min nəfərin içməli su təchizatı yaxşılaşdırılmış, 186 min nəfər ilk dəfə mərkəzləşdirilmiş qaydada içməli su ilə təmin olunmuş, 102 min nəfərin su təchizatı fasiləsiz rejimə keçirilmişdir. Bununla da ölkə üzrə fasiləsiz rejimdə su ilə təmin olunan əhalinin xüsusi çəkisi 64,5 faizə, Bakı şəhəri üzrə 79,2 faizə yüksəlmişdir”. 2014-cü ildə cəmiyyət üçün ən əlamətdar hadisə Ceyranbatan Ultrasüzgəcli Sutəmizləyici Qurğular Kompleksinin açılışı olmuşdur. Yeni kompleksin istismara verilməsindən sonra Türkan və Zirə qəsəbələrinə içməli suyun verilməsinə başlanılmış və sakinlər bu mənbə hesabına daha keyfiyyətli su ilə təmin olunur. 2015-ci ildə Kürdəxanı qəsəbəsində su təchizatı sistemlərinin yenidən qurulması layihəsinin icrası başa çatmış, Badamdar və Nardaran qəsəbələrində yeni layihələrin icrasına başlanılmışdır. Həmin ildə 14 km-lik Bayıl-Bibiheybət Lökbatan kanalizasiya tuneli tikilmiş, Lökbatan çirkab su təmizləyici qurğular kompleksinin ərazisində yeni nasos stansiyası quraşdırılmışdır. I Avropa

Oyunları ilə əlaqədar Böyükşor gölünün, Su idman sarayının ətrafında və digər ərazilərdə, həmçinin Mingəçevir şəhərində su və kanalizasiya sistemlərinin tikintisi və yenidən qurulması işləri həyata keçirilmişdir [10]. Azərbaycan Respublikası regionlarının sosial-iqtisadi inkişafı proqramına uyğun olaraq regionlarda yeni layihələr həyata keçirilmişdir. 2015-ci ildə Astara, Daşkəsən, Tərtər və Qobustan şəhərlərində su təchizatı və kanalizasiya sistemlərinin yenidən qurulması layihələrinin icrasına başlanılmışdır. Ucar şəhərində yeni su təchizatı, Göyçay şəhərində isə su təchizatı və kanalizasiya sistemləri istismara verilmişdir. Mingəçevir şəhərində yeni texnologiyaya əsaslanan və məhsuldarlığı sutkada 55 min kubmetr olan sutəmizləyici qurğunun inşası başa çatmışdır. Şəmkir şəhərinin içməli su təchizatının yaxşılaşdırılması məqsədilə 16,5 km uzunluğunda Şəmkirçay-Şəmkir magistral su kəməri tikilib istismara verilmişdir. 2014 cü ildə Kürdəmir, Ucar, Yevlax, Yardımlı, Zaqatala, Füzuli, Tovuz, Quba, Şəmkir, Şəki, Beyləqan rayonlarının 66 min nəfər sakini olan 29 kəndində içməli su təchizatı yaxşılaşdırılmışdır. Hesabat dövründə 866 km içməli su, 285 km kanalizasiya xətləri çəkilmiş, 35 su anbarı və 12 su və kanalizasiya nasos stansiyası tikilmiş, 6 subartezian quyusu qazılmış, 52 mini smart tipli olmaqla 80 mindən çox su sayğacı quraşdırılmışdır. Həmin il ərzində istehlakçılara 289 milyon kubmetr su satılmış, 192 milyon kubmetr həcmində kanalizasiya xidmətləri göstərilmişdir. Göstərilən xidmətlər üzrə yığım səviyyəsi 2,4 faiz artaraq 93,6 faizə yüksəlmiş, abonent sayı 56 min artaraq 1 milyon 377 minə çatmışdır. Təlim-Tədris Mərkəzinin, Suölçən Cihazların Sınağı və Kalibrlənməsi Laboratoriyasının fəaliyyətə başlaması, Mərkəzi Laboratoriyanın akkreditasiya sertifikatı alması ilin əlamətdar hadisələri kimi qeyd olunmuşdur. Ötən il “Azərsu” ASC Böyük Britaniyanın Biwater və onun yerli tərəfdaşı Nobel Oil şirkətləri, eləcə də Azərbaycan Milli Elmlər Akademiyası ilə əməkdaşlıq sazişləri imzalamışdır. 2015-ci ildə Koreyada keçirilmiş VII Dünya Su Forumunda “Azərsu” ASC nümayəndə heyətinin iştirakı və Dünya Su Şurası İdarə Heyətinə üzvlük beynəlxalq əməkdaşlığın genişləndirilməsi baxımından əlamətdar olmuşdur [10].

2014-2015-ci illərdə Azərbaycan Hökumətinin beynəlxalq maliyyə qurumları ilə birgə reallaşdırdığı su və kanalizasiya infrastrukturlarının yenidən qurulması layihəsi üzrə işlər intensiv qaydada davam etdirilmişdir. Asiya İnkişaf Bankı ilə birgə maliyyələşdirilən “Su təchizatı və kanalizasiya investisiya proqramı” çərçivəsində Göyçay, Ağdaş və Beyləqan şəhərlərində yeni infrastrukturların yaradılması istiqamətində ciddi addımlar atılmışdır. Belə ki, Göyçay şəhərində içməli su və kanalizasiya infrastrukturlarının yenidən qurulması işləri tam başa çatdırılmış və 2015-ci ildə açılmışdır (12). Beyləqan şəhərində yeni su mənbəyi yaradılmış, şəhərdaxili su şəbəkəsinin 85 faizi yenidən qurulmuş və yeni şəbəkə ilə istehlakçılara suyun verilməsi təmin olunmuşdur. Bu layihə üzrə Ağdaş və Beyləqan şəhərlərində içməli su şəbəkəsinin tikintisi cari ildə başa çatdırılmışdır. “Su təchizatı və kanalizasiya investisiya proqramı” çərçivəsində Ağcabədi şəhərinin su təchizatı və kanalizasiya sistemlərinin yenidən qurulması işlərinə 2016-cı ildə başlanmışdır. Almaniya İnkişaf Bankının maliyyə dəstəyi ilə həyata keçirilən “Açıq Kommunal İnfrastruktur Proqramı II” çərçivəsində Gəncə şəhərinin əsas su mənbələri olan Göygöl və Qızılqayada suqəbuledici qurğularının və magistral kəmərlərin inşası yekunlaşmış, şəhərə suyun verilməsi təmin edilmişdir [11]. Gəncə şəhərinin bir hissəsində paylayıcı şəbəkə yaradılmış və bu istiqamətdə işlər davam etdirilir. Dünya Bankı ilə birgə maliyyələşdirilən “Milli Su Təchizatı və Kanalizasiya Xidmətləri Layihəsi” çərçivəsində 62 km uzunluğunda Kür sutəmizləyici qurğuları Sabirabad - Saatlı magistral kəmərinin inşası başa çatdırılmışdır. 2014-cü ilin dekabr ayında Sabirabad şəhərinə, 2015-ci ilin əvvəlində isə Saatlı sakinlərinə suyun verilməsi təmin edilmişdir. Gələcək planlamada magistral kəmərin marşrut boyu yerləşən 50 kəndin su təchizatı da öz həllini tapacaqdır. Dünya Bankı ilə birgə reallaşdırılan layihə üzrə Şamaxı və Qəbələ şəhərlərində də işlər davam etdirilmiş, Şamaxıda su təchizatı sistemlərinin 96 faizi, kanalizasiya şəbəkəsinin 87 faizi

tikilmişdir. Qəbələ şəhərində su mənbəyində işlər yekunlaşmış, şəhərdaxili şəbəkənin tikintisi davam etdirilmişdir. Yaponiya Beynəlxalq Əməkdaşlıq Agentliyindən cəlb olunmuş kreditlər hesabına Naftalan şəhərinin su və kanalizasiya şəbəkəsi yenidən qurularaq istismara verilmişdir. Bu layihə çərçivəsində Qusar şəhərində işlərin 80 faizindən çoxu icra edilmiş və ilin sonuna qədər işlərin başa çatdırılması planlaşdırılır. Eyni zamanda Xaçmaz şəhərinin su mənbəyində yenidən qurma işləri yekunlaşmış, şəhərdaxili su və kanalizasiya şəbəkəsinin tikintisi davam etdirilir. Bu layihə çərçivəsində Qobustan şəhərində işlərə 2015-ci ildə başlanmış, Xızı şəhərində isə şəbəkənin yaradılmasına 2016-cı ildə başlanmışdır. “Azərbaycan Respublikası regionlarının 2014-2018-ci illərdə sosial-iqtisadi inkişafı Dövlət Proqramı”nın icrası dövründə İslam İnkişaf Bankı ilə birgə reallaşdırılan “Azərbaycanın 6 rayonunda milli su təchizatı və kanalizasiya proqramı layihəsi”nin icrasına başlanılmışdır. Hazırda Gədəbəy, Astara, Tərtər, Daşkəsən şəhərlərində tikinti işləri davam etdirilir. 2016-cı ildə Gədəbəy və Daşkəsən şəhərlərində su və kanalizasiya şəbəkələrinin tikintisi başa çatdırılmışdır, Qazax şəhərində isə yeni layihənin icrasına başlanmışdır. Son illərin ən böyük infrastruktur layihələrindən olan Ceyranbatan ultrasüzgəcli sutəmizləyici qurğular kompleksinin istismara verilməsi regionların da içməli su təminatının yaxşılaşmasına öz töhfəsini vermişdir. Belə ki, bu kompleks istismara verildikdən sonra Kür sutəmizləyici qurğularından Bakıya ötürülən suyun daha çox hissəsinin regionların təminatına yönəldilməsinə şərait yaranmışdır. İndiyə qədər Şirvan-Muğan qrup su kəməri ilə Şirvan şəhərinin yalnız bir hissəsinə su verilirdisə, hazırda şəhərin əksər hissəsi bu mənbədən qidalanır. Yaxın günlərdə şəhərin təminatı tamamilə Kür mənbəyindən aparılacaqdır ki, bununla da ötən əsrin 50-ci illərində istismara verilmiş, fiziki və mənəvi cəhətdən köhnəlmiş Şirvan su təmizləyici qurğusunun fəaliyyəti tam dayandırılacaqdır [11]. Azərbaycan Respublikası regionlarının 2014-2018-ci illərdə sosial-iqtisadi inkişafı Dövlət Proqramının icrası ilə əlaqədar şəhərlərlə yanaşı, içməli sudan əziyyət çəkən kənd və qəsəbələrdə də həlli vacib layihələr icra edilmişdir. Ötən 2 ildə düşmən mövqeləri ilə üzbəüz kəndlər də daxil olmaqla, Füzuli, Beyləqan, Ağcabədi, Ağdam, Tərtər, Goranboy, Tovuz, Şəmkir, Şəki, Zaqatala, Balakən, Quba, Qusar, Göyçay, Ucar, Kür- də mir, Saatlı, Lənkəran, Yardımlı rayonlarının 51 yaşayış məntəqəsində 120 min nəfərin içməli su problemi öz həllini tapmışdır. Ümumilikdə, Dövlət Proqramı çərçivəsində “Azərsu” ASC tərəfindən regionlarda 2014-2015-ci illərdə 1380 km magistral və şəbəkə su xətləri, 490 km kanalizasiya kollektoru və şəbəkə xətləri, 2 sutəmizləyici qurğu, 61 su anbarı, 7 su, 3 kanalizasiya nasos stansiyası tikilmişdir. Eyni zamanda 16 subartezian quyusu qazılmış, 61 min ədəd smart tipli sayğac quraşdırılmışdır. Görülmüş işlər nəticəsində 226 min nəfər ilk dəfə mərkəzləşdirilmiş qaydada içməli su ilə təchiz edilmiş, rayon mərkəzlərində fasiləsiz su ilə təmin olunanların sayı 625 minə çatdırılmışdır. Bununla da bölgələr üzrə fasiləsiz içməli su ilə təmin olunma səviyyəsi 41,2 faizə, ölkə üzrə isə 64,5 faizə yüksəlmişdir [11].

Böyük Bakı ərazisinin su təchizatı, tullantı və yağış suları sistemlərinin inkişafı üçün 2035-ci ilə hazırlanmış Master Plan regionun su təminatında və kanalizasiya xidmətlərinin yüksək səviyyədə aparılmasına zəmin yaratmışdır. Gələcəkdə hər 10 ildən bir suya olan tələbatının, əhali sayının və digər məsələlərin nəzərdən keçirilməsi, hətta ərazinin 2035-ci ildən sonrakı 30-50 illik perspektiv inkişaf planları da bu Master Planın tövsiyələrindən yararlanacaqdır [12]. 2013-cü ildən Azərsu” ASC-də Master Planın ətraflı təqdimatı lahiyəçi təşkilat tərəfindən keçirilmişdir. Sənədə əsasən 250 km uzunluğunda magistral, 8108 km paylayıcı su şəbəkə, 2329 km yenilənəcək şəbəkə, həcmi 1158 min kubmetr olan su anbarları, 151 km tunel tipli kanalizasiya kollektorları, 682 km kanalizasiya kollektoru, 6395 km kanalizasiya şəbəkəsi, 3378 km yağış kanalizasiya şəbəkəsi, 867 km yağış suları kollektorları və tunelləri, məhsuldarlığı sutkada 1 milyon 375 kubmetr olan 11 ədəd tullantı sutəmizləyici qurğu nəzərdə tutulmuşdur [13]. 2035-ci ili əhatə edən Master Plan üzrə bir çox layihələr tərtib edilmiş və onların əsasında çox

**Cədvəl 1.** Azərbaycanda su resurslarının davamlı idarə edilməsində dövlət layihələri

| **Qurumlar** | **Layihələr** |
|---|---|
| Dövlət Neft Fondu | 154 min hektardan çox əraziyə suvarma suyu çatdırılması |
| "Azərsu" ASC | Yuxarı Şirvan Kanalının yenidən qurulması |
| | Şəhərlərdə fasiləsiz su təchizatı |
| | Sayqaçların quraşdırılması, su itkisinin azaldılması |
| | Ceyranbatan Ultrasüzgəcli Sutəmizləyici Qurğular Kompleksi |
| | Magistral və şəbəkə su xətləri |
| "Meliorasiya və Su Təsərrüfatı" ASC | Yuxarı Mil kanalının tikintisi |
| | Neftçala magistral kanalının tikintisi |
| | Sabirabad rayonunun Sarxanbəyli, Moranlı, Balahəşimxanlı, Əliləmbəyli kəndlərində kanal tikintisi |
| | Araz çayının yeni qolunun tikintisi |
| | Samur-Abşeron suvarma sisteminin yenidən qurulması |
| | Taxtakörpü su anbarı |
| Su ehtiyatları dövlət agentliyi | Sutəmizləyici qurğuların inşası |
| | Su ambarları |
| Azərbaycan Hökuməti ilə Yaponiya Beynəlxalq Əməkdaşlıq Agentliyi | Kiçik şəhərlərdə su təchizatı və kanalizasiya layihəsi |
| Azərbaycan Hökuməti ilə Asiya İnkişaf Bankı | Su təchizatı və kanalizasiya investisiya proqramı |
| Azərbaycan Hökuməti ilə Almaniya İnkişaf Bankı | Açıq Kommunal İnfrastruktur Proqramı I<br>Açıq Kommunal İnfrastruktur Proqramı II |
| Azərbaycan Hökuməti ilə Dünya Bankı | Milli Su Təchizatı və Kanalizasiya Xidmətləri Layihəsi |
| Azərbaycan Hökuməti ilə İslam İnkişaf Bankı | Azərbaycanın 6 rayonunda milli su təchizatı və kanalizasiya proqramı layihəsi |

Mənbə: Azərbaycan Respublikasında kommunal xidmətlərin inkişafına dair Strateji Yol Xəritəsi məlumatlarına əsasən müəllif tərəfindən tərtib edilmişdir.

mühüm və təxirəsalınmaz işlər görülmüşdür. Master Plan hazırlanması ilə paralel olaraq su təmizləyici qurğularında, yeni magistral su kəmərlərinin, regionun şəhər və qəsəbələrində su təchizatı və kanalizasiya şəbəkələrinin yenidən qurulması, əlavə su anbarlarının, nasos stansiyalarının tikintisi aparılmış və digər idarəetmə strukturunda islahatlarının aparılmasına başlanmışdır. Bu layihələr çərçivəsində Abşeron yarımadasında 2100 km-dən artıq magistral və şəbəkə su xətləri, 350 km kanalizasiya kollektoru və xətti tikilmiş, 39 ədəd tənzimləyici su anbarı istifadəyə verilmlşdir. Eyni zamanda 1100-dən artıq çoxmənzilli yaşayış binasının içməli su şəbəkəsi, 4550-dən artıq binanın zirzəmisində kanalizasiya xətləri yenilənmiş, 280 mindən artıq smart tipli sayğac quraşdırılmışdır. Bu binalarda dik dayaq-

ların pilləkən qəfəsinə çıxarılması və smart sayğacların quraşdırılması, su itkilərinin qarşısı alınmış və 100 faiz ödəniş təmin olunmuşdu [12]. İstismara verilən yeni kompleksin məhsuldarlığı saniyədə 6,6 kubmetr və ya sutkada 570 min kubmetr təşkil edir. Gələcəkdə emal gücünü saniyədə 7,5 kubmetrə çatdırmaq mümkündür. Unikallığı ilə seçilən bu kompleks dünyanın ən böyük sutəmizləyici infrastruktur obyektidir. Ümumilikdə kompleksin tərkibi Ceyranbatan gölündən xam suyun götürülməsi məqsədilə tikilən hidrotexniki qurğular, sutəmizləyici qurğunun özü və onun texnoloji, elektro-mexaniki infrastrukturu, emal olunan suyun optimal paylanması məqsədilə relyef baxımından hündürlükdə yerləşən anbarlardan və qurğulardan anbara qədər magistral kəmərlərdən ibarətdir. Qurğuda bütün texnoloji proseslər – suyun həcmi, təzyiqi, emalı, hər bir mərhələdə suyun keyfiyyət göstəricilərinin nəzarətdə saxlanılması tam avtomatlaşdırılıb və bütün proseslər SCADA idarəetmə mərkəzindən aparılır. Ultrasüzgəcli təmizləyici qurğuda emal olan təmiz su yeni inşa edilmiş nasos stansiyası vasitəsilə 11 kilometr uzunluğunda olan kəmərlə nisbətən hündürlükdə yerləşən su anbarına nəql edilir. Suyun optimal paylanması və elektrik enerjisindən asılılığın aradan qaldırılması məqsədilə dəniz səviyyəsindən 118 metr yüksəklikdə 50 min kubmetr həcmində anbar kompleksi inşa olunub. Anbarla Oğuz-Qəbələ-Bakı su kəmərinin bölüşdürücü kamerası ilə əlaqələndirilməsi üçün yeni qaldırıcı nasos stansiyası quraşdırılıb. Beləliklə, bu 2 mənbələrin alternativ istismarına şərait yaratmaqla, Abşeron yarımadasının içməli su təchizatında etibarlılıq təmin olunmuşdu. Kompleksdə emal olunan su istehlakçılara Ceyranbatan-Zirə magistral kəməri ilə ötürülür. Kəmərin 61 kilometrlik Ceyranbatan-Balaxanı-Ramana-Qala hissəsinin tikintisi 2013-cü ildə, 22,5 kilometrlik Qala-Zirə hissəsinin tikintisi isə 2014-cü ildə başa çatdırılıb. Bu kəmərlə ötürülən suyun səmərəli paylanması, bu ərazilərdə əhalinin fasiləsiz su təminatına nail olunması üçün kəmərin marşrutu boyunca tutumu 90 min kubmetr olan Saray, Balaxanı, Ramana, Qala və Zirə anbarları tikilib. Gələcəkdə daha 200 min kubmetr su anbarları tikiləcək ki, bu da paylayıcı şəbəkədə sabit, dayanıqlı hidravlik rejimin təmin olunmasına, qəza və planlı dayanmalar zamanı fasiləsiz su təchizatının aparılmasına imkan verəcəkdir. Xüsusilə qeyd edilməlidir ki, Master Plan layihəsində Bakıətrafı qəsəbə və yeni yaşayış massivlərinin daha keyfiyyətli içməli suya tələbatın ödənilməsi, Kür sutəmizləyici qurğularda emal olunan suyun bir hissəsinin Aran və Muğan bölgəsinə yönəldilməsi (7 rayon mərkəzi və 186 kənd), Ceyranbatan qurğusunun 3-cü növbəsinin köhnəlməsi yeni qurğunun inşasını zəruri etmişdir. Eyni zamanda 2013-cü il sentyabrın 28-də Taxtakörpü su anbarının və Taxtakörpü-Ceyranbatan su kanalının istismara verilməsi, Ceyranbatan gölündə kifayət həcmdə su ehtiyatının yaranması yeni kompleksin daha keyfiyyətli xam su ilə təminatına imkan vermişdir. Yeni kom-pleksin mövcud su mənbələrlə əlaqələndirilməsi, istismarda olan magistral kəmərlərdə qəzalar zamanı su təchizatında dayanıqlığın təmin edilməsi nəzərdə tutulur. Ümumilikdə, Ceyranbatan Ultrasüzgəcli Sutəmizləyici Qurğular Kompleksinin layihəsi çərçivəsində 30 kilometr uzunluğunda müxtəlif diametrli boru, 116 elektronasos aqreqat, 6 güc transformatoru quraşdırılmış və kompleksin 5,6 hektar ərazisində böyük həcmdə abadlıq-quruculuq və yaşıllaşdırma işləri aparılmışdır. Bu layihənin icrası nəticəsində yarımadanın şərq hissəsində mərkəzləşdirilmiş su şəbəkəsi olmayan qəsəbələrin və yeni salınmış yaşayış massivlərinin su problemi birdəfəlik həll ediləcək. Tarixən yeraltı və avtosisternlərlə daşınan sulardan istifadə edən Qala, Şağan, Mərdəkan, Şüvəlan və Binə qəsəbələri, həmçinin Binəqədi, Mehdiabad, Digah, Məhəmmədi, Balaxanı, Ramana, Zabrat, Sabunçu, Yeni Suraxanı, Hövsan yaşayış massivlərinin su təminatı xeyli yaxşılaşdırılıb. Türkan və Zirə qəsəbələlərində yeni mərkəzləşdirilmiş su şəbəkəsi yaradılmış və 2015-ci ilin noyabr ayında qəsəbələrə içməli suyun verilməsinə başlanmışdır. Yuxarıda göstərilən qəsəbələrdə, gələcəkdə əhali artımını nəzərə almaqla, hazırlanmış layihələrə uyğun mərkəzləşdirilmiş içməli su şəbəkəsinin yaradılması üzrə işlər davam etdirilir. Koreya Beynəlxalq Əməkdaşlıq Agentliyi ilə birgə həyata keçirilmiş layihə çərçivəsində

Kürdəxanı qəsəbəsində mərkəzləşdirilmiş su şəbəkəsinin tikintisi başa çatmış və 2014-cü ildə 20 minədək qəsəbə sakinləri 24 saat fasiləsiz içməli su ilə təmin olunub. Baki şəhərinin şərq hissəsinin içməli su təchizatında müstəsna əhəmiyyəti olan 41 Şərq və 82 Şərq anbarlar kompleksində aparılmış yenidənqurma işləri nəticəsində şəhərin Nizami, Xətai, Suraxanı və Sabunçu rayonlarının əksər hissələri fasiləsiz rejimdə içməli su ilə təmin edilib. 2015-ci ildə Səudiyyə İnkişaf Fondu tərəfindən maliyyənləşdirilən Badamdar qəsəbəsinin su təchizatı və kanalizasiya sistemlərinin yenidən qurulması layihəsinin icrasına başlanmış və işlər sürətlə davam edilir. Bakı şəhərinin digər rayonlarında, eləcə də Sumqayıt və Xırdalan şəhərlərin su təchizatı və kanalizasiya şəbəkələrində əsaslı yenidənqurma işləri aparılır [12]. Master Plana əsasən Abşeron yarımadasında kanalizasiya infrastrukturunun inkişafı istiqamətində də mühüm tədbirlər həyata keçirilir. Ötən müddətdə yeni kollektor və xətlərin, çirkab sutəmizləyici qurğuların tikintisi, mövcud xətlərin rekonstruksiyası, göstərilən xidmətlərin keyfiyyətinin yüksəldilməsi istiqamətində əhəmiyyətli addımlar atılıb. Yarımadada formalaşan tullantı suların nəql olunması ilk növbədə 150 kilometr uzunluğunda tunellər və mikrotunellər layihələndirilmişdir. İnnovativ texnologiyalardan istifadə etməklə Dərnəgül-Bakıxanov-Günəşli (1254 min nəfərə xidmət edəcək), Bayıl-Bibiheybət-Lökbatan (382 min nəfərə xidmət edəcək), Xocasən-Biləcəri-Xırdalan (626 min nəfərə xidmət edəcək) və Zabrat-Kürdəxanı-Pişağı (219 min nəfərə xidmət edəcək) tunellərin inşası aparılır. Sumqayıt-Buzovna və Şüvəlan tullantı sutəmizləyici qurğuların, Novxanı-Sumqayıt kanalizasiya kollektorunun inşası, mövcud kanalizasiyaların rekonstruksiyası Xəzər dənizinə təmizlənmədən atılan tullantı sularının həcmini əhəmiyyətli dərəcədə azaltmışdır. 2015-ci ildə 14 kilometrlik Bayıl-Bibiheybət-Lökbatan kanalizasiya tuneli tikilmiş, Lökbatan tullantı suları təmizləyici qurğular kompleksinin ərazisində yeni nasos stansiyası quraşdırılmışdır [12]. Böyükşor gölünün, Su İdman Sarayının ətrafında və digər ərazilərdə kanalizasiya sistemlərinin tikintisi və yenidən qurulması işləri həyata keçirilmişdir. Bakı buxtasına və Böyükşor gölünə axıdılan tullantı suların qarşısı tam alınmışdır. Yarımadanın qəsəbə və kəndlərində, hazırlanmış layihələrə uyğun mərkəzləşdirilmiş kanalizasiya şəbəkələrinin tikintisi davam edir. Yeni inşa edilmiş və 2013-cü ildə istismara verilmiş Mərkəzi Laboratoriya ən müasir avadanlıq və texnologiyalarla təchiz olunmuş, burada 138 parametr, o cümlədən içməli suyun 84, tullantı sularının 54 parametri üzrə tədqiqatlar aparılır. Burada Abşeron yarımadasını içməli su ilə təmin edən mənbələr, su təmizləyici qurğular, su anbarları, həmçinin bütün kateqoriyalar üzrə su istehlakçıları daxil olmaqla 1800-dək ünvandan götürülən nümunələrin təhlili (analizi) aparılır. Yeni laboratoriya respublikanın istənilən bölgəsində və şəraitdə analizlərin aparılması imkanları da təmin edilmişdir. Bu məqsədlə səyyar laboratoriya kimi fəaliyyət göstərən 2, su nümunələrinin daşınması üçün isə 4 xüsusi təyinatlı nəqliyyat vasitəsilə rayon mərkəzlərində su nümunələrinin analizləri aparılır.

**Ədəbiyyat:**


1. Azərbaycan Respublikasi Milli Su Strategiyası, 2016.
2. Azərbaycan Respublikasında kommunal xidmətlərin (elektrik və istilik enerjisi, su və qaz) inkişafına dair Strateji Yol Xəritəsi.
3. Azərbaycanda ətraf mühitin vəziyyəti və görülmüş işlərə dair məlumat / Azərbaycan Respublikası Ekologiya və Təbii Sərvətlər Nazirliyi. (2008-2012-ci illər)
4. İlham Əliyev (Yanvar, 2017), Regionların 2014-2018-ci illərdə sosial-iqtisadi inkişafı Dövlət Proqramının icrasının üçüncü ilinin yekunlarına həsr olunmuş konfransdakı nitqi
5. Ələkbərov U.K. İnnovativ idarəetmə siyasəti Azərbaycan Respublikasının iqtisadi və sosial inkişafının təminatçısı kimi. Dövlət İdarəçiliyi, Nəzəriyyə və təcrübə. №4, 2016. s. 27.

6. Elshan Ahmadov. Water resources management to achieve sustainable development in Azerbaijan. Elsevier, Sustainable Futures 2, 100030 https://www.sciencedirect.com/science/article/pii/S266618882030023X
7. Elshan Ahmadov (2016) / Sustainable governance of water resources in Azerbaijan / Materisals of Republican scientific-practical conference. Academy of Public Administration under the President of the Republic of Azerbaijan. Baku. pp.32-48.
8. Su Problemləri Elm və Texnologiyalar, Beynəlxalq resenziyalı elm jurnalı. № 3 2016, Qusarın içməli su təchizatı və kanalizasiya sistemlərinin yenidən qurulması layihəsi başa çatıb, Rəsmi. s. 14.
9. Su Problemləri Elm və Texnologiyalar, Beynəlxalq resenziyalı elm jurnalı. № 3 2016, Qobustan şəhərində içməli su təchizatı və kanalizasiya sistemlərinin yenidən qurulmasılayihəsinin icrası uğurla davam etdirilir, Layihələr. S. 23
10. Su Problemləri Elm və Texnologiyalar, Beynəlxalq resenziyalı elm jurnalı. № 1, 2016, "Azərsu" Açıq Səhmdar Cəmiyyətində 2015-ci ilin yekunlarına və 2016-cı ildə qarşıda duran vəzifələrə həsr olunmuş iclasın hesabatı. S. 10-11.
11. Su Problemləri Elm və Texnologiyalar, Beynəlxalq resenziyalı elm jurnalı. № 1, 2016, "Azərsu" Açıq Səhmdar Cəmiyyətində 2015-ci ilin yekunlarına və 2016-cı ildə qarşıda duran vəzifələrə həsr olunmuş iclasın hesabatı. S. 13-14.
12. Su Problemləri Elm və Texnologiyalar, Beynəlxalq resenziyalı elm jurnalı. № 1, 2016, "Azərsu" Açıq Səhmdar Cəmiyyətində 2015-ci ilin yekunlarına və 2016-cı ildə qarşıda duran vəzifələrə həsr olunmuş iclasın hesabatı. S. 67-70.
13. "Tekno Yapı" İnşaat Sənaye ve Ticarət A.Ş. /Türkiyə/ "Abşeron yarımadasının içməli su təchizatı, kanalizasiya və yağış suları sisteminin 2035-ci ilə Master Planı". Bakı 2013-cü il.
14. Azərbaycan Respblikasının Dövlət Statistika Komitəsi http://www.stat.gov.az/source/environment

***Açar sözlər:*** *su resursları, davamlı idarəetmə, səmərəlilik, dövlət xidməti, keyfiyyət*

**Ahmadov Elshan**
*The Academy of Public Administration under the President of the Republic of Azerbaijan*
*Ph.D. in Economics, Associate Professor*

## IMPROVEMENT OF QUALITY OF STATE SERVICES IN THE FIELD OF SUSTAINABLE MANAGEMENT OF WATER RESOURCES

### ABSTRACT

Public service is indispensable in every country's socio-political and socio-economic fields. This article examines the role of public service, which is necessary for the development of sustainable economic development of each country. The author focuses on the management of renewable resources. Renewable water resources are vital for society and the development of all sectors of the economy. The role of public services in its management is indispensable. This article also analyzes the direction of improving the quality of public services in water resources management to achieve the goals of social and economic development in a rapidly changing world and Azerbaijan. A strategic road map is being studied in the state system of water resources management. Water security is one of the strategic issues, as well as energy, food, and transport security. In modern developed countries, the concept of eco-civilization has become the main source

of the economy. The country's economy must constantly develop, legislative reforms must be implemented, and economic decisions must be regulated within this framework.

Further, the author analyses the measures within the framework of the strategic road map of the Republic of Azerbaijan. Among them - are water supply and disposal, investments in water infrastructure, availability of water-saving technologies, sewage level, strategic goals, and expected results. At the end of the article, there was the presence of differentiation, government programs, and projects considering groups of consumers and regions.

***Keywords:*** *water resources, sustainable management, efficiency, public service, quality*

**Эльшан Ахмадов**
*Доцент кафедры «Планирование и управление устойчивым развитием»*
*Академии Государственного Управления при Президенте Азербайджанской Республике,*
*доктор философии по экономике*

## ПОВЫШЕНИЕ КАЧЕСТВА ГОСУДАРСТВЕННЫХ УСЛУГ В ОБЛАСТИ УСТОЙЧИВОГО УПРАВЛЕНИЯ ВОДНЫМИ РЕСУРСАМИ

## РЕЗЮМЕ

Государственная служба играет незаменимую роль во всех социально-политических и социально-экономических областях каждой страны. В данной статье рассматривается роль государственной службы, которая необходима для развития устойчивого экономического развития каждой страны. Основное внимание здесь уделяется управлению возобновляемыми ресурсами, в том числе водными ресурсами. Возобновляемые водные ресурсы необходимы как для общества, так и для развития всех секторов экономики. Роль государственных услуг в управлении ими является незаменимой. В работе также анализируется направление повышения качества государственных услуг в управлении водными ресурсами, для достижения целей социально-экономического развития в быстроменяющемся мире и в Азербайджане. Изучается стратегическая «дорожная карта» в государственной системе управления водными ресурсами. Для каждой страны водная безопасность является одной из стратегических проблем, таких как энергетика, продовольствие и транспортная безопасность. В современных развитых странах концепция экоцивилизации стала основным источником экономики. Экономика страны должна постоянно развиваться, законодательные реформы должны быть реализованы, а экономические решения должны регулироваться в этих рамках. Далее автором были проанализированы меры, принятые в рамках стратегической дорожной карты Азербайджанской Республики. Среди них – водоснабжение и водоотведение, инвестиции в водную инфраструктуру, наличие водосберегающих технологий, уровень сточных вод, а также стратегические цели и ожидаемые результаты. В конце статьи было представлено наличие дифференциации государственных программ и проектов с учетом групп потребителей и регионов.

***Ключевые слова:*** *одные ресурсы, устойчивое управление, эффективность, государственная служба, качество*

# H Ü Q U Q
# L A W

UOT 341

**BƏXTİYAR ASLANBƏYLİ**
**BP şirkətinin Xəzər bölgəsində**
**Xarici əlaqələr və kommunikasiya üzrə vitse-prezidenti**
*e-mail: aslanbayli@yahoo.com*

## BEYNƏLXALQ VƏ DÖVLƏTDAXİLİ HÜQUQDA İKİQAT VERGİTUTMANIN QARŞISININ ALINMASI PROBLEMİ

Xarici iqtisadi fəaliyyət dövlətlərin yerli iqtisadi sistemləri arasında təsərrüfat münasibətlərinin vəhdətini formalaşdırır. Bu cür fəaliyyət istehsalın və ümumilikdə təsərrüfat sferasının beynəlxalq səviyyədə ixtisaslaşması ilə nəticələnir. Xarici iqtisadi fəaliyyətin əsas növləri, nailiyyətləri və perspektivləri beynəlxalq əmək bölgüsünün inkişafı ilə şərtlənir. Hazırda qloballaşma və regional iqtisadi inteqrasiya proseslərinin dərinləşməsi danılmaz bir faktdır. Beynəlxalq iqtisadi qaydanın müəyyənləşdirilməsində üstün mövqe beynəlxalq kapitala aiddir.

Hazırda qloballaşma, beynəlxalq ticarətin dinamikası, ticarət təchizatı zəncirinin texniki xüsusiyyətləri, siyasətin yeni istiqamətləri və qlobal landşaftın mürəkkəbliyi kimi məsələlərin anlamı tələb olunur. Son dərəcə əhəmiyyətlidir ki, biz daha yüksək intellektual nəticə və analizi həvəsləndirək və stimullaşdıraq. Yeni və yaranmaqda olan problemlər bizim gələcək inkişafımıza təsir göstərəcək və daha aktiv, konkretləşmiş yanaşma tələb edəcək.

Qloballaşma şəraitində dövlətlər arasında iqtisadi sahədə əməkdaşlıq ticarət, maliyyə, investisiya, gömrük və s. kimi münasibətləri əhatə etməklə, mürəkkəb bir sistemi təşkil edir və daim inkişafda olduğundan yeni yanaşma və tənzimləmə mexanizmlərini tələb edir. Qloballaşma digər sahələrlə müqayisədə, iqtisadi münasibətləri daha çox əhatə edə bilmişdir.

İqtisadiyyatın qloballaşmasının əsasında təsərrüfatın beynəlmiləlləşməsi və inteqrasiya prosesi dayanır. Hər iki proses yekunda vahid norma və qaydaların formalaşmasına səbəb olur. Bu isə öz növbəsində beynəlxalq iqtisadiyyatın daha effektiv şəkildə inkişafına və dövlətlərin bu inkişafdan səmərəli şəkildə faydalanmasına imkan verir. Müasir dövrdə iqtisadiyyatın qloballaşması daha intensiv xarakter almışdır. Belə bir durumda dövlətlər həm öz milli iqtisadi maraqlarını, həm də beynəlxalq təsərrüfatın inkişafını nəzərə almalı, bu proseslərin neqativ nəticələrə yol açmayan qayda və prinsiplərini yaratmağa birgə səy göstərməlidirlər.

Qloballaşma və iqtisadi inteqrasiya proseslərinin inkişaf etdiyi bir zamanda neqativ nəticələrə yol açan məsələlərdən biri ikiqat vergitutma problemidir.

XIX əsrin hüquq təfəkküründə belə bir fikir formalaşmışdı ki, "beynəlxalq münasibətlərin müasir inkişafı, hər bir ölkədə çoxlu əcnəbilərin olması, bir şəxsin uzun illər öz əmlakından fərqli yerdə olması, gəlir vergisi rahatlıqlarından istifadə edən çoxlu sayda şəxslərin bu dövlətdə vergilərin ödənilməsinə cəlb olunmasına imkan vermir". Hüquq elminin mütəxəssisləri bu problemə diqqət çəkməklə yanaşı, ikiqat vergitutmanın həddindən artıq olması ilə bağlı xəbərdarlıq da edirdilər.

Hələ o zaman ikiqat (və ya çox) vergitutma probleminin artıq formalaşması aydın şəkildə göstərirdi ki, subyekt öz hərəkətlərini müəyyən şəkildə hüquqi cəhətdən strukturlaşdıraraq və onları sənədləşdirərək tələblərdən yayınaraq həm yaşadığı (daimi yaşayış yeri), həm də

gəlir (mənfəət) mənbəyinin dövlətindən, əmlakının yerləşdiyi yerdən hüquqi əlçatmazlıq vəziyyətində qalır.

İkiqat vergitutma problemi XIX əsrin ikinci yarısından özünün ilk rəsmi-hüquqi formasını əldə etsə də, XX əsrin ikinci yarısında beynəlxalq səviyyədə aktuallaşmağa başlamışdır. Bu problem yalnız bizneslə məşğul olan şirkətlərə aid deyil, həm də başqa bir dövlətdə torpaqlarından və ya gəlirlərindən vergi tutulduqda fiziki şəxslər də bu problemin obyektinə çevrilirlər. Dövlətlərin vergi sistemləri və qaydaları bir-birindən fərqləndiyinə görə, ikiqat vergitutma probleminin mövcudluğu da davam edir. Məsələ burasındadır ki, hər bir dövlət yaşayış yeri (rezidentlik), mənşə dövləti, ərazi prinsipləri kimi elementlərin müəyyən edilməsində öz suverenliyini həyata keçirməyə çalışır .

İkiqat vergitutma zamanı iki fərqli dövlət eyni vergi ödəyicisindən eyni zaman kəsiyində və eyni obyektə görə vergi tuturlar. Bununla bərabər ikiqat vergitutmanın yaranması üçün aşağıdakı elementlərin mövcudluğu da mütləqdir:

1) yaranmış vergi münasibətlərində xarici elementin iştirakı;

2) rezidentlik və ərazi prinsiplərinin mövcudluğu nəticəsində yaranan və bir-biri ilə toqquşan müstəqil hüquqi təşəbbüslər;

3) vergi problemlərinin həlli üzrə dövlətlər arasında ikitərəfli və ya çoxtərəfli razılaşmanın olmaması.

XIX əsrin ikinci yarısında dövlətlər ikiqat vergitutmanın qarşısının alınması üzrə əməkdaşlıq prosesinə başladılar, çünki bu dövr dünya bazarlarının qloballaşması və şirkətlərin transmilli fəaliyyəti kimi amillərlə səciyyələnir. Bu dövrdə dünyanın aparıcı ölkələri öz nəzarətlərində olan ərazilərdə milli təsərrüfatların öz versiyalarını tətbiq etməyə başladılar və metropoliyalar arasında iqtisadi əlaqələrin sürətli inkişafı başladı.

Milli şirkətlərin iqtisadi genişlənməsi və vətəndaşların xarici mənbələrdən gəlir əldə etmələri, habelə xaricdə əmlaka sahib olmaq imkanları nəticəsində dövlətlərin hökumətləri öz vətəndaşlarının və şirkətlərinin xarici gəlirlərindən və əmlakından vergi almaqda maraqlı olmağa başladılar, bu isə istər-istəməz ikiqat vergitutmanın yaranmasına səbəb oldu.

Beləliklə, vergi sahəsində beynəlxalq əməkdaşlığın əsas məqsədlərindən biri ikiqat vergitutmanın qarşısını almaq üçün hüquqi mexanizmlərin yaradılması olmuşdur. Təcrübə göstərir ki, dövlətlərin hüquqi və vergi tarixlərində, vergi siyasətlərində, vergi siyasətinin müxtəlifliyi ilə əlaqədar yaranan vergitutma sistemlərinin müxtəlifliyi səbəbindən dövlət tərəfindən həyata keçirilən birtərəfli tədbirlər ikiqat vergitutmanı tamamilə aradan qaldırmaq və ya onun nəticələrini yüngülləşdirmək iqtidarında deyil.

Bütün bu fərqlər ölkənin xarici sərmayənin təşviqinə yanaşmasında, vergi tutulan gəlirin səciyyələndirilməsində və hesablanmasında və bu gəliri bölüşdürmək üçün istifadə olunan müxtəlif üsullarda əks olunur. Vergitutma sistemlərinin getdikcə mürəkkəbləşməsi və vergilərin müxtəlifliyi nəticəsində yuxarıda göstərilən problemin həllinə birtərəfli yanaşma ilə beynəlxalq ikiqat vergitutmanın tam effektiv şəkildə aradan qaldırılmasına nail olmaq getdikcə çətinləşir.

Müxtəlif sahələrdə dövlətlərarası münasibətlərin dərinləşməsi, artıq bir çox problemlərin dövlətdaxili səviyyədən beynəlxalq sferaya qalxması, ölkə sərhədlərini aşan məsələlərin sayının çoxalması qloballaşmaya yol açmışdır. Dövlətlər arasında ticarət münasibətlərinin tənzimlənməsində yeni mexanizmlərdən istifadə dünya dövlətlərinin iqtisadiyyatına həm mənfi, həm də müsbət təsir göstərmişdir [13, 70]. Belə bir şəraitdə ölkənin iqtisadi sabitliyinin, daxili bazarın və milli istehsalın qorunub saxlanması, xarici rəqabətə tab gətirməsi mühüm əhəmiyyət kəsb edən problemlərdəndir.

Ümumdünya iqtisadi, siyasi, mədəni və dini inteqrasiya və unifikasiya prosesi kimi meydana çıxmış qloballaşma bir-biri ilə beynəlxalq əmək bölgüsünün sistemi tərəfindən bağlanan milli təsərrüfatların məcmusu kimi dünya iqtisadiyyatı strukturunun dəyişikliyi prosesini, iqtisadi və siyasi münasibətləri təşkil edir. Bu əsasda vahid dünya şəbəkəsinin bazar iqtisadiyyatı formalaşır. Belə formalaşma əsrlər

boyunca beynəlxalq münasibətlərin əsas hərəkətverici qüvvəsi olmuş dövlətlərin milli suverenliyinin aradan qalxmasına və geoiqtisadiyyata yol açır.

Dünya iqtisadiyyatında baş verən dəyişikliklər öz növbəsində bu münasibətlərin xarakter və dinamikasına da təsir göstərir. Beynəlxalq iqtisadi münasibətlər daha yaradıcı xarakter almaqla, müasir çoxqütblü dünyanın yoxsulluq, iqlim dəyişkənliyi, enerji ehtiyatları ilə təminat kimi qlobal problemlərinin həllinə yönəlmişdir[6, 101-124]. İstehsalın inkişaf qanunauyğunluğu və beynəlxalq əmək bölgüsü bütün dünya dövlətlərinin obyektiv şəkildə beynəlxalq iqtisadi münasibətlərin əhatə dairəsinə daxil olmasına səbəb olmuşdur. Müasir istehsalın beynəlxalq xarakteri qlobal iqtisadiyyat təzahürünə gətirib çıxarır. İkitərəfli münasibətlər artıq öz yerini çoxtərəfli münasibətlərə vermişdir.

İkiqat vergitutmanın aradan qaldırılması asan həll variantları olan problem deyil, bu problemin həllində ayrıca dövlətlərin təşəbbüsləri kifayət etmədiyi üçün, bu sahədə dövlətlər arasında beynəlxalq əməkdaşlığa daim obyektiv bir ehtiyac duyulur. İkiqat vergitutmanın aradan qaldırılmasına çoxsaylı məsələlər maneə yaradır, onların arasında aşağıdakıları xüsusilə vurğulamaq gərəkdir.

Birincisi, beynəlxalq və milli müstəvidə fikir müxtəliflikləri qeyd edilməlidir. Beynəlxalq səviyyədə istənilən dövlət vergi dərəcələrini artırmaq və xaricdəki rezidentlərinə əlverişli imkanlar yaratmağa meyl edir. Ölkə səviyyəsində adətən vergi xidməti ilə vergi ödəyiciləri arasında münaqişələr yaranır. Belə olan halda dövlət həm vergi ödəyiciləri üçün sərfəli imkanlar yaratmalı, eyni zamanda büdcəyə daxilolmaları da təmin etməlidir.

İkincisi, dövlətin vergi yurisdiksiyasına məhdudiyyətlərin qoyulması. Burada söhbət ondan gedir ki, müvafiq dövlət digər dövlətin öz hüdudları daxilində vergi tutmaqla bağlı suveren hüququnu qəbul edərək, özünün vergi tutma hüququnu dayandırır. Ümumi anlamda, dövlətlərin vergi suverenliyi konstitusion hüquq normalarından kənarda qaldıqca, müdafiə imkanlarını da itirir, başqa sözlə, vergi yurisdiksiyası və suverenliyi daha çox dövlətdaxili hüquq normalarına söykənir [4, 98-103].

Üçüncüsü, zəruri həll variantlarının, qaydaların qəbulu prosedurlarının mürəkkəbliyi. Belə ki, hər bir dövlət öz vergi sisteminə uyğun şəkildə düzəlişlər aparır, sonra isə həmin düzəlişləri digər dövlətlə razılaşdırmalı olur, nəticədə müvafiq düzəlişlər dövlətdaxili səviyyədə realizə olunmalıdır. Bütün bu məsələlər çətin və kifayət qədər zaman və resurs xərclənməsini tələb edir.

Dördüncüsü, dövlətlər arasında ticari-iqtisadi maraqların tarazlaşdırılması və bu sferada razılaşmaların əldə edilməsi. Məsələn, bu və ya digər dövlətə xarici sərmayələrin cəlb edilməsi məsələsi, bu zaman xarici sərmayədarların hüquq və maraqlarının müdafiəsi üçün ən ümdə məsələlərdən biri, bəlkə də birincisi məhz vergilərin azaldılmasıdır, ancaq vergilərin azaldılmasını qəbul edən dövlətin büdcəsinə və ümumilikdə iqtisadi maraqlarına mənfi təsirləri də nəzərə alınmalıdır.

Beşincisi, dövlətlərin arasında olan iqtisadi inkişaf fərqləri və texniki sahədə meydana çıxan problemlər.

Hazırda ikiqat vergitutmanın aradan qaldırılması probleminin hüquqi tənzimlənməsi məsələsində dövlətdaxili vergi yurisdiksiyalarının fərqliliyi birinci dərəcəli əhəmiyyətə malikdir. Beynəlxalq iqtisadi münasibətlərin inkişafı daxili iqtisadiyyatların bir-birləri ilə qarşılıqlı əlaqəsi və bir-birlərinə qarşılıqlı təsirini artırmışdır. Milli vergi yurisdiksiyaları də qeyd edilən məsələlərə uyğun dəyişdirilir və inkişaf edir. Müasir dünyada ticarət və investisiya münasibətlərinin intensiv inkişafı milli vergi yurisdiksiyalarının dəyişdirilməsi və bir-birlərinə uyğunlaşdırılması zərurətini yaradır. Milli vergi yurisdiksiyalarının təkmilləşdirilməsi və ya müasirləşdirilməsi dedikdə, ilk növbədə ikiqat vergitutmanın aradan qaldırılması məsələsi gündəmə gəlir. Bu problemin həllində dövlətlərarası beynəlxalq əməkdaşlıq mütləq şərtdir.

Dövlətlər tərəfindən vergitutma haqqında beynəlxalq müqavilələr bağlamaq və daxili qanunvericiliyin təkmilləşdirilməsi yolu ilə ikiqat vergitutmadan azad edilmiş fiziki və

hüquqi şəxslərin vergi yükünün azaldılması yolu ilə investisiya fəaliyyəti stimullaşdırılır.

Beynəlxalq müqavilələrin imzalanması təkcə kapitalın xalis idxalçısı kimi çıxış edən ölkələr üçün faydalı deyil, çünki belə sazişlərin imzalanması xarici investorların sayının artması və müvafiq olaraq ümumi vergitutma bazasının yaradılması ilə bağlıdır. Eyni zamanda, kapital donorları olan ölkələr də ikiqat vergitutmanın aradan qaldırılmasına dair müqavilələrin köməyi ilə öz transmilli korporasiyalarının xarici bazarlarda mövqelərini gücləndirirlər.

Həmçinin, sazişlərdə iştirak edən ölkələrin hakimiyyət orqanları onların köməyi ilə vergidən yayınma hallarının qarşısını almağa, xüsusən də qeyri-bazar qiymətlərinin istifadəsi səbəbindən şirkətdaxili mənfəətin yenidən bölüşdürülməsi zamanı transfer qiymətlərinin mümkünlüyünü istisna etməyə çalışırlar [1, 92-111].

T.Riksen ikiqat vergitutma probleminin həllinə üç mümkün yanaşma irəli sürür:

1) dövlətlər ümumi vergi bazası, dərəcəsi və vergi inzibatçılığı haqqında razılığa gəldikdə, beynəlxalq səviyyədə transmilli sahibkarlıq fəaliyyətindən əldə edilən gəlirin vergiyə cəlb edilməsi;

2) ikinci yanaşma İƏİT Model Konvensiyasında təklif edilmişdir;

3) transmilli şirkətlər mənfəətin mütənasib bölüşdürülməsi düsturundan və müvafiq olaraq dövlətlər arasında vergi məbləğindən istifadə etməklə unitar vergiyə cəlb olunduqda baş verə bilən aralıq, müvəqqəti variant. Eyni zamanda, dövlətlər öz ölkələrinə milli vergi dərəcələrini tətbiq etməkdə sərbəstdirlər[11].

Bu aspektdə 2011-ci ildə Avropa Komissiyası tərəfindən bir neçə Avropa İttifaqı üzv-dövlətində fəaliyyət göstərən şirkətlər üçün ümumi vergi hesablama sistemi kimi təklif edilmiş Vahid Konsolidə edilmiş Korporativ Vergi Bazasının Layihəsi daha geniş yayılmışdır. Layihə aşağıdakıları nəzərdə tutur: a) vergitutma bazasının müəyyən edilməsi üçün vahid alqoritm (o cümlədən Avropa İttifaqı üzv-dövlətlərində mənfəət və zərərlərin konsolidasiyası); b) bir dövlətin vergi orqanına vahid bəyannamənin təqdim edilməsi; c) könüllülük əsasında istifadə; d) müəyyən ölkədə aktivlərin dəyərini, əmək xərclərini, satışları nəzərə alan düstura görə vergi bazasının biznesin aparıldığı Avropa İttifaqına üzv-dövlətlərdəki paylara bölünməsi; e) hər bir Avropa İttifaqı üzv-dövlətinin vergi dərəcəsini təyin etmək hüququnun qorunması[14].

Vergi hüquq üzrə məşhur mütəxəssislərin (K.Vogel, D.V.Vinnitski) qənaətincə, "mövcud beynəlxalq hüquq hətta ikiqat hüquqi vergitutmanı aradan qaldırmaq üçün dövlətlərə hüquqi öhdəlik qoymur", baxmayaraq ki, milli qanunvericilikdə başqa qaydalar da ola bilər. R.Marta həmçinin belə bir yanaşmaya riayət edir ki, beynəlxalq vergi hüququnda eyni subyektin gəlirinin gəlir mənbəyi və rezident olduğu dövlətlərdə eyni vaxtda vergiyə cəlb edilməsinə qadağa yoxdur[9, 16-17]. Digər qrup müəlliflər isə hesab edirlər ki, "dövlətlər eyni vaxtda eyni şəxsə və eyni obyektə öz vergilərini tətbiq etsələr, onların praktikasının beynəlxalq hüquqa nə dərəcədə zidd olması və dövlətlərin vergiləri nə dərəcədə genişləndirməkdə sərbəst olması sualına birmənalı cavab vermək mümkün deyil.

Həqiqətən də, beynəlxalq vergi hüququnda biz eyni müəssisənin gəlirlərinin gəlir mənbəyi və rezident olduğu dövlətlərdə eyni vaxtda vergiyə cəlb edilməsinə dair açıq qadağaya rast gəlməyəcəyik. Reallıq ondan ibarətdir ki, fiziki və hüquqi şəxslər müvafiq dövlətlərin yurisdiksiyası altındadır və bir qayda olaraq, müraciət çərçivəsindən başqa, transsərhəd əməliyyatlardan əldə etdikləri gəlirlərin ikiqat vergitutmadan yayınmaq imkanından məhrumdurlar. İqtisadi baxımdan arzuolunmaz olan ikiqat vergitutma birtərəfli, ikitərəfli və çoxtərəfli hüquqi mexanizmlərin işlənib hazırlanmasını tələb edir. İkiqat vergitutmanın aradan qaldırılması həm milli vasitələrlə, həm də xüsusi beynəlxalq müqavilələr çərçivəsində həyata keçirilə bilər.

İkiqat vergitutmanın aradan qaldırılması mexanizminin işlənib hazırlanmasında iki əsas yanaşmadan istifadə olunur.

Birinci yanaşma ərazi bağlılığına əsaslanır. Ərazi bağlılığı o deməkdir ki, dövlət yalnız öz ərazisində əldə edilmiş gəlirləri vergiyə cəlb edir, onun ərazisindən kənarda əldə edilən

bütün digər gəlirlər isə vergiyə cəlb edilmir. Bu yanaşmanın həyata keçirilməsində problem ondan ibarətdir ki, ölkələr müəyyən fəaliyyət və gəlirlərin ərazi əlaqəsini müəyyən etmək üçün müxtəlif meyarlardan istifadə edirlər.

İkinci yanaşma rezidentliyə əsaslanır (və ya başqa şəkildə buna daimi yaşayış yeri deyilir). Bu yanaşmaya görə, müəyyən ölkənin rezidenti həm bu ölkənin ərazisində, həm də xaricdə əldə etdiyi bütün gəlirlərindən vergiyə cəlb edilir. Yaşayış statusu fiziki və hüquqi şəxslərə münasibətdə ölkənin daxili qanunvericiliyi ilə müəyyən edilir. Öz növbəsində, fiziki şəxslər, bir qayda olaraq, vətəndaşlıqlarına uyğun olaraq, hüquqi şəxslər isə qeydiyyat yeri, əsas fəaliyyətini həyata keçirdikləri yer və digər amillərə uyğun olaraq rezident statusu alırlar.

Əgər bütün ölkələr konkret bir yanaşma tətbiq etsəydilər, onda ikiqat vergitutmanın aradan qaldırılmasına ehtiyac qalmazdı. Lakin, bir qayda olaraq, bir çox ölkələr hər iki yanaşmanı birləşdirir, çünki qeyri-bərabər iqtisadi inkişaf səbəbindən heç bir dövlət həm rezidentlərinin əldə etdiyi gəlirdən, həm də onun ərazisində yaranan gəlirdən vergitutmadan tamamilə imtina etməyəcək.

Milli vergi sistemlərinin müxtəlifliyi müasir dövrdə ikiqat vergitutmanın aradan qaldırılmasının hüquqi tənzimlənməsində ən mühüm məsələlərdən biridir. Dünya iqtisadiyyatının inkişafı milli iqtisadiyyatların qarşılıqlı əlaqəsini və qarşılıqlı asılılığını müəyyən edir. Daxili vergi sistemləri də bu proseslərdən kənarda deyil. Hazırkı ticarət və investisiya əlaqələrinin dinamik inkişafı milli vergi sistemlərinin təkmilləşdirilməsini və əlaqələndirilməsini tələb edir. Söhbət milli vergi sistemlərinin təkmilləşdirilməsindən və ya müasirləşdirilməsindən gedirsə, ortaya çıxan ilk sual ikiqat vergitutmanın aradan qaldırılmasıdır. Bu problemin həlli beynəlxalq əməkdaşlıq çərçivəsində həyata keçirilə bilər.

Hal-hazırda ikiqat vergitutmanın aradan qaldırılmasına dair ümumi yanaşmalar, həmçinin ikiqat vergitutmanın aradan qaldırılmasına dair sazişlər əsasında və çərçivəsində bağlanan Model Konvensiyalar daim işlənib hazırlanır və həyata keçirilir. İkiqat vergitutma müqavilələri əksər dövlətlər üçün faydalıdır, ona görə ki, onlar beynəlxalq biznesə cəlb olunmuş fiziki və hüquqi şəxslərdən fayda əldə etmək üçün müəyyən dərəcədə inamla əməliyyatlar aparmağa imkan verir. Mübahisələrin və fikir ayrılıqlarının həlli həm də ikiqat vergitutmanın aradan qaldırılmasına dair sazişlər bağlayarkən razılığa gələn dövlətlərin şübhəsiz üstünlüyüdür.

İkiqat vergitutmanın aradan qaldırılması ilə bağlı müqavilələr adətən "sazişlər" və ya "konvensiyalar" adlanır Vyana Konvensiyasının 2-ci maddəsində qeyd edildiyi kimi, istifadə edilən ad həlledici əhəmiyyət daşımır, əsas məsələ müqavilənin məzmun, mahiyyət və əhatə etdiyi məsələ üzərindədir.

Beynəlxalq müqavilələr vergi hüququnun mənbələri arasında xüsusi yer tutmaqla, mühüm əhəmiyyət kəsb edir. Bu əhəmiyyətin mənası ondadır ki, ikiqat vergitutmanın aradan qaldırılması problemində özünü daha aydın formada büruzə verir. Onu da qeyd etmək lazımdır ki, beynəlxalq hüquqi normalar beynəlxalq vergi hüququnun mənbələri arasında əsaslı yer tutur.

Bütövlükdə, vergi hüququnun mənbələri sistemində vergilər barədə qanunlar, qanunqüvvəli aktlar, kazual təfsir aktları, beynəlxalq müqavilələr, hüquqi adətlər, məhkəmə qərarları daxildir.

Vergi məsələlərinə dair beynəlxalq müqavilələr həm ümumi sayına, həm də əhatə etdiyi məsələlərin siyahısına və hüquqi təfərrüat səviyyəsinə görə beynəlxalq vergi hüququ normalarının mənbələrinin ən təmsiledici ümumi birliyidir. Buraya vergi sahəsində dövlətlər arasında münasibətləri tənzimləyən, müxtəlif kateqoriyalı vergi ödəyiciləri (onlardan yaranan vergitutma obyektləri) tərəfindən vergitutma, vergilərin hesablanması və ödənilməsi ilə bağlı qaydaları müəyyən edən bütün növ müqavilələr, inzibati və hüquqi əməkdaşlıq müqavilələri daxildir. Bu baxımdan nəzərdən keçirilən mənbələri daha bir neçə qrupa (növlər, alt qruplar) bölmək olar.

Qeyd edilən təsnifat sistemini davam etdirərək növbəti vergi müqavilələrini fərqlən-

dirmək olar: ümumi sazişlər, əməkdaşlıq sazişləri, ayrıca vergi məsələləri üzrə sazişlər, məhdud vergi sazişləri, gömrük ödənişləri sazişləri və s.

İkiqat vergitutmanın qarşısının alınması haqqında saziş iki iştirakçı-dövlət arasında müxtəlif növ gəlirlərin vergiyə cəlb edilməsinin necə bölüşdürüldüyünü müəyyən edir, həmçinin dividendlər ödənilərkən verginin (yəni gəliri ödəyən tərəfin digər tərəfə tutduğu verginin) tutulması qaydasını, faizlər, royaltilər, icarə ödənişlərini də müəyyən edir.

Bəzi hallarda belə verginin dərəcəsi əhəmiyyətli dərəcədə azaldılır, digərlərində isə gəlir mənbəyində vergidən tamamilə azad edilir. İkiqat vergitutma müqavilələrinin tətbiqinə, xüsusən də ikiqat vergitutma müqavilələrinin tətbiqi zamanı aşağı vergi yurisdiksiyalarından istifadə etməklə vergidən yayınma sxemlərinin təhlilinə çoxlu sayda elmi əsərlər həsr edilmişdir.

İki nüfuzlu model vergi konvensiyası var: BMT-nin Model Konvensiyası və İƏİT Model Konvensiyası. Bundan əlavə, bəzi ölkələrin öz model vergi konvensiyaları da var ki, onlar tez-tez dərc edilmir, lakin vergi müqavilələri üzrə danışıqların aparılması məqsədilə digər ölkələrə təqdim olunur. BMT-nin Model Konvensiyasının layihəsi hazırlanarkən İƏİT Model Konvensiyasının müddəalarından fəal şəkildə istifadə edilmişdir.

Nümunəvi (və ya model) vergi konvensiyalarının tarixi XIX əsrdə bağlanmış ilk diplomatik müqavilələrə gedib çıxır. Bu müqavilələrin bilavasitə məqsədi bir ölkənin digər ölkədə çalışan diplomatlarının ayrı-seçkiliyə məruz qalmamasını təmin etmək idi. Sonradan bu müqavilələrin əhatə dairəsi XX əsrin əvvəllərində artan əhəmiyyət kəsb edən gəlir vergisinə qədər genişləndirildi. Birinci Dünya Müharibəsindən sonra Millətlər Cəmiyyəti model müqavilələr, o cümlədən gəlir vergisi üzrə model müqavilələr hazırlamağa başladı. Bu iş 1943-cü və 1946-cı illərin model konvensiyaları ilə nəticələndi. Bu model konvensiyalar yekdilliklə qəbul edilməyib və məqbul model sazişin yaradılması üzrə iş İƏİT, bir neçə ildən sonra isə BMT tərəfindən davam etdirilib.

İƏİT Model Konvensiyası kapital ixrac edən ölkələrə kapital idxal edən ölkələrlə müqayisədə üstünlük verilir. Çox vaxt Konvensiyanın müddəaları mənbə ölkəyə müqavilənin iştirakçısı olan başqa ölkənin rezidentlərinin əldə etdikləri gəlirlərin müəyyən kateqoriyalarını vergiyə cəlb etmək hüququndan qismən və ya tamamilə imtina etmək tələbinin qoyulması yolu ilə ikiqat vergitutmanın aradan qaldırılmasını və ya azaldılmasını nəzərdə tutur.

İƏİT Modeli həm beynəlxalq vergi siyasəti, həmçinin milli vergi siyasəti və qanun-vericiliyinin təkmilləşməsində mühüm əhəmiyyətə malikdir. Son illər bu Model Konvensiyadan əsasən ikiqat vergitutmanın aradan qaldırılması, vergi informasiyası ilə mübadilə kimi məsələləri özündə əks etdirən vergi sazişlərinin bağlanmasında; dövlətlər arasında artıq bağlanmış vergi sazişlərinin şərh edilməsində; vergi mübahisələrinin həll edilməsində geniş istifadə edilir.

BMT Model Konvensiyası 1979-cu ildə ECOSOC-un himayəsi altında inkişaf etmiş və inkişaf etməkdə olan ölkələr arasındakı ikiqat vergitutma ilə bağlı problemlərin həlli məqsədilə bağlanan müqavilələr üçün nümunə rolunu oynayır. Başqa sözlə desək, İƏİT Model Konvensiyasına alternativ nümunə kimi işlənib-hazırlanmışdır. Struktur baxımdan yeddi fəsil və iyirmi doqquz maddədən ibarət bu sənəd ikiqat vergitutma üzrə əsas anlayışlar, problemin həlli metodları, həmçinin vergidən azadetmə ayrıseçkilik etməməklə bağlı məsələləri əhatə edir.

BMT Model Konvensiyası yerləşmə dövləti prinsipi ilə rezidentlik prinsipi arasında uyğunlaşmaya nail olmağa istiqamətlənmişdir. Bu sənəd müxtəlif ölkələrin vergi qurumlarına ikiqat vergitutma ilə əlaqəli problemlərin aradan qaldırılmasında lazımi informasiya mənbəyi təqdim edir. BMT Model Konvensiyasından istifadə edən ölkələr milli qanunvericiliyi və beynəlxalq hüquq normalarının koordinasiyası məsələsini də nəzərə almalıdırlar.

BMT Model Konvensiyasının özünəməxsus əlamətləri arasında növbəti məsələni xüsusilə vurğulamaq gərəkdir ki, İEOÖ əsas etibarilə kapital idxal edən ölkələr olduğundan mənşə ölkəsində vergitutma üzrə məsələlərə geniş

məhdudiyyətlər tətbiq etməməklə bu kateqoriya ölkələrin maraqlarına daha təsirli şəkildə xidmət göstərir. BMT Model Konvensiyası İƏİT Model Konvensiyasına nisbətən elə də dəyişikliyə uğramamışdır. Son dəyişikliklər 2011-ci ildə aparılmışdır. Bunun başlıca səbəbi ikiqat vergitutma ilə bağlı problemlərdə BMT-nin əhəmiyyətli rolunun zəifləməsi ilə əlaqəlidir. Bundan başqa, hazırda BMT transfert qiymətləndirmə kimi məsələlərdə fəallığını yüksəltmişdir.

BMT-nin və İƏİT model konvensiyalarının uğurları hədsiz dərəcədə böyük olmuşdur. Bu gün demək olar ki, bütün mövcud ikitərəfli vergi müqavilələri onların müddəalarına əsaslanır. Onların geniş şəkildə qəbul edilməsi və nəticədə bir çox beynəlxalq vergi qaydalarının standartlaşdırılması beynəlxalq ikiqat vergitutmanın azaldılmasında mühüm amillərə çevrilmişdir.

Hesab edirik ki, İƏİT və BMT model konvensiyalarının müqayisəli şəkildə təhlili həm bu sənədlərin məzmun və mahiyyətinin daha dərindən anlamı, həmçinin ikiqat vergitutma probleminin həlli baxımından xüsusi əhəmiyyət kəsb edir.

BMT və İƏİT model konvensiyaları və şərhləri vergi müqavilələrini şərh edərkən nəzərə alınmalı vacib mənbələr olsa da, onların məcburi hüquqi qüvvəyə malik olmadığı aydındır. Onların Vyana Konvensiyasına əsasən hüquqi statusu aydındır. Göründüyü kimi, onlar Vyana Konvensiyasının 32-ci maddəsinə uyğun olaraq bir-birini tamamlayan təfsir vasitələrinə aiddir. Əgər belədirsə, bu alətlər məhdud faydalı və ya əhəmiyyətə malik hesab edilə bilər, çünki onlar yalnız tətbiq vasitəsilə başqa cür müəyyən edilmiş mənanı təsdiqləmək üçün istifadə edilə bilər.

BMT-nin Model Konvensiyasının Girişində qeyd edilir ki, onun müddəaları və şərhləri məcburi olmasa da və rəsmi tövsiyələr kimi təfsir edilməməlidir, lakin onlar “bunlara əsaslanan ikitərəfli vergi müqavilələrinin danışıqlarını, şərhini və praktiki tətbiqini asanlaşdırmaq məqsədi daşıyır. Bundan əlavə, İƏİT Model Konvensiyasına Girişin 29-cu bəndində qeyd edilir ki, şərhlər “konvensiyaların tətbiqi və şərhində və xüsusən də istənilən mübahisənin həllində çox faydalı ola bilər”.

Vergitutmanın beynəlxalq aspektləri üzrə ekspertlər İƏİT Model Konvensiyasının statusunu və Vyana Konvensiyasına əsasən Şərhlərini çox mübahisəli mövzu hesab etsələr də, bu məsələ əsasən nəzəri maraq doğurur və xüsusilə praktiki deyil. Müqavilə işlərində, demək olar ki, bütün ölkələrdə məhkəmələr adətən model konvensiyalara və şərhlərə böyük əhəmiyyət verirlər.

Ümumiyyətlə, ikiqat vergitutmanın aradan qaldırılması məsələsinin hüquqi tənzimlənməsi iki səviyyədə həyata keçirilə bilər: dövlətdaxili qanunvericilik və beynəlxalq ikitərəfli və çoxtərəfli sazişlər. Elmi ədəbiyyatlarda (Mixael Lanq [8, 94-107], Christiana H.Panayi [7, 224-248], Werner Haslehner, Yariv Brauner [5, 330-334], Pasquale Pistone, Alexander Rust [10], Parthasarathi Shome [12, 363-366]) ikiqat vergitutmanın aşağıdakı metodları fərqləndirilir:

• Vergi krediti metodu;
• Azadetmə metodu;
• Güzəştetmə metodu.

Həmin metodların hər birinə ayrıca diqqət yetirilməsini, onların məzmun və mahiyyətinin nədən ibarət olmasına aydınlıq gətirilməsini məqsədəuyğun hesab edirik.

Vergi krediti metodu (və ya hesablama metodu). Bu metoda əsasən, rezident dövlət vergi ödəyicisinin ümumi gəliri, o cümlədən digər dövlətlərdə əldə etdiyi və müqaviləyə əsasən vergitutmaya aid edilə bilən gəliri də daxil olmaqla vergi tutula bilən gəlirlərindən vergi hesablayır. Bundan sonra o, öz rezidentinin başqa dövlətdə ödədiyi vergi məbləğini öz vergisindən çıxmağa icazə verir. Vergi krediti metodu iki əsas şəkildə tətbiq oluna bilər:

1) tam kredit: rezidentlik dövləti müqavilənin şərtlərinə əsasən belə bir dövlətdə vergiyə cəlb oluna bilən gəlirdən başqa dövlətdə ödənilmiş verginin bütün məbləğinin çıxılmasına icazə verir;

2) adi kredit: başqa dövlətdə ödənilmiş vergiyə münasibətdə rezident dövlət tərəfindən nəzərdə tutulan çıxılma rezident dövlətin vergisinin digər dövlətdə vergiyə cəlb oluna bilən gəlirə aid hissəsi ilə məhdudlaşır.

Müqavilə bağlayarkən bu üsullardan hər hansı biri (və ya onların kombinasiyası) seçilə bilər. Qarışıq və ya kombinə edilmiş yanaşma ilə dövlətlərin adları müqavilənin müvafiq maddəsinə daxil edilir.

Azadetmə metodu. Azadetmə metodu, ərazi yanaşmasından istifadə edərkən, müəyyən bir dövlətin ərazisindən kənarda alınan gəlirin vergiyə cəlb edilməsini istisna edir. Bu üsulla dövlət investorun ölkə ərazisində və ya xaricdə fəaliyyət göstərmək qərarının müstəqilliyini təmin edir.

Azadetmə metoduna əsasən daimi yaşayış (rezidentlik) dövləti müqaviləyə əsasən daimi nümayəndəliyin rezidenti olduğu dövlətdə və ya gəlir mənbəyinin olduğu dövlətdə vergiyə cəlb oluna bilən gəlirləri vergiyə cəlb etmir. Azadetmə metodu iki əsas şəkildə tətbiq oluna bilər[3, 56-57]:

1) tam azadolma (full exemption): daimi nümayəndəliyin rezidenti olduğu dövlətdə və ya gəlir mənbəyinin olduğu dövlətdə vergiyə cəlb oluna bilən gəlir vergi məqsədləri üçün rezidentlik olduğu dövlət tərəfindən nəzərə alınmır. Yaşayış yeri dövlət vergi tutulan şəxsin gəlirinin qalan hissəsinə vergi hesablanarkən azad edilmiş gəliri nəzərə almır;

2) Proqressiv azadolma (exemption with progression): daimi nümayəndəliyin rezidenti olduğu ölkədə və ya gəlir mənbəyinin olduğu ölkədə vergiyə cəlb oluna bilən gəlirlər rezident ölkədə vergiyə cəlb edilmir, lakin o, bu gəliri hesablayarkən nəzərə almaq hüququnu özündə saxlayır. gəlirin qalan hissəsinə tətbiq edilən vergi.

Metodlar arasındakı əsas fərq ondan ibarətdir ki, azadolma metodunda gəlir, kredit metodunda isə vergi əsas rol oynayır. Beləliklə, tənzimləmə təsirinin predmeti: rezident dövlətdə verginin məbləği və ya rezident dövlətdə vergi bazasıdır. Onların azaldılması ya verginin məbləğinin xarici verginin məbləğinə (vergi çıxılmaqla), ya da vergitutma bazasının xarici dövlətdə alınan gəlirin məbləğinə (gəlir çıxılmaqla) qədər azaldılması yolu ilə həyata keçirilir. Yuxarıda təsvir etdiyimiz üçüncü üsul (vergilərin xərclərin bir hissəsi kimi uçotu) vergitutma bazasının ölçüsünə də təsir göstərir, lakin azadolma prinsipindən fərqli olaraq, burada vergi bazası gəlir komponentinə görə azalır, lakin çıxılan xərclərin tərkibinə xarici vergilərin daxil edilməsi nəticəsində.

Güzəştetmə metodu. Vergidən çıxma üsulu (güzəşt edilməsi) ondan ibarətdir ki, xarici dövlətdə ödənilmiş vergi vergi bazasından tutulur. Vergi güzəşti metodu kapitalın xaricə ixracının qarşısını alır, çünki rezident şirkətlərin üzərinə böyük vergi yükü düşür və bunun nəticəsində milli iqtisadiyyat yenidən investisiya edilir.

Beləliklə, ikiqat vergitutma problemi çox aktual olaraq qalır. Onun mövcudluğu xaricdə fəaliyyət göstərən, gəlir əldə edən və ya əmlakı olan təşkilatlar və müəssisələr üçün ciddi çətinliklər yaradır. Beləcə, xarici vergi sistemlərində tətbiq olunan beynəlxalq vergitutma prinsiplərindən istifadənin genişləndirilməsi əsasında dövlətin ərazisində yerləşən mənbələrdən gəlir əldə edən xarici təşkilatların vergitutmasını təkmilləşdirmək lazımdır. Həmçinin, dövlətlərin təşkilatlarının beynəlxalq fəaliyyətinin inkişafı ilə müvafiq dövlətin şirkətlərinin xarici iqtisadi fəaliyyətlərinin vergiyə cəlb edilməsi yaxşılaşdırılmalıdır.

Beləliklə, vergi sahəsində beynəlxalq əməkdaşlığın əsas istiqamətləri aşağıdakılardır:

– ikiqat vergitutmanın aradan qaldırılması və vergi sistemlərinin tövsiyə olunan çərçivəyə uyğunlaşdırılması;
– vergi ayrı-seçkiliyini aradan qaldırmaqla sahibkarlıq subyektləri üçün başqa ölkədə biznes fəaliyyətini həyata keçirərkən əlverişli vergi mühitinin təmin edilməsi;
– beynəlxalq kommersiya fəaliyyətinin artırılması;
– beynəlxalq hüquq normaları əsasında müxtəlif dövlətlər və vergi ödəyiciləri arasında yaranan mübahisəli vergitutma məsələlərinin razılaşdırılması prosedurlarının işlənib hazırlanması.

İkiqat vergitutmanın aradan qaldırılması üçün müxtəlif üsullardan istifadə vergi siyasətinin müxtəlif məqsədlərinə uyğundur. P.Pistone qeyd etdiyi kimi, azadetmə metodu dövlətə kapital idxalına münasibətdə neytrallığı, kredit metodu – kapitalın ixracına münasibətdə ney-

trallığı təmin edir. Azadetmə metodunu tətbiq edən Niderland “tədricən mühüm beynəlxalq mərkəz statusu aldı”. Buna, onun fikrincə, ölkənin uzun müddətdir iqtisadi ikiqat vergitutma ilə bağlı azadetmə metodunu tətbiq etməsi, əsas şirkətlərə törəmə şirkətlərdən aralıq şirkətlər səviyyəsində praktiki olaraq heç bir vergi xərcləri olmadan dividendlər almasına şərait yaratması kömək etdi [2, 30].

Belə qənaətə gəlmək olar ki, ikiqat vergitutma və onun aradan qaldırılması problemi ilə bağlı qeyd edilənləri yekunlaşdırıb belə bir nəticə çıxarmaq olar ki, müasir dünyanın iqtisadi sferada ən aktual problemlərindən olan ikiqat vergitutma probleminin həllində dövlətlər arasında əməkdaşlığa və bu əməkdaşlığın nəticəsi kimi beynəlxalq razılaşmaların bağlanmasına üstünlük verilməlidir. Xüsusilə vurğulamaq gərəkdir ki, ikitərəfli əməkdaşlıq daha effektiv hesab edilə bilər.

Bunun bir çox səbəbləri var. İlk növbədə onu qeyd edək ki, ikitərəfli əməkdaşlıqda fikir müxtəlifliyi, yanaşma tərzi az olur, əksinə problemlərin həlli yolları konkret, çevik və effektiv qiymətləndirilir. Bundan əlavə, çoxtərəfli əməkdaşlığın nəticəsi olan model konvensiyalarda rezidentlik məsələsi birbaşa müəyyən edildiyindən şəxsin rezidenti olmadığı ölkələr tərəfindən vergitutmaya məruz qaldığı hallarda da model konvensiyaların təsir qüvvəsi qeyri-effektiv olur.

İkiqat vergitutmanın qarşısının alınması haqqında müqavilələri tədqiq edərkən, elmi ədəbiyyatda tez-tez rast gəlinən bəzi hüquqlardan imtina etmələri haqqında deyil, dövlətlərin vergi sahəsində hüquqlarının əlaqələndirilməsindən danışmaq daha düzgündür. Bu cür müqavilələrdə dövlətlərin hüquqlarının əlaqələndirilməsi “gəlir mənbəyi dövləti” və “yaşayış yeri” kateqoriyalarına müraciəti nəzərdə tutur.

Dövlətlərdən hər hansı biri hər iki halda fəaliyyət göstərə bilər və bu mənada müqavilə konkret dövlət üçün məhdudiyyətlər daşımır, baxmayaraq ki, razılaşan tərəflər onlardan hansının və hansı gəlirə münasibətdə daha çox müvafiq səlahiyyətlə hərəkət edəcəyini bilirlər (dövlət mənbəyi və ya yaşayış yeri). Belə koordinasiyanın xarakterik xüsusiyyəti gəlir mənbəyi və ya yaşayış dövlətində müəyyən bir növ gəlirin vergiyə cəlb edilməsinin təmin edilməsi yolu ilə vergi (gəlir) bazasının bölüşdürülməsidir.

**Ədəbiyyat:**


1. Лобанов М. Соглашения об избежании двойного налогообложения как фактор трансграничной инвестиционной активности/ Экономическая политика.-2015. – Том 10, №1. – с. 92-111.
2. Пистоне П. Некоторые вопросы международного налогового права в сфере отношений между Европейским Союзом и Российской Федерацией // Российский ежегодник международного налогового права. 2009, № 1. с. 30.
3. Погорлецкий А.И. Принципы международного налогооблажения и международного налогового планирования. СПб.: Изд-во С.-Петерб. гос. ун-та, 2005, 386 с.
4. Пономарева К. Проблемы налогового суверенитета в практике Суда Европейского союза по вопросам прямого налогообложения. Вестник Омского университета. Серия «Право», Выпуск № 1 (42), 2015, с. 98-103.
5. Brauner, Y. Research Handbook on International Taxation. Cheltenham: Edward Elgar Publishing, 2020, 416 p.
6. Caroline Kuzemko, Michael F. Keating, Andreas Goldthau. The Global Energy Challenge: Environment, Development and Security. Palgrave Macmillan, 2015, 264 p.
7. Christiana H.Panayi. Research Handbook on European Union Taxation Law / Christiana HJI Panayi, Werner Haslehner, Edoardo Traversa, Cheltenham: Edward Elgar Publishing, 2020, 672 p.
8. Lang, M. Introduction to the Law of Double Taxation Conventions. Wien: Linde Verlag GmbH, 2021, 266 p.
9. Martha, R. Extraterritorial Taxation in International Law // Extraterritorial Jurisdiction in Theory and Practice / K.M. Meessen (ed.), 1996. p. 16-17.
10. Pistone, P. CJEU - Recent Developments in Direct Taxation 2019: Schriftenreihe IStR Band 119 / Pasquale Pistone, Alexander Rust, Josef Schuch. Linde Verlag GmbH, 2020, 312 p.
11. Rixen T. The Double Tax Avoidance Regime as Institutional Foundation of Tax Competition. 2008.
12. Shome, P. Taxation History, Theory, Law and Administration. Cham: Springer Nature, 2021, 504 p.
13. Vries, R.F. Trade and Investment Dispute Settlement: The Relations Between International and National Tribunals. Eliva Press, 2021, 70 p.
14. https://eur-lex.europa.eu/legal-content/EN/TXT/?uri=celex%3A52011PC0121


***Açar sözlər:*** *ikiqat vergitutma, beynəlxalq hüquq, dövlətdaxili hüquq, qloballaşma, vergi yurisdiksiyası, rezidentlik, ərazi prinsipi, vergi krediti metodu, azadetmə metodu, güzəştetmə metodu*

**Bakhtiyar Aslanbayli**
*Vice-president of external relations and communications of the BP company in the Caspian region*

# THE PROBLEM OF PREVENTING DOUBLE TAXATION IN INTERNATIONAL AND DOMESTIC LAW

## ABSTRACT

Eliminating double taxation is not an easy decision, but there is always an objective need for international cooperation between states in this area, since the initiatives of individual states are insufficient to solve this problem. The elimination of double taxation is hampered by numerous challenges: differences of opinion at the international and national levels; restrictions on the tax jurisdiction of the state; the complexity of the necessary decisions, procedures for making rules; balancing trade and economic interests between states and reaching agreements in this area; differences in economic development between states and technical problems.

When studying treaties for the prevention of double taxation, it is more appropriate to talk about the harmonization of the rights of states in the field of taxation, and not about the renunciation of certain rights that are often found in scientific literature. The harmonization of the rights of states in such agreements implies an appeal to the categories of "state-source of income" and "place of residence".

***Keywords:*** *double taxation, international law, domestic law, globalization, tax jurisdiction, residency, territorial principle, tax credit method, exemption method, tax deduction method*

**Бахтияр Асланбейли**
*Вице-президент по внешним связям и коммуникациям*
*компании BP в Каспийском регионе*

# ПРОБЛЕМА ПРЕДОТВРАЩЕНИЯ ДВОЙНОГО НАЛОГООБЛОЖЕНИЯ В МЕЖДУНАРОДНОМ И ВНУТРИГОСУДАРСТВЕННОМ ПРАВЕ

## РЕЗЮМЕ

Устранение двойного налогообложения – непростое решение, но всегда существует объективная потребность в международном сотрудничестве между государствами в этой сфере, поскольку инициативы отдельных государств недостаточны для решения данной проблемы. Устранению двойного налогообложения препятствуют многочисленные проблемы: расхождения во мнениях на международном и национальном уровнях; ограничения налоговой юрисдикции государства; сложность необходимых решений, процедур принятия правил; уравновешивание торгово-экономических интересов между государствами и достижение договоренностей в этой сфере; различия в экономическом развитии между государствами и технические проблемы. При изучении договоров о предотвращении двойного налогообложения уместнее говорить о согласовании прав государств в сфере налогообложения, а не об отказе от определенных прав, которые часто встречаются в научной литературе. Согласование прав государств в таких соглашениях подразумевает обращение к категориям «государство-источник дохода» и «место жительства».

***Ключевые слова:*** *двойное налогообложение, международное право, внутреннее право, глобализация, налоговая юрисдикция, резидентство, территориальный принцип, метод налогового кредита, метод освобождения, метод налогового вычета*

# ELEKTRON DÖVLƏT İDARƏÇİLİYİ VƏ İNTELLEKTUAL SİSTEMLƏR
# DIGITAL PUBLIC ADMINISTRATION AND INTELLECTUAL SYSTEMS

UOT 354

**ELÇİN ABASOV**
**Azərbaycan Respublikasının Prezidenti yanında Dövlət İdarəçilik Akademiyasının "Dövlət idarəçiliyində informasiya texnologiyaları" kafedrasının müdiri, dosent**
*e-mail: abasov_e@mail.ru*

**BAHAR ƏSGƏROVA**
**Azərbaycan Dövlət Neft və Sənaye Universitetinin "Kompüter mühəndisliyi" kafedrasının dosenti**
*e-mail: bahar2870@mail.ru*

## RİSK ŞƏRAİTİNDƏ İDARƏETMƏ QƏRARLARININ OPTİMALLAŞMASI

Müasir dövrdə risk amillərinin artma şəraitində, qərarların qəbulu problemləri daha da mürəkkəbləşir, bu səbəbdən ki, alternativ çoxluqlar və qərar qəbulunun çevikliyi məhdudlaşır. Bunu nəzərə alaraq rasional və irrasional, keyfiyyət və kəmiyyət göstəriciləri, parametrlərin seçilməsi kriteriyalarını mütləq olaraq optimallaşdırmalıyıq. Bu öz əsasında qərar qəbullarında risk amillərinin təsirini azaldır, həllin invariantlığını artırır, konkret şəraitdə subyektin kritik idarə olunmasının obyektiv qiymətləndirilməsini yüksəldir. İdarəçilik qərarlarının işlənməsinin optimallaşdırılması aşağıdakı amillərdən asılıdır:

- idarə olunan obyektin inkişafının real tendensiyalar haqqında biliklər;
- bu tendensiyaya müsbət təsir göstərən amillər;
- ümumi idarəetmə sisteminin haqqında risklərin qiymətləndirilməsi və onların verilənlər bazasının yaradılması;
- xərclərin və məsrəflərin minimallaşdırılması;
- dövlət idarəçiliyində sosial sistemlərin idarəolunmasında çoxkriteriyalı və evristik üsullara əsaslandırılmış (tətbiqi riyaziyyat və informatikanın formallaşdırılmış üsulların istifadəsi ilə) qərarların qəbulu.

Müəssisələrdə təşkilati səviyyələrdə çoxlu sayda müxtəlif qərarlar qəbul edilir, qərarlar onların cəhətlərini əks etdirən bir çox əlamətlərlə xarakterizə olunurlar. Bu əlamətlərin toplusu idarəetmə qərarlarının təsnifatını verməyə kömək edir (cədvəl 1). Həll edilən məsələlərin xarakteri qərarların tətbiq sahəsini və cəlb olunan ekspertlərə qoyulan tələbləri təyin edir. Bir neçə məqsədin olması kompleks, çoxməqsədli qərarların hasilinə imkan verir. Bir şəxs tərəfindən qəbul edilən fərdi qərarlar onların formalaşdırılması üçün az vaxt tələb edirlər, daha yüksək yaradıcılıq səviyyəsi və yeniliklə xarakterizə olunurlar. Lakin fərdi qərarlar səhvlərin riskinin yüksək olması və alternativ variantlarının sayının az olması ilə səciyyələnirlər. Nəticədə qeyri-optimal qərarların qəbulu ehtimalı yüksək olur.

Qrup qərarlar peşəkar mütəxəssislərdən ibarət işçi qrup tərəfindən hazırlanır və fərdi qərarlarla müqayisədə bir sıra üstünlüklərə malikdirlər. Qrup qərarların keyfiyyəti yüksək olur, belə ki, onların formalaşdırılması zamanı çoxlu sayda mümkün variantlara baxılır. Nəticədə səhv qərarın qəbulu ehtimalı azalır. Kollektiv qərarın əsas çatışmazlığı onun operativliyinin aşağı olmasıdır, belə ki, qrupun formalaşdırılmasına, müzakirə üçün materialların hazırlanmasına, idarəetmə qərarlarının təsnifatına, qrupun üzvlərinin problemlə tanışlığına, variantların müzakirəsinə və razılaşdırılmasına xeyli vaxt tələb olunur.

**Cədvəl 1.** İdarəetmə qərarlarının təsnifat sxemi

| Əlamətlər | Qərarların növü |
|---|---|
| Həll edilən məsələlərin xarakteri | Elmi-texniki, texnoloji, iqtisadi, təşkilati sosial, ideya-tərbiyəvi |
| Qərar qəbulunun səviyyəsi | Bütövlükdə müəssisə, müəssisənin bölmələri, ayrı-ayrı işçilər səviyyəsində |
| Məqsədlərin sayı | Birməqsədli, çoxməqsədli |
| Qərar qəbul edən subyekt | Fərdi, kollektiv (qrup şəklində) |
| Qüvvədə qalma vaxtı | Strateji, taktiki, operativ (cari) |
| Dövrülük | Bir dəfə, təkrarlanan |
| Formallaşdırma dərəcəsi | Proqramlaşdırılan, proqramlaşdırılmayan |
| Əsaslandırma üsulu | İntuitiv, mühakiməyə əsaslanan,rasional |
| Mürəkkəblik dərəcəsi | Sadə, mürəkkəb, unikal |
| Qərarın qəbul edildiyi şərait | Müəyyənlik şəraitində, risk şəraitində və qeyri-müəyyənlik şəraitində qəbul edilən qərarlar |
| Qərarın təsir istiqaməti | İdarəolunan obyektin içərisinə və sərhəddindən kənara istiqamətlənən |

Strateji və taktiki qərarlar müəssisənin strateji və taktiki məqsədlərinin formalaşdırılması və reallaşdırılması ilə bağlıdır. Müəssisədə qəbul edilən operativ qərarların sayı taktiki və strateji qərarlarla müqayisədə xeyli çox olur, lakin strateji qərarlar daha yüksək resurstutumlu olurlar.

Proqramlaşdırılmayan qərarlar yaxşı strukturlaşdırılmamış, natamam və düzgün olmayan informasiya ilə bağlı olan situasiyalarda qəbul olunur. Qərarın seçilməsi mümkün variantlar çoxluğu içərisində aparılır. Odur ki, QQŞ-dən peşəkarlıq, təcrübə, intuisiya, yaradıcılıq potensialı tələb olunur. Proqramlaşdırılmayan qərarlara müəssisənin məqsədlərinin təyini, onun inkişaf strategiyaları, strukturunun dəyişdirilməsi, bazar konyukturası və s. aiddir. Bu qərarların sayı müəssisənin ölçüləri və mürəkkəbliyi artdıqca çoxalır. Proqramlaşdırılan və proqramlaşdırılmayan qərarlar arasında mütənasiblik müəssisənin müxtəlif idarəetmə səviyyələrində müxtəlif olur. Yuxarı səviyyələrdə proqramlaşdırılmayan qərarların payı çox olur. Aşağı səviyyədə qəbul edilən qərarlar isə adətən, əvvəlcədən məlum olan qaydalara və prosedurlara əsaslanır.

İntuitiv qərar – QQŞ-ın intuisiyası ilə bağlı olur. İntuitiv qərarlar idarəetmənin yuxarı səviyyəsində çalışan rəhbərlər üçün böyük rol oynayırlar. Bu zaman onlar böyük təcrübəyə situasiyanı düzgün başa düşmək qabiliyyətinə və dərin peşə biliyinə malik olmalıdırlar. Qərar qəbuluna xalis intuitiv yanaşma səhv qərar qəbul etmək riski ilə bağlı olur.

Mühakiməyə əsaslanan qərar- biliklər və toplanan təcrübə ilə bağlı olur. Bu cür qərarların qəbulu zamanı QQŞ keçmişdə analoji situasiyaların həllində toplanan təcrübədən, cari situasiya haqqında bilikdən və onun əvvəlkilərdən fərqli cəhətlərindən istifadə edir. Rasional qərarlar mühakiməyə əsaslanan qərarlardan fərqli olaraq keçmiş təcrübədən asılı olmurlar. Rasional qərar obyektiv analitik təhlilə əsaslanır. Bu cür qərarlar, bir qayda olaraq, proqramlaşdırılır. Onlar texniki vasitələrdən istifadə etməklə yaradıla bilərlər.

Müəssisədə qəbul edilən idarəetmə qərarlarının əksəriyyəti baxılan üç tip qərarın –

intuitiv, mühakiməyə əsaslanan, rasional – kombinasiyasına əsaslanır. Problem situasiyası, məqsədlər, məhdudluqlar haqqında tam və dürüst informasiya olduqda qərar müəyyənlik şəraitində qəbul edilir. Müəyyənlik şəraitində qərarların qəbulu məsələlərinə determinləşdirilmiş məsələlər deyilir. Hazırda istehsalat-iqtisadi xarakterli tipik məsələlərin həlli üçün riyazi proqramlaşdırma metodları əsasında alqoritmlər yaradılmışdır. Bu cür məsələlərin siyahısına istehsalatın yerləşdirilməsi, resursların paylanması, ehtiyatların idarə edilməsi, nəqliyyat məsələləri və s. daxildir. İdarəetmə prosesinə və onun nəticələrinə təsir edən faktorların məlum olmasına baxmayaraq, hər bir konkret qərarın reallaşdırılmasının nəticəsi bəlli deyil, təsadüfidir. Bu halda QQŞ həmişə gözlədiyi nəticəni alacağına risk edir. Bu cür qərar növünə risk şəraitində qəbul edilən qərar deyilir.

Qeyri-müəyyənlik şəraitində (Sitoxastik idarəetmə) qəbul edilən qərarlarda ilkin informasiya natamam və qeyri-səlis olur. Bu halda QQŞ potensial nəticələrin ehtimalını kifayət dərəcədə düzgün qiymətləndirə bilmir. Qeyri-müəyyənlik şəraitində QQŞ iki imkandan istifadə edə bilər. Birinci, əlavə informasiya almağa və problemi daha bir dəfə analiz etməyə cəhd göstərmək. Bununla çox vaxt situasiyanın qeyri-müəyyənliyini və problemin mürəkkəbliyini azaltmaq mümkün olur. İkinci, keçmiş təcrübə, mühakimə və ya intuisiya əsasında hərəkət etmək və hadisələrin ehtimalı haqqında fikir söyləmək. Bu imkandan əlavə informasiya toplamağa vaxt çatmadıqda və ya bunun üçün çoxlu xərc tələb olunduqda istifadə edilir. İdarəetmə qərarlarının qəbulunda vaxt və informasiya məhdudluğu vacib rol oynayır. Konkret qərar növü baxılan əlamətlərin toplusu ilə xarakterizə olunur.

İdarəetmə qərarlarının keyfiyyətini təyin edən faktorları iki qrupa ayırırlar: daxili və xarici. Daxili faktorlara idarəetmə personalının peşəkarlığı, idarəetmə texnologiyası və metodları, idarəetmə mədəniyyəti, idarəetmə sisteminin dayanıqlığı, idarə edən və idarə olunan sistemlərin uyğunluğu və s. aiddir. Xarici mühitin təsirini xarakterizə edən xarici faktorlara isə aşağıdakılar aiddir:

– qanunverici, siyasi, sosial-iqtisadi mühit;
– idarəetmə fəaliyyətinin normativ-hüquqi təminatı;
– qərar qəbulu prosesinin resursla təminatında məhdudluqlar (vaxt, xərclər və s.)
– istehsalatın və idarəetmənin təşkilati formaları;
– idarəetmə qərarlarının keyfiyyətinin və səmərəliliyinin dərəcəsinin ekspert qiymətləndirmə sistemi;
– sosial-iqtisadi proseslərin və istehsalatın inkişafının proqnozlaşdırılmasının keyfiyyəti.

Qərar hər hansı problemin həlli məqsədilə qəbul edilir. Problemin həll prosesi üç pillədən ibarət olur (şəkil 1).




**Şəkil 1.** Problemin həll prosesinin pillələri

1-ci pillə-qərar qəbulu texnoloji baxımdan müəyyən mərhələlərin və proseduraların ardıcıllığından ibarət proses kimi təsvir edilə bilər. Mərhələlər və proseduralar arasında iterativ dövri xarakterli asılılıqlar var. Qərar qəbulu prosesinin elementlərinin yerinə yetirilməsində iterasiyalar sonrakı prosedurların icrasından sonra verilənlərin dəqiqləşdirilməsi və təshih edilməsi tələb olunur. İnformasiya nöqteyi-nəzərindən qərar qəbulu prosesində qeyri-müəyyənliyin azalması baş verir. Problem situasiyasının formalaşdırılması "nə etməli?" sualını qarşıya qoyur. Prosedurların ardıcıl yerinə yetirilməsi bu suala "nə və necə etmək lazımdır" cavabının formalaşdırılmasına gətirib çıxarır.

Qərarların qəbulu proseduraları qeyri-formal olaraq QQŞ-in və ekspertlərin təfəkkürü ilə və formal vasitələrdən – riyazi metodlardan və kompyuterdən istifadə etməklə yerinə yetirilə bilər. Formal prosedurlar qərarların variantlarını analiz etmək, lazım olan resursları qiymətləndirmək, qərar variantlarının sayını azaltmaq məqsədilə müəyyən alqoritmlərlə hesablamalar aparmaqla reallaşdırılır. Formal prosedurların icrası QQŞ, ekspertlər, texniki personal və elektron idarəetməni təchiz edən avadanlıqlar tərəfindən yerinə yetirilir. Qərar qəbulu prosesinin formal və qeyri-formal prosedurlarının məntiqi nizamlanmış toplusu kimi təsviri, bu prosesin texnoloji sxeminin təsviri deməkdir. Bu cür təsvir qərar qəbulu prosesini struktur nizamlamağa və prosesin informasiya modelini qurmağa imkan verir. İnformasiya modeli əsasında tələb olunan informasiyanın toplanması, emalı və saxlanması səmərəli təşkil olunur. Qərarların qəbulu prosesi məsələnin qoyuluşu, qərarlarların formalaşdırılması və optimal qərarın seçilməsini özündə birləşdirir. Məsələnin qoyuluşu zamanı aşağıdakı suallara cavab verilməlidir:

– hansı problemi hansı şərtlərlə həll etmək lazımdır?
– nə vaxt həll etmək lazımdır?
– hansı vasitələrlə problem həll olunacaq?

Problem iki situasiyada yarana bilər: yeni çətinliklər situasiyası və yeni imkanlar situasiyası. Yeni çətinliklər situasiyası, adətən, obyektin qarşıya qoyulan məqsədə çatması üçün planlaşdırılan trayektoriyadan kənara çıxması ilə bağlı olur. Bu situasiyada problemin düzgün qoyuluşu və formalaşdırılması vacib əhəmiyyət kəsb edir. Bu problemlərə elmi, istehsalat, texniki və s. problemlər aiddir. Yeni imkanlar situasiyası əsasən elmi-texniki tərəqqi ilə yaranır, belə ki, elmin, texnikanın və texnologiyanın nailiyyətləri əməyin təşkilinin, istehsalatın və idarəetmənin təkmilləşdirilməsi üçün yeni imkanlar yaradır. Problem situasiyasının müyyənləşdirilməsi və təsviri zamanı yaranan problemin ilkin səbəbləri və ilkin mənbələri təyin edilməlidir. Bu isə böyük həcmdə informasiyanın toplanmasını və dərindən analizini tələb edir.

Vaxt nöqteyi-cəhətdən nəzərə almaq lazımdır ki, iqtisadiyyatda bütün idarəetmə qərarları "seytnot" vəziyyətdə qəbul edilir, yəni qərar qəbulu üçün problem situasiyası haqqında bütün biliklərdən və informasiyadan tam istifadə edilməsinə lazım olan vaxtdan az vaxt ayrılır. Bu faktor qəbul edilən qərarların keyfiyyətini aşağı sala bilər, çünki bu halda bütün alternativ variantlara baxmaq mümkün olmur. Odur ki, problem situasiyasının vaxtında aşkarlanmasında böyük rol oynayır. İdarəetmə qərarlarını problemin yaranmasının ilkin mərhələsində qəbul etmək lazımdır.

Qərar qəbulu üçün tələb olunan resursları (ekspertlər,eksperimental baza, sənədləşdirmə və digər informasiya mənbələri) təyin etmək və onları mövcud imkanlarla müqayisə etmək də vacib əhəmiyyət kəsb edir. Qərarların formalaşdırılması zamanı aşağıdakı prosedurlar yerinə yetirilir: problem situasiyasının analizi, hipotetik situasiyaların formalaşdırılması, məqsədlərin formalaşdırılması, məhdudluqların təyini, qərarların generasiyası, qərarların üstünlük dərəcələrinin qiymətləndirilməsi. Qərarın seçilməsi aşağıdakı prosedurların icrasını nəzərdə tutur: mümkün qərarların təyini, qərarın seçim kriterilərinin formalaşdırılması, səmərəli qərarların təyini, vahid (son) qərarın seçilməsi. Bu prosedurlar haqqında da ətraflı məlumat sonrakı paraqrafda verilir. Son qərarın seçimi fərdi QQŞ tərəfindən onun təklif etdiyi kriterilər əsasında, qrup QQŞ-də isə

hesablanılan qrup üstünlük dərəcəsi əsasında aparılır. İstənilən alternativin reallaşdırılması müəyyən mənfi aspektlərlə bağlı olur, odur ki, qeyd edildiyi kimi, bütün vacib idarəetmə qərarları kompromislə xarakterizə olunurlar.

Son qərar – daha məqbul ümumi nəticələr verən alternativ olur. Baxılan sxem qərar qəbulunun real prosesini sadə formada əks etdirir. Əslində isə bu proses daha mürəkkəb olub, həmişə göstərilən sxemlə icra olunmur. Məsələn, alternativ qərarlar çoxluğunun generasiyası zamanı QQŞ eyni vaxtda məhdudluqları və ya onların bir hissəsini nəzərə ala bilər və bu çoxluğa məhdudluqlara cavab verməyən qərarları daxil etməyə bilər. Real proses prosedurların paralel yerinə yetirilməsinə imkan verir. Bundan əlavə, bu və ya digər prosedurun icrası zamanı yeni informasiya verən nəticələr alınır, odur ki, əvvəlki prosedurlara düzəlişlər və əlavələr etmək, yəni onları təkrarlamaq zəruriyyəti yaranır. Qeyd edilənlər onu göstərir ki, təqdim edilən sxemi qərar qəbulu prosesində prosedurların yerinə yetirilmə ardıcıllığının dəqiq və dəyişilməz təsviri kimi qəbul etmək olmaz. Bu sxem əsasən qərarların formalaşdırılması və seçimi zamanı QQŞ-in hərəkətlərinin səmərəli ardıcıllığını ifadə edir.

Nəticədə vurğulamaq olar ki, kritik idarəetmə situasiyalarında qərarların qəbulolunmasının optimallaşdırılması risk amillərinin azalmasına gətirib çıxararaq, yeni situasiyanı xarakterizə edən çevikli baxış formalaşdırır.

**Ədəbiyyat:**


1. Abasov E.A., Abbasov T.A., Elyaşina A.A., Nəcəfov X.İ. İqtisadi-maliyyə informasiya texnologiyaları və sistemləri. Dərs vəsaiti, Bakı: “OPTİMİST” MMC, 2021, - 174 s.
2. Abasov E.A., Əlizadə S.A., Qurbanov P.Ə. Bank marketinqi. Bakı: “ULU”, 2020, - 150 s.
3. Əlizadə M.N., Musayev İ.K., Əliyev E.B. Müasir informasiya sistemlərinin idarə edilməsi. Dərslik. Bakı “MSV NƏŞR“ nəşriyyatı, 2016. 248 s.
4. Hacızalov Y., Zeynalov M. İqtisadi kibernetika / Ali məktəblər üçün dərs vəsaiti. Bakı: «İqtisad Universiteti» Nəşriyyatı, 2012 .- 324 s.
5. Гусейнова Х.М., Абасов Э.А., Курбанов П.А. Статистический анализ и финансовая диагностика экономической деятельности предприятия. Типография Университета «Western Caspian», Баку, 2017, - 140 с.
6. Козлов В.Н. Системный анализ, оптимизация и принятие решений. Учебное пособие. Санкт-Петербург, 2011.-348 с.


***Açar sözlər:*** *qərarların qəbul olunmasının optimallaşması, risklər, dövlət idarəçiliyində sosial sistemlər, yeni çətinliklər və imkanlar situasiyası*

**Elchin Abasov**
*The Academy of Public Administration*
*under the President of the Republic of Azerbaijan,*
*Head of the Department of Information Technology, Associate professor*
**Bahar Asgarova**
*The Azerbaijan State University of Oil and Industry*
*Department of Computer Engineering,*
*Associate professor*

# OPTIMIZATION OF RISK MANAGEMENT DECISIONS

## ABSTRACT

Any problem is, in fact, the problem of choosing a solution from a number of alternatives. We always strive in one sense or another to make the best choice (as a measure between reasonable and irrational, quantity and quality) and call one hundred optimal. If it turns out that all solutions are ordered in some way with the help of a specific preference scale, which in this case plays the role of a selection criterion, this case optimization, can be defined as the ordering of choice options with the help of a specific scale of criteria, preferences and providing conditions for choosing the optimal solution.

***Keywords:*** *optimization of decision-making, risk, social systems in public administration, the situation of new challenges and opportunities*

**Эльчин Абасов**
*Заведующий кафедрой «Информационные технологии*
*в государственном управлении» Академии Государственного Управления*
*при Президенте Азербайджанской Республики, доцент*

**Бахар Аскерова**
*Доцент кафедры «Компьютерная инженерия»*
*Азербайджанского Государственного Университета Нефти и Промышленности*

# ОПТИМИЗАЦИЯ УПРАВЛЕНЧЕСКИХ РЕШЕНИЙ В УСЛОВИЯХ РИСКА

## РЕЗЮМЕ

Всякая проблема есть, в сущности, проблема выбора решения из некоторого множества альтернатив. Мы всегда стремимся в том или ином смысле сделать лучший выбор (как меру между разумным и иррациональным, количеством и качеством) и называем это оптимальным. Если же оказывается, что все варианты решения некоторым образом упорядочены с помощью определенной шкалы предпочтений, играющей в данном случае роль критерия отбора, то оптимизация в таком случае может быть определена как упорядочение вариантов выборов решений с помощью определенной шкалы критериев, предпочтений и обеспечение условий для выбора оптимального решения.

***Ключевые слова:*** *оптимизация принятия решений, риски, социальные системы в государственном управлении, новые трудности и возможности ситуаций*

# SİYASİ NƏZƏRİYYƏ
# POLITICAL THEORY

УДК 327; UOT 341.24

**СЕВДА РЗАЕВА**
**Доцент кафедры Политологии и политического управления Академии Государственного Управления при Президенте Азербайджанской Республики, доктор философии по истории**
*e-mail: sevda.rzayeva.80@mail.ru*

## ТЕОРЕТИЧЕСКИЙ ПОДХОД К АНАЛИЗУ ГОСУДАРСТВА И ГРАЖДАНСКОГО ОБЩЕСТВА

Государство – это политико-территориальная суверенная организация публичной власти, имеющая специальный аппарат управления и принуждения и придающая праву общеобязательное значение. Главной целью государства является защита интересов и прав как общества, так и отдельных граждан. Порядок взаимоотношений между членами общества и применения власти определяется конституцией, законами и другими правовыми документами государства, которые являются частью устройства государства; а также традициями, которые сформировались внутри государства в исторической действительности [10].

В истории происхождения государства существует несколько теорий. Основными из них являются теологическая теория происхождения государства, патриархальная теория происхождения государства, договорная теория происхождения государства, материалистическая теория происхождения государства, психологическая теория происхождения государства, теория насилия, патримониальная теория происхождения государства, органическая теория происхождения государства. Рассмотрим каждую из них.

Теологическую теорию происхождения государства можно также назвать теорией о божественном начале в происхождении государства. По мнению представителей данной концепции происхождения государства, государство было создано по воле Бога, при этом считалось, что власть церкви имеет более высокое положение, находится над светской властью. Сторонниками теологической теории происхождения государства были А.Августин, Ф.Аквинский, Ж.Маритен, Д-Ж.Мерсье и другие мыслители. В своем труде «О граде Божьем» А.Августин писал, что государство – это наказание людей Богом за первородный грех, а земная государственная власть – это «великая разбойничья организация» [7, с. 6].

Сторонниками патриархальной теории происхождения государства являются Аристотель, Конфуций, Р. Филмер и другие мыслители. Суть патриархальной теории происхождения государства заключается в том, что государство образовалось в результате объединения патриархальных семей. У истоков патриархальной теории происхождения государства стоял Аристотель. Он считал, что государство является естественной формой человеческой жизни. Как существа общественные, люди стремятся к объединению, образованию патриархальной семьи, а увеличение числа этих семей и их объединение приводит к образованию государства [3, с. 4]. Аристотель утверждал, что государственная власть является продолжением отцовской власти. Исходя из этого, монарх является отцом для всех своих подданных, подданные же обязаны слушаться монарха и относиться к нему с большим почтением. Монарх, как отец в семье, должен заботиться о своих подданных и справедливо ими управлять.

Сторонниками договорной теории происхождения государства были Т. Гоббс, Дж. Локк, Ж.Ж. Руссо, А.Н. Радищев и другие мыслители. Т. Гоббс утверждал, что люди до образования государства находились в состоянии «войны всех против всех». Затем между каждым членом общества и создаваемым государством заключается общественный договор. По этому договору люди передают часть своих прав государственной власти и берут обязательство подчиняться ей. Взамен государство обязуется охранять неотчуждаемые права человека. По мнению английского философа Дж.Локка государство должно гарантировать личную свободу и естественные права человека. Философ утверждал, что представители власти должны избираться народом, человек должен подчиняться общепринятым законом, а не деспотизму вышестоящих лиц. Другой представитель данной теории французский философ просветитель Ж.-Ж.Руссо в произведении «Об общественном договоре» изложил концептуальные положения договорной теории происхождения государства. По мнению Ж.-Ж.Руссо, основой законной власти является соглашение людей. В результате каждый договаривающийся подчиняется государству, но в то же время становится одним из участников этого государства. Однако, подчиняясь государству, человек должен оставаться столь же свободным, как и прежде. Государство должно заботиться об общем благе народа.

Сторонники материалистической теории происхождения государства (К.Маркс, Ф.Энгельс, В.И. Ленин, Г.В.Плеханов) утверждали, что образование государства стало результатом трансформации общества под действием социально-экономических причин. Маркс, Энгельс и их последователи не верили в теорию общественного договора как в источник государства. Они рассматривали происхождение государства с материалистической точки зрения, которая подчеркивает, что, хотя государство и является творением человека, за этим стоит не эмоция, идея, а влияние материальных условий, которые они назвали экономическими условиями.

Теория насилия возникла и получила распространение в конце XIX – начале XX века. Сторонниками данной теории происхождения государства были Л.Гумплович, К.Каутский, Е.Дюринг и их последователи. Ее основоположники опирались на известные исторические факты возникновения германских и венгерских государств. Л.Гумплович писал: «История не предъявит нам ни одного примера, где бы государство возникало не при помощи акта насилия одного племени над другим, оно выражалось в завоевании и порабощении более сильным чужим племенем более слабого, уже оседлого населения». По его словам, над действиями диких орд, обществ, государств царит сложный закон природы. Данная теория происхождения государства была объектом критики именно за насаждение культа насилия, игнорирование социально-экономических факторов. Насилие играло немаловажную роль в государствообразующем процессе. Оно не было причиной образования государства, но служило мощным катализатором этого процесса [3, с. 5].

Психологическая теория происхождения государства гласит, что возникновение государства связано с особенными свойствами человеческой психики, а именно с тягой к власти одних над другими и потребностью одних подчиняться другим. Сторонниками данной теории возникновения государства были Л.И.Петражицкий, Д.Фрезер, З.Фрейд и их последователи.

Патримониальная теория возникновения государства исходила из того, что государство образовалось от права собственности на землю и права владения ей теми лицами, которые проживают на этой земле. Разработчиком и ярким представителем данной теории был немецкий ученый Людвиг фон Галлер который считал, что государство возникло и связано с правом собственности на землю, а власть получают люди, владеющие землей, живущие на ней. Власть

имеет ограничение территорией владения. Кто владеет землей – властвует, кто находится на земле – подчиняется этой власти.

Сторонники органической теории возникновения государства (Г.Спенсер, А.Э.Вормс и их последователи) считали, что государство появилось и развивалось дальше как биологический организм. Человечество – результат эволюционирования животного мира. После произошел естественный отбор, и люди объединились в государство, составляя организм. Мозгом государства является правительство, оно через законы передает людям импульсы.

Государство имеет ряд признаков, отличающих его от других социальных институтов.

1. Территория является пространственной основой государства. Она включает сушу, недра, водное и воздушное пространство. Наличие своей определенной территории дает возможность государству осуществить свою независимую власть. Государство имеет право защищать свою территорию от вторжения со стороны других государств.

2. Люди, которые живут на территории государства, составляют ее население. Население государства может состоять из людей одной национальности или быть многонациональным. Например, Азербайджан является многонациональной страной, где проживают представители различных наций. Государство, состоящее из людей одной национальности называется мононациональным. Примеры мононациональных государств с более чем 95 % одного этноса: Албания, Египет, Италия, КНДР, Южная Корея, Мадагаскар, Норвегия, Польша, Португалия, Сомали, Япония.

3. Публичная власть иначе называется властью общественной. Публичная власть – это власть, которая способна организовать жизнь людей. Государственная власть осуществляется с помощью государственных органов и учреждений. Государственные органы и учреждения объединяются в единую систему, называемую государственным аппаратом. Государственная власть распространяется на всех людей, проживающих на территории государства.

4. Право – это система общеобязательных правил поведения. Правовые нормы охраняются силой государства, специальными государственными органами. Правовые нормы формируются в основном государственными органами.

5. Правоохранительные органы составляют особую систему, в которую входят судебные органы, прокуратура, милиция, органы безопасности, внешняя разведка, налоговая полиция, таможенные органы. Правоохранительные органы необходимы любому государству, так как государственная власть осуществляется с помощью норм права или конкретных распоряжений, носящих императивный характер. Если нормы права не исполняются, то с помощью правоохранительных органов применяются меры принуждения или санкции, предусмотренные в нормах права.

6. Армия необходима для защиты территориальной целостности государства. По своему размеру армия должна быть способной отразить любую агрессию.

7. Обязательные платежи с получаемого дохода граждан и организаций называются налогами. Размеры налогов и сроки их уплаты устанавливает государство, издавая соответствующие законы. Налоги необходимы для содержания государственных органов, армии, выплаты пенсий, пособий многодетным семьям, безработным, инвалидам.

8. Суверенитет – это независимость государства при решении внутренних и внешних вопросов его жизни. Различают внутренний и внешний суверенитет. Внутренний суверенитет означает, что государственная власть независимо решает все вопросы жизни страны, и эти решения имеют обязательный характер для всего населения. Внешний суверенитет позволяет государству самостоятельно строить свои взаимоотношения с другими государствами, основываясь на своих интересах.

Как и все социальные институты, государство имеет определенный набор функций. Функции государства – это основные направления его деятельности, выражающие сущность и задачи государства по управлению обществом в присущих ему формах с применением соответствующих методов [4, с. 66]. Функции государства можно классифицировать по различным основаниям. Классификация функций государства позволяет не только глубже исследовать его деятельность, но и показать исторические особенности государства, спрогнозировать перспективы его развития. Наиболее важной и обоснованной на сегодняшний день является классификация функций государства по сфере осуществления [2]. Согласно данной классификации функции государства подразделяются на внутренние и внешние. Внутренние функции государства направлены на решение внутригосударственных задач. К внутренним функциям государства относятся следующие: экономическая функция, социальная функция, функция охраны правопорядка, политическая функция, правовая функция, экологическая функция.

Экономическая функция – деятельность государства в экономической сфере жизни общества. Государство создает условия для развития экономических отношений, устанавливает правовые основы рынка, обеспечивает равноправие всех форм собственности, охраняет и поддерживает законную деятельность собственников.

Социальная функция включает деятельность государства, направленную на обеспечение социального благополучия граждан. Государство осуществляет социальную политику, реализует разнообразные социальные программы, обеспечивает социальную защиту нуждающимся категориям населения, оказывает поддержку науке, культуре, образованию, здравоохранению, создает рабочие места.

Экологическая функция направлена на создание условий, обеспечивающих экологическое благополучие граждан и экологическую безопасность государства. В нормативных правовых актах государство закрепляет порядок деятельности государственных органов, формы участия в этой деятельности общественных объединений, меры ответственности за нарушение экологического законодательства.

Функция охраны правопорядка (поддержания порядка) – деятельность государства, направленная на полное, последовательное и точное осуществление его нормативных предписаний всеми субъектами права. Для поддержания порядка государство выполняет ряд вспомогательных функций, таких как регулирование и координация работы других органов власти, определение прав и обязанностей граждан, поддержание армии и полиции. Государство гарантирует каждому защиту его прав, свобод и законных интересов.

Политическая функция государства связана с регулированием отношений социальных слоев, групп давления с тем, чтобы их противостояние не превратилось в гражданскую войну и находилось в рамках, установленных государством. Государство принимает нормативные правовые акты, касающиеся определения порядка расследования и судебного рассмотрения уголовных дел. От имени государства осуществляется уголовное преследование, а также от имени государства осуществляется применение уголовного наказания. В судебном порядке разрешаются наиболее значимые административные нарушения.

Внешние функции государства – это деятельность государства за пределами его территории и во взаимоотношениях с другими государствами. Внешние функции государства:

1. функция обороны страны;
2. функция поддержания мирового порядка;
3. функция взаимовыгодного сотрудничества государств.

Функция обороны страны заключается в поддержании достаточного уровня обороноспособности страны. Вооруженные силы

страны должны защищать государство от внешнего вторжения, выполнять международные обязательства по улаживанию конфликтов.

Функция поддержания мирового порядка – деятельность по сохранению мира, борьбе с организованной преступностью, наркобизнесом, терроризмом; участие в урегулировании межнациональных и межконфессиональных конфликтов.

Функция взаимовыгодного сотрудничества государств основывается на сотрудничестве государств в таких сферах, как экономика, политика, культура и другие сферы. Данная функция основывается и на решении глобальных мировых проблем. Глобальными мировыми проблемами являются защита мирового океана, охрана растительного и животного мира, борьба с эпидемиями и наиболее опасными болезнями, предотвращение и ликвидация последствий крупных производственных катастроф. Говоря о решении глобальных мировых проблем в современных условиях, можно отметить такой пример, как пандемия COVID-19 в мире. 172 страны, в которых живет 70 процентов населения планеты, участвуют в созданном под эгидой Всемирной организации здравоохранения альянсе COVAX – программе международного сотрудничества по разработке и производству вакцин от COVID-19.

Функции государства также классифицируются по продолжительности действия, по степени важности выполняемых задач. По продолжительности действия функции государства подразделяются на постоянные и временные. Постоянные функции государства реализуются на всех этапах развития государства, а временные функции государства возникают в силу необходимости решения каких-либо чрезвычайных задач. По степени важности выполняемых задач функции государства подразделяются на основные и неосновные. Основными функциями государства являются функции, которые связаны с главными задачами государства (оборона страны, создание вооруженных сил, охрана границ государства), а неосновными функциями государства являются функции, которые связаны с задачами входящие в более узкое направление деятельности государства (строительство электростанции, организация товароснабжения).

Термин «гражданское общество» восходит к древнеримскому слову civitas и обозначает гражданскую общину, члены которой (римляне) были субъектами римского гражданского права (ius civile). Слова civitas, civis, ius civile при этом имели синкретичный (слитный) смысл, без различения их политических и неполитических значений. В дальнейшем политическое значение сохранилось в слове «гражданин», а неполитическое – в термине «гражданское общество», «гражданское право» [9, с. 4]. Рассмотрим воззрения мыслителей прошлого для выяснения генезиса понятия «гражданское общество».

В античный период тема гражданского общества прослеживается в работах таких мыслителей как Аристотель, Платон, Сократ, Цицерон, Демокрит. Платон в рамках общей теории «идеального государства» указал элементы гражданского общества. Платон критиковал государственную власть и тем самым создал учение об «идеальном человеческом обществе». Базой понятия «гражданское общество» стало учение о добродетелях, мудрости, мужестве, просветленном эмоциональном состоянии. Развивая идеи об идеальном государстве, Платон пришел к выводу, что кроме государственно-организованной есть и другие формы жизнедеятельности общества.

Впоследствии тему гражданского общества стал рассматривать ученик Платона Аристотель. Аристотель в работе «Политика» писал: «Прежде чем определить, что есть государство, необходимо выяснить понятие «гражданин», ибо государство есть не что иное, как совокупность граждан, гражданское общество» [9, с. 4].

Для Аристотеля гражданское общество – это организованное сообщество общест-

венных и равных граждан, которые объединяются для общего пользования и подчиняются общему представителю общественного устройства (государству-полису), которое сами же для себя определяли [1, с. 375]. Идеи, высказанные Аристотелем, сформировали основу для дальнейшего развития концепций гражданского общества, которые в определенной степени стали развитием и систематизацией взглядов античных мыслителей. Однако следует отметить, что во времена античности понятие «гражданское общество» не было сформировано и не являлось определенной категорией. В античный период происходило лишь осознание роли ряда факторов в объяснении и решение такого теоретически трудного вопроса, как происхождение государства и других феноменов.

Дальнейшее становление идей гражданского общества принято связывать с возникновением христианства. Идеи античных мыслителей перешли в средневековую философскую мысль. Средневековые мыслители полагали, что благо отдельного человека, общества определяется божественным замыслом. Если человек нарушит божественный закон, то он осуществит действие, направленное против его собственного блага. Существенный вклад в развитие идей гражданского общества внесли такие мыслители, как Джон Локк, Жан Жак Руссо, И.Кант, Г.Гегель.

Английский философ Джон Локк и его сторонники понимали гражданское общество как этическое сообщество полноправных и свободных граждан, которые равны в своем достоинстве и живут по естественным законам до и вне политики. Дж.Локк употреблял такое понятие, как естественное состояние, которое очень похоже на нынешнее понимание гражданского общества. Он считал, что естественные права и свободы человека существовали и в догосударственном состоянии. Естественное состояние – это «состояние полной свободы в отношении действий и распоряжения своим имуществом и личностью», «состояние равенства, при котором всякая власть и всякое право являются взаимными, никто не имеет больше другого». Он выделял такие естественные права, как жизнь, свобода и частная собственность. В естественном состоянии люди рождаются свободными и равными в правах [8, с. 137]. Отсюда исходит то, что естественное состояние, о котором писал Дж.Локк, очень похоже с пониманием гражданского общества, так как состояние полной свободы, состояние равенства является одним из главных признаков гражданского общества.

Особый взгляд известного мыслителя французского Просвещения Ж.Руссо на сущность гражданского общества значительно отличался от взглядов его предшественников. Понятие гражданского общества было сформулировано в его работе «Об общественном договоре, или «Принципы политического права». Гражданское общество он называл «гражданским состоянием». «Иной мнит себя повелителем других, что не мешает ему быть рабом в большей еще мере, чем они», – так начинается его работе «Об общественном договоре, или Принципы политического права» [11, с. 151-256]. Этими слова Ж.-Ж. Руссо хотел сказать, что гражданское общество – это общество, преобразованное в государство с помощью общественного договора. Ж.-Ж. Руссо отмечал, что народ имеет право на свержение абсолютизма и отчуждение от власти демократически избранного правительства. Отсюда видно, что известный мыслитель провозглашал народный суверенитет. Ж.-Ж. Руссо в трактате «Рассуждение о происхождении и основаниях неравенства между людьми», также рассматривал идею гражданского общества. В трактате «Рассуждение о происхождении и основаниях неравенства между людьми» он связывал гражданское общество с отношениями собственности. Смысл гражданского общества, по мнению Ж.-Ж. Руссо, заключается в «хищничестве богачей, разбое бедняков». Ж.-Ж. Руссо писал: «Первый, кто, огородив участок земли, придумал

заявить: Это мое! и нашел людей достаточно простодушных, чтобы тому поверить, был подлинным основателем гражданского общества» [12, с. 31-108].

Философскую характеристику устоев гражданского общества можно увидеть у немецкого философа И. Канта, который в своей работе «Идея всеобщей истории во всемирно-гражданском плане» отмечал: гражданская свобода личности должна быть обеспечена правом на законодательной основе; гражданская свобода личности является необходимым условием самосовершенствования и сохранения человеческого достоинства. И.Кант считал, что каждый имеет врожденное право на свободу. Но для того, чтобы реализовать и сохранить эту свободу, он должен войти в гражданское состояние, которое регулируется общественным договором.

В отличие от своих предшественников немецкий философ Г. Гегель рассматривал гражданское общество в совсем ином контексте. В работе «Философия права» Г.Гегель утверждал, что гражданское общество идёт после семьи, но до государства. В понимании немецкого философа гражданское общество – это дифференциация, которая выступает между семьей и государством, но развитие гражданского общества наступает позднее, чем развитие государства. Гегель утверждает, что в гражданском обществе существует ограниченность интересов и отношений, в государстве же воплощаются саморазвивающиеся идеи всеобщего материального и духовного начала [5, с. 208].

В XIX веке гражданское общество рассматривался как часть общества, которая обеспечивает права индивидов и не зависит от государства. Гражданское общество – это общество, в котором действует множество автономных экономических ассоциаций и деловых фирм, конкурирующих между собой. В XX веке известный вклад в развитие теории гражданского общества внес итальянский философ и политический деятель Антонио Грамши.

В своих трудах Антонио Грамши утверждает:

1. Гражданское общество служит господствующему классу.
2. Взаимоотношения между гражданским обществом и государством зависят от зрелости гражданского общества.
3. Задача гражданского общества – спасать государство от революционного натиска граждан, а граждан – от государства [6, с. 422].

Интересен и подход Ю.М. Резника, который период развития современного гражданского общества условно делит на три этапа.

1. Этап формирования частной сферы и частных институтов гражданского общества в странах Западной Европы и Северной Америки. Этот этап охватывает конец XVIII века - первую четверть XX в;
2. Этап формирования общественной сферы и общественных институтов гражданского общества в разных регионах мира. Этот этап охватывает 20-70-е годы XX века;
3. Этап коэволюционного и взаимодополняющего развития частных и общественных сфер, а также становления или реставрации гражданского общества в бывших социалистических странах. Этот этап охватывает начало 80 – конец 90-х годов XX века.

Согласно теории Ю.М. Резника, современный мир выработал три основные модели общественного развития – общество «персоналистического» типа, общество «коммунитарного» типа и общество «корпоративного» типа. Общество «персоналистического» типа – США и Канада, общество «коммунитарного» типа – страны Западной и Восточной Европы, общество «корпоративного» типа – Япония, Южная Корея.

«Персоналистическое» гражданское общество базируется главным образом на утверждении личностной автономии и расширении гражданских прав и свобод. В

персоналистической модели центр тяжести переносится на свободу. В данной модели свобода признается наивысшей ценностью. Общественные проблемы должны решаться самим обществом, а не всесильным и могущественным государством. Центральной фигурой гражданского общества данного типа является свободная и независимая личность.

«Коммунитарное» гражданское общество основано на признании легитимности коллективных и общезначимых ценностей общественных движений. Общезначимые ценности общественных движений ориентированы на достижение всеобщего благополучия и гражданского мира.

«Корпоративное» гражданское общество выступает своего рода представителем всеобщих интересов общественных и частных корпораций, каждая из которых вырабатывает и поддерживает собственный правовой кодекс.

В конце XX века произошла трансформация сущности понятия «гражданское общество». Гражданское общество является щитом индивидов от чрезмерной государственной опеки. В современном понимании же гражданское общество – это самодостаточная, не зависящая от государства сфера общественных отношений, где индивидуальное, коллективное и государственное находятся в сбалансированном состоянии. Такая согласованность отношений возможна при наличии экономической свободы, многообразия форм собственности, рыночных отношений. Гражданское общество способствует развитию и укреплению демократических институтов. Субъекты гражданского общества независимы друг от друга, они взаимодействуют как свободные и равные партнеры.

Гражданское общество представляет собой совокупность отношений и институтов, функционирующих независимо от политической власти. Необходимым условием функционирования такого общества служит существование автономных социальных факторов и типа личности, определяемого такими чертами, как достаточная автономность от государства, способность конструктивно взаимодействовать с другими личностями во имя общих целей, а также способность подчинять частные интересы общему благу, выраженному в правовых нормах.

Между характером общественного устройства и доминирующим типом личности существует двусторонняя связь. С одной стороны, для формирования общности свободных граждан требуются соответствующие институциональные предпосылки, а с другой стороны, существование гражданского общества предполагает наличие соответствующего типа граждан.

**Литература:**


1. Аристотель. Политика. Соч.: в 4 т. – М.: Мысль, 1984. – Т. 4. – С. 644.
2. Байрамов Ф.Д., Аббасов Ф.И. К вопросу о понятии «функции государства». История государства и права. 2003. № 5. с.9
3. Бошно С.В. Теория государства и права. Кнорус, 2018. - 406 с.
4. Бибило, В.Н. Теория государства и права. (Серия «Высшее образование»). – Минск: Право и экономика, 2015. – 206 с.
5. Гегель Г.В.Ф. Философия права. Пер. с нем. М.: Мысль, 1990. 524 с.
6. Грамши А. Избранные произведения: [пер. с итал.] / [Под общ. ред. И. В. Григорьевой и др.]. - М.: Политиздат, 1980. - 422 с.
7. Демократия: теория и политическая практика. Метод. рекомендации по курсу «Политология» /Московский гос. ин-т электроники и математики (технический университет); Сост.: Н.В.Панина, П.А. Коньков. - М.: 2008. - 27 с.
8. Локк Дж. «Два трактата о правлении» Соч.: в 3 т. Т. 3. – М.: Мысль, 1988.
9. Лагуткин А.В., Трубников В.И., Грудцына Л.Ю. Гражданское общество в современной России. - М. : ЮРКОМПАНИ, 2013.
10. Радомысльский Я. И. Государство и власть. Глава 1. Государство. Онлайн книга/ kartaslov.ru
11. Руссо, Ж.-Ж. Об общественном договоре, или Принципы политического права / Ж.-Ж. Руссо // Трактаты. – М.: Наука, 1969. – 413с.
12. Руссо, Ж.-Ж. Рассуждение о происхождении и основаниях неравенства между людьми / Ж.-Ж. Руссо // Трактаты. – М.: Наука, 1969. – 413с.


***Ключевые слова:*** *государство, гражданское общество, функции государства, «коммунитарное» гражданское общество, «персоналистическое» гражданское общество, «корпоративное» гражданское общество*

**Sevda Rzayeva**
*Azərbaycan Respublikasının Prezidenti yanında*
*Dövlət İdarəçilik Akademiyasının*
*Politologiya və siyasi idarəetmə kafedrasının dosenti,*
*tarix üzrə fəlsəfə doktoru*

# DÖVLƏT VƏ VƏTƏNDAŞ CƏMİYYƏTİNİN TƏHLİLİ NƏ NƏZƏRİ YANAŞMA

## XÜLASƏ

Bu məqalədə dövlət və vətəndaş cəmiyyəti anlayışının mahiyyəti, onların xüsusiyyətləri və funksiyaları araşdırılır. Dövlətin əsas məqsədi həm cəmiyyətin, həm də ayrı-ayrı vətəndaşların mənafe və hüquqlarını qorumaqdır. Dövlət ictimai münasibətlər sisteminin tərkib elementi olmaqla vətəndaş cəmiyyətini tamamlayır və onun mütərəqqi inkişafını təmin edir.Vətəndaş cəmiyyəti sosial fenomen kimi dövlətlə, dövlət hakimiyyəti ilə üzvi əlaqədədir. Vətəndaş cəmiyyəti insanların sivil ictimai-siyasi təşkilatlanmasının əsasında duran fundamental ideyalardan biridir. Məqalədə vətəndaş cəmiyyətinin 3 əsas növləri: "kommunitar" vətəndaş cəmiyyəti, "şəxsiyyətçi" vətəndaş cəmiyyəti, "korporativ" vətəndaş cəmiyyəti geniş şəkildə təhlil olunaraq işıqlandırılmışdı.

***Açar sözlər:*** *vətəndaş cəmiyyəti, dövlət, dövlətin funksiyaları, "kommunitar" vətəndaş cəmiyyəti, "şəxsiyyətçi" vətəndaş cəmiyyəti, "korporativ" vətəndaş cəmiyyəti*

**Sevda Rzayeva**
*The Academy of Public Administration*
*under the President of the Republic of Azerbaijan*
*Doctor of Philosophy in History, Associate Professor*

# THEORETICAL APPROACH OF THE ANALYSIS OF THE STATE AND CIVIL SOCIETY

## ABSTRACT

The article examines the essence of the concept of state and civil society, their features and functions. The state's main goal is to protect society's and individual citizens' interests and rights. The state, an integral element of the system of social relations, complements civil society and ensures its progressive development. Civil society as a social phenomenon is connected with the state and state power. Civil society is one of the fundamental elements underlying the civilized socio-political organization of people. The article extensively analyzes three main types of civil society: "communitarian" civil society, "personal" civil society, and "corporate" civil society.

***Keywords:*** *civil society, state, functions of the state, "communitarian" civil society, "personalistic" civil society, "corporate" civil society*

## SİYASİ İNSTİTUTLAR VƏ SİSTEMLƏR
## POLITICAL INSTITUTES AND SYSTEMS

UOT 32

**ŞAHİN BAĞIROV**
**Azərbaycan Milli Elmlər Akademiyasının Fəlsəfə və Sosiologiya İnstitutunun aparıcı elmi işçisi, siyasi elmlər üzrə fəlsəfə doktoru, dosent**
*e-mail: shahin_bagirov17@mail.ru*

# QLOBALLAŞAN DÜNYADA ELİTANIN SOSİAL-SİYASİ PROSESLƏRDƏ VƏ İDARƏETMƏ SİSTEMİNDƏ ROLU

Qloballaşan müasir dünyada elitanın sosial-siyasi inkişaf prosesinə təsirinin tədqiq olunması xüsusilə aktualdır. Bu problemdəki ziddiyyətlər siyasi elitaların əvvəlcədən resurslara, strateji baxımdan mühüm qərarların qəbul olunmasında azadlığa malik olan və cəmiyyətə məqsədyönlü idarəetmə təsirini göstərməyi bacaran sosial subyektlər kimi fəaliyyəti ilə müəyyən edilir. Qeyd edək ki, siyasi elitaların tərkibinin və konfiqurasiyasının dəyişdirilməsi, elitar qruplar arasında münasibətlərin xarakteri, siyasi rəqabətin dərəcəsi, siyasi elitalar dövranının xarakteri, onların formalaşması və rekrutasiyası üsulları elitadaxili transformasiyanın öyrənilməsinin əsas aspektləridir. Əslində, qloballaşma şəraitində elita qruplarının tədqiqində onların genezisinə və morfologiyasına marağın artması təsadüfi deyil. Çünki cəmiyyətdə onların rolu məhz cəmiyyətin sosial-iqtisadi strukturunda aparılan islahatlar zamanı artır. Siyasi elitaların da tədqiqinin aktuallığı həm də müasir Azərbaycanın siyasi həyatında onların fəaliyyətinin getdikcə artan rolu, eləcə də onların əlində yerli və regional səviyyələrdə ölkənin hakimiyyət və idarəetmə resurslarının davamlı şəkildə cəmləşməsi ilə bağlıdır. O cümlədən, siyasi elitaların qapalılıq dərəcəsi, onların formalaşma və fəaliyyət göstərmə prinsipləri cəmiyyətdə baş verən prosesləri izah etməyə kömək edəcək. Bu da bilavasitə, sosial - siyasi inkişaf prosesinə siyasi elitanın təsirinin öyrənilməsini mühüm amil kimi ortaya qoyur. Qeyd olunmalıdır ki, hazırda Azərbaycanın sosiomədəni məkanında regional səviyyədə mövcud olan yüksək statuslu qrupların tədqiq olunması siyasi rejimlərin, hakimiyyət institutlarının və siyasi elitaların dəyişilməsində, siyasi sistemlərin və vətəndaş cəmiyyətinin qarşılıqlı təsir proseslərinin mürəkkəbləşməsində biruzə verilən radikal transformasiya ilə bağlı problemlərin həlli üçün zəruri şərtdir. Çünki köhnə sosial gerçəkliyin dağıldığı və yenisi, daha müasiri yaradıldığı dövrdə qabaqcıl mövqelər elitaya məxsusdur. Bununla əlaqədar onun modernləşmə, ölkənin bütün iqtisadi, sosial, elmi-texniki, siyasi və dövlət strukturunun frontal reformasiya dövründə yeri və rolunun müəyyən edilməsi də zəruri şərtlərdən hesab olunur. Qeyd edək ki, elita üzvləri yüksək sosial status sayəsində, baş verən siyasi proseslərə təsir etməyə, cəmiyyətin inkişafının xarakterini və trayektoriyasını müəyyən etməyə, müxtəlif sosial strukturların maraqları arasında müvazinət saxlamaqla ictimai proseslərə sabitləşdirici təsir göstərməyi bacarırlar.

Qərbin sosial-siyasi elmində elitist yanaşma sosial təbəqələşmə nəzəriyyələri sırasında aparıcı yer tutur. Müasir elitist yanaşmanın digər müasir konsepsiyalarını özündə birləşdirən, elitanın tipologiyası və klassifikasiyası üçün lazım olan növlərini aşağıdakı kimi xarakterizə etmək olar:

Elita və onun nümayəndələrinin xüsusiyyət və xarakteri;

Elitanın tərkibində qarşılıqlı münasibət və birlik dərəcələri;

Elitanın kütlələrlə münasibətinin metod və xarakteri;

Elitanın cəmiyyətdə rolu;

Elitanın iş metodu və yolları (formalaşması və təchizatı). (10, s.17).

Elita nəzəriyyələri bütövlükdə hakimiyyət və onun daşıyıcıları ilə bağlı siyasətə aid olduğundan onun təsnifatında "siyasi elita" və yaxud "elita" anlayışının işlənməsi fərqli anlam kəsb etmir. Digər tərəfdən, başqa elita nümayəndələri də dövlət siyasətinin ayrı-ayrı sferalarında fəaliyyətləri ilə bilavasitə, mövcud siyasi kursa xidmət nümayiş etdirirlər. Politologiyada elita öz fəaliyyətində yüksək indeksə malik insanlara aid edilir. "Elita" anlayışı "hakim yuxarılar", "hakim təbəqə", "hakim dairə" mənalarında başa düşülür. Əlbəttə, bu mənada söhbətin siyasi elitadan – hakimiyyət daşıyıcısından getdiyi birmənalı şəkildə öz təsdiqini tapır. Lakin siyasi elita anlayışı hakimiyyət daşıyıcısılarına müxalif mövqedə duran, cəmiyyətdə cərəyan edən siyasi proseslərə ciddi təsir edə bilən bir sıra siyasi təsisat təmsilçilərinə də aid olunur. Odur ki, siyasi elitanın hakim elita ilə bərabər həm də kontrelita ilə (müxalif elita) birlikdə təşkil olunduğu başa düşülür. Bu, eyni zamanda cəmiyyətin siyasi sistemini təşkil edir. Həm də elita nəzəriyyələrinin özü də məhz siyasi sahədə təsnifləndirildiyindən politologiyada bu anlayış mühüm bir siyasi kateqoriya kimi qəbul olunur.

Elitaların öyrənilməsinə qərb politologiyasının və siyasi sosiologiyasının "əsas axını" adlandırılan cərəyanını təşkil edən, özlərinin pozitivist və obyektivist oriyentasiyasını, siyasi və ideoloji qərəzsizliyini vurğulayan politoloqların arasında maraq daha da artdı. Daha əvvəllər məhz bu cərəyanlardan elitalar nəzəriyyəsinin ən ciddi opponentləri çıxırdı, məhz bu dairələrdən elitistlərin ünvanına ən kəskin tənqidlər də gəlirdi. Beləliklə, vaxt ötdükcə elitalar probleminə münasibət elmi ictimaiyyətin bu hissəsində də dəyişməyə başladı. "Elita" anlayışı yenidən kifayət qədər geniş elmi dövriyyəyə girdi. O, sadəcə özünə qapanmış "qapalı" siyasi qruplaşmaları ifadə etməyi dayandıraraq, öz məzmununu bir qədər dəyişdirdi. İndi "elita" termini hər şeydən daha çox politologiyanın "siyasi rəhbərlik", "qərarların qəbul olunması mərkəzləri", "dövlət idarəçiliyinin mərkəzi həlqələri", "siyasi sistemin idarə edən strukturları" kimi bir sıra anlayışlarının sosioloji ölçüləri üçün xidmət etməkdədir. Odur ki, son illər mətbuatda, elmi ədəbiyyatda çox tez-tez "elita" anlayışı və onun müxtəlif variantları – "iqtisadi elita", "biznes elita", "siyasi elita" və s. işlənir (2, s.32).

Qeyd olunmalıdır ki, hələ lap qədimlərdən insanlıq iki təbəqəyə – "hökmranlıq edən qrup" və "kütləyə" bölünürdü. Klassik elitist nəzəriyyələrə görə, elitanın əlində xüsusi qabiliyyət və idarəetməyə xas olan siyasi hakimiyyət olmalıdır. Xalq kütlələrini isə elitistlər elitanın hər bir əmrini gözüyumulu şəkildə həyata keçirən kütlə kimi qiymətləndirirlər. Sözsüz ki, bu nəzəriyyələr istismarçı siniflərin özünəməxsus ideologiyasının ənənəvi baxışlarının nöqteyi-nəzərləridir. Əsrlər boyu elitizm "kütləvi cəmiyyət" haqqındakı təlim və nəzəriyyələr, burjua ideologiyası, kapitalist istismarının məhsulları, nəticələri kimi qiymətləndirilir və şərh olunurdu. Bu barədə yüzlərlə əsərlər, elmi-tədqiqat işləri araşdırılaraq təhlil edilib. Bu təhlillər sovet quruculuğu illərində SSRİ-də, habelə sosializm quruluşunu seçən kommunist ideologiyalı ölkələrdə, həmçinin Azərbaycanda, "bizim cəmiyyətə" yad bir təlim kimi çatdırılıb. Guya kommunizm quruluşunda belə nəzəriyyələr qeyri-mümkündür. Əslində bu problemlərin kökünü tarixin inkişafında bu təlim və nəzəriyyələrin təşəkkülündə axtarmaq lazımdır. Elitizm nəzəriyyələrinin yeni təlimlərinə tarixdə xalq kütlələri və şəxsiyyətin roluna idealist baxışın sadəcə olaraq köhnə təkrarı kimi yanaşmaq düzgün olmazdı. Xalq kütlələri və elita tarixi prosesin bir-biri ilə qırılmaz əlaqələri olan iki qütbünü təşkil edir. Tarixin birlikdə cəmiyyəti təşkil edən böyük

insan kütlələrinin hərəkətlərindən yarandığı məlumdur. Bu, bir-birini əvəz edən nəsillərin gördüyü işin nəticəsidir, burada öz cəhdləri, ümidləri və səyləri olan çoxsaylı insanlar iştirak edir. Lakin tarix təsadüfi bir proses deyildir, onu təkcə kütlələr deyil, həm də şəxsiyyətlər, xüsusilə tarixi hadisələrə öz fəaliyyətinin təsirini göstərən görkəmli elitar qruplar yaradırlar. Buna görə də bəşər tarixinin dərk edilməsi, bir tərəfdən, böyük insan kütlələrini, bütöv xalqları fəaliyyətə sövq edən qüvvələrin, digər tərəfdən, hadisələrə başçılıq edən elitanın həmin prosesə təsirinin xarakterini və dərəcəsini təhlil etməyi zərurət kimi ortaya çıxarır. Xalqla elitanın vəhdəti özünü onda göstərir ki, elita xalq ruhunun daşıyıcısı olsun. Xalq içərisindən çıxmış elita öz xalqına məhəbbət bəsləməli, xalqın əxlaqi idealına uyğun gəlməlidir.

Qeyd edək ki, xalqların tarixini, mədəniyyətini, ədəbiyyatını, incəsənətini, məişətini, adət-ənənələrini, ekologiyasını dərindən öyrənmədən ayrı-ayrı şəxsiyyətlər haqqında düzgün mühakimə yürütmək mümkün deyildir. Xalqların sosial-mənəvi və dini-əxlaqi sərvətlər sistemini dərindən öyrənməklə şəxsiyyət tipləri haqqında əsaslı şəkildə söhbət aparmaq olar. Ayrı-ayrı regionların və bölgələrin dərindən mənimsənilməsi həm tarixi proses haqqında, həm də xalq və şəxsiyyət, eləcə də elita haqqında bilikləri artırmaq mümkündür. Ayrı-ayrı dövlətlərin və dünya xalqlarının konkret tale və inkişaf yolları sivilizasiyaların parametrləri ilə müəyyən olunur. Xüsusilə qeyri- Avropa ənənələrindən söhbət gedərkən bunun təsiri daha da aydın hiss olunmaqdadır. Bəşər tarixinin tədqiqi bir daha sübut edir ki, onu insanlar yaradırlar, lakin özbaşına, öz istədiyi kimi deyil, kütlələrin, siniflərin və ayrı-ayrı şəxsiyyətlərin iradəsini və bütün tarixi fəaliyyətini şərtləndirən müəyyən tarixi şərait daxilində, obyektiv qanunlar üzrə yaradırlar. İnsanların tarixi fəaliyyətini son nəticədə müəyyən edən əsas - onların maddi və mənəvi həyatıdır. Maddi istehsalın inkişafı, istehsal üsulunun dəyişilməsi – ictimai quruluşun xarakterini və bir ictimai formasiyanın başqasını əvəz etməsini müəyyən edən əsas cəhətdir. Maddi istehsalın başlıca qüvvəsi və hərəkətvericisi isə xalq kütlələridir. Buna görə də cəmiyyətin tarixi hökmdarlar, çarlar, şahlar, fatehlərin və qanunvericilərin tarixi deyil, hər şeydən əvvəl, bütövlükdə İnsanlıq tarixidir. Deməli, tarixin əsil yaradıcısı xalqdır. Tarixən insanlar cəmiyyətin maddi həyatını istehsal və təkrar istehsal edir, istehsal alətlərini təkmilləşdirir, istehsal təcrübəsi toplayır və bununla da elmin, texnikanın, incəsənətin inkişafı üçün baza yaradırlar. Hətta insanların üzücü və əsarətli fiziki əməyə məhkum edilmiş olduqları, elmin, texnikanın və mədəniyyətin elita tərəfindən inhisara alınmış olduğu cəmiyyətlərdə istehsal texnologiyasının, əmək alətlərinin təkmilləşdirilməsinin mənbəyi istehsal edənlərin həyat təcrübəsi, daha dəqiq desək, istehsal təcrübəsi olmuşdur. Əslində bütün təkmilləşdirmə və ixtiralar «bütünlüklə və yalnız ictimai təcrübədən və müşahidələrdən meydana gəlir, bu təcrübə və müşahidələr isə, böyük miqyasda məcmu fəhlənin həyata keçirdiyi istehsal sayəsində mümkün olur və yaranır» (3, s.84).

Elitist təlimlərin müəllifləri müasir ictimai münasibətlərin daha elmi təhlillərini verməyə çalışaraq ən yeni arqumentlər axtarır və qəti şəkildə inandırmağa çalışırlar ki, yalnız elitizm və «kütləvi mədəniyyət» probleminin düzgün mövqeyini öyrəndikdən sonra zəmanəmizə xas olan dinamik hadisələrin, sülh və müharibələrin səbəblərini tapmaq olar.

«Dünyada heç vaxt əsil bərabərlik olmayacaq. İnsanların bir qismi rəhbərlik etmək üçün, çoxluq təşkil edən digər qismi isə tabeçilik altında yaşamağa təhkim olmuşdur. Bu isə elita və passiv kütlənin olmasını zəruriləşdirən ən mühüm şərtlərdir» – bu kiçik ifadə müasir ideologiyanın, mədəniyyətin müəyyən hissəsi haqqında irəli sürülən nəzəriyyənin xülasəsidir. «Elita», «kütləvi cəmiyyət» bu anlayışlar müasir sosioloqların, mədəniyyətşünasların əsərlərində təcəssüm tapan mövzulardır. «Elitizm» və «kütləvi cəmiyyət» mövzularına

toxunaraq bu nəzəriyyəçilər bəşəriyyətin tarixi, strukturu və müasir cəmiyyətin sosial dinamikasını aydınlaşdırmağa cəhd göstərirlər. Amerikalı sosioloq U.Kornhauzer təsdiq edir ki, bu anlayışlar müasir mədəniyyətşünaslıq və sosioloji ədəbiyyatlarda əsas hadisələrdən birinə çevrilmişdir (16, s.122).

Antik dövrün görkəmli filosofu Aristotel „Siyasət" əsərində üç əsas suala cavab verməklə vəzifə tutmağın mahiyyətini açmağın mümkünlüyünü göstərirdi. Birinci, kim vəzifəyə təyin edir, ikinci, kimlərdən vəzifəyə təyin olunur, üçüncü, hansı cür təyin olunur (1, s.331).

Qeyd edək ki, dövlət vəzifəsinə təyin olunma mərkəzləşdirilmiş monarx idarəçilik formasının tətbiq olunduğu bütün dövrlərdə əsas üsul olmuşdur. Müasir dövrdə isə Konstitusiya, qanunlar və normativ aktlara uyğun olaraq təyin olunma geniş tətbiq olunmaqla bir neçə formada aparılır. Birinci, birbaşa təyin olunma; ikincisi, təyinolunma haqqında qərar başqa orqanlarla razılaşdırılmaqla qəbul edilir; üçüncüsü, təyin olunma haqqında bir orqanın təqdimatı-digər orqan tərəfindən baxılmaqla qərar qəbul edilir; dördüncüsü, təyin olunma haqqında qərar təsdiq üçün başqa orqana təqdim edilir, beşinci, təyin olunma haqqında bir orqanın təqdimatı başqa orqan tərəfindən təsdiq olunur, üçüncü orqan isə təyin olunma haqqında qərar qəbul edir (4, s.234). Bu və ya digər faktorlar cəmiyyətin elitarlığının əsasını yaradır. Qeyd edək ki, siyasi elitanın özü daxilən differensialdır. Birbaşa dövlət hakimiyyətinə malik idarəçilik - bu hakimiyyət elitasıdır. Bütün ölkə üçün vacib qərarlar verən müxalifət (kontrelita), orta, yəni ictimai fikrin barometri rolunu oynayanlar (əhalinin 5%-ni təşkil edir), inzibati - bu məmurlar, idarəçilər, bürokratiyaya daxil olanlardır, eləcə də partiyalarda müxtəlif siyasi elita, siniflər və b. Siyasi elitanın məhdudlaşdırılması, onlar arasındakı qarşılıqlı əlaqəni və təsiri inkar etmir.

Qeyd edək ki, qloballaşma prosesinin özündə də bilavasitə, cəmiyyətin elita qruplarının fəaliyyəti mühüm əhəmiyyət kəsb edir. Çünki elitanın səmərəliliyi cəmiyyətin inkişafının və onun dəyişmə perspekrivlərinin göstəricisidir. Odur ki, qloballaşma dövründə siyasi prosesin bir subyekti kimi „siyasi elita" anlayışını aşağıdakı kimi dəqiqləşdirmək mümkündür:

– Siyasi elitanın strukturlaşma meyarlarını açıqlamaq;
– Azərbaycan cəmiyyətinin demokratikləşməsi şəraitində siyasi elitanın sosial nümayəndəlik xüsusiyyətlərini meydana çıxarmaq;
– Qloballaşma şəraitində ölkənin siyasi elitasının rekrutlaşdırma mexanizmlərini müəyyən etmək;
– Siyasi elitanın fəaliyyətində spesifik xüsusiyyətləri, qloballaşma şəraitində onun səmərəliliyinin səviyyəsini müəyyən etmək.

Siyasi elitanın siyasi prosesin subyekti kimi anlayışını dəqiqləşdirsək, müəyyən edilər ki, o, cəmiyyəti idarə edən və ən açıq-aşkar ifadə olunan siyasi-idarəetmə keyfiyyətləri daşıyanları xarakterizə edir. Belə ki, elitaların səmərəlilik səviyyəsinin təhlil olunması üçün elitist yanaşmanı realizə etməyə imkan verən əsas yanaşmaları da bu yanaşmada müəyyənləşdirmək olar. Həmçinin, siyasi elitanın strukturlaşdırma meyarları da bütövlükdə, siyasi gerçəklikdə siyasi elitanın tipləri və formalarının yaranmasına gətirib çıxarır (14, s.73).

Qloballaşma şəraitində Azərbaycan Respublikasının regionlarının idarə edilməsində siyasi baxımdan yeni, müasirləşən milli elita rol alıb. Onun funksiyalarını siyasi idarəetməni həyata keçirən liderlər yerinə yetirir və məhz onların fəaliyyətindən mərkəzlə regionlar arasındaki siyasi münasibətlərin necə qurulacağı, elitaların regiondaxili qarşılıqlı əlaqələrinin necə olacağı asılıdır.

Qeyd edək ki, qloballaşma prosesinin özündə də bilavasitə, cəmiyyətin elita qruplarının fəaliyyəti mühüm əhəmiyyət kəsb edir. Çünki elitanın səmərəliliyi cəmiyyətin inkişa-

fının və onun dəyişmə perspektivlərinin göstəricisidir. Odur ki, qloballaşma dövründə siyasi prosesin bir subyekti kimi "siyasi elita" anlayışını aşağıdakı kimi dəqiqləşdirək:

– Siyasi elitanın strukturlaşma meyarlarını açıqlamaq;
– Azərbaycan cəmiyyətinin demokratikləşməsi şəraitində siyasi elitanın sosial nümayəndəlik xüsusiyyətlərini meydana çıxarmaq;
– Qloballaşma şəraitində ölkənin siyasi elitasının rekrutlaşdırma mexanizmlərini müəyyən etmək;
– Siyasi elitanın fəaliyyətində spesifik xüsusiyyətləri, qloballaşma şəraitində onun səmərəliliyinin səviyyəsini müəyyən etmək (2, s.4).

Siyasi elitanın siyasi prosesin subyekti kimi anlayışını dəqiqləşdirsək, müəyyən edilər ki, o, cəmiyyəti idarə edən və ən açıq-aşkar ifadə olunan siyasi-idarəetmə keyfiyyətləri daşıyanları xarakterizə edir. Belə ki, elitaların səmərəlilik səviyyəsinin təhlil olunması üçün elitist yanaşmanı realizə etməyə imkan verən əsas yanaşmaları da bu yanaşmada müəyyənləşdirmək olar. Həmçinin, siyasi elitanın strukturlaşdırma meyarları da bütövlükdə, siyasi gerçəklikdə siyasi elitanın tipləri və formalarının yaranmasına gətirib çıxarır (7, s.73).

Həmçinin, qeyd etməliyik ki, sosial nümayəndəliyin xüsusiyyətləri siyasi elitanın demokratik tipinin mühüm şərti kimi çıxış edir və siyasi elitanın bu tipi hakim elitanın mövqeləşməsinin göstəricisidir.

Digər sferalara da nəzər yetirmək olar. Məsələn, ixtisas təhsil sisteminin əsas elita rekrutlaşdırma kanallarından biri kimi yaradılmasının, Azərbaycanda siyasi islahatın əsas şərtlərindən biri olan yeniləşmiş elitanın formalaşdırılmasının zəruri şərti olduğu müəyyən edilər.

Lakin belə nəticəyə gəlmək mümkündür ki, Azərbaycanın siyasi elitasının formalaşma prosesi hələ ki tam başa çatmayıb. O, lazımi nisbi mütəşəkkillik, bütövlük və birlik keyfiyyətlərinə malik deyil, bu da onun fəaliyyətinin bəzən səmərəsiz olmasına gətirib çıxarır.

Qeyd edək ki, sosial və psixoloji seçmə nəticəsində hər bir iri sosial və peşə qrupunda insanların onların sosial və peşə baxımdan yerinə yetirdikləri rolun keyfiyyətinə və səviyyəsinə görə differensiasiya olunur.

Elita yönəlişliklərin, davranış stereotipləri və normalarının yaxınlığı əsasında birləşmiş, şərik çıxdığı dəyərlərin (bəzən nisbi) ümumiliyinə malik olan sosial birlikdir. Bununla belə real və bəyanolunan davranış standartları xeyli fərqlənə bilər. Elitanın daxili birliyinin dərəcəsi onun sosial, etnik eyniliyindən, əsas elita rekrutlaşdırma modellərindən, üstünlük təşkil edən siyasi liderlik üslubundan asılıdır (12, s.25).

Siyasi elita daxilən möhkəm, cəmiyyətin kiçik bir hissəsini təşkil edən, mühüm strateji qərarları hazırlayan və qəbul edən və ya onların qəbul olunub-olunmamasına təsir edən subyekt kimi çıxış edən və bunun üçün lazımi resurs potensialına malik olan sosial kateqoriya kimi tərif olunub. Hakimiyyət resursları və dəyərlər sistemləri siyasi elitanın seçilməsi üçün əsas parametrlərdir və onlar, öz növbəsində, konkret tarixi, institusional – mədəniyyət xüsusiyyətlərindən asılıdır (13,s.74).

Amerikalı politoloq R.Mills XX əsrin ortalarının ABŞ elitasını təhlil edərkən ona statuslar və strateji rollar qrupu kimi tərif vermişdir. O, bu qrupa "rəhbər vəzifə" tutanları daxil etmişdir. Onun fikrincə, elitanı dövlət rəhbərliyi, korporasiyalar və ordu təşkil edir (10, s.321).

Fransalı politoloq P.J.Şvarsenberq müasir elitanı qapalı kasta kimi tərif etmişdir.

XX əsrin ortalarında Yuqoslaviyalı sosioloq və siyasi xadim M.Cillas sovet tipli elitaların təbiətini meydana çıxarmağa cəhd göstərmişdir. Onun fikrincə, sosialist inqilabından sonra hakimiyyətə keçmiş inqilabçılardan və dövlət bürokratiyasından ibarət yeni siyasi sinif gəlib. Sinfin əsasını Kommunist partiyası təşkil edir. Yeni siyasi sinfin mahiyyəti Qərb ölkələrində olduğu kimi iqtisadi deyil, siyasidir.

Qərb ölkələrində elita istehsal vasitəsi kimi çıxış edən mülkiyyətə sahib olduğu üçün hakimiyyətə malikdir. Öz növbəsində, bu sinif siyasi hakimiyyət üzərində inhisara malik olaraq milli mülkiyyəti özünə tabe edir. Lakin, bəzi müasir rus politoloqları elitanı siyasi inkişafın hərəkətverici qüvvəsi kimi nəzərdən keçirirlər.

Klassik elita nəzəriyyəçiləri Moska, Pareto və Mihels öz əsərlərində aydın şəkildə siyasi elitanı təsəvvür etmişlər. Onlar siyasi elitanın ümumi xüsusiyyətlərini, parametrlərini araşdırıb müasir elitar nəzəriyyələri arayıb qiymətləndirməyə imkan yaratmışlar (bu parametrlər aşağıda istifadə ediləcək).

Bunlara aiddir:

1) elita nümayəndələrinə məxsus əlahiddə xüsusiyyətlər;
2) elitar qatın içində cərəyan edən münasibətlərin mütəşəkkilliyi və həmrəyliyin dərəcəsi;
3) elitanın – elita olmayanlar, kütlə ilə münasibətləri;
4) rekrutivtləşmiş (cəlb edilmiş) elita, yəni necə və kimlərdən yaranmış"
5) elitanın cəmiyyətdə rolu (konstruktiv-əməli və yaxud dekonstruktiv-qeyri-əməli), onun funksiyaları və cəmiyyətə təsiri; (9, s.39-41)

II dünya müharibəsinədək elita nəzəriyyələri İtaliya, Almaniya və Fransada, müharibədən sonra isə ABŞ-da çox yayılmışdır. Bu nəzəriyyələrin əsas variantları bunlardır; "dəyərlər" (Orteqa i Qasset), "Makiavelliçi" (Bernhem), struktur-funksional nəzəriyyə (Keller). Elita nəzəriyyələrinin ümumi cəhətləri aşağıdakılardır:

– tarixi tərəqqinin inkarı (tarix elitanın müəyyən tiplərinin hökmranlığı ilə səciyyələnən sosial tsikllərin məcmusu kimi götürülür);
– xalqın suverenliyi ideyasının romantiklərin utopik əfsanəsi kimi tənqid edilməsi, bərabərsizliyin ictimai həyatın təbii əsası sayılması;
– elitanın devrilməsinə yönəldilən sosial inqilablar həmin inqilabda iştirak edən kütlələrin gözlədiklərinə əks olan nəticələrə – bir elita ilə başqa, daha amansız elita ilə əvəzlənməsinə doğru aparır, müstəbid və totalitar rejimlərə yol açır.

Elitaçılığın müddəası siyasi münasibətləri mütləqləşdirməkdir. Siyasi hakimiyyətə elə sosial münasibətlərin əsası kimi baxılır ki, burada hökmranlıq və tabeçilik münasibətlərini daha da mümkün edir. Elitaçılığın sosial kökləri antaqonist cəmiyyətin istismarçı azlığa və istismar olunan çoxluğa parçalanmasındadır. Elitarçılar tarixi inkişafın cəmiyyətdə məhsuldar qüvvələrin kifayət qədər inkişaf etməməsi ilə bağlı müəyyən mərhələsinə ümumi qanun, "insan təbiətinin" və mürəkkəb istehsalın texnoloji tələbləri kimi baxılır (8, s.251).

Əslində, elitologiyanın predmeti elitanın, onun tərkibinin, fəaliyyət göstərmə qanunlarının, hakimiyyətə gəlməsinin, sosial prosesdə rolunun, onun deqradasiya səbəblərinin və tarixi meydandan getməsinin tədqiq edilməsidir. Uzun müddət politoloqlar siyasi elita anlayışına qarşı çıxmışdılar. Qərb politoloqları isə siyasi plüralizm konsepsiyasının tərəfdarı olmuşlar. Onlar iddia edirlər ki, bu anlayış post-sənaye cəmiyyətinin siyasi sisteminin analizi üçün yol verilməzdir və bunu yalnız az təşkilatlanmış cəmiyyətlər üçün aid etmək olar. Ancaq buna baxmayaraq "elita" sosioloji və politoloji ədəbiyyatda möhkəmlənə bildi (17, s.47).

Cəmiyyətdə siyasi elitaların mövcudluğu bir sıra obyektiv meyillərin təsiri ilə şərtləşdirilir. Cəmiyyət bütün mürəkkəb təşkil olunmuş sistemlər kimi peşəkar idarəedici təsirə ehtiyac duyur, bu da əməyin idarəedənlərə və idarəolunlara bölgüsünü zəruri edir. Cəmiyyətə sosial biliklərə, səriştəyə və təcrübəyə malik olan, idarəetmə funksiyalarını yerinə yetirə bilən insanlar lazımdır. Bundan başqa, cəmiyyətdə siyasi bərabərsizlik müxtəlif sosial qrup və əlillərə siyasətlə məşğul olmaq üçün müxtəlif imkanlar yaradan psixi, sosial və digər

şəraitlərin qeyri-bərabər olmasının nəticəsidir. Onu da nəzərə almaq lazımdır ki, idarəetmə əməyi cəmiyyətdə yüksək qiymətləndirilir və stimullaşdırılır, hakimiyyətə yaxınlıq isə fərdi tələbatların realizə olunması üçün geniş imkanlar yaradır. Bu hal bir çox insanı hakimiyyət strukturlarına can atmağa vadar edir. Nəhayət, siyasi elitanın mövcudluğu geniş əhali təbəqələrinin passivliyi ilə şərtləşdirilir, çünki sonuncular öz gündəlik problemlərini həll etməklə məşğul olaraq siyasətdən uzaq olmağı üstün tutur.

**Ədəbiyyat:**


1. Aristotel. Siyasət. Böyük etika. Bakı, XXl YNE, 2006, 432 s.
2. Bağırov Ş.X. Elitanın sosial nümayəndəliyi // Fəlsəfə. Beynəlxalq elmi-nəzəri jurnal. Bakı, 2010, №1 (14), s.94-98.
3. Mehdiyev R. Zaman haqqında düşünərkən və elitanı transformasiya edərkən: varislik və innovasiyalılıq Bakı: Şərq-Qərb, 2009, 180 s.
4. Rzayev Ə.H. Dövlət qulluğunun hüquqi əsasları. Bakı, Elm, 2011, 479 s.
5. Афонин В. А., Афонин Ю. В. Теория и история культуры. Учебное пособие для самостоятельной работы студентов. – Луганск: Элтон-2, 2008. – 296 с.
6. Дука А. В. Власть между традиционностью и современностью (элиты российской периферии) // Власть и элиты. 2014. Т. 1. С. 399–436.
7. Культурология в вопросах и ответах. Методическое пособие для подготовки к зачетам и экзаменам по курсу «Украинская и зарубежная культура» для студентов всех специальностей и форм обучения. / Отв. Редактор Рагозин Н. П. – Донецк, 2008, — 170 с.
8. Миллс Ч.Р. Властвующая элита. М.: Издательство иностранной литературы, 1959. -543 с.
9. Ортега-и-Гассет Х. Восстание масс // Вопросы философии. 1989. - № 3.- С. 117-154; Продолж.: №4.-С.114-155.
10. Плосконосова В.П. Правящая элита и общество: концептуальные основы анализа / Сиб. гос. автомоб.-дор. акад. (СИБАДИ). Омск, 2001.- 118 с.
11. Соловьев А.И. Специфика поведения российских элит в переходный период // Политические исследования. 1999. №3. С.39-41.
12. Тарусина И.Г. Элитисты и плюралисты в современной политической теории // Полис. 1997. - № 4. - С. 148-153.
13. Магомедов А. К. Политическая элита и политическая идеология. Региональные элиты и региональный политический вызов в посткоммунистической России // Известия Саратовского университета. Новая серия. Серия Социология. Политология. 2011. Т. 11, № 2. С. 61–71.
14. Мартьянов В. С. Дискурс будущего уральских мегаполисов: к стратегии глобального города // Дискурс-Пи. 2013. № 1–2. С. 15–22.
15. Михайленко Е. Б., Вербицкая Т. В. Роль институтов парадипломатии в регионализации Свердловской области // Дискурс-Пи. 2018. № 1. С. 57–64. DOI:10.17506/dipi.2018.30.1.5764.
16. Flier, A.Ya. (2011). Elite, popular and mass culture: dialogue on the scaffold. Cultural Observatory, (1), 26-29 . Retrieved from https://rucont.ru/efd/447905. (In Russian)
17. Flière, A.Ya. (2000). Social foundations of mass culture. In Cultural Studies for Cultur-al Scientists (pp. 370-391). Moscow: Academic Project. (In Russian)

18. Tishkina, E. I. (2012). Elitism and Masses as Phenomena of Cultural Existence: PhD Thesis. Yekaterinburg. (In Russian)

***Açar sözlər:*** *elita, cəmiyyət, siyasi proses, elitizm, siyasi partiya, hakimiyyət, demokratiya*

**Shahin Baghirov**
*The Institute of Philosophy and Sociology*
*National Academy of Sciences of Azerbaijan, Research Fellow,*
*PhD in Political Science, Associate Professor*

# IN THE SOCIO-POLITICAL PROCESSES OF THE ELITE IN A GLOBALIZED WORLD AND THE ROLE OF THE MANAGEMENT SYSTEM

## ABSTRACT

In political science, the use of the term "political elite" or "elite" in its classification has no other meaning, because the subject of the elite as a whole is related to the policy of the state and its carriers. Therefore, the elitist approach occupies a leading place in the socio-political science of the West among the theories of social stratification. The article describes the types necessary for the typology and classification of the elite, combining other modern concepts of the modern elite approach. It is noted that the existence of a political elite in society is associated with a number of objective trends. Society, like all complex organized systems, needs the influence of professional management, which makes it necessary to divide labor into those who manage and those who are managed. The article reflects the classical and modern approaches to the problem of the elite, its typology, along with the classification of the modern elite approach in globalizing societies, its role in the socio-political processes in society.

***Keywords:*** *elite, political processes, society, political party, power, elitism, democracy*

**Шахин Багиров**
*Ведущий научный сотрудник Института Философии и социологии Национальной Академии Наук Азербайджана, доктор философии по политическим наукам, доцент*

# РОЛЬ ЭЛИТЫ В СИСТЕМЕ СОЦИАЛЬНО-ПОЛИТИЧЕСКИХ ПРОЦЕССОВ И УПРАВЛЕНИЯ В ГЛОБАЛИЗИРОВАННОМ МИРЕ

## РЕЗЮМЕ

В политической науке разработка термина «политическая элита» или «элита» в ее классификации не имеет различного значения, так как тема элиты в целом относится к политике, связанной с властью и ее носителями. Поэтому в социально-политической науке Запада элитарный подход занимает ведущее место среди теорий социальной стратификации. В статье описываются типологии элит, объединяющие другие современные концепции элитарного подхода. Отмечается, что существование политических элит в обществе обусловлено рядом объективных тенденций. Общество, как и все сложно организованные системы, нуждается в профессиональном управленческом воздействии, что делает необходимым разделение труда на управленцев и управляемых. В статье отражаются классический и современный подходы к проблеме элиты, рассматривается ее типология, наряду с классификацией современного элитарного подхода в глобализированных обществах изучается ее роль в социально-политических процессах в обществе.

***Ключевые слова:*** *элита, общество, политический процесс, власть, политические партии, элитизм, демократия*

# TARİX
# HISTORY

UOT 94 (479.24)

**ARZU XƏLİLZADƏ**
**Bakı Dövlət Universitetinin Mənbəşünaslıq, Tarixşünaslıq və Metodika kafedrasının dosenti, tarix üzrə fəlsəfə doktoru**
*e-mail: Azerbaijan@rambler.ru*

## AZƏRBAYCANIN DÜNYA "KOSMİK KLUB"UNUN ÜZVÜNƏ ÇEVRİLMƏSİNİ ŞƏRTLƏNDİRƏN AMİLLƏR

Azərbaycan dövlət müstəqilliyini bərpa etdikdən sonra sənayenin, iqtisadiyyatın müxtəlif sahələri ilə bağlı özünün strateji xəttini müəyyənləşdirdi. Hələ XX əsrin 70-ci illərində əsası qoyulan Azərbaycan kosmik sənayesinin inkişaf etdirilməsi, bu istiqamətdə dünya dövlətlərinin təcrübəsindən yararlanmaq və çoxtərəfli əməkdaşlıq mexanizmləri çərçivəsində fikir mübadiləsinin aparılması həmin strateji xəttin tərkib hissəsi idi.

2003-cü ildə Azərbaycan Prezidenti İlham Əliyev hakimiyyətə gəldikdən sonra neft-qaz sənayesinin inkişafı ilə bərabər, qeyri-neft sektorunun müxtəlif sahələrinin inkişafına təkan verən bir sıra ilklərə imza atdı. Bu sahələrdən biri də əsası Ümummilli lider Heydər Əliyev tərəfindən qoyulmuş kosmik sənayenin inkişafı və Azərbaycanın kosmos dövlətə çevrilməsi oldu.

İlk növbədə, qeyd edək ki, peyk planetlərin ətrafında fırlanan göy cisimləridir. Dünyada peyklərin süni və təbii növləri vardır. Süni peyk yerin ətrafında pilotsuz uçan kosmik aparatdır. Yer ətrafında insan tərəfindən hazırlanan və orbital fəaliyyətdə olan çox sayda süni peyk mövcuddur. Beləliklə, süni peykin dairəvi hərəkət marşrutu orbitdir. Dünyanın tək təbii peyki Aydır. Ümumiyyətlə, "peyk" sözü kosmosa atılan və kosmosda dünya, ya da başqa bir cisim ətrafında hərəkət edən bir maşını ifadə edir. Rabitə peykləri isə telefon danışıqlarının peyk vasitəsilə ötürülməsində mühüm əhəmiyyətə malikdirlər. Bu peyklərin ən mühüm xüsusiyyəti transponderə malik olmalarıdır. Transponderin ən mühüm funksiyası bir tezlikdə danışıqların qəbul edilməsi, onların gücləndirilməsi və sonra siqnalların başqa tezlikdə Yerə qaytarılmasından ibarətdir [1]. Meteoroloji peyklər meteoroloqlara hava durumunu proqnozlaşdırmağa imkan verir. Elmə geostasionar ekoloji istismar peykləri də məlumdur. Bu peyklərin tərkibinə adətən Yerin havasını göstərən kameralar da daxil edilir. Televiziya peykləri isə rabitə peykləri ilə təxminən eyni funksiyaya malik olmaqla, televiziya siqnallarını bir nöqtədən digərinə ötürür. Elmi peyklər, məsələn Edvin Habblın şərəfinə "Hubble Space Telescope" adlandırılan peyk kimi, bütün növ elmi missiyaların yerinə yetirilməsində mühüm rol oynayırlar. Bu peyklər günəş ləkələrindən qamma şüalarına qədər hər şeyi seyr edir. Naviqasiya peykləri təyyarələrə uçmağa və gəmilərə üzməyə kömək edir. Hərbi peyklər də kosmosda fəaliyyət göstərir, lakin onların çoxunun funksiyası gizli qalır. Onlar şifrəli məlumatları ötürə, nüvə silahlarını, düşmən hərəkətlərini izləyə, raket buraxılışları barədə xəbərdarlıqlar edə bilir, yerüstü radiostansiyaları dinləyir, radiolokasiya və xəritə görüntülərini əldə edir [1].

Kosmik sahənin inkişafı elmi-texniki araşdırmalara və innovasiyalara geniş imkanlar açır. Avropa institutları artıq kosmik texnologiyaları ölkələrin rəqabətədavamlılığı üçün əsas vasitə kimi qəbul etmişlər. Qeyd edək ki, kosmik rabitə digər rabitə vasitələrinə nisbətən 5 dəfə ucuzdur. Beləliklə, müasir dördə kosmik sənaye qlobal və regional sosial-iqtisadi məsələlərin, elmi-texniki problemlərin həlli üçün əsas vasitəyə çevrilmişdir [12].

Tədqiqatdan aydın olur ki, 2008-2009-cu illərdə dünyada təqribən 270 peyk fəaliyyət göstərirdi və bu peyklərin transponderlərinin ümumi sayı 5 mindən çox idi, 30-dan çox ölkə isə telekommunikasiya peyklərinə malik idi. Peyk rabitəsindən əldə olunan gəlir də artmaqda davam edirdi. 1996-cı ildə bu rəqəm 16 milyard ABŞ dolları təşkil edirdisə, 2002-ci ildə 50 milyard ABŞ dolları, 2008-2009-cu illərdə isə 100 milyard ABŞ dollarına çatmışdır [15].

Azərbaycan müasir kosmik sənayesinin inkişafı Prezident İlham Əliyevin hakimiyyəti illərində əhəmiyyətli dərəcədə inkişaf etdi. Bu sahənin inkişaf etdirilməsi istiqamətində strateji xətt müəyyənləşdirildi. 2008-ci noyabrın 4-də Azərbaycanda yüksək texnologiyaların tətbiq olunmasına və kosmik sənayenin yaradılmasına təkan verilməsi məqsədi ilə "Azərbaycan Respublikasında kosmik sənayenin yaradılması və telekommunikasiya peyklərinin orbitə çıxarılması haqqında" Azərbaycan Respublikası Prezidentinin Sərəncamı imzalanmışdır [5]. Sərəncamın mühüm əhəmiyyəti var idi. Belə ki, qeyri-neft sektorunun inkişafı ilə əlaqədar həyata keçirilən dövlət proqramları və əməli tədbirlər iqtisadiyyatın diversifikasiyası və yeni sənaye sahələrinin inkişafı üçün geniş imkanlar açmış, Azərbaycanın strateji baxımdan əlverişli coğrafi mövqedə yerləşməsi iqtisadi və informasiya təhlükəsizliyinin əsas komponentlərindən olan telekommunikasiya peyklərinin hazırlanması və orbitə çıxarılmasını zəruri etmişdir [5]. Sərəncama əsasən, ölkədə kosmik sənayenin yaradılmasını zəruri edən hal kimi Azərbaycanın Avropa və Asiya qitələri arasında əlverişli coğrafi və iqtisadi məkanda yerləşməsi, iqtisadi və informasiya təhlükəsizliyinin əsas komponentlərindən olan telekommunikasiya peyklərinin hazırlanması və orbitə çıxarılması göstərilmişdir. Yəni, kosmosla bağlı planlar təkcə kommersiya layihələri deyil, həm də kifayət qədər mürəkkəb regionda yerləşən Azərbaycan üçün informasiya təhlükəsizliyi məsələsidir. Bu da kosmik sənayenin inkişafı ilə bağlı qəbul edilmiş siyasi qərarın həm də gələcəyə hesablanmış strateji məsələ olduğunu deməyə əsas verir [13].

Prezident İlham Əliyevin sədrliyi ilə Nazirlər Kabinetinin 2008-ci ilin birinci yarısının sosial-iqtisadi inkişafının yekunlarına həsr olunmuş iclasda Prezidentin "Azərbaycan Respublikasında yeni və ən texnoloji sənaye sahəsi olan kosmik sənayenin yaradılması və süni telekommunikasiya peykinin orbitə çıxarılması" barədə verdiyi tapşırıq əsasında konkret fəaliyyət proqramının müəyyənləşdirilməsi istiqamətində işlərin həyata keçirilməsinə başlanıldı. Kosmik peyk layihəsinin gerçəkləşdirilməsi məqsədilə orbital mövqe əldə etmək üçün Azərbaycan ilk olaraq Beynəlxalq Telekommunikasiya İttifaqına müraciət etdi [1].

Azərbaycan Respublikasının Avropa və Asiya arasında əlverişli geoiqtisadi, coğrafi, eləcə də informasiya magistrallarının kəsişdiyi məkanda yerləşməsi informasiya mübadiləsinin xarici ölkələrdən asılılığının aradan qaldırılması, iqtisadi və informasiya təhlükəsizliyinin əsas komponentlərindən olan telekommunikasiya peyklərinin hazırlanması və orbitə çıxarılması Azərbaycanın regionda informasiyanın ötürülməsi sahəsində lider ölkəyə çevrilməsi baxımından böyük əhəmiyyət kəsb edir [15]. Qeyd edək ki, peykin orbitə çıxarılması üçün ilk növbədə, orbital mövqe əldə etmək lazım idi. SSRİ dağıldıqdan sonra onun hüquqi varisliyi Rusiyaya keçdiyi üçün keçmiş İttifaq dövlətləri kimi Azərbaycan da öz orbital mövqeyinə malik deyildi. Lakin Beynəlxalq Telekommunikasiya İttifaqı (İTU) ilə danışıqlardan sonra bu təşkilat 3 orbital sahəni Azərbaycanın mülkiyyətinə vermişdi [13].

Tədqiq edilən illərdə Azərbaycanda kosmik sənayenin, eləcə də süni peyklərin yaradılması və inkişafını zəruri edən bir sıra amillər var idi. XXI əsrin ilk onilliyində sürətlə inkişaf edən və yayılan informasiya və kommunikasiya texnologiyaları, bununla bağlı yeni vüsət almış qloballaşma prosesləri ölkələrin, o cümlədən Azərbaycanın sosial-iqtisadi həyatına ciddi şəkildə təsir göstərirdi. Qlobal xarakterli amillər ölkə həyatının, demək olar ki, bütün sahələrində – iqtisadi, sosial, siyasi, humanitar-mədəni və s. gedən proseslərə nüfuz edirdi. Hər bir ölkədə olduğu kimi, Azərbaycanda da öz mənşəyinə və təsir dairəsinə görə regional, yaxud ölkədaxili amillər mövcuddur ki, ölkənin ictimai həyatının müxtəlif sahələrinin idarə edilməsində onların da nəzərə alınması səmərəli siyasətin formalaşdırılması baxımından vacibdir. Qloballaşma dövründə

innovasiya fəaliyyətinin keyfiyyətcə genişlənməsi ilə bütün dünyada iqtisadi və təsərrüfat proseslərinin dəyişmə tempi, innovativ yeniliklərin yayılması, onların istehsal sahəsində tətbiqi misli görünməmiş şəkildə sürətlənir. Belə bir şəraitdə Azərbaycanın qarşısında duran əsas məsələ dünya ölkələrinin inkişaf sürəti ilə müqayisədə geriləməmək idi [3].

İlk növbədə Azərbaycanda qeyri-neft sektorunun inkişafı ilə əlaqədar iqtisadiyyatın diversifikasiyası və yeni sənaye sahələrinin inkişafı üçün geniş imkanlar açılmışdı. Azərbaycanda informasiya-kommunikasiya texnologiyaları sahəsi prioritet sahə elan edilmişdir. Rabitə və informasiya texnologiyaları sahəsinin isə neft sənayesindən sonra Azərbaycan iqtisadiyyatının ən inkişaf etmiş sektoru olacağı gözlənilirdi. İnformasiya və kommunikasiya texnologiyalarının geniş tətbiqi informasiya sahəsində milli təhlükəsizliyin təmin olunması baxımından da xüsusi əhəmiyyət kəsb edirdi.

Kosmik sənayenin inkişafına təsir göstərən mühüm amillərdən biri Azərbaycanın Avropa və Asiya qitələri arasında əlverişli geoiqtisadi, coğrafi, eləcə də informasiya magistrallarının kəsişdiyi məkanda yerləşməsi informasiya mübadiləsinin xarici ölkələrdən asılılığının aradan qaldırılması, iqtisadi və informasiya təhlükəsizliyinin əsas komponentlərindən olan telekommunikasiya peyklərinin hazırlanması və orbitə çıxarılması Azərbaycanın regionda informasiyanın ötürülməsi sahəsində lider ölkəyə çevrilməsi baxımından böyük əhəmiyyət kəsb edirdi [6].

Dövlətin iqtisadi və hərbi gücünün inkişafı zərurəti kosmik tədqiqatlar sahəsində fundamental elmi biliklərin genişləndirilməsini tələb edirdi. Kosmik fəzanın fəth edilməsi iqtisadiyyatın və milli təhlükəsizliyin səviyyəsini müəyyənləşdirən amillərdəndir. Eyni zamanda aerokosmik fəzada yerləşdirilmiş cihazlar və komplekslər öyrənilən obyektlər haqqında genişmiqyaslı və keyfiyyətcə yeni olan məlumatları operativ şəkildə əldə etməyə, aerokosmik laboratoriyalar isə komponentlərin, dünya okeanının, planetlərin və digər xüsusi obyektlərin öyrənilməsinə geniş imkanlar yaradır [6].

Kosmik sənayenin inkişafını beynəlxalq təcrübə də labüd edirdi. Beynəlxalq təcrübədə Yer səthinin peyk vasitəsilə əldə edilən təsvirlərindən istifadə olunmasının bir sıra faydaları vardır. İqtisadiyyatda və digər sahələrdə az effektivli metodları yeni, daha səmərəli metodlarla əvəzləməklə müxtəlif müsbət nəticələr əldə edilir. Dünyada, eləcə də Azərbaycanda bir sıra sahələrdə kağız daşıyıcılarda xəritə, sxem, plan və digər bu kimi materiallardan istifadəyə daha çox üstünlük verilir, halbuki kağız daşıyıcılarda məlumatın tapılması və işlənməsi çox vaxt aparır, onların yenilənməsi üçün çöl işləri xeyli resurs tələb edir. Peyk təsvirlərindən istifadə etməklə yaradılan elektron məlumatlar isə iş prosesini sürətləndirərək funksional effektivliyi, işin səmərəliliyini artırır və məkan məlumatlarında səhvlərin baş verməsi ehtimalını azaldır. Peyk təsvirləri kənd təsərrüfatının inkişafına şərait yaradır, optimallaşdırma proqramları və naviqasiya cihazları ilə təmin edilmiş xüsusi kənd təsərrüfatı texnikası vasitəsilə suvarma və ya gübrələmə məqsədləri üçün əkin sahəsinin hər bir kvadratmetrinə fərdi yanaşma tətbiq etmək mümkün olmuşdur və bu metod məhsuldarlığı xeyli artıra bilir. Belə qabaqcıl tətbiqlərə başqa nümunə kimi, tıxacların aradan qaldırılması məqsədilə peyk təsvirləri ilə optimal şəhər planlaşdırılması kimi "ağıllı şəhər" komponentlərini və radar peyk təsvirləri vasitəsilə faydalı qazıntı yataqlarının aşkarlanması layihələrini göstərmək olar.

Peyk təsvirləri vasitəsilə etibarlı, vahid, mərkəzləşmiş Coğrafi İnformasiya Sistemləri (CİS) yaradılır. CİS infrastrukturları sayəsində bir çox fəaliyyət asanlaşır, sürətlənir və təkrarlanma halları aradan qalxır. Bununla yanaşı, müasir dövrdə məsafədən müşahidə texnologiyalarından elmi tədqiqatlar aparılmasında, o cümlədən geologiya, geofizika, seysmologiya, atmosferin və iqlim dəyişmələrinin öyrənilməsi kimi bir çox qlobal əhəmiyyətli sahələrdə də geniş istifadə olunur [7].

Eyni zamanda XX əsrin 80–90-cı illərində orbitə çıxarılan peyklər funksional baxımdan daha əhatəli idi. Belə ki, XX əsrin 60–70-ci illərində orbitə çıxarılan peyklər əsasən rabitə və teleradio yayımı üçün istifadə olunurdusa, 80-ci illərdə yeni VSAT (kiçikölçülü peyk terminalı) texnologiyasının yaranması lokal, şəhərlərarası və beynəlxalq rabitənin daha

geniş ərazilərdə inkişafına böyük təkan vermişdir. XX əsrin 90-cı illərin sonlarından etibarən isə peyk sistemlərinin tətbiqi dünyada daha keyfiyyətli və etibarlı rabitə sistemlərinin yaranmasına və rəqəmli teleradio yayım sistemlərinin və şəbəkələrinin qurulmasına imkan yaratmışdır. 2000-ci ildən peyk resurslarına olan tələbat bu sahədə yeni texnologiyaların tətbiqini daha da sürətləndirmişdir. Azərbaycan dünyada baş verən bu proseslərdən kənarda qalmamış, sənayenin bu sahəsinin inkişafı üzrə praktik addımlar atılmışdır.

Araşdırılan illərdə kosmik sahənin inkişafı ilə əlaqədar praktiki işlərin görülməsi davam etdirildi. Azərbaycan Respublikası Prezidentinin 2017-ci il 17 oktyabr tarixli Sərəncamına əsasən Azərbaycan Respublikasının Nazirlər Kabineti qərarı ilə Azərbaycan Respublikasının Kosmik Məsələlər üzrə Şurası yaradıldı [8]. Azərbaycan Respublikası Nazirlər Kabinetinin 2020-ci il 23 sentyabr tarixli Qərarı ilə təsdiq edilmiş Azərbaycan Respublikasının Kosmik Məsələlər üzrə Şurası haqqında Əsasnamədə onun əsas funksiyaları göstərilmişdir. Şuranın funksiyalarına kosmik fəaliyyət sahəsində dövlət proqramlarından irəli gələn vəzifələrin aidiyyəti qurumlar tərəfindən həyata keçirilməsinin monitorinq edilməsi, kosmik fəzanın, o cümlədən uzaq kosmosun öyrənilməsinə və istifadəsinə dair işlərin aparılması istiqamətində sistemli araşdırmanın təşkil edilməsi, Azərbaycan Respublikasında və xaricdə kosmik fəaliyyətin nəticələrindən istifadənin elmi-texniki, istehsal, istifadəçi, təhsil və innovasiya strukturunun formalaşdırılmasının kompleks problemlərinin həllinə dair təkliflərə baxılması və tövsiyələr verilməsi, kosmik tədqiqatların, o cümlədən kosmik fəzada tədqiqatların aparılması, belə tədqiqatlardan istifadə və kosmik sənaye sahəsi ilə bağlı təkliflərin hazırlanması və s. aid idi [9].

Azərbaycanda kosmik sənayenin yaradılması iqtisadi cəhətdən böyük səmərə verir. İlk növbədə, Azərbaycanın öz rabitə sisteminin təkmilləşdirilməsi, sonrakı mərhələdə isə yerin təbii ehtiyatlarının öyrənilməsi sahəsində kosmik məlumatlardan istifadə, operativ məlumatların əldə edilməsində səmərəli ola bilər. Çünki əvvəllər bu istiqamətdə məlumatları Azərbaycan çox çətinliklə başqa ölkələrdən əldə edirdi. Ancaq Azərbaycanın öz peykinə malik olması onun daxili məsələlərinin həllinə şərait yaradar [13].

2013-cü il fevralın 8-də Azərbaycanın ilk peykinin kosmik fəzaya kosmik fəzaya buraxılması tarixi bir hadisə idi. Bununla Azərbaycan dünya “kosmos klubu”nun üzvünə çevrildi.

Prezident İlham Əliyev Azərbaycan Respublikasının ilk peykinin – “Azərspace-l”in uğurla orbitə buraxılması münasibəti ilə Azərbaycan xalqına xitabən etdiyi təbrikində deyirdi: “Bu gün birinci Azərbaycanın telekommunikasiya peyki orbitə çıxarıldı. Bu tarixi hadisə münasibətilə bütün Azərbaycan xalqını ürəkdən təbrik edirəm.... Bu, doğrudan da, tarixi bir gündür, böyük nailiyyətdir, dövlətimizin böyük qələbəsidir” [16]. Azərbaycan Prezidenti İlham Əliyev gələcəkdə də yeni peyklərin orbitə çıxarılması istiqamətində mühüm işlərin görüləcəyini bildirdi [10].

Azərbaycanın iqtisadiyyatında informasiya-kommunikasiya texnologiyaları neftdən sonra ikinci əsas sahə elan olunmuş, bu istiqamət iqtisadiyyatda yüksələn xətlə inkişaf etmiş və bu mənada peyk rabitəsi xüsusi əhəmiyyət kəsb etmişdir. Buna görə də peyk layihələri yalnız siyasi və ya kommersiya səciyyəsi daşımamış, ölkənin uzunmüddətli inkişaf strategiyasına yönəlmişdir [14, s.54].

Milli peyk layihəsinin həyata keçirilməsi Azərbaycan üçün bir sıra üstünlüklərə malikdir. Məlum olduğu kimi, hər hansı bir ölkədə kosmik sənayenin yaradılması ilk növbədə həmin dövlətin iqtisadi inkişafı və yüksək rifah səviyyəsi ilə bağlıdır. Azərbaycanın müasir mərhələdə inkişaf sürəti yeni bazar tələblərinə uyğunluğu və ölkənin gələcəkdə dayanıqlı inkişafının təmin edilməsi baxımından iqtisadiyyatın şaxələndirilməsi və innovasiyaya əsaslanan yeni sənaye sahələrinin yaradılmasını zəruri edir.

İnformasiya və kommunikasiya texnologiyalarının geniş tətbiqi ölkənin hərtərəfli inkişafına xidmət etməklə yanaşı, informasiya sahəsində milli təhlükəsizliyin təmin olunması baxımından da xüsusi əhəmiyyət kəsb edir. Azərbaycan Respublikasının Avropa və Asiya arasında əlverişli geoiqtisadi, coğrafı, eləcə də, informasiya magistrallarının kəsişdiyi məkanda yerləşməsi informasiya mübadiləsində

xarici dövlətlərdən asılılığının aradan qaldırılmasını zəruri edir.

Azərbaycanın ikinci peykinin də orbitə buraxılması kosmik sənayenin tarixində mühüm əhəmiyyətə malik idi. "Azersky" peykinin buraxılması Hindistanın kosmik mərkəzində həyata keçirilmişdir. Bu peyk Yerin səthinin məsafədən müşahidəsi üçün nəzərdə tutulmuşdur. "Azərkosmos" ASC bu peykin 1,5 metr ağ-qara və 6 metr optik diapazonda yüksək keyfiyyətli təsvirlərinin idarə edilməsi və kommersiya hüquqlarını qəbul etmişdir. "Azersky" və Fransanın "Spot-6" peykindən təsvirlərin quraşdırılmış potensialının qəbulu gündəlik 6 milyon kvadrat kilometr təşkil edir. Bu o deməkdir ki, Yer kürəsindəki hər bir məntəqəni yüksək keyfiyyətli təsvirlərlə gündəlik izləmək mümkün idi [2].

Azərbaycanda peyk layihələrinin həyata keçirilməsində bir sıra məqsədlər var idi: milli təhlükəsizliyinin təmin olunması, ölkənin sosial-iqtisadi inkişafı, peyk layihələrinə investisiyaların yatırılması və çoxtərəfli kosmik layihələrdə iştirak etmək və nəticədə dövlətin beynəlxalq nüfuzunun yüksəldilməsi və s. [10].

Süni peyklərin orbitə buraxılmasının müxtəlif sahələrin inkişafı ilə bağlı mühüm əhəmiyyəti var idi. İlk növbədə, Azərbaycan televiziya kanallarının fasiləsiz peyk yayımı Azərbaycan həqiqətlərinin dünyaya maneəsiz çatdırılmasını təmin edir. Nəticədə Azərbaycanın "Azersky" peyki sayəsində daha əvvəl çıxışı olmadığı ərazilərin, eləcə də dünyanın istənilən nöqtəsinin yüksək ayırdetməli peyk təsvirlərinə birbaşa çıxış imkanı var. Bununla da kosmosda Azərbaycana məxsus peyklər vasitəsilə ölkəmizin bütün ərazisi nəzarət altında saxlanılır, əldə edilən məlumatlar aidiyyəti dövlət qurumları və müvafiq beynəlxalq təşkilatlara təqdim edilir. Buna uyğun olaraq, 2019-cu ildə Azərbaycan Respublikası Xarici İşlər Nazirliyi ilə birgə "Azərbaycanın Ermənistanın işğalı altında olan ərazilərində qeyri-qanuni fəaliyyətlər: Peykdən çəkilmiş şəkillər, sübutlar" adlı hesabat hazırlanaraq dünya ictimaiyyətinə təqdim olunmuşdur [7].

Kosmos proqramının inkişafında əsas vəzifələrdən biri ölkənin və regionların sosial-iqtisadi inkişafına xidmət etmək və milli iqtisadiyyata birbaşa və dolayı faydalar vermək idi. Kosmik proqramın ilk illərindən peyklərin, ilk növbədə Azərbaycanın daxili tələbatının ödənilməsinə, yəni ölkədəki sürətli sosial-iqtisadi inkişafa dəstəyi mühüm əhəmiyyət kəsb edirdi. 2018-ci il noyabrın 15-də Prezident İlham Əliyevin Sərəncamı ilə "Azərbaycan Respublikasında peyk vasitəsilə Yerin məsafədən müşahidəsi xidmətlərinin inkişafına dair 2019-2022-ci illər üçün Dövlət Proqramı" bu istiqamətdə atılan mühüm addımlardan idi. Dövlət Proqramı icrası 30-dək dövlət qurumunu əhatə etməklə iqtisadiyyatın əksər sahələrində yeni və alternativ məlumat mənbəyi kimi peyk müşahidəsinin imkanlarını həyata keçirməyi nəzərdə tuturdu [7].

Bu sahədə mühüm vəzifələrdən biri kosmik layihələrə sərf edilən vəsaitlərin kommersiya fəaliyyəti ilə geri qaytarılmasını təmin etmək idi. Peyk layihələrinin həyata keçirilməsi üçün layihə xərcləri, uzunmüddətli öhdəliklər, genişmiqyaslı beynəlxalq əməkdaşlıq, habelə lazımi kəmiyyətdə və keyfiyyətdə mütəxəssislərin mövcudluğu zəruridir ki, bütün bunlar dövlət tərəfindən irihəcmli investisiyalar tələb edir. Bu baxımdan layihələrin həyata keçirilməsi üçün qoyulmuş investisiyaların geri qaytarılması məsələsi daim diqqət mərkəzində saxlanılır.

Qeyd edək ki, peyk xidmətləri bazarında xüsusilə yüksək rəqabət şəraiti mövcuddur – bazarın əksər hissəsi azsaylı böyük oyunçular tərəfindən bölüşdürülmüş, orta ölçülü oyunçular arasında isə kəskin rəqabət mövcuddur, kiçik oyunçular isə öz spesifik seqmentini tapıb orada möhkəmlənməyə çalışırlar. Belə bir şəraitdə rəqabətə davam gətirə bilməyin heç də asan olmadığı görünür. Bu məqsədlə illər əvvəl peyk xidmətləri bazarına daxil olarkən bazarın dərindən öyrənilməsi məqsədilə geniş biznes-marketinq araşdırmaları aparılıb və araşdırmaların nəticələri əsasında peyklərin orbital mövqeyinin seçilməsi, texniki və biznes dizaynı həyata keçirilmişdir. Sonrakı mərhələdə görülmüş tədbirlər nəticəsində peyk layihələrinin gəlirliliyi təmin edilib. Ümumilikdə, Azərbaycanın peykləri vasitəsilə göstərilən xidmətlərdən 165 milyon ABŞ dolları həcmində gəlir əldə edilmişdir və proqnozlara əsasən gəlirlərin növbəti illərdə daha da artacağı gözlənilirdi. Lakin dünya

peyk sənayesinin durğunluğu fonunda "Azərkosmos"un vəziyyəti qənaətbəxşdir. Dünyada peyk sənayesinin gəlirləri 2015-ci ildən etibarən hər il təxminən 3 faiz ətrafında yüksəlib, sırf peyk xidmətlərinin göstərilməsi üzrə gəlirlər isə daha az sürətlə artıb, hətta 2018-ci ildə azalma müşahidə olunub. Azərbaycanda isə hələ "Azerspace-2" istismara verilməzdən əvvəl hər il peyk gəlirləri 10-15 faiz artmağa davam edib. "Azerspace-2" kommersiya istifadəsinə başladıqdan sonra isə, yəni 2019-cu ilin 10 ayı ərzində gəlirlər 2018-ci ilin eyni ayları ilə müqayisədə 61 faiz artıb [10].

Qarşıda dayanan mühüm vəzifələrdən biri beynəlxalq kosmik təşəbbüslərdə Azərbaycanı təmsil edərək onun beynəlxalq nüfuzunu, reputasiyasını yüksəltməkdir. "Azərkosmos" beynəlxalq kosmik layihələr çərçivəsində xarici dövlətlərin kosmik agentlikləri ilə kosmosdan dinc məqsədlərlə istifadə üzrə qarşılıqlı fayda gətirən əməkdaşlıq qurmuşdur. Bu da öz növbəsində Azərbaycanın beynəlxalq ictimaiyyət qarşısında intellektual nüfuzunun daha da möhkəmlənməsinə xidmət edir.

"Azərkosmos" artıq qabaqcıl kosmik ölkələrin – Fransanın "Milli Kosmik Tədqiqatlar Mərkəzi" (CNES), "Hindistan Kosmik Tədqiqatlar Təşkilatı" (ISRO), Pakistanın "Milli Kosmik Agentliyi" (SUPARCO) kimi dövlət agentlikləri ilə kosmik sənayedə beynəlxalq əməkdaşlığın genişləndirilməsi istiqamətində mühüm işlər həyata keçirir.

Dövlət başçısı İlham Əliyev Azərbaycanın öz peykləri ilə məhdud sayda dövlətləri birləşdirən dünya "kosmik klub"unda özünəməxsus yer tutduğunu bildirmişdir. Bu, sadəcə 3 peyk demək deyil, yüksək texnologiyaların Azərbaycana transferidir. Azərbaycanın ABŞ, Fransa, İngiltərə, Yaponiya, Malayziya kimi kosmik sahədə qabaqcıl ölkələrlə əməkdaşlığı nəticəsində süni peyklər uğurla orbitə buraxılmışdır: "Ölkəmiz kosmik sahə də daxil olmaqla dünya siyasi xəritəsində aktiv iştirakçılardan birinə çevrilib. Bu nə qədər şərəfli olsa da, bir o qədər də məsuliyyətlidir. Çünki bu gün dünyada gedən ictimai-siyasi proseslər təkcə siyasətdə və iqtisadiyyatda deyil, kosmosda da güclü rəqabət yaradır" [10].

Azərbaycanın peykləri dünyanın müxtəlif regionlarında insanların informasiyaya çıxışını təmin edir, regionlararası rəqəmsal uçurumun aradan qaldırılmasına xidmət edir. Məsələn, Azərbaycan süni peykləri yerüstü kabel şəbəkəsinin xeyli zəif olduğu Afrika qitəsinin 60 faizindən çoxuna peyk interneti təqdim edir, Mərkəzi Afrika kimi humanitar böhran yaşanan bölgələrdə BMT missiyalarını rabitə ilə təmin edir, dünyanın müxtəlif münaqişə ocaqlarında sülhün bərqərar olunması təşəbbüslərinə töhfə verir, meşə yanğınları və neft çirklənmələri kimi təbii fəlakətlərin və fövqəladə halların nəticələrinin aradan qaldırılmasına kömək edir və beləliklə, dünya "kosmik klubu"nun üzvünə çevrilmişdir.

Müasir dövrdə daha effektiv, kommersiya baxımından daha sərfəli və sürətli həllər təklif edən özəl şirkətlərin kosmik sənayedə əhəmiyyəti və bazar payı ildən-ilə artır. "Yeni Kosmos" adlanan bu sektor əhəmiyyətli investisiyalar cəlb edir – yeni texnologiyalar və metodlar köhnəlmiş sistemləri sıxışdırdıqca ənənəvi kosmik sənaye böyük dəyişikliklərə məruz qalır. Bu dəyişikliklərin mahiyyəti kosmosu və kosmik xidmətləri daha ucuz, sadə və əlçatan etməkdən ibarətdir. Buraya təkrar-təkrar istifadə oluna bilən raketlər, kosmik aparatlarda elektrik mühərriklərindən istifadə edilməsi, kosmik aparatların çəkisinin azaldılması, daha çevik və uyğunlaşa bilən kosmik avadanlıqların istifadəsi və s. aiddir. Bu cür texnoloji dəyişikliklər sayəsində kosmosun getdikcə daha əlçatan olması onu istifadəçilər üçün adiləşdirir, asan "əmtəə"yə çevirir. Buna misal olaraq smartfonların daxilində istifadə olunan naviqasiya və digər peyk xidmətlərini göstərmək olar. Rəqəmsal dövrün əhəmiyyətli bir reallığı kosmos bazarında da özünü göstərir [10].

2018-ci il sentyabrın 26-da Azərbaycan üçüncü peykini kosmosa buraxmaqla [2] dünya dövlətləri içərisində öz nüfuzunu artırmaqla bərabər obyektlər haqqında genişmiqyaslı və yeni və operativ məlumatların əldə edilməsi imkanı da qazanmış oldu.

Bu münasibətlə çıxış edən dövlət başçısı İlham Əliyev həmçinin peyklərin informasiya təhlükəsizliyi baxımından çox böyük əhəmiyyətini diqqətə çatdırdı: "İlk növbədə, Azərbaycan informasiya təhlükəsizliyi baxımından daha da önəmli addım atır. Bu gün peyklərimiz vasitəsilə Azərbaycan telekanalları dünyaya öz

verilişlərini təqdim edə bilirlər. Bu gün Azərbaycan telekommunikasiya sahəsində xarici tərəfdaşlardan asılılığını tam aradan götürübdür. Eyni zamanda, kadr hazırlığı üçün Azərbaycanın kosmik sənayesinin inkişafı önəmli rol oynayır. Peykləri idarə edən kadrlar azərbaycanlı mütəxəssislərdir və onların böyük əksəriyyəti gənclərdir" [11].

Azərbaycan 2013-cü ildə ilk süni peykini –"Azərspace-1"i uğurla fəzaya buraxdıqdan və dünya kosmik klubunun üzvü olduqdan sonra bu sahədə layihələrin səmərəliliyi və kommersiya faydaları barədə də kifayət qədər şübhələr var idi. Lakin zaman göstərdi ki, bu sahəyə ayrılan vəsaitlər özünü yalnız iqtisadi sahədə deyil, digər istiqamətlərdə də doğrultdu. Bu peyklər sayəsində Azərbaycan İkinci Qarabağ müharibəsi dövründə düşmən üzərində ciddi üstünlük qazandı. Təsadüfi deyil ki, Vətən müharibəsi dövründə Azərbaycanın apardığı əməliyyatlar dünyada hərbi ekspertlər tərəfindən XXI əsrin müharibəsi adlandırıldı. Çünki bu, texnoloji inkişaf baxımından bir yenilik idi. Bu peyklərin ötürdükləri məlumatlar sayəsində İkinci Qarabağ müharibəsi dövründə düşmənin cinayət əməllərini aşkar etmək, göstərmək və yalan bəyanatlarını təkzib etmək mümkün oldu. Müharibədən sonrakı dövrdə isə bu peyklərdən artıq azad edilmiş ərazilərdə yenidənqurma işlərini sürətləndirmək üçün istifadə edilmişdir [4].

Azərbaycan kosmik sənaye sahəsində beynəlxalq əməkdaşlığa xüsusi əhəmiyyət vermişdir. "Azərkosmos" ASC 2016-cı ildə "DCS Telecom" və "Don Telecom" kimi aparıcı beynəlxalq peyk operatorları ilə telekommunikasiya xidmətlərinin göstərilməsi üzrə müqavilə imzalamışdır. Bu sənədə əsasən, həmin şirkətlər Yaxın Şərq və Afrika regionlarında səs və məlumatların ötürülməsi, video, mobil rabitə, şəbəkə və digər xidmətlər üzrə "Azerspace-1"in resurslarından istifadə edəcəkdi. "Azərkosmos" ASC Türkiyənin bir sıra radiokanalları ilə də müqavilələr imzalamışdır [2].

Beləliklə, süni peyklərin buraxılmasının mühüm əhəmiyyətli nəticələrindən biri Azərbaycanın kosmik sənaye sahəsində çoxtərəfli münasibətlər sisteminə qoşulması oldu.

2020-ci il oktyabrın 12-də keçirilən 71-ci virtual Beynəlxalq Astronavtika Konqresində Azərbaycan da iştirak etmişdir. "Kiber Kosmos buraxılışı" mövzusunda keçirilən konqresdə dövlət başçısı İlham Əliyev çıxış edərək Azərbaycanın 2023-cü ildə Beynəlxalq Astronavtika Konqresinin Bakıda keçiriləcəyini, Azərbaycanın 3 peyki ilə bu istiqamətdə öz fəaliyyətini davam etdirməyi planlaşdırdığını bildirdi. Azərbaycan Prezidenti İlham Əliyev 2023-cü ildə Beynəlxalq Astronavtika Federasiyasının Konqresinin Azərbaycanda keçirilməsinin rəmzi məna kəsb etdiyini bildirdi: "Azərbaycan bir dəfə – 1973-cü ildə Beynəlxalq Astronavtika Konqresinə ev sahibliyi edib. Beləliklə, 50 ildən sonra – 2023-cü ildə paytaxtımızda ikinci konqresə ev sahibliyi etməyimiz rəmzi məna kəsb edəcək. Lakin həmin vaxt Azərbaycan müstəqil deyildi. Azərbaycan Sovet İttifaqının tərkibində idi, Sovet İttifaqının 15 respublikasından biri idi. 1973-cü ildə Azərbaycanın konqresə ev sahibi seçilməsi xalqımızın və Azərbaycanın yüksək intellektual və texniki potensialını nümayiş etdirdi. Üç ildən sonra biz sizi Bakıda görəcəyik. Əlli ildən sonra Konqresin bizim şəhərimizə - lakin indi müstəqil Azərbaycanın paytaxtına qayıtması çox rəmzi məna kəsb edəcək." [17].

Qeyd edək ki, 2023-cü ildə Beynəlxalq Astronavtika Konqresinin Bakıda keçirilməsi Azərbaycanın beynəlxalq nüfuzunun göstəricisi və İKT sahəsində əldə etdiyi böyük nailiyyətlərlə bağlı idi [17].

Azərbaycanda rəqəmsal coğrafi məlumatlardan istifadəyə tələbat getdikcə artır və bu məlumatların operativ əldə olunmasına ehtiyac vardır. Rəqəmsal coğrafi məlumatların əldə olunmasında təkrarlanma hallarının qarşısının alınmasının vacibliyini və bu məlumatlardan qurumlararası istifadənin genişləndirilməsi üçün yeni imkanların mövcudluğunu nəzərə alaraq, respublikada milli məkan məlumatları infrastrukturunun təkmilləşdirilməsi məqsədəuyğun hesab edilir. Milli məkan məlumatları infrastrukturu dedikdə, peyk təsvirləri və digər məsafədən müşahidə məlumatları əsasında müxtəlif dövlət orqanlarının hazırladıqları tematik xəritələrin və məlumatların vahid məlumat bazasında toplanmasını və istifadəçilərin bu məlumatlardan faydalanmasını asanlaşdırmaq üçün "bir pəncərə" prinsipinin tətbiq edilməsini nəzərdə tutan CİS portalı başa düşülür. Bu portal dövlət orqanlarına

kommersiya və qeyri-kommersiya təşkilatlarına, fiziki şəxslərə, eləcə də elmi tədqiqatla məşğul olan qurumlara məkan məlumatlarının əldə olunması, qiymətləndirilməsi və tətbiqi üçün zəruri şərait yaradır. Qeyd edilməlidir ki, bir sıra dövlət orqanlarında geniş İT şəbəkəsi infrastrukturunun və elektron məlumat bazasının mövcudluğu respublikada milli məkan məlumatları infrastrukturunun qurulması üçün böyük üstünlük hesab edilir [7].

Beləliklə, tədqiq olunan illərdə Azərbaycan kosmik sənayenin inkişafı sahəsində mühüm nəzəri və praktik addımlar ataraq bu istiqamətdə nailiyyətlər əldə etdi. Azərbaycan dünya kosmik klubunun üzvünə çevrildi. Azərbaycanda qeyri-neft sektorunun inkişafı və bu sahədə dünya dövlətləri ilə əməkdaşlıq etmək Azərbaycanın xarici siyasətində prioritet istiqamətlərdən birini təşkil edirdi. Azərbaycanda süni peyklərin orbitə buraxılmasının həm ümumi, həm də xüsusi üstünlükləri var idi. Azərbaycan həmçinin kosmik sənayenin inkişafı sahəsində regional mərkəzlərdən birinə çevrildi. Bu baxımdan təqdim olunan məqalə mühüm elmi və siyasi əhəmiyyət kəsb edir. Məqalədə Azərbaycanın dövlət müstəqilliyinin bərpa edilməsindən sonra kosmik sənayenin inkişafı və süni peyklərin orbitə buraxılmasını şərtləndirən amillər, kosmik kluba üzv olmağın üstünlükləri və s. aktual məsələlərin sistemli şəkildə araşdırılması elmi yenilik səciyyəsi daşıyır və onun əhəmiyyətini daha da artırır.

**Ədəbiyyat:**


1. Azadi S. Dünyanı əhatəyə alan süni peyklər aləmində Azərbaycan faktoru //http://ikisahil.com/post/114779-dunyani-ehateye-alan-suni-peykler-aleminde-azerbaycan-faktoru. İstinad tarixi: 11.01.2019.
2. Azərbaycan dünya kosmik klubunun tamhüquqlu üzvüdür //https://azertag.az/xeber/Azerbaycan_dunya_kosmik_klubunun_tam - huquqlu_uzvudur-1237971. İstinad tarixi: 25.01. 2019.
3. "Azərbaycan 2020: Gələcəyə baxış" inkişaf konsepsiyası, 29 dekabr 2012 // http://www.e-qanun.az/framework/25029.
4. Azərbaycan peykləri yatırılmış sərmayəni doğruldur – Analitika //https://report.az/analitika/azerbaycan-peykleri-yatirilmis-sermayeni-dogruldur-analitika / İstinad tarixi: 01. 05.2021.
5. Azərbaycan Respublikasında kosmik sənayenin yaradılması və telekommunikasiya peyklərinin orbitə çıxarılması haqqında Azərbaycan Respublikası Prezidentinin Sərəncamı, 4 noyabr 2008 // http://www.e-qanun.az/framework/15589.
6. Azərbaycan Respublikasında kosmik sənayenin yaradılması və inkişafı üzrə Dövlət Proqramı, 17 avqust 2009 // http://www.e-qanun.az/framework/1826.
7. Azərbaycan Respublikasında peyk vasitəsilə Yerin məsafədən müşahidəsi xidmətlərinin inkişafına dair 2019–2022-ci illər üçün Dövlət Proqramı, 15 noyabr 2018 // http://www.e-qanun.az/framework/40724.
8. Azərbaycan Respublikasının Kosmik Məsələlər üzrə Şurasının yaradılması, "Azərbaycan Respublikasının Kosmik Məsələlər üzrə Şurasının Əsasnaməsi"nin və "Azərbaycan Respublikasının Kosmik Məsələlər üzrə Şurasının tərkibi"nin təsdiq edilməsi barədə Azərbaycan Respublikası Nazirlər Kabinetinin Qərarı, 17 oktyabr 2017 // http://www.e-qanun.az/framework/46033.
9. Azərbaycan Respublikasının Kosmik Məsələlər üzrə Şurası haqqında Əsasnamə, 23 sentyabr 2020 // http://www.e-qanun.az/framework/46033.
10. Azərbaycanın kosmik proqramı: Zəngin ənənələr və müasir çağırışlar // https://azertag.az/xeber/Azerbaycanin_kosmik_proqrami_Zengin_eneneler_ve_muasir_chagirislar-1354437. İstinad tarixi 13.11.2019.

11. Azərbaycanın növbəti tarixi qələbəsi: sayca üçüncü “Azerspace-2” peyki orbitdə // http://ikisahil.az/post/107767-news-107767. İstinad tarixi: 27. 09. 2018.
12. Görəsən öz milli peykini orbitə çıxaran Azərbaycan bundan nə qazanacaq? // https://xeberler.az/new/details/goresen-oz-milli-peykini-orbite-cixaran-azerbaycan-bundan-ne-qazanacaq--2353.htm. İstinad tarixi: 02-05-2009.
13. İlk telekommunikasiya peykinin orbitə buraxılması Azərbaycanın inkişafının zirvəsidir // https://yeniazerbaycan.com/Iqtisadiyyat_e11208_az.html. İstinad tarixi: 13.02.2013.
14. Qasımlı M. Prezident İlham Əliyev və Azərbaycan tarixinin ilkləri // Dövlət idarəçiliyi: nəzəriyyə və təcrübə, 2016, 4 (56), oktyabr-noyabr-dekabr, s.47-56.
15. Qorxmaz A. Azərbaycanın 160 milyon dollarlıq ilk milli peyki // https://modern.az/az/news/ 1624. İstinad tarixi: 30.11. 2009.
16. Prezident İlham Əliyev Azərkosmos ASC-nin binasında prosesi izləmişdir: Prezident İlham Əliyevin təbriki. - “Xalq qəzeti”, 09.02.2013, №30.
17. Virtual 71-ci Beynəlxalq Astronavtika Konqresinin açılış mərasimində İlham Əliyevin videomüraciəti təqdim olunub // https://president.az/articles/42834/print. İstinad tarixi: 12. 12.2020.

***Açar sözlər:*** *kosmik klub, süni peyk, qeyri-neft sənayesi, Azərbaycan, strateji xətt, informasiya-kommunikasiya texnologiyaları*

**Arzu Khalilzade**
*Baku State University*
*Department of Source Studies, Historiography and Methodology*
*Ph.D. in History, Associate Professor*

# FACTORS CONDITIONING AZERBAIJAN TO BECOME A MEMBER OF THE WORLD COSMIC CLUB

## ABSTRACT

The presented article investigates the factors influencing the transformation of modern Azerbaijan into a member of the world space club and the development of the space industry in Azerbaijan. The primary purpose of the research is to determine the strategic line of Azerbaijan in the space industry, to investigate the advantages of artificial satellites for our state, to investigate the necessity of development of the space industry in obtaining the right information in the conditions of a crisis, at challenging moments.

The research has important scientific and political significance. Although there are various articles and research in the field of space industry development in Azerbaijan, there is a need for new scientific research and approaches. The presented article explores the theoretical foundations for the development of the space industry, analyzes the practical, purposeful activities of the Azerbaijani state, and shows the importance and advantages of having artificial satellites during the Second Karabakh War. The article, referring to recent sources, examines the strategy implemented by Azerbaijan to become a space industry state using the methods of historicity,

generalization, systematization, and study of documents. From this point of view, the presented research work plays an essential role in the study of the modern history of Azerbaijan and its international relations.

***Key words:*** *space club, artificial satellite, non-oil industry, Azerbaijan, strategic line, information and communication technologies*

**Арзу Халилзаде**
*Доцент кафедры Источниковедения, историографии и методологии Бакинского Государственного Университета, доктор философии по истории*

## ФАКТОРЫ, СПОСОБСТВУЮЩИЕ ПРЕВРАЩЕНИЮ АЗЕРБАЙДЖАНА В ЧЛЕНА МИРОВОГО «КОСМИЧЕСКОГО КЛУБА»

### РЕЗЮМЕ

В представленной статье рассмотрены факторы, влияющие на превращение современного Азербайджана в члена мирового космического клуба, развитие космической промышленности Азербайджана. Основной целью исследования является, прежде всего, определение стратегической линии Азербайджана в области космической промышленности, изучение преимуществ наличия искусственных спутников для нашего государства, изучение необходимости развития космической промышленности в кризисных ситуациях, в получении достоверной информации в решающие моменты.

Исследование имеет важное научное и политическое значение. Несмотря на различные статьи и исследования в области развития космической промышленности в Азербайджане, в этой области необходимы новые научные исследования и подходы. В представленной статье исследуются теоретические основы развития космической отрасли, анализируется практическая, целенаправленная деятельность Азербайджанского государства, показывается важность и преимущества наличия искусственных спутников во время Второй Карабахской войны. В статье со ссылкой на источники и литературу последнего периода была изучена стратегия Азербайджана по превращению в государство космической промышленности с использованием методов историзма, обобщения, систематизации, изучения документов. С этой точки зрения представленная исследовательская работа играет важную роль в изучении новейшей истории Азербайджана и его международных отношений.

***Ключевые слова:*** *космический клуб, искусственный спутник, ненефтяная промышленность, Азербайджан, стратегическая линия, информационно-коммуникационные технологии*

B E Y N Ə L X A L Q   M Ü N A S İ B Ə T L Ə R
I N T E R N A T I O N A L   R E L A T I O N S

UOT 327

**АФЕТ САФАРОВА**
**Доцент кафедры «Дипломатии и современных интеграционных процессов» Бакинского Государственного Университета,**
**доктор философии по политическим наукам**
*e-mail: afa.sfrva.19@gmail.com*

# УГЛУБЛЕНИЕ СТРАТЕГИЧЕСКОГО ПАРТНЕРСТВА МЕЖДУ АЗЕРБАЙДЖАНОМ И ТУРЦИЕЙ

## Введение

Одним из ключевых факторов современной региональной политики является стратегический диалог Азербайджана и Турции. Его фундамент был заложен 104 года назад, в судьбоносные дни мая-сентября 1918 года, когда объединенные азербайджано-турецкие войска, действовавшие в составе Кавказской Исламской Армии под командованием Нури паши, освободили наряду с другими территориями Баку и Бакинскую губернию. Правовой основой союзнических отношений выступил тогда подписанный 4 июня 1918 года между Азербайджанской Демократической Республикой и Османской Турцией Батумский договор о дружбе, содержавший, в частности, и пункт о военной помощи.

В 1918 году, во многом благодаря союзническим отношениям с Турцией, было утверждено право азербайджанского народа на саму жизнь, свободу и государственную независимость. Спустя более чем столетие, братские отношения и стратегическое союзничество между Азербайджаном и Турцией закрепились в качестве одной из фундаментальных опор регионального развития, безопасности и сотрудничества.

Азербайджан и Турцию объединяет общность исторических корней и национальных ценностей. Сегодня братские страны связывает важное экономическое сотрудничество. Между Азербайджаном и Турцией возникают новые отношения, и именно в постконфликтный период начинается новая эпоха азербайджано-турецких отношений. Турция – одно из трех основных государств региона (наряду с Россией и Ираном), играющих важную роль в судьбе не только Азербайджана, но и всего Кавказа. Еще с древних времен эта страна придавала большое значение своей политике в отношении Кавказа и отличалась активным участием в происходящих в регионе событиях.

Позиция Турции на Кавказе обеспечивается, в основном, Азербайджаном и Грузией. Турция испытывает необходимость в союзничестве с Азербайджаном, налаживании с ним тесных отношений. Турция, у которой, можно сказать, нет прямой сухопутной связи с Азербайджаном (за исключением связи с изолированным Нахчываном), имеет возможность доступа и всесторонней интеграции в Азербайджан и Центральную Азию лишь через Грузию, Россию и Иран.

Азербайджан играет для Турции важную роль посредника, как на Кавказе, так и в Центральной Азии и Каспийском регионе в осуществлении связи с другими, в частности, с тюркскими государствами.

В развитии азербайджано-турецких отношений заинтересованы обе стороны.

Если Турция для Азербайджана – союзник и опора на международной арене, то могущество азербайджанского государства означает рост могущества и роли Турции в мировой политике. Поэтому необходимо развитие отношений между этими двумя государствами на основе принципов, исходящих из норм международного права.

Изречения Мустафы Кемаля Ататюрка «Радость Азербайджана – наша радость, его горе – наше горе» и Гейдара Алиева «Мы – одна нация, два государства» как в Турции, так и в Азербайджане воспринимаются как самая совершенная формула, точно выражающая историю, реальность и перспективы отношений между двумя странами.

### Шушинская декларация: фактор стабильности в регионе

Путь к подписанию Шушинской декларации пролегал через выстраивание современных союзнических отношений между Азербайджаном и Турцией, которые берут свое начало с момента восстановления государственной независимости Азербайджанской Республики в 1991 году. Турецкая Республика стала первой страной, признавшей Азербайджан. Оказание Анкарой посильной поддержки Баку было особенно важно с учетом военной агрессии Армении против Азербайджана, результатом которой стала оккупация горной части Карабаха и прилегающих к ней других азербайджанских территорий.

В качестве одного из приоритетных направлений азербайджано-турецкого союзничества изначально было закреплено сотрудничество в военной и военно-технической сфере. Реализация совместных оборонных программ, проведение совместных военных учений, участие плечом к плечу азербайджанских и турецких военнослужащих в различных международных миротворческих операциях – эти и другие мероприятия год за годом ковали азербайджано-турецкий стратегический диалог [3].

Кульминация этого процесса была выявлена в период 44-дневной войны 2020 года. Вооруженные Силы Азербайджана сокрушили армянские оккупационные войска, изгнали врага с азербайджанской территории, восстановили целостность и единство своего государства. В этой священной для азербайджанского народа войне он ощущал моральную и политическую поддержку братского турецкого народа, Турецкой Республики. И уже на совместном военном параде 10 декабря 2020 года глава Азербайджана Ильхам Алиев констатировал: "Сегодня азербайджано-турецкий союз представляет большую значимость не только для наших народов, но и для региона и для мира в целом" [11].

Новой вехой в развитии двусторонних союзнических отношений явилось подписание декларации в освобожденной Шуше 15 июня 2021 года. Знаковый визит Президента Турции Эрдогана в город, являющийся жемчужиной Карабаха, культурной столицей Азербайджана, подписание лидерами двух братских стран Шушинской декларации о союзничестве стали ярким подтверждением того, что Великая победа Азербайджана в 44-дневной войне изменила геополитический облик всего региона. Шушинской декларацией Азербайджан и Турция официально скрепили свои поднятые на новый уровень отношения, отвечающие требованиям и вызовам нового времени, нацеленные на дальнейшее усиление роли Баку и Анкары в региональных и мировых делах.

В то же время союзнический диалог Баку и Анкары служит реализации общерегиональных интересов. Поскольку выдвигаемые Азербайджаном и Турцией стратегические инициативы, претворяемые в жизнь крупные экономические и транспортно-коммуникационные проекты, несут всем странам и народам региона мир, безопасность, благоденствие, открывают перед ними перспективу полноценной

интеграции, многостороннего сотрудничества.

Подписанный 15 июня в Шуше документ на юридическом уровне закрепил союзнические отношения Азербайджана и Турции. Декларация нацелена на усиление международной и региональной роли Азербайджана и Турции, а также на повышение их авторитета. В документе особое внимание уделяется продвижению скоординированных и совместных действий в политической и военной сферах, а также в сфере безопасности с точки зрения общих национальных интересов. В случае угрозы или агрессии со стороны третьего государства или государств декларацией предусматривается оказание необходимой помощи друг другу в соответствии с Уставом ООН [9].

Упор в документе также сделан на совместные усилия по модернизации армии в соответствии с современными требованиями, а также на реализацию мер, направленных на укрепление обороноспособности и военной безопасности.

В декларации отражены такие актуальные вопросы, как активизация усилий по диверсификации национальных экономик и экспорта, создание механизмов для организации свободного движения товаров, открытие Зангезурского коридора, восстановление транспортных и коммуникационных связей в регионе [8].

Кроме этого, документ предусматривает дальнейшее развитие сотрудничества между диаспорами, а также укрепление сотрудничества в рамках азербайджано-турецкой медиа-платформы [13].

Цель Шушинской декларации заключается в создании правовой базы существующих углубленных турецко-азербайджанских отношений в военной, политической, экономической и культурной сферах. До сих пор между Турцией и Азербайджаном было подписано много документов, носящих декларативный характер. Однако в практическом плане эти отношения не соответствовали тому уровню, который был указан в документах. За последний год эти отношения стремительно углублялись и вышли за рамки договоренностей, подписанных ранее. Шушинская декларация в очередной раз подчеркнув вопросы существующих двусторонних соглашений, оформила отношения, уровень которых превысил уровень отношений, нашедших отражение в прежних документах.

Принимая во внимание все вышеизложенное можно сказать, что декларация поспособствует усилению гарантий суверенитета Азербайджана, укреплению Турции на Кавказе, развитию отношений между кавказскими республиками, а также отношениям трех кавказских республик с Турцией, Россией и Ираном.

В Шушинской декларации Карский договор был упомянут не случайно. Кстати, в Соглашении о стратегическом партнерстве, подписанном между Турцией и Азербайджаном в 2010 году, также упоминается Карское соглашение. Карское соглашение, по сути, является продолжением Московского договора, подписанного ранее между Турцией и большевистской Россией. Этот договор, подписанный весной 1921 года, является первым межгосударственным документом, подписанным Турцией после распада Османской империи и определяет восточные границы страны.

В нем указывалось, что «Турция (Великое Национальное Собрание Турции – парламент) соглашается на передачу Батум Грузии, признав в качестве автономного региона». Московский договор предписывал уточнение границ Турции с Кавказом, уточнение интересов Турции в отношении проживающих там народов (тюркского происхождения), а также подписание Карского договора с целью определения военно-политических отношений между только что советизированными Азербайджаном, Грузией, Арменией и Турцией [7].

По условиям Карского договора Нахчывану был предоставлен статус автономии под протекторатом Азербайджана, предусматривалась защита прав этнических групп, проживающих на территориях подписавших его государств (тюрок, грузин, армян) и решение прочих вопросов [7].

Не вдаваясь в широкие обсуждения важности Карского соглашения, можно упомянуть только два момента. Во-первых, это было первое соглашение, подписанное между Турцией и Азербайджанской ССР. Во-вторых, благодаря Московскому и Карскому договорам Турция смогла перебросить свои войска с восточного фронта на западный и победить в войне за независимость.

Главной причиной упоминания Карского договора в документах, подписанных сегодня между Турцией и Азербайджаном, является отказ Армении признать это соглашение после распада СССР. Армения продолжает претендовать на земли в восточных провинциях Турции в соответствии с «Севрским» соглашением, подписанным Османской империей и утратившим силу в результате войны за независимость Турции, и не признает Карское соглашение.

Единственное сходство между Шушинской декларацией и Карским договором заключается в том, что он был подписан между Азербайджаном и Турцией. А по сути, Карский договор регулирует пограничные вопросы Турции с Россией и тремя странами Кавказа, целью же Шушинской декларации является демонстрация глубокого союзничества Турции и Азербайджана. В связи с этим Шушинская декларация является более детальным соглашением о стратегическом сотрудничестве, подписанного в 2010 году.

Декларация является письменным оформлением более продвинутых отношений, чем это предусмотрено в предыдущих документах, а также в очередной раз акцентирует на них внимание.

Согласно конвенциям 1969 и 1986 годов государства вправе заключать двусторонние или многосторонние договоры. Межгосударственная декларация, подписанная Турцией и Азербайджаном в Шуше, также является международным договором. Что же касается ее юридической силы, то согласно международному праву любой договор, подписанный государством, имеет презумпцию действительности. Чтобы утверждать обратное, необходимо доказать, что он противоречит нормам международного права. В этом смысле международно-правовая сила документа не подлежит сомнению. Если же мы говорим о его классификации, то по своей структуре - это международный договор, с точки зрения участия – двусторонний, а по содержанию – политический [2, с.303]. То есть, рассматривая вопросы, не предусмотренные Шушинской декларацией, мы можем предположить, что в будущем между Турцией и Азербайджаном будут подписаны двусторонние или многосторонние (Армения, Россия) соглашения по специальным вопросам, связанным с регулированием Зангезурского коридора.

Иными словами, Шушинская декларация упорядочила политический и правовой механизмы для установления союзнических связей между Турцией и Азербайджаном.

Если в регионе сформируется новая система отношений, то через некоторое время объединение заинтересованных стран на какой-то платформе уже станет необходимостью.

С другой стороны, сохраняющийся хаотичный характер традиционной системы международных отношений побуждает региональные центры силы к доступу к различным платформам более чем на одном уровне. Концепция многосторонней внешней политики, введенная Турцией в последние годы, также вытекает из условий этого хаотичного периода. И если Турция внедряется на Кавказ через Азербайджан, то в первую очередь, она будет заинтересована в нормализации отношений с Арменией.

Однако нормализация азербайджано-армяно-турецких отношений не может произойти без России. Если турецко-российские переговоры по нормализации продолжатся успешно, то создание платформы станет реальностью именно с открытием Зангезурского коридора, региональная платформа с участием Грузии и Ирана станет главным центром сотрудничества для устойчивого мира и экономического развития транскавказского региона.

«Эта высокая гарантия безопасности и мира имеет стратегическое значение как для Южного Кавказа, так и для Евразии в целом», – отметил Алиев в обращении к участникам XXIV-го Евразийского экономического саммита, организованного Фондом стратегических и социальных исследований Marmara Group[14].

**Торгово-экономическое и энергетическое сотрудничество**

Турция является важным источником несилового влияния в южнокавказском регионе. Чрезвычайно укрепилась сила притяжения Турции на фоне экономического роста государства. С точки зрения человеческой и географической близости Турция является единственным конкурентом России за влияние среди народов Южного Кавказа. Благодаря географической близости и размерам территории Турция может оказать очень существенную поддержку процессу реформ в регионе. Турция заинтересована в распространении стабильности за пределами своих границ. Процесс постепенной интеграции служит хорошим примером положительного влияния Турции на динамику событий по другую сторону границы.

Азербайджано-турецкие двусторонние отношения не ограничиваются только военными и дипломатическими связями. В последние годы Азербайджан стал одной из стран, больше всего инвестирующих в экономику Турции (более $15 млрд, в то время как Турция инвестировала в Азербайджан $12,5 млрд). Ожидается, что в ближайшие годы сумма азербайджанских инвестиций увеличится до $20 млрд. [15]. Трансанатолийский газопровод, который нацелен на транспортировку азербайджанских энергоресурсов на западные рынки, стал самым длинным и широким газопроводом Турции, Ближнего Востока и Европы. Его длина составляет 1 811 метров и диаметр трубы – 56 дюймов. Проект нацелен на транспортировку природного газа из азербайджанского месторождения Шах-Дениз в Турцию и через Турцию в Европу. Нефтепровод Баку-Тбилиси-Джейхан, инвестиции азербайджанского энергетического концерна SOCAR в энергетику Турции и многие другие примеры наглядно показывают тесные связи двух стран в энергетике. С 30 октября 2017 года функционирует железная дорога Баку-Тбилиси-Карс, которая сократила время поездок между Турцией и Азербайджаном и сделала их более комфортными. Строится Зангезурский коридор, который укрепит и упростит туристические и торговые связи между двумя странами. Зангезурский коридор, согласно 9-му пункту соглашения о прекращении огня, подписанного между Азербайджаном и Арменией, является коридором, который будет построен между Азербайджаном и его составляющей частью – Нахчыванской Автономной Республикой, являющейся эксклавом Азербайджана. Этот коридор не только свяжет Турцию и Азербайджан, но и соединит эксклав Нахчывань с основной территорией страны через территорию Армении (или по границе Армения-Иран) и сделает Азербайджан более интегрированным.

Дипломатические, военные и торгово-экономические связи вывели отношения Турции и Азербайджана на новый пост-конфликтный формат и реализуются на уровне конкретного действующего сотрудничества на основе общих интересов.

Следует отметить, что 16 августа 2010 года между двумя странами было подписано Соглашение о стратегическом партнерстве и оказании взаимопомощи, а 15 сентября 2010 года был основан Совет стратегического сотрудничества высшего уровня. Парламенты обеих стран одобрили соглашение, которое было заключено на основе принципа «обеспечения национальной безопасности двух стран, укрепления экономических составляющих и защиты совместных интересов». Отличительной особенностью этого соглашения стал пункт о союзничестве:

«В случае, если одна из сторон подвергается вооруженному нападению или военному вторжению третьей страны или группы стран, стороны для реализации индивидуального или группового права на самооборону, предусматриваемого в 51-й статье Устава ООН, договариваются о взаимопомощи в рамках существующих возможностей, включая военные возможности и маневры». Таким образом, соглашение по второму пункту обозначило правовые рамки двусторонних отношений, а механизм Совета стратегического сотрудничества высшего уровня, основанный на уровне президентов двух стран, очертил административные рамки двусторонних отношений.

Для Турции Южный Кавказ имеет важное стратегическое значение по двум причинам: 1.Кавказ связывает Турцию со странами Центральной Азии, не имеющими общих границ с Турцией. 2. Кавказ непосредственно влияет на энергетическую стабильность Турции [3].

Анализируя торгово-экономическое и энергетическое сотрудничество, следует отметить, что первые годы правления ПСР в Турции создали образ государства, нацеленного на реализацию своего интеллектуального, дипломатического и ресурсного потенциала [1,с.8]. Больших успехов Турция и Азербайджан достигли в энергетическом сотрудничестве.

Европейский союз в поиске доступа к рынкам стран Ближнего Востока и Центральной Азии вынужден действовать через посредника, поддерживая его лидерство в регионе [4]. Турция стремится стать «четвертой газовой артерией» Евросоюза, об этом говорит ее участие в проектах, предусматривающих газовый транзит через Турцию – TANAR, TAP, AGRI (азербайджано-грузинско-румынский проект по транспортировке сжиженного газа). «Энергетическая дипломатия» Турции добилась заключения договоров и реализации крупных предприятий. Возможность Анкары реэкспортировать азербайджанский газ в Европу укрепляет позиции Турции в ее отношении с ЕС [5]. С целью увеличения своих доходов и недопущения монополии «Газпрома» на рынке газа прикаспийские страны желают принимать участие в различных трубопроводных проектах. В числе этих стран Азербайджан, недавно заключивший с Турцией новое соглашение по поставкам азербайджанского природного газа как для ее личного пользования, так и для обеспечения транзита в Европу [5].

**Выводы**

Азербайджано-турецкие отношения, несомненно, претерпевают качественные изменения. Отношения от стратегического партнёрства переходят на следующий этап. Эти отношения между двумя странами всегда представляли собой пример уникального союзничества и сотрудничества, но подписание Шушинской декларации выводит их на качественно новый уровень

Известная формула взаимоотношений между Азербайджаном и Турцией, выведенная в свое время Общенациональным лидером Гейдаром Алиевым – «Один народ – два государства», сегодня получила новое осмысление.

Отношения между Азербайджаном и Турцией всегда были довольно крепкими, и это неудивительно, так как обе страны

имеют устойчивые исторические и культурные связи. Недавнее активное военное и политическое сотрудничество в ходе операции по возвращению оккупированных территорий Азербайджана еще больше сблизило наши государства.

Другим вероятным успехом роста является сотрудничество по восстановлению и развитию территорий, освобожденных от оккупации. За почти 30 лет армянской оккупации Карабах отброшен на десятилетия, если не на столетия назад. Сейчас это самый отсталый регион Азербайджана, в который необходимо вложение десятков миллиардов долларов, особенно это актуально для инфраструктурных проектов. Поэтому азербайджанские и турецкие компании уже сейчас сотрудничают в деле восстановления Карабаха. Так, например, турецкие компании участвуют в строительстве дороги Физули-Шуша и открытии аэропорта Физули. Укрепление и расширение экономического сотрудничества проводится на фоне интенсивной трансформации вооруженных сил Азербайджана, без которых было бы невозможно возвращение Карабаха. Начиная с 1990-х годов, Турция оказывает серьезную военную помощь Азербайджану. Однако наиболее интенсивно отношения в сфере военного сотрудничества начинали развиваться в нулевые годы. Так, в 2004 году правительства двух стран подписывали Соглашение «О долгосрочном экономическом и военном сотрудничестве» и ряд других соглашений в военной сфере. А в декабре 2010 года Анкара и Баку заключили Договор о стратегическом партнерстве и взаимопомощи, который затрагивал не только экономическое сотрудничество, но также и военно-политические вопросы, и безопасность. Соглашение предусматривает оказание друг другу необходимой военной помощи в случае военной агрессии со стороны третьих стран. Фактически это военный союз между двумя странами.

Подводя итог, можно сказать, что «Один народ – два государства» – это весьма интересная и перспективная модель интеграции. Очевидно, что главный секрет успеха этой модели кроется в отсутствии какого-либо давления и навязывания своих ценностей или же своей идеологии, как это часто происходит на постсоветском пространстве. Напротив, модель «Один народ – два государства» бережно хранит индивидуальные особенности каждой из сторон и прежде всего, нацелена на максимальное раскрытие общего потенциала.

Уникальное географическое расположение предопределило своеобразное распределение ролей между Азербайджаном и Турцией. Азербайджан выступает чем-то вроде окна в Центральную Азию для своего турецкого союзника, а Турция, в свою очередь, является окном в Европу для своего азербайджанского партнера. Таким образом, обе страны заинтересованы друг в друге и просто обречены на дальнейшее взаимовыгодное сотрудничество.

В интервью итальянской газете İl Sole 24 Ore 2 сентября 2022 года в городе Черноббио (Италия) Президент Азербайджанской Республики Ильхам Алиев четко сформулировал для мировой общественности азербайджано-турецкие отношения: «Турция является нашим союзником. Турция на глобальном уровне является сильным государством, и, конечно, подписанная нами в минувшем году декларация о союзничестве – очень важный фактор для региональной стабильности. По окончании Второй Карабахской войны, в которой Турция оказала Азербайджану как политическую, так и моральную поддержку, наши отношения еще более упрочились. Так что это – очень важный фактор. Турция и Азербайджан, можно сказать, действуют, как единая команда во многих региональных вопросах. Это тоже должно учитываться всеми [17].

**Литература:**


1. Аватков В.А. Внешнеполитическая линия Турецкой Республики в отношении стран Закавказья в контексте внешнеполитической идеологии Турции // Ежегодник ИМИ выпуск 2 (8) 2014. Электронный ресурс file_03a21e4e99303bb787920a5f39252400.pdf
2. Burhanettin Duran Kemal İnat Ali Balci Türk Dış Politikası Yıllığı 2013 ISBN: 978-605-4023-xx-x. 2013, 476 s 303
3. Бурджу Гюльтэкин. Интересы и стратегические линии Турции на Южном Кавказе. Южный Кавказ - 20 лет независимости, Фонд Фридриха Эберта
4. Пришло время вспомнить: Пакт о стабильности на Южном Кавказе www.Euractiv.ru
5. Платформа стабильности на Кавказе в клубке противоречий// www.lenta.ru
6. В ожидании бури: Южный Кавказ Центр анализа стратегий и технологий под редакцией К.В. Макиенко. М.: 2018. 186 с.
7. https://www.tepav.org.tr/upload/files/haber https://lenta.ru/articles/2021/07/01/tur_az/
8. https://www.turan.az/ext/news/2021
9. https://www.kavkaz-uzel.eu/articles/365007/
10. https://paralel.az/ru/article/277363
11. https://www.prezident.az
12. "Heydar Aliyev Heritage" International Online Library
13. https://az.sputniknews.ru/
14. http://interfax.az/view/839336
15. https://profile.ru/abroad/naskolko-blizkimi-mogut-stat-otnosheniya-turcii-i-azerbajdzhana-969787/
16. https://www.trend.az/azerbaijan/politics/3640110.html


***Ключевые слова:*** *Турция, Азербайджан, Шушинская декларация, 44 дневная война, TANAP-TAP, стратегическое сотрудничество, Зангезурский коридор*

**Afət Səfərova**
*Bakı Dövlət Universitetinin*
*Diplomatiya və müasir inteqrasiya prosesləri kafedrasının dosenti,*
*siyasi elmlər üzrə fəlsəfə doktoru*

# AZƏRBAYCAN-TÜRKİYƏ STRATEJİ ƏMƏKDAŞLIĞININ MÖHKƏMLƏNMƏSİ

## XÜLASƏ

Məqalədə Türkiyə ilə Azərbaycan arasında münasibətlərin möhkəmlənməsi və münaqişədən sonrakı dövrdə Cənubi Qafqazda yeni geosiyasi dəyişikliklərin yaranması təhlil edilir. Azərbaycan ilə Türkiyə arasında yeni münasibətlər yaranır və məhz münaqişədən sonrakı dövrdə Azərbaycan-Türkiyə münasibətlərinin yeni mərhələsi başlayır və bu münasibətlər Şuşa Bəyannaməsinin imzalanması ilə bağlı strateji tərəfdaşlıqdan növbəti mərhələyə keçir. Həmçinin, regionda əməkdaşlıq üçün kommunikasiyaların açılması təşəbbüsü, təhlükəsizliyin təmin olunması problemləri də nəzərdən keçirilir və bu əməkdaşlıq platformasında iştirak edən bütün region ölkələri bundan ancaq faydalanması bildirilir.

***Açar sözlər:*** *Türkiyə, Azərbaycan, Şuşa bəyannaməsi, 44 günlük müharibə, TANAP-TAP, strateji əməkdaşlıq, Zəngəzur dəhlizi*

**Afet Safarova**
*Baku State University*
*Department of the Modern Integration*
*Ph.D. in Political Sciences, Associate professor*

# DEEPENING THE STRATEGIC PARTNERSHIP BETWEEN AZERBAIJAN AND TURKEY

## ABSTRACT

The article analyzes the strengthening of relations between Turkey and Azerbaijan and establishing new geopolitical changes in the South Caucasus post-conflict period. New relations are emerging between Azerbaijan and Turkey. In the post-conflict period, a new period of Azerbaijani-Turkish relations began, which moved from a strategic partnership to the stage with the signing of the Shusha Declaration. The initiative of opening communications is being considered to create a new platform for cooperation in the region. The problems of ensuring security are also taken into account, and it is reported that participating in this cooperation platform will be beneficial for all the countries of the region.

***Keywords:*** *Turkey, Azerbaijan, Shusha Declaration, 44 days war, TANAP-TAP, strategy cooperation, Zangezur corridor*

# İ Q T İ S A D İ Y Y A T
# E C O N O M Y

УДК 338.1; 330.34/.35; 338.26/.28; 338.12

**ГЮЛАРА СУЛЕЙМАНОВА**
**Доцент кафедры «Государственное управление и менеджмент»**
**Академии Государственного Управления**
**при Президенте Азербайджанской Республики,**
**доктор философии по экономике**
*e-mail: gulyara-s@yahoo.com*

## ОСОБЕННОСТИ ИНВЕСТИЦИОННОГО КЛИМАТА СВОБОДНЫХ ЭКОНОМИЧЕСКИХ ЗОН АЗЕРБАЙДЖАНА

Свободные экономические зоны – это ограниченные территории, обладающие особым юридическим статусом по отношению к другим частям государства, который выражается в определенных льготных и таможенных условиях для зарубежных и местных предпринимателей, бизнесменов. Основные цели и задачи свободных экономических зон – достижение высокого социально-экономического развития государства, ее внутренних регионов, а также развитие различных отраслей хозяйства в рамках регионов и страны в целом.

Общей характерной чертой различных видов свободных экономических зон является наличие благоприятного инвестиционного климата, включающего в себя таможенные, финансовые, налоговые льготы и преимущества по сравнению с общим режимом для предпринимателей, существующим в той или иной стране. Конкретные льготы и стимулы имеют некоторые количественные отличия по зонам разных стран, по существу они, как правило, сходны. Выделяют четыре основные группы льгот:

**1. Внешнеторговые льготы.** Они предусматривают введение особого таможенно-тарифного режима (снижение или отмену экспортно-импортных пошлин) и упрощенного порядка осуществления внешнеторговых операций.

**2. Налоговые льготы** содержат нормы, связанные с налоговым стимулированием конкретных видов деятельности или поведения предпринимателей. Эти льготы могут затрагивать налоговую базу (прибыль, стоимость имущества и т.д.), отдельные ее составляющие (амортизационные отчисления, издержки на зарплату, научно-исследовательские и опытно-конструкторские работы, транспорт), уровень налоговых ставок, вопросы постоянного или временного освобождения от налогообложения.

**3. Финансовые льготы** включают различные формы субсидий. Они предоставляются в виде более низких цен на коммунальные услуги, снижения арендной платы за пользование земельными участками и производственными помещениями, льготных кредитов и др.

**4. Административные льготы** предоставляются администрацией зоны с целью упрощения процедур регистрации предприятий и режима въезда-выезда иностранных граждан, а также оказания различных услуг.

Названные льготы применяются в самых различных комбинациях. Льготы, предоставляемые свободным экономическим зонам, не всегда являются главным стимулом для притока в страну иностранного капитала. Более существенными в этом отношении могут оказаться такие

факторы, как политическая стабильность, инвестиционные гарантии, качество инфраструктуры, квалификация рабочей силы, упрощение административных процедур и др. Вместе с тем, при таких равных условиях на первый план выступают предоставляемые зоной льготы.

Мировой опыт функционирования СЭЗ позволяет сформулировать основные выводы об их достижениях, общих чертах и особенностях развития. Функционирование свободных экономических зон в промышленно развитых странах свидетельствует, что в основе их успеха лежит, с одной стороны, хорошее планирование начальных стадий их развития, а с другой – гибкость управления зонами. Изменяющаяся ситуация в мировом хозяйстве (научно-техническая революция, конкуренция между международными корпорациями, изменения в курсах валют, в системе международного обмена и др.), влияет на развитие свободных экономических зон и, соответственно, требует адекватного реагирования на эти изменения.

Социально-экономические выгоды от создания зон (внешнеторговых в США, "Шеннон" в Ирландии и др.) достаточно весомы. Эти зоны создали значительное число рабочих мест, оживили международный торговый обмен, повысили внешнеторговую результативность, научно-производственный потенциал этих стран и др. Важным аспектом деятельности СЭЗ в промышленно развитых странах является то, что они работают не только на мировой, но и на внутренний рынок [7, с.33].

Свободные экономические зоны, функционирующие в развивающихся странах, имеют ряд общих черт и моментов развития. Так, наибольшее распространение в этих странах получили, во-первых, экспортно-производственные зоны. Как было сказано выше, целесообразность создания экспортно-производственных зон определяется рядом экономических причин и, прежде всего, потребностью развития индустрии и производства промышленных товаров на экспорт, привлечением в страну иностранного капитала, передовой науки и технологии, современной технической информации.

Во-вторых, особый режим хозяйствования в СЭЗ развивающихся стран становится более либеральным и льготным для иностранных предпринимателей. Это связано с усилением международной конкуренции между зонами и, соответственно, попытками продемонстрировать ее сравнительные преимущества перед другими подобными свободными экономическими зонами.

В-третьих, в процессе функционирования свободных экономических зон происходит торгово-промышленная диверсификация их деятельности, комплексное развитие. Современная научно-техническая революция выдвигает на первый план такие экономические зоны, в которых сосредотачиваются наукоемкие отрасли производства, связанные с разработками новой и высокой технологий.

Среди развивающихся стран весьма заметное развитие и резонанс получили свободные экономические зоны Китая. Начав с небольших территорий, объединенных специальными зонами в начале 80-х годов, китайское руководство к середине 90-х годов распространило их режим на сотни квадратных километров. Помимо наиболее известных в стране и за рубежом свободных экономических зон – "Шэньчжень", "Чжухай", "Сямэнь", "Шаньтоу", имеющих многолетнюю историю, а также зоны "Хайнань", существующей с 1988 г., в стране заметное развитие получили зоны технико-экономического развития (более двух десятков) и зоны развития новой и высокой технологии - технопарки. Особая роль отводится шанхайской зоне экономического развития "Пудун". Значение проекта, рассчитанного на несколько десятилетий, определяется не только тем, что зона "Пудун" должна стать в перспективе крупным центром промышленного производства Китая, но тем, что она призвана

способствовать превращению Шанхая в крупнейший торговый и финансовый центр Азиатско-Тихоокеанского региона [8, с.58].

Создание специальных экономических зон (СЭЗ) стало важной составной частью проведения открытой внешнеэкономической политики, провозглашенной китайским руководством в конце 70-х годов. При выборе модели развития СЭЗ китайское руководство исходило из текущих потребностей страны и опыта функционирования таких зон в других странах.

Наиболее детально изучался опыт Сингапура, Тайваня, США. В ходе подготовки организации специальных экономических зон было предложено несколько вариантов режима их функционирования, и в результате был избран путь создания в их рамках структуры хозяйства, ориентированного на экспорт, всемерное привлечение иностранного капитала, а также существенное улучшение технологии производства. Специальные экономические зоны стали играть связующую (буферную) роль с другими районами страны, реализуя политику "открытых дверей".

С начала 90-х годов в портовых городах, специальных экономических зонах КНР начинают возникать свободные таможенные территории - зоны свободной (беспошлинной) торговли (ЗСТ). Зоны свободной торговли, как утверждают китайские специалисты, будут развиваться по моделям, сходным с теми, которые существуют в других странах. По свидетельству китайского руководства развитие зон свободной торговли явится одним из магистральных направлений реализации открытой внешнеэкономической политики вплоть до 2000 года.

Практика функционирования китайских свободных экономических зон и других районов со льготным инвестиционным климатом продемонстрировала несомненные успехи. К числу достижений СЭЗ как китайские, так и зарубежные специалисты относят прежде всего высокие, устойчивые темпы экономического роста, большие объемы привлеченных в зоны иностранных инвестиций, значительное повышение производительности труда и, наконец, существенный рост уровня жизни населения.

Свободные экономические зоны в КНР (помимо общих с другими странами целей специальных зон) в целом являются экспериментом по использованию рыночных отношений в условиях преобладания государственной собственности. Переход "все разом" к рыночному хозяйству признан в Китае неприемлемым, чреватым серьезными потрясениями для народа и экономики в целом. Специфика китайского опыта регулирования свободных экономических зон заключается в том, что они для современного Китая - нечто большее, чем специальные районы по стимулированию иностранного и отечественного предпринимательства, привлечению инвестиций, ускоренному развитию тех или иных отраслей и др. В свободных экономических зонах Китая происходит становление и обкатка, как указывают китайские экономисты, экономической модели, по которой в XXI веке будет жить практически весь Китай.

Заметная роль свободных экономических зон в социально-экономическом развитии отдельных обособленных районов разных стран, той или иной отрасли производства, в привлечении иностранного капитала или оживлении деятельности мелкого и среднего отечественного предпринимательства, тем не менее не является достаточным основанием рассматривать их как универсальный способ модернизации экономики. Степень влияния свободных экономических зон на остальную территорию многих развивающихся стран является довольно ограниченной. В особенности это справедливо для промышленно развитых стран, где, как правило, и не ставится специальной задачи распространения такого влияния. Организация свободных экономических зон играет поддерживающую, стимулирующую роль в оживлении предпринимательской деятельности данного региона или в акцентировании внимания на

развитии той или иной отрасли экономики. В то же время, хотя функционирование свободных экономических зон в развивающихся странах не является панацеей по решению их многообразных социально-экономических проблем, они играют весьма заметную роль в экономике и обществе этих стран. Для многих развивающихся стран свободные зоны становятся полюсами торгово-экономического, научно-технического и социального роста. Кроме того, в них отрабатывается модель в той или иной степени открытой экономики, пути интеграции в мировую экономику. Образование свободных экономических зон, особенно в развивающихся странах, сопряжено со значительными капиталовложениями и последующими существенными усилиями государства по их развитию. Без строго определенной централизованной поддержки они практически нежизнеспособны. По обследованию, проведенному Институтом Востоковедения РАН по 26 странам, собственные затраты по привлечению иностранных инвестиций в свободные экономические зоны составили в среднем 4 доллара на 1 доллар зарубежных инвестиций. В КНР, например, иностранные вложения в четыре свободные экономические зоны к концу 80-х годов составили 4 млрд. долл., в то время как начальные собственные инвестиции превышали 22 млрд. долл., что в 5,5 раз больше. По существу, вся инфраструктура свободных Экономических зон КНР была создана за счет централизованных государственных средств.

При многочисленных примерах успешного функционирования свободных экономических зон, имеют место и неудачные попытки их организации. Так, создание в Шри Ланке, Гватемале, Либерии, Сенегале и других странах разного рода свободных экономических зон не только не увенчалось успехом, но, наоборот, многие из них вообще перестали функционировать. Позднее были предприняты попытки их реанимации, в той или иной степени успешные. К основным причинам неудач в работе СЭЗ в этих странах можно отнести политические, экономические, организационные причины [9, с.89].

Политические причины связаны с общеполитической нестабильностью в стране, гражданскими волнениями, вплоть до военных действий. К экономическим причинам, прежде всего, следует отнести чрезмерно усложненное, запутанное, с точки зрения инвестора, законодательство об инвестиционном режиме в зоне. Бюрократическая заорганизованность управления свободными экономическими зонами, наличие многочисленных малооправданных процедур для регистрации иностранного инвестора в зоне, плохая пропаганда и реклама преимуществ специальной зоны – все это также заметно отражается на ее судьбе.

К сожалению, к числу стран и регионов, где свободные экономические зоны не только не дают пока заметного эффекта для хозяйства, но и их собственное развитие оставляет желать лучшего.

Особое место в социально-экономическом развитии Азербайджана приобретает формирование свободных экономических зон на территории республики, способствующих привлечению капитала и созданию инвестиционного климата для их успешного развития. Во внешнеторговой стратегии Азербайджана свободные экономические зоны влияют на расширение ассортимента и географии экспорта экономики страны, способствуют формированию новых рабочих мест как для высокопрофессионального, так и среднего рабочего класса республики. С учетом благоприятности экономико-географического положения Азербайджана, расположенного на пересечении разветвленных транспортных коридоров различных направлений, соседское расположение государств, а также близость к огромным рынкам сбыта обеспечивают высокую экономическую эффективность свободных экономических зон и способствует обслуживанию рынков приграничных стран.

В Азербайджане проводится большая работа по внедрению свободных экономи-

ческих зон, промышленных парков, торговых зон, бизнес-инкубаторов новых моделей развития предпринимательской деятельности. С целью формирования нормативно-правовой базы свободных экономических зон Президент Азербайджана Ильхам Алиев 22 января 2021 года подписал Указ «О мерах по совершенствованию управления промышленными парками, промышленными кварталами и агропарками». В соответствии с данным указом, на базе Сумгаитского химического промышленного парка было создано Агентство по развитию экономических зон со статусом юридического лица. Наряду с применением Закона Азербайджанской Республики «Об особых экономических зонах» от 14 апреля 2009 года, вышеотмеченный указ создал правовую основу для применения нового механизма государственной поддержки предпринимательства. В то же время с точки зрения развития ненефтяного сектора, организации транзитных услуг, улучшения инфраструктурного обеспечения, поддержки деятельности малого и среднего бизнеса, организации новых рабочих мест, создания особой экономической зоны портового типа в поселке Алят Президентом Азербайджанской Республики было подписано распоряжение от 17 марта 2016 года «О мерах по созданию особой экономической зоны типа зона свободной торговли; от 22 мая 2020 года Указом Президента «О создании и организации деятельности Алятской свободной экономической зоны». Зона свободной торговли в Аляте будет играть ведущую роль в Евразийской цепочке поставок продукции. Создание зоны особого режима в Аляте позволит Бакинскому международному морскому порту реализовать свой потенциал, а Азербайджан превратится в центр по обслуживанию европейских и азиатских рынков.

С международной точки зрения, создание свободной экономической зоны в Алятах увеличит товарооборот, инвестиционная привлекательность региона будет ускорена, повысится занятость населения в регионах в связи с созданием новых рабочих мест, ускорится интеграция национальной экономики в мировую экономику, будут расширены возможности повышения образовательного и профессионального опыта квалифицированных кадров, введены в строй новые технические центры.

Как известно, в свободных экономических зонах создается система льгот, связанная с программами и проектами, реализуемыми на территории государства или региона. Международная консалтинговая компания «Зона свободной торговли Алят» и DP World из ОАЭ позволит осуществить данный процесс с использованием самых передовых примеров международного опыта.

Реализация данного проекта не только принесет Азербайджану крупные экономические дивиденды, но и еще более упрочит позиции страны в регионе, повысит стратегическое значение республики, играющей важную роль в транзитно-транспортных коридорах по разным направлениям. Создание этой экономической зоны позволит повысить государственные доходы и средства, поступающие в бюджет, привлечь новые инвестиции.

В своем выступлении Президент Азербайджана Ильхам Алиев заявил, что инвестиции, вкладываемые в ненефтяной сектор, больше являются государственными инвестициями или же инвестициями местных компаний. Зарубежные компании предпочитают больше инвестировать в нефтегазовый сектор. Создание этой зоны послужит развитию ненефтяного сектора нашей экономики [3].

Естественно, что помимо создания и строительства Алятской свободной экономической зоны здесь будет создана разветвленная сеть инфраструктурного обеспечения, которая также будет привлекательной для инвесторов, новейшей технологии наряду с высокой заработной платой работающих, расширением экспортных возможностей ненефтяного сектора. Кроме того, близость поселка Алят к столице Азербайджана, большие свободные земельные участки

являются предпосылкой для создания здесь разветвленной сети инфраструктурных объектов. Наличие электростанции в этой зоне позволит снизить расходы наряду с нахождением в Аляты международного морского порта, что благоприятно с точки зрения логистических и транспортных условий. Особенности инвестиционного климата в Алятской экономической зоне связаны как с благоприятным географическим положением, выходом к морю и морскому порту, наличием земельного участка в 850 гектаров, так и проводимыми реформами в сопутствующих отраслях хозяйства. Так, в отчете Doing Business Всемирного из 190 стран Азербайджан занимает 28 место, что является благоприятным условием для привлечения инвесторов в инфраструктурные области.

Указ о создании и организации деятельности свободной экономической зоны (СЭЗ) Алят был подписан Президентом Азербайджана Ильхамом Алиевым 22 мая 2020 года. С тех пор, параллельно с созданием инфраструктуры, ведутся работы также по созданию соответствующего законодательства, которое учтет правовые, таможенные, инвестиционные вопросы и аспекты налогообложения [2].

Создание законопроекта и строительство инфраструктуры - важная часть создания СЭЗ, но остается вопросы: сможет ли Азербайджан создать рай для инвесторов и использовать мировой опыт для успешной реализации этого проекта.

Для полного формирования экономики Азербайджана создание свободной экономической зоны – необходимый, но запоздалый шаг, так как в формировании крупнейших экономик мира сыграли первостепенную роль именно свободные экономические зоны.

Мировая практика показала, что создание СЭЗ – успешная модель формирования экономики. Например, в развитии экономики Китая и в становлении его как мирового экономического гиганта основную роль сыграло создание многочисленных свободных экономических зон. Также интересен пример ОАЭ, которые создали огромную территорию СЭЗ, начиная с 1985 года, после чего там началось быстрое развитие экономики. Соответственно, ту привлекательность, которую дает стране свободная экономическая зона, не может дать даже нефть.

Создание СЭЗ в Азербайджане было впервые обсуждено в 2015 году, когда цены на нефть резко упали, начался экономический кризис и этот вопрос стал актуальным как выход из положения во время кризиса.

С учетом возможностей, которые открывают перед страной создание СЭЗ, можно отметить, что в первую очередь это создание широкого рынка для соседних стран – Ирана, Турции и России и стран Средней Азии, а также постепенное расширение круга стран, вовлечённых в региональную торговлю.

Пока Азербайджан не является участником Всемирной торговой организации, поэтому развитие СЭЗ и вывод ее на международный уровень будет немного проблематичным и нелегким. Кроме того, льготы и освобождение от ряда пошлин в СЭЗ увеличат интерес к региону и, как следствие, привлекут сюда иностранных инвесторов и инвестиции.

Если проект по созданию СЭЗ будет реализован правильно, он превратится в основной двигатель развития экономики в ненефтяном секторе. К тому же можно будет создать сектор переработки сельхозпродукции или может быть дан стимул развитию обрабатывающего сектора. Можно будет создать производство оборудования для обрабатывающего сектора.

Говоря о пользе создания СЭЗ для региона и страны, необходимо отметить и транспортные проекты, которые выиграют от свободной экономической зоны в Аляте. Зангезурский коридор в перспективе — это прямой выход Турции в Среднюю Азию. Этот путь будет проходить через Алят и Каспийское море, и в этом ракурсе актуальность СЭЗ Алят возрастет в разы.

Свободная экономическая зона будет интересна Средней Азии, Турции, России и странам Европы, маршруты которых в транспортных и торговых операциях будут проходить через СЭЗ Алят. Эта зона будет обладать достаточным потенциалом и станет актуальной для многих стран.

Кроме того, необходимо рассмотреть СЭЗ как толчок для развития многих секторов экономики страны, в процессе реализации такого проекта будут развиваться строительный сектор и рынок труда. Люди, живущие недалеко от этого региона, будут обеспечены работой на долгосрочную перспективу.

Также необходимо заострить внимание на создании экспортно-ориентированной промышленности в рамках СЭЗ. Так, важно использование свободной экономической зоны не только как торгового соединения, но и как почвы для создания промышленности экспортного направления.

Для стимулирования и развития экспорта Азербайджана свободная экономическая зона – очень важный инструмент, так как в стране есть необходимость в развитии экспортных операций.

Основной проблемой, связанной с реализацией идеи СЭЗ, остается управление. Если передать управление свободной экономической зоной Алят какой-либо государственной структуре, вряд ли это будет успешным решением.

Практика показывает, что СЭЗ функционирует успешнее, когда передается частной компании, которая имеет международный опыт управления таким учреждением. Если это будет компания, которая имеет опыт в данном направлении и уже доказала свою успешную деятельность в иностранных международных платформах, это будет гарантом привлечения иностранных инвестиций в СЭЗ.

Если свободная экономическая зона будет управляться какими-то министерством, вероятность прихода инвесторов мала, поскольку степень доверия чиновникам будет невысокой. Тогда как если управлением займется иностранная узнаваемая компания с успешным опытом руководства, зарубежные инвесторы смогут довериться этой компании и придут в СЭЗ с капиталом.

В целом, Стратегическая Дорожная Карта Азербайджана предполагает среднегодовой реальный рост более 3 процентов ВВП к 2025 году и создание более 400 тыс. новых рабочих мест. Таким образом, создание свободной экономической зоны окажет положительное влияние на реализацию среднесрочной цели, а также на улучшение социального благополучия и индекса человеческого развития.

**Литература:**


1. Azad iqtisadi zonalar yaradılması işinin sürətləndirilməsi haqqında Azərbaycan Respublikası Prezidenti İlham Əliyevin Sərəncamı. Bakı şəhəri, 31 may 2017-ci il. № 2940.
2. Ələt azad iqtisadi zonası haqqında Azərbaycan Respublikasının Qanunu. Bakı şəhəri, 18 may 2018-ci il. № 1143-VQ
3. Речь Президента Азербайджана Ильхама Алиева при закладке фундамента Алятской свободной экономической зоны // https://www.trend.az/azerbaijan/politics/3448506.html [01.07.2021]
4. Асадова Н.А. Необходимость и особенности создания свободных экономических зон в Азербайджане. Азербайджанский Государственный Экономический Университет. Магистерская диссертация. – Баку, 2019. – 69 с. // http://unec.edu.az/application/uploads/2019/10/Asadova-Nigyar-Ajdyn-gy-zy-yeni.pdf
5. Безпалов, В.В., Ломакина, Е.А. Проблемы функционирования особых экономических зон в России // Экономика

и современный менеджмент: теория и практика: сб. ст. по матер. XLV междунар. науч.-практ. конф. – Новосибирск: СибАК. – 2015. – № 1(45). – с. 1-8.
6. Велиев, В.И. Свободная экономическая зона Азербайджана // №51/2021 Znanstvena misel journal. ISSN 3124-1123. Znanstvena misel journal, Slovenia. – №51, – 2021. – с.3-6
7. Махмудова, О.Х., Махмудова, Т.Х. Свободные экономические зоны (СЭЗ) как особая форма международной экономической интеграции // Актуальные вопросы экономических наук. – 2016. – №50-2. – с. 31-36.
8. Меджидов, З.У. Зарубежный опыт функционирования особых экономических зон. Вектор науки Тольяттинского государственного университета. Серия: Экономика и управление. – 2016;(1):55-61.
9. Рудакова, Т. И. Особые экономические зоны: роль, сущность и значение / Т. И. Рудакова // Вестник СамГУПС. – 2019. – №4 (34). – с. 86–90.
10. az.sputnik.news.ru

***Ключевые слова:*** *инвестиционный климат, свободные экономические зоны, иностранные инвестиции, налоговые льготы, индустриальные парки, свободная торговля*

**Gülarə Süleymanova**
*Azərbaycan Respublikasının Prezidenti yanında Dövlət İdarəçilik Akademiyasının*
*Dövlət idarəetməsi və menecment kafedrasının dosenti, iqtisadiyyat üzrə fəlsəfə doktoru*

## AZƏRBAYCANDA AZAD İQTİSADİ ZONALARIN İNVESTİSİYA İQLİMİNİN XÜSUSİYYƏTLƏRİ

### XÜLASƏ

Məqalədə dünyada və Azərbaycanda azad iqtisadi zonaların inkişafı, onların təşkilini, maliyyə bazasını, vergilərin güzəştlərini və əsasən azad iqtisadi zonaların investisiya iqliminin xüsusiyyətlərini təhlil edilib.

Məqalədə əsas yer Alət iqtisadi zonaya ayrılaraq, onun hüquqi bazası, infrastruktur təminatı və investisiya imkanları göstərilib.

***Açar sözlər:*** *investisiya iqlimi, azad iqtisadi zonalar, xarici investisiyalar, vergi güzəştləri, sənaye parkları, azad ticarət*

**Gulara Suleymanova**
*The Academy of Public Administration under the President of the Republic of Azerbaijan*
*Department of Public Administration and Management*
*Ph.D. in Economics, Associate Professor*

## PECULIARITIES OF THE INVESTMENT CLIMATE OF FREE ECONOMIC ZONES OF THE REPUBLIC OF AZERBAIJAN

### ABSTRACT

The article analyzes the development of free economic zones, their forms, organization, financial markets, low taxes, and especially the investment climate of free economic zones.

A special role in the article is assigned to the accelerated development of the non-oil sector in the republic and the building of the Alet economic zone, its legal base, infrastructure security, and investment possibilities.

***Keywords:*** *investment climate, free economic zones, foreign investments, tax incentives, industrial parks, free trade*

# İ Q T İ S A D İ Y Y A T
# E C O N O M Y

UOT 338.1; 330.34/.35; 338.26/.28; 338.12

**SƏİDƏ QURBANOVA**
**Azərbaycan Respublikasının Prezidenti yanında Dövlət İdarəçilik Akademiyasının Dövlət idarəetməsi və menecment kafedrasının dosenti, iqtisadiyyat üzrə fəlsəfə doktoru**
*e-mail: qurbanovaseide49@gmail.com*

## AZƏRBAYCANDA BİZNESİN İNNOVASİYA MÜHİTİNİN YARADILMASI PROBLEMLƏRİ

Azərbaycanda innovativ biznes mühitinin formalaşdırılması və inkişafı istiqamətində çox mühüm və əhəmiyyətli addımlar atılır. Bütövlükdə, ölkəmizin inkişafı naminə müasir bazar iqtisadiyyatının əsas tələblərinə cavab verən rəqabətqabiliyyətli biznes mühitinin təkmilləşdirilməsi olduqca vacibdir. Biznes innovativ mühitin yaradılması ölkəmizin iqtisadi tərəqqisini xeyli sürətləndirər, həmçinin yeni iş yerlərinin açılmasına və bazara yeni investisiyaların cəlb edilməsinə zəmin yaradar. Son nəticədə isə bazarlarda rəqabətli məhsulların istehsalına və Azərbaycan iqtisadiyyatının inkişafına şərait yaradacaq. Bütün deyilənlərə əsaslanaraq, məqalənin mövzusu kifayət qədər aktual olduğunu bir daha qeyd edərək, bu istiqamətdə problemlərin qaldırmasının vacib olduğunu deyə bilərik Azərbaycanda həyata keçirilən iqtisadi islahatların əsas məqsədlərindən biri biznesın innovasiya mühitinin yaxşılaşdırılması və sahibkarlığın inkişafıdır. Azərbaycan Respublikası Prezidentinin 2016-cı il 6 dekabr tarixli Fərmanı ilə təsdiq edilmiş “Azərbaycan Respublikasının milli iqtisadiyyat perspektivi üzrə Strateji Yol Xəritəsi”nə əsasən ölkəmizdə sahibkarlığın inkişafı məqsədilə biznes mühitinin daha da yaxşılaşdırılması istiqamətində islahatlar aparılır. Strateji Yol Xəritəsinə əsasən, 2025-ci ilədək Azərbaycanda müasir texnologiyalara, bazarlara və maliyyə vəsaitlərinə bərabər çıxış imkanları təmin edən rəqabət mühiti yaradılacaq. Habelə yerli şirkətlərin canlanmasına və investorların dünya standartlarına uyğun fəaliyyət göstərmələrinə şərait yaradacaq biznes mühiti təmin ediləcək. Biznes mühitinin yaxşılaşdırılması isə ölkədə sahibkarlığın davamlı inkişafına şərait yaradacaq. “Azərbaycan Respublikasında kiçik və orta sahibkarlıq səviyyəsində istehlak mallarının istehsalına dair Strateji Yol Xəritəsi”ndə ölkədə kiçik və orta sahibkarlığın (KOS) vəziyyəti təhlil edilir, xüsusilə bu sahədə görülmüş işlər, həyata keçirilmiş islahatlar, mövcud statistika barədə ətraflı məlumat verilir. Həmin yol xəritəsində 2020-ci ilədək strateji, 2025-ci ilədək olan dövr üçün uzunmüddətli və 2025-ci ildən sonrakı dövr üçün hədəf baxış əhatə edilir. Yol xəritəsində adı çəkilən baxışlarda nəzərdə tutulan məqsədlərə nail olmaq üçün 5 strateji hədəf müəyyən edilmişdir. Bu strateji hədəflərə KOS fəaliyyəti üçün biznes mühitinin və tənzimləyici bazanın yaxşılaşdırılması, KOS subyektlərinin maliyyə resurslarına sərfəli və səmərəli çıxışının təmin edilməsi, onların xarici bazarlara çıxış imkanlarının artırılması və s. aiddir. Sənəddə 2016-2020-ci illəri əhatə edən və 2025-ci ildən sonrakı dövr üçün uzunmüddətli məqsədləri ehtiva edən iqtisadi tədbirlər planı və inkişaf strategiyası müəyyən edilmişdir. Fərmanla 11 istiqamətli özündə əks etdirən yol xəritəsi təsdiq edilmişdir (neft-qaz sənayesinin, kənd təsərrüfatının, maşınqayırma və ağır sənayenin, logistika və ticarətin, mənzil təminatının, təhsilin, maliyyə və kommunal xidmətin, kiçik və orta sahibkarlıq səviyyəsində istehlak mallarının istehsalının, İKT-nin) [1].

Bu sənəddə 11 sektor üzrə 4 hədəfdən biri biznes mühitini yaxşılaşdırmaq, sahibkarlıq fəaliyyətini genişləndirmək.Azərbaycanda sahibkarlıq fəaliyyəti üçün daha da əlverişli mühitin yaradılması məqsədilə əsaslı şəkildə islahatların aparılması da məhz ölkədə həyata keçirilən iqtisadi inkişaf strategiyasının tələblərindən irəli gəlir. Dünya təcrübəsi göstərir ki, ölkə nə qədər çox inkişaf etmiş olarsa dövlət və yerli özünüidarəetmə orqanları kiçik sahibkarlığın inkişafına bir o qədər artıq vəsait ayırırlar. Artıq sübut olunub ki, ölkədə bazar mexanizmləri yalnız o vaxt işləyir ki, ölkədə minlərlə kiçik müəssisə fəaliyyət göstərmiş olsun. Kiçik müəssisələrin iri müəssisələr qarşısındakı üstünlüyü hamıya bəllidir. Biznesə başlamaq üçün kiçik müəssisələrə çox da böyük olmayan vəsait tələb olunur. Bazar konyukturası dəyişdikdə kiçik müəssisələrin yeni məhsul və xidmətə görə yenidən qurulması daha sürətlə və tez həyata keçirilir. Bundan başqa daha əhəmiyyətlisi odur ki, kiçik müəssisələr yeni iş yerləri yaradırlar. Bu zaman yeni yaranan hər bir iş yerinə investisiyanın orta həcmi iri müəssisələrdən xeyli aşağıdır. Lakin kiçik müəssisələr çox ciddi nöqsanlara malik olurlar: birincisi, onlar bir qayda olaraq, iri müəssisələrə nisbətən daha az mənfəətli olurlar. İkincisi, kiçik biznesin maliyyə resurslarına çıxışı xeyli çətindir. Belə ki, investorlar öz vəsaitlərini daha mənfəətli və daha etibarlı sahələrə yatırmaq istəyirlər. Çünki əgər bazarda məhsula tələbat dəyişərsə iri müəssisələr zərərə düşəcəklər, kiçik müəssisələr isə tamamilə məhv olacaqlar. İnkişaf etmiş ölkələrdə iri və kiçik müəssisələr arasında antoqonist ziddiyyət yoxdur. Bir qayda olaraq iri müəssisələr kiçik müəssisənin bu və ya digər xidmətindən istifadə edərək öz gəlirlərinin bir hissəsini onlara verirlər. Bunlarla yanaşı inkişaf etmiş ölkələrdə subpodrat sistemi də çox inkişaf etmişdir. İri müəssisələr nisbətən kiçik müəssisələr üçün sifarişi formalaşdırır, həmin müəssisələr də öz növbələrində yüzlərlə kiçik müəssisələrlə işləyirlər ki, bunlar da gələcək hazır məhsulun ayrı-ayrı hissələrini ucuz lakin keyfiyyətli hazırlayırlar. İqtisadi məqsədə uyğunluqdan başqa burada siyasi məqsədəuyğunluq da vardır. Axı kiçik sahibkar bir qayda olaraq cəmiyyətdə sabitliyin olmasında hamıdan çox maraqlı mülkiyyətçidir. Bu isə o deməkdir ki, kiçik sahibkarlar ölkəni fəlakətsiz idarə edən siyasətçilərə səs verəcəklər. Məhz bu səbəblərə görə hər bir iqtisadi cəhətdən inkişaf etmiş dövlət kiçik sahibkarlığın inkişafı üçün şərait yaradır. Onların arasında əsasları aşağıdakılardır:

1. Kiçik müəssisələrə, ilk növbədə vergitutma üzrə güzəştlər müəyyənləşdirən qanunların tətbiq edilməsi. Belə bir qanun Amerika Birləşmiş Ştatlarında 1953-cü ildə Böyük Britaniyada keçən əsrin 60-cı illərinin başlanğıcında, Yaponiyada isə 1964-cü ildə qəbul edilmişdir.

- Kadr hazırlığına kömək və məsləhət. Məsələn, Yaponiyada hər bir prefekturada xüsusi departamentlər vardır. Bunlar təkcə xüsusi məktəbdə təhsil keçməyə kömək etmirlər, eyni zamanda həmin anda, həmin yerdə bu və ya digər vəsaitlərin mövcudluğu halında hansı biznesin daha səmərəli olması haqqında məsləhətlər verirlər. Böyük Britaniyada isə xüsusi kömək agentliyi yaradılır ki, bunlar da pulsuz və ya güzəştli əsaslarla fəaliyyət göstərirlər.
- Subpodrat işlərlə təmin olunma və iri müəssisələr tərəfindən ədalətsiz rəqabətdən müdafiə. Məsələn, Yaponiyada iri müəssisələrin kiçik müəssisələri bazardan sıxışdırıb çıxarmaması məqsədilə xüsusi tədbirlər həyata keçirilir. Amerika Birləşmiş Ştatlarında isə dövlət satınalmalarının 20 faizdən çox hissəsi kiçik müəssisələrə sifariş verilir.

İşsizlərə, öz işini qurmaq arzusunda olanlara xüsusi kömək göstərilir. Belə ki, Böyük Britaniyanın Bolton şəhərində bizneslə məşğul olmaq istəyən hər bir işsiz məşğulluq mərkəzində pulsuz məsləhət ala bilər. Bundan sonra ona xüsusi Biznes məktəbdə hazırlıq keçmək üçün göndəriş verilir. Biznes ideya və biznes plan işləndikdən sonra dinləyici artıq biznes məktəbin tövsiyəsi ilə yenidən mərkəzə müraciət edir. Həmin işədüzəltmə mərkəzi banklardan birinə göndəriş məktubu verir. Göndəriş

məktubunda deyilir ki, əgər bank layihəni maliyyələşdirmək qərarına gəlmişsə onda məşğulluq mərkəzi öz fondları hesabına tələb olunan məbləğin yarıya qədərini – 5 min funt sterlinqə qədərini ödəyə bilər. Əlavə olaraq hər bir işsizə və onun ailəsinə əvəzsiz olaraq 5 min funt sterlinq ayırır. Böyük Britaniyanın digər şəhərlərində də məşğulluq mərkəzləri fəaliyyət göstərirlər. Hazırkı mərhələdə ölkə iqtisadiyyatının yenidən qurulması sahəsində qarşıda duran vəzifələrin yerinə yetirilməsi sahibkarlığın inkişafının sürətləndirilməsini, bu sektorun ölkənin sosial-iqtisadi problemlərinin həllində rolunun gücləndirilməsini, onun fəaliyyətinin ölkə iqtisadiyyatının inkişafı tələblərinə daha da uyğunlaşdırılmasını, bu istiqamətdə dövlət köməyi tədbirlərinin çərçivəsinin genişləndirilməsi və onların ünvanlılığının daha da artırılmasını regionlarda sahibkarlığın inkişafı sahəsində mövcud potensialın reallaşdırılmasını tələb edir. Həyata keçirilən məqsədyönlü tədbirlər nəticəsində ölkə iqtisadiyyatı və onun əsasını təşkil edən sahibkarlığın inkişafı sahəsində müşahidə edilmiş pozitiv meyllər özünü göstərməkdə davam edir.

Yeni qaydalara görə, güzəştli kreditlərdən daha səmərəli şəkildə istifadə edilməsi üçün Sahibkarlığın İnkişafı Fondunun kreditinin illik faiz dərəcəsi 6%-dən 5%-ə qədər endirilib. Eyni zamanda, yeni qaydalara əsasən, orta həcmli kreditlərin maksimum həddi 1000000 manata qədər artırılıb. Sahibkarlara güzəştli kreditlərin verilməsi, əsasən özəl bölmənin maliyyə resurslarıyla təmin edilməsi istiqamətində önəmli mexanizmlərdəndir. İndiyə kimi investisiya layihələrinin ümumi dəyəri orta hesabla 4,9 milyard manat olan 36 minə qədər sahibkarlara 2,2 mlrd manat güzəştli kredit verilib. Hansı ki, bu kreditlərdən istifadə edərək investisiya layihələrinin reallaşdırılması nəticəsində tam 164 minə yaxın təzə iş yerlərinin açılması imkanı da yaradılıb [6, s. 10].

İqtisadiyyat Nazirliyinin nəzdində fəaliyyət göstərən Sahibkarlığın İnkişafı Fondunun vəsaitləri hesabına 2021-ci il ərzində layihələrin ümumi dəyəri 287,7 mln. manat olan 1902 investisiya layihəsinin maliyyələşdirilməsinə 130,6 milyon manat güzəştli kredit verilib. Bu kreditlər hesabına 3200-dən çox yeni iş yerinin açılması imkanı yaranıb. Kreditlərin 59%-i aqrar sektorun-kənd təsərrüfatı, 33%-i sənaye məhsullarının istehsalı və emalı, 3%-i turizm, 5%-i isə diqər (təhsil, tibb və s.) sahələrin inkişafına yönəldilib. Verilmiş kreditlərin 76,2%-i regionların, 23,8 %-i isə Bakı qəsəbələrinin payına düşür. 2021-ci il ərzində güzəştli kreditlərin layihə sayı üzrə 99,6%-i kreditin məbləği üzrə isə 88,1%-i mikro, kiçik və orta sahibkarlıq subyektlərinə verilib. Buna əlavə olaraq, 2021 ildə 15,3 milyon manat subsidiya ödənilib.

Hazırda kiçik və orta sahibkarlığın inkişafı diqqət mərkəzindədir. Ölkəmizdə kiçik və orta müəssisələrin yaradılması və inkişaf etdirilməsi bazar iqtisadiyyatının əsas şərtidir. Xüsusilə də iqtisadi müstəqillik yolunda uğurla irəliləyən Azərbaycan Respublikasında təsərrüfatın hər bir sahəsini inkişaf etdirmək məqsədilə aparılan uğurlu iqtisadi islahatlar kiçik və orta müəssisələrin yaradılması işlərini xeyli sürətləndirir. Kiçik müəssisələr istehsal edilən məhsulların həcminin azlığı və az sayda işçi qüvvəsinə görə səciyyələnən və təsərrüfat şəraitinin dəyişməsinə xidmət edən təsərrüfat vahidləridir.

2025-ci ilə kimi olan dövr üzrə Azərbaycanda kiçik və orta sahibkarlığın ÜDM-də payının 35%-ə, məşğulluqda payının 40%-ə, ölkənin qeyri-neft ixracında payının isə 25%-ə çatdırılması nəzərdə tutulur. Əsas məqsəd Azərbaycanda ÜDM-in ən az 60%-inin KOS-ların hesabına təmin edilməsinə və qlobal dəyər zəncirlərinə qoşulan yerli KOS şəbəkəsinin yaradılmasına nail olmaqdır. Ölkədə KOS-ların sayının və dayanıqlılığının artırılması məqsədilə onların inkişafının genişlənməsinə və daha çox gəlir əldə etmələrinə nail olunacaqdır [1].

Dövlətin sahibkarlığın inkişafına dəstək, stimullaşdırma tədbirlərindən biri də dövlət büdcəsindən ayrılan vəsaitlər hesabına SKMF vasitəsilə onlara güzəştli kreditlərin ayrılmasıdır. Ona görə də, orta və iri həcmli layihələrin iqtisadi əhəmiyyətini nəzərə alaraq, bu sahədə də maliyyələşdirmənin artırılması

məqsədəuyğun olar. Əslində sahibkarlığın inkişafı ölkədə iqtisadi artımı təmin etdiyindən dövlət onun maraqlarının müdafiəçisi rolunda çıxış edir.

Azərbaycanda biznesin innovasiya mühitinin yaradılmasında texnoparkların və klasterlərin inkişafının və tətbiqinin rolu çoxdur. Ölkədə texnoparkların yaradılması həmdə dövlət başçısı tərəfindən təsdiqlənən "Azərbaycanda sənayenin inkişafına dair 2015-2020-ci illər üçün Dövlət Proqramı"na əsasən 2020-ci ilə qədər sənaye klasterlərinin formalaşdırılması nəzərdə tutulmuşdur. "Azərbaycan Respublikasında 2009-2015-ci illərdə elmin inkişafı üzrə milli strategiyanın həyata keçirilməsi ilə bağlı Dövlət Proqramı"nın müddəalarını əsas tutaraq Milli İnnovasiya Sistemi, onun ayrılmaz tərkib hissəsi olan "Azərbaycanın hər bir iqtisadi regionuna uyğun klaster siyasətinə əsaslanan innovasiya sisteminin inkişaf proqramı (RİS)" hazırlanmalıdır [3]. RİS-in inkişaf proqramına MİS-in tərkib hissəsi kimi baxılmalı və iki seqmentdən ibarət olmalıdır: regionun icra hakimiyyətinin dəstəyi, istehsal və qeyri-istehsal sahələrində innovasiyanın tətbiqi. Bunlar hamısı Azərbaycan iqtisadiyyatının səmərəliyinə gətirib çıxarır.

Texnoloji parkların, klasterlərin yaradılması regional innovasiyalı zonanın formalaşması layihə çərçivəsində həyata keçirilir. Bu layihə kiçik və orta innovasiyalı sahibkarlığın stimmullaşdırılmasını nəzərdə tutur. Prezidentinin 29 dekabr 2012-ci il tarixli Fərmanı ilə təsdiq edilmiş "Azərbaycan 2020: Gələcəyə Baxış" İnkişaf Konsepsiyasında öz əksini tapmışdır. Belə ki, iqtisadiyyatın klasterlər əsasında inkişafı çərçivəsində neft, qaz emalı və neftkimya zavodlarından ibarət kompleksin inşası planlaşdırılır ki, onun təşkili zəruri investisiyaların cəlb edilməsinə, ekoloji normativlərə riayət olunmasına, son məhsulun istehsalına qədər olan texnoloji zəncirin qurulmasına, hazır məhsulun rəqabət qabiliyyətinin yüksəldilməsinə, bu sahədə ixracın həcminin və çeşidinin genişlənməsinə imkan yaradacaqdır və ölkənin bölgələrində onların sosial-iqtisadi inkişafını sürətləndirəcək iqtisadiyyatın prioritet sahələri üzrə ərazi-istehsal klasterlərinin yaradılması qeyd edilmişdir. Azərbaycan Respublikası Prezidentinin 26 dekabr 2014-cü il tarixli 964 nömrəli Sərəncamı ilə təsdiq edilmiş "Azərbaycan Respublikasında sənayenin inkişafına dair 2015-2020-ci illər üçün Dövlət Proqramı"nda isə maşınqayırma, xüsusən, neft maşınqayırması sənayesinin inkişafının diqqət mərkəzində saxlanılması, bu sahədə istehsal olunan mal və avadanlıqların daxili tələbatın ödənilməsində payının artırılması istiqamətində tədbirlərin görülməsi qeyd edilmişdir. Dövlət Proqramının həyata keçirilməsi üzrə Tədbirlər Planına isə "Neft maşınqayırma sahəsinin inkişafı ilə bağlı təkliflərin hazırlanıb aidiyyəti üzrə təqdim olunması" adlı 1.11-ci bənd daxil edilmişdir. Beləliklə, Azərbaycanda neft maşınqayırma sahəsi və klasterlərin yaradılması xüsusi əhəmiyyətə malik olduğundan müvafiq sahədə beynəlxalq təcrübənin tədqiqi və aidiyyəti üzrə işlənib hazırlanacaq tövsiyələrdə təcrübədən istifadə edilə bilər. Proqramda sənayenin rəqabət qabiliyyətinin artırılması və potensialının gücləndirilməsi, sənaye zonaları və klasterlərinin qurulması, kadr potensialının və elmi təminatın gücləndirilməsi, sənaye müəssisələrinin fəaliyyətinin dəstəklənməsi və s. olmaqla 24 istiqamət müəyyənləşdirilib. Proqramının həyata keçirilməsi qeyri-neft sənayesinin modernləşməsi və diversifikasiyasına, sənaye məhsullarının ixracının artımına, sənaye istehsalında regionların payının yüksəlməsinə, yeni iş yerlərinin yaradılmasına, sənaye müəssisələrinin sənaye zonalarında cəmləşməsinə xidmət edəcək. Proqramda qeyd olunub ki, 2015-2020-ci illərdə ölkədə istehsal klasterlər yaradılmalıdır. Buna görə də qöstərilən müddətdə təkliflər hazır olmalıdır və uyğun tədbirlər reallaşmalıdır. Bu istiqamətdə Sumqayıt şəhərində böyük işlər aparılmışdır. Belə ki, Sumqayıtda 2011-ci ilin sonunda prezident tərəfindən imzalanan fərmana uyğun olaraq Kimya Sənaye Parkı yaradılmışdır. Park 466.37 ha. ərazidə formalaşdırılıb. Parkın yaradılmasındakı əsas məqsəd sənaye sektorunun xüsusilə kimya sənayesinin inkişafını dəstəkləməkdir. Bu sənaye parkı neft-kimya və digər prioritet sənaye sahələri üzrə rəqabət qabiliyyətli

məhsulların istehsalı və emalı müəssisələrinin fəaliyyəti üçün nəzərdə tutulub. Burada rezidentlər və digər istehlakçılar üçün "işə sal və istehsal et" prinsipi əsasında hər cür infrastruktur və şərait qurulub. Park ərazisində fəaliyyət göstərən rezidentlər tibb kimyası, aqro-kimya, məişət kimyası, elektronika və avtomobil sənayesi kimyası, tikinti sənayesi kimyası, polimer və sənaye avadanlıqları sahələri üzrə fəaliyyət göstərirlər. Parkda idarəetmə fəaliyyətini "Sumqayıt Kimya Sənaye Parkı" MMC həyata keçirir [8].

Sumqayıt şəhərində sadalanan iki parkdan başqa Sumqayıt Texnologiyalar Parkı (STP) artıq yaradılmışdı. Park Sumqayıt Kimya Sənaye Parkının rezidenti kimi fəaliyyət göstərir. Burada hazırda 12 zavod fəaliyyət göstərir [7]. Parkın birinci mərhələsi 2009-cu ilin sonunda işə düşüb.

STP-nin istismara verilməsi Azərbaycanda elektroenergetikanın inkişaf etdirilməsinə, onun mövcud potensialının daha da möhkəmləndirilməsinə, enerji müəssisələrinin yenidən qurulmasına və müasirləşdirilməsinə geniş imkanlar açır. Azərbaycanda bu iqtisadi kompleksin işə düşməsi ilə birlikdə energetika qurğuları yerli texniki avadanlıq və məhsullarla təchiz olunur. Bölgələrdəki təbii ehtiyatlardan istifadə etməklə ucuz və keyfiyyətli məhsul istehsalı qaydaya salınır. Daşıma xərclərinin və müddətinin azalması hesabına nəzərdə tutulan layihələr daha qısa müddətdə reallaşır və məhsulların maya dəyəri aşağı düşür. Bütün bunlar kompleksdə rəqabətə davamlı məhsulların ixracına geniş imkanlar açır.

Sumqayıt Texnoparkında elektroenergetika sənayesi üçün məhsullar hazırlanır, zavodlar, sexlər və istehsal xətləri yaradılır. Texnoparkın birinci mərhələsi çərçivəsində müəssisələrin tikinti-quraşdırma işlərində 2300 nəfərdən çox işçi çalışıb. Hazırda 30-dan artıq istehsal sahəsinin mövcud olduğu texnoparkda 2000 nəfərdən çox işçi çalışmaqdadır [6].

Texnoparkların yaradılması Azərbaycanda kiçik və yüksək elm tutumlu sənaye sahələri ilə məşğul olan sahibkarlar sinfinin formalaşmasına səbəb olacaq. Texnoparklar həmin sahibkarlara imkan verəcək ki, istehsal etdikləri məhsullar rəqabətə davamlı olsun, xarici alternativləri ilə keyfiyyət yarışında geri qalmasın.

Texnoparklar bir və ya bir neçə universitet, həmçinin elmi-tədqiqat mərkəzləri ilə birbaşa və ya ortaq fəaliyyətləri ilə əlaqədar olub, tərkibində elmi nəticələrə və yüksək texnologiyalara əsaslanan şirkətlərin qurulması və inkişafına təşəbbüs göstərmək üçün qurulur. Texnoparkda fəaliyyət göstərən şirkətlərə, universitet innovativ elmi nəticələrinin transfer edilməsi və işin idarə olunması sahələrində dəstək verir. Bu proseslərdə bütün yanaşmalar təşəbbüskarlıq və müəllif hüquqlarının qorunması müstəvisində həyata keçirilir. Belə desək, texnoparklar yeni ideyaların formalaşmasından başlayaraq, onun tətbiq olunması və inkişaf etdirilməsi üçün hərtərəfli şəraitin olduğu (şirkətlərlə ortaq fəaliyyətlər və s.) innovativ fəaliyyətləri təmin edən məkandır. Başqa sözlə texnoparklar insan kapitalının sürətli inkişaf etdirilən quruluşları olub, yüksək texnologiyaları istehsal edən modelidir. Bu isə universitetlərin tərkibində daha aktiv olacaqdır. Ölkədə texnoparkların yaradılması ilə yanaşı, dövlət başçısı tərəfindən təsdiqlənən "Azərbaycanda sənayenin inkişafına dair 2015-2020-ci illər üçün Dövlət Proqramı"na əsasən 2020-ci ilə qədər sənaye klasterlərinin formalaşdırılması nəzərdə tutlmuşdur. Klaster modeli XX əsrin 60-70-ci illərindən başlayaraq tətbiq edilən bir mexanizmdir. "Klasterlər – eyni və ya bənzər sektorda fəaliyyət göstərən, əlaqəli və bir-birini tamamlayan fəaliyyət sahələrinin müəyyən coğrafi bölgədə yerləşməsi ilə meydana gələn, ümumi infrastruktur, texnologiya, vahid bazar, işçi qüvvəsi və xidmətləri paylaşaraq qarşılıqlı ticarət əlaqələrinin qurulması, kommunikasiya və qarşılıqlı dialoq imkanlarına malik sahibkarlıq subyektlərindən ibarət sistemlərdir" Klaster nəzəriyyəsinin yaradıcısı amerikan iqtisadçısı Maykl Porterdir. O, klasteri "coğrafi cəhətdən qonşu olan müəyyən sferalarda fəaliyyət göstərən və fəaliyyəti bir-birini tamamlayan qarşılıqlı əlaqəli şirkətlər qrupu" kimi təyin edir. Klasterlər biznes, dövlət və elm şəklində qurulur. Klasterlərin xarici investisiyaların cəlb olunmasının

və xarici iqtisadi inteqrasiyanın aktivləşdirilməsinin səmərəli mexanizmidir. Klasterin əsas məqsədi ondan ibarətdir ki, hər bir iştirakçı öz məqsədinə çatmaq üçün təkcə öz işinin səmərəliliyini deyil, eyni zamanda həm rəqibinin, həm də partnyorunun işinin də səmərəsini yüksəldir. Klasterlər universitetlərlə sənaye müəssisələri arasında daha yaxın əlaqələrin qurulmasını da şərtləndirir, həmçinin müəyyən sahənin inkişafına köməklik göstərəcək təhsil müəssisələrinin qurulmasını asanlaşdırır. Klaster modelinin ölkə sənayesində tətbiqi imkanlarına Azərbaycanda şaquli sənaye klasteri (məhsulların istehsalından başlayaraq son istehlakçıya qədər olan təchizat zəncirini özündə əks etdirən klaster) modelinə bənzər sahələr artıq mövcuddur. Amma klasterlərə məxsus bütün keyfiyyətləri əhatə etmədiyindən həmin sahələrdə tam olaraq klasterlərin yaradıldığını demək çətindir. Azərbaycanda klasterlərin tətbiq edilməsi üçün əvvəlcə, regional iqtisadiyyatda rəqabət gücü nisbətən yüksək olan və dövlət dəstəyi ilə qısa müddətdə maksimum nəticənin əldə edilə biləcəyi sahələrin müəyyənləşdirilməsi lazımdır. Fərdi şəkildə inkişafa meylin daha güclü olduğu Azərbaycan kimi milli xüsusiyyətlərə malik olan ölkələrdə klasterlərin qurulmasından əvvəl sosioloji araşdırmalar aparılması və belə ölkələrdə klasterləşmə prosesi başlanılması asan olmadığı da nəzərə alınmalıdır. Rekord artım tempi sənayenin strukturunda Azərbaycanın poliqrafiya məhsulları, maşın və avadanlığın, inşaat materiallarının, avtomobil istehsalında, həmçinin kimya sənayesində qeydə alınıb. Dövlət Statistika Komitəsinin tikinti materialların istehsalının artımı 2021-ci ildə 47%, maşın və avadanlıqlar – 9,1% qiymətləndirilirdi. Metallurgiya istehsalında 17% artım dinamikası müşahidə olunub. Beləliklə, Azərbaycanın istehsalat sektorunda maşınqayırma, kimya, tikinti materiallar sahələrində klasterlərin yaratması məqsədəuyğundur.

Azərbaycanda ilk turizm кlasterlər ölkə regionlarında yaradılıb. Xüsusi diqqət klasterlərin yaradılması məsələsinə yönəldilir və onlar Qəbələ, Quba və Qusarda, Şahdağda artıq təşkil edilmişdir. Hazırda klasterlər – Şəmkirdə və Göygöldə formalaşır, gələcəkdə isə ölkənin Cənub bölgəsində onların yaradılması planlaşdırılır. Təcrübə göstərir ki, klasterlərin yaradılması, turizmin inkişafını təmin edəcək. Hal hazırda ehtiyac duyulur ölkəmizin iqtisadiyyatının digər sahələrində də klasterlərin yaradılması imkanlarını öyrənmək. Klasterlər Azərbaycanda regional iqtisadiyyatın rəqabət qabiliyyətinin artması, işlək mexanizminin olması üçün, hökumət və sahibkarlıq qurumları tərəfindən bu istiqamətdə səyləri gücləndirmək lazımdır. Bunun üçün sənaye və qeyri-sənaye fəaliyyət sahələrdə klaster potensialın təhlili keçirilməlidir. Təhlil əsasında və bir sıra ekspertlərin sorğu əsasında klasterlərin təşəbbüsü müəyyən olunmalıdır. Sonra isə Azərbaycanın müxtəlif regionlarında klaster formalaşdırılması ideyasının həyata keçirilməsi üçün şərait yaradılmalıdır.

Nəticədə demək olar ki, aparılan islahatların nəticəsində ölkədə biznesın innovativ mühiti yaxşılaşır, sahibkarlıq fəaliyyəti inkişaf edir. Dövlət tərəfindən müxtəlif vasitələrlə, o cümlədən, Dövlətin sahibkarlığın inkişafına dəstəyini daha da genişləndirmək, regionlarda texnoparkların, klasterlərin yaradılmasını davam etdirmək, beləliklə biznesın innovativ biznes mühitini daha da yaxşılaşdırmaq.

**Ədəbiyyat:**


1. "Azərbaycan Respublikasının milli iqtisadiyyat perspektivi üzrə Strateji Yol Xəritəsi". Azərbaycan Respublikası Prezidentinin Fərmanı, 6 dekabr 2016-cı il.
2. "Azərbaycanın statistik göstəriciləri 2017-2018". Azərbaycan Respublikasının Dövlət Statistika Komitəsi.
3. Abbasov A. Biznesin əsasları. - Bakı: Nurlan. - 2005. - 656s.
4. Bayramov A. Biznes və menecmentin əsasları. - Bakı: Elm və təhsil. - 2011. -184s.
5. Biznesin təşkili və idarə edilməsi. A.B.Abbasovun ümumi redaktəsi ilə. Dərslik. - Bakı. -2011. - 464s.
6. Cəfərli R. İlham Əliyevin iqtisadi siyasəti şəffaf biznes mühiti formalaşdırıb. Azərbaycan bu sahədə dünyanın aparıcı ölkələri sırasındadır // Azərbaycan. - 2018. - 8 dekabr. - s.1; 6.
7. Musayev A. İnnovasiya iqtisadiyyatı və vergi stimullaşdırılması. - Bakı. - 2014.
8. Sumqayıt Texnologiyalar Parkı, faktlar və rəqəmlər // https://www.stp.az/faktlar-ve-reqemler


***Açar sözlər:*** *biznesın innovasiya mühiti, kiçik və orta sahibkarlığ, vergitutma üzrə güzəştlər, biznesın innovasiya mühiti, texnoparklar və klasterlər*

**Saida Gurbanova**
*The Academy of Public Administration under the President of the Republic of Azerbaijan*
*Department of Public Administration and Management*
*Ph.D. in Economics, Associate Professor*

## PROBLEMS OF CREATING AN INNOVATIVE BUSINESS ENVIRONMENT IN AZERBAIJAN

## ABSTRACT

One of the main goals of the reforms in Azerbaijan is to improve the innovative business environment and develop entrepreneurship. Developing and implementing technology parks and clusters are essential in creating an innovative business environment in Azerbaijan. The creation of technology parks and clusters is carried out within the project's framework for forming regional innovation zones. This project provides for the stimulation of small and medium-sized innovative businesses. The creation of technoparks in Azerbaijan will contribute to forming a class of entrepreneurs engaged in small businesses in science-intensive areas. Technoparks will create an opportunity for entrepreneurs to produce competitive products that are not inferior in quality to foreign alternatives. The creation of clusters in Azerbaijan will also lead to an improvement in the business environment. In the country's regions, the first clusters were created in tourism.

***Keywords:*** *innovative business environment, small and medium enterprises Pre-innovative business environment, small and medium enterprises, tax incentives, innovative business environment, technology parks and clusters.*

**Саида Курбанова**
*Доцент кафедры «Государственное управление и менеджмент»*
*Академии Государственного Управления*
*при Президенте Азербайджанской Республики,*
*доктор философии по экономике*

# ПРОБЛЕМЫ СОЗДАНИЯ ИННОВАЦИОННОЙ СРЕДЫ БИЗНЕСА В АЗЕРБАЙДЖАНЕ

## РЕЗЮМЕ

В Азербайджане одной из основных целей проведенных экономических реформ является улучшение инновационной среды бизнеса и развитие предпринимательства. В создании инновационной среды бизнеса в Азербайджане большая роль принадлежит развитию и внедрению технологических парков и кластеров. Создание технопарков и кластеров осуществляется в рамках проекта формирования региональных инновационных зон. Этот проект предусматривает стимулирование малого и среднего инновационного предпринимательства. Создание технопарков в Азербайджане будет способствовать формированию класса предпринимателей, занимающихся малым предпринимательством в сфере наукоемких областей. Технопарки создадут возможность этим предпринимателям произвести конкурентоспособную продукцию, не уступающую по качеству зарубежным альтернативам. Создание кластеров в Азербайджане также приведет к улучшению среды бизнеса. Первые кластеры в области туризма созданы в регионах страны.

***Ключевые слова:*** *инновационная среда бизнеса, малое и среднее предпринимательство, льготы при налогообложении, инновационная среда бизнеса, технопарки и кластеры*

# İ Q T İ S A D İ Y Y A T
# E C O N O M Y

UOT 338.1; 330.34/.35; 338.26/.28; 338.12

**MƏMMƏD MƏMMƏDOV**
**Azərbaycan Respublikasının Prezident yanında**
**Dövlət İdarəçilik Akademiyasının**
**Dövlət idarəetməsi və menecment kafedrasının dosenti,**
**iqtisadiyyat üzrə fəlsəfə doktoru**
*e-mail: mhmammadov@gmail.com*

## TƏHSİL XİDMƏTİ SFERASINDA MARKETİNQ

Təhsil xidməti sferasında marketinq – bu əmək bazarının tələbatını və təhsil sisteminin imkanlarını nəzərə almaqla əhalinin təhsilə olan tələbatını ödəyən informasiya-analitik təminatıdır.

Təhsil xidmətindən danışarkən qeyd etmək lazımdır ki, o, bazar münasibətləri şəraitində biliyin, vərdişin və bacarığın dəyəri olan əmtəəyə çevrilməsi ilə xarakterizə olunur. İnsanların təhsilə olan tələbatları son dərəcədə müxtəlifdir. Təhsil müəssisələri onları ödəyərək təhsil xidməti spektrini genişləndirir. Başqa sözlə, yeni təhsil proqramları, kursları işləyib hazırlayır; məktəblər yaradır; müvafiq ədəbiyyatlar və vəsaitlər nəşr edir; məsləhət xidmətlərini təşkil edir, tədqiqatlar, diaqnostikalar aparır və s. işləri yerinə yetirir.

Təhsil xidməti eyni zamanda şəxsi (son istehlakçıların); qrup (müəssisə - işverənlərin); ictimai (dövlət) tələbatları ödəyir. Şəxsi nöqteyi-nəzərdən təhsil xidməti – bu istehlakçılara müəyyən peşəyə yiyələnməyə, özünü inkişaf etdirməyə və özünü təsdiq etməyə olan şəxsi tələbatlarını ödəmək üçün zəruri olan biliklərin, ümumtəhsil və peşə xarakterli bacarıqların ötürülməsi prosesidir.

Müəssisənin mövqeyindən təhsil xidməti – bu müəssisənin iş qabiliyyətini təmin etmək, onun rəqabətqabiliyyətliyini qoruyub saxlamaq üçün zəruri olan peşəkar heyətin hazırlanması prosesidir.

Dövlətin mövqeyindən təhsil xidməti – bu cəmiyyətin məcmu insan və intellektual potensialının geniş təkrar istehsalının təmin edilməsi prosesidir (2).

Müasir dövrdə mütəxəssislər təhsil xidmətinin beş əsas növünü bir-birindən fərqləndirirlər:

– duyulmayan (hiss olunmayan) xidmətlər;
– mənbəyindən ayrılması mümkün olmayan xidmətlər (əgər auditoriyada tələbə yoxdursa, müəllim xidmət göstərə bilməz);
– keyfiyyəti daimi olmayan xidmətlər (kim, harada və nə vaxt xidmətlər təqdim edir);
– sürəksiz (uzun ömürlü olmayan) xidmətlər. Məsələn, xidməti sonradan satmaq və ya istifadə etmək məqsədilə saxlamaq (tələbənin davamiyyətindən asılı olmayaraq ödənişi) olmaz;
– sahib olmaq hüququnun olmadığı xidmətlər (hər hansı bir təhsil müəssisəsi kiminsə mülkiyyəti deyildir).

Bu gün təhsil ölkə iqtisadiyyatının daha dinamik artan və perspektivli sahələrindən biridir. Təhsil xidməti marketinqi ödənişli təhsil xidmətləri bazarlarını; təhsil xidmətlərinin təklif edilməsi və bölüşdürülməsi fəaliyyətini; təhsil biznesinin fəlsəfəsini öyrənən bir elmdir. Marketinqdən istifadə hər bir təhsil müəssisəsinə əmək bazarındakı situasiyanı izləməyə və ona uyğun olaraq təhsil xidmətlərinin həcmində və keyfiyyətində düzəlişlər etməyə imkan verir.

Fikrimizcə təhsil marketinqinin vəzifələrinə aşağıdakıları aid etmək olar:

1. Regional əmək bazarının tələbatını nəzərə alaraq adamların və bütövlükdə cəmiyyətin təhsilə olan tələbatlarının ödənilməsini təmin edən təhsil sisteminin inkişafı şərtlərini formalaşdırmağı;

2. Bazar şəraitində təhsil sistemini qorumağı və inkişaf etdirməyi.

Təhsil müəssisələrində marketinqin tətbiqi sferası birinci növbədə ödənişi təhsil xidmətləridir; ikincisi təhsil sferasında çalışan adamlardır; üçüncüsü, təhsil müəssisələri – onun heyətinin inkişafı və maddi rifahıdır; nəhayət, dördüncüsü, məcmu insanların və intellektual potensialın geniş təkrar istehsalıdır.

Bu tələbatların effektli şəkildə ödənilməsi təhsil sferasında marketinqin məqsədi və onun effektivliyinin başlıca meyarıdır.

İqtisadiyyatın digər sferasında olduğu kimi təhsil xidməti sferasında da marketinqin əsas metodları reklam, əmtəələrin (kadrların) irəlilədilməsi, alıcı (işə qəbul edənin) və rəqiblərin niyyətlərinin təhlilidir.

Təhsil xidmət bazarında marketinq tədqiqatları metodları kimi isə, elmi müşahidə; sorğu və anketləşdirmədən istifadə etməyi doğru hesab edirik.

Təhsil xidməti sferasında marketinqin həyata keçirilməsi şərtləri kimi aşağıdakıları diqqətdə saxlama məqsədə uyğundur:

– təhsil müəssisənin fəaliyyət göstərdiyi sferada iqtisadi mexanizmin hüquqi bazasının yaradılmasını;
– bu əsasda təhsil müəssisəsi üçün kadrlar hazırlanmasını;
– sifarəşçilərlə müqavilə münasibətləri sferasının genişləndirilməsini;
– sadalanan vəzifələri həll etməklə təhsil müəssisənin maliyyələşdirilməsi sisteminin dəyişdirilməsini;

a) daha effektli fəaliyyət strukturlarının stimullaşdırılmasını;

b) yeni maliyyələşdirmə mənbələrinin (sponsor vəsaitlərinin, könüllü ayrılmaların, büdcədənkənar vəsaitlərin) işə cəlb edilməsini;

c) əlavə ödənişli xidmətlər sisteminin inkişafını.

Təhsil müəssisələrinin idarə edilməsi sferasında marketinqin əsas prinsipləri özündə aşağıdakıları ehtiva edir.

– təhsil müəssisəsinin resurslarını insan kapitalı iştirakçılarına real olaraq lazım olan xidmətlərə yönəltməyi;
– müvafiq tələbatın ödənilməsi tədbirləri kimi təhsil müəssisəsinin keyfiyyətlə önəm verməyi;
– tələbata geniş mənada baxılmasını (bunu belə bir markletinq frazası ilə şərh etmək olar: “İstehlakçıya qazma kolonkası yox, quyu lazımdır”);
– sifarişçinin qiymətinin satış qiyməti üzərindəki dominantlığını;
– təhsil müəssisəsinin xidmətlərinə tələbin formalaşmasının aktiv metodlarına üstünlük verilməsini;
– əmək bazarının uzun müddətli perspektivinə oriyentasiya olunmağı və səyləri həlledici istiqamətlər üzərində cəmləşdirilməsini;
– əmək bazarının və təhsil tələbatları bazarının konyukturası haqqında informasiyanın toplanması və işlənməsinin fasiləsizliyini;
– çoxamilli əsasda proqnoz və əmək bazarının perspektivlərinin qiymətləndirilməsində müxtəlif variantlardan istifadə edilməsini;
– konkret problemin və onun həlli üsul və alətlərinin kompleksliyi, həmçinin bir-birinə bağlığı – elmi menecmentdən istifadə etməyi;
– idarəetmənin mərkəzləşdirilmiş və qeyri-mərkəzləşdirilmiş metodlarının optimal şəkildə əlaqələndirməsini: idarəetmə qərarlarının qəbulu mərkəzinin istehlakçılara yaxınlaşdırılmasını;
– situasiyalı idarəetmə: təşkilatın rəhbərlik üslubu, idarəçilik metodları və fəaliyyətinin məzmunun əmək bazarında və təhsil tələbatları bazarında yaranmış situasiyaya münasibətdə çevik və adekvat olmasını.

Təhsil müəssisənin marketinq sistemini formalaşdıran aşağıdakı iki əsas konsepsiyaya diqqət yetirmək məqsədəuyğundur.

I. Marketinq konsepsiyası – təhsil təşkilatının məqsədinə çatmasına imkan yaradar marketinq fəaliyyətinin əsasnaməsi və ideyalar sistemi istehlakçıların sorğularının daha dərindən öyrənilməsindən və rəqiblərlə müqayisədə onun ödənilməsi tamlığından asılıdır.

II. İstehsal konsepsiyasının mahiyyəti bundan ibarətdir ki, istehlakçı həmişə əlverişli (mümkün ola bilən) və ucuz əmtəələrə üstünlük verir. Təhsil istehlakçıların aşağı qiymətlər müqabilində əlverişli olan təhsil xidmətlərindən maraqlı olduqlarını nəzərdə tutur. Tədris müəssisənin rəhbərliyi qiymətləri aşağı salmaq üçün iqtisadi effektivliyin yüksəldilməsinin əsas hesab edirlər. Bu konsepsiyasının tətbiqi aşağıdakı hallarda mümkün ola bilər:

- birincisi, məhdud ödəniş qabiliyyəti şəraitində; ikincisi, təhsil xidmətinə olan tələbin təklifi üstələdikdə (hər hansı bir ixtisas qəbulu artırılması zəruriyyəti yaratdıqda);

- məhsula oriyentasiya edilən konsepsiya – (yüksək keyfiyyətli məhsul). Təhsil sferası üçün bu konsepsiyanı təhsil xidmətinin keyfiyyətinin yüksəldilməsi konsepsiyası kimi şərh edirlər. Belə ki, istehlakçıların bir qisminin yüksək keyfiyyətli təhsil xidmətlərinə ehtiyac vardır. Başlıcası istehlakçının alıcılıq qabiliyyətinin düzgün qiymətləndirilməsidir.

– istehlakçı konsepsiyası – məqsəd bazarının ehtiyac və tələbatlarının müəyyən edilməsi və rəqəblərə nisbətən istehlakçıları daha effektli üsullarla razı salır;
– sosial konsepsiyası – bir birinə zidd olan göstəricilər arasında balans yaradır. (5,147)

Bu isə öz növbəsində təşkilatın gəlirlərini, istehlakçıların tələbatlarının ödənilməsini və ictimai maraqları müəyyən edir. Ali məktəbin imicini formalaşması üzrə işləri icra etmədən təhsil xidməti bazarında effektli fəaliyyət göstərmək qeyri-mümkündür.

Marketinq idarə edilməsi – bazarın tələbindən çıxış edərək məqsədli istehlakçılara yüksək keyfiyyətli əmtəələr və xidmətlər təqdim etmək məqsədi ilə təşkilatın marketinq fəaliyyətinin məqsədə istiqamətlənmiş koordinasiyasını nəzərdə tutur.

Təhsil müəssisəsində marketinqin idarə edilməsi sistemi özündə üç köməkçi sistemi birləşdirir:

– təhsil xidməti bazarının təhlilini;
– təhsil müəssisəsinin marketinq planının işlənib hazırlanmasını;
– təhsil müəssisəsinin marketinq planının reallaşdırılmasını.

Marketinqdə kommunikasiya dedikdə bazar subyektləri arasındakı informasiya mübadiləsi prosesi başa düşülür və özündə aşağıdakıları ehtiva edir:

– reklamı (internet, televiziya, poçt, radio);
– ictimaiyyətlə əlaqələri (KİV, sponsorluq);
– firma üslubu işlərini (firma üslubu, reklam üslubu);
– satış stimullaşdırmasını (qiymət güzəştləri, imtiyazlar, qrantlar, müsabiqələr, lotoreyalar);
– birbaşa marketinqi (baza məlumatları, telefonla marketinq, birbaşa səsləndirmə kanalları);
– yarmarka və sərgi fəaliyyətini;
– əməkdaşlığı (birgə təhsil, fondlar, mərkəzlər assosiasiyalar, messanatlıq, beynəlxalq əməkdaşlıq).

Təşkilatın marketinq sistemi özündə aşağıdakı elementləri: əmtəə və xidmətləri; mübadilə və sövdələşmələri; bazarın növlərini (bütün potensial istehlakçıların məcmusunu); bazar iştirakçılarının münasibətlərini (alıcı-istehlakçı, istehsalçı, tədarükçü, vasitəçi, bölgü kanalı) marketinq tədqiqatlarını (informasiyanın toplanması, qaydaya salınması, təhlili); istehlakçıların davranışını (təhsil xidməti istehlakçılarının davranışına təhsil edən amillərin); marketinqin idarə edilməsini birləşdirir.

Təhsil marketinqi təhsil xidmətləri bazarı subyektlərinin, təhsil müəssisələrinin, istehlakçı – təşkilatların, təhsil verilənlərin, vasitəçi strukturların strategiya və taktikasını öyrənən və formalaşdıran bir fəndir. Bu fənn təhsil xidməti sferasında istehsal, satış, alış və istehlak funksiyalarının yerinə yetirilməsini tətbiq edir.

Təhsil marketinqi fənni bu və ya digər təhsil müəssisələrində hazırlanan kadrlara olan tələbatın öyrənilməsini, təhsil xidməti bazarının öyrənilməsini, həmçinin peşə motivasiyası və peşəyə meyillin formalaşması prosesinə fəal təsirinin (proforientasiya işinin aparılmasını) öyrənilməsini özünün başlıca məqsədi hesab edir.

Təhsil xidmətləri sferasında marketinq özündə istehlakçıların tələbatlarının aşkara çıxarılmasını təmin edən təhsil xidməti bazarının öyrənilməsini bu tələbata uyğun xidmətlər hazırlanmasının, onları istehlakçılara doğru irəlilətməyi (reallaşdırmağı) və bunu əsasında da maksimum səmərə, o cümlədən mənfəət əldə etməyi nəzərdə tutan tədbirləri birləşdirir.

Bu nöqteyi-nəzərdən təhsil xidməti sferasında marketinqə təhsil, tədris-istehsal və tədris müəssisənin məişət fəaliyyətinin idarə edilməsinin elmi cəhətdən əsaslandırılmış sistemi kimi baxılır.

Təhsil xidmətləri sferasında marketinqin əsas elementləri bazarın tədqiq edilməsi, - məqsəd istehlakçılarının seçilməsi, marketinq üzrə tədbirlər kompleksinin işlənib hazırlanması və marketinq tədbirlərinin reallaşdırılmasıdır.

Təhsil bu gün iqtisadiyyatın daha dinamik artan və perspektivli sahələrindən biridir. Təhsil xidməti marketinqi aşağıdakı məsələləri öyrənən bir elmdir.

– pullu təhsil xidməti bazarını;
– təhsil xidmətlərinin irəlilədilməsi və bölüşdürülməsi fəaliyyətini;
– təhsil biznesinin fəlsəfəsini.

Təhsil xidməti sferasında marketinqin tətbiqi hər bir təhsil müəssisəsinə əmək bazarındakı situasiyanı izləməyə və bunun əsasında da təhsil xidmətinin həcmində və keyfiyyətində müvafiq dəqiqləşdirmələr etməsinə imkan yaradır.

Təhsil xidmətində marketinqin tətbiqinin əsas sferası ilk növbədə ödənişli təhsil xidmətləridir. Daha geniş anlamda bu bütün təhsil xidmətlərinin Dövlət təhsil standartlarına və əmək bazarının tələbələrinə uyğun olması sahəsində tədqiqatlar aparılması prosesidir.

| **Sabit təhsil proqramları** | **Yeni, inkişaf edən təhsil proqramları** | |
|---|---|---|
| Formalaşmış təhsil bazarı | 1. Ənənəvi təhsil xidməti bazarına daha dərindən nüfuz etmək. Çoxlu sayda ixtisasların lisenziyalaşdırması və akkreditasiyası. Universitet kompleksinin yaradılması.<br><br>Müvəffəqiyyət qazanmaq ehtimalı 40% | 3. Əvvəllər fəth edilmiş bazarlarla innovasiya xidməti təqdim etmək. Tədrisin modul sisteminin və multimedia texnologiyasının tətbiqi<br><br>Müvəffəqiyyət qazanmaq ehtimalı 30% |
| Yeni təhsil xidməti bazarı (seqmenti) | 2. Regionlararası bazarlarda təshil xidmətlərinin inteqrasiya edilmiş inkişafı. Filialların, nümayəndəliklərin yaradılması.<br>Xarici təhsil müəssisələri ilə əməkdaşlıq. Dinləyicilərin xarici ölkələrdə təcrübə keçməsi.<br><br>Müvəffəqiyyət qazanmaq ehtimalı 20% | 4. Təhsilin yeni formalarının və yeni bazarlar üçün konsaltinq xidmətinin tətbiqi. Tədris-elm-istehsal kompleksinin yaradılması. Geniş spektrli ETİ-i yerinə yetirən iri universitetlərin inkişafı. Təhsilin kommersiyalaşdırılması.<br><br>Müvəffəqiyyət qazanmaq ehtimalı 10% |

**Şəkil 1.** İ. Ansoffun təhsil xidməti və bazarının inkişafı matrisası.

**Ümumi və peşə müəssisələrinin marketinq fəaliyyəti**

Marketinq mühitinin yaratdığı əlverişli bazar imkanlarının tədqiqini həm təhsil müəssisəsinin öz daxilində, həm də yeni imkanların meydana çıxdığı xarici mühitdə aparmaq olar. Təhsil müəssisələri üçün yeni bazar imkanlarının axtarılmasının praktikada daha geniş tətbiq edilən və universal hesab edilən aləti İ.Ansoffun "Təhsil xidmətinin və təhsil bazarının inkişafı" adlı modifikasiya edilmiş matrisasıdır (şəkil 1.).

Beləliklə, təhsil müəssisəsi köhnə və (və ya) yeni təhsil xidmətləri ilə köhnə və (və ya) yeni bazarlarda fəaliyyət göstərə bilər. Təhsil müəssisələrinin belə fəaliyyətlərinin kombinasiyası da mümkündür.

Yeri gəlmişkən, təhsil sistemində bazar seqmenti anlayışına aydınlıq gətirək. Bu, müəyyən əlamətlər üzrə təhsil sistemində (cins, yaş, təhsil, sosial qruplar, gəlirlər, milli mənsubiyyət və s.) məqsəd bazarının bir hissəsidir.

Təhsil xidməti bazarı mənimsənilərkən təhsil müəssisəsinin marketinq strategiyasını aşağıdakı qaydada reallaşdırmaq olar:

a) reklam auditoriyası və dəlillərini, onların məqsədəuyğunluğunu, habelə reklam daşıcıyısını seçmək yolu ilə reklamı fəallaşdırmaq və optimallaşdırmaqla;

b) təklif edilən xidmətlərə tələbi proqnozlaşdıraraq az tanış olan seqmentlərin tələbatlarının ödənilməsinə xüsusi diqqət etdirməklə təhsil xidmətləri bazarının yeni seqmentlərini tapmaqla;

c) aşağıdakı məqamlar diqqətdə saxlayan vasitəçiləri cəlb etməklə;

– onlar bizim intellektual potensialımızı nə dərəcədə effektli təqdim etməyə bacaracaqlar;
– onlar bizim maraqlarımızın əhəmiyyətini azaltmayacaqlarmı?;
– biz onları nə dərəcədə maraqlandıra biləcəyik;

ç) təhsilin yeni effektli forma və metodlarının (məsələn, distant texnologiyadan istifadə) işlənib hazırlanmasına üstünlük verməklə təhsil xidmətlərini istehlakçılara yaxınlaşdırmaqla;

d) Azərbaycanda təhsil xidmətlərinin keyfiyyətinin yaxşılaşdırılmasının önəmli vasitəsi dövlət diplomunun verilməsi və tələbələrə güzəştlərin edilməsidir;

e) təhsil xidmətlərinin faydalılığının və kompleksliyinin artırılması (bir təhsil müəssisəsində 2-3 xidmətin olması) ilə;

ə) təhsil proqramlarının (xüsusilə də qısa müddətli kurslarda) modul tipindən geniş istifadə etməklə ayrı-ayrı şəxslərin və konkret sifarişçilərin fərdi sorğularına oriyentasiya etməklə;

i) təhsil proqramlarının diversifikasiyasının aparılması, biznes-əhatə (ali məktəb, bank, administrasiya, investorla) tərəfdaşları ilə birgə təhsil xidmətlərinin yaradılması ilə;

z) qiymət strategiyasının müxtəlif üsullarından (qiymətlərin istehlakçı növlərinə adaptasiya, psixoloji qiymət əmələ gətirmə, təkrar oxuyanlar üçün endirimlər və güzəştlər və s.) geniş istifadə etməklə;

k) məzunlar assosiasiyanın yaradılması və aktiv fəaliyyət göstərməsi ilə.

Təhsil xidməti bazarının mövqeləşdirilməsi. Təhsil xidməti bazarında təhsil müəssisələrinin inkişafı variantlarını reallaşdırmaq məqsədi ilə təhsil xidmətinin və ya təhsil proqramının və texnologiyasının ticarət markasının mövqeləşdirilməsi prosesindən geniş istifadə edilir.

Təhsil xidmətinin mövqeləşdirilməsi dedikdə, istehlakçının rəqiblərlə müqayisədə həmin təhsil müəssisəsinin təqdim etdiyi təhsil xidmətlərinin keyfiyyətinin yüksək olması faktının daxilən psixoloji və əqli cəhətdən dərk etməsi fikrinin formalaşmasına istiqamətlənmiş hərəkətlərin məcmusu başa düşülməlidir.

Məhz bu hərəkətlərin nəticəsində istehlakçı həmin təhsil müəssisəsində müəyyən üstünlüklər əldə edərək fayda qazanır.

Mövqeləşdirmə özündə bir-birilə qarşılıqlı əlaqədə olan iki prosesi birləşdirir:

1. Potensial istehlakçıların başa düşülməsini (dərk edilməsi ilə əlaqədar olan işi). Bu reallıqda istehlakçının xidməti necə qəbul etdiyini qiymətləndirməyə imkan verir;

2. Təhsil xidməti ilə əlaqədar olan işini. Bu isə öz növbəsində müəyyən təhsil xidmətinin

təhsil bazarında müvafiq yer tutması üçün hansı hərəkətləri yerinə yetirməyi qiymətləndirmək imkanı verir;

Mövqeləşdirmənin müəyyən alqoritmi mövcuddur:

– mövqeləşdirmə meyarlarının seçilməsi;
– seçilmiş meyarlar üzrə göstəricilərin müəyyən edilməsi;
– dərketmə (qəbul etmə) kartının düzülməsi (qurulması);
– yenidən mövqeləşdirmə.

Təhsil xidmətlərinin mövqeləşdirmək üçün əsas (baza) aşağıdakılar ola bilər:

1. Mövqeləşdirməyə zəruriyyət əsasən xidmətin dəyərində keyfiyyət fərqi olduqda yaranır;

2. Qazanc əldə etmək istədikdə və ya müəyyən təhsil bazarı seqmentində təhsil alanın konkret probleminin həll etməyə zəruriyyəti yarandıqda mövqeləşdirmənin məqsədəuyğunluğu meydana çıxır;

3. Müəyyən kateqoriyadan olan vətəndaşların problemlərinin həllinə istiqamətlənmiş situasiya yarandıqda mövqeləşdirmənin məqsədəuyğunluğu qaçılmaz olur;

4. Rəqabət aparan xidmətlərə münasibətdə də mövqeləşdirmənin məqsədəuyğunluğu yarana bilər.

Təhsil xidmətinin mövqeləşdirilməsi şərtləri aşağıdakı sxemdə əyani təsvir olunmuşdur (şəkil 2).

Təhsil xidməti bazarının seqmentləşdirilməsi. Marketinq tədqiqatları təhsil müəssisəsinin gəlirlik nöqteyi-nəzərindən işləməyə üstünlük verdiyi hansı məqsədli təhsil bazarının daha faydalı olduğunu müəyyən etməyə imkan verir.

Burada əsas problem tədqiq edilən çoxsaylı bazar seqmentlərindən gələcəkdə hansının təhsil müəssisəsinə daha çox mənfəət gətirənin seçilməsilə bərabər cari tələbatın hesablanmasıdır.




**Şəkil 2.** Təhsil xidmətinin mövqeləşdirilməsi şərtləri

Tələbin miqdarının hesablanması üçün alət kimi aşağıdakılardan istifadə edilə bilər:

– anket və sonradan onların işlənməsinin köməyilə aparılan xüsusi marketinq tədqiqatlarının nəticələrindən;
– tədqiq edilən bazar seqmenti üzrə mövcud olan təkrar statistik məlumatların işlənməsi vasitəsilə alınan nəticələrdən;
– riyazi metodları (formalar üzrə) tətbiq etməklə alınan və həmin bazar seqmentində tələb və təklifin qanunauyğunluğu və s. haqqında aşkar edilmiş haqq-hesab məlumatlarından.

Bu nöqteyi-nəzərdən bazar aşağıdakı göstəricilərlə xarakterizə edilə bilər:

– bazarın potensialı ilə;
– bazarın cari tutumu ilə;
– təhsil müəssisəsinin satış (buraxılış) həcmi ilə.

Bazar seqmentinin tutumunun müəyyən edilməsi aşağıdakı parametrlər üzrə cari informasiyanın toplanmasını nəzərdə tutur:

– həmin seqmentdəki potensial təhsil proqramı sifarişçilərinin miqdarı;
– təhsil xidmətinin tələb olunma səviyyəsi;
– bazar seqmentinin tutumunun gözlənilən artımı;
– seqmentdə təhsil xidmətlərinin bölüşdürülməsi imkanı;
– seqmentdəki bazar imkanları;
– maraq doğuran seqmentlərdə təhsil müəssisəsinin real bazar payı.

Müvafiq bazar seqmentində rəqabətin vəziyyətinə Boston məsləhət qrupu (BMQ) tərəfindən təklif klassik matrisadan istifadə etməklə baxmaq olar (4).

BMQ matrisasından həm ayrı-ayrı təhsil xidmətlərinin, həm də bütövlükdə təhsil müəssisəsinin vəziyyətini müəyyən etmək üçün, həmçinin müvafiq strategiyanı seçmək üçün istifadə oluna bilər. BMQ matrisasından istifadənin əsasından belə bir fərziyə durur ki, bazarda xidmətlərin payı nə qədər çox olarsa, nisbi xərclər bir o qədər aşağı və mənfəət isə istehsalın miqyasına qənaət hesabına, təcrübə toplanması və təhsil xidmətlərinin satışı üzrə mövqelərin yaxşılaşdırılması hesabına yüksək ola bilər.

Təhsil xidmətlərinin inkişafında mümkün strategiyalar və ssenarilər ola bilər sualına belə cavab vermək olar ki, uğurlu strategiyalar içərisində novatorun və ardıcılların strategiyalarını fərqləndirmək lazımdır.

Novatorun strategiyası belə reallaşır: “sağılan inəklərdən” (sabit tələb olan təhsil xidmətlərinin reallaşdırılmasından) alınan vəsait təhsilin keyfiyyətinin yüksəldilməsinə və təhsil müəssisəsinin maddi-texniki bazasının yaxşılaşdırılmasına istiqamətləndirilir. Beləliklə, təhsil müəssisəsi yeni təhsil xidmətilə “ulduzların” içərisində yer tutmaq üçün yeni bazara daxil olur.

Ardıcılın (məsləkdaşın) strategiyası – “sağılan inəklərin” vəsaitindən istifadə edərək əmtəə ilə “çətin uşaqlar” (yeni xidmət) bazarına daxil olmasını özündə ehtiva edir. Adətən, bu bazarda lider dominantlıq edir və o öz bazar payını aqressiv olaraq artırmaqda davam edir.

Uğursuz strategiyalar içərisində daha çox rast gəlinəni novasiyalara qənaət strategiyası və daima eyni səviyyədə olmaq strategiyasıdır. Novasiyalara qənaət edilməsi investisiyalaşmanın yetərincə olmamasına gətirib çıxarır və son nəticədə hətta “ulduzlar” bazarda öz lider mövqelərini itirərək “çətin uşaqlar” mərhələsinə qayıdırlar. Yeni təhsil xidmətində həmçinin permanent babatlıq (orta dərəcədə olma) trayektoriyası acınacaqlı vəziyyət yaradır: çünki uşağa bazarda öz payını artırmaq mümkün olmur və o, özünü reallaşdıra bilmədiyinə görə “itlər” kateqoriyasına keçir.

**Ədəbiyyat:**


1. Azərbaycan Respublikasının Konstitusiyası. – Bakı. – 2009.
2. Təhsil haqqında Azərbaycan Respublikası Qanunu. – Bakı. – 2016.
3. Azərbaycanda xalq maarifinin sürətli inkişafı (Mühdizadə M.M., Allahverdiyev T.Ə., Əliyev Q.H.). – Bakı. – 1980.
4. Ансофф Н. Стратегическое управление:

Пер.с англ. – Москва. –1989.
5. Məmmədov A.T. Marketinq. Dərslik. – Bakı. – 2014.
6. Гершунский В.С., Философия образования XXI века. – Москва. – 2012.
7. Коваленко, А.Н. Образовательное антепренерство. – Москва. – 2004.
8. Энциклопедия профессионального образования. М. 1999.
9. http: // www.heydar-aliyev.org
10. http: // www.preslib.az

***Açar sözlər:*** *təhsil xidməti, marketinq, əmək bazarı, təhsil müəssisəsi, strategiya*

**Mammad Mammadov**
*The Academy of Public Administration under the President of the Republic of Azerbaijan*
*Department of Public Administration and Management*
*Ph.D. in Economics, Associate Professor*

## MARKETING IN THE EDUCATIONAL SERVICE SPHERE

## ABSTRACT

The article describes the following aspects of the modern educational system: the important role of marketing service in the educational sphere; the information-analytical provision that satisfies the demand for education, keeping in mind the demand of the labor market and the possibilities of the educational system; several aspects of the use of marketing which enable each educational institution to monitor the situation in the labor market and adjust the volume and quality of educational services accordingly.

***Keywords:*** *educational service, marketing, labor market, educational institution, strategy*

**Мамед Мамедов**
*Доцент кафедры государственного управления и менеджмента*
*Академии Государственного Управления*
*при Президенте Азербайджанской Республики,*
*доктор философии по экономике*

## МАРКЕТИНГ В СФЕРЕ ОБРАЗОВАТЕЛЬНЫХ УСЛУГ

## РЕЗЮМЕ

В статье раскрывается уникальная роль службы маркетинга в образовательной сфере, которая является одним из средств достижения поставленных целей в современном образовательном пространстве, рассматривается информационно-аналитическое обеспечение, удовлетворяющее спрос на образование, с учетом спроса рынка труда и возможностей системы образования; обсуждаются некоторые аспекты использования маркетинга, позволяющие каждому образовательному учреждению отслеживать ситуацию на рынке труда и соответствующим образом корректировать объем и качество образовательных услуг.

***Ключевые слова:*** *образовательная услуга, маркетинг, рынок труда, образовательное учреждение, стратегия*

## G Ə N C  T Ə D Q İ Q A T Ç I L A R
## Y O U N G  R E S E A R C H E R S

## B E Y N Ə L X A L Q  M Ü N A S İ B Ə T L Ə R
## I N T E R N A T I O N A L  R E L A T I O N S

UOT 327; 930.22

**FİDAN XƏLİLOVA**
**Azərbaycan Respublikasının Prezidenti yanında**
**Dövlət İdarəçilik Akademiyasının**
**Beynəlxalq münasibətlər və xarici siyasət kafedrasının doktorantı**
*e-mail: fidanxelilova@mail.ru*

# ÇAĞDAŞ MİLLİYYƏTÇİLİK VƏ ONUN XÜSUSİYYƏTLƏRİ

Milliyyətçilik, son iki əsrdə Avropa və dünya tarixinin formalaşmasında azadlıq və parlament demokratiyası və ya kommunizm ideyalarından daha vacib bir siyasi amilə çevrilmişdir. Müasir milliyyətçiliyin kökləri XVIII əsrin sonlarında Qərbi Avropa və Şimali Amerikada ortaya çıxmış, sonradan bütün Avropaya və nəticədə, dünyanın hər yerinə yayılmışdır. Alman tarixçisi Fridrix Menikenin ifadə etdiyi kimi milliyyətçilik sosializmlə yanaşı, XIX əsrin əsas düşüncə cərəyanlarından biri idi. XX əsrdə milliyyətçilik misilsiz uğurlara imza atdı, onun əhəmiyyəti Birinci Dünya Müharibəsindən əvvəl və sonra, xüsusilə İkinci Dünya Müharibəsindən sonra Asiya, Afrika və Avropada sürətlə yüksəldi [10, s.18].

Tarixən milliyyətçilik iqtisadi, siyasi və mədəni sahələrdə müəyyən bir xalqın rifahını və üstünlüyünü digər hər kəsdən üstün tutmaq üçün bir vasitə kimi istifadə edilmişdir. Milliyyətçilik ilk dəfə XVIII əsrdə bir milləti "etnoqrafik prinsiplərə" görə müəyyənləşdirmək və tanıtmaq üçün ümumi bir anlayış kimi istifadə edilmişdir. Baxmayaraq ki, Roma imperiyası və Müqəddəs Roma İmperiyasının bir milli aspektləri var idi, hansı ki, onlar onları əhatə millətləri bir bayraq altında birləşdirərək “dünya dövləti" qurmaq tərəfdarı idilər, lakin XVIII-XIX əsrlərə qədər Fransa və Amerika inqilabları vahid bir milləti və onun siyasi və iqtisadi maraqlarını – kapitalizmi təşviq edən yeni bir milliyyətçiliyə səbəb oldu [1].

"Milliyyətçilik" termini ilə ifadə edilə bilən hadisələrin çoxluğu, bunun siyasi və analitik düşüncə lüğətindəki ən qeyri-müəyyən anlayışlardan biri olduğunu göstərir. XIX əsrdə Balkanlarda və ya XX əsrdə Afrikada baş verən hər hansı bir üsyançı hərəkat bir xalqın digərinə zülmü kimi asanlıqla milliyyətçilik kateqoriyasına aid edilə bilər. Bu, həm imperializmin, həm də antiimperializmin tərkib hissəsi olmuşdur və olmaqdadır [11, s.170-171]. Bununla əlaqəli olaraq, fərqləndirilməsi vacib olan iki məfhum var: “millət” və “milliyyət” anlayışları. “Milliyyət” hər hansı bir milli-etnik qrupu ifadə edir, “millət” isə bir neçə milliyyətdən ibarət ola bilər. Məsələn, İsveçrədə dörd rəsmi dil və dörd milliyyət var, lakin İsveçrə tək bir millətdir. Həmçinin ABŞ bir neçə milliyyətdən formalaşan tək bir millətdir. Bir çox liberal və millətçi mütəfəkkirlər tərəfindən “millət” tarixən inkişaf edən bir məfhum kimi nəzərdən keçirilir, bu anlayışın kapitalizmlə birgə ortaya çıxdığı qəbul olunur [5]. 1980-ci illərə qədər millətlə bağlı nəzəri yanaşmalara misal olaraq alman mütəfəkkirləri Herder və Fixtenin araşdırmalarını göstərə bilərik. Herder əsasən dil və mədəniyyət, Fixte dil, mədəniyyət, etnik mənşə və s. kimi obyektiv kriteriyalara əsasən “millət” anlayışını izah etmişdir. 1980-ci illərdən sonra

“millət” və “milliyyətçilik” anlayışlarına dair daha zəngin araşdırmalar ortaya çıxmışdır. Benedikt Anderson, Ernest Gellner, Erik Hobsbavm kimi mütəfəkkirlər millətlə bağlı yeni nəzəriyyələr irəli sürdülər. Məsələn, Ernest Gellner qeyd edir ki, milliyyətçiliyi yaradan millətlər deyil, əksinə millətləri yaradan milliyyətçilikdir [8, s.23-24].

Bənzər yanaşma Benedikt Anderson və ingilis marksist tarixçi Erik Hobsbavm tərəfindən də irəli sürülmüşdür. Andersona görə millət təsəvvür edilmiş bir siyasi birlikdir və ya xəyali bir birlikdir. Yəni “millət” yaradıla bilən bir birlikdir. Məsələn, İtaliyanı birləşdirən İtaliya Krallığının ilk parlamentində çıxış edən siyasətçi Massimo d'Azeglio demişdir ki, “İtaliyanı yaratdıq, indi isə italyanları yaratmalıyıq”. Ernest Gellner “millətlər xəyalən formalaşan siyasi birlikdir”, “millətlər dövlət və milliyyətçilər tərəfindən yaradılmışdır” fikirlərini irəli sürərək “millət” və “milliyyət” anlayışlarına yeni baxış gətirmişdir [8, s.23-24]. Lakin millətin süni bir birlik olduğunu iddia etmək də doğru olmazdı. Belə ki, əvvəlki araşdırmalarda millətlər təbii şəkildə formalaşan və dəyişməz bir birlik kimi göstərilirdi.

“Millət” anlayışı tarixən, əsasən, üç fərqli mənada istifadə olunmuşdur. Birincisi, Antik dövrdə və Orta əsrlərdə istifadə olunan mənası – “doğum yeri” anlamındadır. Millət – ingiliscədə “nation” sözü, latıncada “natio” sözündəndir, “bir insanın doğulduğu yer, torpaq”, eyni zamanda “bir dövlətin bölgəsi, əyaləti” mənasında işlənir. İkinci mənada, “millət” bir dövlətin sərhədləri içərisində öz müəyyən etdikləri qanunlara əsasən yaşayan bir birlikdir. Bu mənada dilə, mədəniyyətə, etnik mənşəyə aidlik vurğulanmır. Üçüncü mənada isə dilə, mədəniyyətə və etnik kökə dayanan bir anlayış kimi istifadə olunur. Bu mənasında daha çox etnosa uyğun gəlir. Darrio Azzeliniyə görə, “millət” anlayışına dair geniş yayılmış iki yanaşma var. Birinci yanaşma Fransız inqilabı zamanı ortaya çıxan “Yakobin millət” anlayışına dayanır. Yakobinizm yanaşmasına görə, millət siyasi baxımdan yaradılması vacib olan birlikdir. Yəni öncədən mövcud olan yox, milliyyətçilik ideologiyası ilə formalaşan birlikdir. İkinci yanaşma isə Herder və Fixtenin fikirləri ilə üst-üstə düşür. Bu yanaşmaya əsasən millət öncədən mövcud olan bir gerçəklikdir, sadəcə üzə çıxması və kəşf olunması lazımdır [8, s.25].

İsveçrəli alim Jakob Tanner isə bənzər düşüncəni fərqli terminlərlə izah edir. Belə ki, bu yanaşmada millət ya demosa, ya da etnosa əsaslanır. Demos xalq deməkdir, xalq isə bərabər hüquqlara sahib vətəndaşlar birliyidir. Bu zaman millət dövlət tərəfindən yaradılmışdır və milli kimlik dövlət vətəndaşlığı ilə müəyyən olunur. Etnosa əsaslanan millət anlayışı isə ortaq etnik mənşədən, ortaq mədəniyyətdən, ortaq bir dildən qaynaqlanır. Tannerə görə bu iki yanaşma bir-birini inkar etmir, bəzi millətlərdə hər iki kateqoriya –“demos” və “etnos” hər ikisi eyni anda özünü göstərə bilər [8, s.26].

Çağdaş milliyyətçiliyin formalarını başa düşmək üçün bu ideologiyanın millət dövlət quruculuğu tarixində xidmət etdiyi paradoksal hədəfləri yada salmaq faydalıdır. XVIII və XIX əsr Avropa millətçiliyi, müxtəlif mənşəli insanları, etnik kimliklərini dünyəvi dövlətin hakim olduğu daha böyük ərazi vahidinə tabe etmək bahasına bir araya gətirən birləşdirici qüvvə idi. Bu təkamülün əsası feodalların tənəzzülündən və sənaye sisteminin yüksəlməsindən sonra təsirli gücün “kilsə və dövlətin birliyi”dən “millət və dövlətin birliyi”nə keçdiyi zaman dünyəvi dövlətin yaranması ilə bağlı idi. Nəticə etibarı ilə bəzən bu dövlətlərin hüdudlarını aşan etnik sədaqətin dağıdıcı olduğu görüldü və onları yatırmaq üçün hər cür cəhd edildi. Dünyəvi dövləti ideallaşdıran və ona sədaqətlə zidd ola biləcək hər hansı bir dil, dini və ya digər düşüncə tərzinin qorunmasını ləğv edən millətçilik əsas hakim ideologiya oldu. Millətçilik vətənpərvərlik ilə sinonimə çevrildi [11, s.170-171].

XIX-XX əsrlərdə isə bu anlayış etnosa əsaslanan, ortaq etnik mənşədən, ortaq mədəniyyətdən, ortaq bir dildən qaynaqlanan bir ideologiyaya – milliyyətçiliyə çevrildi. Tarixin uzun dövründə qüdrətli olan Osmanlı və ya Habsburq imperatorluqları kimi böyük çoxmilliyyətli dövlətlər milliyyətçilik səbəbi ilə

parçalanmış və çox sayda kiçik dövlətlərə bölünmüşdür. Keçən əsr yarımlıq bir dövrdə Yunanıstan, İtaliya, Alman Reyxi, Çexoslovakiya və Polşa kimi yeni dövlətlər milliyyətçilik ideologiyası ilə elan edildi. Asiya, Afrika və dünyanın digər yerlərində tətbiq edilən Avropa müstəmləkə siyasəti həmin ölkələrdə milliyyətçi maraqların genişlənməsinin hərəkətverici qüvvələrindən biri idi [10, s.19].

Avropa 1871-ci ildə Almaniyanı birləşdirən Otto fon Bismark və Fransada milliyyətçi idealları formalaşdıran Jan-Jak Russo, Napoleon kimi insanların təsiri ilə siyasi və ideoloji müharibə vəziyyətində olanda milliyyətçilik daha güclü təsir bağışlamağa başladı. Güclü milli kimlik hissi ilə yanaşı, irqi və milli üstünlüyün daha da təhlükəli fikirləri meydana çıxdı [1]. Birinci Dünya Müharibəsindən sonra çoxmilliyyətli Rusiya, Avstriya-Macarıstan və Osmanlı imperatorluqlarının süqutundan sonra millət dövlətlərinin yaranmasına bənzər bir cərəyan Balkanlarda yaradılmışdı, hansı ki öz sərhədləri daxilində olan əsas etnik qrupların hüquqları və istəklərinə əsaslanırdı. Milli öz müqəddəratını təyinetmə hüququndan irəli gələn dövlət suverenliyi prinsipi bu yeni millət dövlətlərini qarşısıalınmaz hala gətirdi [7, s.49]. Beləliklə, Şərqi Avropadakı qeyri-sabitliyin əsas mənbəyi, hər bir ölkənin öz qanunçuluq prinsipini rəhbər tutaraq xalqların öz müqəddəratını təyin etmə prinsipini rədd etməsi ilə izah edildi [3, s.53-54].

1918-1945-ci illəri arasında milliyyətçilik anlayışı dözümsüzlük, qeyri-insani münasibət və zorakılıq sözləri ilə sinonimə çevrildi. Müharibələr aparıldı və ağır müharibə cinayətləri törədildi. Bu, insanların doğma yurdlarından zorla çıxarılmasına və ərazi fəthinə əsaslanan kampaniyalara ilham verdi. İkinci Dünya Müharibəsi illərində milli sosialistlərin yeritdikləri məhv siyasətləri buna ən dəhşətli nümunələrdəndir [10, s.20].

Benito Mussolini və Adolf Hitler kimi faşist rejimləri milli kimlik və adət-ənənələr kimi millətin ehtiyaclarını alət edərək fərdiliyi alt-üst etmək üçün XX əsrin əvvəllərində baş verən iqtisadi və siyasi qarışıqlıqdan istifadə etdilər. Hitlerin nasist partiyası "Aryan" irqinin üstünlüyü və Alman xalqlarının mədəni, intellektual və militarist üstünlüyünün bütün digər milliyyətlərə qarşı yönəldilməsini əsas tuturdu. Müttəfiq xalqlar, İtaliya və Almaniya kimi ölkələrdən gələn milliyyətçi təhlükəni aradan qaldırmağa son nəticədə müvəffəq oldular, lakin milliyyətçiliklə mübarizə üçün Birləşmiş Millətlər Təşkilatı kimi qlobal təşkilatların artması da öz növbəsində yeni problemlər yaratdı [1].

Dekolonizasiya prosesi sonrası və 1945-ci ildən sonra Asiya, Afrika, Karib dənizi və Sakit okean bölgəsində millət dövlətlərinin yaradılması bənzər xətlə davam etdi. Müstəqilliyi öz müqəddəratını təyinetmə prinsipi ilə əldə etmiş dövlətlər konsepsiyanın daha geniş tərifinin əks nəticəyə gələ biləcəyi fikrində idi. Nəticə etibarı ilə, XX əsrdə bir çox milli azadlıq müharibələri mövcud dövlət quruluşu daxilində özlərini fərqli hiss edən qrupların milli öz müqəddəratını təyin etmə hüququnu iddia etməsi ilə apardığı mübarizə idi, lakin onların az bir qismi suveren dövlətçiliyə qovuşa bildi [7, s.42].

1980-ci illərin sonu və 90-cı illərin əvvəllərində Şərqi Avropada kommunizmin süqutu, bölgədəki ən böyük iki polietnik dövləti - Yuqoslaviyanı və Sovet İttifaqını məhv edən milliyyətçi düşüncə dalğasını oyandırdı. Litva 1990-cı ilin martında Sovetlərdən müstəqillik elan edərək başlanğıc etdi. İki il ərzində keçmiş Sovet İttifaqında 15, keçmiş Yuqoslaviyada isə 4 yeni dövlət meydana gəldi. Tezliklə yeni dövlətlərin bir neçəsi öz ayrılma hərəkatlarını yaşadılar [2]. Keçmiş SSRİ və Yuqoslaviya ərazisində davam edən münaqişə ocaqları hələ də qalmaqdadır.

Davam edən qarşıdurmalardan biri də yaxşı silahlanmış kürd separatçı təşkilatı PKK ilə Türkiyə arasındadır. İraqın şimalındakı kürdlər artıq özlərini müstəqil idarə edirlər. Bəzi praqmatik kürd liderləri bu modelin İran, Suriya və Türkiyəyə – muxtariyyətə sahib olmayan yerlərə də – tək Kürd dövlətinə təkan vermək məqsədilə yayılmalı olduğunu düşünürlər. Yaxın Şərqdə, həmçinin İsrail-Fələstin qarşıdurmasının gedişinə əsasən söyləmək olar ki, uzlaşmanın get-gedə daha da çətinləşməsi

fonunda nəticənin "iki dövlətli həll" ə doğru irəlilədiyini müşahidə edə bilərik. Afrika da milli-etnik əsaslı qarşıdurmalara şahidlik edir. Somaliland bir dövlət olaraq qəbul edilməyə doğru addımlar atır, Qərbi Saxara Mərakeşdən ayrılmaqda, müstəqilliyini beynəlxalq ictimaiyyətə tanıtmaqda israrlıdır. Dini fundamentalist cərəyanlarla, həmçinin terrorist qruplaşmaların zorakı fəaliyyəti ilə müşayiət olunan bütün bu parçalanma meyilləri qlobal sülh və təhlükəsizliyi təhdid etməkdə davam edir [2].

Bəs milliyyətçi meyilləri canlandıran faktorlar nələrdir? Deməli, milliyyətçiliyin paradoksal keyfiyyətləri onun müasir tarixi ifadəsində bir neçə ziddiyyətli məqsədə xidmət etməsi ilə əlaqədardır. Bu, millətlərin öz müqəddəratını təyin etməsinə və siyasi dövlətçiliyə can atmasına kömək edən əsas ideologiya kimi çıxış etmişdir. Bununla yanaşı, milliyyətçilik sonradan yaradılan dövlətlərdə "millət"-i bir yerdə tutmağın ideoloji əsaslandırılmasını təmin etmək üçün istifadə edildi. Üçüncüsü, bu demokratik dövlətdə öz müqəddəratını təyinetmə və populyar suverenlik doktrinasına söykənən legitimliyə dair iddianı şübhə altına alaraq, millətlərdəki narazı azlıqların və ya etnik qrupların dövlət hakimiyyətinə qarşı çıxmasına imkan yaratdı. Deməli, milliyyətçilik bu mənada millət dövlətlərinin parçalanmasına təkan vermişdir.

Birləşmiş Millətlər Təşkilatının Nizamnaməsinin birinci maddəsinin ikinci bəndində və əlli beşinci maddəsində təsbit edilmiş öz müqəddəratını təyinetmə konsepsiyası 1961-ci ildə qəbul olunmuş məşhur "Müstəmləkə ölkələrinə və xalqlarına müstəqillik verilməsi haqqında bəyannamə" də təkrar edilərək müstəmləkə xalqlarının və yad hökumət altında olan xalqların mübarizəsinin qanuniliyini təmin etmək, suveren dövlətçilik hüquqlarını həyata keçirmək üçün əsas etibarilə inkişaf etdirilmişdir. Dəfələrlə vurğulanmışdır ki, bu prinsipin əhatə dairəsinin genişləndirilməsi və müstəqil dövlətin bir hissəsi olan xalqlara tətbiq edilməsi kimi şərh edilə biləcək hər hansı bir şəkildə tərtib edilməsinin qarşısını almaq lazım idi. Çünki konsepsiya mövcud milli birlikləri parçalamağa yox, xalqların könüllü və demokratik bir əsasda birləşməsinə xidmət edir [14, s.41]. Nəticə etibarı ilə, beynəlxalq sabitliyin əsas amili olan ərazi bütövlüyü və mövcud sərhədlərin toxunulmazlığı (və ya unitar dövlətin qorunması) prinsipi öz müqəddəratını təyin etmə hüququndan (hansı ki mövcud dövlətlərin parçalanması nəzərdə tutulurdu) və ayrılmaq hüququndan üstün hesab olunur. Lakin son onilliklər ərzində demokratiya və əsas azadlıqlar sahəsində irəliləyiş, həmçinin güc tətbiq edilməsinin öz müqəddəratını təyin etmək istəklərini boğmaqda arzuolunmaz və təsirsiz yol olduğu barədə düşüncələrin artması ilə müşayiət olunan vəziyyət, öz müqəddəratını təyin etmə anlayışı ilə ziddiyyətlərin yaranmasına səbəb oldu. Nəticədə, unitar dövlətlər üçün həlli çox çətin olan bir vəziyyət yarandı. Kürdlərin, slovenlərin, xorvatların və bosniyalıların təcrübəsi göstərdi ki, separatçı təzyiqlər artıq sadəcə daxili işlər kimi qəbul edilə bilməz, xüsusən də onların mübarizəsi beynəlxalq sülh və təhlükəsizlik üçün labüd olan ərazi toxunulmazlığı kimi fundamental prinsipləri etibarsız hala gətirərsə [4, s .15].

Milliyyətçilik meyillərinin genişlənməsinin digər bir səbəbi isə qlobal iqtisadi və siyasi inkişaf nəticəsində beynəlxalq miqrasiyanın artması ilə bağlıdır. Son on il ərzində Avropa, iqtisadi və siyasi sıxıntılar səbəbindən ənənəvi olaraq Cənubdan, həmçinin getdikcə Şərqi Avropadan qaçan insanların əsas hədəfinə çevrildi. Bu dinamika, öz növbəsində Qərbi Avropada məhdud mənbələr uğrunda mübarizədə rəqib kimi qəbul edilən "kənar şəxslərə" düşmənçiliyi iqtisadi narazılıqlarla əsaslandıran ksenofobik sağçı qrupların formalaşmasına münbit zəmin yaratdı. Sonradan görəcəyimiz kimi, ksenofob reaksiya Qərbi Avropa ilə məhdudlaşmadı, həm də iqtisadi cəhətdən qeyri-sabit keçmiş sosialist cəmiyyətlərində də etiraz platforması olaraq ön plana çıxdı [9].

Müasir dövrdə milliyyətçilik fenomeni sosial, psixoloji, iqtisadi, siyasi və mədəni ölçüləri əhatə edən çoxsaylı və əksərən üst-üstə düşən amillərdən qaynaqlanır. Şərtlərdən asılı olaraq, bir çox müxtəlif formada özünü göstərir, bu da aralarındakı fərqləri aydın

müəyyən etməyi çətinləşdirir. Bu səbəbdən bəzi konkret hallarda eyni anda milliyyətçiliyin bir neçə formasının təzahürlərini görmək mümkündür. Bu da münaqişələrin qarışıq xarakter almasına səbəb olur. Müasir dövrdə millətçiliyin əsasən dövlət millətçiliyi (vətəndaş millətçiliyi) və etnik millətçilik növlərinin geniş yayıldığı müşahidə olunur. Buna uyğun olaraq, bəzi mənbələrdə hər iki növün xüsusiyyətlərini özündə cəmləşdirən, Avropada və keçmiş Sovet İttifaqı ölkələrində mövcud olan sağçı-millətçi hərəkatları, həmçinin dini fundamentalizm fenomenini əhatə edən "etiraz" millətçiliyi anlayışı istifadə olunur [9].

Etnik-milliyyətçilik əksərən etnik, siyasi və iqtisadi təqibdən qaçan miqrantların yaşadığı ölkələrdə özünü göstərir. Bu, zəif inkişaf etmiş dövlətlərdən gələn miqrantlar nisbətən daha çox inkişaf etmiş cəmiyyətlərdə yerləşərək, yaşadıqları cəmiyyətdən fərqli, yeni hibrid mədəni identiklik yaratdıqda baş verir. Onlara qarşı yerləşdikləri ölkədə yönələn düşmənçilik mövqeyi (çox zaman irqçi əsasda təzahür edir) bu qrupları öz spesifikliklərini elan etməyə və müxtəlif siyasi-mədəni özünüifadə ətrafında toplaşmağa vadar edir. Məsələn, Qərbi Avropadakı müsəlmanların əksəriyyəti (8 milyondan çox) inteqrasiya etmək istədiklərini söyləsələr də, yerli Avropa əhalisinin sərt və soyuq münasibəti onları özlərinəməxsus dini və mədəni fərqliliklərini müəyyənləşdirməyə sövq edir.

Müasir dünyamızda elm və texnologiyanın inkişaf etdiyi, fərdi azadlıqların yüksək səviyyədə tanındığı, siyasi və mədəni baxımdan irəlidə olan, liberal idarəetmə ənənəsinə, həmçinin humanist dövlətçilik təcrübəsinə sahib olan Avropada milliyyətçilik meyilləri bir qədər təəccüblü deyilmi? Demokratik və liberal dəyərləri olan Avropanın fərqli mədəniyyətlərə yüksək səviyyədə dözümlülük nümayiş etdirməsi, "digərlərini" qəbul etməsi yəqin ki, daha gözlənilən olardı. Yüksək modernizasiya, sənayeləşmə və urbanizasiya təcrübəsinin tədricən etnik fərqləri azaldacağı və nəticədə bütün azlıqların millətin sərhədləri ilə müəyyən edilmiş vahid homogen bir mədəniyyətə assimilyasiya edəcəyi düşünülürdü. Ancaq bu gözləntilər özünü doğrultmadı. Deməli, yaxın keçmiş Avropa tarixinin göstərdiyi kimi, neofaşist ideologiyanın xüsusiyyətlərini özündə cəmləşdirən ksenofob milliyyətçilik, qondarma qabaqcıl cəmiyyətlərdəki qruplar arasında da meydana çıxa bilər. Bu reaksiyalar sosial-iqtisadi tənəzzül və siyasi dəyişikliklər kontekstində yenidən çiçəklənməyə meyillidir. Bu cür məqamlarda hədəf ölkədə məskunlaşmış və ya yeni gələn immiqrantlar olurlar, xüsusilə də iqtisadi gərginlik dövrlərində. 1992-ci ildə "Der Spiegel" də yayımlanan bir xəbərə əsasən, hətta keçmiş ADR-dən gələn almanlar belə iqtisadi və sosial gərginlik səbəbindən Almaniyanın qərbində o qədər də xoş qarşılanmamışdılar [9].

Bu hadisələr Qərbi Avropadakı qondarma milli və mədəni kimliyi mürtəce, avtoritar, irqçi şüarlarla müdafiə etməyə çalışan sağçı partiyaların və qrupların əksəriyyətinin immiqrasiya və sığınacaq siyasətinin sərt məhdudlaşdırılmasını tələb edən məşhur çağırışlarını qismən izah edir. Müasir dövrdə regionda immiqrasiya prosesləri ictimai narazılıq üçün əlverişli hədəf kimi istifadə edilmiş, siyasi cəhətdən vacib və həssas məsələyə çevrilmişdir. Bəziləri bu qrupların və ya partiyaların populyar müvəffəqiyyətlərini, kommunist təhlükəsinin sürətlə çökməsi nəticəsində yaranan siyasi disoriyentasiyaya reaksiya və "düşmən" imicini yeni təhdid mənbələrinə köçürməklə müşayiət olunan psixoloji ehtiyac baxımından izah edirlər. Ənənəvi olaraq tarixdə bir çox xalqlarda olduğu kimi, iqtisadi böhran və sosial qeyri-sabitlik dövründə etno-milliyyətçi hislər qruplara günahları öz icmalarından kənarda başqalarına ötürmək imkanı yaradır. Bu partiyaların əsl təhdidi, Avropada hakimiyyəti ələ keçirmələri deyil. Onların zərərli təsiri budur ki, bəzi hallarda demokratiyanın əsaslarını sarsıdacaqları ilə hədələyərək mərkəzçi partiyaları sağa doğru meyil etməyə məcbur edirlər. Məsələn, Fransada hakim mühafizəkarlar Fransa vətəndaşlığı qanunlarını sərtləşdirərək, rəsmi olaraq "sıfır immiqrasiyaya" çağırış edərək bir çox hallarda sağçıların səslərini oğurlamağı bacarmışlar [12, s.33]. Həmçinin Alman hökuməti, ölkədə ksenofob əhval-ruhiyyənin artması və sağ meyillərin

gücləndmesi nəticəsində ölkənin sığınacaq siyasətini xeyli dərəcədə məhdudlaşdırmış, son zamanlarda immiqrantlara nisbətən sərt siyasət tətbiq etməyi üstün tutmuşdur. Eyni zamanda İngiltərədə sığınacaq və immiqrasiya siyasəti bəzilərinin liberal dəyərləri ciddi şəkildə pozması ilə əsaslandırılaraq müəyyən bir həddə qədər sərtləşdirilmişdi [13, s.16].

Müasir dövrdə sağ qanadda qeydə alınan canlanma Qərbi Avropa ilə məhdudlaşmır. Keçmiş Sovet blokunda da ekstremist qruplar və sağ yönümlü partiyalar yarandı. Hal-hazırda Rusiya Federasiyasında təxminən 80 ultra-millətçi qrupun fəaliyyət göstərdiyi məlumdur. Bu cərəyanın ən görkəmli ictimai təzahürlərindən biri, 1986-cı ildə qurulan Rusiyanın imperiya keçmişini tərif edən ksenofob şovinist Slavyan hərəkatı olan “Pamyat”-dır. Hərəkat Rus Pravoslav Kilsəsinin hakimiyyətinə tabe olmağı, narazılıqları qızışdırmağı, et-nik azlıqları hədəf almağı dəstəkləyir. Rusiyada sağçı populizmin daha bir gözə çarpan təzahürü səhv adlandırılan Liberal Demokrat Partiyasıdır. Hal-hazırda Vladimir Jirinovskinin rəhbərliyi ilə fəaliyyət göstərən təşkilat radikal mövqeyi ilə fərqlənir [9].

Yeni liderlərin hakimiyyətə gəlməsi ilə XXI əsr də milliyyətçilikdən azad olmadı. Hindistanda özünü "Hindu millətçisi" adlandıran Narendra Modi 2014-cü ildə Baş nazir seçildi. 2015-ci ildə Vladimir Putin etnik rusları "xilas etmək" üçün Ukraynanı işğal etdi. İqtisadi rifahla əlaqədar olaraq İngiltərə "Brexit" hərəkatı ilə Avropa İttifaqını tərk etdi. Son zamanlarda prezident Tramp (Rusiya lideri Putin kimi digər beynəlxalq liderlərlə birlikdə) milliyyətçiliyi yenidən canlandırdığı üçün geniş tənqid edildi. D.Trampın “MAGA” ("make America great again") platforması, bir çoxları üçün vətənpərvərlik (milliyyətçi deyil) hissini ifadə etsə də, açıq-aşkar milliyyətçilik təzahürü idi [1]. Yerli biznesi xüsusi prioritetləşdirən iqtisadi milliyyətçilik millətçiliyin bir forması kimi canlanmaqdadır. Proteksionizmi və daxili istehsalı qoruyan ticarət siyasəti genişlənir. Prezident Tramp polad və Çin idxalına tarifləri elan edərkən iqtisadi milliyyətçiliyi dəstəklədiyini nümayiş etdirdi. Trampın immiqrasiya siyasətinin çalarları da Meksika ilə sərhəddə bir divar quracağını vəd edərkən seçdiyi siyasi xəttin milliyyətçiliyə uyğun olduğunu açıq-aşkar göstərirdi [6].

Təəssüf ki, həm inkişaf etmiş, həm də inkişaf etməkdə olan dünyada milliyyətçilik qalmaqdadır. Həm qədim, həm də müasir milli dövlətlər üçün çətinlik, idarə edən və idarə olunan arasında onları bir-birinə bağlayan inklüziv koalisiyalar yaratmaqla və ya yenidən qurmaqla milli müqavilələri yeniləməkdir. Milliyyətçilik heç bir halda müasir dünyamızda uğurlu bir seçim hesab oluna bilməz. Bu ideoloji meyilin artması parçalanma, zorakılıq siyasətinə yol açır ki, bununla da beynəlxalq sülh üçün ciddi təhdidlər yaranır. Nəticə etibarilə, müasir dövrdə milliyyətçilik neqativ nüfuza sahibdir. O, bir çox insanların fikrində təhlükəli bir ideologiya kimi formalaşıb. Bəzi insanlar isə onu vətənpərvərliyin müsbət keyfiyyəti və bir insanın öz vətəninə duyduğu zərərsiz sevgi kimi başa düşür. Eyni zamanda, milliyyətçilik dardüşüncəli, əxlaq qaydalarına zidd hesab olunur və bu yanaşma onun ədalət və bəşəriyyətlə bağlı daha dərin öhdəliklər üzərindən ölkəyə qarşı kor sədaqətə təşviq etməsi ilə əsaslandırılır. Bu səbəbdən, milliyyətçiliyin zərərli təsirləri ilə mübarizə aparmaq, bu ideologiyanın yeni separatizm və münaqişə hallarına səbəb olmasının qarşısını almaq dövlətlər və cəmiyyətlər üçün başlıca məqsədə çevrilməlidir.

**Ədəbiyyat:**

1. Anne Sraders, “What is Nationalism? Its History And What It Means in 2018”. – jul 5. – 2018.
2. Brian Beary, “Separatist Movements: Should nations have a right to self-determination?”, CQ Press. – Volume 2,. – Issue 4. – April 2008. – p.30.
3. Deák István, "Uncovering Eastern Europe's Dark History", Orbis: a journal of world affairs. – Volume 34. – Issue 1. –winter. – 1990. – p.51-65.
4. Falk Richard,"Problems and Prospects for the Kurdish Struggle for Self-determination after the End of the Gulf War", Michigan Journal of International Law, 15(2):600, 1994.
5. Hobsbawm Eric,"The Perils of the New Nationalism",The Nation 253, no. 151, 4 November, 1991, p.556.
6. Kimberly Amadeo,“Nationalism, What It Means and Its History”, November 13, 2019.
7. Mayall James, “Nationalism and International Society”, Cambridge University Press. – 1990. – p.139.
8. Orkunoğlu Yener, “Marksizm, Milliyetçilik ve Demokratik Ulus”. – İstanbul, 2018. – s.376.
9. Peri Pamir, “Nationalism, Ethnicity And Democracy: Contemporary Manifestations”, The Internation Journal for Peace Studies. – Volume 2. – Number 2. – July 1997.
10. Peter Alter, “Nationalism And Ethnic Conflict: Nationalism: An Overview”. – Greenhaven Press. – 1994. – p.288.
11. Richmond Anthony H, “Immigration and Ethnic Conflict”, Macmillan Press. – 1988. – p.218.
12. The Economist. – 27 April. – 1996. – p.33.
13. The Economist. – 4 May. – 1996. – p.16.
14. Vajic, Nina, "Right to Self Determination within the Framework of the United Nations Referring to the Current Situation in Croatia", Zbornick Pravnog Fakulteta u Zagrebu. – 41 (6). – 1991. – p.572.

***Açar sözlər:*** *milliyyətçilik, ideologiya, separatizm, sülh, təhlükəsizlik*

**Fidan Khalilova**
*The Academy of Public Administration under the President of the Republic of Azerbaijan*
*Department of International Relations and Foreign Affairs*
*Ph.D. student*

# REVIVAL OF NATIONALISM AND THE CHARACTERISTICS OF MODERN NATIONALISM

## ABSTRACT

The article explores the concept of nationalism and its historical development. The author describes the process of reviving nationalism and the reasons that cause it. In addition, this article analyzes the features of modern nationalism. The author emphasizes the expansion of nationalism as a threat to international peace and security. Moreover, the article underlines the importance of combating the harmful effects of the ideology.

***Keywords:*** *nationalism, ideology, separatism, peace, security*

**Фидан Халилова**
*Докторант кафедры Международных отношений и*
*внешней политики Академии Государственного Управления*
*при Президенте Азербайджанской Республики*

# СОВРЕМЕННЫЙ НАЦИОНАЛИЗМ И ЕГО ХАРАКТЕРИСТИКИ

## РЕЗЮМЕ

В статье рассматривается концепция национализма и его историческое развитие, описывается процесс возрождения национализма и причины его вызывающие, а также анализируются особенности современного национализма. Автор оценивает расширение национализма как угрозу для международного мира и безопасности, в конце статьи подчеркивается важность борьбы с вредным воздействием идеологии национализма.

***Ключевые слова:*** *национализм, идеология, сепаратизм, мир, безопасность*

# G Ə N C T Ə D Q İ Q A T Ç I L A R
# Y O U N G R E S E A R C H E R S

## D A V A M L I İ N K İ Ş A F I N İ D A R Ə E D İ L M Ə S İ
## S U S T A I N A B L E D E V E L O P M E N T M A N A G E M E N T

UOT 328; 342.5; 351/354; 351

**ŞÖVKƏT MUSTAFAZADƏ**
**Azərbaycan Respublikasının Prezidenti yanında**
**Dövlət İdarəçilik Akademiyasının "Davamlı inkişafın planlaşdırılması və idarə edilməsi" kafedrasının doktorantı**
*e-mail: shovkatmustafazada@gmail.com*

# DAVAMLI İNKİŞAF STRATEGİYASININ HƏYATA KEÇİRİLMƏSİNDƏ DEMOQRAFİK TƏHLÜKƏSİZLİYİN YERİ VƏ ROLU

Müasir şəraitdə iqtisadiyyat, cəmiyyət və ətraf mühit arasında zəruri balansın saxlanması yalnız inkişafın yeni ekoloji təhlükəsiz və iqtisadi baxımdan optimal modelinin-davamlı inkişaf strategiyası hesabına ola bilər. Bu kontekstdə hal-hazırda əsas prioritet davamlı inkişaf məqsədlərinin reallaşdırılması üzrə qlobal, regional və milli alətlərin əlaqələndirilməsidir [5,s.6].

Ölkənin davamlı inkişaf səviyyəsinin yüksəldilməsi, sosial-iqtisadi tərəqqi, sosial siyasətin davamlı xarakter alması şübhəsiz ki, demoqrafik inkişafa da təkan verir. Demoqrafik proseslərdə baş verən dəyişikliklər isə özünü əhalinin təbii təkrar istehsalında və əmək ehtiyatlarının hərəkət dinamikasında büruzə verir. Əmək ehtiyatları ayrı-ayrı ərazilərdə mövcud olan əhalinin bir hissəsini təşkil etdiyindən, onların sayı burada yaşayan əhalinin ümumi sayından, yaş-cins tərkibindən, təhsil səviyyəsi və peşə hazırlığından, təbii təkrar istehsal göstəricilərindən, nigah və boşanma səviyyəsindən, həmçinin yerdəyişməsindən asılıdır.

Son vaxtlar demoqrafık təhlükəsizlik problemlərinə böyük əhəmiyyət verilir və bu milli təhlükəsizliyin tərkib hissəsi kimi qiymətləndirilir. Demoqrafik təhlükəsizlik əhalinin təkrar istehsalı prosesində meydana çıxan neqativ meyillərin aradan qaldırılması üzrə preventiv tədbirlərin görülməsi və yaxud son dərəcə kəskin olan meyillərin yumşaldılmasını nəzərdə tutur. Ona görə də demoqrafık təhdidlər ən ciddi təhdid növlərindən biri kimi qiymətləndirilməlidir. Demoqrafık təhlükəsizlik yalnız sosial-iqtisadi tədbirlərlə deyil, həm də hüquqi normativlərlə, o cümlədən ailə məcəlləsi, əmək qanunvericiliyi, səhiyyə haqqında qanun, məşğulluq qanunu, insan hüquqları haqqında konvensiya və digər sənədlərlə təmin edilir [10, s. 15].

İstənilən dövlətin milli təhlükəsizliyinin ən mühüm komponentlərindən biri məhz demoqrafik məqamlarla bağlıdır. Çünki cəmiyyətdə baş verən demoqrafik proseslər sosial-iqtisadi xarakter daşıyır, ona görə də demoqrafik təhlükəsizlik insan həyatının demək olar ki, bütün seqmentləri və sektorlarını yaxından əhatə edir. Təhlükəsizlik anlayışını izah edəndə, məlum olur ki, təhlükəsizlik şəxsiyyətin, cəmiyyətin və dövlətin vacib həyati maraqlarının daxili və xarici təhdidlərdən mühafizə olunması halı kimi başa düşülür. Əsas məqsəd konkret dövlətin vətəndaşlarının konstitusiya və beynəlxalq normalara uyğun olaraq hüquqlarının, azadlıqlarının və sosial müdafiəsinin təmin olunmasıdır. Təhlükəsizlik dövlətin, cəmiyyətin və şəxsiyyətin təhlükəsizliyini təmin edən sosial fəaliyyətin nəticəsidir. Bu fəaliyyətdə milli dəyərlər, ölkənin maddi,

intellektual mülkiyyəti, eyni zamanda milli həyat tərzinin mahiyyət və formasının qorunması prinsipi əsas götürülməlidir [4].

Real təhlükəsizliyə təhdid – təhlükəsizlik obyektlərinin fəaliyyətinə qorxu yaradan hədə kimi nəzərdə tutulur. Təhlükəsizliyin təmin edilməsi təhdidlərin azaldılmasına və ya aradan qaldırılmasına yönəlmiş təhlükəsizlik sisteminin səmərəli fəaliyyəti nəticəsində mümkündür. Təhlükəsizlik problemi çox mürəkkəb sosial-siyasi mahiyyətə malikdir və təhlükəsizliyi təmin etmək üçün səmərəli fəaliyyət göstərən təhlükəsizlik sisteminin olması vacibdir.

Hər bir dövlət kimi, Azərbaycan da xaricdən müdaxilə olmadan öz dövlət idarəçiliyini yaratmaq, onun strateji inkişaf yolunu seçmək, ölkənin konstitusiya quruluşunun, daxili həyatının, cəmiyyətin və hər bir vətəndaşın təhlükəsizliyini, əhalinin firavan həyatını təmin etmək, milli-vətəndaş birliyini və icti-mai-siyasi sabitliyi qorumaq və s. kimi strateji vəzifələr həyata keçirir.

XX əsrin sonunda müstəqillik əldə etməsi Azərbaycanın həm dövlət quruluşunda əsaslı dəyişikliklərin həyata keçirilməsini, yeni sosial-iqtisadi və ictimai-siyasi münasibətlərin formalaşmasını şərtləndirdi, həm də ona davamlı olaraq öz təhlükəsizliyinin qayğısına qalmaq kimi daimi bir məsuliyyət bəxş etdi. Dövlətimiz müstəqil dövlətçilik maraqlarının təmin edilməsi tələbləri, yeni geosiyasi aktorlarla birbaşa ünsiyyətin yaranması, tamamilə fərqli bir təhlükəsizlik mühitinə daxil olması, iqtisadi, ictimai, siyasi münasibətlərin demokratiya, vətəndaş cəmiyyəti, bazar iqtisadiyyatı yoluna çıxması və s. kimi yeni çağırışlarla üzləşdi [3, s.7].

Milli Təhlükəsizlik Konsepsiyası ölkənin milli təhlükəsizlik siyasətinin həyata keçirilməsində uzunmüddətli strateji vəzifə və prioritetləri özündə əks etdirən konseptual sənəd hesab olunur. Konsepsiyada Azərbaycanın gələcəkdə hərbi və sərhəd doktrinasının, xarici siyasət və təhlükəsizlik strategiyasının, iqtisadi, ekoloji, informasiya və digər həyati əhəmiyyət kəsb edən sahələrin təhlükəsizliyi siyasətinin formalaşdırılmasının vahid prinsipləri müəyyən olunmuş, hər bir sahə üzrə ayrıca təhlükəsizlik konsepsiyasının hazırlanması tövsiyə edilmişdir. Giriş, dörd bölmə və yekun müddəalardan ibarət olan MTK-da XXI əsrdə ölkənin milli maraqlarının təmin olunması ilə bağlı hakimiyyət strukturlarının bəzi fəaliyyət istiqamətləri müəyyən edilmiş və milli təhlükəsizlik sahəsində dövlət siyasətinin normativ-hüquqi bazası öz əksini tapmışdır. Ümumilikdə, milli təhlükəsizlik siyasəti beynəlxalq hüquq normalarına, ölkə konstitusiyasına, daxili qanunlara və prinsiplərə, insanların, cəmiyyətin və dövlətin maraqları arasında tarazlığın gözlənməsinə, həmin tərəflərin qarşılıqlı məsuliyyətinə əsaslanmalıdır [8, s.34].

Təhlükəsizlik məsələlərinin nəzəri cəhətdən nisbətən az işlənməsi özünü həm də onda büruzə verir ki, hələ də «milli təhlükəsizlik» söz birləşməsinin işlədilməsinin mümkünlüyü barədə mübahisələr davam etməkdədir. Problem ondan ibarətdir ki, «milli» sözü «millət» sözündən yaranmışdır. Bu anlayışın artıq oturuşduğu məqamlarda heç bir problem doğurmur. Məsələn, milli gəlir, milli iqtisadiyyat, milli maraqlar dedikdə, hamıya aydındır ki, söhbət ayrılıqda götürülmüş millətin deyil, ümumxalq gəlirindən, maraqlarından gedir. «Milli siyasət» anlayışından istifadə edildikdə isə hamıya aydındır ki, burada müxtəlif millətlərdən olan insanlara münasibətdə siyasət nəzərdə tutulur.

Milli təhlükəsizlik – son dərəcə mürəkkəb çoxsəviyyəli funksional sistemdir ki, burada aramsız olaraq şəxsiyyət, cəmiyyət və dövlətin həyati baxımdan önəmli maraqlarının qarşılıqlı əlaqəsi və onların həm daxili, həm də xarici təhdidlərlə qarşıdurması prosesləri cərəyan edir. Bu əlaqələnmə və qarşıdurma zamanı maraqlar və təhdidlər daim milli təhlükəsizlik sisteminin digər elementlərinin – daxili və xarici ətraf mühit amillərinin və idarəetmə sisteminin hərəkətlərinin təsirinə məruz qalır. Bu sistemin məqsəd funksiyası qismində həmin maraq və təhdidlərin müdafiə olunma dərəcəsi çıxış edir [5, s.7].

Bu zaman milli təhlükəsizlik sistemi ilə milli təhlükəsizliyin təmin edilməsi sistemini fərqləndirmək lazımdır. Birincisi, maraqlar və təhdidlərin qarşılıqlı əlaqəsi proseslərini əks

etdirən funksional sistem, ikincisi isə orqanlar, qüvvələr, vasitələr, müxtəlif təşkilatların milli təhlükəsizliyin təmin edilməsi məsələlərini həll etməli olan təşkilati sistemidir. Həm milli təhlükəsizlik sisteminin, həm də onun ayrı-ayrı növlərinin mərkəzində şəxsiyyət, cəmiyyət və dövlətin önəmli maraqları dayanır. Bir çox hallarda belə bir tənqidi qeydlə rastlaşmaq olur ki, təhlükəsizliyə bu cür yanaşma zamanı biz anlaşılmaz, konkret olmayan, mücərrəd, maraq kateqoriyası ilə pərdələnmiş nəyi isə müdafiə etməli oluruq. Müdafiə obyekti qismində maraqların deyil, bilavasitə insanın, ərazinin, dövlətin və s. seçilməsi təklif edilir. Hətta belə baxışlar təhlükəsizliyin bəzi növlərinə dair qanunlarda da əksini tapmışdır. Lakin bu, yanlışdır. Maraqlardan daha konkret və önəmli heç nə yoxdur. Maraqların mərkəzi rolu və xüsusi önəmi onunla müəyyənləşir ki, cəmiyyətin inkişafının hərəkətverici qüvvəsi və insanların sosial fəallığının səbəbi məhz onlardır və bu baxımdan, cəmiyyətdə, dövlətdə, bütövlükdə dünyada baş verən istənilən dəyişikliyin ən önəmli amilləri qismində çıxış edirlər [11].

Problem başqa məsələdə – bu kateqoriyanın ictimai həyatımızda zəifliyində, kövrəkliyində, kifayət qədər inkişaf etməməsindədir. Məsələ ondadır ki, sovet hakimiyyəti dönəmində ölkəmizdə və digər ittifaq respublikalarında dövlət maraqlarından savayı heç bir maraq tanınmamışdır. Hətta deklarativ olaraq önə şəxsiyyətin milli təhlükəsizlik konsepsiyasında sadalanan maraqlarını çəksələr də, xalqın yüksək həyat səviyyəsinin təmin edilməsindən danışılan sosial sahə istisna olmaqla, milli maraqlar məzmun baxımından, faktiki, yalnız dövlətin maraqlarını əks etdirirdi [6, s.23].

Tarixən multikultural dəyərlərin və sülhün bərqərar olduğu bir diyar olan Azərbaycan təəssüf ki, müstəqilliyinin ilk illərində Ermənistanın işğalı ilə üzləşməli oldu. 30 ilə yaxın davam edən qarşıdurma Azərbaycanı tarixi ədaləti və ərazi bütövlüyünü təmin etmək adına həm hərbi, həm də hibrid, o cümlədən hibrid müharibə aparılması növlərindən biri olan informasiya müharibəsi aparmağa məcbur etdi.

Demoqrafik təhlükəsizliyin təmin edilməsi sahəsində demoqrafik məlumat mənbələri və onlar hesabına əldə olunan statistik göstəricilər hər bir dövlət üçün strateji əhəmiyyətli məsələdir. Həmin informasiya e-demoqrafiya adlı baza sisteminə yerləşdirilir. Onların xarici kiberhücumlardan və digər informasiya xarakterli təhlükələrdən qoruması bütün dövlətlər üçün prioritet xarakter daşıyır. Ona görə də, yeni nəsil informasiya müharibələri müasir dövrdə hətta bəzi hərbi sahədə istifadə olunan silahlardan belə böyük gücə malik ola bilir.

«İnformasiya müharibəsi» termin kimi hələ 1976-cı ildə ABŞ-da meydana çıxsa da, müxtəlif elmi-praktik məktəblərdə bu anlayışa vahid yanaşma yoxdur. Terminin yaradıcısı olan T.Rona bu anlayışın tərifini konkret definisiya kimi təqdim etməyin mümkünsüzlüyünü görərək ona "Sülh, böhran, böhranın eskalasiyası, münaqişə, müharibə, müharibənin dayandırılması, sülhün bərpası durumlarının bütün spektrində rəqiblər və ya düşmənlər arasında strateji, operativ və taktiki səviyyələrdə məqsədə nail olmaq üçün informasiya vasitələrinin tətbiqi" kimi tərif vermişdir [6, s.27].

Buna görə də, müasir dövrdə dövlətin milli təhlükəsizliyi informasiya təhlükəsizliyinin təmin edilməsindən də əhəmiyyətli dərəcədə asılıdır. Hal-hazırda informasiya milli strateji resurs olub, dövlətin ən əsas sərvətlərindən biri sayılır. İnformasiyalaşdırmanın təsiri altında cəmiyyətin bütün sahələri çeviklik və dinamiklik kimi yeni keyfiyyətlər almaqdadır. Lakin eyni zamanda informasiya təsirindən ictimai proseslərin potensial zəifliyi də artır.

İnformasiya təhlükəsizliyinin təmin edilməsi Azərbaycan Respublikasının ən prioritet vəzifələrindən biridir. Dövlət hakimiyyət orqanları və təşkilatları Azərbaycan Respublikasının qanunvericiliyini rəhbər tutaraq informasiya resurslarının təşkil olunması və istifadə edilməsinə görə öz fəaliyyətlərində məsuliyyət daşıyırlar. İnformasiyaya yiyələnmə və yeni postsənaye dalğasına keçidlə eyni vaxtda informasiya müharibəsi fenomeni meydana çıxır. O, digər tiplərdə də müharibə aparılması üsullarının xarakterini dəyişir və bu da informasiya müharibələrinin təsnifatında əksini tapır.

İnformasiya təhlükəsizliyinin təmin edilməsi sahəsində Azərbaycan Respublikası Prezidentinin 2 aprel 2014-cü il tarixli Sərəncamı ilə təsdiq edilmiş “Azərbaycan Respublikasında informasiya cəmiyyətinin inkişafına dair 2016-2020-ci illər üçün Milli Strategiya” [2] ölkənin informasiya məkanının təhlükəsizliyinin təmin olunması, bu sahəni tənzimləyən normativ hüquqi bazanın inkişaf etdirilməsi, bu istiqamətin əsas məqsədləri kimi müəyyən edilmiş və aşağıdakıların həyata keçirilməsi nəzərdə tutulmuşdur:

– informasiya təhlükəsizliyi sahəsində vahid dövlət siyasətinin, hüquqi bazanın təkmilləşdirilməsi;
– ölkənin milli informasiya məkanının və infrastrukturunun, o cümlədən informasiya təhlükəsizliyini təmin edən sistemin inkişaf etdirilməsi;
– ölkənin informasiya əlaqələrində xarici ölkələrdən texniki və texnoloji asılılığın azaldılması üzrə tədbirlərin həyata keçirilməsi;
– elektron hökumət infrastrukturunun informasiya təhlükəsizliyinin təmin edilməsi;
– elektron təhlükələr barədə ölkə səviyyəsində məlumatlandırmanın həyata keçirilməsi;
– kibertəhlükəsizliyin gücləndirilməsi istiqamətində müvafiq texniki və metodiki vasitələrin yaradılması, tövsiyələrin hazırlanması və metodiki dəstəyin göstərilməsi;
– uşaqların qanuna zidd məzmunlu saytlardan qorunması üçün “təhlükəsiz internet” mexanizminin işlənilməsi və tətbiqi;
– dövlət və qeyri-dövlət informasiya infrastrukturu subyektlərinin kibertəhlükəsizlik üzrə fəaliyyətlərinin əlaqələndirilməsi;
– ölkənin informasiya təhlükəsizliyi sahəsində beynəlxalq əməkdaşlığın təmin olunması [2].

Nəzərə almaq lazımdır ki, əsası ümummilli lider Heydər Əliyev tərəfindən 17 fevral 2003-cü il tarixində qoyulmuş “Azərbaycan Respublikasının inkişafı naminə informasiya və kommunikasiya texnologiyaları üzrə Milli Strategiya”nın davamı olaraq Azərbaycan Respublikasının Prezidenti cənab İlham Əliyev tərəfindən də bu strateji kurs dövlətin prioritet istiqaməti kimi müəyyən olunmuşdur. Qeyd olunan faktorlar bir daha milli informasiya infrastrukturuna daxil olan mühüm strateji obyektlərin təhlükəsizliyinin təmin edilməsi sisteminin yaradılması üzrə tədbirlər kompleksinin işlənib hazırlanmasının vacibliyini əsaslandırır [8,s.27]. Bununla bərabər qabaqcıl ölkələrin dünya təcrübəsini nəzərə almaqla “Azərbaycanın kibertəhlükəsizlik strategiyasının” qəbul edilməsi dövlətin milli təhlükəsizlik siyasətinin möhkəmlənməsinə xidmət edəcəkdir.

İnformasiya müharibəsinin aparılması kifayət qədər təsirli üsul olsa da, metodlarının çoxşahəliliyi baxımından assimmetrik müharibələrin ən effektivi hibrid müharibələrdir desək yanılmarıq. «Hibrid müharibə» termini isə nisbətən yaxın zamanlarda meydana çıxmışdır. Lakin bu müharibənin ayrı-ayrı elementləri Amerika xüsusi xidmət orqanlarının analitik sənədlərində yer almasından çox qabaq mövcud idi. Örnək kimi 28 iyun 1914-cü ildə Bosniyanın paytaxtı Sarayevoda Avstriya taxtacının varisi Frans Ferdinandın öldürülməsini göstərmək olar. Hibrid müharibələri dördüncü nəsil müharibələrə (4GW) aid etmək olar [7].

İlk dəfə 4GW termini Birləşmiş Ştatların analitikləri tərəfindən müharibənin desentralizasiya edilmiş formaya qayıdışını göstərmək üçün istifadə edilmişdir. Amerika ordusu, dəniz piyadaları korpusunu təmsil edən bir qrup müəllif bu termini 1989-cu ildə çap olunmuş «Müharibənin dəyişən siması: dördüncü nəsil» adlı məqalədə işlənmişdir. Müasir dünyada, demək olar ki, bütün silahlı müna-qişələr «hibrid müharibə» əlamətlərinə malikdir. Əsas rolu xüsusi hazırlığa malik hissələr oynayır. Lakin bir daha qeyd etmək yerinə düşər ki, «hibrid müharibə» yalnız fəal hərbi əməliyyatlar deyil, həm də buna qədər cərəyan edən bütün proseslər məcmusudur. Ölkələr bir-birinin «zəif nöqtələrinə» daxildən, onun öz əhalisindən istifadə etməklə təsir göstərməyə çalışır, bir çox hallarda burada müxalif əhval-

ruhiyyəli insanlar, beşinci kolon da iştirak edir. Bu münaqişəyə cəlb olunma səbəbilə, təcavüzkar dövlətin birbaşa hərbi müdaxiləsi məqbul deyil [9, s. 6]. Bu, beynəlxalq birlik tərəfindən qınağa səbəb ola bilər, üstəlik, əleyhinə hərbi kampaniya aparılan dövlət nüvə silahına malik olarsa, bu, ümumiyyətlə, yolverilməzdir. Belə şəraitdə optimal seçim düşmən ərazisinə xüsusi təyinatlıların və ya muzdluların göndərilməsi olacaqdır. Onlar hətta ələ keçsələr belə, təcavüzkar dövlətin iştirakını sübut etmək çətin olacaqdır, bütün bunlara təcavüzkar tərəfindən KİV-lərdə geniş təbliğat da əlavə edilərsə, bu, ümumiyyətlə, mümkünsüz görünür.

Münaqişə mütləq nüvə silahına malik dövlətlər arasında deyil, fərqli hərbi imkanlara və hərbi gücə malik ölkələr arasında da ola bilər. Hibrid müharibələrdə düşmən dövlətdə daxili sabitliyin pozulmasına və onun vətəndaşlarının münaqişəyə cəlb olunmalarına əsaslanılır. Təcavüzkarın vəzifəsi silahlar tədarük etmək və onlardan istifadəni öyrədən mütəxəssislər göndərməkdir [10]. Hibrid müharibənin heç də daha az önəmli olmayan digər əlamətləri və özəlliklərinə aşağıdakılar aiddir:

a) hər vəchlə pərdələnən, lakin kompromissiz hər növ qarşıdurma (siyasi, iqtisadi, informasiya, ideoloji, silahlı və i.a.);

b) siyasi vəzifələrin həlli (bu zaman təcavüzkarın hərəkətlərinin əsas məqsədi siyasi kursun qanuni hökumətin buna zor gücün məcbur edilməsilə dəyişdirilməsi və ya onun devrilməsi və hakimiyyətə loyal qüvvələrin gətirilməsidir);

c) muzdlular, özəl hərbi şirkətlər, qanunsuz silahlı birləşmələr, nizami və nizami olmayan silahlı birləşmələrdən kompleks istifadə;

d) sosial-siyasi və iqtisadi durumun sabitliyinin pozulması, əsas məqsədə nail olmaq üçün əsas rol oynamalı olan daxili müxalifət və müqavimət qüvvələrinin formalaşdırılması üçün həm klassik döyüş əməliyyatlarının aparılması, həm də partizan mübarizəsi və terrorçu mübarizə metodlarının tətbiqi;

e) «birbaşa olmayan hərəkətlər strategiyası» üsulları və metodlarından geniş istifadə [9, s.7].

Yaranmış təhlükə və təhdidləri nəzərə alaraq, qeyd etməliyik ki, milli təhlükəsizliyin bir hissəsi olan demoqrafik siyasət hazırda Azərbaycan Respublikasında xüsusi aktuallıq daşıyır. Bununla əlaqədar olaraq, demoqrafik proseslərin ölkənin sosial-iqtisadi strategiyasına uyğun inkişafına nail olmaq və demoqrafik vəziyyəti yaxşılaşdırmaq məqsədi ilə 1999-cu ildə "Azərbaycan Respublikasının Demoqrafik İnkişaf Konsepsiyası" qəbul edilmiş və onun əsasında Azərbaycan Respublikası Prezidentinin 11 noyabr 2004-cü il tarixli Sərəncamı ilə "Demoqrafiya və əhali sakinliyinin inkişafı sahəsində Dövlət Proqramı" 29 yanvar 2021-ci il tarixli 2465 nömrəli Azərbaycan Respublikası Prezidentinin Sərəncamı "Azərbaycan Respublikasında demoqrafiya və əhali sakinliyinin inkişafı sahəsində Dövlət Proqramı çərçivəsində həyata keçiriləcək Tədbirlər" təsdiq edilmişdir [11].

Bütün bunlar onu göstərir ki, ölkəmizin iqtisadi inkişafı artıq yeni keyfiyyət mərhələsinə daxil olub. Yeni mərhələnin əsas hədəfi, milli iqtisadiyyatın rəqabət qabiliyyətliliyinin yüksəldilməsinə və dünya təsərrüfat sisteminə səmərəli inteqrasiyasına nail olmaqla, uzunmüddətli perspektivə ölkədə dinamik sosial-iqtisadi inkişafın davamlılığını təmin etməkdən ibarətdir. Azərbaycan Respublikasının Prezidenti cənab İlham Əliyevin imzaladığı fərmanlarda, təsdiq etdiyi iqtisadi siyasət sənədlərində bu hədəfin reallaşması üçün yerinə yetirilməsi zəruri olan əsas vəzifələr müəyyənləşdirilib. Bu sıraya ölkənin malik olduğu iqtisadi potensialın gücləndirilməsi və bu potensialın kompleks şəkildə səmərəli reallaşdırılması, qeyri-neft sektorunun inkişaf etdirilməsi, hər bir regionun malik olduğu potensialdan tam və səmərəli istifadə olunması, regionların inkişafının tarazlaşdırılması, çoxlu sayda yeni iş yerlərinin açılmasına şərait yaradılması, sahibkarlığın inkişaf etdirilməsi, sosial xidmətlərin həcminin, keyfiyyətinin və ünvanlılığının əhəmiyyətli dərəcədə artırılması, yoxsulluğun azaldılmasını və s. bu kimi vəzifələri aid etmək mümkündür.

**Ədəbiyyat:**


1. Azərbaycan Respublikası Prezidentinin Sərəncamı 29 yanvar 2021-ci il tarixli 2465 nömrəli ilə "Azərbaycan Respublikasında demoqrafiya və əhali sakinliyinin inkişafı sahəsində Dövlət Proqramı çərçivəsində həyata keçiriləcək Tədbirlər // "Xalq" qəzeti, 30 yanvar 2021-ci il, № 21, Azərbaycan Respublikasının Qanunvericilik Toplusu, 2021-ci il, № 1, maddə 81
2. "Azərbaycan Respublikasında informasiya cəmiyyətinin inkişafına dair 2016-2020-ci illər üçün Milli Strategiya"
3. Azərbaycan Respublikası Prezidentinin İşlər İdarəsinin Prezident Kitabxanasının "Elektron kitablar" Verilənlər bazası, Milli təhlükəsizliyin təminat sistemi // http://republic.preslib.az/az_a5.html
4. Dessalegn Y Melesse , Martin K Mutua , Allysha Choudhury, Yohannes D Wado, Cheikh M Faye, Sarah Neal, Ties Boerma. Adolescent sexual and reproductive health in sub-Saharan Africa: who is left behind? BMJ Global Health, 2020, 5 (1), p. 1-8
5. https://eprints.soton.ac.uk/437801/1/Adolescent_sexual_and_reproductive_health_in_sub_Saharan_Africa.pdf
6. Ələkbərov U. K. Azərbaycan Respublikasında davamlı inkişafın planlaşdırılması və idarə edilməsi: beynəlxalq təşkilatların qiymətləndirilmələri // Dövlət idarəçiliyi nəzəriyyə və təcrübə, Bakı, 2014, 272 s.
7. Əsgərov R.Ş. Miqrasiya proseslərinin sosial-iqtisadi diferensiasiyaya təsirinin modelləşdirilməsi. Orlov Dövlət Universitetinin elmi qeydləri. 2021, № 1(45)
8. İmanverdiyev Y.N. E-demoqrafiya sistemində informasiya təhlükəsizliyinin bəzi aspektləri tədqiq olunub. AMEA-nın toplusu, İnformasiya Texnologiyaları İnstitutu, 02.03.2021
9. Денисенко М. Б.,. Дмитриев Р.В., Елизаров В.В. Демографическое развитие постсоветского пространства. Сборник статей и аналитических материалов. Демографические исследования. Выпуск 27. Москва, 2018.https://www.econ.msu.ru/sys/raw.phpo=44887&p=attachment
10. Круглов Д. В., Парик И. Ю., Круглова О. Д.. «Трудовой потенциал населения третьего возраста». «Экономика труда», том 7, номер 1, Москва 2020. Стр. 9-14. https://1economic.ru/lib/41493
11. Карманов М.В., Кучмаева О.В., Петрякова О.Л. Демографическая безопасность: теория, методология, оценка. статистика и экономика. 2021;(4):123-128
12. https://azerbaijan.un.org/az/sdgs


***Açar sözlər:*** *davamlı inkişaf, demoqrafik təhlükəsizlik, demoqrafik siyasət, informasiya, strategiya*

**Shovkat Mustafazadeh**
*The Academy of Public Administration*
*under the President of the Republic of Azerbaijan,*
*Department of Planning and Management of Sustainable Development,*
*Ph.D. Student*

# THE PLACE AND ROLE OF DEMOGRAPHIC SECURITY IN THE IMPLEMENTATION OF SUSTAINABLE DEVELOPMENT STRATEGY

## ABSTRACT

The development history of the countries proves that the future of countries with poor demographic development requires solving many problems. Regardless of the socio-economic structure on which it is based, the effectiveness of the demographic policy of each country depends on the dynamics of the demographic processes occurring in the world and the characteristics of development, along with other socio-economic parameters. The demographic policy of any state consists of a system of economic, social and legal measures to ensure population growth. One of the important quantitative and qualitative indicators of the national power of each country is its demographic situation. The growth rate of the population and the ratio of the able-bodied part to the total number, the physical and spiritual health of the population, the intellectual level, as well as the natural growth rate of the population are among the important demographic factors. Demographic growth is of particular importance from the point of view of the organization of human resources, which is one of the main pillars of the state.

As a result of the socio-economic development strategy of the President of the Republic of Azerbaijan, Mr. Ilham Aliyev, the level of social well-being is continuously improving in our country. It has achieved important historical achievements in all fields, increased its economic power, and is a place of stability, security, and peace. These factors are among the important conditions for demographic development.

Recently, as a result of the expansion of demographic studies, various information security systems have been widely applied. In this regard, the article pointed out that demographic security is a vital national security issue and the importance of managing access to demographic information resources.

***Keywords:*** *sustainable development, demographic security, policy, information, strategy.*

**Шовкет Мустафазаде**
*Докторант кафедры "Планирование и управление устойчивым развитием"*
*Академии Государственного Управления*
*при Президенте ААзербайджанской Республики*

## МЕСТО И РОЛЬ ДЕМОГРАФИЧЕСКОЙ БЕЗОПАСНОСТИ В РЕАЛИЗАЦИИ СТРАТЕГИИ УСТОЙЧИВОГО РАЗВИТИЯ

### РЕЗЮМЕ

История развития стран мира доказывает, что будущее стран со слабым демографическим развитием требует решения многих проблем. В каждой стране эффективность политики демографической безопасности зависит от динамики происходящих в мире демографических процессов и особенностей их развития. Политика демографической безопасности любого государства состоит из системы экономических, социальных и правовых мер, направленных на обеспечение сбалансированности роста населения. Одним из основных показателей национальной мощи каждой страны является ее демографическая ситуация. К числу важных демографических факторов относятся темпы роста населения и соотношение его трудоспособной части к общей численности, физическое и духовное здоровье, интеллектуальный уровень, а также естественный прирост населения.

В результате реализации стратегии социально-экономического и устойчивого развития Президентом Азербайджанской Республики господином Ильхамом Алиевым, наша страна достигнув важных исторических успехов во всех областях, увеличила экономическую силу, превратилась в край стабильности, безопасности и благополучия. А эти факторы относятся к числу важных условий демографического развития. Здесь показывает себя и устойчивый рост уровня социального развития благополучия.

В последнее время в результате расширения демографических исследований активно применяются новые системы обеспечения демографической безопасности. В этой связи в статье демографическая безопасность представляется как составная часть национальной безопасности, показывается важность управления доступом к демографическим информационным ресурсам, а также значение обеспечения дефографической безопасности общества в рамках стратегии устойчивого развития.

***Ключевые слова:*** *устойчивое развитие, демографическая безопасность, демографическая политика, информация, стратегия*

# DÖVLƏT İDARƏÇİLİK AKADEMİYASINDA

## *Azərbaycan Respublikası və Qırğız Respublikası arasında sənədlər imzalanıb*

Aprelin 20-də Bakıda geniş tərkibdə görüş başa çatdıqdan sonra Azərbaycan Respublikasının Prezidenti İlham Əliyevin və Qırğız Respublikasının Prezidenti Sadır Japarovun iştirakı ilə Azərbaycan-Qırğızıstan sənədlərinin imzalanması mərasimi olub.

"Azərbaycan Respublikası və Qırğız Respublikası arasında Strateji Tərəfdaşlıq haqqında Bəyənnamə"ni Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev və Qırğız Respublikasının Prezidenti Sadır Japarov imzaladılar.

"Azərbaycan Respublikası və Qırğız Respublikasının Dövlətlərarası Şurasının yaradılması haqqında Memorandum"u Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev və Qırğız Respublikasının Prezidenti Sadır Japarov imzaladılar.

"Azərbaycan Respublikası Prezidenti yanında Dövlət İdarəçilik Akademiyası ilə Qırğız Respublikası Prezidenti yanında İdarəçilik Akademiyası arasında əməkdaşlıq haqqında Memorandum"u Azərbaycan Respublikasının Prezidenti yanında Dövlət İdarəçilik Akademiyasının rektoru Urxan Ələkbərov və Qırğız Respublikası Prezidenti yanında Dövlət İdarəçilik Akademiyasının rektoru Almazbek Akmataliyev imzaladılar.

"Azərbaycan Televiziya və Radio Verilişləri" Qapalı Səhmdar Cəmiyyəti ilə Qırğız Respublikası İctimai Teleradio Yayımları Korporasiyası arasında əməkdaşlıq haqqında Saziş"i Azərbaycanın Qırğızıstandakı fövqəladə və səlahiyyətli səfiri Lətif Qəndilov və Qırğız Respublikasının Azərbaycandakı fövqəladə və səlahiyyətli səfiri Kayrat Osmonaliyev imzaladılar.

"Azərbaycan Respublikasının Kənd Təsərrüfatı Nazirliyi ilə Qırğız Respublikasının Kənd Təsərrüfatı Nazirliyi arasında kənd təsərrüfatı sahəsində əməkdaşlıq haqqında Saziş"i Azərbaycan Respublikasının kənd təsərrüfatı naziri İnam Kərimov və Qırğız Respublikasının kənd təsərrüfatı naziri Askarbek Canibekov imzaladılar.

"Azərbaycan Respublikası İqtisadiyyat Nazirliyi yanında Antiinhisar və İstehlak Bazarına Nəzarət Dövlət Xidməti ilə Qırğız Respublikası İqtisadiyyat və Kommersiya



Nazirliyi yanında Antiinhisar Tənzimlənməsi Xidməti arasında əməkdaşlıq haqqında Memorandum"u Azərbaycan Respublikasının iqtisadiyyat naziri Mikayıl Cabbarov və Qırğız Respublikasının iqtisadiyyat və kommersiya naziri Daniyar Amangeldiyev imzaladılar.

"Azərbaycan Respublikasının Rəqəmsal İnkişaf və Nəqliyyat Nazirliyi ilə Qırğız Respublikasının Rəqəmsal İnkişaf Nazirliyi arasında rabitə və informasiya-kommunikasiya texnologiyaları sahəsində əməkdaşlığın inkişafı haqqında Memorandum"u Azərbaycan Respublikasının rəqəmsal inkişaf və nəqliyyat naziri Rəşad Nəbiyev və Qırğız Respublikasının rəqəmsal inkişaf naziri Talantbek İmanov imzaladılar.

"Azərbaycan Respublikası Hökuməti ilə Qırğız Respublikası Nazirlər Kabineti arasında hava əlaqəsi haqqında Saziş"i Azərbaycan Respublikasının rəqəmsal inkişaf və nəqliyyat naziri Rəşad Nəbiyev və Qırğız Respublikasının nəqliyyat və kommunikasiya naziri Erkinbek Osoyev imzaladılar.

"Azərbaycan Respublikası Əqli Mülkiyyət Agentliyi ilə Qırğız Respublikasının Nazirlər Kabineti yanında Əqli Mülkiyyət və İnnovasiya Dövlət Agentliyi arasında əqli mülkiyyətin qorunması sahəsində anlaşma və əməkdaşlıq haqqında Memorandum"u Azərbaycan Respublikasının xarici işlər naziri Ceyhun Bayramov və Qırğız Respublikasının xarici işlər naziri Ruslan Kazakbayev imzaladılar.

"Azərbaycan Respublikasının Maliyyə Nazirliyi ilə Qırğız Respublikasının Maliyyə Nazirliyi arasında əməkdaşlıq haqqında Anlaşma Memorandumu"nu Azərbaycan Respublikasının xarici işlər naziri Ceyhun Bayramov və Qırğız Respublikasının xarici işlər naziri Ruslan Kazakbayev imzaladılar.

## *YAP Yasamal rayon təşkilatında "Milli maraqlar və xarici siyasət" mövzusunda keçirilən tədbirin qonağı Dövlət İdarəçilik Akademiyasının rektoru, akademik Urxan Ələkbərov olub*

YAP Yasamal rayon təşkilatının sədri Bəxtiyar Nəbiyev gəncləri salamlayıb və qeyd edib ki, Vətənpərvərlik tərbiyəsi həmçinin gənc nəslin mənsub olduğu milli dəyərlərə, tarixi ənənələrə bağlılığını da özündə ehtiva edir. Vətənin tarixi keçmişini dərindən bilmək, milli dəyərlərinə sahib olmaq, adət-ənənələrini öyrənmək, maddi və mənəvi sərvətlərini qorumaq vətənpərvər insani səciyyələndirən ən mühüm keyfiyyətlərdəndir. Bu keyfiyyətləri gənclərə aşılamaq üçün isə gənc nəslin tarixi yerlərə gəzintisini təşkil etmək, tarixi günlərə həsr olunmuş tədbirlər keçirmək böyük əhəmiyyət kəsb edir. Bu gün ölkəmizdə gənc nəslin vətənpərvərlik ruhunda tərbiyə olunması aktual məsələ kimi böyük əhəmiyyət kəsb edir. Çünki, vətənpərvərlik hissinin aşılanması dövlətin, dilin, adət-ənənələrin, ümumilikdə bütöv bir xalqın gələcəyini təmin edən amillərin ən mühümüdür.

Çıxışına davam edən Bəxtiyar Nəbiyev bildirdi ki, bu gün Azərbaycan Ordusunun işğal altında olan torpaqlarımızı qanı-canı bahasına geri qaytarması dövlət, millət olaraq nəyə qadir olduğumuzu bir daha sübüt edir. Qısa müddətdə bütün xalqın hər şeyi kənara qoyub bir yumruq halında birləşməsi vətənpərvərlik ruhunun yetərincə olduğunu göstərdi. Çünki vətənpərlik emosiya və hisslərlə bağlı olduğundan bu hisslərin tərbiyəsi hər bir dövlət və cəmiyyət üçün vacib məsələdir.

Çıxış edən Dövlət İdarəçilik Akademiyasının rektoru, akademik Urxan Ələkbərov söyləyib ki, Ulu Öndər və onun layiqli davamçısı Cənab Prezidentimiz İlham Əliyev gənclərin himayədarları kimi çıxış edərək sağlam düşüncəli yeni nəslin yetişdirilməsi sahəsində misilsiz işlər görüb. Urxan Ələkbərov çıxışına davam edərək bildirb ki, ölkəmizin inklüziv inkişaf edən cəmiyyətin qurulması istiqamə-

tində qazandığı uğurların başlıca faktoru insan potensialının formalaşdırılması və səfərbər edilməsinə elmi yanaşmadadır. Ölkədə tətbiq edilən komplimentar texnologiyalar müxtəlif yanaşmaları özündə ehtiva edir. Proqram və layihələrin gerçəkləşdirilməsində iştirak edən bütün milli və beynəlxalq tərəfdaşların maraqlarının nəzərə alınması komplimentarlıq prinsipləri əsasında inkişaf proseslərinin idarə edilməsinin önəmli elementlərindəndir. Bu yanaşma ölkənin xarici siyasətinin formalaşdırılması baxımından da vacibdir. Qeyd etmək lazımdır ki, iqtisadi və sosial inkişafın innovativ idarə edilməsi texnologiyaları sisteminin bütün elementləri maliyyə və başqa maddi resursların, o cümlədən insan resurslarının istifadəsi səmərəliliyinin yüksəldilməsi nöqteyi-nəzərindən olduqca önəmlidir. Bu arada inkişaf proseslərinin planlaşdırılması və idarə olunması sahəsində bacarıq və biliklərin, insan potensialının formalaşdırılması və səfərbər edilməsi iqtisadi və sosial baxımdan yüksək nəticələrin qazanılmasında vacib faktor kimi çıxış edir

Son 19 ildə ölkədə adambaşına düşən gəlirlərin artması, iqtisadi dirçəlişə nail olunması dövlət səviyyəsində elm, təhsil və səhiyyənin inkişafı üçün geniş şərait yaradıb. Təhlillər göstərir ki, Azərbaycan Respublikasında qazanılan uğurların əsasında ölkə Prezidenti Cənab İlham Əliyev və Birinci vitse-prezident Mehriban xanım Əliyeva tərəfindən işlənilmiş, nəzəri əsasları və tətbiq üsulları yeni olan idarəetmə texnologiyaları kompleksi dayanır. Məhz bütün bu faktorlar vətənimizin dayanıqlı inkişafına rəvac verməkdədir. Sonra Dövlət İdarəçilik Akademiyasının rektoru, akademik Urxan Ələkbərov gənclərə bu istiqamətdə öz tövsiyələrini verib və onlara gələcək həyatda uğurlar arzu edib.

Sonda gənclərlə xatirə şəkli çəkilib.

### *"Vətən mənim hər anım" adlı konsert proqramı təqdim olunub*

Aprelin 8-də Azərbaycan Respublikasının Prezidenti yanında Dövlət İdarəçilik Akademiyasında (DİA) Xocavənd rayonunun Tuğ kənd Uşaq Musiqi Məktəbinin şagirdlərinin iştirakı ilə "Vətən mənim hər anım" adlı konsert proqramı təqdim olunub.



Dövlət İdarəçilik Akademiyası, Xocavənd Rayon İcra Hakimiyyəti və Kürdəmir Regional Mədəniyyət İdarəsinin birgə təşkilatçılığı ilə reallaşan konsert "Şuşa İli"nə həsr edilib.

Tədbirdə şəhidlərin xatirəsi bir dəqiqəlik sükutla yad edilib.

Sonra Şuşa və Tuğ kənd Uşaq Musiqi Məktəbi ilə bağlı videogörüntülər nümayiş olunub.

Tədbirdə çıxış edən DİA-nın rektoru akademik Urxan Ələkbərov bildirib ki, dövlətimizin başçısı, Müzəffər Ali Baş Komandan İlham Əliyevin qətiyyəti sayəsində Azərbaycan Ordusu tarix yazaraq 30 illik işğala son qoydu, ərazi bütövlüyümüzü təmin etdi. 44 günlük Vətən müharibəsində Zəfər qazandıq. Dövlət başçısının 2022-ci ilin ölkəmizdə "Şuşa İli" elan edilməsi ilə bağlı müvafiq Sərəncamının icrası istiqamətində silsilə tədbirlər davam edir.

Tuğ kənd Uşaq Musiqi Məktəbinin fəaliyyətini yüksək qiymətləndirən rektor bildirib ki, bu məktəb özünün ənənələri və istedadlı şagirdlərilə həmişə seçilib.

Konsertdə bəstəkarlar Fikrət Əmirov, Qara Qarayev, Arif Məlikov, Cahangir Cahangirov, Həsən Rzayev, Ramiz Mirişli, Vaqif Mustafazadənin əsərləri səsləndirilib.

Musiqisi Ceyhun Qurbanova, sözləri Baba Vəziroğluna məxsus olan "Canımız Vətən" adlı klip təqdim olunub.

## *Dövlət İdarəçilik Akademiyasında "Zərərli vərdişlər və onların nəticələri" adlı tədbir keçirilib*

Azərbaycan Respublikasının Prezidenti yanında Dövlət İdarəçilik Akademiyası və Daxili İşlər Nazirliyinin Mətbuat Xidmətinin KİV və ictimaiyyətlə əlaqələr şöbəsi ilə birlikdə tədbir keçirilib.

DİN-nin Mətbuat Xidmətinin KİV və ictimaiyyətlə əlaqələr şöbəsinin rəisi Elşad Hacıyev "Zərərli vərdişlər və onların nəticələri. Vətəndaşların vəzifələri" mövzusunda tələbə gənclər qarşısında interaktiv vasitələrlə çıxış edib.



Tədbirdə Dövlət İdarəçilik Akademiyasının Ümumi işlər üzrə prorektoru dosent Cəfər Eyvazlı, DİA-nın sosial məsələlər, təşkilati və təlim-tərbiyə işləri üzrə müşaviri Zaur Məmmədov iştirak ediblər. Çıxışlarda gənclərin bu sahəyə diqqətlə yanaşması, məlumatlı olmaları, zərərli vərdişlərin gətirib çıxardığı problemlərin nəticələrini əvvəlcədən bilmələri qeyd edilib. Sonda tələbələri maraqlandıran suallar cavablandırılıb.

***Dövlət İdarəçilik Akademiyasında "Heydər Əliyev ideyaları və müasir Azərbaycan" adlı elmi-praktik konfrans keçirilib***

Azərbaycan Respublikasının Prezidenti yanında Dövlət İdarəçilik Akademiyasının nəzdində fəaliyyət göstərən Heydər Əliyev Dövlət İdarəçilik Məktəbində ulu öndər Heydər Əliyevin anadan olmasının 99-cu ildönümünə həsr olunmuş "Heydər Əliyev ideyaları və müasir Azərbaycan" adlı elmi-praktik konfrans keçirilib.

Azərbaycan Respublikasının Prezidenti yanında Dövlət İdarəçilik Akademiyası və Heydər Əliyev Mərkəzinin birgə təşkilatçılığı ilə keçirilən konfransı açan Dövlət İdarəçilik Akademiyasının rektoru, akademik Urxan Ələkbərov Ümummilli Lider tərəfindən müəyyənləşdirilmiş və Prezident İlham Əliyevin uğurla davam etdirdiyi inkişaf strategiyası sayəsində Azərbaycanın qazandığı nailiyyətlərə diqqət çəkib. Rektor Prezident İlham Əliyev tərəfindən işlənərək tətbiq edilmiş yeni dövlət idarəçiliyi texnologiyalarının Azərbaycanın davamlı inklüziv inkişaf naminə resurslardan səmərəli istifadə sahəsində regional və qlobal liderə çevrilməsinə gətirib çıxardığını xüsusi vurğulayıb. Eyni zamanda, Azərbaycanda tətbiq edilən innovativ idarəçilik texnologiyaları kompleksinin yüksək səmərəliliyinin BMT Təhlükəsizlik Şurasının 4 qətnaməsinin uğurla yerinə yetirilməsində və Ermənistan tərəfindən 30 il işğal altında saxlanılan ərazilərin azad edilməsində təsdiqini tapdığını bildirib. Bu



Zəfərin cəmi 44 günə qazanılmasını və Azərbaycanın ərazi bütövlüyünün tam bərpasını dövlətimizin başçısının innovativ inkişaf strategiyasının təntənəli yekunu kimi dəyərləndirib.

Sonra Milli Məclisin deputatı, Azərbaycan Respublikasının Prezidenti yanında Dövlət İdarəçilik Akademiyası dosenti Aydın Mirzəzadə "Heydər Əliyev irsinin siyasi aspektləri" barədə məruzə ilə çıxış edib. Bildirib ki, Ulu Öndərin Azərbaycan cəmiyyətinə təsiri çox böyük olub. Aydın Mirzəzadə hazırda ölkəmizdə baş verən inkişaf tendensiyalarından da danışıb. Vurğulayıb ki, ümummilli lider Heydər Əliyevin Azərbaycanda bütün sahələrin inkişafında əməyi vardır. Milli Məclisin deputatı qeyd edib ki, Ulu Öndər hakimiyyətə qayıdışının ilk illərində ölkədə baş vermiş vətəndaş müharibəsinin qarşısını alıb. O, ümummilli lider Heydər Əliyevin dövrünün problemlərini həll edən şəxsiyyət olduğunu vurğulayıb.

Daha sonra Heydər Əliyev Mərkəzinin Elmi araşdırmalar və təbliğat şöbəsinin baş mütəxəssisi Zafiq Xəlilov "Heydər Əliyev irsinin təbliğində Heydər Əliyev Mərkəzinin rolu" mövzusunda məruzə ilə çıxış edib. Heydər Əliyev məktəbləri haqqında da danışan Z.Xəlilov bildirib ki, bu məktəblər Heydər Əliyev irsinin öyrənilməsində böyük əhəmiyyətə malikdir.

Azərbaycan Respublikasının Prezidenti yanında Dövlət İdarəçilik Akademiyasının Tarix kafedrasının professoru Musa Quliyev "Heydər Əliyev – Ümummilli Lider, zaman və müasir dövr" mövzusunda məruzəsində beş min illik dövlətçilik tariximizdən bəhs edib. XX əsrdəki dövlətçilik ənənələrimizdə Ulu Öndərin siyasi fəaliyyətinin əhəmiyyətindən danışıb, onun Azərbaycan tarixindəki silinməz iz qoyduğunu vurğulayıb. Eyni zamanda, deyib ki, ulu öndər Heydər Əliyev XX əsrin ən tanınmış siyasi xadimlərindən biri olub.

"Ümummilli lider Heydər Əliyevin dövlət idarəçilik irsi və gənclər" mövzusunda məruzə ilə çıxış edən Milli Məclisin deputatı, iqtisad elmlər üzrə fəlsəfə doktoru Emin Hacıyev ulu öndər Heydər Əliyevin maddi-mənəvi dəyərlərinin gələcək nəsillərə çatdırılmasının prioritet məsələlərdən olduğunu diqqətə çatdırıb. Ümummilli Liderin 1993-cü ildə hakimiyyətə gəlməsindən sonra ölkəmizdə genişmiqyaslı islahatların həyata keçirildiyini, neft və qaz sahəsində mühüm əhəmiyyətli müqavilələrin bağlandığını bildirib. Azərbaycan neftinin və təbii qazının dünya bazarlarına çıxarılmasının Ulu Öndərin adı ilə birbaşa bağlı olduğunu vurğulayıb. Qeyd edib ki, Ulu Öndərin yürütdüyü məqsədyönlü siyasətin respublikanın regionlarının sosial-iqtisadi inkişafına da mühüm təsiri olub.

Eyni zamanda, diqqətə çatdırılıb ki, 2020-ci ildə 44 günlük Vətən müharibəsində Azərbaycanın qazandığı şanlı Zəfərdə ulu öndər Heydər Əliyevin siyasi kursunu layiqincə davam etdirən Prezident İlham Əliyev əsl müdriklik, qətiyyət və sərkərdəlik bacarığı nümayiş etdirib.

Qeyd edək ki, konfransda Dövlət İdarəçilik Akademiyasının professor-müəllim və tələbə heyəti, Milli Məclisin üzvləri, dövlət qurumlarının təmsilçiləri, ictimai və siyasi xadimlər iştirak ediblər.

## *Dövlət İdarəçilik Akademiyasında Müstəqillik Gününə həsr edilmiş elmi konfrans keçirilib*

Azərbaycan Respublikasının Prezidenti yanında Dövlət İdarəçilik Akademiyasında (DİA) 28 May – Müstəqillik Gününə həsr edilmiş elmi konfrans keçirilib.

Konfransın açılışında çıxış edən DİA-nın rektoru akademik Urxan Ələkbərov dövlətçilik salnaməmizin şərəfli tarixi olan Azərbaycan Xalq Cümhuriyyətinin yaranmasından, qısa



zaman ərzində süquta uğramasının səbəblərindən danışıb, müstəqilliyin bərpası və qorunub saxlanılması istiqamətində azadlıq mücadiləsi yolunda aparılan mübarizədə baş vermiş hadisələri xatırladıb. Rektor Cümhuriyyətin XX əsrin əvvəllərində olduqca mürəkkəb beynəlxalq şəraitdə yarandığını deyib və müsəlman Şərqində ilk demokratik respublikanın məhz Azərbaycanda yaradılmasının əhəmiyyətini vurğulayıb. Qeyd edib ki, tarixin ən çətin, ən mürəkkəb dövründə yaranan Azərbaycan Xalq Cümhuriyyəti demokratik ənənələrə malik idi. Cümhuriyyətin yaranması tarixi bir hadisə idi. Azərbaycan Xalq Cümhuriyyəti dünya tarixində öz demokratikliyi ilə seçilirdi.

Rektor vurğulayıb ki, ümummilli lider Heydər Əliyev Azərbaycan Xalq Cümhuriyyətinin tarixinə, ölkəmizlə bağlı həqiqətlərin üzə çıxarılmasına və dünyaya çatdırılmasına hər zaman böyük diqqət yetirib. Prezident İlham Əliyevin Sərəncamı ilə 2018-ci ilin ölkəmizdə "Azərbaycan Xalq Cümhuriyyəti İli" elan edilməsini, bu sahənin elmi araşdırılması və Cümhuriyyəti quran ziyalıların xatirələrinin əbədiləşdirilməsinə olan diqqəti, xalqımızın həyatında mühüm hadisə kimi dəyərləndirən rektor deyib ki, bu, müsəlman Şərqində ilk parlamentli respublika olan Azərbaycan Xalq Cümhuriyyətinə verilən tarixi yüksək qiymətdir.

Konfransda Tarix kafedrasının müdiri dosent Firdovsiyyə Əhmədova "Azərbaycan Xalq Cümhuriyyəti. Tarixi aspekt", Siyasi idarəetmə fakültəsinin dekanı professor Elçin Əhmədov "Müstəqil Azərbaycan: siyasi irs", Hüquq kafedrasının dosenti Rahib Əkbərov "Azərbaycan Xalq Cümhuriyyəti və müasir Azərbaycan Respublikası: hüquqi aspekt" mövzularında məruzə ilə çıxış ediblər. Çıxışlarda 1918-ci il mayın 28-də yaradılmış Azərbaycan Xalq Cümhuriyyətinin zəngin dövlət quruculuğu təcrübəsi ilə milli dövlətçilik tariximizdə silinməz iz qoyduğu bildirilib. Diqqətə çatdırılıb ki, Cümhuriyyət xalqın qəlbində azadlıq və istiqlal duyğularını gücləndirməklə ölkəmizin gələcək müstəqilliyi üçün etibarlı zəmin hazırlayıb, müsəlman xalqlarına müstəmləkə-çilikdən xilas olmağın yolunu göstərib. 28 May – Müstəqillik Gününün qeyd olunmasının vacibliyi, xalqımızın keçirdiyi bayramlar sırasında bu günün böyük önəm kəsb etdiyini, azadlıq mücadiləmizin tarixi şahidi kimi unudulmaz bir səhifə olduğunu qeyd ediblər.

## *Dövlət İdarəçilik Akademiyası ilə Ali Məhkəmə arasında əməkdaşlıq haqqında Anlaşma Memorandumu imzalanıb*

Mayın 26-da Azərbaycan Respublikasının Azərbaycan Respublikasının Prezidenti yanında Dövlət İdarəçilik Akademiyası (DİA) ilə Ali Məhkəməsi arasında hüquq sahəsində nəzəri və təcrübi biliklərin artırılmasına dair birgə əməkdaşlıq haqqında Anlaşma Memorandumu imzalanıb.

Memorandumun imzalanma mərasimi Ali Məhkəmədə keçirilib.

Mərasimdə çıxış edən Ali Məhkəmənin sədri Ramiz Rzayev Dövlət İdarəçilik Akademiyasının ölkəmizin nüfuzlu ali təhsil ocaqlarından biri olduğunu vurğulayıb, DİA-nın məzunlarının Ali Məhkəmə də daxil olmaqla müxtəlif dövlət və özəl qurumlarda aparıcı vəzifələr tutduqlarını bildirib. Sədr Ali Məhkəmə ilə DİA arasında imzalanan Anlaşma Memorandumunun əməkdaşlığın genişləndirilməsi baxımından əhəmiyyətli sənəd olduğunu qeyd edib.

Ali Məhkəmənin sədri bildirib ki, memorandumun imzalanması ilə Dövlət İdarəçilik Akademiyası və Ali Məhkəmə arasındakı mövcud əməkdaşlıq münasibətləri yeni mərhələyə qədəm qoyur. Memorandumda həm Ali Məhkəmə, həm də Dövlət İdarəçilik Akademiyası üçün faydalı olacaq bir sıra sahələrdə əməkdaşlığın və mühüm layihələrin həyata keçirilməsinin nəzərdə tutulduğunu deyən Ramiz Rzayev qarşılıqlı əməkdaşlığın böyük səmərə verəcəyinə ümid etdiyini söyləyib.

DİA-nın rektoru akademik Urxan Ələkbərov memorandumun imzalanması ilə bağlı mərasimin təşkilinə və göstərdiyi hərtərəfli dəstəyə görə Ali Məhkəmənin sədrinə təşəkkür edib.

Akademik qeyd edib ki, son 30 ildə Azərbaycan böyük inkişaf yolu keçib. Xüsusilə, Prezident İlham Əliyevin ölkəmizə rəhbərlik dövründə yaratdığı idarəetmə sistemi nəticəsində Azərbaycan inklüziv inkişafa nail olub. İndi hər kəs öz həyatında bunu hiss edir. Urxan Ələkbərov Azərbaycanın inkişaf tendensiyasını nüfuzlu beynəlxalq qurumların



yaydığı statistik göstəricilərlə əsaslandırıb. İdarəetmənin innovasiyaya təsirini və inkişafın əsas amillərini diqqətə çatdırıb.

Azərbaycanda hüquq sahəsində nəzəri və təcrübi biliklərin artırılmasına yeni töhfə verəcək əməkdaşlıq haqqında Anlaşma Memorandumunu Dövlət İdarəçilik Akademiyasının rektoru akademik Urxan Ələkbərov və Ali Məhkəmənin sədri Ramiz Rzayev imzalayıblar.

***DİA Tələbə Elmi Cəmiyyəti Ümummilli lider Heydər Əliyevin anadan olmasının 99-cu ildönümünə həsr olunmuş onlayn elmi konfrans keçirmişdir***

6 may 2022-ci il tarixində Azərbaycan Respublikasının Prezidenti yanında Dövlət İdarəçilik Akademiyası Tələbə Elmi Cəmiyyətinin Ümummilli Lider Heydər Əliyevin anadan olmasının 99-cu ildönümünə həsr olunmuş "Heydər Əliyev Müstəqil Azərbaycan dövlətinin banisi və memaridir" mövzusunda onlayn elmi konfransı keçirilmişdir.

Əvvəlcə Ulu öndər Heydər Əliyevin və Azərbaycanın ərazi bütövlüyü uğrunda canlarını qurban vermiş şəhidlərimizin xatirəsi bir dəqiqəlik sükutla yad edilib.

Konfransı Dövlət İdarəçilik Akademiyasının rektoru, akademik Urxan Ələkbərov açaraq Azərbaycanın ən yeni tarixinin bütöv bir dövrünün Ulu öndər Heydər Əliyevin şərəfli adı və yorulmaz fəaliyyəti ilə bağlı olduğunu göstərmiş, Ümummilli Liderin xilaskarlıq missiyasından və Azərbaycanı Böyük Qələbəyə aparan yolda misilsiz xidmətlərindən ətraflı söhbət açmış, onun layiqli siyasi varisi, Azərbaycan Respublikasının Prezidenti, Müzəffər Ali Baş Komandan İlham Əliyevin həyata keçirdiyi düşünülmüş və ardıcıl siyasət nəticəsində güclü Azərbaycan dövləti tərəfindən öz tarixi torpaqlarını təcavüzkar Ermənistanın 30 illik işğalından azad edilməsinin mümkün olduğunu göstərmişdir. Rektor Ulu öndərimizin həyat və fəaliyyətinin hərtərəfli araşdırılmasının əhəmiyyətini və bu sahədə Akademiyada görülən işləri diqqətə çatdırmış, DİA Tələbə Elmi Cəmiyyətinin magistr və tələbələrin geniş iştirakı ilə Heydər Əliyev irsinin və çoxillik dövlətçilik təcrübəsinin öyrənilməsinə həsr olunmuş tədbirlərin təşkil olunmasının təqdirəlayiq olduğunu qeyd etmiş, onlayn formatda təşkil olunmuş elmi konfransın işinə uğurlar arzulamışdır.

Sonra DİA Tələbə Elmi Cəmiyyətinin sədri, siyasi elmlər doktoru, dosent Sevil Məmmədova müzakirəyə çıxarılan mövzu ilə bağlı geniş məruzə etmiş, magistrant və tələbələr "Heydər Əliyev müstəqil Azərbaycanın qurucusu və xilaskarıdır", "Ulu Öndər Heydər Əliyevin dövlət idarəçilik irsi", "Heydər Əliyevin gənclər siyasəti", "Heydər Əliyevin hərbi-quruculuq siyasəti", "Heydər Əliyev və Ermənistan-Azərbaycan münaqişəsinin həlli prosesi", "Heydər Əliyevin neft strategiyasının uğurları", "Uğurlu xarici siyasətin banisi", "Vətən müharibəsində tarixi Zəfər Heydər Əliyev siyasətinin təntənəsidir", "İlham Əliyev Ulu öndər Heydər Əliyevin layiqli siyasi varisidir", "Prezident İlham Əliyevin Böyük Qələbəyə aparan siyasətinin uğurları", "Prezident İlham Əliyevin Qarabağın dirçəlişi strategiyası" və bir sıra digər mövzularda maraqlı çıxışlar etmiş, geniş fikir mübadiləsi aparılmışdır. Yüksək fəallıq şəraitində keçən elmi konfrans iştirakçıları bundan sonra qarşılarında Ulu Öndər Heydər Əliyevin zəngin dövlətçilik irsini bütün sahələr üzrə dərindən öyrənmək kimi vacib vəzifənin durduğunu vurğulamış, bu istiqamətdə fəallıq göstərəcəklərinə əminlik ifadə etmişlər.

### *Dövlət İdarəçilik Akademiyasının dərsliyi “Amazon”da yayımlanır*

Azərbaycan Respublikasının Prezidenti yanında Dövlət İdarəçilik Akademiyasının (DİA) “İnklüziv inkişafın idarə edilməsinin əsasları” adlı ali məktəblər üçün dərsliyi beynəlxalq elektron ticarət platforması olan “Amazon” saytında yayımlanır.




Müəllifi akademik Urxan Ələkbərov olan dərslik, eyni zamanda, Azərbaycan Respublikasının Prezidenti İlham Əliyevin 2021-ci il 2 fevral tarixli Sərəncamı ilə təsdiqlənmiş “Azərbaycan 2030: sosial-iqtisadi inkişafa dair Milli Prioritetlər” sırasında yer alan davamlı inklüziv cəmiyyətin qurulması və idarə edilməsi sahəsində bilik və bacarıqların formalaşdırılmasına və daim təkmilləşdirilməsinə həsr olunub.

Azərbaycan, rus və ingilis dillərində çap edilən əsər dünyada inklüziv inkişafın idarə edilməsi sahəsində ilk dərslikdir. Dərsliyin yaranmasının əsasında Azərbaycan Respublikasında inklüziv cəmiyyətin inkişafı sahəsində qazanılan nailiyyətlər və ölkənin mövcud iqtisadi potensialından ən yüksək istifadə səmərəliliyini təmin edən uğurlu örnəyi dayanır. Dövlətin inkişafı üçün Prezident İlham Əliyev tərəfindən işlənmiş və tətbiq olunan yeni idarəetmə texnologiyaları, bu texnologiyaların tətbiqində əhəmiyyətli rol oynayan Birinci vitse-prezident institutunun formalaşdırılması və şəxsən Mehriban xanım Əliyevanın səmərəli fəaliyyəti də daxil olmaqla reallaşdırılan dövlət idarəçilik sistemində islahatların təhlil edildiyi dərslikdə Azərbaycan Respublikasının iqtisadi, sosial və humanitar inkişafın müasir və prioritet sahələrində dünya liderləri sırasında yer almasına şərait yaradıldığı elmi cəhətdən əsaslandırılıb.

Elektron platformada çoxsaylı müsbət rəylərlə müşayiət olunan “İnklüziv inkişafın idarə edilməsinin əsasları” dərsliyi “Azərbaycan 2030: sosial-iqtisadi inkişafa dair Milli Prioritetlər”in hədəflərinə nail olunması üçün zəruri kadr hazırlığının və bu sahədə əhalinin məlumatlandırılması məqsədilə ərsəyə gətirilib. Dərslik dövlətin inkişaf proseslərinin idarə edilməsi sahəsində qərar qəbul edənlər, humanitar, texniki və ictimai ixtisaslar üzrə təhsil alanlar, həmçinin davamlı inklüziv inkişaf sahəsində ixtisasını artıran mütəxəssislər və tədqiqatçılar üçün nəzərdə tutulub.

### *Dövlət İdarəçilik Akademiyasında "Yeni çağırışlar kontekstində gənclər siyasəti" mövzusunda təlim keçirilib*

Azərbaycan Respublikasının Prezidenti yanında Dövlət İdarəçilik Akademiyası və Gənclər Fondunun birgə təşkilatçılığı ilə gənclər təşkilatlarının nümayəndələri üçün onlayn formatda keçirilən "Yeni çağırışlar kontekstində gənclər siyasəti " mövzusunda qısamüddətli təlim kursu keçirilib.

Layihənin ilk günündə Dövlət İdarəçilik Akademiyasının rektoru, akademik Urxan Ələkbərov və Azərbaycan Respublikası Prezidentinin Administrasiyasının Gənclərlə işin təşkili sektorunun müdiri Həmid Nəsibov ölkəmizdəki gənclər siyasətinin əsas istiqamətləri, Azərbaycanın sosial-iqtisadi inkişafında gənclərin rolu, eləcə də gənclərin hərtərəfli inkişafı üçün dövlət tərəfindən yaradılan imkanlar barədə iştirakçılara geniş məlumat veriblər.

Təlim proqramının iştirakçıları bu mahiyyətdə təşkil edilən interaktiv təlimlərin gənclər təşkilatlarının institusional və metodiki inkişafı, gənclər sektoru üzrə mütəxəssislərin və bacarıqlı insan resurslarının hazırlanması və dövlət tərəfindən yaradılan müvafiq inkişaf alətləri barədə məlumatlılığın artırılması baxımından xüsusi əhəmiyyəti olduğunu vurğuladılar.

Qeyd edək ki, proqram çərçivəsində Azərbaycan Respublikası Gənclər Fondunun icraçı direktoru Fərid Cəfərov, "İçərişəhər" Dövlət Tarix-Memarlıq Qoruğu İdarəsinin İdarə Heyətinin sədri Şahin Seyidzadə, Dövlət İdarəçilik Akademiyasının "Tarix" kafedrasının müdiri professor Firdovsiyə Əhmədova, "Dövlət qulluğu və kadr siyasəti" kafedrasının müəllimi Fərid Quluzadə və digərləri dinləyicilər qarşısında çıxış etdilər.

Azərbaycanın aparıcı gənclər təşkilatlarının 90-dan çox nümayəndəsinin iştirakı ilə icra olunan layihənin həyata keçiriləcəyi 3 gün ərzində Azərbaycanda könüllülük hərəkatı, gənclərin ideya və təşəbbüslərinin reallaşmasına dövlət dəstəyi mexanizmləri, gənclərlə iş sahəsində beynəlxalq təcrübə, eləcə də gənclərdə dövlətçilik və vətənpərvərlik şüurunun formalaşmasının əhəmiyyəti kimi mövzularda mühazirələr dinləniləcək.

"Yeni çağırışlar kontekstində gənclər siyasəti" mövzusuna həsr olunan qısamüddətli təlim kursu Dövlət İdarəçilik Akademiyası ilə Gənclər Fondu arasında imzalanan 18 mart 2022-ci il tarixli Anlaşma Memorandumuna əlavə olunan Fəaliyyət Planı çərçivəsində icra olunur. Təlim interaktiv şəkildə keçirildi və uğurla başa çatdı.

### *Dövlət İdarəçilik Akademiyasında "Mən öz gələcəyimi seçirəm" adlı təlim keçirilib*

Azərbaycan Respublikasının Prezidenti yanında Dövlət İdarəçilik Akademiyasında "Narkotik vasitələrin qanunsuz dövriyyəsi və istifadəsi ilə bağlı "Mən öz gələcəyimi seçirəm" adlı tədbir keçirilib. Tədbiri giriş sözü ilə açan Dövlət İdarəçilik Akademiyasının rektoru, akademik Urxan Ələkbərov yeniyetmə və gənclərin narkotik asılılığı və digər zərərli vərdişlərdən qorunması, gənc nəslin savadlı, vətənpərvər ruhda böyüməsi, sağlam inkişaf etməsinin önəmini qeyd edib.

Daha sonra tədbir Akademiyanın müşaviri Zaur Məmmədovun moderatorluğu ilə davam edib. Səbail rayonu Polis İdarəsinin rəisi, polis polkovniki Hikmət Qasımov çıxış edərək Daxili İşlər Nazirliyinin narkotik vasitələr ilə mübarizə tədbirləri haqqında məlumat verib, polislərin çevikliyi və peşəkarlığı sayəsində bu



il daha çox narkotikin dövriyyədən çıxarıldığını qeyd edib. Həmçinin, respublikamızda narkotik vasitələrə qarşı mübarizənin xeyli gücləndiyini, bu sahəyə cavabdeh olan dövlət orqanlarında fəallığın artırıldığını vurğulayıb.

Daxili İşlər Nazirliyinin KİV və İctimaiyyətlə Əlaqələr şöbəsinin rəisi, polis mayoru Elşad Hacıyev son illərdə respublika ərazisində narkomanlığa və narkotik vasitələrin qanunsuz dövriyyəsi ilə mübarizə sahəsində bir sıra təşkilati və əməli işlər görüldüyünü qeyd edərək,narkotik vasitələrin qanunsuz dövriyyəsi ilə mübarizənin real vəziyyətə uyğun qurulması, regional şöbələrin və ərazi polis orqanlarının aidiyyəti struktur qurumlarının işinin düzgün koordinasiyası və yerlərə idarəçilik təsirinin artırılması məqsədi ilə respublika ərazisində narkotiklə bağlı kriminogen vəziyyət mütəmadi olaraq təhlil edildiyini vurğuladı. Həmçinin, respublika ərazisində narkotiklərlə bağlı cinayətlərin aşkar edilməsi, həmin cinayətləri törədən şəxslərin və mütəşəkkil dəstələrin ifşa olunması və qanunsuz dövriyyədən külli miqdarda narkotik vasitələrin çıxarılması üçün ciddi dönüş yaradılması istiqamətində məqsədyönlü tədbirlərin davam etdirildiyini qeyd etdi.

Dövlət İdarəçilik Akademiyasının Ümumi İşlər üzrə prorektoru, dosent Cəfər Eyvazlı və Siyasi idarəetmə fakültəsinin dekanı professor Elçin Əhmədov narkomanlığın Azərbaycan gəncliyinə vurduğu ziyandan və narkotiklərə qarşı mübarizədən, narkotiklə mübarizə çərçivəsində ictimai qınağın və antinarkotik təbliğinin sosial yönümlü aparılmasının vacibliyindən, yeniyetmə və gənclərin narkotik asılılığı və digər zərərli vərdişlərdən qorunması, gənc nəslin savadlı, vətənpərvər ruhda böyüməsi, sağlam inkişaf etməsi istiqamətində bu kimi tədbirlərin əhəmiyyətini qeyd ediblər.

Çıxışlardan sonra tələbələr mövzu ilə bağlı tələbələrin sualları cavablandırılıb.

## *Dövlət İdarəçilik Akademiyasında "Dövlət idarəçiliyində liderlik" mövzusunda onlayn təlim keçirilmişdir*

Azərbaycan Respublikasının Prezidenti yanında Dövlət İdarəçilik Akademiyası Azərbaycan Respublikasının Ekologiya və Təbii Sərvətlər nazirliyinin əməkdaşları üçün 21-22 iyun 2022-ci il tarixində "Dövlət idarəçiliyində liderlik" mövzusunda onlayn təlim keçirmişdir. İki günlük təlimin ilk günündə giriş sözü ilə Azərbaycan Respublikasının Prezidenti yanında Dövlət İdarəçilik Akademiyasının rektoru akademik Urxan Ələkbərov çıxış etdi. O, dövlət qulluqçuları üçün "Azərbaycan Respublikasının innovativ inkişafı uğurlu liderlik siyasətinin nəticəsi kimi" mövzunda təlim keçdi. Rektor son illər, xüsusilə müharibə ərəfəsində və müharibədən sonra Azərbaycan siyasətinin uğurlu yöndə inkişafından, məhz bu ərəfələrdə ölkə Prezidenti cənab İlham Əliyevin bütün dünyaya örnək olan liderlik siyasətinin keyfiyyətlərindən söhbət açdı.

Daha sonra "Dövlət qulluğu və kadr siyasəti" kafedrasının müdiri, dos.Rəcəb Rəhimli dinləyicilər üçün "Liderliyin əsasları və idarəetmə" mövzusunda təlim keçdi. O, çıxışında liderlik nədir, liderlik və inzibatçı arasındakı fərqlər, uğurlu komandanın effektiv lideri, liderin funksiyaları, təşkiletmə bacarıqları, güclü tərəfləri, liderlik xüsusiyyətləri qrupları və s. kimi mövzulara toxundu. "Liderliyin əsasları və idarəetmə" mövzusunda olan bu təlim dinləyicilərin böyük marağına səbəb oldu.

Təlimin ikinci günü DİA-nın tədris şöbəsinin müdiri, "Dövlət qulluğu və kadr siyasəti" kafedrasının professoru Ziyafət Həbibova "Dövlət idarəçiliyində dəyişikliklərin idarə edilməsi" adlı mövzu ilə çıxış etdi. O, dəyişiklik nədir, dəyişikliklərin idarəedilməsi strategiyası, dəyişikliklərin idarə olunmasının strateji xətti və s. problemlərə toxunaraq dinləyiciləri məlumatlandırdı.

Kursun ikinci gününün son təlimini isə "Dövlət qulluğu və kadr siyasəti" kafedrasının müəllimi Anar Həsənov təqdim etdi. O, "Liderlik etikası" mövzusunda uğurlu interaktiv təlim keçirdi və dinləyicilərlə fikir mübadiləsi apardı.

Azərbaycan Respublikasının Prezidenti yanında Dövlət İdarəçilik Akademiyasının Rəhbər Dövlət İdarəçiliyi Kadrlarının İxtisasının Artırılması İnstitutu tərəfindən təşkil olunmuş iki günlük təlimdə dinləyicilərin sualları cavablandırıldı və təklifləri dinlənildi. Təlim uğurla başa çatdı.

## MÜNDƏRİCAT

**Azərbaycan Respublikasının Prezidenti İlham Əliyevin fəaliyyətinin qısa xronikası**...........7
.
**Azərbaycan Respublikasının Prezidenti İlham Əliyevin rəsmi qəbulları**.............................15

**Azərbaycan Respublikasının Prezidenti İlham Əliyevin səfərləri**........................................47

Belçika Krallığına səfər ........................................................................................47
Şuşaya səfər ..........................................................................................................47
Füzuli və Şuşaya səfər ...........................................................................................54
Şuşaya səfər ..........................................................................................................58
Türkiyə Respublikasına işgüzar səfər.....................................................................59
Belçika Krallığına işgüzar səfər ............................................................................61
Zəngilan rayonuna səfər ........................................................................................62
Özbəkistan Respublikasına dövlət səfəri...............................................................73
Göygöl, Kəlbəcər və Laçın rayonlarına səfər........................................................86

**Azərbaycan Respublikasının Prezidenti İlham Əliyevin nitqləri,**
**çıxışları və müsahibələri**........................................................................................95

Macarıstanda keçirilmiş Güləş üzrə Avropa çempionatında iştirak edən
Azərbaycan millisinin üzvlərinin qəbulunda İlham Əliyevin nitqi .............................................95

2022-ci ilin birinci rübünün yekunlarına həsr olunan müşavirədə
İlham Əliyevin giriş və yekun nitqləri ......................................................................96

Müdafiə Nazirliyinin Xüsusi Təyinatlı Qüvvələrinin “N” saylı hərbi hissəsində
İlham Əliyevin nitqi ..................................................................................................106

Azərbaycan-Litva biznes forumun açılışında İlham Əliyevin nitqi ....................................108

“TEKNOFEST Azərbaycan” festivalında İlham Əliyevin nitqi ..........................................110

Bakı Enerji Həftəsi çərçivəsində 27-ci Beynəlxalq Xəzər Neft və Qaz Sərgisinin
rəsmi açılış mərasimində İlham Əliyevin nitqi ...........................................................112

IX Qlobal Bakı Forumunun açılışında İlham Əliyevin nitqi ..............................................115

**DAVAMLI İNKİŞAFIN İDARƏ EDİLMƏSİ**

**Vüsal Qasımlı, Məsumə Talıbova.** Rəqəmsal transformasiya: səmərəlilik və sosial inklüzivlik....119

**Fuad Məmmədov.** Azərbaycan Respublikasında təhsil sisteminin təkmilləşdirilməsinin kulturoloji konsepsiyası ....125

**Nuridə Mustafayeva.** Azərbaycan Respublikasında milli prioritetlər naminə insan inkişafı ...133

**Elşan Əhmədov.** Su resurslarının davamlı idarə edilməsində dövlət xidmətlərinin keyfiyyətinin artırılması....143

**HÜQUQ**

**Bəxtiyar Aslanbəyli.** Beynəlxalq və dövlətdaxili hüquqda ikiqat vergitutmanın qarşısının alınması problemi....155

**ELEKTRON DÖVLƏT İDARƏÇİLİYİ VƏ İNTELLEKTUAL SİSTEMLƏR**

**Elçin Abasov, Bahar Əsgərova.** Risk şəraitində idarəetmə qərarlarının optimallaşması .........167

**SİYASİ NƏZƏRİYYƏ**

**Севда Рзаева.** Теоретический подход к анализу государства и гражданского общества..173

**SİYASİ İNSTİTUTLAR VƏ SİSTEMLƏR**

**Şahin Bağırov.** Qloballaşan dünyada elitanın sosial-siyasi proseslərdə və idarəetmə sistemində rolu....183

**TARİX**

**Arzu Xəlilzadə.** Azərbaycanın dünya “kosmik klub”unun üzvünə çevrilməsini şərtləndirən amillər ....193

**BEYNƏLXALQ MÜNASİBƏTLƏR**

**Афет Сафарова.** Углубление стратегического партнёрства между Азербайджаном и Турцией....203

## İQTİSADİYYAT

**Гюлара Сулейманова.** Особенности инвестиционного климата свободных экономических зон Азербайджана ....................................................................213

**Səidə Qurbanova.** Azərbaycanda biznesin innovasiya mühitinin yaradılması problemləri......221

**Məmməd Məmmədov.** Təhsil xidməti sferasında marketinq ...............................................229

## G Ə N C T Ə D Q İ Q A T Ç I L A R

## BEYNƏLXALQ MÜNASİBƏTLƏR

**Fidan Xəlilova.** Çağdaş milliyyətçilik və onun xüsusiyyətləri ................................................237

## DAVAMLI İNKİŞAFIN İDARƏ EDİLMƏSİ

**Şövkət Mustafazadə.** Davamlı inkişaf strategiyasının həyata keçirilməsində demoqrafik təhlükəsizliyin yeri və rolu ........................................................................................245

**Dövlət İdarəçilik Akademiyasında** .........................................................................................253

**«Dövlət idarəçiliyi: nəzəriyyə və təcrübə» jurnalına məqalələrin təqdimolunma qaydası**

1. Məqalə Azərbaycan, İngilis və Rus dillərində qəbul edilir.
2. Məqalənin adı, müəllif(lər)i, müəllif(lər)in elmi dərəcəsi, vəzifələri, ad və soyadları, çalışdıqları qurum və elektron poçt (e-posta) ünvanları yuxarıda sağ tərəfdə göstərilir.
3. Məqalənin həcmi 8 səhifədən az olmamalı (Microsoft Word formatında), 1,5 (bir tam onda beş) intervalla, Times New Roman 12 şriftilə yazılmalı, A4 formatında və elektron daşıyıcıda təqdim olunmalıdır.
4. Məqalədə xülasə (Azərbaycan, İngilis və Rus dillərində), açar söz (Azərbaycan, İngilis və Rus dillərində, ən çox 6 söz) qeyd olunmalıdır.
5. Məqalənin xülasəsi məqalənin məzmununa uyğun olmalı, 150-200 sözdən çox olmamalı, tədqiqatın məqsədini, əhəmiyyətini və elmi dövriyyədəki yerini, istifadə edilən metodları, tətbiq dairəsini göstərməlidir.
6. Elmi məqalənin sonunda elm sahəsinin və məqalənin xarakterinə uyğun olaraq işin elmi yeniliyi, tətbiqi əhəmiyyəti və s. aydın şəkildə qeyd olunmalıdır.
7. Məqalədə elmi mənbələrə istinadlar olmalıdır. Son 5-10 ilin elmi məqalələrinə, monoqrafiyalarına və s. istinadlara üstünlük verilməlidir. Məqalədə istinad olunmuş mənbələr ədəbiyyat siyahısında əlifba sırası ilə yazılmalı və nömrələnməlidir. İstinad olunmuş mənbənin ədəbiyyat siyahısındakı nömrəsi və səhifə nömrəsi mətndəki istinaddan sonra kvadrat və ya adi mötərizədə göstərilir. Məsələn (39, s.127-128), [27, s.237] və s.
8. Məqalələr orijinal olmalı və əvvəllər başqa yerli və ya beynəlxalq jurnallara, konfranslara təqdim edilməməlidir.
9. Məqalələr gizli rəyçilərin rəyindən sonra redaksiya heyətinin qərarı ilə çapa tövsiyə edilir.

**Procedure for Submitting Articles to the Journal «Public Administration: Theory and Practice»**

1. The article is accepted in Azerbaijani, English and Russian languages.
2. The title of the article, the author (s), author's (s') academic affiliation, titles, names and surnames, workplace and electronic mail address (e-mail) addresses should be displayed above on the right side.
3. The content of the article should be no less than 8 pages (in Microsoft Word format), 1,5 space, Times New Roman 12 fonts and must be submitted electronically in A4 format.
4. The article should contain summary, (English, Russian and Azerbaijani languages), keyword (English, Russian and Azerbaijani languages, no more than six words)
5. The summary of the article must be in line with the content of the article, should not exceed 150-200 words, must indicate the purpose and importance of the research, the methods that used as well as the scope of the study.
6. At the end of the scientific article, the scientific originality and the importance of the emprisicm should be clearly stated in accordance with the character of the scientific field and article.
7. The article should contain references to scientific sources. The scientific articles, monographs and etc.that have been written for the last 5-10 years should be preferred. The sources referred in the article must be listed in an alphabetical order in the reference list. The number and page number of the referred article in the reference list should be displayed in parantheses or brackets after the reference in the text. For instance, (39, p.127-128), [27, s.237] and etc.

8. The articles should be original and should not be previously submitted to other local or international journals and conferences.
9. The articles are recommended to publication by the decision of journal's editorial board after the opinion of peer reviewers.

**Правила предоставления статей для публикации в журнале «Государственное управление: теория и практика»**

1. Статья принимается на азербайджанском, английском и русском языках.
2. Название статьи, автор(ы), ученая степень автора(ов), занимаемая должность, имя и фамилия автора(ов), организация, где они работают, адрес электронной почты указываются в верхнем правом углу.
3. Объем статьи не должен быть менее 8 страниц (в формате Microsoft Word), с междустрочным интервалом - 1,5 (полуторный), размером шрифта – 12 пт в формате А4 и должен предоставляться на электронном носителе.
4. В статье должны быть указаны резюме (азербайджанском, английском и русском языках), ключевые слова (на азербайджанском, английском и русском языках, не более 6-ти слов).
5. Резюме статьи должно соответствовать содержанию статьи, и не превышать 150-200 слов, должны быть указаны цель, значимость и место в научном обороте исследования, используемые методы, сфера применения.
6. В конце научной статьи в соответствии с областью науки и характером статьи должны быть чётко сформулированы научная новизна работы, значимость её внедрения и др.
7. В статье должны быть ссылки на научные источники, преимущественно на научные статьи, монографии и др. за последние 5-10 лет. Источники, на которых были ссылки в статье, должны быть пронумерованы и включены в список литературы в алфавитном порядке. Номер источника и страницу, на которую была сделана ссылка, в тексте следует указать в квадратных или обычных скобках. Например, (39, s.127-128), [27, s.237] и т.д.
8. Статья должна быть оригинальной и ранее непредставленной в местные или международные журналы, конференции.
9. Статья рекомендуется к публикации по решению редколлегии после получения отзыва от тайных (неразглашаемых) рецензентов.

# Dövlət idarəçiliyi:
## nəzəriyyə və təcrübə

***Elmi-nəzəri jurnal***

**2022, №2(78)**

Azərbaycan Respublikasının Prezidentinin fəaliyyətini
əks etdirən bölməni *siyasi elmlər doktoru, professor E.Nəsirov,*
*siyasi elmlər doktoru, professor E.Əhmədov*,
*psixologiya üzrə fəlsəfə doktoru, dosent B.Haqverdiyev*
və baş müəllim *F.Şammədov*
AzərTAc-ın materialları əsasında hazırlamışlar.

İngilis dilində xülasələr *filologiya üzrə fəlsəfə foktoru,*
*dosent Ülkər Şəfiyeva* tərəfindən redaktə edilmişdir.

Redaktoru *Günay Maqsudova*
Kompüter dizayneri *İradə Təhməzova*
Korrektoru *İradə Təhməzova*

*Lisenziya: AB № 022732,*
*Qeydiyyat № b 532, 08.04.2003-cü il.*
*Redaksiyanın ünvanı:*
*Bakı, Az-1001, Lermontov küç., 74*
*(Dövlət İdarəçilik Akademiyası).*
E-mail: publishing@dia.edu.az
*Telefonlar: (012) 492-65-29; (012) 437-19-75; (012) 497-71-86*
*Fax: (012) 492-65-15*

**«Aspoliqraf LTD» MMC-nin**
mətbəəsində çap olunmuşdur.
Sifariş80. Tiraj 500.

# Journal of Public Administration: Theory and Practice

***Scientific and theoretical journal***

**2022, №2(78)**

The section covering activities the President of the Republic of Azerbaijan
is prepared on the basis of AzərTAC materials and is compiled by
*E.Nasirov, Dr. of political sciences, professor;*
*E.Ahmadov, Dr. of political sciences, professor;*
*Dr. B. Hagverdiyev, Ph.D. in Psychology, assistant professor*
and *F.Shammedov,* senior lecturer, all from Academy of Public Administration.

The summaries of the articles were edited by *Ulker Shafiyeva, Ph.D., assistant professor*

Editor *Gunay Maqsudova*
Computer designers *Irada Tahmazova*
Correctors *Irada Tahmazova*

*License: AB No. 022732*
*Registration No. b 532, 08.04.2003*
*Address of Publisher:*
*Baku, Az-1001, Lermontov st., 74*
*(Academy of Public Administration)*
*E-mail: publishing@dia.edu.az*
*Phone: (012) 492-65-29; (012) 437-19-75; (012) 497-71-86*
*Fax: (012) 492-65-15*

Printed at the printing-house of the
**«Aspoliqraf LTD»**
Order 80. Number of copies printed 500.